AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

AZƏRBAYCAN

# TARİXİ

*1941-2002-ci illər*

**YEDDİ CİLDDƏ**

**VII CİLD**

BAKI, ELM, 2008

*Bu kitab "Azərbaycan tarixi. Yeddi cilddə. VII cild" (Bakı, Elm,2003) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Məsul redaktor: **Tahir Qaffarov**
*tarix elmləri doktoru*

**ISBN 978-9952-448-48-1**

**947. 5402-dc22**
Tarix - Azərbaycan

Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya.

"Azərbaycan tarixi"nin VII cildi Azərbaycanın 1941-ci ilin iyun ayından 2002-ci ilədək olan mürəkkəb, ziddiyyətli tarixi dövrünü əhatə edir. Kitab üç bölmədən ibarətdir. I bölmədə Azorbaycanın İkinci dünya müharibəsi dövrü tarixi, II bölmədə 1945-1991-ci illərdə, xüsusən 1970-ci illərdə və 1980-ci illərin birinci yarısında iqtisadi və mədəni yüksəliş, 80-ci illərin sonlarında başlanan milli oyanış, demokratik hərəkat, III bölmədə isə respublikanın suverenliyinirı bərqərarlaşdırılması, müstəqil dövlətçiliyin qurulması və möhkəmləndirilməsi, ölkənin iqtisadi, siyasi, mədəni inkişafı arxiv sənədləri, dövri mətbuat materialları və mövcud elmi ədəbiyyat əsasında şərh olunur.

"Elm" nəşriyyatı, 2008

# GİRİŞ

Yeddicildlik "Azərbaycan tarixi"nin yeddinci cildi 1941-2002-ci illəri - Azərbaycanın siyasi, iqtisadi və mənəvi həyatında xarakterik xüsusiyyətləri ilə fərqlənən üç mühüm dövrü - 1941-1945-ci illərdə Böyük Vətən müharibəsi, 1946-1991-ci illərdə quruculuq, mürəkkəb, ziddiyyətli inkişaf, 1991-2002-ci illərdə respublikanın dövlət müstəqilliyinin bərpası və möhkəmlənməsi dövrlərini əhatə edir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qeyd etdiyi kimi, "1941-1945-ci illər Azərbaycan xalqının tarixində çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir... İkinci dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır... Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur... Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında... öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu".

Xalqın böyük fədakarlıq, ümid və qürurla keçdiyi bu tarixi yolun ciddi, qərəzsiz elmi tədqiqi mühüm nəzəri və əməli əhəmiyyət kəsb edir. Tarixi keçmişin həqiqətləri yalnız konkret zaman və məkan daxilində, fakt və hadisələrin, onlar arasında üzvi və sistem-funksional əlaqələrin dərin təhlili əsasında aşkar edilə bilər.

Azərbaycan tarixinin bu mühüm problemləri bir sıra elmi-tədqiqat əsərlərində, monoqrafiyalarda, ümumiləşdirici əsər və dərsliklərdə müxtəlif yönüm və mövqelərdən işıqlandırılmışdır. Bu dövrə aid ilk ümumiləşdirici kitab - böyük müəllif kollektivi tərəfindən yazılmış üççildlik "Azərbaycan tarixi" respublikanın görkəmli tarixçiləri İ.A.Hüseynov, M.A.Dadaşzadə, Ə.S.Sumbatzadə, Z.İ.İbrahimov, Ə.N.Quliyev və Y.A.Tokarjevskinin redaktəsi ilə 1963-cü ildə çap olunmuş, onun bu gün də əhəmiyyətini itirməmiş üçüncü cildinin ikinci hissəsində Azərbaycan SSR-in 40-50-ci illər tarixi geniş, lakin o zaman açıqlanması mümkün olmayan bir çox problemlərdən yan keçməklə işıqlandırılmışdır.

Son illərdə, fikir plüralizminə geniş meydan verildiyi şəraitdə, SSRİ-nin Böyük Vətən müharibəsində Azərbaycanın iştirakı, bütün mürəkkəbliyi və ziddiyyətlərinə baxmayaraq, müharibədən sonrakı quruculuq və inkişaf, habelə respublikanın dövlət müstəqilliyinin bərpası, müstəqil respublikada baş vermiş siyasi, iqtisadi və mənəvi proseslərlə bağlı populist, nihilist çıxışlar, qarayaxmalar tarixçilərdən tarixi həqiqətləri elmi əsasda üzə çıxarmağı və qiymətləndirməyi tələb edir.

VII cilddə 1941-2002-ci illər - Azərbaycan tarixinin kompleks araşdırılmasına ilk cəhd göstərilmişdir. Müəlliflər hesab edir ki, bu dövrün tam əhatəli elmi tarixinin yazılması üçün daha dərin obyektiv tədqiqat işləri aparılmalıdır və VII cild bu işin ancaq başlanğıcıdır. "Azərbaycan tarixinin VII cildi müxtəlif tarixi mənbələr, arxiv sənədləri, dövri mətbuat materialları, mövcud elmi ədəbiyyat əsasında yazılmışdır. Müəlliflər keçmiş SSRİ-nin, respublikanın mərkəzi, habelə ayrı-ayrı nazirliklərin, dövlət komitələrinin arxivlərindən, dövri mətbuatdan, statistika külliyyatlarından, çap olunmuş dövlət və partiya sənədlərindən, Azərbaycana 30 ildən artıq rəhbərlik etmiş Prezident Heydər Əliyevin nitq və çıxışlarından, xüsusən onun Azərbaycan xalqına Yeni 2001-ci il, Yeni əsr və üçüncü minillik münasibətilə "Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında" adlı müraciətindən geniş istifadə etmiş, on prinsipial məsələlərin şərhində onun müddəaları rəhbər tutulmuşdur. Heydər Əliyevin bu müraciəti Azərbaycan xalqının çoxminillik tarixinə elmi və lakonik baxış olmaqla bərabər, 1969-2001-ci illər tarixinin tədqiqi üçün çox qiymətli mənbədir.

Kitabda illüstrasiyalar Azərbaycan Respublikası Foto-Kino Arxivinin, müxtəlif muzeylərin fondlarından, dövri nəşrlərdən və kitablardan götürülmüşdür.

Müəlliflər və redaksiya heyəti VII cildin yazılması, müzakirəsi və nəşri zamanı köməklik göstərmiş mütəxəssislərə, təşkilat və müəssisələrə minnətdarlığını bildirir.

***

VII cildin mətnləri aşağıdakı müəlliflər tərəfindən yazılmışdır. Giriş, II bölmənin V fəsli, III bölmənin I, II, III və IV fəsilləri, nəticə və xülasə (rus dilində) tarix elmləri doktoru Tahir Qaffarov, I bölmənin I fəsli Azərbaycan MEA müxbir üzvü, tarix elmləri doktoru, professor Qaraş Mədətov, tarix elmlori doktoru, professor Məzahir Abasov, Tahir Qaffarov, tarix elmləri namizədləri Tapdıq Novruzov, Cəbi Bəhramov və Əzizağa Ələkbərov, II fəsli Qaraş Mədətov, Məzahir Abasov, Tahir Qaffarov, III fəsli Əzizağa Ələkbərov, II bölmənin I fəsli akademik, iqtisad elmləri doktoru, professor Asəf Nadirov, tarix elmləri doktoru, professor Bayram Qurbanov, tarix elmləri doktorları Nina Qədirova, Tahir Qaffarov və Hüseyn Əmirov, tarix elmləri namizədləri Elmira Qədirova, Tatyana Musayeva və Cəbi Bəhramov, II fəsli Tahir Qaffarov, Nina Qədirova və Cəbi Bəhramov, III fəsli Bayram Qurbanov, Tahir Qaffarov, Elmira Qədirova, IV fəsli Asəf Nadirov, Nina Qədirova, Tahir Qaffarov, Hüseyn Əmirov, Elmira Qədirova və Tatyana Musayeva, VI fəsli tarix elmləri doktoru Sayad Sayadov.

Müəlliflər tarix elmləri namizədləri Tamella Kərimova və Firuzə Məmmədquliyevanın elm və təhsilə dair təqdim etdikləri materiallardan II bölmənin IV fəslində, Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasına dair

təqdim etdiyi materiallardan isə III bölmədə istifadə olunduğunu minnətdarlıqla qeyd edirlər.

Xronoloji cədvəl və biblioqrafiya tarix elmləri namizədi Əzizağa Ələkbərov tərəfindən tərtib olunmuşdur.

Fotoşəkillərin toplanmasında tarix elmləri namizədi Hakim İsaqov və elmi işçi Alı Balayev iştirak etmişlər.

# I BÖLMƏ
# AZƏRBAYCAN II DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ

## I FƏSİL

## BÖYÜK VƏTƏN MÜHARİBƏSİNİN BAŞLANMASI. AZƏRBAYCAN SSR-DƏ HƏRBİ, İQTİSADİ VƏ MƏNƏVİ SƏFƏRBƏRLİK

### §1. RESPUBLİKADA HƏRBİ SƏFƏRBƏRLİK

1941-ci il iyunun 22-də faşist Almaniyası SSRİ-yə xaincəsinə basqın etdi. 1940-cı il dekabrın 18-də təsdiq edilmiş SSRİ-yə hücum -"Barbarossa planı" ildırımsürətli müharibə strategiyasına əsaslanırdı. Məqsəd güclü, qəfil zərbə ilə sovet ordusunu darmadağın etmək, qışa qədər Arxangelsk-Həştərxan xəttinə çıxmaq idi.[1]

Hitler Almaniyasının qəsbkarlıq planında Azərbaycan, neft Bakısı xüsusi yer tuturdu. Hətta SSRİ-də yaşayan türkdilli xalqları -"müsəlman monqoloidləri, dağıdıcı qüvvə" hesab edən Hitler "Mənim mübarizəm" kitabında yazırdı ki, "onlar ali irqin qullarına çevrilməlidirlər".[2]

Almaniya hakimiyyəti Bakı neftini ələ keçirməyi Şərqdə istilaçılıq siyasətini reallaşdırmağın mühüm amili hesab edirdi. Rozenberqin "Qafqazın idarə olunması planı"na görə Azərbaycanda idarəedici orqan - "komissarlıq" yaradılmalı və iqamətgahı Tbilisidə yerləşəcək Qafqaz reyxkomissarlığına tabe edilməli idi.[3] Faşist Almaniyası sovetlər üzərində qələbədən sonra İran körfəzinə, Hind okeanına qədər əraziləri zəbt etmək niyyətində idi. Türk xalqları yaşayan ərazilərdə Almaniyadan asılı oyuncaq "Böyük Türküstan" dövləti yaradılması planlaşdırılırdı. Bu dövlətin ərazisinə Şimali və Cənubi Azərbaycanla bərabər, Orta Asiya, Qazaxıstan, Başqırdıstan, Tatarıstan, Krım, Şimali Qafqaz, Qərbi Çin və Əfqanıstanın daxil olması nəzərdə tutulurdu.[4]

Hələ 1941-ci il martın 27-də Almaniyanın Kontinental Neft Cəmiyyətinə Bakıda neftin çıxarılması, emalı və daşınması ilə məşğul olacağı göstərişi verilmişdi. Artıq Azərbaycandakı iri sənaye müəssisələrinə "ali irqdən" rəhbərlər də təyin edilmişdi. Onlar ucuz iş qüvvəsi hesabına maya dəyəri aşağı olacaq məhsullardan alınacaq yüksək gəliri son qəpiyinədək Almaniyaya çatdırmaq tapşırığı almışdılar.[5]

Hitler Bakını faşizm imperiyasını neftlə təmin edən hərbiləşdirilmiş mərkəzə çevirmək arzusunda idi.

SSRİ XKS və ÜİK(b)P MK-nın 1941-ci il iyunun 29-da qəbul etdikləri direktivlə ölkənin bütün siyasi, iqtisadi və hərbi imkanlarını səfərbər etmək, ilk növbədə, xalq təsərrüfatını hərbi tələblər əsasında qurmaq vəzifələri müəyyənləşdirildi.[6] İyunun 30-da isə İ.V.Stalinin başçılığı ilə ölkədə bütün hakimiyyəti öz əlində cəmləşdirən Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı.[7] DMK əsas diqqəti Silahlı Qüvvələrin möhkəmləndirilməsinə, iqtisadiyyatın hərbin tələbləri əsasında yenidən qurulmasına yönəltdi. Geniş miqyasda hərbi səfərbərlik keçirildi, yeni qoşun birləşmələri yaradıldı, cəbhəyə yaxın rayonlardan sənaye müəssisələri və milyonlarla adam uzaq yerlərə köçürüldü.

1941-ci il iyunun 22-də Böyük Britaniyanın Baş naziri Uinstan Çörçill, bir gündən sonra isə ABŞ Prezidenti Franklin Ruzvelt SSRİ-nin Almaniyaya qarşı müharibədə onu müdafiə etmək təklifini qəbul etdikləri barədə bəyanat verdilər. İyulun 12-də Moskvada Sovet İttifaqı ilə Böyük Britaniya arasında müharibədə birgə fəaliyyətə dair müqavilə imzalandı.[8]

Avqustun 14-də ABŞ Prezidenti və Böyük Britaniyanın Baş naziri "Uels şahzadəsi" adlı gəminin göyərtəsində görüşdülər, faşizmi məhv və qəsbkarı tərk-silah etmək zərurəti barədə bəyanatı - "Atlantik xartiyası"nı imzaladılar. Sentyabrda SSRİ də bu xartiyaya qoşuldu.[9] Çox keçmədən Avstraliya, Belçika, Böyük Britaniya, Yunanıstan, Polşa, SSRİ, müstəqil Fransa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkə nümayəndələrinin Londonda keçirilən konfransında "Atlantik xartiyası"nın əsasları qəbul edildi, faşizmə qarşı koalisiyanın məqsəd və vəzifələri müəyyənləşdirildi.[10] 1942-ci il yanvarın 1-də 27 dövlətin nümayəndələri Vaşinqtonda belə bir koalisiya yaratdılar. 1945-ci ilin aprelində isə bu ittifaqda artıq dünyanın 50 dövləti təmsil olunmuşdu.[11]

Sovet xalqı "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı altında alman faşizminə qarşı müharibəyə qalxdı.

Azərbaycan xalqı da son qələbəyə qədər bu müharibədə fəal iştirak etdi. Respublikanın idarə və müəssisələrində zəhmətkeşlər öz üzərlərinə yüksək öhdəliklər götürür, könüllü surətdə ordu sıralarına, "Xalq qoşunu" dəstələrinə, "Qırıcı batalyon"lara daxil olurdular. 1941-ci il iyunun 22-də Bakıda qəsbkarlara qarşı izdihamlı mitinq keçirildi. Azərbaycanın şəhər və kəndlərində müharibənin ilk günlərində 40 min nəfər, o cümlədən 1000 nəfərə qədər qız könüllü olaraq cəbhəyə getmək üçün respublika Hərbi Komissarlığına müraciət etdi.[12] Yalnız 1941-ci ilin iyul-oktyabr aylarında respublikada 30480 nəfər, o cümlədən hərbi məktəblərə 2287 nəfər, qvardiya diviziyalarına 3165 nəfər, döyüşən hissələr ehtiyatına 22319 nəfər səfərbər olundu.

1941-1942-ci illərdə respublikada təşkil edilən hərbi birləşmələrə Azərbaycandan 5000 kommunist və komsomolçu daxil olmuşdu.[13] 1943 -cü il yanvarın 1-nə qədər respublikada 464 min nəfər orduya çağırılmışdı.[14]

Zaqafqaziya cəbhəsinin Hərbi Hissələrin Təşkili və Tamamlanması İdarəsi Azərbaycanda səfərbərlik işinin təşkilini yüksək qiymətləndirmişdi.[15]

Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycandan orduya 700 minə qədər adam səfərbər olunmuşdu. Onlar arasında 11 mindən çox qadın var idi.[16]

Azərbaycanda 1941-ci ilin avqustunda 402-ci, oktyabrında 223-cü, 1942-ci ilin mart-sentyabr aylarında 416-cı, avqust-sentyabr aylarında isə 271-ci diviziyalar təşkil olunmuşdu. 1941-ci ilin dekabr ayında Krımın müdafiəsində iştirak etmiş, Ağ Manay rayonundakı döyüşlərdə şəxsi heyətinin bir hissəsini itirmiş 77-ci diviziya da 1942-ci ilin mayında yenidən respublikada komplektləşdirildi.[17]

Döyüşən qoşun üçün ehtiyat qüvvələr hazırlanmasında görülən zəruri işlər nəticəsində 1941-ci il iyunun 22-dən avqustun 14-dək Azərbaycan SSR-də Xalq qoşunu dəstələrinə 186704 nəfər (onların 30563 nəfəri qadın idi) yazılmışdı. Bu dəstələr istehsalat-ərazi prinsipi üzrə təşkil edilirdi. Onların fəaliyyətinə rəhbərlik üçün Mərkəzi qərargah yaradılmışdı.[18] Bakı şəhərinin 18 rayonunda Xalq qoşunu dəstələrinə 61780 nəfər yazılmış və 20 rota təşkil olunmuşdu.[19] Bakı ətrafında müdafiə zonası yaradılmasında Xalq qoşunu dəstələrinin 12000 döyüşçüsü fəal iştirak etmişdi.[20]

Azərbaycan Komsomolunun Mərkəzi Komitəsinin 1941-ci ilin avqustunda gənclərin Xalq qoşunu dəstələrinə cəlb edilməsi haqqında qərarı əsasında Bakıda 13860 komsomolçu xidmət edən 40-dan çox "komsomolçu-gənclər bölmə və rotası yaradılmışdı".[21]

1942-ci il avqust ayının 17-də ərazinin xüsusiyyətləri nəzərə alınmaqla, Xalq qoşunu dəstələri yenidən təşkil olundu. Bakıda üç - 101, 102 və 103-cü Xalq qoşunu diviziyaları yaradıldı.[22] Diviziyalarda 21259 nəfər döyüşçü vardı.[23] Rayonlarda isə yerləşdirildikləri ərazinin adını daşıyan batalyonlar yaradılmışdı.

1943-cü ilin martında Xalq qoşunu diviziyalarının təşkilində dəyişikliklər edildi və hər rayonda bir batalyon saxlanıldı. Həmin batalyonlar Qafqaz cəbhəsindəki təhlükə sovuşduğuna və alman işğalçıları Azərbaycan sərhədlərindən uzaqlaşdırıldığına görə 1943-cü ilin avqust ayından Ümumi icbari hərbi təlim hissəsinə daxil edildilər.[24]

Sovet ordusu üçün ehtiyat qüvvələr yaratmaq məqsədilə Dövlət Müdafiə Komitəsinin qərarı ilə hələ 1941-ci ilin iyulundan etibarən bütün ölkədə 16 yaşdan 50 yaşadək olan kişilərə ümumi icbari hərbi təlim keçilməyə başlanmışdı. 1941-ci il oktyabrın 1-dən 1942-ci il dekabrın 15-dək respublikada 172209 nəfər ümumi və xüsusi bölmələrdə hərbi təlim keçmiş 29925 atıcı, 1255 snayper, 363 minomyotçu, 747 pulemyotçu və b. hazırlanmışdı. Azərbaycan K(b)P MK-nın

qərarı ilə 4389 nəfər xüsusi tank əleyhinə döyüşçü hazırlandı. Onlardan 568 nəfəri Bakı şəhərinin sənaye müəssisələrində işləyən qadınlar idi.[25]

Azərbaycanda 1941-1945-ci illərdə bütünlükdə ümumi icbari hərbi təlim xətti ilə 51254 (onlardan 37180-ni atıcı, 14074-ü nəfəri başqa hərbi ixtisaslar üzrə) döyüşçü hazırlanmışdı.[26] Həmin illərdə respublikada 291421 çağırışçı 9 növ hərbi peşəyə yiyələnmişdi, Onlardan 32337 nəfəri pulemyotçu, 8762 nəfəri avtomatçı, 7765 nəfəri minomyotçu, 2862 nəfəri snayper, 2466 nəfəri tank əleyhinə döyüşçü idi.[27]

1941-ci ildə Azərbaycan rayonlarında təxribatçılara, casuslara və sərhədi pozanlara qarşı mübarizə aparmaq məqsədilə Qırıcı batalyonlar yaradılırdı. 12000 adam səfərbər edilmiş[28] bu batalyonların fəaliyyəti sayəsində müharibə illərində 32000 düşmən paraşütçüsü, casus, quldur, soyğunçu, təxribatçı, fərari, dövlət sərhədini pozan tutulmuşdu.[29]

Müdafiə işlərinin təşkilində ictimai təşkilatlar da fəal iştirak edirdi. Yardım cəmiyyəti bu sahədə xüsusilə fərqlənirdi.[30] Bu cəmiyyət "Kimyəvi silahlardan müdafiə" norması üzrə əhaliyə təlim keçirdi.[31] Azərbaycan Qızıl Aypara Cəmiyyəti də 1941-1945-ci illərdə 6500-dən çox tibb bacısı hazırlamış, 20 mindən çox respublika vətəndaşı döyüşçülər üçün könüllü qan vermişdi.[32]

Respublikanın bədən tərbiyəsi təşkilatları da müdafiə işində fəal iştirak edirdilər. 257270 idmançı icbari hərbi təlimə cəlb olunmuşdu. Onların köməyi sayəsində 1941-1945-ci illərdə 64 min nəfər "Əməyə və müdafiəyə hazıram!" normasının 1 dərəcəsi, 20 min nəfər isə II dərəcəsi üzrə yoxlamadan keçirilmişdi.

Yerli hava hücumundan müdafiə bölmələri də müharibə illərində əhali arasında səmərəli iş aparmışlar. Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK-nın 1941-ci 4 may il qərarına əsasən hava hücumundan müdafiə məqsədilə sığınacaqların tikilməsi təşkil edilmişdi. 1941-ci il iyul ayının 10-na qədər bütün idarə və müəssisələrdə özünümüdafiə dəstələri yaradılmışdı.[33] Qırıcı batalyonlara və hava hücumundan müdafiə dəstələrinə yardım qruplarında 15 min nəfər iştirak edirdi.[34] Bu dəstələrin hər birinə idarə və müəssisələrdə 100-300 fəhlə və qulluqçu, yaşayış yerlərində isə 200-500 nəfər sakin daxil olurdu. Özünümüdafiə dəstələrində olan əhalinin 137797 nəfəri əleyhqaz geyinərək 1503 təlimdə iştirak etmiş, ilk tibbi yardım üçün minlərlə tibbi heyət yetişdirilmiş, 180 sanitar drujinası təşkil edilmiş və 2700 nəfər drujinaçı hazırlanmışdı. Yaşayış məntəqələrini qorumaq üçün 16000 nəfər yaşlı əhali, 12000 pioner və məktəbli səfərbər edilmişdi. Naxçıvan şəhəri və Naxçıvan rayonunda kimyəvi hücumdan müdafiəyə hazırlıq üçün təşkil edilmiş 185 dərnəyə 6212 nəfər şəhər və kənd əhalisi cəlb olunmuşdu. Müəssisə və evlərdə 1134 nəfərin cəlb edildiyi 31 özünümüdafiə qrupu yaradılmışdı.[35]

Rus dilini bilməmək müharibənin ilk aylarında azərbaycanlı döyüşçülər üçün ciddi çətinliklər törədirdi. Bundan istifadə edən bəzi şovinist zabitlər onlarla təhqiramiz, kobudcasına rəftar edirdilər. Azərbaycanlı döyüşçülər bununla bağlı respublika rəhbərliyinə dəfələrlə müraciət edərək rus dilinin öyrənilməsi üçün şərait yaratmağı xahiş edirdilər. Azərbaycan K(b)P MK hərbi şöbəsinin 23 oktyabr 1941-ci il tarixli məktubla Zaqafqaziya cəbhəsinin Siyasi İdarəsinə bu barədə müraciət etməsi nəticəsində vəziyyət nizama salınmışdı.[36] Döyüşçülərin rus dilini bilməyinin vacibliyi nəzərə alınaraq 90 saatlıq proqram işlənib hazırlanmışdı. Dərslər hərbi hazırlıq xətti ilə keçirilirdi. Azərbaycan K(b)P MK-nın 14 iyul 1942-ci il qərarına əsasən Bakı şəhərində rus dilinin tədrisi iyulun 15-dək, Azərbaycan rayonlarında isə həmin il avqustun 1-dən başlanmışdı. Hərbi mükəlləfiyyətlilərin məktəblərdə rus dilini öyrənməsi üçün, həftədə 4 saatdan az olmamaq şərti ilə, 150 akademik-saat nəzərdə tutulurdu.

Cəbhənin respublika sərhədlərinə yaxınlaşması ilə əlaqədar olaraq Zaqafqaziya Cəbhəsi Hərbi Şurası Bakı ətrafında müdafiə mövqelərinin yaradılması haqqında qərar çıxardı. Qərara əsasən 1941-ci ilin sentyabrında Şimal istiqamətdə 10 müdafiə tikintisi təşkil edildi. Bu iş üçün 160 yük maşını, 300 qaynaq aparatı, 55 traktor, 18 ekskavator, 8 səyyar elektrik stansiyası, 7 kompressor, 25000 bel, külüng və başqa alətlər ayrıldı.[37]

Tankların keçə bilməməsi üçün 16841 maneə yaradıldı, 91 km uzunluqda dərin xəndəklər qazıldı. Atəş nöqtələri ilə arxanı birləşdirən 535 km uzunluqda gizli əlaqə yolu çəkildi. 1 milyon 800 min kv.m torpaq işi görüldü.[38] Müdafiə xəttinin tikintisində kişilərlə birlikdə qadınlar da fəal iştirak edirdilər. Tikintidə yalnız Bakı şəhərinin 17 rayonundan 16721 kişi, 23906 qadın iştirak etmişdi.[39]

Beləliklə, Böyük Vətən müharibəsi başlanan andan, respublikada cəbhəyə xidmət, arxada qüvvələri səfərbər etmək sahəsində çoxlu iş görüldü. Azərbaycan xalqı, bütün zəhmətkeşlər fədakarlıq, mətinlik, dözümlülük nümayiş etdirdilər.

## §2. XALQ TƏSƏRRÜFATININ MÜHARİBƏ TƏLƏBLƏRİNƏ UYĞUN YENİDƏN QURULMASI, CƏBHƏYƏ XİDMƏT. BAKI - SOVET ORDUSUNUN ƏN MÜHÜM ARSENALLARINDAN BİRİ KİMİ

Müharibə xalq təsərrüfatını ciddi imtahana çəkdi. Tezliklə sənayeni hərbi tələblərə uyğun yenidən qurmaq, birinci növbədə, ordunu yüksək keyfiyyətli yanacaqla, hərbi ləvazimatla və ərzaqla təmin etmək tələb olunurdu. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində, vilayət, şəhər və rayon komitələrində neft hasilatı, neft emalı, neft maşınqayırması və elektrik stansiyaları, tikinti və tikinti materialları, yeyinti sənayesi, kənd təsərrüfatı, nəqliyyat, şəhər təsərrüfatı və s. kimi sahələrə rəhbərlik edən yeni şöbələr yaradıldı.[40]

Respublika xalq təsərrüfatının minlərlə işçisi qızıl ordu sıralarına səfərbər olunmuşdu. Təkcə 1941-ci ildə Azərbaycanın neft hasilatı və neft emalı sənayesi müəssisələri fəhlələrinin üçdə biri cəbhəyə getmişdi. Maşınqayırmada, dəmir yol, su nəqliyyatında, kolxoz və sovxozlarda da vəziyyət belə idi. Mərkəzi sənaye rayonlarından respublikaya[41] material və avadanlıq gətirilməsi zəiflədi. Sonralar isə tamamilə dayandırıldı. Dövlət Müdafiə Komitəsinin qərarı ilə 1941-ci ilin yayından etibarən, Azərbaycanın bəzi zavodlarının Şərqə köçürülməsinə başlandı.

Xalq təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdi. 1941-1942-ci illərdə ordunun ehtiyacı üçün müəssisə və təşkilatlardan 5457 yük maşını və 672 minik avtomobili, 476 traktor və 50 min at alınmışdı.[42]

Xalq təsərrüfatının hərbi istiqamətdə uğurla fəaliyyət göstərməsi üçün ehtiyatda olan iş qüvvəsinin istehsalata cəlb olunmasına başlandı, hökumət növbəti məzuniyyətləri əvəzinə pul ödəməklə ləğv etdi, iş günü uzadıldı, qadınlar və yeniyetmələr istehsalata gəldilər. Respublikada 20 minə qədər əmək veteranı və əlil istehsalata qayıtdı.[43] Xalq təsərrüfatının işçi qüvvəsi ilə təmin edilməsində qadınlar və yeniyetmələr mühüm rol oynadılar. Azərbaycan qadınları öz atalarını, ərlərini, qardaşlarını əvəz edərək mədənlərdə, fabrik və zavodlarda işləməyə başladılar. 1941-ci il iyulun 24-də Əzizbəyovneft mədənlərinə 50-dən çox evdar qadın gəldi. 1941-ci ilin oktyabrında yalnız Bibiheybət neft mədənlərində 1800-dən artıq qadın çalışırdı.

1941-ci ilin yayında ictimai təşkilatların göndərişi ilə təkcə Bakının mədən və zavodlarında 3500-dən artıq qız işə başlamışdı. Bakının neft sənayesində işləməyə 13 mindən çox yeni işçi cəlb edildi.[44] Evdar qadınların istehsalata cəlb olunmasına cəbhəçi arvadlarının 1942-ci ilin əvvəllərində Bakıda keçirilmiş yığıncağının böyük təsiri oldu. Səkkiz ayda 16 min cəbhəçi arvadı respublikanın sənaye müəssisələrində işləməyə gəldi. Onlardan 11 min nəfəri neft sənayesində

çalışmağa başladı.[45] Fabrik və zavodlarda evdar qadınlara sənət öyrətmək üçün kurslar açıldı. 1942-ci ilin yayında neft sənayesində 25 minə qədər qadın işləyirdi. Dəmir yol nəqliyyatında çalışanların yarıdan çoxunu qadınlar təşkil edirdi. Yüzlərlə Azərbaycan qadını sovxoz və kolxozlarda fədakarlıqla çalışırdı.[46] 1941-ci ilin yayı və payızında kolxozların əkin sahələrində 5 mindən artıq qadın mexanizator vəzifəsində işləyirdi. 1941-1942-ci illərdə respublikada olan 10 min mexanizatorun yarıdan çoxu qadın idi. 1942-ci ildə Azərbaycanda kənd təsərrüfatı üçün kütləvi peşə kadrları hazırlayan 17 məktəb fəaliyyət göstərirdi.[47]

Müharibə illərində minlərlə oğlan və qız istehsalata gələrək, cəbhəyə getmiş ata və qardaşlarını əvəz etdi. Fəhlə kadrları hazırlamaq üçün respublikada 28 fabrik-zavod məktəbi, 12 peşə məktəbi, 2 dəmir yol məktəbi fəaliyyət göstərirdi. 1941-ci ilin yayında və payızında peşə və fabrik-zavod məktəblərində təhsil almaq üçün respublikanın şəhər və kəndlərindən 10 min yeniyetmə cəlb olunmuşdu.[48] Müəssisələrdə ixtisas kursları, texniki kurslar və dərnəklər, qabaqcıl təcrübə məktəbləri fəaliyyət göstərirdi.

Neft sənayesinin maddi-texniki əsasını möhkəmləndirmək məqsədilə DMK və Köçürmə Sovetinin qərarı ilə Bakıya ölkənin cənub və qərb rayonlarından köçürülən 20 iri müəssisənin qurğuları, o cümlədən 250 dəzgah, 12 vaqon mayetökən cihaz,[49] 53 metalkəsən dəzgah, iki vaqon müxtəlif alətlər gətirilmişdi.[50] 1942-ci ilin əvvəlində Bakı alətlər zavodu, "Qırmızı proletariat" və Dzerjinski adına zavodlar ilk məhsullarını verdilər, az sonra L.Şmidt adına maşınqayırma zavodunda poladəritmə sexi işə düşdü. Beləliklə, Azərbaycan cəbhənin hərbi sifarişlərini yerinə yetirməyə başladı.

Cəbhə sifarişlərini yerinə yetirmək üçün zavodun əməkçiləri hər gün 18-20 saat işləyirdilər. Silah və döyüş sursatını hər zavodda ayrılıqda istehsal etmək imkanı olmadığından, maşınqayırma zavodları müdafiə məhsullarının istehsalı üzrə kooperativlər yaradırdılar. L.Şmidt adına zavodun kollektivi əlaqədar müəssisələrlə birgə işləyərək, 40 gün üçün nəzərdə tutulmuş işi 16 gün ərzində yerinə yetirirdi.[51] Aviabombaların istehsalına başlayan gəmi təmiri zavodu planı vaxtından əvvəl ödəyirdi. Avtomobil təmiri zavodunun kollektivi "M-13" minomyotu hissələrini, "PPŞ" avtomatlarını, tank hissələrini istehsal edirdi. 1942-ci ilin sonlarında Bakıda 130 növ silah, sursat və başqa hərbi ləvazimat istehsal olunurdu.[52]

Gəncə şəhərində 12 sənaye müəssisəsi müharibənin tələbləri əsasında yenidən qurulmuşdu və 26 adda hərbi məhsul istehsal edirdi.[53]

Cəbhəni vaxtında və yüksək keyfiyyətli yanacaqla təmin etmək üçün ən taleyüklü, ciddi vəzifəni Azərbaycan neftçiləri böyük əzmkarlıqla, şərəflə yerinə yetirirdilər. Ölkənin qərb neft rayonları işğal olunmuşdu. Şimali Qafqaz neft rayonları böyük təhlükə qarşısında qalmışdı. Bakı nefti qızıl ordunun ən etibarlı dayağı idi. Ümumdövlət səviyyəsində daim diqqət mərkəzində olan ölkədə hasil

edilən neftin 70-75 faizini, aviasiya benzini istehsalının 85-90 faizini Bakı verirdi. Bakı hərbi-dəniz qüvvələrini də yüksək keyfiyyətli mazutla təmin edirdi.[54]

Azərbaycan, onun paytaxtı əsil mənada sovet ordusunun mühüm cəbbəxanalarından birinə çevrilmişdi.

1941-ci ilin ağır çətinliklərinə baxmayaraq, Azərbaycan neftçiləri 23481 min ton neft və 25864 min kv.m qaz istehsal etmişdilər.[55] Bu, respublika neft sənayesi tarixində ən yüksək göstərici idi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 6 fevral tarixli xüsusi fərmanı ilə 500 neftçi SSRİ-nin orden və medalları, o cümlədən 41 nəfər Lenin ordeni ilə təltif olundu. Leninneft Trestinin 11-ci mədəni və Bibiheybətneft Trestinin 4-cü mədəni Lenin, Lökbatanneft trestinin 4-cü mədəni Qırmızı Əmək Bayrağı ordeninə layiq görüldü.[56]

Lakin neftçi mütəxəssislərin 40 faizə qədərinin cəbhəyə səfərbər edilməsi, qazma işlərinin dayandırılması, neft maşınqayırma zavodlarının çoxunun hərbi müdafiə məhsulları buraxmağa başlaması və neft sənayesinə vəsait qoyuluşunun kəskin surətdə azaldılması nəticəsində 1942-ci ildən neft hasilatı aşağı düşməyə başladı.

1942-ci ildə 1941-ci ilə nisbətən 7772 min ton, 1943-cü ildə 10790 min ton, 1944-cü ildə isə 11643 min ton az neft çıxarılmışdı.[57]

Lakin neft trestlərinin partiya və təsərrüfat təşkilatları, neftçilər qazma işini yaxşılaşdırmaq, daxili imkanlardan, aqreqatların və avadanlığın gücündən səmərəli istifadə etmək, mühəndis-texniki işçilərin və qabaqcıl fəhlələrin yaradıcı təşəbbüsündən bəhrələnməklə çətinliklərdən çıxmaq üçün əzmlə çalışırdılar.

SSRİ DMK bu sahədə yardımçı tədbirlər həyata keçirdi: DMK-nın 1942-ci il 6 dekabr qərarı və SSRİ Neft Komissarlığının 1942-ci il 15 dekabr sərəncamı ilə Azneftkombinatına qazma işini sürətləndirmək təklif olundu. Qısa müddət ərzində Orconikidzeneft, Kirovneft, Stalinneft, Lökbatanneft trestlərində dörd qazma kontoru yaradıldı.[58] Dövlət Müdafiə Komitəsinin qərarı ilə minlərlə gənc ordu sıralarına çağırışdan azad edilərək, neft sənayesinə göndərildi. Sonralar onların sırasından Sosialist Əməyi Qəhrəmanları Qurban Abbasov, Musa Bayramov, Yusif Fərzəliyev, Məmməd Qənbərov, Qaraş Əmirov, Məmməd Dünyamalıyev və digər məşhur qazma, tikinti-təmir ustaları yetişmişdi.

Dövlət Müdafiə Komitəsi həmçinin yüksək ixtisaslı neft mütəxəssislərinin ordu sıralarından vaxtından əvvəl tərxis olunması barədə də qərar qəbul etmişdi.

Mədən qazma ustaları Baba Qafar Muradov, Rüstəm Rüstəmov, Gülbala Əliyev və başqaları 1943-cü il yanvarın ilk günlərindən qazma normasını bir yarım-iki dəfə artıqlaması ilə yerinə yetirdilər. Yeni sürət ustaları meydana çıxdı. 1943-cü ildə 67,7 min, 1944-cü ildə 138,8 min,[59] 1945-ci ilin on ayı ərzində isə daha 14455 min metr neft quyusu qazıldı.[60]

SSRİ Dövlət Müdafiə Komitəsi Azerbaycan neft sənayesinə daim yardım göstərirdi. 1944-cü il fevralın 21-i və iyunun 2-də DMK respublikanın neft sənayesinin maddi-texniki əsasını möhkəmləndirmək haqqında yeni qərarlar qəbul etdi.

1941-1945-ci illərdə SSRİ-nin neft sənayesi 110 milyon ton neft hasil etmişdi ki, onun 75 milyon tonu Azərbaycanın payına düşürdü.[61]

Görkəmli dövlət xadimi N.Voznesenski yazırdı: "Sovet Bakısı arasıkəsilmədən cəbhəni və SSRİ xalq təsərrüfatını neft məhsulları ilə təmin edirdi və yüzlərlə motoru havada və yerdə hərəkətə gətirirdi".[62]

Müharibə illərində Bakı neftçiləri ölkənin şərqində yaradılmağa başlanan və "İkinci Bakı" adını almış neft rayonlarının inkişafına da öz töhfələrini vermişdilər. Dövlət Müdafiə Komitəsi Bakı neftçilərinə müraciət edərək xam neft yataqlarının işlənilməsi, neft hasilatının hər vasitə ilə sürətləndirilməsi üçün onları perspektivli neft rayonlarına köçməyə çağırdı. 1942-ci ilin iki-üç ayı ərzində Bakının doqquz qazma kontoru, neft-kəşfiyyat, neft-tikinti trestləri, boru bazaları və bəzi başqa neft müəssisələri bütün şəxsi heyəti, mexanizmləri və avadanlığı ilə şərqə köçürüldü. Bakının on mindən çox neft istehsalı komandiri, yüksək ixtisaslı mühəndis-texniki işçilər, mahir neft ustaları mütəşəkkil surətdə şərq rayonlarına göndərildi.

Bakı neftayıranları aviasiya benzininin və müxtəlif müdafiə məhsullarının istehsalını artırmaqda davam edirdilər. Bakının neft emalı müəssisələri Azərbaycanın mühəndis-texniki işçilərinin və alimlərinin səyi sayəsində cəbhə üçün yüksək oktanlı benzin istehsalını uğurla həyata keçirirdilər. Azərbaycanın neft emalçıları 1941-ci ildə neft emalı planını 102,4 faiz, yeni növ benzin istehsalını 118 faiz yerinə yetirmişdilər. Cəbhə 1339 min ton benzin, o cümlədən 218169 ton B-78, 203996 ton B-74, 325148 ton B-70 markalı benzin almışdı.[63] 1942-ci ildə Bakı neft emalçıları aviabenzin planını 114,4 faiz ödəmişdilər. Cəbhəyə 340,1 min ton aviabenzin göndərilmişdi.[64] 1943-cü ildə hasil olunmuş 11839 min ton neftdən 5 milyon ton neft məhsulları, o cümlədən 795 min ton benzin, 3332 min ton liqroin, ağ neft, dizel yanacağı, 640 min ton donanma mazutu və solyar yağı, 420 min ton aviayağ və avtol alınmışdı. 1944-cü ildə plandan əlavə 450 ton neft məhsulları istehsal olunmuşdu.[65] 1941-1945-ci illərdə neft emalçıları 22 milyon ton neft məhsulları istehsal etmişdilər. Onun yarıdan çoxu yanacaq və sürtkü məmulatları, o cümlədən 3314 min tonu aviasiya benzini, 1216 min tonu avtomobil benzini, 4612 min tonu yağ və 2 milyon tona qədəri dizel yanacağı idi. Həmin illərdə Bakının neft emalı zavodları cəbhəyə bir milyon ton və ya 20540-dan çox sistern B-78 aviabenzini göndərmişdi.[66]

Belə ki, müharibədə ordunun döyüş texnikasının 75-80 faizi Azərbaycan neftçilərinin qəhrəman əməyi nəticəsində hərəkətə gətirilmişdi.[67] Bakının Böyük Vətən müharibəsində rolunu sovet ordusunun sərkərdələri - Sovet İttifaqı

marşalları G.K.Jukov, R.Y.Malinovski, F.İ.Tolbuxin və başqaları dəfələrlə qeyd etmişlər. Marşal G.K.Jukov yazırdı: "Bakı neftçiləri cəbhəyə və ölkəyə vətənimizin müdafiəsi üçün, düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazım idi, o qədər də yanacaq vermişdilər".[68] Bakı neftçilərinin qəhrəman əməyi qızıl orduda yüksək qiymətləndirildi. Cəbhə komandirlərindən, əsgərlərdən, general və admirallardan Azərbaycan Mərkəzi Komitəsinə, Bakı Komitəsinə məktub və teleqramlar gəlirdi.

Azərbaycanın yüngül, yeyinti və yerli sənayesi də öz işlərini hərbi tələblər əsasında qurmuşdu. Yüngül sənaye müəssisələri hərbi geyimlər hazırlayırdılar. 1941-ci ildə Rostovdan köçürülmüş ayaqqabı fabriki əsasında Bakıda əsgərlər üçün ayaqqabı fabriki işə salınmışdı. Respublikada qızıl orduya döyüş ləvazimatı, keçə ayaqqabı, paltar, kimyəvi silahlar əleyhinə geyim, hərbi hospitallar üçün mebel, yanğın əleyhinə alətlər və s. ləvazimat istehsal edilirdi. Konserv zavodları 70 növ konserv istehsalına başlamışdı. Hər ay respublikada istehsal olunan 50 tona yaxın çayın qablaşdırılması üçün 1941-ci ildə Bakıda fabrik tikilmişdi.

1941-ci ildə Bakı ət kombinatında ordu üçün yeyinti konsentratı hazırlayan xüsusi sex fəaliyyət göstərirdi. 1941-ci ildə ət kombinatında, süd zavodlarında tibb preparatları hazırlayan xüsusi sexlər yaradılmışdı. Burada SSRİ-də ilk dəfə buynuz və dırnaqdan plastmas istehsalına başlanmışdı. 1942-ci ilin əvvəllərində kombinat artıq 40 adda məhsul istehsal edirdi.[69]

Azərbaycanda meşə və ağac emalı sənayesinin vələs, fıstıq və dəmirağaclarından hazırlanmış məhsullarından təyyarə istehsalında geniş istifadə olunurdu.

Respublikada tibb preparatları və onlar üçün xammal, kalsium-xlorid, natrium-xlorid, yodlu kalium, ağ streptosid, cərrah ipək sapı, tənzif, pambıq, şpris istehsal olunurdu.

Müharibə illərində Azərbaycan toxuculuq kombinatı iki dəfə birinci yeri və DMK-nın bayrağını qazanmışdı. Volodarski adına tikiş fabriki dörd dəfə birinci yerə, ÜİHİMŞ və SSRİ Yüngül Sənaye Nazirliyinin bayrağına layiq görülmüşdü. Sərrac-yəhər fabriki, dəri-qalantereya fabriki də mükafatlandırılmışdı.

1941-ci ildə Rostovdan gətirilən avadanlıq əsasında Bakıda rezin məmulatları fabriki işə düşdü. Neft sənayesi müəssisələri üçün mallar, habelə Zaqafqaziya cəbhəsi komandanlığının tapşırığı ilə yandırıcı şüşələr üçün halqa istehsalına başlandı.

Xalq istehlakı və kommunal təsərrüfatı üçün mallar istehsal edən metal məmulatları zavodu müharibənin əvvəllərindən əsgər qazanı, maska toru, yanğın nərdivanı, hərbi armatur, Bakı mebel fabriki hərbi arabalar buraxmağa başladı. Oktyabr rayon kombinatında dəri, ətriyyat, keçə, trikotaj istehsal edən yeni sexlər yaradıldı.

Müharibə illərində respublikanın müəssisələri 1419 min ədəd şinel, 4227 min dəst yay geyimi, 3097 min alt paltarı, 1977 min cüt çəkmə, 1417 min patron çantası, 1468 min dəst trikotaj istehsal etmişdi.[70]

Azərbaycan SSR-in yeyinti sənayesi müəssisələri də hərbi dövrün çətinliklərini dəf edərək verilən planları artıqlaması ilə yerinə yetirirdilər.

Bakı tütün fabriki əməkçilərinin fədakar əməyi Azərbaycan hökuməti tərəfindən dəfələrlə qeyd olunmuşdu. Respublika yeyinti sənayesi işçiləri əhalini xüsusən müharibə şəraitində çox vacib olan "C" vitamini ilə təmin edə bilmişdilər.

Ət-Süd Sənayesi Komissarlığı müəssisələrində insulin istehsalı altı dəfə artmışdı.[71]

SSRİ üzərinə xaincəsinə basqın hazırlayan Hitler kolxoz quruluşunun zəifliyinə, kəndlilərin narazılığına bel bağlayırdı. Lakin mövcud siyasi, iqtisadi sistem faşist qəsbkarlarını dəf etmək üçün kənd əhalisini də səfərbər edə bildi.

ÜİK(b)P MK və SSRİ XKS-nin 1941-ci il avqustun 16-da qəbul etdiyi 1941-ci ilin dördüncü rübünün hərbi-təsərrüfat planında arxa cəbhədə kənd təsərrüfatı məhsulları istehsalının artırılması mühüm əhəmiyyət kəsb edirdi. İlk növbədə ordunu çörəklə və başqa ərzaq məhsulları ilə təmin etmək, bunun üçün əkin sahələrini genişləndirmək, taxıl istehsalını artırmaq lazım idi. Kənd əməkçilərinə rəhbərliyi gücləndirmək məqsədilə 1941-ci ilin avqustunda fövqəladə orqanlar - 79 MTS və sovxozda siyasi şöbələr təşkil olunmuşdu.[72] MTS-lərin siyasi şöbələri kənd təsərrüfatı planlarının vaxtında yerinə yetirilməsinə, əmək intizamının yüksəldilməsinə nəzarət edirdilər. İşçi qüvvəsinin böyük əksəriyyəti, kəndin ixtisaslı qüvvələri - mexanik və sürücülər, kombaynçı və traktorçular cəbhəyə getmişdilər. Kənd təsərrüfatı məhsulları istehsalının bütün ağırlığı qadınların və yeniyetmələrin üzərinə düşürdü. 1940-cı ildə Azərbaycan SSR-də 667,2 min əmək qabiliyyətli kolxozçu vardısa, 1941-ci ildə onların sayı azalaraq 441 minə düşmüşdü. Kolxoz və sovxozların maddi-texniki əsası xeyli zəif idi. Müharibənin birinci ilində ordunun ehtiyacları üçün Azərbaycan Respublikasından 5457 yük maşını, 672 digər avtomaşınlar, 476 traktor və 50 mindən artıq at verilmişdi.[73]

1941-ci ilin yay və payızında kolxoz sahələrinə 5 mindən artıq mexanizator qadın cəlb olunmuşdu. Kənd təsərrüfatına ixtisaslı kadrlar hazırlamaq üçün 17 məktəb fəaliyyət göstərirdi. Respublikada 1941-1942-ci illərdə hazırlanmış 10 min mexanizatorun yarıdan çoxunu qadınlar təşkil edirdi. 1944-cü il ərəfəsində traktorçuların 61,7, kombaynçı köməkçilərinin 52,2 faizi, təmir işçilərinin 3,33 faizi və sürücülərin 25,4 faizi qadınlar idi. Respublikanın MTS, kolxoz və sovxozlarında yeniyetmələrdən ibarət 157 yüksək məhsul briqada və manqası yaranmışdı. Kənd təsərrüfatı mexanizatorlarının 70 faizi yeniyetmələr idi.[74] 1943-

cü ildən respublika əkin sahələrində azərbaycanlılarla birgə Ukrayna və Şimali Qafqazdan köçürülmüş əkinçilər də çalışırdılar.

Kənd təsərrüfatı üzrə çöl işlərinə qulluqçular, məktəblilər, texnikumların və ali məktəblərin tələbələri cəlb olunurdular. Bir çox rayonlarda kolxozlar daxili torpaq və toxum ehtiyatları hesabına əkin sahələrini 10-15 faiz genişləndirdi. Kolxoz və sovxozlarda "Cəbhəyə və ölkəyə daha çox çörək, ət və sənaye üçün xammal verək!" şüarı altında staxanovçular və kənd təsərrüfatı qabaqcılları hərəkatı geniş vüsət aldı. 1941-ci il dekabrın 1-nə Azərbaycan kolxozçuları Müdafiə Fonduna 2850 baş iribuynuzlu və 23120 baş xırdabuynuzlu heyvan, 1079 baş donuz, 10640 sentner taxıl, 36140 litr süd, 20439 kiloqram yağ, 130 ton kartof, 194 ton göyərti, 62200 ədəd yumurta və digər məhsullar verdilər.[75]

1942-ci ildə "Yüksək məhsul - cəbhəyə köməyin əsasıdır" çağırışı ilə çalışan əməkçilər kənd təsərrüfatı məhsulları tədarükündə mühüm nailiyyətlər əldə etdilər. Əkin sahəsi 1941-ci ilə nisbətən 15 min hektar artdı. 1095,8 min hektar əkin sahəsinin 852 min hektarı taxıl əkininə ayrıldı.[76] 1942-ci ildə Azərbaycan kolxoz və sovxozları dövlətə 1941-ci ildən 2583934 pud artıq taxıl, 282962 pud ət, 210012 pud göyərti, 40965 pud yun, habelə kolxozlar 1943-cü ilin planları hesabına 440060 pud ot, 8211 pud yağ, 8 pud pendir, 29699 pud yun, 59755 pud ot və s. təhvil verdi.[77]

1943-cü ildə Azərbaycanın sənaye müəssisələri kənd təsərrüfatı üçün texnika və avadanlıq istehsalını artırdı. DMK-nın qərarı ilə Ukraynadan və Şimali Qafqazdan kənd təsərrüfatı maşınları zavodlarının köçürülməsi hesabına hələ 1942-ci ildə Gəncədə kənd təsərrüfatı maşınlarını təmir və onlar üçün ehtiyat hissələri istehsal edən zavod yaradılmışdı.[78] Bakının maşınqayırma zavodları MTS-lər üzərində hamiliyi genişləndirdilər. Təkcə 1943-cü ilin birinci yarısında Bakıdan kəndlərdə işləməyə 200-dən artıq ixtisaslı fəhlə göndərildi.[79]

Kənd təsərrüfatı maşınlarını təmir etməkdə böyük uğurlar qazanmış Kalinin adına zavodun kollektivi 1943-cü ildə Ümumittifaq sosializm yarışında birinci yeri tutdu və ona ÜİHİMŞ-nin və SSRİ Əkinçilik Xalq Komissarlığının Keçici bayrağı və pul mükafatı verildi.

1943-cü ildə Azərbaycanın kənd zəhmətkeşləri dövlətə plandan əlavə 1 milyon pud taxıl, 21,5 min pud ət, 48 min pud tərəvəz, 2,2 min pud yun verdilər. Heyvandarlığın inkişaf planı iribuynuzlu heyvanlar üzrə 106,3 faiz, qoyun və keçilər üzrə 124 faiz, donuzlar üzrə 118 faiz yerinə yetirildi. 1943-cü ildə Azərbaycan kolxozçularının qəhrəman əməyi hökumət tərəfindən yüksək qiymətləndirildi, kənd təsərrüfatında çalışan 485 nəfər SSRİ-nin orden və medalları ilə təltif olundu.[80] Respublika kəndliləri 1944-cü ildə mühüm uğurlar qazandılar.

Müharibənin çətinliklərinə baxmayaraq, maldarlığın inkişafı dayanmadı, kolxoz sürüləri 1940-cı ilə nisbətən bir milyon baş çoxaldı, heyvandarlıq

məhsulları istehsalı artdı. Müharibə illərində heyvandarlığın inkişafında qazandığı müvəffəqiyyətlərə görə Azərbaycan SSR dörd dəfə Dövlət Müdafiə Komitəsinin Qırmızı bayrağını almış, 45 min zəhmətkeş orden və medallarla təltif edilmişdi.[81]

Hərbi şəraitin tələbi əsasında nəqliyyatın işi yenidən quruldu. Hərbi hissələrin hərəkəti, onlara silah, sursat, ərzaq daşınması, habelə əhalinin, müəssisələrin köçürülməsi, sənayenin xammala tələbatının ödənilməsi nəqliyyatın ahəngdar işləməsi sayəsində vaxtında təmin olunurdu.

Respublika dəmir yollarında qatarların müntəzəm hərəkətini təşkil etmək məqsədilə 1941-ci il iyunun 24-dən xüsusi hərbi cədvəl tətbiq olunmuş, vağzalların hava hücumundan müdafiəsi,[82] işıq və səs siqnalları olmayan xüsusi qatarlar təşkil edilmiş, sərnişin vaqonları hərbi-sanitar vaqonlarına çevrilmişdi.[83] Bakı dəmir yolu əsasən yanacaq daşınması ilə məşğul idi; 1941-ci ilin iyul ayında 1560 sistern daşınmışdısa, avqustda bunun sayı 2325-ə çatmışdı.[84]

1941-ci ilin avqustundan Bakı dəmir yolu şəbəkəsinə Rostov, Xarkov, Odessa, Taqanroq, Novorossiysk və digər şəhərlərin 450-dən çox müəssisəsindən köçürülmə yüklər daxil olmuşdu.[85]

Faşist Almaniyasına qarşı mübarizədə SSRİ ilə birgə əməkdaşlığa dair 1941-ci il oktyabrın 1-də bağlanmış üçtərəfli sazişlə, habelə ABŞ-ın "Lend-Liz" kredit və icarə haqqında qanununun həmin ilin noyabrında SSRİ-yə də şamil edilməsi ilə bağlı Böyük Britaniya və ABŞ İran körfəzi, habelə İran ərazisindəki dəmir yolları, sonra isə quru və dəniz yolları vasitəsilə müxtəlif təyinatlı yüklər göndərməyə başlamışdılar. Müharibə illərində ABŞ və İngiltərədən, sonralar isə Kanadadan SSRİ-yə 400 min avtomobil, 2,6 mln ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank və 18,7 min təyyarə göndərmişdilər ki, bunlar da Azərbaycan dəmir yolu nəqliyyatı vasitəsilə təyinat yerlərinə çatdırılmışdı.[86] Hərbi yüklərin daşınması üzrə işlərə rəhbərlik edənlərdən biri də azərbaycanlı general-mayor Ə.M.Əzizbəyov idi.[87]

1941-ci ilin noyabrında DMK-nın göstərişi əsasında Qroznı neft sənayesi zavodları da Bakı limanı vasitəsilə ölkənin şərq rayonlarına göndərilirdi. Osipenko, Mariupol və başqa sənaye şəhərlərindən köçürülən sənaye müəssisələrinin avadanlıqları da Bakıdan keçirdi. Azərbaycan dəmir yolu cəbhəni yanacaq və döyüş ləvazimatı ilə təchiz edən xətlərdən idi. Azərbaycan dəmiryolçuları 1500 parovoz təmir edərək, ölkənin müxtəlif dəmir yolu xətlərinə göndərmiş, o cümlədən təmir olunmuş 925 parovoz Xəzər dənizi vasitəsilə şərqə yola salınmışdı.[88]

Azərbaycanda yeni dəmir yol xətləri çəkilir, əlavə ikinci yollar inşa edilirdi.[89] Culfa-Mincivan dəmir yolu yenidən qurulmuş, Osmanlı -Astara, Salyan-Neftçala, Papanino-Ağcaqabul yolu çəkilmiş, Yevlax-Stepanakert darxətli dəmiryol hissəsi inşa olunmuş, Bakı və Biləcəri stansiyalarında dairəvi dəmir yol

xətləri istifadəyə verilmişdi. Azərbaycanda dəmir yol xətlərinin ümumi istismar uzunluğu 1645,5 km-ə, o cümlədən ikinci dəmir yol xətlərinin uzunluğu 431 km-ə, avtoblokirovka quraşdırılmış dəmir yol xətlərinin uzunluğu isə 181 km-ə çatdırılmışdı.[90]

Azərbaycan dəmir yolunda növbə planını yerinə yetirənlər -"ikiyüzçülər" və "beşyüzçülər" hərəkatı geniş yayılmışdı.

1943-cü ildə Zaqafqaziya dəmir yolu Bakı şöbəsinin bir qrup işçisi orden və medallarla təltif olunmuşdu. Bakı lokomotiv deposunun qatar sürücüsü Firudin Ağayevə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi.[91] Dəmiryolçulardan 36 nəfəri orden və medallarla, 116 nəfər isə SSRİ Dəmir Yolları Komissarlığının Şərəf nişanı ilə təltif edilmişdi.[92]

1941-1945-ci illərdə Zaqafqaziya dəmir yolunun Bakı şöbəsi dəmiryolçuların fədakar əməyi nəticəsində cəbhəyə və xalq təsərrüfatının ehtiyacları üçün 1 mln 600 min vaqon,[93] o cümlədən 480 min vaqona qədər quru yük və 500 min sistern neft məhsulları göndərmişdi.[94]

Azərbaycan dəmiryolçuları azad olunmuş rayonların dəmiryolçularına da köməklik göstərirdilər. Depo və yol emalatxanalarının kollektivləri bu rayonların stansiyalarına avadanlıq və alətlər göndərmişdilər. Bakı və Biləcəri depolarından Stalinqrad, Tixoretski, Minvod, Qafqaz və başqa stansiyalar üçün 36 adda 1000-dən çox alət, iki kompleks "Bekker" qaldırıcı kranı, şpalları qaldırmaq üçün avadanlıq, üç elektrik mühərriki, dörd çilingər dəzgahı, Kirovabad (Gəncə) deposundan Şimali Qafqaz dəmiryolçularına beş dəst çilingər aləti, 100-dən çox parovoz borusu, on dəst ressor və s. materiallar yola salınmışdı.[95]

Xəzər Gəmiçiliyi İdarəsi (Kaspflot) və neftdaşıyan Xəzər Neft Gəmiçiliyi İdarəsini (Kasptanker) təmsil edən Xəzər dəniz nəqliyyatı Azərbaycanın nəqliyyat sistemində əhəmiyyətli yer tuturdu. 1941-ci il iyunun 1-nə olan məlumata görə, "Kasptanker"in ümumi yükgötürmə qabiliyyəti 205,720 ton olan 69 tankeri, "Kaspflot"un isə ümumi yük tutumu 79330 ton olan 76 gəmisi var idi.[96]

1941-ci ilin avqustunda SSRİ Dəniz Donanması Xalq Komissarlığının göstərişi ilə bu idarələrdən Xəzər Hərbi Donanmasına sərnişin daşımaq məqsədilə ümumi yük tutumu 14718 ton olan 11 tanker ayrılmışdı.[97] "Dağıstan", "Türkmənistan", "Qırğızıstan" sərnişin teploxodları yaralıları daşımaq üçün üzən hospitala çevrilmişdi.

1941-ci ilin avqustunda "Kaspflot" və "Kasptanker"in 30 gəmisi, o cümlədən "Dağıstan", "Baksovet", "Osetiya", "Kuybışev", "Spartak", habelə "Komintern" tankeri Xəzər sahilində döyüş əməliyyatlarında fəal iştirak etmişlər.

Xəzər dəniz nəqliyyatçıları əsl qəhrəmanlıq hünəri göstərirdilər. 1942-ci ilin yayında Bakı dəniz limanının müxtəlif təyinatlı yüklərlə dolu olduğu bir vaxtda, DMK-nın təcili tapşırığı ilə səkkiz gün ərzində Bakıdan Krasnovodska 25 min ton

marqans filizi, 2,5 min ton metal xəlitəsi və 3 min ton kükürdün yola salınması buna əyani sübutdur.[98]

1942-ci ilin ortalarında Xəzər dənizində vəziyyət xeyli mürəkkəbləşmişdi. Stalinqrad yaxınlığında döyüşlərlə yanaşı, alman-faşist təyyarələri dəmir yolları və gəmiləri də ardıcıl bombalayırdılar. Xəzər dənizçiləri düşmən təyyarələrinin gəmilərə basqınlarını dəf etməli olurdular. 1942-ci ilin oktyabrında Həştərxana gedən "Ağa-malıoğlu" gəmisi, "Jdanov" tankeri havadan hücum nəticəsində zədə almış, ağacdan düzəldilmiş 21 saylı şalanda yanmış, həmin ilin noyabrında isə yenə həmin istiqamətdə hərəkət edən "Qulubəyov" tankeri və "Amerika" şalandası batırılmışdı.[99]

Neftdaşıyan donanmanı hava basqınlarından müdafiə etmək üçün tankerlərə müdafiə topları, zenit pulemyotları qoyulmuşdu. Düşmən təyyarələrinin basqınları zamanı da Xəzər dənizçiləri böyük igidlik və mərdlik göstərirdilər. "Çiçerin" gəmisinin heyəti bir düşmən təyyarəsini vurmuşdu.

Xəzər dənizçiləri benzin daşımağa uyğunlaşdırılmamış neftdaşıyan gəmilərlə Mahaçqaladan Həştərxana və Krasnovodska 329 min ton neft məhsulları, o cümlədən 135 min ton benzin daşımışdılar.[100]

Xəzər dənizçiləri dünya təcrübəsində ilk dəfə olaraq Bakı nefti doldurulmuş sisternləri gəmilərin yedəyinə alıb aparırdılar. Bu üsulla onlar Bakıdan Krasnovodska 35 neftdaşıyan dəmir yol sisterni, Mahaçqaladan Krasnovodska hər birinin beş ton ağırlığı olan neft çənləri daşımışdılar.[101]

Müharibə dövrünün çətinliklərinə mərdliklə sinə gərən dənizçilər plan tapşırıqlarını və öhdəlikləri şərəflə yerinə yetirirdilər.

Bu illərdə "Kasptanker" cəbhə üçün 2 milyon 400 min ton benzin daşımışdı. "Kaspflot"un gəmiləri 1942-ci ildən 1945-ci ilin avqustuna qədər İran limanlarından, Krasnovodsk və Mahaçqaladan Bakıya müxtəlif təyinatlı 2783 min ton mal gətirmişdi.[102]

1941-ci ilin oktyabrından müttəfiqlər İran vasitəsilə SSRİ-yə kauçuk, mis, qalay, kimyəvi məhsullar göndərməyə başladılar.[103] SSRİ-yə gətirilən döyüş texnikası, silah, sursat və ərzağın bir hissəsi 1942-1945-ci illərdə İran körfəzindən keçməklə, İranın Xürrəmşəhr və Bəndər-Şahpur limanlarından göndərilirdi. Bu sahədə Azərbaycan dəniz nəqliyyatı işçiləri xüsusilə fərqlənirdilər.[104]

Rəşadətli əməklərinə görə Xəzər gəmiçiliyinin 1534 işçisi Sovet İttifaqının orden və medalları ilə təltif olunmuşdu. "Kasptanker"in kollektivi 14 dəfə DMK-nın Keçici Qırmızı Bayrağını, 4 dəfə ÜİHİMŞ və Dəniz Donanması Xalq Komissarlığının Qırmızı Bayrağını almışdı. "Kaspflot"un kollektivinə iki dəfə DMK-nın, beş dəfə ÜİHİMŞ və Dəniz Donanması Xalq Komissarlığının Qırmızı bayraqları verilmişdi.[105]

1941-1945-ci illərdə Azərbaycan xalq təsərrüfatından orduya 5457 yük, 371 minik maşını və 301 digər avtomobil səfərbər edilmişdi.[106]

Buna baxmayaraq, Azərbaycan avtomobil nəqliyyatı işçiləri cəbhənin ehtiyaclarının təmin olunmasında fəal iştirak etmişlər. Mövcud vasitələrdən daha səmərəli istifadə olunması üçün tədbirlər həyata keçirilirdi. 1942-ci ildə Bakıda 2 saylı avtomobil təmiri zavodu və avtomobil ehtiyatı hissələri hazırlayan "Avtodetal" zavodu yaradıldı.[107] Yol işçiləri hərbçilərin köməyi ilə daha vacib magistralları tamamilə yenidən qurdular. 1941-1945-ci illərdə qara çınqıldan örtük salınmış 919 km yol istismara verilmişdi ki, bunlar da Bakı-Astara, Arazdayan-Culfa, Bakı-Şamaxı-Gəncə-Ağstafa-Qazax-Qırmızı körpü-Gürcüstan sərhədinədək, Yardımlı-Demon, Lerik-Kəlviyaz-Sərhəd məntəqəsinədək, Xəzri-Zukul, Qusarçay-Xudat və başqa hərbi, təsərrüfat əhəmiyyətli yollar idi.[108] Eyni zamanda Astara, Laçın-Zabux və Biçənək aşırımı-Naxçıvan yolları genişləndirilib, Culfa-Tbilisi-Orconikidze yolunun Azərbaycan hissəsində hərbi məqsədlə fasiləsiz hərəkət təmin edilmişdi. Salyanda Kür çay üzərində salınan iri körpü ilə yanaşı, Göyçay, Əlincəçay, Qumbaşı, Pensərçay və digər yerlərdə iri metal və dəmir-beton körpülər tikilmişdi.[109]

Respublikamızın rabitə vasitələri və təşkilatları elə ilk günlərdən işlərini müharibənin tələblərinə uyğun qurub, cəbhə ilə arxanın fasiləsiz, möhkəm və etibarlı əlaqəsini təmin etməyə çalışırdılar.

1941-1945-ci illərdə respublikada 600-ə qədər rabitə müəssisəsi fəaliyyət göstərirdi.[110] Rayonlararası hava xətlərindən geniş istifadə edilmiş, mövcud Bakı-Moskva, Bakı-Minvod-Stavropol, Bakı-Həştərxan magistral hava nəqliyyatı xətlərinin fəaliyyəti yaxşılaşdırılmışdı.[111]

Müharibə şəraitində respublika rayonlarının hamısının Bakı şəhəri ilə telefon rabitəsi fəaliyyət göstərirdi. 1942-ci ildə müxtəlif rabitə kursları və məktəblərində, habelə fərdi şagirdlik yolu ilə cəbhəyə göndərilmiş ixtisaslı rabitə işçilərini əvəz edə biləcək 1194 nəfər rabitə işçisi hazırlanmışdı.[112] Şəhər telefon stansiyalarının sayı 84-ə, abonentlərin sayı 20489-a çatdırılmışdı.[113] 1945-ci ildə artıq 41 sovxoz, 165 kolxoz və 69 MTS telefonlaşdırılmışdı.[114] Radio rabitəsinin keyfiyyətli verilişlərlə fasiləsiz fəaliyyətinə xüsusi diqqət yetirilirdi. Respublikada radio qovşaqlarının sayı 74-dən 85-ə, radio nöqtələrinin sayı isə 60 minə çatmışdı.[115] Hərbi xəstəxanalar radiolaşdırılmış, Moskva, Ufa, Aşqabad, Tbilisi şəhərləri ilə yeni radio rabitə əlaqəsi yaradılmış, Bakı radio mərkəzində yenidənqurma və təmir işləri görülmüşdü.[116] Siyəzən və Sumqayıtda yeni radio qovşaqları qurulmuş, Neftçala, Saatlı, Mərəzə, Naftalan, Ağsu, Ağstafa, Xıllı, Xaldan və Xudatda radiolaşdırma işləri aparılmışdı.[117]

1941-1945-ci illərdə xalq təsərrüfatının bütün sahələrində və sosial-ictimai həyatda işlərin hərbin tələblərinə uyğun yenidən qurulmasında, əmək və istehsalat

intizamının güclənməsində Azərbaycan SSR xüsusilə fərqlənmişdi. Azərbaycan xalqı faşistlərlə ölüm-dirim müharibəsi aparan ölkədə ön və arxa cəbhənin yanacaq, silah, sursat, ərzaq, geyim, tibb ləvazimatı və s. strateji mallarla təmin olunmasına öz layiqli töhfəsini vermişdi. Neft Bakısının qızıl ordunun alman faşizmi üzərində qələbə çalmasında müstəsna, həlledici rolu olmuşdur.

## §3. ELM, MAARİF, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT CƏBHƏNİN XİDMƏTİNDƏ. ORDUYA ÜMUMXALQ KÖMƏYİ

Azərbaycan ziyalıları müharibənin ilk günlərindən bütün səy və yaradıcılıq fəaliyyətlərini qəsbkar faşist Almaniyasına qarşı mübarizəyə, azadlığın, humanizmin, tərəqqinin, sivil cəmiyyətin qorunmasına yönəltdilər. SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı, respublikanın elmi-tədqiqat müəssisələri, yaradıcı cəmiyyətlər, ali məktəblərin kafedraları öz işlərini müharibənin tələblərinə uyğun qurmağa başladılar. Kompleks elmi tədqiqatlar aparılması, istehsalatla canlı və sıx əlaqə cəbhəyə, hərbi təsərrüfata xidmət edən proseslərin təkmilləşdirilməsinə, yerli xammal əsasında müdafiə əhəmiyyətli strateji məhsullar, yüksək keyfiyyətli yanacaq növləri yaradılmasını sürətləndirməyə kömək edən yeni elmi istiqamətlərin, mövzuların işlənməsi elmi kollektivlərin fəaliyyətinin əsasını təşkil edirdi.

Azərbaycan alimləri zirehli texnikaya qarşı top gülləsi, özüidarəolunan bombalar, tanka qarşı elektrik minaları, çoxpilləli minalar, silahı və hərbi sursatı pas atmaqdan qoruyan vasitələr hazırlamış, əl bombaları səthinin sinkləndirilməsi və elektrik qalaylanması haqqında təkliflər irəli sürmüşdülər. Poladı, çuqunu duru yanacaqda əritməyə imkan verən texnologiya hazırlanmış və bunun nəticəsində kənardan əla növ daş kömür, koks və termoantrasit gətirməyə ehtiyac qalmamışdı. Azərbaycan alimlərinin qabaqcıl üsulları Zaqafqaziyanın poladəritmə zavodlarında da tətbiq edilirdi. Respublikanın kimyaçı alimləri Bakı sulfat turşusu zavodunda yerli xammal və materiallardan akkumulyator turşusu, həmçinin xlorlu sulfat, azot turşusu almışdılar. Yerli material və xammaldan istifadə edərək hidrogen, perozin, reaktiv toluol, bərk partlayıcı material, odadavamlı rəng və qara lak, odsöndürən vasitə, tüstü briketi və başqa məhsullar istehsalı texnologiyası istehsalata tətbiq olunmuşdu.

1941-ci ilin yayında Bakıda ilk hidrogen birləşmələri qrupu hazırlandı. Y.H.Məmmədəliyevin başçılığı altında bir qrup alim 28 gün laboratoriyadan çıxmayaraq, neft-kimya elmində böyük hadisə olan yüksək oktanlı aviasiya yanacağı əldə etdi. Akademik Y.H.Məmmədəliyevin sədrliyi ilə EA-nın Azərbaycan filialında görkəmli Azərbaycan alimləri R.H.İsmayılov, H.X.Əfəndiyev, Ə.M.Quliyev, H.B.Şahtaxtinski, V.S.Qutırya, M.A.Dalin,

S.C.Mehdiyev, Ş.A.Məmmədov, V.F.Neqreyevdən ibarət SSRİ Mərkəzi Elmi-Texniki Şurasının kimya problemləri üzrə bölməsi yaradıldı.[118] Neft emalı müəssisələrində yeni texnoloji proseslər hazırlayan 75 laboratoriya fəaliyyət göstərirdi. Alimlərin və istehsalçıların birgə işi nəticəsində Bakıda yeni neft-kimya və kimya müəssisələri, Y.H.Məmmədəliyevin ideyası əsasında yüksək oktanlı alkilbenzol və onun tərkib hissəsini istehsal edən yeni zavod fəaliyyətə başladı.

Azərbaycan alimləri mühüm hərbi əhəmiyyəti olan xlorlu metal, azoktanlı benzindən hərbi əməliyyat üçün vacib olan toluol almaq texnologiyasını hazırladılar.

Bakının elmi laboratoriyalarında tank əleyhinə şüşələrə doldurulmuş yandırıcı qarışıq və başqa partlayıcılar istehsal olunurdu.

Akademik Ə.M.Quliyev kəşf etdiyi partlayıcı maddəni sınaqdan keçirərkən baş vermiş partlayış nəticəsində bir qolunu itirmişdi.

Akademik İ.A.Orucovanın başçılığı altında Azərbaycan kimyaçıları təyyarə, tank və müxtəlif hərbi maşınlar üçün sürtkü yağları istehsalı texnologiyasını hazırlayıb istehsalata tətbiq etmişdilər.

Azərbaycan alim və mühəndisləri yeni metalkəsən dəzgahlar hazırlamışdılar. Neft maşınqayırma zavodunda K.Əliverdizadə soyuq ştamplama üsulu hazırlamış və onu istehsalata tətbiq etmişdi. Bu, silah istehsal edən müəssisələrdə fəhlələrin əməyini yüngülləşdirmiş, əmək məhsuldarlığını artırmışdı. İ.Mehdiyevanın hazırladığı avtomat qurğı silah istehsalı prosesini xeyli sadələşdirmiş, məhsulun keyfiyyətini yaxşılaşdırmışdı.

Azərbaycanın geoloq alimləri Mirəli Qaşqayın və Şamil Əzizbəyovun rəhbərliyi ilə strateji xammal - odadavamlı gil, fosforit və s. yataqları aşkar edilmişdi. "Azneft" geoloqları tərəfindən aparılmış kəşfiyyat işləri sayəsində daha 850 yüksək debitli neft mənbəyi müəyyənləşdirilmiş, 6 neft yatağı - "Qala", "Bulla-dəniz", "Buzovna", "Maştağa", "Naftalan", "Əmirxanlı" neft yataqları kəşf olunmuş, onlardan dördünün işlənməsinə başlanmışdı. "Qobustan" neft rayonunda "Duvannı" qaz yatağı aşkar edilmişdi. Utalgi yatağında yeni neft və qaz ehtiyatları müəyyən olunmuşdu.[119] Stratiqrafik yataqların aşkar olunması Azərbaycan geologiya elminin böyük uğuru idi.[120]

Şərqi Abşeronda, Qala stansiyası sahəsində "Qala lay dəstəsi" adlanan yeni zəngin neft yatağı kəşf edilmişdi. "Suraxanı" və "Qaraçuxur" yataqlarında da belə laylar aşkar olunmuşdu. Kürətrafı ovalıqdakı "Pirsaat", "Xıdırlı", "Bəndovan", "Babazənən", "Xıllı", "Neftçala" və digər strukturlarda neft yataqlarının yaranması üçün əlverişli olan dördqırışlı geoloji sistem kəşf edilmişdi.[121]

Geoloqların təklifi ilə sement, həmçinin xüsusi istiburaxmayan materiallar istehsalında vulkan külü işlənilməyə başlanmış, kəşf edilmiş mineral rəngləyicilərdən hərbi və yerli sənayedə geniş istifadə olunmuşdu.

Respublikanın fizika alimləri hərbi təşkilatların bir sıra vacib sifarişlərini müvəffəqiyyətlə yerinə yetirmişdilər: neft koksundan elektrik avadanlığı üçün material və fosforlu rənglər alınmış, neft, neft məhsulları üçün xüsusi analiz, neft kəşfiyyatında termik üsul təklif və tətbiq edilmişdi. Fiziklərin iştirakı ilə respublikada şüşə izolyatorlar təşkil olunmuş, fosforlu rəngləri gecə iş vaxtı neft sənayesinə tətbiq etməyin texnologiyası hazırlanmışdı.

Soyuducu qurğularda istifadə edilən ammiaklı qaz respublikada istehsal olunan propanla əvəzlənmişdi. Neft quyularının ikinci istismarı və neft hasilatını artırmaq, təmizləyici aparatları hərəkətə gətirən və borularda sürtünməni aşkar edən alətlərin tətbiq olunması sahəsində energetiklərin irəli sürdüyü təkliflər böyük hərbi və təsərrüfat əhəmiyyəti kəsb edirdi. Energetiklərin səmərələşdirici təklifləri duru yanacaq istehsalında itkini xeyli azaltmışdı.

Bioloq alimlər Azərbaycan ərazisində bitən dərman bitkilərinin, vitaminlə zəngin təbii çöl meyvələrinin aşkar olunmasında fəal iştirak edirdilər. Onların köməyi ilə Göyçayın yağ zavodunda ardıc kolundan efir yağı alınırdı. Professor Mustafa Topçubaşov və onun tələbələri hərbi cərrahiyyədə yeni, səmərəli metodlar işləyib hazırlamış, minlərlə yaralı döyüşçünü həyata qaytarmışdılar.

İctimai və humanitar elmlər sahəsində çalışan alimlər xalqın qəhrəmanlıq tarixindən, döyüş ənənələrindən bəhs edən əsərlər yaratdılar. 1943-cü ildə H.Hüseynov və M.Dadaşzadənin redaktəsi ilə "Azərbaycan ədəbiyyatının qısa tarixi" nəşr edildi.

1945-ci il martın 23-də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyası yaradıldı. Onun ilk prezidenti akademik M.Mirqasımov oldu. Respublikada elmi-tədqiqat işlərinin mərkəzinə çevrilmiş akademiyada 16 institut və bölmə, Şərq əlyazmaları və nadir kitablar fondu fəaliyyətə başladı.[122]

Müharibə illərində respublikanın maarif, mədəniyyət və tibb işçiləri düşmənə tezliklə qələbə çalmaq naminə cəbhədə və arxada çoxsahəli fəaliyyət göstərmişlər. Müəllimlərin əlli faizi orduya səfərbər olunmuşdu. Məktəb binalarının əksəriyyəti, xüsusən Bakıda, hospitallara və müdafiə müəssisələrinə verilmişdi. Məktəblər iki-üç növbəli iş rejiminə keçirilmişdi.

Ali məktəb və texnikum tələbələrinin yarıdan çoxu ordu sıralarına çağırılmışdı. İxtisaslı kadrlar qısaldılmış proqramla hazırlanmağa başlanmış, ali məktəblərdə təhsil müddəti azaldılmışdı. Ali məktəb tələbələrinin, yuxarı sinif şagirdlərinin hərbi-fiziki hazırlığı, tələbələrin kənd təsərrüfatı işlərində iştirakı kütləvi xarakter almışdı.

1941-ci ildə məktəbləri pedaqoji kadrlarla təmin etmək məqsədilə Qazaxda, Qubada, Xankəndində, Ağdamda ikiillik müəllimlər institutları, Cəlilabad və

Laçında pedaqoji məktəblər açılmışdı. Ölkənin işğal edilmiş rayonlarından Azərbaycana köçürülmüş müəllimlər pedaqoji işə cəlb olunurdular.

Azərbaycanın səhiyyə orqanları müharibənin ilk günlərindən öz işlərini hərbin tələbləri əsasında qurmağa, səfərbərlik planı üzrə işləməyə başladılar. İlk növbədə hospitallara, onların avadanlıqla təmin olunmasına, evlərdə, ictimai yerlərdə, dəmir yol stansiyalarında, dəniz vağzallarında sanitar qaydalarına riayət edilməsinə, sanitar-buraxıcı məntəqələrin təşkilinə xüsusi diqqət yetirildi. Hospitallar və hərbi hissələr üçün yeni tibb kadrları hazırlandı.

Yazıçılar, şairlər, bəstəkarlar, rəssamlar öz əsərləri vasitəsilə insanlarda vətənə məhəbbət, düşmənə nifrət hissi aşılayır, faşist işğalçıları üzərində qələbəyə inam yaradırdılar.

Yazıçı və şairlər - Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Səid Ordubadi, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov, Osman Sarıvəlli, Məmməd Rahim, Zeynal Xəlil, Əhməd Cəmil, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Cəfər Xəndan, Tələt Əyyubov və başqaları çağırış məntəqələrində, ordu hissələrində, müəssisə və idarələrdə insanları vətənpərvərliyə, qələbəyə səsləyən müxtəlif tədbirlərdə, mərasimlərdə fəal iştirak edirdilər.

Yazarların vətənpərvərlik mövzusunda bədii əsərlər məcmuəsi çap olundu. S.Rəhimovun, M.S.Ordubadinin, M.Paşayevin, H.Mehdinin, Ə.Məmmədxanlının, Y.Şirvanın və b. bu mövzuda əsərlərindən ibarət "Döyüşkən qələm" toplusu tərtib edildi. Yeniyetmələr və uşaqlar üçün "Vətən mahnıları" adı altında kitab nəşr olundu.

Yazıçılar, şairlər, tənqidçilər və ədəbiyyatşünaslar "Faşizm insan mədəniyyətini məhv edir" (S.Vurğun), "Faşist qaniçənləri məhv ediləcəklər" (M.Arif), "Faşizm mədəniyyətin düşmənidir" (M.Hüseyn), "Faşizmin irq nəzəriyyəsi" (A.Ağayev), "Üçüncü imperiyanın sələfi", "Xaç yürüşü baş tutmadı" (M.Cəfərov), "Tarixin dərsi", "Faşizmə ölüm" (M.Rəfili), "Azərbaycan xalqının qəhrəmanlıq dastanı" (M.İbrahimov) və digər mövzularda məruzə və məqalələrlə çıxış etdilər. S.Vurğun, M.Arif, M.Hüseyn, M.İbrahimov, İ.Əfəndiyev, Ə.Ağayev və başqalarının məqalələri daxil edilmiş "Faşizm insan mədəniyyətini məhv edir" toplusu çapdan çıxdı.

M.Hüseynin "And", S.Rüstəmin "Partizanlar", S.Rəhmanın "Fitnə", Z.Xəlilin "Namus bayrağı" pyesləri - böyük tərbiyəvi əhəmiyyəti olan əsərləri işıq üzü gördü. Azərbaycan dramaturgiyası S.Vurğunun "Fərhad və Şirin", M.Hüseynin "Nizami" kimi əsərləri ilə zənginləşdi.

Döyüşən ordu ilə canlı əlaqə, cəbhəçilərlə görüş yazıçıları və şairləri vətənpərvərlik ruhunda yeni əsərlər yaratmağa ilhamlandırırdı. Krasnodara və Novorossiyskə getmiş ilk Azərbaycan nümayəndəliyinin tərkibində respublika

neftçiləri və kənd təsərrüfatı əməkçiləri ilə yanaşı, S.Vurğun, R.Rza, Z.Xəlil, Mir Cəlal da var idi.

1942-ci ilin iyununda S.Vurğun, O.Sarıvəlli, M.Rahim, R.Rza, Ə.Vəliyev, Z.Xəlil və İ.Əfəndiyev 416-cı, 402-ci və 223-cü Azərbaycan diviziyaları ilə görüşə getmişdilər. M.İbrahimov və M.C.Paşayev 1942-ci ilin sentyabrında Uzaq Şərqdəki qızıl ordu hissələrinə yollanan nümayəndəliyin tərkibinə daxil edilmişdilər.[123]

1942-ci ilin payızında Qafqaz uğrunda gərgin döyüşlər getdiyi günlərdə də S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, M.Hüseyn, Z.Xəlil, M.Əkbər, Ə.Məmmədxanlı ön cobhələrdə, əsgərlərin yanında idilər. M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət Sevastopol və Kerçdə cənub cəbhəsi döyüşçüləri arasında səngərlərdə olmuşdular.

Yazıçı və şairlər Azərbaycan oğullarının cəbhədəki əsgəri rəşadətini, arxa cəbhə qəhrəmanlarının fədakar əməyini tərənnüm edən onlarla əsər yazmışdılar. Cəbhə üçün Azərbaycan yazıçılarının 12 külliyyatı, cəbhəçi şairlərin xüsusi şeirlər toplusu çap edilmişdi. Müharibənin ilk ilində ordu hissələrinə Azərbaycan dilində 172 adda 247 min nüsxə kitabça, 106 adda 736 min plakat, 66 adda 813 min vərəqə, 213 adda 11898 min şüar göndərilmişdi.[124]

İncəsənət xadimləri müharibə şəraitində qələbə naminə önəmli işlər görmüşlər. Azərbaycan bəstəkarları müharibə illərində 400 yeni əsər-marş, simfoniya, mahnı, opera və s. yaratmışlar. Üzeyir Hacıbəyovun "Şəfqət bacısı", "Qələbə himni", Səid Rüstəmovun "Cəbhəyə", Süleyman Ələsgərovun "Gözlə məni" mahnıları dillər əzbəri olmuşdu. Aşıq M.Bayramovun "Kamal haqqında dastan"ında azərbaycanlı gəncin faşistlərlə döyüşdəki qəhrəmanlığı tərənnüm edilirdi. 1941-ci ildə Radio Komitəsi nəzdində Ü.Hacıbəyovun təşəbbüsü ilə Xalq çalğı alətləri ansamblı təşkil olundu. Döyüşçülərə xidmət üçün cəbhə konsert briqadaları yaradılmışdı. 22 briqada döyüşən ordu hissələrində, 70 briqada sərhəd və ehtiyat hissələrində çıxış etmişdi.[125] 1941-ci il iyunun 23-dən 1943-cü ilin əvvəllərinədək incəsənət işçiləri hərbi hissələrdə 19261 konsertlə çıxış etmişdilər.[126] Mineralnıye Vodı, Kislovodsk, Pyatiqorsk, Jeleznovodsk, Yessentuki hospitallarında müalicə olunan yaralılara xidmət məqsədilə Bakıdan xüsusi briqadalar göndərilirdi.

Xalq artisti Bülbül, bəstəkarlar C.Cahangirov, Səid Rüstəmov, Niyazi və b. ardıcıl olaraq cəbhəyə gedirdilər. Onlar Belorus, Bryansk cəbhələrində olmuş, Azərbaycan diviziyalarının döyüşçüləri önündə çıxışlar etmişdilər. Teatr artistləri Kerçdə, Voroşilovqradda, Uzaq Şərqdə 100-ə qədər konsert-tamaşa təşkil etmişdilər. Müharibə illərində Azərbaycan artistləri hərbi hissələrdə 35 min konsert vermiş, Bakı teatrları və konsert təşkilatları təşviqat məntəqələrində, hospitallarda və kənd rayonlarında 15 min dəfədən artıq çıxış etmişdilər.[127]

İncəsənət xadimlərinin əsgər və zabitlər qarşısında çıxışları döyüşçülərə yüksək mənəvi ruh verir, onlarda qələbəyə inamı möhkəmləndirirdi.[128]

Azərbaycan kinematoqrafçıları hərbi xronika və vətənpərvərlik mövzusunda kinolentlər yaradırdılar. Bu dövrdə "Vətən oğlu", "Bəxtiyar", "T-9 sualtı qayığı" filmləri daha populyar idi. Cəbhəyə xidmət üçün 67 səyyar kino qurğusu, 42 kino dəzgahı göndərilmişdi.

Azərbaycan teatrlarında S.Vurğunun "Fərhad və Şirin", M.Hüseynin "Nizami", M.İbrahimovun "Məhəbbət", Z.Xəlilin "İntiqam", R.Təhmasibin "Aslan yatağı", S.Axundovun "Çətin dərə", K.Simonovun "Rus adamları", A.Korneyçukun "Cəbhə" pyesləri, gənc bəstəkarlar Q.Qarayev və C.Hacıyevin "Vətən" operası tamaşaya qoyulmuşdu.

Təsviri incəsənətin rəngkarlıq, heykəltəraşlıq, plakat və qrafika əsərləri xalqın vətənpərvərlik tərbiyəsində qüdrətli vasitə idi. Müharibənin ilk günlərindən rəssam briqadaları yaradılmışdı. İ.Axundovun rəhbərliyi ilə Q.Xalıqov, M.Nəcəfov, S.Salamzadədən ibarət rəssam briqadası 1941-ci il iyunun 25-dən iyulun 12-dək 13 siyasi plakat hazırlamışdı. "Döyüşkən karandaş" məcmuəsi buraxılırdı. Heykəltəraş P.Sabsayın başçılığı altında gənc heykəltəraşlar F.Əbdürrəhmanov, Z.Məmmədova və başqaları geniş ölçülü plakatlar hazırlamışdılar. "SİTA pəncərəsi", "Təşviqat pəncərəsi" kimi kütləvi nəşrlər fəaliyyətə başlamışdı.

Ə.Əzimzadənin və İ.Axundovun siyasi mövzuda çəkilmiş karikaturaları xalq arasında çox məşhur idi. Faşist quldurlarını tamamilə darmadağın etməyə çağırış S.Salamzadə, S.Şərifzadə, M.Rəhmanzadə, T.Babazadə, M.Abdullayev, T.Tağıyev, B.Mirzəzadə, K.Kazımov və başqalarının əsərlərinin əsas mövzusu idi. Azərbaycan fırça və tişə ustalarının əsərləri onlarca sərgidə, habelə 1943-cü ildə Moskvanın Tretyakov Qalereyasında nümayiş etdirilmişdi.

Azərbaycan ruhaniləri də xalqın düşmənə qarşı mübarizəyə səfərbər olunmasında fəal iştirak edirdilər. 1944-cü il aprelin 14-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi təşkil olundu. Zaqafqaziya müsəlmanlarının Birinci qurultayında Ruhani İdarəsinin sədri-şeyxülislam, sədr müavini - müfti və idarə üzvləri seçildi. İdarənin ilk sədri şeyxülislam Ağa Əlizadə Təzəpir məscidindəki birinci moizəsində dindarları hökumətin qanunlarına itaət göstərməyə, bu yolla "dini hifz etməyə" çağırdı.[129]

Müharibə xalqın bütün maddi və mənəvi qüvvələrini ciddi sınağa çəkmişdi. Əhalinin böyük əksəriyyəti bütün fəaliyyətini cəbhənin mənafeyinə, düşmənin tezliklə darmadağın olunması vəzifəsinə tabe edərək, müharibənin ilk günlərindən yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirir, ümumxalq vətənpərvərlik təşəbbüsü göstərirdilər. 1941-ci ilin payızı və qışında bütün ölkədə sovet döyüşçüləri üçün isti paltar toplamaq hərəkatı başlandı. 1941-ci ilin sentyabrında partiyanın "Əhali

arasında qızıl ordu üçün isti şeylər və paltar toplamaq barəsində" xüsusi qərarı ilə bu hərəkat daha da genişləndi. Azərbaycan hökuməti isti paltar və ərzaq bağlamalarının toplanmasını təşkil etmək üçün 1941-ci ilin oktyabrında xüsusi respublika komissiyası, yerlərdə isə 6 min komissiya yaratmışdı. Uzaq kəndlərdə xüsusi məntəqələr təşkil edilmişdi. Təkcə 1941-ci ilin sonunda, yeni il bayramı ərəfəsində Azərbaycan əhalisi cəbhəyə 63,7 min bağlama göndərmişdi. Komsomolçular 200 min dəst isti paltar toplayaraq döyüşçülərə yola salmışdılar. İsti geyim toplamaqla yanaşı, onlara kollektiv və şəxsi sovqat göndərmək hərəkatı da başlanmışdı.[130] Lenin rayonunun neftçiləri döyüşçülərə 1040, Orconikidze rayonu zəhmətkeşləri 1138, Dzerjinski rayonunun fəhlələri və evdar qadınları iki min müxtəlif bağlama göndərmişdilər. Kurortologiya Elmi-Tədqiqat İnstitutunun kollektivi cəbhəyə, yaralılara ilk tibbi yardım üçün beş mindən çox fərdi tibb paketi yollamışdılar.[131]

Respublikanın zəhmətkeşləri cəbhəyə 1942-ci ilə qədər 2000 bağlama və 146 vaqon ərzaq və s. məhsul göndərmişdilər.[132]

Bayramlar ərəfəsində Vətən müdafiəçilərinə bağlamalar hədiyyə etmək ənənəyə çevrilmişdi.[133] 1941-1943-cü illərdə ordu döyüşçülərinə 1601 min isti geyimsırıqlı, gödəkçə, keçə çəkmə, corab, əlcək, qulaqlı papaq və s. göndərilmişdi.

1941-42-ci illərdə ölkədə vətəndaşların şəxsi qənaətləri hesabına tank dəstələri və hava eskadronları yaratmaq hərəkatı geniş vüsət aldı. Azərbaycanda bir çox alimlər, ədəbiyyat və incəsənət xadimləri, təsərrüfat rəhbərləri, istehsalat qabaqcılları tank kolonnaları və hava eskadronları fonduna şəxsi qənaətləri hesabına vəsait verirdilər. SSRİ xalq artisti Üzeyir Hacıbəyov Dövlət Müdafiə Komitəsinə ünvanlanmış məktubunda yazırdı: "Mən Azərbaycan incəsənəti" tank kolonunun yaranması üçün 25 min manat verdim, qoy bizim vəsaitimizlə yaradılmış tank kolonu minlərlə sovet zirehli maşını ilə birlikdə düşmənin bel sütununu sındırsın, ona ölümcül zərbə endirsin".[134] "Azərbaycan kolxozçusu" tank kolonnasının hazırlanması üçün kolxozçular vəsait yığımına başlamış və öz qənaətlərindən dövlət bankına 81020 min manat keçirmişdilər. Respublika kolxozçu kəndliləri "Azorbaycan kolxozçusu" təyyarələr eskadronu yaratmaq üçün əlavə 70784 min manat yığmışdılar.

Kənd əhalisi şəxsi təsərrüfatlarından qızıl ordu fonduna 18 min baş iribuynuzlu heyvan, 152 min pud taxıl, 170 min pud digər kənd təsərrüfatı məhsulu vermişdilər.[135]

Ordunun hərbi texnika ilə təchizində iştirak etmək təşəbbüsü respublika əhalisinin müxtəlif təbəqələri arasında geniş yayılmışdı.Bu hərəkatın iştirakçıları sırasında ağsaçlı qocalar da, komsomolçular da, pionerlər də var idi.

Naxçıvan MSSR zəhmətkeşləri tank kolonnası və hava eskadronu fonduna 8,1 milyon manat, DQMV zəhmətkeşləri 11,2 milyon manat, Abşeron əhalisi 10,1

milyon manat, Qaryagin (Füzuli) rayonu əhalisi 4,7 milyon manat vermişdilər. 1941-1943-cü illərdə Azərbaycan fəhlələri, kəndliləri və ziyalılarının nümayəndələri bu fonda 230 milyon manatdan çox vəsait göndərmişdilər.[136]

Müharibə illərində Azərbaycan fəhlə və kəndliləri, ziyalıları müdafiə fonduna şəxsi əmlaklarından 15,5 kq qızıl, 952,5 kq gümüş, 295 milyon manat pul, 15 milyon manatlıq qızıl istiqraz vermişdilər. Bundan əlavə, 1,5 milyon manatlıq istiqrazlara yazılmış, pul-şey lotereyaları almışdılar.[137]

1943-cü ilin yazında respublika zəhmətkeşlərinin vəsaiti hesabına yaradılmış "Bakinski raboçi" hərbi hava bölməsi təyyarələrinin ilk hissəsi - Azərbaycan SSR ərazisində yenidən formalaşdırılan 833-cü hava alayının üzərində qırmızı hərflərlə "Bakinski raboçi" yazılmış təyyarələri verilmişdi. Bu alay Krasnodar, Taman, Sevastopol, Xarkov, Minsk, Tilzit rayonlarındakı hava döyüşlərində iştirak etmişdi.

Azərbaycan faşist işğalçılarından azad edilmiş rayonlarda xalq təsərrüfatının bərpasına fəal kömək göstərmişdi. 1943-cü ilin payızında bu məqsədlə respublika yardım komitəsi və onun rayon komissiyaları təşkil olunmuşdu. Şimali Qafqaz neftçilərinə, Leninqrad, Stalinqrad, Stavropol, Qaraçay, Ukrayna təsərrüfatlarına çoxlu pul, ərzaq, tikinti materialı, mal-qara, istehsal avadanlığı və s. göndərilirdi. Gəncə əhalisi Pyatiqorsk, Şəki əhalisi Georgiyevsk, Qasım İsmayılov kolxozçuları Mozdok şəhərlərini himayəyə götürmüşdülər.[138]

Azərbaycan kolxozçuları SSRİ-nin azad edilmiş rayonlarına kömək olaraq 1500 kotan, 200 ton sement, 25 min pud taxıl, 287 kq yağ və başqa kənd təsərrüfatı məmulatı göndərmiş, min hektarla sahədə taxıl əkmiş və xeyli mal-qara bəsləmişdilər.[139]

DMK-nın 22 sentyabr və ÜİK(b)P MK-nın 8 oktyabr 1941-ci il tarixli qərarlarında yaralı döyüşçü və komandirlərə tibbi xidmətin yaxşılaşdırılması və köçürmənin qaydaya salınması qarşıya qoyuldu. Cəbhəyə ümumxalq köməyinin tərkib hissələrindən biri yaralılara qayğı olmuşdur. Yaralı əsgər və zabitlərin tez sağalıb döyüşən ordu sıralarına, yaxud əmək cəbhəsinə qayıtmasını təmin etmək üçün onlara yüksək keyfiyyətli tibbi xidmətin təşkilinin böyük hərbi və xalq təsərrüfatı əhəmiyyəti var idi.

Böyük Vətən müharibəsinin ilk günlərindən Azərbaycan ərazisində hərbi hospitalların təşkilinə başlanmışdı. 1941-ci ildə respublikada 76 hərbi hospital yaradıldı. Naxçıvan, Şuşa, Şəki, Hacıkənd, Mərdəkan və Buzovnada yerləşən sanatoriyalar və istirahət evləri hərbi hospitallara çevrilmişdi. Səhiyyə işçilərinin ən qabaqcıl nümayəndələri - təcrübəli həkimlər hərbi hospitallarda çalışırdılar.

1942-ci ilin yanvarında tibb elmləri doktoru, professor Əziz Əliyevin sədrliyi ilə Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsi yaradıldı.

Azərbaycan zəhmətkeşlərinin yaralılara qayğısı həkimlərin fədakar əməyində, qanvermə hərəkatında, fəhlələrin və kolxozçuların himayəçilik işlərində təzahür edirdi. Azərbaycan Xalq Tibb Komissarlığının Hərbi Hospitallar İdarəsinin baş cərrahı, tibb elmləri doktoru, professor M.A.Topçubaşovun xidmətləri xüsusilə qeyd olunmalıdır. O, cərrahlığa xeyli yenilik gətirdi, ən mürəkkəb cərrahi əməliyyatları böyük ustalıqla həyata keçirərək, yüzlərlə döyüşçünün həyatını xilas etdi. Həkimlər M.Abbasov və S.Axundov cəbhədə gözlərini itirmiş 200-dən çox döyüşçüyə yenidən görmək sevinci bəxş etdilər. Professor M.Mirqasımov, F.Əfəndiyev, M.Məlikov, Z.Məmmədov və b. yaralı döyüşçülərə səmərəli xidmətlərinə görə yüksək dövlət mükafatlarına layiq görüldülər.[140]

Yaralıların müalicə edilib ordu sıralarına qayıtmasında respublikamızda sayı gündən-günə artan donorların böyük xidməti olmuşdu. Qafqaz uğrunda döyüşlər zamanı instituta çevrilmiş respublika Qanköçürmə Stansiyasının kollektivi yaralı əsgər və zabitlərin müalicəsində böyük rol oynamış, yaxşı işinə görə dəfələrlə DMK-nın, Zaqafqaziya və Şimali Qafqaz cəbhələri komandanlığının təşəkkürünü almışdı.

Böyük Vətən müharibəsində cəbhəyə və ölkə iqtisadiyyatına xidmət və qayğı göstərməklə Azərbaycan xalqı, öncə onun ziyalıları sovet ordusunun alman faşizmi üzərində qələbəsinə mühüm töhfə vermişlər.

II FƏSİL

# AZƏRBAYCAN DÖYÜŞÇÜLƏRİ MÜHARİBƏ CƏBHƏLƏRİNDƏ

## §1. MÜHARİBƏNİN İLK DÖYÜŞLƏRİNDƏ. STALİNQRAD VƏ QAFQAZ CƏBHƏLƏRİNDƏ

Faşist işğalçılarının ilk ağır zərbələri ilə üzləşən sovet sərhədçiləri qəhrəmancasına müdafiə olunurdular. Əfsanəvi Brest qalası döyüşlərində Azərbaycandan onlarca döyüşçü – hərbi həkim M.Qədirov, siyasi işçi A.Kastryulin, əsgərlər İ.Səfərov, İ.Dadaşov, A.İmanov, M.Məmmədov, A.Qafarov, A.Mənsurov, V.Xanikin, X.Məmmədov, Ə.Əliyev, D.Abdullayev fövqəladə mərdlik göstərmişlər. Həkim M.Qədirov arasıkəsilməyən atəş altında cərrahiyyə əməliyyatları aparmaqla yanaşı, şəhərin müdafiəsinin son gününədək, sağ qalmış kiçik bir qrup döyüşçü ilə düşmənin hücumlarının qarşısını alaraq, əlbəyaxa döyüşdə bir neçə faşisti məhv etmişdi. 1941-ci il iyunun 30-da düşmən mühasirəsindən çıxmaq uğrunda baş vermiş əlbəyaxa döyüşdə A.İmanov və İ.Səfərov xüsusilə fərqlənmiş, faşistləri geri oturtmuşdular.[1] Leytenant D.Cəfərovun başçılığı altında kiçik döyüşçü dəstəsi yeddi gün düşmən hücumlarına sinə gəlib, onlarca faşisti məhv etmişdi.[2] Prut çayı yaxınlığında gedən döyüşdə siyasi işçi Kamal Qasımov altı döyüşçü ilə birlikdə üç gecə dalbadal, arasıkəsilməyən amansız atəş altında üç körpünü partladaraq düşmənin çaydan keçməsinin qarşısını almış, dördüncü gün əlbəyaxa döyüşdə igidliklə şəhid olmuşdu.[3]

Leninqrad müdafiəçisi, snayper M.İsmayılov iyulun 22-də sərhədi keçmək istəyən on bir düşməni sərrast atəşlə sıradan çıxarmış və igidliyinə görə Lenin ordeninə layiq görülmüşdü. O vaxt "Bolşevik" jurnalı yazırdı ki, "ilk döyüşdə nəzarətçi-snayper M.İsmayılov düşmənin bütöv bir dəstəsini məhv etdi".[4]

Leninqrad səmasının müdafiəçilərindən biri - leytenant Hüseynbala Əliyev böyük igidlik göstərdi. Şəhər üzərində ilk hava döyüşlərində o, dörd düşmən təyyarəsini vurdu. 1941-ci il iyulun 17-də döyüş tapşırığını uğurla yerinə yetirib geriyə qayıdarkən o, buludlar arasından şığıyan üç düşmən təyyarəsini gördü. İgid təyyarəçi düşmən üzərinə sürətlə hücum etdi və dəqiq atəşlə "YU-88" faşist təyyarəsini vurdu. Qeyri-bərabər döyüşdə düşmənin ikinci təyyarəsini də vurdu, üçüncü təyyarə üzərinə tarana gedəndə Hüseynbalanın kabinəsində top gülləsi partladı. 80, o cümlədən üç ölümcül yara alan təyyarəçi təyyarəsini yerə endirə bildi, özü isə həlak oldu. Göstərdiyi igidliyə görə H.Əliyev ölümündən sonra Lenin ordeni ilə təltif edilmişdi.[5]

Müharibənin dördüncü günü, iyunun 25-də Qara dəniz Donanmasının 63-cü aviasiya briqadasının təyyarəçisi Məzahir Abasov hitlerçilərin bazası Konstansanı bombalamaq tapşırığını yerinə yetirərkən iki "ME-109" təyyarəsinin hücumuna məruz qalmışdı. M.Abasov təyyarə motorunun zədə almasına baxmayaraq, düşmən təyyarələri ilə qeyri-bərabər döyüşə girmiş, onlardan birini vurmuş, digər təyyarəni isə qaçmağa məcbur etmişdi. Təyyarəsinin ikinci motoru da sıradan çıxdıqda, igid şahin onu ustalıqla dənizin səthinə oturtmuş və bir neçə gün su üzərində qalmışdı. M.Abasov igidliyinə görə Qırmızı Bayraq ordeni ilə təltif edilmişdi.

1941-ci ilin yayında Poltava yaxınlığında gedən döyüşlərdə R.Rəfiyevin tankçılar bölməsi düşmənin iki ağır tankını, 16 topunu və 50-dən artıq əsgərini məhv etmişdi.

1941-ci ilin payızında alman-faşist ordusu Baltikyanı ölkələri, Ukrayna və Belorusiyanı zəbt edib, Leninqradı mühasirəyə aldı, böyük qüvvələrlə Moskvaya doğru hücuma keçdi. Faşist komandanlığı Moskvanı hələ 1941-ci ilin yayında ələ keçirməyi planlaşdırsa da, sovet ordusunun müqaviməti buna imkan vermədi. Alman-faşist komandanlığı 1941-ci ilin sentyabrında Moskvanı almaq üçün yeni qoşun - canlı qüvvə və texnika gətirdi. Canlı qüvvəyə görə faşistlər Moskva müdafiəçilərindən 1,8 dəfə, tankların sayına görə 1,5, topların, minomyotların sayına görə 1,25 dəfə və təyyarəçilərin sayına görə 3,2 dəfə, çox idi.[6]

1941-ci il sentyabrın 30-da alman-faşist qoşunları Moskva istiqamətində hücuma keçdilər. Ölkənin paytaxtı təhlükə altında idi.

Moskva uğrunda qanlı vuruşmalarda Azərbaycan döyüşçüləri də fərqlənmişdilər. Tank hissəsinin komandiri, kapitan Həzi Aslanov qeyri-adi sərkərdə bacarığı göstərərək, əsgərlərini və döyüş sursatı yüklənmiş beş avtomobili mühasirədən çıxarmış, daha sonra yaralanmış tankçını əvəz edərək, tankı faşistlərin səngərinə yönəltmiş və düşməni məhv etmişdi. H.Aslanov qəhrəmanlığına görə Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu.[7]

1941-ci ilin noyabrında Müseyib Allahverdiyevin komandanlığı altında sovet əsgərləri tərəfindən Moskva ətrafında taktiki cəhətdən çox vacib təpədə bir gün ərzində sayca çox düşmənin üç hücumu dəf olunmuş, yüzdən artıq düşmən, 2 tank və 2 özühərəkətedən top məhv edilmişdi. Bu şücaətə görə M.Allahverdiyev Qırmızı Ulduz ordeninə layiq görülmüşdü. Leytenant M.Paşayevin zenitçiləri Moskva ətrafında 10 düşmən təyyarəsini vurmuş, xüsusi fərqlənmiş komandir Qırmızı Ulduz ordeni ilə təltif olunmuşdu.[8]

Pulemyotçu İdris Vəliyev məşhur Borodino çölündə gedən döyüşlərdə ağır yaralanmasına baxmayaraq, 75-dən artıq faşisti məhv etmişdi. 1941-1942-ci illərin qış hücumu zamanı qvardiyaçı pulemyotçunun hesabında 160-dan artıq məhv edilmiş faşist vardı. İ.Vəliyev "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi.[9]

Moskva uğrunda döyüşlərdə Azərbaycan qızları Z.Seyidməmmədova, S.Quliyeva, N.Korneyeva, O.Şahbazova və başqaları igidliklə vuruşmuşdular. Cərrah Aliyə Rüstəmbəyova onlarca yaralının həyatını xilas etmişdi.[10]

1941-ci il dekabrın 5-6-da sovet ordusunun əks-hücumunda -Moskva, Tula, Kalinin, Orlov və Smolensk vilayətlərinin azad edilməsi uğrunda döyüşlərdə Azərbaycan oğul və qızları qəhrəmanlıqla vuruşmuşdular. Qvardiya kapitanı Muxtar Süleymanov hücumların birində, əlbəyaxa döyüşdə altı faşist əsgərini və bir zabiti qılıncla məhv etmişdi. Volokolamsk şəhəri uğrunda döyüşlərdə komandanlıqla hissələr arasında əlaqə kəsildiyi zaman M.Süleymanov həlak olmuş rabitəçini şəxsən əvəz edərək, arasıkəsilməyən atəş altında əlaqəni bərpa etmiş, xidmətlərinə görə Qırmızı Bayraq ordeni ilə təltif olunmuşdu.

1941-ci il dekabr ayının əvvəllərində Moskva uğrunda qızğın döyüşlər zamanı baş serjant İsrafil Məhərrəm oğlu Məmmədovun əfsanəvi igidliyi bütün ölkəyə yayıldı. İ.Məmmədovun xidmət etdiyi hissə Novqorod vilayətinin Pustınka kəndi yaxınlığında mövqe tutub, rabitə xəttini və komanda məntəqəsini müdafiə edirdi.

Güclü top atəşindən sonra sovet döyüşçülərinin tutduğu mövqeyə hücuma keçən minə qədər düşmən 30-40 metrə qədər yaxın buraxılaraq dəqiq atəşlə məhv edildi. Hitlerçilər yenidən hücuma keçdilər, doqquz saat davam edən şiddətli döyüşdən sonra İ.Məmmədovun başçılığı altında olan kiçik dəstə düşməni 100 metrə qədər geri atdı, lakin düşmən bütün qüvvələrini toplayaraq yenidən həmlə etdi. Vəziyyət ağırlaşmışdı. Sovet döyüşçülərinin yarıdan çoxu sıradan çıxmışdı. Qumbara və patronların çatışmadığını, döyüşçülərin yorulduğunu görən İ.Məmmədov düşməni 10-15 metr məsafəyə buraxmaq əmri verdi. Düşmən yaxın məsafədən atəşə tutuldu. İ.Məmmədov "Yoldaşlar, faşistləri nizə ilə məhv edək!" - deyə hayqıraraq 5 sağ qalmış döyüşçü ilə düşmən üzərinə şığıdı və əlbəyaxa döyüşdə onlarca faşist öldürüldü. Qalanlar geri çəkilməyə məcbur oldular. Beləliklə, İ.Məmmədov 10 saat ərzində hitlerçilərin bütöv bir batalyonunun hücumunun qarşısını almış, nəticədə yüzlərlə düşmən əsgəri və zabiti məhv edilmişdi. Döyüşlərdə xüsusi iradə, döyüş məharəti, şəxsi şücaət, qəhrəmanlıq göstərmiş İ.Məmmədov özü təkbaşına 700 faşist öldürmüşdü. 1941-ci il dekabrın 11-də SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə İ.Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi. İsrafil Məmmədov xalqını, millətini ucaldan ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı idi."

Moskva uğrunda döyüş Sovet Silahlı Qüvvələrinin qələbəsi ilə başa çatdı.

Sovet ordusunun 1942-ci il qış hücumunda iştirak edən azərbaycanlılar da igidliklə vuruşmuş, döyüş rəşadəti nümunələri göstərmişlər. Qərb cəbhəsində gənc zabit N.Bağırovun komandası altında tankçılar rotası bir neçə gün davam etmiş hücum əməliyyatlarında düşmənin 18 tankvuran topunu, 34 pulemyot yuvasını və

yüzdən çox piyadasını məhv edərək, onu 6 yaşayış məntəqəsindən qovub çıxarmışdı. Döyüş xidmətlərinə və komandirlik bacarığına görə N.Bağırov "Qırmızı Ulduz" və I dərəcəli Vətən müharibəsi ordenləri ilə təltif olunmuşdu.[12]

Kapitan A.Abbasovun komandiri olduğu batalyon sovet qoşunlarının Belqorod yaxınlığındakı əks-hücumlarında iştirak edərək, 17 yaşayış məntəqəsini faşistlərdən təmizləmişdi. Döyüşlərdə fərqlənmiş A.Abbasov "Qırmızı Bayraq" ordeninə layiq görüldü. Tanınmış atıcı S.Quliyev Qərb cəbhəsində faşistlərin güclü tank hücumunu dəf etdi, bir tankını vurdu. O, göstərdiyi bu igidliyə görə, "Qırmızı Bayraq" ordeni ilə təltif olundu.[13]

Moskvanın müdafiəsi dövründə alman-faşist ordusu Krım üzərinə geniş hücuma keçdi. Oktyabrın 20-də Sevastopolun 250 gün davam edən müdafiəsi başlandı. Sevastopolun qəhrəman müdafiəçiləri sırasında yüzlərlə azərbaycanlı vuruşurdu. Qvardiyaçı yefreytor H.Həsənov yeddi döyüşçü ilə birlikdə sayca üstünlük təşkil edən faşistlərin ardıcıl hücumlarını dəf edərək, onları geri oturtmuşdu.

Bölmə başçısı B.Nağıyev düşmən səngərinə atılaraq süngüsü ilə üç faşisti öldürmüşdü. 19 yaşlı Mirzəcəlal Yusifov sayıqlıq göstərərək öz döyüş dəstəsi ilə birgə faşist sualtı qayığının yerini aşkarlayıb onu məhv etmişdi. Qəhrəman Sevastopolun müdafiəsində Azərbaycanın şöhrətli qızları A.Həsənova, Ş.Məmmədova, E.Rzayeva, L.Nazarenko mətanət və igidlik nümayiş etdirmişlər.[14]

1941 -1942-ci illərin qışında sovet ordusunun Kerç yarımadasındakı desant əməliyyatında 77-ci Azərbaycan atıcı diviziyası da iştirak edirdi. 1941-ci il dekabrın 23-dən 1942-ci il yanvarın 8-nə qədər diviziya Taman yarımadasından Ağ-Manay rayonuna çatdı, onun 105-ci atıcı alayı hitlerçiləri mühüm taktiki əhəmiyyəti olan Vladislavnovkadan çıxardı. 1942-ci ilin fevralında diviziya düşmənin 18-ci piyada diviziyasını sıxışdıraraq Jantar, Tulumçaq və Klet kəndlərini azad etdi. Azərbaycan tank diviziyası döyüşçüləri taktiki döyüş aparmaq ustalığı nümayiş etdirərək faşist diviziyasının 27 tankını sıradan çıxarmışdılar.[15]

77-ci diviziya 1942-ci ilin martında geri çəkilməyə məcbur olan sovet qoşunlarının Taman yarımadasına itkisiz keçməsinə şərait yaratdı. Diviziyanın 105-ci atıcı alayı Otuztəpə rayonunda 12 tankı və 200 düşmən əsgərini məhv etdi. Krım uğrunda döyüşlərdə diviziya alayları düşmənin 34 tankını, 10 minomyot və top batareyasını, 1500 əsgər və zabitini sıradan çıxarmışdı. 77-ci diviziya Kerçdən Taman yarımadasına keçən son sovet hərbi hissələrindən biri oldu. Komissar Novruz Aslanovun batalyonu Azov dənizi sahilinə desant çıxarmaq istəyən 7 faşist qayığını batırmışdı.

77-ci diviziya Novorossiysk şəhəri uğrunda ağır döyüşlərdə də fərqlənmiş, düşmənin 19 tankını, 15 silahla dolu maşınını, 22 minomyot batareyasını və 40-dan çox topunu sıradan çıxarmış, 172 hitlerçini əsir götürmüşdü.[16]

1942-ci ilin yay və payızında Böyük Vətən müharibəsinin gedişində həlledici rol oynamış Stalinqrad döyüşlərində hər iki tərəfdən 2 milyon hərbçi iştirak edirdi. Döyüşlərə 2 min tank, 1 min təyyarə, 26 min top və minomyot cəlb olunmuşdu.[17]

1942-ci il iyulun 14-də Stalinqrad vilayətində hərbi vəziyyət elan olundu. Şəhər ətrafında müdafiə xətlərinin tikintisinə başlandı. Stalinqradı müdafiə edən ordunun tərkibinə əlavə qüvvələr daxil edildi. Bütün ölkə, bütün xalq "Bir addım da geri çəkilmək olmaz!" şüarı ilə Volqa istehkamının müdafiəsinə qalxdı. Sovet xalqının fədakar əməyi və böyük səyi nəticəsində Volqa çayı sahili alınmaz qalaya çevrildi.

Stalinqrad döyüşlərində sovet əsgərləri kütləvi qəhrəmanlıq nümayiş etdirərək, son nəfəslərinədək vuruşdular. Stalinqradı ölkənin bütün xalqlarının nümayəndələri müdafiə edirdilər. 1942-ci ilin oktyabrında leytenant Mikayıl Qədirov 11 döyüşçü ilə strateji əhəmiyyətə malik təpəni 12 gün müdafiə etdi. Hücuma keçən 400 faşistlə qeyri-bərabər döyüşdə düşmənin 120 canlı qüvvəsini sıradan çıxardı.[18] Volqoqrad zəhmətkeş deputatları Soveti vilayət İcraiyyə Komitəsinin qərarı ilə leytenant M.Qədirovun döyüşçüləri tərəfindən müdafiə olunan bu təpəyə "On bir qəhrəman təpəsi" adı verildi.[19]

İgid təyyarəçi Hüseynbala Əliyev Stalinqrad səmasını müdafiə edərkən faşistlərin 10 tankını, 2 zirehli maşınını, 5 zenit topunu, 26 avtomobilini, 190 əsgər və zabitini sıradan çıxarmışdı.

Stalinqrad uğrunda kişilərlə çiyin-çiyinə azərbaycanlı qadınlar da mərdliklə vuruşurdular. İlk azərbaycanlı qadın, hərbi təyyarəçi-kapitan Züleyxa Seyidməmmədova 40-dan artıq səma döyüşündə iştirak etmişdi. Onun döyüş xidmətləri Vətən müharibəsi ordeninə və medallara layiq görülmüşdü.[20] Respublikanın onlarca qızı "Stalinqradın müdafiəsi uğrunda" medalı almışdı.

Stalinqrad yaxınlığında pulemyotçu Ə.Rəcəbov mühüm strateji əhəmiyyətli təpəni az qüvvə ilə müdafiə edərək düşmənin 200-dən artıq əsgər və zabitini öldürmüşdü. Sovet hökuməti Ə.Rəcəbovu döyüş xidmətlərinə görə Lenin ordeni ilə təltif etmişdi.[21]

Qvardiya leytenantı A.Axundovun başçılıq etdiyi pulemyotçular şəhərdə gedən küçə döyüşlərində 525 faşisti sıradan çıxarmışdılar. Əsgəri rəşadətinə görə A.Axundov "Qırmızı Bayraq" və "Qırmızı Ulduz" ordenləri ilə təltif olunmuşdu.[22]

1942-ci ilin sentyabrında Stalinqrad cəbhəsində snayperçilik hərəkatının təşəbbüskarı, snayper Baloğlan Abbasov 25 faşist əsgər və zabitini məhv etmişdi. B.Abbasovun hazırladığı snayperlər 50 gün ərzində 615, özü isə 106 hitlerçini öldürmüşdü. 1942-ci il noyabrın 19-da B.Abbasov həlak olmuş tank komandirini əvəz edərkən, faşistlərlə ağır döyüşdə şəhid olmuş, ölümündən sonra Qırmızı

Bayraq ordeninə layiq görülmüşdü. Cəbhə Ali Şurasının qərarı ilə B.Abbasovun adı daimi olaraq diviziyanın şəxsi heyəti siyahısına daxil edilmişdi.[23]

1942-ci il noyabrın 19-da qızıl ordu Stalinqrad cəbhəsində hücuma keçdi. Noyabrın 20-də isə Cənub-qərb və Don cəbhələri qoşunları düşmənə güclü zərbələr endirdi. Hücumun beşinci günü sovet qoşunları Kalaç rayonunda faşistlərin 6-cı ordusunun mühasirə dairəsini sıxışdırdılar. Düşmənin 22 diviziyası mühasirəyə alındı. Hitlerçilərin mühasirəni yarmaq üçün etdikləri bütün cəhdlər boşa çıxdı. 1943-cü il fevralın 2-də düşmən təslim oldu.[24]

Stalinqrad ətrafında əks-hücumlar zamanı 55-ci xüsusi tank alayının komandiri podpolkovnik Həzi Aslanov mahir hərbi sərkərdə istedadı nümayiş etdirdi. 1942-ci il noyabrın 19-da onun tank alayı Barmanktsak gölü rayonunda hücuma keçərək bir neçə saat ərzində düşmənin 4 tankını, 5 minomyot batareyasını, bir ağır topunu, 3 piyada rotasını sıradan çıxardı və 700 hitlerçi əsgər və zabiti əsir aldı. Həmin gün H.Aslanovun tankçıları hücumu davam etdirərək Plodovito kəndini almanlardan təmizlədilər. Noyabrın 21-də H.Aslanovun tank alayı Stalinqrad-Silsk dəmir yoluna çıxdı və piyadalarla birgə Abqanerovo və Sovetski stansiyasına daxil oldu. H.Aslanovun tankçıları Kotelnikovo tərəfə hərəkət edərək, dekabrın 16-da Verxne-Kumsk kəndi yaxınlığında düşmənin mühasirəyə alınmış 6-cı ordusunun köməyinə 70 tankla tələsən Manşteyn qoşununun bir qrupunun qarşısını kəsdi. Aslanov tankçıları düşmənlə 6 gün davam edən ağır döyüşdə mətanət göstərərək, qat-qat artıq qüvvəyə malik faşistlərin 12 hücumunu dəf etdilər. Döyüşdə aslanovçular düşmənin 45 tankını, 9 minomyot batareyasını, 14 tank əleyhinə və 12 səhra silahını, 50 avtomobilini və 700-dən çox canlı qüvvəsini sıradan çıxardılar. 700 hitlerçini əsir götürdülər. 1942-ci il dekabrın 31-də SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verildi. H.Aslanovun 55-ci tank alayının 100-dən çox döyüşçüsü SSRİ-nin orden və medalları ilə təltif olundu, alay isə qvardiya alayına çevrildi.[25]

Stalinqrad döyüşündə 4-cü süvari korpusunun komandir müavini H.A.Quliyev düşmənin müdafiə xəttini yararaq 1941-ci il noyabrın 19-da Aksaysk şəhərini azad etdi. 1942-ci ilin dekabrında Kolotnikovo rayonunda şiddətli döyüşdə bu qoşun hissəsi Manşteynin qoşunlarının bir neçə hücumunun qarşısını aldı. Lakin bu ağır döyüşlərdən birində general Y.Yaqubov şəhid oldu. O, ölümündən sonra Lenin ordeni ilə təltif edildi.[26]

Kəşfiyyatçı Əli Kərimov general Paulüsun qərargahının yerləşdiyi "Univermaq" rayonuna gecə kəşfiyyatına getdi və qərargah zabitini əsir götürdü. Paulüsun əsir alınmasında şəxsən iştirak etdi. Döyüşlərdə göstərdiyi igidliklərə görə Ə.Kərimov "Qırmızı Ulduz" ordeni ilə təltif olundu.

Qvardiya baş leytenantı Həmzə Sadıxov Volqadakı döyüşlərdə fəal iştirakına və alman general-leytenantı Paulüsun əsir alınmasında iştirakına görə "Qırmızı Ulduz" ordeninə layiq görüldü.[27]

Sovet ordusu Stalinqrad cəbhəsində faşist Almaniyasına ağır və sarsıdıcı zərbə vurdu. Faşistlər 1,5 milyon əsgər və zabit, 3 mindən çox tank, top, minomyot, 4,4 min döyüş və nəqliyyat təyyarəsi itirdilər. Stalinqrad qələbəsində SSRİ-nin bütün xalqları nümayəndələrinin, o cümlədən Azərbaycan əsgər və zabitlərinin də payı vardı. 1942-ci ilin axırında SSRİ Ali Soveti Rəyasət Heyətinin təsis etdiyi "Stalinqradın müdafiəsi uğrunda" medalı ilə 1600-dən artıq azərbaycanlı təltif olunmuşdu.

Volqa sahilində qələbənin böyük hərbi-strateji, tarixi və beynəlxalq əhəmiyyəti oldu.[28]

Qafqaz uğrunda da ağır döyüşlər gedirdi. Qafqaz hitlerçilərin qəsbkarlıq planında iqtisadi, hərbi və siyasi cəhətdən əsas məntəqələrdən biri idi. Hitler ordusu yanacağa olan böyük ehtiyacını aradan qaldırmaq üçün, ilk növbədə, qızıl ordunu Qroznı və Bakı neftindən məhrum etmək istəyirdi. 1942-ci ilin yayında Hitler elan etmişdi ki, Almaniya Maykop və Qroznı neftini ələ keçirməsə, müharibəni davam etdirə bilməyəcəkdir.

Qafqazı zəbt etmək məqsədilə alman-faşist ordusunun qərargahı "Edelveys" adlı xüsusi plan hazırlamışdı.[29] Düşmən üç istiqamətdə hücum edib qərb istiqamətində Qara dəniz sahilinə çıxmaq və oradan Zaqafqaziyaya hücum etmək, şərq istiqamətində Qroznı, Mahaçqala və Bakını zəbt etmək, mərkəz istiqamətində Böyük Qafqaz aşırımını keçərək Tbilisi və Kutaisini ələ keçirmək istəyirdi.

Qafqaz uğrunda döyüşlər 1942-ci ilin iyulunda başlandı. Qafqazı zəbt etmək üçün faşist komandanlığı "A" ordu qrupu ilə 1-ci və 4-cü tank, 11-ci və 17-ci piyada ordusunu ayırmışdı. Düşmən qoşunları canlı qüvvəyə görə sovet qoşunlarından 1,5 dəfə, topların və minomyotların sayına görə 2,6 dəfə, tankların sayına görə 9,3 dəfə, təyyarələrin sayına görə 7,7 dəfə üstün idi.[30]

1942-ci il sentyabrın 9-da Zaqafqaziya respublikalarında hərbi vəziyyət elan olundu. Sentyabrın 16-da DMK Mahaçqala, Dərbənd və Bakı ətrafında möhkəmləndirilmiş müdafiə sədlərinin yaradılması haqqında xüsusi qərar qəbul etdi.

1942-ci il avqustun 23-də Tbilisidə Zaqafqaziya xalqlarının antifaşist mitinqi keçirildi. Çıxışlar və qəbul olunmuş qətnamə Zaqafqaziya xalqlarının vətənin azadlığı və müstəqilliyi uğrunda sona qədər mübarizə əzmini nümayiş etdirdi. Mitinqdə Səməd Vurğun demişdi: "Qoy bu gün qəlbimizdə yanan hiddət alovu odlu lava seli kimi torpaqlarımız üzərində ölüm və viranəlik bayrağı qaldıranların üstünə tökülsün. Gözə - göz! Ölümə - ölüm![31]"

77-ci Azərbaycan atıcı diviziyası 1942-ci ilin mayından avqustuna qədər 47-ci ordunun tərkibində Novorossiysk müdafiə əməliyyatında fəal iştirak etmişdi. Avqustun sonunda diviziya Neberejevsk stansiyasında baş vermiş döyüşdə düşməni geri çəkilməyə məcbur etdi. Onun döyüşçüləri Qara-Koldunda yaşayış məntəqəsi uğrunda döyüşlərdə də düşmənə zərbələr endirmişdi. 1942-ci il avqustun 19 və 21-də diviziya Krımskidən cənubda düşmənin tank və piyada hissələri ilə vuruşaraq, onları tutduqları mövqedən geri oturtmuşdu.[32] Novorossiysk uğrunda vuruşlarda 77-ci diviziya düşmənin 5 piyada alayını, 8 mindən artıq canlı qüvvəsini, 18 tankını, 40 minə qədər top və minomyotunu, hərbi texnikasını məhv etmişdi. Diviziyanın 320 döyüşçüsü və komandiri mərdlik və igidlik göstərdiklərinə görə SSRİ-nin müxtəlif orden və medalları ilə təltif olundular.[33] Qafqaz uğrunda döyüşlərdə Azərbaycanın igid övladları hərbi rəşadətləri ilə şöhrətləndilər. Krasnodar yaxınlığında pulemyotçu Xanqulu Sadıqov bir döyüşçü ilə 1942-ci il avqustun 26-dan 29-dək mühüm yolayırıcını müvəffəqiyyətlə müdafiə etdi və sərrast atəşlə 300 faşisti öldürdü. X.Sadıqov igidliyinə görə Lenin ordeni ilə təltif edildi.[34]

1942-ci ilin oktyabrında Tuapsenin şimal-qərbində dəniz piyadaları 323-cü batalyonunun rotası güclü düşmənlə döyüşə girdi. Hitlerçilərin bir neçə hücumu dəf olundu. Qafur Məmmodov səngərdən sıçrayaraq avtomatından açdığı atəşlə yarğanda gizlənmiş 13 faşisti məhv etdi. Qafur Məmmədov alman avtomatçısının rota komandiri Z.Santskini nişan aldığını görərək, sürətlə irəli atıldı və öz həyatı bahasına onu xilas etdi. 1943-cü il martın 31-də SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Q.Məmmədova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verildi.[35]

Azərbaycan xalqının şöhrətli oğlu leytenant İdris Süleymanov da düşmənlə döyüşdə igidlik göstərmişdi. Onun xidmət etdiyi batalyon Mozdok rayonunun mühüm yaşayış məntəqəsində mövqe tutmuşdu. Faşistlər hücum edən sovet döyüşçülərini güclü atəşlə dayandırmaq istəyirdilər. Böhranlı vəziyyətdə İdris Süleymanov döyüşçülərə: "Bir addım da geri çəkilməməli, irəli, yalnız irəli!" -deyə müraciət etdi. İ.Süleymanov yaralansa da, döyüş meydanını tərk etmədi, tankların irəliləməsinə mane olan pulemyotçunu sıradan çıxardı. O, ikinci yara alandan sonra da döyüşə başçılıq edir, öz iradəsi və qəhrəmanlığı ilə əsgərləri ruhlandırırdı. Döyüş qələbə ilə başa çatdı. İ.Süleymanov SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il tarixli 13 dekabr Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.[36]

Mozdok rayonunda 402-ci Azərbaycan atıcı diviziyasının 833 saylı alayının komandiri Akim Abbasovun döyüşçüləri düşmənin 100-ə qədər tankının hücumunun qarşısını alaraq, 96 tank, 2 zirehli maşın və çoxlu faşist məhv etmişdi. Göstərdikləri igidliyə görə alayın 72 döyüşçüsü orden və medallarla, mayor

A.Abbasov "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuş, ona podpolkovnik rütbəsi verilmişdi.[37]

Qafqazın müdafiəsində əsasən Zaqafqaziya xalqlarından təşkil olunmuş 18 milli və 15 qarışıq diviziya iştirak etmişdi. Bunlardan 77, 223, 402 və 416-cı diviziyalar milli Azərbaycan diviziyaları idi. 227, 271-ci diviziyaların isə şəxsi heyətinin 30 faizdən 70 faizə qədərini azərbaycanlı döyüşçülər təşkil edirdi.[38]

Qafqazda beş ay davam edən döyüşlərdə yüz mindən çox əsgər və zabit itirilmişdi. Qafqaz cəbhəsində sovet ordusunun ciddi müqaviməti və alman qoşunlarına vurduğu zərbələr düşmənə manevr etməyə, qüvvələrin bir hissəsini Stalinqrad qoşunlarına köməyə göndərməyə imkan vermədi.[39]

Faşistlərin Stalinqrad ətrafında məğlubiyyətindən sonra Şimali Qafqazda Sovet Hərbi Qüvvələrinin düşmənə qarşı geniş hücumu başlandı. Cənub və cənub-qərb cəbhələri qoşunlarının Rostov və Donbas istiqamətində şiddətli hücumu düşmənin Qafqaz ordu qrupu üçün təhlükə yaratdı. Mühasirəyə düşmək qorxusu düşməni 1943-cü il yanvarın ilk günlərində yeni müdafiə sədlərinə çəkilməyə məcbur etdi. Zaqafqaziya cəbhəsinin Şimal, daha sonra isə Qara dəniz qrupu müvafiq olaraq Krasnodar istiqamətlərində hücuma keçdilər. Fevralın əvvəllərində Şimali Qafqazın, demək olar ki, bütün ərazisi -Kubanın aşağı hissəsi, Novorossiysk, Taman faşist işğalçılarından azad edildi.

Qafqazın müdafiəsi uğrunda döyüşlərdə leytenant Ziya Bünyadovun bölməsi düşmənin xeyli canlı qüvvə və texnikasını məhv etmişdi. Mozdok rayonunda gedən döyüşlərdə Z.Bünyadov dörd əsgərlə birlikdə düşmənin benzin anbarını partlatmış və iki tankını yandırmışdı. Z.Bünyadov bu əməliyyata görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.[40]

Şimali Qafqazın azad olunması uğrunda gedən döyüşlər respublikanı təmsil edən milli diviziyaların fəal iştirakı ilə gedirdi. 1942-ci il noyabrın 30-da 416-cı diviziya 44-cü ordunun tərkibində iki günlük döyüşdən sonra İşçersk stanitsası rayonunda düşmənin müdafiə xəttini yararaq Novolednyov və Kapustino yaşayış məntəqələrini azad etmişdi. Bu döyüşlərdə azərbaycanlılar böyük dəyanət və igidlik göstərmişlər. Döyüşçü M.Cabbarov üç düşmən tankını sıradan çıxarıb. Ağır yaralanmış bölmə komandiri kiçik leytenant K.Hacıyev topdan atəşlə hitlerçilərin hücumunun qarşısını almış,[41] onun yaralı yoldaşı İ.Məmmədov düşmən tankını sıradan çıxararaq qəhrəmancasına həlak olmuşdu. Leytenant V.Mirzəyev dörd faşist tankını məhv edərək, sovet qoşunlarına irəliləmək üçün yol açmışdı. Döyüşçü A.Salayev düşmənin müdafiə xəttini keçmiş, qırx metrlik məsafədən atəş açaraq 15 faşisti məhv etmişdi. O, bu xidmətlərinə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.

416-cı diviziya 1942-ci ilin dekabrında hərbi bölmələrlə birlikdə Starolednev şəhərini azad etmiş, düşmənin Kapustino rayonundakı müdafiə xəttini

yarıb, şimal-şərq istiqamətində döyüşən sovet ordusu hissələrinin irəli getməsinə imkan yaratmışdı.

Qafqaz uğrunda döyüşlərdə Azərbaycanın cəsur qızları S.Bayramova, Z.Səlimova, L.Abdullayeva, R.Babayeva, T.Fəttahova, R.Əhmədova, M.Dəmirova, S.Polişeva, S.Xəlilova, P.Manafova da şücaət göstərmişlər.[42]

1942-ci il dekabrın 11-də 416-cı Azərbaycan diviziyası 414-cü gürcü atıcı diviziyası ilə əlaqədə İşçersk və Naursk stanitsalarını azad etmişlər. l943-cü ilin yanvarında 416-cı diviziyanın Qrafskoye stanitsasını düşməndən azad etmək uğrunda hücumunda zabit Əhmədovun topçuları 17 faşist tankını, 70 atəş nöqtəsini, yüzlərlə əsgər və zabitini sıradan çıxarmışdı.

1943-cü ilin yanvar və fevral aylarında 416-cı diviziyanın əsgərləri şərəfli döyüş yolu keçdilər, onlarca yaşayış məntəqəsini düşməndən təmizlədilər. Döyüş xidmətlərinə görə diviziyanın 300 döyüşçüsü yüksək dövlət təltiflərinə layiq görüldü.[43]

223-cü Azərbaycan atıcı diviziyası 1943-cü ilin yanvarında Mozdok, Proxladnı, Georgiyevsk şəhərlərinin azad olunmasında fəal iştirak etmişdi. 223-cü diviziya Petropavlovsk yaşayış məntəqəsində alman diviziyasını darmadağın edərək 275 faşisti əsir götürmüş, külli miqdarda hərbi texnika və sursat ələ keçirmişdi. 1943-cü ilin sentyabr-dekabr aylarında diviziya 400 km döyüş yolu keçmiş, onun 380 əsgər və zabiti SSRİ orden və medalları ilə təltif olunmuşdu.[44] 223-cü diviziya Mineralnıye Vodının azad olunmasında bilavasitə iştirak etmiş, diviziyanın döyüşçüləri üç ay ərzində 50 yaşayış məntəqəsini və bir neçə şəhəri alman-faşist işğalçılarından təmizləmişdi.

Şimali Qafqazın faşistlərdən azad olunması uğrundakı döyüşlərdə 223-cü diviziyanın 1041-ci alayı xüsusilə fərqlənmiş, hərbi uğurlarına görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Keçici Qırmızı Bayrağı" ilə təltif olunmuşdu.[45]

Şimali Qafqazdakı 44-cü ordunun hücum əməliyyatlarında 402-ci Azərbaycan diviziyası da fəal iştirak etmişdi. 1942-ci il noyabrın 3-dən dekabrın 11-dək diviziya ona qədər yaşayış məntəqəsini azad etmişdi. Bu döyüşlərdə diviziyanın döyüşçüləri düşmənin 108 tank və zirehli maşınını sıradan çıxarmışdı.[46]

1942-ci ilin dekabrında bu diviziyada Akim Abbasovun komandanlıq etdiyi 833-cü atıcı alay bir gündə düşmənin 100-ə qədər tankının 13 həmləsini qəhrəmancasına dəf etmiş, 36 tankı məhv edərək hücumun qarşısını almışdı. Hərbi nailiyyətlərinə görə A. Abbasov "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi.[47]

1943-cü ilin fevralında Vasilçenko ətrafında baş vermiş döyüşlərdə 77-ci atıcı diviziyanın əsgərləri yüksək döyüş şücaəti göstərmişdilər. Diviziyanın alayları 7 yaşayış məntəqəsini düşməndən azad etmiş, 600-ə yaxın əsgər və zabit döyüş şücaətinə görə orden və medallarla təltif olunmuşdu. 1943-cü ilin noyabrında

Dnepr çayının sol sahilində gedən döyüşlərdə 77-ci Azərbaycan diviziyası faşistlərin 50-yə yaxın tank və digər texnikasını məhv edərək 250 düşməni əsir götürmüşdü.[48]

Kapitan M.Əliyevin komandanlığı altında atıcı batalyon düşmənin Krasnodar yaxınlığındakı hücumunun qarşısını alaraq onun 17 tankını yandırmış, külli miqdarda zirehli maşınını sıradan çıxarmış, yüzlərlə faşisti öldürmüşdü. Azərbaycan topçuları Y.Gözəlovun komandanlığı ilə Sambek ətrafında düşmənin 7 hücumunu dəf edib, 16 tankını məhv etmişdilər.

Qafqazda gedən hücum döyüşləri zamanı istehkamçı C.Allahverdiyev düşmənin qoyduğu 1150, T.Rəşidov isə 1000-dən artıq minanı zərərsizləşdirmişdilər.[49]

Novorossiysk uğrunda döyüşlərdə Azərbaycanın A.Piriyev, D.Məmmədov, D.Məmmədova, E.Sadıxov kimi onlarca oğul və qızı şücaət göstərmişdi. Leytenant İsmayıl Hüseynov xüsusən fərqlənmişdi. Onun komandanlığı altında avtomatçılar düşmən arxasına keçərək, döyüş sursatı anbarını partladıb geri dönərkən faşistlərlə rastlaşırlar. Qeyri-bərabər döyüşdə ağır yaralanmış İ.Hüseynovu faşistlər diri tutmaq istəyirlər. Lakin bir neçə əl qumbarası ilə sarınmış igid komandir son qüvvəsini toplayıb düşmən üzərinə atılaraq 30-dan artıq faşisti məhv edir və özü də həlak olur. İ.Hüseynov ölümündən sonra Lenin ordeni ilə təltif olunmuş, adı əbədi olaraq hərbi hissənin şəxsi heyəti siyahısına daxil edilmişdi.[50]

Qafqazın müdafiəsində Azərbaycanın igid oğulları kütləvi qəhrəmanlıq nümunələri göstərirdilər. Rota komandirinin siyasi işlər üzrə müavini Əbil Məmiş oğlu Əbilova düşmən tərəfindən tutulmuş kəndin alınması tapşırılmışdı. Ə.Əbilov 7 nəfərdən ibarət dəstəsi ilə gecə ikən kəndə daxil olaraq 60 hitlerçini mühasirəyə alıb, 35-ni məhv etmişdi. 18 nəfəri şəxsən Ə.Əbilov özü öldürmüşdü.[51]

Sanitar təlimatçısı, gəncəli Müseyib Dilbazov döyüşlərin birində düşmənin şiddətli atəşi altında 23 yaralını xilas edərək, Terek çayından sahilə keçirmiş və səhiyyə məntəqəsinə çatdırmışdı. Bu igidliyə görə M.Dilbazov "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.[52] Tibb təlimatçısı Qüdrət İsmayılov 56 yaralı əsgəri silahları ilə birlikdə döyüş meydanından çıxarıb tibb məntəqəsinə gətirmişdi. İgidliyinə görə o, "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.[53]

Qafqaz uğrunda qanlı döyüşlər Sovet Silahlı Qüvvələrinin tam qələbəsi ilə başa çatdı. Hitler komandanlığının Qafqazı tutmaq planları iflasa uğradı.

Sovet ordusunun cəbhələrdəki uğurları DMK-nın Azərbaycan əhalisinin Orta Asiyaya köçürülməsi və Bakının, ilk növbədə, neft mədənlərinin minalanaraq dağıdılmasını nəzərdə tutan "xüsusi əməliyyat" planının gündəlikdən çıxmasına səbəb oldu.[54]

## §2. BÖYÜK VƏTƏN MÜHARİBƏSİ GEDİŞİNDƏ ƏSASLI DÖNÜŞ MƏRHƏLƏSİ

Stalinqrad cəbhəsində tarixi qələbəsindən sonra qızıl ordunun Leninqraddan Qara dənizə kimi ərazidə düşmənə qarşı əks-hücumu başlandı. Hücumda bütün cəbhələr iştirak edirdi.

Leninqrad və Volxov cəbhələrinin qoşunları Leninqradın mühasirəsini yarmaq məqsədilə 1943-cü ilin yanvarında geniş hərbi əməliyyata başladılar. Şlisselburq düşməndən təmizləndi, Leninqrad ölkə ilə birbaşa quru yol əlaqəsi əldə etdi. Leninqrad və Volxov cəbhələrindəki döyüşlərdə bir çox Azərbaycan əsgəri fərqlənmiş, onlardan 10 azərbaycanlı snayper SSRİ orden və medalları ilə təltif olunmuşdu. Şimal Donanmasının məşhur snayperi Məmmədəli Abbasov hitlerçilərin qəniminə çevrilmişdi, 1943-cü ildə onun şəxsi hesabında 166 məhv edilmiş faşist var idi.[55]

Süvari kəşfiyyat vzvodunun komandiri Pirəli Səlimov Kareliya cəbhəsində 1943-cü ildə 14 dəfə düşmən arxasına kəşfiyyata getmiş və mühüm məlumatlar əldə etmiş, faşist qarnizonunu sıradan çıxarmışdı. P.Səlimovun vzvodu hitlerçilərin mühasirəsinə düşmüş, qeyri-bərabər döyüşdə 50 faşisti məhv etmiş, 6 pulemyot və bir neçə minomyot ələ keçirərək mühasirəni yarmışdı. İgid komandir "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdu.[56]

Leninqrad uğrunda döyüşlərdə vzvod komandiri Əmir Əfəndiyev bir qrup avtomatçı ilə sürünərək xəlvətcə düşmən səngərlərinə yaxınlaşıb atəş nöqtələrini susdurmuşdu. O başqa bir döyüşdə üzərinə yeriyən tankı qumbaralarla məhv etmişdi.[57]

Azərbaycan şahinləri Leninqrad səmasında faşistlərlə mərdlik və rəşadətlə döyüşürdülər. 1942-ci ilin axırlarında qəhrəmanlıqla həlak olmuş qorxmaz təyyarəçi Əli Səmədovun yerini qardaşı Asəf Səmədov tutmuşdu. Bombardmançı təyyarənin komandiri A.Səmədov qısa müddətdə ondan artıq düşmən obyektini yerlə yeksan etmişdi. Leninqrad üzərindəki hava döyüşlərində Hüseyn Bağırov mahir qırıcı təyyarəçi və kəşfiyyatçı kimi şöhrət qazanmışdı. O, 3 düşmən təyyarəsini vurmuşdu. H.Bağırov 1944-cü ilin yayında Pribaltika səmasındakı hava döyüşündə qəhrəmanlıqla həlak olmuşdu. Ölümündən sonra o, I dərəcəli Vətən müharibəsi ordeni ilə təltif edilmişdi.[58]

Adil Quliyev 1943-cü ilin yanvarında Staraya Rus məntəqəsi uğrunda qeyri-bərabər döyüşdə faşist təyyarəsini vurmuş və "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu. İgid şahin A.Quliyev müharibə illəri ərzində düşmənin 18 təyyarəsini məhv etdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[59]

1943-cü ilin əvvəlində Həzi Aslanovun komandanlıq etdiyi 55-ci qvardiya tank briqadası hücum əməliyyatlarında Mamayev Kurqan ətrafında düşməni

darmadağın etmişdi. Mius cəbhəsinin məhv edilməsi tapşırığını nümunəvi yerinə yetirdiyinə görə H.Aslanov Aleksandr Nevski ordeni almışdı.[60]

1943-cü ilin yayında Hitler Almaniyası sarsılmış vəziyyətini düzəltmək üçün ümumi səfərbərlik etmiş və hərbi iqtisadiyyatını qüvvətləndirmək məqsədilə fövqəladə tədbirlər görmüş, Qərbdə ikinci cəbhənin olmamasından istifadə edərək Şərq cəbhəsində qəti hücuma başlamaq qərarına gəlmişdi. "Sitadel" adlanan bu əməliyyatda düşmənin məqsədi cəbhənin dar hissəsi - Kursk çıxıntısına cənubdan və şimaldan hücum edərək, Mərkəz və Voronej cəbhələrinin qoşunlarını mühasirəyə salıb dağıtmaq, sonra isə Cənub-qərb cəbhəsinə arxadan zərbə endirmək idi. Niyyətini yerinə yetirmək üçün Hitler 900 min əsgər və zabitdən ibarət güclü qoşun qruplaşması yaratmışdı.[61]

1943-cü il iyulun 5-də hitlerçilər 50 texnika, o cümlədən l6 tank və motorlaşdırılmış diviziyalarla Oryol, Belqorod və Kursk ətrafında hücuma başladılar. Qızıl ordu düşmənin hücumunu dəf edərək, iyulun 12-də əks-hücuma keçdi. İkinci Dünya müharibəsinin ən irimiqyaslı döyüşlərindən olan Kursk qövsü müharibənin gedişində əsaslı dönüş yaratdı. Təşəbbüsü öz əlinə alan qızıl ordu faşistlərin tam məğlubiyyətinə qədər onu əldən vermədi.[62]

Kursk qövsü döyüşündə sovet qoşunları tərkibində Azərbaycanın oğulları da mərdliklə döyüşürdülər. Qvardiya kapitanı İvan İlyasov rota ilə birlikdə Kursk vilayətinin Krutoy Luq ətrafında düşmənin tank hücumunun qarşısını almışdı. İlyasovun rotasının təhkim olunduğu batalyona qarşı düşmən 50 tank və bir alaydan artıq piyada göndərdi. 10 tank itirməsinə baxmayaraq, faşistlər hücumu davam etdirirdilər. Batalyon komandirinin həlak olduğunu görən İ.İlyasov komandanlığı əlinə alıb döyüşçüləri əks-hücuma qaldırdı. Döyüşün qızğın çağında düşmənin ağır tankı İlyasovun olduğu səngərin üzərini örtdü. Lakin komandir özünü itirmədi, son nəfəsinədək döyüşü telefonla idarə edə bildi. 23 saat davam edən bu döyüşdə 40 düşmən tankı yandırılmış, 800 faşist məhv edilmişdi. İ.İlyasova ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.[63]

Oryol istiqamətindəki vuruşlarda gənc döyüşçü Davud Quliyev 4 əsgərlə birlikdə gecə kəşfiyyatı zamanı kəndlərdən birində düşmən qarnizonunu - 30 əsgər və zabiti məhv etmişdi.[64]

Kursk qövsü döyüşündə qızıl ordu yeni bir mühüm qələbə çaldı.

Ukrayna ərazisinin faşist işğalçılarından azad olunması uğrunda döyüşlərdə Azərbaycan diviziyaları fəal iştirak etmişlər.

1943-cü il avqustun 27-də 416-cı diviziya düşmən müdafiəsini yararaq 20 km irəliləmiş və Cənub cəbhəsinin əsas qüvvələrinin hücumuna şərait yaratmışdı. Bir gündə diviziya Boqaçyovka, Mokn, Vasilyevka, Petropavlovka, Çerniqovskoye yaşayış məntəqələrini azad etmiş, düşmənin 3 minə yaxın əsgərini məhv etmiş və əsir almış, xeyli texnikasını sıradan çıxarmışdı. Diviziya hücumlarını davam

etdirərək avqustun 30-da Mius cəbhəsi sahillərinə çıxmış, Taqanroqda yerləşən düşmən qüvvələrinin mühasirəyə alınmasında iştirak etmişdi. Həmin gün səhər diviziyanın döyüşçüləri 6-cı qvardiya tank briqadası ilə birlikdə Taqanroq şəhərinə daxil olmuş və şiddətli küçə döyüşləri nəticəsində Taqanroqu düşməndən tam təmizlədilər.[65] Taqanroqun azad olunması uğrundakı döyüşlərdə təkcə leytenant Bahəddin Mirzənin batareyası düşmənin 8 tankını, 13 avtomaşınını, 600 əsgər və zabitini məhv etmişdi.

Taqanroq ətrafında alman-faşist ordu qruplaşmasının mühasirəyə alınması və darmadağın edilməsində, habelə şəhərin azad olunmasında göstərdiyi qəhrəmanlığa görə Ali Baş Komandanın əmri ilə 416-cı diviziyaya fəxri "Taqanroq" adı verilmişdi. Ölkənin paytaxtı Moskva Azərbaycan diviziyasını artilleriya yaylım atəşləri ilə salamlamışdı.[66]

1943-cü il sentyabr ayının 7-də 416-cı Taqanroq atıcı diviziyası hitlerçilərin 3-cü Dağ atıcı diviziyası tərəfindən müdafiə olunan güclü istehkam xəttinə yaxınlaşdı. Düşmən istehkamları Markupol və Osipenko şəhərlərinə gedən yolları bağlamışdı. Sentyabrın 8-9-da Azərbaycan diviziyası düşmənin müqavimətini qırdı. Faşistlərin 10 əks-hücumuna mərdliklə sinə gərən döyüşçülər qazanılmış mövqeləri əldə saxladılar. Bu döyüşlərdə diviziya 4 mindən artıq düşmən əsgər və zabitini məhv etmiş, külli miqdarda döyüş texnikası ələ keçirmişdi. Həmin döyüşlərdə kapitan Firuddin Süleymanov əsil qəhrəmanlıq nümunəsi göstərmiş, əlbəyaxa döyüşdə bir qrup döyüşçü ilə düşməni geri çəkilməyə məcbur etmiş, özü isə şəhid olmuşdu. F.Süleymanov ölümündən sonra I dərəcəli Vətən müharibəsi ordeninə layiq görülmüşdü.[67]

416-cı diviziya 1943-cü ilin oktyabrında düşməni Konstantinovka ətrafında darmadağın edib, tank hissələrinin köməyi ilə Melitopolu azad etmişdi. Diviziya "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdu.

Melitopol uğrunda döyüşlərdə pulemyotçu Ağaşirin Cəfərov xüsusən fərqlənmişdi. O, 1943-cü il ərzində 500-dən artıq faşist öldürmüşdü. A.Cəfərov SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 1 noyabr tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı fəxri adı almışdı.[68]

Kursk qövsündəki sovet qoşunları qarşısında əsas vəzifə Dnepr çayını keçib geri çəkilən düşmənin hərbi hissələrini darmadağın etmək idi. Vermaxt komandanlığı güman edirdi ki, eni bir kilometr olan çayı asanlıqla keçmək mümkün deyil. Dnepr çayının sağ sahilində faşistlər möhkəm istehkamlar yaratmışdı. Lakin qələbə ilə ruhlanmış sovet əsgərləri, bütün çətinliklərə baxmayaraq, 1943-cü ilin sentyabrında Dnepr çayını müvəffəqiyyətlə keçdilər. Onlar arasında Azərbaycan oğulları da vardı. 1943-cü ilin mart ayının 28-də 416-cı Taqanroq Azərbaycan atıcı diviziyası Nikolayev şəhərini də düşməndən azad etdi.

Ukrayna ərazisinin alman-faşist istilaçılarından azad olunmasında 223-cü Azərbaycan atıcı diviziyası fəal iştirak etmişdi. 1943-cü ilin sentyabrında diviziya 16 yaşayış məntəqəsini azad etmiş, düşmənin 4300 əsgər və zabitini, 45 top və tankını, çoxlu minomyot və pulemyotunu, habelə digər silahlarını sıradan çıxarmışdı. Mayor Baxış Mehdiyev düşmənin güclü atəşinə baxmayaraq, öz hissəsi ilə Dnepri keçərək, sağ sahildə möhkəmlənmişdi. O, bir il ərzində döyüş rəşadətləri sayəsində leytenantdan mayor rütbəsinə qədər yüksəlmişdi.[69]

Dnepri keçəndən sonra 223-cü Azərbaycan diviziyasının 1041-ci alayına almanların Dnepropetrovskdan sənaye avadanlığı aparmasına mane olmaq vəzifəsi tapşırılmışdı. Faşistlər 1041-ci alayın üzərinə 2 atıcı diviziya və tank alayı göndərmişdi. Oktyabrın 4-dən 11-dək gedən qanlı döyüşlərdə alayın əsgər və zabitləri düşmənin 50 hücumunu dəf etmiş, 3000 canlı qüvvəsini, 13 topunu, 13 minomyotunu, 10 tankını və bir zirehli maşınını sıradan çıxarmışdı.[70]

1943-cü ilin noyabr-dekabr aylarında 223-cü diviziya 6 yaşayış məntəqəsini faşistlərdən təmizləmiş, düşmənin 4500 əsgər və zabiti, 20 tankı, 68 minomyot və digər hərbi sursatı məhv edilmiş, bir tank, 18 pulemyot, başqa hərbi ləvazimat qənimət götürülmüş, 82 faşist əsir alınmışdı.[71]

Taman yarımadasının alman-faşist işğalçılarından azad edilməsində fərqləndiyinə görə, şəxsi heyətinin 60-70 faizini azərbaycanlı döyüşçülər təşkil edən 227-ci atıcı diviziya fəxri "Temyurq" diviziyası adını almışdı. Düşmənlə döyüşlərdə diviziya 3000 faşisti məhv etmişdi. Taman yarımadasının azad olunması uğrunda döyüşlərə görə diviziyanın 2007 əsgər və zabiti, o cümlədən 600 azərbaycanlı orden və medallarla təltif edilmişdi.[72]

1943-cü ilin sentyabrında "Donetsk" əməliyyatında göstərdiyi rəşadətə görə 271-ci diviziyaya fəxri "Qorlovka" adı verilmişdi. Həmin ilin payızında bu diviziya Rusiya və Ukraynanın faşistlərdən azad olunmasında iştirak etmişdi. Bu döyüşlərdə 865-ci atıcı alayının batareya komandiri Aslan Qaraşov qəhrəmanlıq nümunəsi göstərmişdi. Alaya Semerinkovo yaşayış məntəqəsinin müdafiəsi tapşırılmışdı. Düşmən onun tutduğu mövqe üzərinə 14 tank və 20 təyyarə göndərmişdi. A.Qaraşovun batareyası açıq mövqedən 2 tank və onlarca hitlerçini məhv etmiş, özü isə qəhrəmancasına həlak olmuşdu. Cənub cəbhəsi hərbi şurasının qərarı ilə A.Qaraşovun adı əbədi olaraq hərbi hissənin şəxsi heyəti tərkibinə daxil edilmişdi.[73]

Azərbaycan oğulları başqa cəbhələrdə də rəşadət göstərmişdilər. 1943-cü ilin oktyabrında Kerç boğazına çıxmaq əməliyyatında 20 yaşlı pulemyotçu Mehdi Quliyev misilsiz əsgəri şücaət göstərərək, 300-ə yaxın hitlerçini məhv etmişdi. Kerç yarımadasının azad olunmasında igidliyinə görə, M.Quliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 17 noyabr tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[74]

55-ci Qvardiya atıcı diviziyasının Kerç boğazını keçib Krımı azad etmək əməliyyatlarının iştirakçısı Bəkir Mustafayev məharətlə sürünərək yüksəklikdə yerləşmiş düşmən rotasını qumbara ilə susdurmuş, əlbəyaxa döyüşdə şəxsən 40 düşmən əsgər və zabitini öldürmüşdü. Krım və Ukraynanın azad olunmasında göstərdiyi igidliyə görə B.Mustafayev SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 16 may tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı almışdı.[75]

Sumı vilayətində gedən döyüşlərdən birində leytenant Müseyib Bağırov şəxsən 100 faşist öldürmüşdü. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 22 fevral tarixli Fərmanı ilə M.Bağırova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.

Mikayıl Ələkbərov Dnepri keçmək əməliyyatında igidlik göstərmişdi. Kəşfiyyat əməliyyatları zamanı o, 14 hitlerçini məhv etmişdi. 1943-cü il oktyabrın 23-də Mikayıl Məmməd oğlu Ələkbərov Qorodovka kəndində qırmızı bayraq qaldırmış və 30-dan artıq düşmən əsgərini sıradan çıxarmışdı. Cəsur əsgər bu döyüşlərdə aldığı ağır yaralardan qəhrəmancasına həlak olmuşdu. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 26 oktyabr tarixli Fərmanı ilə M.Ələkbərov ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[76]

Ukraynanın azad edilməsi salnaməsinə leytenant Məlik Məhərrəmovun komandanlıq etdiyi qvardiya rotasının igidliyi əbədi daxil olmuşdur. 1943-cü il sentyabrın 27-nə keçən gecə rota Dneprin sağ sahilinə keçib həmlə ilə hitlerçiləri tutduğu mövqelərdən çıxarmışdı. Bununla da sovet ordusu hissələrinin çayı maneəsiz keçməsi təmin olunmuşdu. Məlik Məlik oğlu Məhərrəmova və onun 17 silahdaşına Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi. Qvardiyaçı qəhrəmanlara Lenin ordenini və "Qızıl Ulduz" medalını şəxsən təqdim edən cəbhə komandanı K.K.Rokossovski qeyd etmişdi ki, bir rotanın tərkibində 17 Sovet İttifaqı Qəhrəmanı olması fərəhli və müstəsna haldır.[77]

Baş leytenant Səlahəddin Kazımovun topçuları 1943-cü il oktyabrın 8-də Kiyevin şimalında Dneprin sağ sahilinə çıxmış, döyüş mövqelərini məharətlə dəyişərək, ciddi müqavimət göstərən düşmənə gözlənilməz nöqtələrdən zərbələr endirmişlər. Dneprin sağ sahilindəki mövqeləri genişləndirmək uğrunda gedən 12 günlük döyüşlərdə cəsur topçular faşistlərin 11 tankını, külli miqdarda əsgər və zabitini məhv etmişdilər. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 16 oktyabr tarixli Fərmanı ilə S.Kazımova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Dneprin keçilməsi uğrundakı döyüşlərdə igidliyinə görə Məmməd Məhərrəmov da SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 22 fevral tarixli Fərmanı ilə bu yüksək ada layiq görüldü.[78]

1943-cü il noyabrın 6-da Ukraynanın paytaxtı Kiyevin faşistlərdən azad edilməsi uğrunda döyüşlərdə qvardiya mayoru, tankçı, batalyon komandiri Xıdır Mustafayev yüksək məharət və igidlik nümayiş etdirmişdi. Noyabrın 6-da axşam batalyon gözlənilmədən düşmən arxasına keçərək beş saat davam edən küçə

döyüşlərindən sonra Kiyevin 70 kilometrliyində olan Fastov şəhərini tutdu. Düşmən döyüş meydanında 64 top, 43 tank, hərbi təchizatlı 16 eşelon, 40 silah və ərzaq anbarı, 40 min ton yanacaq və lokomotiv qoyaraq qaçmışdı. Tank batalyonunun şəxsi heyətinin əksəriyyəti orden və medallarla təltif olunmuş, Xıdır Mustafayev isə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 10 yanvar tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[79]

Leninqrad şəhəri Mərkəzi Hərbi-Dəniz Muzeyində eksponat kimi 86 düyün vurulmuş bir qaytan qoyulmuşdur. Bu, Şimal donanması snayperi Məmmədəli Abbasovun üç ay ərzində qırdığı faşistlərin sayını bildirir. Abbasov hər faşisti vuran kimi dərhal cibində gəzdirdiyi bu qaytana bir düyün vurardı. Ağcabədili müəllim M.Abbasov elə bir gün olmazdı ki, faşist öldürməsin. Onun məharətindən müntəzəm yazan Şimal donanmasının "Krasnı flotes" qəzeti qeyd etmişdi ki, Məmmədəli Abbasov 35 gündə 63 hitlerçi qırmışdır. Şimal donanması komandanlığı onu "Qırmızı Bayraq" ordeni ilə təltif etmişdi.[80]

1944-cü ilin əvvəlində qızıl ordunun bütün cəbhə boyu hücumu başlandı. Yanvarın 14-dən iki həftə davam edən döyüşlərdə Leninqrad və Volxov cəbhəsinin, habelə Baltik donanmasının qoşunları Leninqrad ətrafında düşmənə ağır zərbə endirərək, onu 70-100 km geriyə oturtdu, Leninqradın blokadasına son qoyuldu.

Sağ sahil Ukraynasının azad edilməsi üçün fəal hərbi əməliyyatlar genişləndi. Ukraynanın cənubundakı şəhərlərin azad edilməsində azərbaycanlılar igidliklə vuruşurdular. Odessa vilayətinin Strukova kəndi uğrunda vuruşmada qvardiya kapitanı M.Hüseynov düşmənin əks-hücumunun qarşısının alınmasına bacarıqla rəhbərlik etmiş və döyüş meydanında həlak olmuşdu. Strukova kəndinin sakinləri M.Hüseynovun adını əbədiləşdirərək, kənd məktəbinə cəsur qvardiyaçının adını verdilər.[81]

418-ci diviziyanın batalyon komandiri, qvardiya mayoru F.Qədimov bir qrup döyüşçü ilə geriyə çəkilən hitlerçilərin Odessadan çıxarmaq istədikləri avtomobil karvanının qarşısını kəsərək alman əsgər və zabitlərini məhv etmiş, 200 avtomaşını ələ keçirmişdi. İgidliyinə görə F.Qədimov I dərəcəli Vətən müharibəsi ordeni ilə təltif olunmuşdu.[82]

Süvari kəşfiyyat komandiri Pirəli Səlimov 22 döyüşçü ilə faşistlərin tutduğu mövqeyin arxasına keçərək, onlardan 50 nəfərini məhv edib, əhəmiyyətli kəşfiyyat məlumatları ilə öz hissələrinə qayıdıb. Bu əməliyyata bacarıqla, cəsarətlə rəhbərlik etdiyinə görə P.Səlimov "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuşdu.[83]

Sağ sahil Ukraynasını alman-faşist işğalçılarından təmizləyən 416-cı Taqanroq diviziyasının əsgərləri çox sürətlə vuruşa-vuruşa Dnepr çayının sağ sahilinə keçərək, Nikolayev şəhəri yaxınlığında düşmənin müqavimətini qırmış, birgünlük qanlı döyüşlərdən sonra şəhəri ələ keçirib Cənubi Buq çayına çıxmışlar.

1944-cü il fevralın 9-dan 10-na keçən gecə Dnepr çayını keçdiyinə və martın 23-də Nikolayev şəhərini azad etdiyinə görə diviziya Ali Baş Komandanın təşəkkürnaməsini aldı. Aprelin 10-da diviziya qızıl ordunun digər birləşmələri ilə birgə Odessa şəhərini azad etdi. Odessa uğrunda döyüşlərdə 416-cı diviziya tərəfindən düşmənin 2000-dən çox əsgər və zabiti əsir alınmış, 150 vaqon, 18 lokomotiv, 8 döyüş sursatı anbarı qənimət götürülmüşdü. Diviziyanın minaaxtaranları Odessa şəhərinin nadir memarlıq incisi olan Opera Teatrı binasını partlayışdan xilas etmişdilər.

SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Odessanın düşməndən azad edilməsində göstərdiyi döyüş nailiyyətlərinə görə 416-cı Taqanroq diviziyası II dərəcəli Suvorov ordeni, diviziyanın 500-dən artıq döyüşçüsü isə SSRİ orden və medalları ilə təltif olunmuşdu.[84]

Sağ sahil Ukraynasının alman-faşist işğalçılarından azad olunmasında 223-cü diviziya da fəal iştirak etmişdi. 1944-cü ilin yanvar-fevral aylarında diviziya döyüşçüləri Verblojok ətrafında şiddətli əks-hücumun qarşısını alaraq düşmənin 900 əsgər və zabitini, 101 top, 23 minomyot və 45 pulemyot atəş nöqtəsini dağıtmışlar.[85] 1944-cü ilin mart-aprel aylarında 223-cü diviziya Qızıl Ordunun digər birləşmələri ilə Kirovoqrad və Kaxovka şəhərlərini azad edərkən 4000 hitlerçi, çoxlu tank və top, digər hərbi texnika məhv etmiş, 1944-cü ilin yazı ərzində 950 kv.km ərazini düşməndən təmizləmiş, 90-a yaxın kənd və qəsəbəni azad etmişdi.[86]

223-cü diviziya sovet qoşunlarının məşhur Yassı-Kişinyov əməliyyatında bilavasitə iştirak etmişdi. Diviziyanın B.Mehdiyevin komandanlıq etdiyi 1041-ci alayı Saratov-Qalbena ətrafındakı döyüşdə sıralarında dörd general olan 2500 hitlerçini məhv etmiş və əsir götürmüşdü.

Ümumiyyətlə, Ukraynanın azad olunması uğrunda döyüşlərdə Azərbaycanın 20 igid oğlu Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, yüzlərlə döyüşçü orden və medallarla təltif olunmuşdu.

Azərbaycanın fəxri olan 416-cı diviziya avqustun 24-də qızıl ordunun digər birləşmələri tərkibində Moldaviya SSR-in paytaxtı Kişinyovu azad etmişdi. 416-cı diviziyanın döyüşçüləri Ali Baş Komandanın təşəkkürünə layiq görülmüşdülər. Kişinyov uğrunda döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri də fərqlənmişdilər. Onlar 4000 düşmən əsgər və zabitini məhv etmiş, 3835-ni əsir almışdılar. Topçu serjant X.Hüseynov üç döyüşçü ilə 7 faşist tankının hücumunu dəf edərkən onlardan beşini sıradan çıxarmış, 30 hitlerçini öldürmüşdü. Cəsur topçu I dərəcəli Vətən müharibəsi və II dərəcəli Şöhrət ordenləri ilə təltif olunmuşdu.[88]

Faşistlərin Sağ sahil Ukraynasında məğlubiyyəti Krımın azad edilməsini yaxınlaşdırırdı. 1944-cü il aprelin 8-də sovet qoşunları Perekopun şimalından hücuma keçdilər. Krımın azad olunmasında 77-ci və 227-ci diviziyalar əsil

qəhrəmanlıq nümayiş etdirdilər. 77-ci diviziya və 19-cu tank korpusu Tyumaşevsk ətrafında güclü həmlə ilə düşməni Cankoy dəmir yol qovşağından çıxararaq Simferopola yol açdı. Suran-Barık, Maryanovka və Yekaterinovka yaşayış məntəqələri uğrundakı şiddətli döyüşlərdə 77-ci diviziyanın əsgərləri 5 min hitlerçini öldürmüş, 410-nu əsir almış, 29 top, 25 avtomobil və 50 vaqonu sursatla ələ keçirmişlər. 1944-cü il aprelin 13-də 77-ci diviziya 19-cu tank korpusu ilə birlikdə düşməni Simferopoldan çıxarmış, minlərlə faşisti əsir almışdı. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 24 aprel tarixli Fərmanı ilə 77-ci diviziyaya fəxri "Simferopol" adı verilmişdi.[89]

1944-cü il mayın 7-də diviziya Sapun-dağı ələ keçirdi. Tikanlı məftillə əhatə olunmuş, dəmir-beton örtüklü bir neçə pulemyot və minomyot atəş mövqeyini susduran Əmir Piriyevin dəstəsi düşmənə yaxınlaşaraq qumbaralarla 20 hitlerçini öldürmüşdü. Komandirin yaralandığını görən Ə.Piriyev qvardiya rotasını hücuma aparmış, Sapun-dağın zirvəsində düşmənin mühüm atəş nöqtəsini ələ keçirərək şəxsən özü 16 hitlerçini məhv etmişdi. Döyüş şücaətinə görə Ə.Piriyevə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.[90]

Sapun-dağ uğrunda döyüşlərdə Məmməd Dadaşov düşmən müdafiə xəttinə birinci olaraq çatdı və 17 faşisti öldürdü. Komandanlıq onu "Qırmızı Ulduz" ordeni ilə təltif etdi.[91] Əbdüləziz Qurbanov bir qrup avtomatçı ilə düşmən səngərlərinə yaxınlaşıb qumbara ilə onlarla hitlerçini məhv edərək, Sapun-dağın zirvəsinə qələbə bayrağı sancmışdı. Ə.Qurbanov "Qırmızı Bayraq" ordeninə layiq görülmüşdü.[92] Qvardiya baş leytenantı Əhməd Ağamirov bir qrup topçu ilə Sevastopol ətrafında mühasirədən çıxmağa cəhd göstərən faşistlərin yolunu kəsərək, bir generalı, altı zabiti, 230 əsgəri əsir almış, xeyli qənimət ələ keçirmişdi. Ə.Ağamirov I dərəcəli Vətən müharibəsi ordeni ilə təltif olunmuşdu.[93]

77-ci diviziya Sevastopola birinci daxil oldu. 1944-cü il mayın 7-8-də diviziyanın 105 və 276-cı alayları faşistlərin şiddətli müqavimətini qıraraq Malaxov Kurqanı ələ keçirdi. Mayın 9-da diviziyanın 324-cü alayı şəhərin mərkəzində, dəmir yol vağzalında möhkəmləndi və əsas qüvvələrin gəlişinə qədər tutduğu mövqeləri saxladı. Krımın azad olunması uğrunda döyüşlərdə diviziya düşmənin 3 min əsgər və zabitini məhv etdi, 1652 faşisti əsir aldı. Sevastopolu düşməndən azad edərkən Sapun-dağ ətrafında döyüşdə nailiyyətlərinə görə diviziya I dərəcəli Suvorov ordeninə layiq görüldü. Krımın azad edilməsi uğrunda döyüşlərdə 3141 əsgər və zabit SSRİ orden və medalları ilə təltif olundu. Ay-Petri uğrunda döyüşdə topçu Süleymanov və dostu Tereşşenko düşmənin çoxlu hərbi texnikasını, 90 əsgər və zabitini məhv edib, topları ilə Ay-Petriyə qalxaraq dənizdə faşistlərlə dolu bərəni batırdılar.[94]

1944-cü ilin aprelində 227-ci diviziya Feodosiya və Yalta uğrunda vuruşlarda 5 mindən artıq düşmən əsgər və zabitini məhv etdi, 8 min nəfəri əsir

aldı, 250 top, 400 avtomaşın və 150 araba qənimət götürdü. Diviziya "Qırmızı Bayraq" ordeni ilə, 2300 döyüşçü müxtəlif orden və medallarla təltif olundu, üç alay isə fəxri "Sevastopol" adına layiq görüldü.[95]

1944-cü ilin hücum döyüşlərində Azərbaycan diviziyaları daha da mətinləşmiş, qızıl ordunun zərbə qüvvələrinə çevrilmiş, döyüşlərdə məharət və cəsurluq nümayiş etdirmişlər.

1944-cü ildə Azərbaycan döyüşçüləri başqa cəbhələrdə də alman-faşist işğalçılarına sarsıdıcı zərbələr vurulmasında fəal iştirak edirdilər. Belorusiyanın azad olunması uğrunda döyüşlərdə Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-mayoru Həzi Aslanovun komandanlıq etdiyi tank briqadasının döyüşçüləri böyük uğurlar qazandılar. 1944-cü ilin iyununda H.Aslanovun tankçıları partizanlarla birlikdə faşistləri Pleşinitsı şəhərində darmadağın edərək, 3-cü mexanikləşdirilmiş korpusun Metion və Pusto-Petin üzərinə hücumunun genişləndirilməsi üçün əlverişli şərait yaratdılar və iyulun 2-də Vineykanı azad etdilər. H.Aslanovun tankçıları qısa zaman ərzində Belorusiyanın bir çox yaşayış məntəqələrini azad edərək, düşmənin minlərlə canlı qüvvəsini, 43 tankını, 131 topunu, 12 minomyot batareyasını, 40 təyyarəsini, 15 qatarını məhv etdilər, 74 topunu, 88 pulemyotunu, 5 hərbi ləvazimat anbarını, 7 qatarını, 16 parovozunu, 520 avtomaşınını, 550 atını, 220 hərbi sursat arabasını ələ keçirdilər, 580 faşisti əsir aldılar. Minskin azad edilməsi zamanı fərqlənən briqada Baş Komandanın təşəkkürünü aldı. Həzi Aslanovun tankçıları iyulun 7-də birinci olaraq Vilnüsə daxil oldular. Yüksək hərbi ustalığına, tank yürüşlərini məharətlə təşkil etdiyinə və 1944-cü ilin yayında döyüşlərdə göstərdiyi şəxsi igidliyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə H.Aslanov II dərəcəli Suvorov ordeni ilə təltif olundu. 1944-cü ilin iyulunda Şaulyay şəhərinin azad edilməsi uğrunda döyüşlərdə fəal iştirakına görə H.Aslanovun 35-ci qvardiya tank briqadasına fəxri "Şaulyay" adı verildi. Belorusiyanın və Pribaltikanın azad olunması döyüşlərində Həzi Aslanovun briqadası 8 dəfə Ali Baş Komandanın təşəkkürünə layiq görüldü. Cəbhənin komandanlığı H.Aslanovun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunmasına təqdimat vermişdi. Lakin ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ona ölümündən sonra -1991-ci il iyunun 21-də verildi.

1945-ci il yanvarın 24-də tank qoşunları qvardiya general-mayoru Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov yaralandı və şəhid oldu.[96]

1944-cü ilin avqustunda tank əleyhinə top komandiri, serjant Qəzənfər Əkbərov qeyri-bərabər döyüşdə düşmənin dörd tankını və 60-dan artıq əsgər və zabitini məhv etmişdi. Cəsur Qəzənfər Əkbərova ölümündən sonra SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 26 oktyabr tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.[97]

Belorusiya uğrunda döyüşlərdə 1944-cü il aprelin 5-də qvardiya mayoru Əliheydər İbrahimovun komandanlığı altında süvari diviziya Razdalnaya stansiyasına qəflətən hücum edərək faşist qarnizonunu darmadağın etmiş, 400-ə yaxın faşisti əsir almış, üç lokomotiv və çoxlu döyüş sursatı yüklənmiş beş qatar ələ keçirmişdi. Qvardiyaçılar Almaniyaya zorla aparılan çoxlu sovet vətəndaşını azad etmişdilər. Döyüşü məharətlə idarə etdiyinə görə Ə.İbrahimov Aleksandr Nevski, həmçinin "Qırmızı Bayraq" ordenləri ilə təltif olunmuşdu.[9S] 1944-cü ilin payızında Pribaltikanın azad olunması uğrunda döyüşlərdə 77-ci atıcı diviziyasının şəxsi heyəti xüsusilə fərqlənmişdi. 1944-cü ilin avqustunda bu diviziya 51-ci ordunun tərkibində Debele ətrafında düşməni ciddi məğlubiyyətə uğratmışdı. İki həftəlik müdafiə döyüşləri müddətində diviziya hitlerçilərin 12 tank diviziyasının 31 əks-hücumunu dəf edərək, onun 178 tank və özüyeriyən topunu, 2 alayını sıradan çıxarmışdı. Rəşadətinə görə diviziyanın 587 əsgər və zabiti orden və medallarla təltif olunmuşdu.[99]

Azərbaycanın 416-cı diviziyası 1944-cü ilin avqustunda Moldaviyanın azad olunmasında iştirak etmişdi.[100]

1944-cü ildə sovet qoşunları SSRİ ərazisini alman-faşist işğalçılarından azad etdi, Barents dənizindən Qara dənizə qədər sovet sərhədi bərpa olundu. Bu tarixi qələbədə Sovet İttifaqının bütün xalqları kimi, Azərbaycan xalqının oğul və qızları da şücaət, rəşadət və mərdlik göstərdilər.

## §3. PARTİZAN DÖYÜŞLƏRİNDƏ VƏ ANTİFAŞİST MÜQAVİMƏT HƏRƏKATINDA

SSRİ XKS və ÜİK(b)MK-nın 1941-ci il 29 iyun tarixli direktivlərində və ÜİK(b)MK-nın 1941-ci il 19 iyul tarixli "Alman ordularının arxasında mübarizənin təşkili haqqında" qərarında, bir sıra digər qərar və direktivlərində müvəqqəti işğal edilmiş rayonlarda düşmən və onun əlaltıları üçün dözülməz şərait yaratmaq, süvari və piyada partizan dəstələri təşkil etmək, işğalçılara qarşı bütün mübarizə formalarına rəhbərlik etmək üçün gizli partiya təşkilatları şəbəkəsi yaratmaq və genişləndirmək vəzifələri müəyyən olunmuşdu.

Böyük Vətən müharibəsinin ilk aylarında sovet ordusunun bir sıra uğursuzluğu nəticəsində xeyli sovet döyüşçüsü düşmən tərəfindən əsir alınmışdı. Lakin dözülməz əzab və işgəncələr, təbliğat və təxribat onların böyük əksəriyyətinin iradəsini qıra bilməmiş, faşizmə qarşı mübarizədən çəkindirməmişdi. Mükəmməl hərbi təlim və təcrübəyə malik olan bu döyüşçülər əsir düşərgələrindən qaçaraq partizan dəstələrinə qoşulurdular.

Böyük Vətən müharibəsi illərində partizan hərəkatının geniş vüsət aldığı respublikalardan biri də Belorusiya SSR idi.

Bu respublikanın ərazisindəki partizan hərəkatında Sovet İttifaqının bütün xalqlarının nümayəndələri ilə birlikdə azərbaycanlı döyüşçülər də yadelli işğalçılara qarşı mətanətlə vuruşurdular. Onlar sadəcə partizan hərəkatının iştirakçısı olmayıb, eyni zamanda xalq intiqamçılarının düşmənə qarşı mübarizəsinin təşkilində fəal çalışırdılar. Brest vilayətindəki partizan hərəkatında Q.A.Abbasov, M.Y.Abdullayev, M.A.Əliyev, İ.M.İsmayılov və başqaları fəal iştirak etmişdilər.[101] Dmitrov adına partizan dəstəsinin tərkibində iki ildən artıq vuruşan Qurban Abbas oğlu Abbasov Belorusiya partizanları ilə birlikdə faşistlərin cəbhəyə canlı qüvvə, texnika və hərbi sursat aparan beş qatarının qəzaya uğradılmasında, iki avtomobilinin yandırılmasında, 40 kilometr rabitə xəttinin sıradan çıxarılmasında, iki körpünün və bir zavodun partladılmasında fərqlənmişdi.[102]

1942-1943-cü illərdə Brest vilayətinin Jabinsk rayonunda fəaliyyət göstərən M.Çernyak adına partizan dəstəsinin vzvod və rota komandiri kommunist M.A.Əliyev öz döyüşçüləri ilə 20 dəfə faşist qarnizonu ilə döyüşə girmiş, hitlerçilərin yaşadığı 7 binanı dağıtmış, 6 avtomobili yandırmış, 1000 nəfərdən çox əsgər və zabiti məhv etmiş və əsir tutmuş, 50 qatarı qəzaya uğratmışdı.[103]

Baranoviçi vilayətində fəaliyyət göstərən partizan dəstələrinin tərkibində respublikamızın bir çox nümayəndəsi faşistlərlə döyüşlərdə fərqlənmişdir. "Pobeda" partizan dəstəsinin bölmə komandiri Z. M.Qədimovun döyüşçüləri faşistlərin 5 qatarını qəzaya uğratmışdı. Qəza nəticəsində düşmənin 4 parovozu, əsgər və hərbi sursat olan 60 vaqonu məhv edilmiş, 900 hitlerçi ölmüş və yaralanmışdı. Baranoviçi vilayətindəki müxtəlif partizan dəstələrində düşmənə qarşı bir sıra çətin və mürəkkəb əməliyyatların həyata keçirilməsində fərqlənən H.Ə.Əliyev, M.A.İbrahimov, A.H.Məmmədov, Q.M.Musayev, Cabbar Pirağa oğlu və başqalarının rəşadəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdi.[104]

1943-cü ilin iyununda Belorusiya K(b)P MK-sı işğal olunmuş ərazilərdə, eyni vaxtda düşmənin dəmir yol relslərini məhv etmək planını irəli sürdü. Mərkəzi Partizan Qərargahı tərəfindən genişləndirilən bu planın həyata keçirilməsinə Leninqrad, Kalinin, Smolensk, Oryol və qismən Ukrayna partizanları da cəlb olundular. 1943-cü il avqustun 3-də başlanan "rels müharibəsi"nin həyata keçirilməsində 73853 nəfər Belorusiya partizanı iştirak etmişdi. "Rels müharibəsi"nin həyata keçirilməsində Azərbaycandan olan bir çox döyüşçülər belorus partizanları ilə birlikdə fəaliyyət göstərmişlər. Həmin döyüşçülərdən Q.A.Abbasov, R.P.Babayev, İ.N.Qocayev, M.M.İsayev, E.Q.İsmayılov, M.B.Hənifəyev, Q.Q.Məmmədov, S.B.Mamin, N.M.Monaxov Belorusiya Mərkəzi Partizan Qərargahının rəisi P.K.Ponomarenkodan şəxsən təşəkkür almış, SSRİ-nin müxtəlif orden və medalları ilə təltif edilmişlər.[105]

Minsk vilayətində də sovet xalqlarının digər nümayəndələri ilə yanaşı, Azərbaycan döyüşçüləri də düşmənə qarşı amansız mübarizə aparırdılar. 1942-ci ilin oktyabrında Borisov şəhər gizli partiya komitəsinin sərəncamı ilə mayor Ələkbər Əliyev "Dyadya Kolya" Partizan birləşməsindəki Suvorov adına dəstənin qərargah rəisi, sonralar isə komandiri təyin edilmişdi. Onun rəhbərlik etdiyi partizan dəstəsi düşmənin 11 qatarını, 13 parovozunu, 84 vaqonunu, 9 avtomobilini, bir tankını partlatmış, üç təyyarəsini vurmuş, 7,9 km rabitə xəttini sıradan çıxarmış, Almaniyaya zorla aparılan 400 sovet vətəndaşını azad etmiş, 28 dəfə cəbhə-Berlin xəttini kəsmişdir.[106] Minsk vilayətində Azərbaycandan olan döyüşçülər partizan hərəkatında daha fəal iştirak etmişdilər. Burada Azərbaycan övladları belorus partizanları ilə birlikdə faşistlərin 3000 əsgər və zabitini öldürmüş və yaralamış, 50 qatarını, 63 parovozunu, 230 vaqonunu, 40 avtomobilini, 15 tank və zirehli maşınını, 1500 dəmiryol relsini, 10 körpüsünü partlatmış, 15 rabitə xəttini kəsmiş, 10 km dəmiryol relsini sökmüş və xeyli qənimət ələ keçirmişdilər.[107]

Faşist işğalının ilk günlərində Ukrayna SSR ərazisini partizan hərəkatı bürüdü. Müharibənin ilk ayında Ukrayna K(b)P MK-sı və respublika hökuməti işğal olunmuş rayonlarda 583 partizan dəstəsi, 1700 təxribatçı-qırıcı qrup təşkil etmişdilər. 1941-ci ilin axırlarında respublikada 13 vilayət, 111-dən artıq mahal, şəhər, rayon komitəsi və başqa gizli partiya orqanları düşmən tərəfindən işğal olunmuş ərazilərdə partizan hərəkatına başçılıq edirdilər.[108]

Xarkov vilayəti ərazisində alman faşist işğalçılarına qarşı partizan hərəkatının təşkilində Azərbaycan K(b)P MK-nın üzvü, respublika Ali Sovetinin deputatı V.H.Axundovun böyük xidmətləri olmuşdur. O, Xarkov yaxınlığında faşist qoşunları ilə döyüş zamanı mühasirədən çıxıb gizli partiya təşkilatları ilə əlaqə yarada bilmişdi. V.Axundov 1942-1943-cü illərdə Xarkov vilayətinin Bliznetsk və Lazovoy rayonları ərazisində gizli partizan qruplarının təşkilatçısı və rəhbəri olmuşdur. Onun partizanları əhali arasında antifaşist vərəqələri yayır, düşmənə qarşı mübarizə aparmaq üçün xüsusi zərbə qrupları yaradır, rabitə xətlərini sıradan çıxarır, tez-tez parovoz və vaqonları, dəmiryol körpülərini partladırdılar. V.Axundov 1943-cü ilin yayında Ukrayna uğrunda gedən döyüşlərdə həlak olmuşdu.[109]

Böyük Vətən müharibəsi illərində Ukrayna ərazisində fəaliyyət göstərən bütün partizan dəstə və birləşmələrində Azərbaycan döyüşçüləri faşistlərə qarşı amansız olmuşlar. Ukraynada partizan hərəkatının görkəmli təşkilatçılarından birinin S.A.Kovpakın partizan birləşməsində 20 nəfərdən çox Azərbaycan döyüşçüsü düşmənə qarşı fədakarlıqla vuruşmuşdu. Onlardan Aslan Əliyev, Müslüm Bağırov, Babaş Dadaşov, Vladimir Korastılyov bir sıra çətin və məsul tapşırıqları uğurla yerinə yetirmişlər. Komsomolçu A.Əliyevin kəşfiyyatçılar

bölməsi düşmənin 250 əsgər və zabitini məhv etmişdi ki, onların 70 nəfəri igid komandirin payına düşür. Bakı neftçisi V.Korastılyov on beş ay düşmən arxasında vuruşmuş, 53 dəfə faşistlərlə döyüşə girmişdi. Pulemyotçu Bağırov bir il düşmən arxasında mübarizə aparmış, faşistlərin 40 əsgərini öldürmüş və 13 atəş nöqtəsini dağıtmışdı. M.Q.Bağırov II dərəcəli Vətən müharibəsi, "Qırmızı Ulduz" ordenləri və I dərəcəli "Vətən müharibəsi partizanı" medalı ilə təltif olunmuşdu.[110]

Böyük Vətən müharibəsi illərində düşmən arxasında fəaliyyət göstərən sovet partizanları faşistlərə qarşı mübarizədə müxtəlif üsullardan istifadə edirdilər. Bu üsullardan biri də alman əsgəri forması geyib, leqal şəkildə faşistlər arasında kəşfiyyat-təxribat işləri aparmaqdan ibarət idi. X.S.Babanlının rəhbərliyi altında Dnepropetrovsk vilayətində fəaliyyət göstərən azərbaycanlılardan ibarət partizan qrupu da bu mübarizə üsulundan məharətlə istifadə etmiş, nəticədə düşmən xeyli itki vermişdi. Bu qrup sovet-alman cəbhəsindəki həqiqi vəziyyət haqqında 5000 nüsxədən çox vərəqə yaymış, düşmənin bir neçə qatarını qəzaya uğratmış, hərbi sursat saxlanılan anbarlarını, 17 elektrik motorunu partlatmış, Krivoy-Roqun "Oktyabr" mədənindəki kömür şaxtasını su ilə doldurmuşdular.[111]

Müxtəlif vaxtlarda İ.İ.Şitovun, A.K.Nikolayçukun və B.Q.Şanginin komandası altında fəaliyyət göstərən Ternopol partizan birləşməsində 40 nəfərdən çox, M.Naumovun partizan birləşməsindəki dəstəsində 80, N.N.Popudrenkonun rəhbərliyi altında fəaliyyət göstərən "Çerniqov" partizan birləşməsində 70 nəfərədək azərbaycanlı döyüşçü alman işğalçılarına qarşı cəsarətlə vuruşmuşdu.[112] Onlar düşmən əsarətinin məhrumiyyətlərinə dözərək, hitlerçilərə qarşı mübarizəni mətanətlə davam etdirir, əsir düşərgələrində yaradılmış gizli antifaşist təşkilatlarında hərbi əsirlərin qaçıb partizan dəstələrinə qoşulmasına yaxından köməklik göstərirdilər. Aslan İbadov hərbi əsir düşərgəsindən 15 nəfərin qaçmasını təşkil etmiş və əsasən Jitomir vilayətində fəaliyyət göstərən A.M.Qrabçakın partizan birləşməsinə qoşulmuşdu. Onun rəhbərlik etdiyi rota düşmənin bir körpüsünü, 22 qatarını partlatmış, faşistlərin 64 avtomobilini, 500-ə yaxın əsgər və zabitini məhv etmişdi. Partizan birləşməsində bacarıqlı komandir və mahir kəşfiyyatçı kimi tanınan A.İbadov şəxsən 34 hitlerçini öldürmüş, 17-sini əsir almış, iki düşmən avtomobilini və bir dəmir yol körpüsünü partlatmışdı.[113]

Ukraynada xalq intiqamçıları sırasında Azərbaycan respublikasının qadınları da kişilərlə çiyin-çiyinə cəsarətlə vuruşurdular. Hərbi həkim Sara İbrahimova, təxribatçı Alfa Şirazi, Fəridə Nəsrullayeva, Lidiya Drozdova partizan dəstəsində döyüş məharəti nümayiş etdirmişdilər.[114]

Ukrayna ərazisində fəaliyyət göstərən "Şors" partizan dəstəsi Azərbaycan döyüşçülərindən ibarət ən böyük partizan dəstəsi idi. Bu dəstə Ukraynanın Zdolbunov rayonundakı düşərgədən qaçmış hərbi əsirlərdən təşkil edilmişdi. Onlar 1943-cü ilin avqustunda faşist gözətçilərini məhv edərək Slavuta meşələrinə

çəkilmiş və xalq intiqamçıları ilə birgə düşmənə qarşı mübarizə aparmışdılar. Dəstə 18 ay ərzində düşmən arxasında 6000 kilometr yol keçmiş, 27 faşist qarnizonu dağıtmış, 2500 hitlerçini öldürmüş, 500 nəfəri əsir almış, 11 şose, dəmir yol körpüsü, 80 avtomobil, 70 neft buruğu, 5 neftayıran zavod, 20 neft anbarı, 8 hərbi yüklü qatar, 22 təyyarə, 2 hərbi anbar, 1 qənd zavodu, 120 hərbi araba məhv etmiş və xeyli qənimət ələ keçirmişdi.[115]

Partizan hərəkatının geniş yayıldığı rayonlardan biri də Krım MSSR idi. Krımda partizan müharibəsi aparmaq böyük çətinlik törədirdi. Burada güclü düşmən hissələrinin mərkəzləşməsi, geniş yol şəbəkəsi, partizan bazalarının faşist qarnizonları tərəfindən aşkar edilməsi, sovet ordusu hissələri ilə müntəzəm əlaqənin olmaması xalq intiqamçılarının fəaliyyətini mürəkkəbləşdirirdi. Bu çətinliklərə baxmayaraq, 1941-1944-cü illərdə Krım partizanları düşmənin 29 min əsgər və zabitini qırmış, dörd min nəfərini əsir almış, 38 parovozunu, 947 vaqonunu, 2 zirehli qatarını, 13 tankını, 211 topunu, 1940 avtomobilini məhv etmiş və xeyli qənimət ələ keçirmişdilər.[116] Bu əməliyyatlarda digər sovet xalqlarının nümayəndələri ilə birlikdə Azərbaycan döyüşçüləri də fəal iştirak etmişlər. Nurməmməd Əzimov, Hacı Əliyev, Saleh Əsgərov, Əli Məmmədov, Hacı Hüseynov, Mixail Sepatov, Qafur Əyyubov və başqaları partizan dəstələrində düşmənə qarşı fədakarlıqla vuruşurdular[117]

1942-1943-cü illərdə sovet ordusunun güclü zərbələri altında faşistlərin bütün cəbhə boyu geri çəkilməsi düşmən arxasında partizan hərəkatının daha da genişlənməsinə səbəb olmuşdu. Bu dövrdə yüzlərlə Azərbaycan döyüşçüsü partizan dəstələrində düşmənə qarşı fədakarlıqla vuruşurdu. Z.B.Həbibov, Ə.A.Nağıyev, İ.N.Nəcəfəliyev, V.B.Xəlilov, M.V.Zalov, Q.Ə.Cabbarov, V.Q.Rəcəbov, M.Ə.Çerov, A.Ə.Səfərəliyev əməliyyatlarda xüsusilə fərqlənmişlər.[118]

1943-1944-cü illərdə Krımda 11700 nəfər xalq intiqamçısını özündə birləşdirən 33 partizan dəstəsi faşist işğalçılarına qarşı cəsarətlə vuruşurdu. Bunlardan biri də döyüşçülərinin 90 faizi azərbaycanlılardan ibarət olan 8-ci Azərbaycan partizan dəstəsi idi. Bu dəstə yeddi ay faşistlərə qarşı mübarizədə 32 dəfə faşist qarnizonuna və nəqliyyat vasitələrinə hücum etmiş, düşmənin 1225 əsgər və zabitini məhv etmiş, 451 nəfərini əsir almış, 23 avtomobilini partlatmış, 9700 metr rabitə xəttini kəsmiş, qənimət olaraq 7 topunu, 11 minomyotunu, 60 pulemyotunu, 3500 avtomat və tüfəngini, 11000 patronunu ələ keçirmişdi.[119]

Azərbaycan döyüşçüləri Leninqrad vilayətində də partizan hərəkatının fəal iştirakçıları olmuşlar. Hələ 1941-1942-ci illərdə

N.C.Allahverdiyev, H.C.Axundzadə, H.Ə.Əliyev, R.Z.Əliyev, D.V.Yeretev və başqaları partizan qrupu və dəstələrinə rəhbərlik etmişdilər. 1942-ci ilin iyun ayında Leninqrad vilayətinin Dedeviçsk, Oredensk, Olutsk rayonlarında

fəaliyyət göstərən partizan dəstəsinə mayor N.Allahverdiyev rəhbərlik etmişdir. Həmin dəstənin tərkibində K.M.Eyvazov, Ə.Ə.Məmmədov, R.Rzayev, İ.S.Süleymanov, N.Ş.Məmmədov, Ə.N.Cəfərov və başqaları vuruşmuşdular. K.M.Eyvazov şəxsən düşmənin iki avtomobilini partlatmış, dəmiryol relsini dağıtmış, rabitə xəttini sıradan çıxarmış və Qrefiya kəndindəki faşist qarnizonunun darmadağın edilməsində fərqlənmişdir. Leninqrad vilayətində partizan hərəkatının fəal iştirakçılarından Q.Q.Qasımov, V.İ.Lukyançenko, Y.V.Novruzov, C.A.Novruzov, M.V.Süleymanov, D.M.Tanrıverdiyev igidlik göstərmişlər.[120]

1942-ci ilin sentyabrında Krasnodon şəhərinin gəncləri "Gənc qvardiya" adlı gizli komsomol təşkilatı yaratmışdılar. "Gənc qvardiya"nın fəal üzvlərindən biri Əli Nəsrulla oğlu Dadaşov Sergey Tüleninin rəhbərlik etdiyi "beşliyə" daxil idi, çoxlu əməliyyatda iştirak etmişdi. 1942-ci il noyabrın 6-da gecə Tülenin, Valya Borts, Senya Ostapenko, Radik Yurkin və Əli Dadaşov faşist gözətçilərindən məharətlə yayınaraq, Krasnodon şəhərindəki ən uca binanın üzərinə al bayraq sancmışdılar.[121] 1942-ci il noyabrın axırlarında Ə.Dadaşov bir dəstə gənc qvardiyaçı ilə birlikdə 22 saylı kömür mədənində faşist gözətçisini öldürmüş və hitlerçilərin orada saxladıqları hərbi sursatı aparıb gizli təşkilatın anbarına yığmışdı. 1943-cü il yanvarın 5-də Ə.N.Dadaşov gənc qvardiyaçılarla birlikdə həbs edilmiş, 15 gün gestaponun işgəncələrindən sonra öz rəhbərləri ilə birlikdə vəhşicəsinə güllələnmişdi. Ə.N.Dadaşov ölümündən sonra I dərəcəli Vətən müharibəsi ordeni ilə təltif edilmişdi.[122]

Azərbaycan döyüşçüləri Pskov, Tula, Krasnodar, Kalinin və Rusiyanın başqa işğal olunmuş vilayətlərində gedən partizan hərəkatında da iştirak etmişlər. Kalinin vilayətindəki Liza Çaykina adına partizan briqadasının qərargah rəisi İsmayıl Əlibala oğlu Əliyevin rəhbərliyi altında 1942-ci ilin dekabrında partizanlar Çernoyarovo kəndində düşmən qarnizonunu darmadağın etmiş və satqınlardan təşkil edilmiş polis dəstəsini, xeyli hərbi sursat ələ keçirmişdi. Quduzlaşmış faşist komandanlığı 1943-cü ilin mart-aprel aylarında Kalinin partizanlarına divan tutmaqdan ötrü güclü cəza dəstələri ayırmışdı. Aprelin 16-dan 23-ə kimi İ.Əliyevin rəhbərliyi altında xalq intiqamçıları qeyri-bərabər döyüşə girmiş, düşmənin xeyli canlı qüvvəsini məhv etmişdilər. Lakin aprelin 23-də İ.Ə.Əliyev Kudeveri kəndi ətrafında düşmən mühasirəsini yarıb çıxarkən qəhrəmanlıqla həlak olmuşdu.[123]

Azərbaycan partizanları Baltika respublikaları ərazisində də fəaliyyətdə olublar. Baş serjant Qəzənfər Şabanov Latviya SSR-də A.S.Poçonun rəhbərlik etdiyi partizan dəstəsində bir ildən çox vuruşmuş və şəxsən 25 faşist məhv etmişdi.[124]

Litva SSR Trakay rayonunda fəaliyyət göstərən "Azad Litva" partizan dəstəsinin döyüşçüsü İ.H.Alxasov silah yoldaşı Pranas Koşatla birlikdə faşistlərlə

qeyri-bərabər döyüşə girərək öz canları bahasına xalq intiqamçılarının həyatını xilas etmişdilər.[125]

Estoniya SSR ərazisinə reydə çıxan A.Kozlovun partizan dəstəsinin döyüşçüsü İ.B.Dadaşov 1941-ci il noyabrın 6-da beş nəfər partizanla birlikdə Rakvere şəhəri yaxınlığındakı təyyarə meydanında faşistlərin 16 təyyarəsini yandırmışdı.[126]

Azərbaycandan olan hərbi əsirlər Almaniya, İtaliya, Fransa, Polşa və digər ölkələrin ərazilərində yerləşən hərbi düşərgələrdə düşmənə qarşı müxtəlif mübarizə formalarından istifadə etmişdilər. Onlar gizli təşkilatlar yaradır, faşistlərə işləyən müxtəlif hərbi obyektlərdə təxribat işləri aparır və əsirlərin qaçıb antifaşist müqavimət hərəkatına qoşulmasını təşkil edirdilər.

Hərbi əsirlərin saxlanıldığı ən böyük əsir düşərgələrindən biri Polşanın Yedlina şəhərində idi. 1942-ci ilin yazında Hadi Qiyasbəyov, Mirzəxan Məmmədov, Xələf Hacıyev, Əşrəf Süleymanov və başqalarının rəhbərliyi altında Yedlina hərbi əsir düşərgəsində gizli təşkilat yaradılmışdı. Təşkilatın fəal üzvü Əli Əliyev polyak partizanları ilə əlaqə yaradıb, onlardan parol almışdı. B.Hacıyevin rəhbərliyi altında bir dəstə hərbi əsir qaçıb bu parol vasitəsilə müqavimət hərəkatına qoşulmuşdu. Həmin döyüşçülər əsasən Polşa ərazisində fəaliyyət göstərən T.Novakın partizan briqadasında bir ildən çox vuruşmuş, öz cəsarəti ilə xalq intiqamçılarının rəğbətini qazanmışdılar.

Zeynal Zeynalov və Həsən Novruzov P.Karloviçin partizan dəstəsi tərkibində faşistlərə qarşı qəhrəmanlıqla vuruşaraq polyak xalqının azadlığı naminə gedən mübarizədə şəhid olmuşlar. Polşa qoşununun briqada generalı Z.Duşinski azərbaycanlı partizanlar haqqında xatirələrində yazır: "Onlar öz vətənlərinin və bizim Polşanın azadlığı uğrunda mübarizə aparmış, bu azadlıq yolunda canlarını fəda etmişlər".[127]

Polşa ərazisində fəaliyyət göstərən "Avanqard" partizan dəstəsinin tərkibində 12 azərbaycanlı partizan 1944-cü il noyabrın 28-də A.Bubnovun rəhbərliyi ilə alman generalı Ernest Rostu əsir almışdılar. Qəzəblənmiş faşist qərargahı xalq intiqamçılarına qarşı hücuma 3 piyada batalyonu göndərmişdi. Bu döyüşdə son patronadək qəhrəmanlıqla vuruşan azərbaycanlı partizanlardan Kərim Doşqan oğlu və Əli Qarabala həlak oldular. Polşa ərazisində fəaliyyət göstərən müxtəlif partizan dəstələrində Vahab Əmirov, Surxay Hacızadə, Əli Əliyev, Həsən Rəsulov, Xəlil Məlikov, Ənvər Səfərəliyev, Şamil Muxtarov, Məmməd Həsənzadə və onlarca başqaları polyak vətənpərvərləri ilə birgə faşist işğalçılarına qarşı amansız mübarizə aparmışdılar.[128]

Çexoslovakiya ərazisində fəaliyyət göstərən müxtəlif partizan dəstələrinin tərkibində 500-ə qədər Azərbaycan döyüşçüsü vuruşurdu. Xüsusi desant dəstələrinin tərkibində düşmən arxasına göndərilən M.Abışov, A.İbadov,

H.Məmmədov, müxtəlif əsir düşərgələrindən qaçıb müqavimət hərəkatına qoşulan A.Kastryulin, Ə.Baxışov və başqaları döyüşlərdə xüsusilə fərqlənmişdilər. Ə.Əlimərdanov Çexoslovakiyanın beş orden və medalı ilə təltif edilmişdi.[129]

Çexoslovakiya ərazisində fəaliyyət göstərən "Fakel", "Qrom", "Yan Qus" və başqa partizan dəstələrində çoxlu azərbaycanlı döyüşçü vardı. M.İ.Şukayevin partizan birləşməsindəki azərbaycanlılardan ibarət Uritski adına partizan dəstəsi Çexoslovakiya ərazisində fəaliyyət göstərdiyi müddətdə faşistlərlə 25 dəfə döyüşə girmiş, 7 dəfə düşmən qarnizonuna hücum edib, hitlerçilərdən 246 nəfərini öldürmüş, 49 nəfərini əsir almış, 41 parovoz, 85 avtomobil, 21 təyyarə məhv etmiş və xeyli qənimət ələ keçirmişdi.[130]

Hələ müharibənin əvvəllərindən faşist komandanlığı hərbi əsirlərdən öz məqsədi üçün istifadə etməyə çalışırdı. Moskva ətrafında məğlubiyyətdən sonra alman-faşist hökuməti əsirlərdən köməkçi hərbi hissələr təşkil etməyə başlamışdı. 1941-ci il dekabrın 22-də Hitler əsirlərdən xüsusi hərbi hissələr yaradılması haqqında əmr verdi.[131]

Başqa milli hissələrlə yanaşı, azərbaycanlılar da daxil olmaqla, Qafqaz müsəlmanlarından ibarət legion yaradıldı.

Bu məqsədlə vətənlərindən xaricdə, mühacirətdə yaşamağa məcbur olan Azərbaycanın nüfuzlu şəxsləri, o cümlədən Məmməd Əmin Rəsulzadə Berlinə dəvət edilmişdi. Azərbaycanlı siyasi mühacirlərin əsas məqsədi Almaniya qalib gələrsə, onun Azərbaycanı müstəqil dövlət kimi tanımasına, habelə hərbi əsirlər arasından azərbaycanlıların tapılıb ölümdən xilas edilməsinə (faşistlər onları bəzən yəhudi hesab edərək öldürürdülər) nail olmaq idi. Alman rəhbərliyi ilə danışıqlarda siyasi mühacirlər öz əsas məqsədlərinə nail ola bilmədilər. Doğrudur, 1942-ci ilin axırlarında Berlində başqa xalqlarla bərabər, azərbaycanlıların xaricdəki nümayəndələrinin də yığıncağı keçirildi. 1943-cü ilin baharında Berlində Milli Azərbaycan Komitəsi təşkil edildi. Lakin Hitler hökuməti əməkdaşlıq üçün gələcəkdə Azərbaycanın müstəqilliyinin tanınmasını əsas şərt kimi irəli sürən bu komitəni tanımadı. M.Ə.Rəsulzadə ölkəni tərk etməyə məcbur oldu.[132] Lakin azərbaycanlı əsirlərin bir hissəsi ölümdən xilas olundu və əsirlərdən ibarət hərbi hissədə birləşdirildi.

Qafqaz müsəlmanlarının hərbi hissəsində azərbaycanlılardan ibarət "Boz qurd", "Aslan", "Vətən", "Dönməz" və s. bölmələr vardı.[133]

Onlarca alman hərbi qərargahı arasında "Əlaqə heyəti"nə Fətəlibəyli-Düdənginski (əvvəllər sovet ordusunun mayoru olub), Fuad Əmircan, Abbas bəy Ataməlibəyov daxil idilər.[134] Başqa milli hissələr kimi, bu hissələr də pis silahlandırılır, onlara kifayət qədər hərbi təlim keçirilmirdi. Alman hərbçiləri bu hissələrin döyüşçülərini həqarətlə "ikinci növ" əsgər adlandırırdı.[135] Qafqaz xalqlarından təşkil edilmiş milli legionlardan Qafqaz döyüşlərində istifadə

olunmuşdu.[136] Azərbaycanlılar hərbi əsir düşərgələrində və bir çox hallarda öz iradəsi əksinə cəlb olunduqları hərbi hissələrdə gizli antifaşist təşkilatları yaradır, mübarizəni davam etdirirdilər. Hələ Almaniyanın "Ştrans" düşərgəsində saxlanılarkən Mehdi Hüseynzadə, Rza Ağazadə, Cavad Həkimli, Mirdamət Seyidov, Mikayıl Qulubəyov, Firudin Hüseynov, Cəmil İsmayılov və başqalarının rəhbərliyi altında antifaşist təşkilatı yaradılmışdı.[137]

1943-cü ildən başlayaraq faşist komandanlığı sovet hərbi əsirlərindən və onlardan təşkil olunmuş hərbi hissələrdən Avropanın müxtəlif ölkələrində partizanlara qarşı mübarizədə istifadə etməyə çalışdı. Bu məqsədlə 1943-cü ilin ortalarında onların bir hissəsi Şimal-Şərqi İtaliya ilə Triyestin sərhədinə gətirildi.[138]

Hərbi əsirlər, hərbi hissələrdəki gizli antifaşist təşkilatların üzvləri qaçaraq Yuqoslaviya partizanlarına qoşulurdu.

1943-cü ilin axırlarında Tolmino kəndi yaxınlığında 30 nəfər azərbaycanlı Qədir İsgəndərov və Mixail Arşanovun rəhbərliyi altında faşist gözətçilərini sakitcə aradan götürmüş və qaçıb partizanlara qoşulmuşdular. Bir neçə gün sonra Cabbar Əliyev, Qulamhüseyn Əliyev və Novruz Məmmədovun rəhbərliyi altında başqa bir dəstə qaçaraq partizanlarla birləşmişdi.[139]

Azərbaycanlı partizanlar əvvəl Yuqoslaviya Xalq Azadlıq Ordusunun 31-ci diviziyası tərkibində olan İvan Qradnik adına 3-cü zərbə briqadasında döyüşürdülər. Sonralar isə xüsusi sovet partizan bölüyü yaradılmış, Cavad Həkimli onun komandiri, Miryaqub Ağalarov isə komissarı təyin olunmuşdu. 1944-cü ilin yazında sovet partizanları İtaliya və Slaven partizanları ilə birlikdə Otlitsa, Sepovan, Çernı Verx, Serkino və Qodoviç kəndlərinin faşistlərdən təmizlənməsində fəal iştirak etmişdilər. 1944-cü ilin əvvəlində Yuqoslaviya Xalq Azadlıq Ordusunun 9-cu korpusu qərargahında xüsusi kəşfiyyatçılar qrupu yaradıldı. Onun tərkibinə slovak partizanları ilə yanaşı, azərbaycanlı partizanlardan Mirdamət Seyidov, Tağı Əliyev, Ənvər Məmmədov da daxil edildilər. Kəşfiyyat qrupuna Mehdi Hüseynzadə başçılıq edirdi. Bu kəşfiyyat qrupu, xüsusilə onun komandiri M.Hüseynzadə - "Mixaylo" özünün əfsanəvi qəhrəmanlıqları ilə Yuqoslaviyanın Adriatik dənizi sahillərində yaşayan bütün əhalinin dərin rəğbətini qazanmışdı.

1944-cü ilin yazında partizanlar, xüsusilə də yaralılar tibbi ləvazimat, silah və ərzağın çatışmazlığı üzündən çətin vəziyyətə düşdükləri bir zamanda Mehdi çox cəsarətli bir əməliyyat keçirməyi təklif edir. Bir neçə partizan alman əsgər və zabiti formasını geyərək Triyest şəhərinin ticarət bankına daxil olur və Mehdi gözətçinin telefon xəttini kəsərək, 5 milyon italyan lirəsinin bankdan çıxarılıb partizanlara verilməsinə imkan yaradır.[140]

Mehdi Hüseynzadə tez-tez alman zabiti hərbi formasında hərəkət edirdi. Bəzən də onu kəndli, rəssam və mətbəə işçisi paltarında görürdülər.

Alman faşistləri Hitlerin ad gününü qeyd edən zaman "Mixaylo" hərbi təyyarə meydanına daxil olaraq üç təyyarəni, benzin anbarını minaladı və baş verən partlayış nəticəsində təyyarə meydanı alovlandı. İyirmiyə yaxın faşist məhv oldu.[141]

1944-cü ilin martında M.Hüseynzadənin döyüş dostları ilə birlikdə Triyestdə partlatdığı zabit yeməkxanasında 150 faşist məhv olmuş, 354 nəfər isə yaralanmışdı. Həmin il aprelin 2-də onun qrupunun Optçina şəhəri kinoteatrında törətdiyi partlayış nəticəsində 80 alman əsgəri və zabiti ölmüşdü.[142]

1944-cü ilin yayında M.Hüseynzadə alman əsgəri formasında faşistlərin kazarmasına daxil olmuş, yanğın əleyhinə avadanlığa mina qoyaraq üçmərtəbəli binanı yerlə - yeksan etmişdi. Onun fəaliyyəti nəticəsində min faşist öldürülmüşdü.[143]

1944-cü il noyabrın 2-də Qoritsa şəhəri yaxınlığında almanların hərbi sursat anbarının partladılmasında iştirak edən Mehdi Hüseynzadə dəstəyə qayıdan zaman casuslarla qarşılaşmış, yayınmaq üçün Vitovle kəndinə gəlmişdi. Lakin o, faşistlərin bu kənddə keçirdiyi əməliyyat nəticəsində qəhrəmanlıqla həlak olmuşdu. Sovet hökuməti azərbaycanlı partizanların əsgəri igidliklərini yüksək qiymətləndirərək onlardan bir çoxunu SSRİ orden və medalları ilə təltif etmişdir. SSRİ Ali Soveti Reyasət Heyətinin 1957-ci il 11 aprel tarixli Fərmanı ilə Böyük Vətən müharibəsi illərində müqavimət hərəkatında alman faşist işğalçılarına qarşı mübarizədə göstərdiyi rəşadətə görə M.Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.[144]

M.Hüseynzadə ilə bərabər onun döyüş dostları - M.Seyidov, T. Əliyev, Ə.Məmmədov, K.Məmmədov, Ə.Babayev və b. da faşizmə qarşı amansız mübarizə aparmış, xalqımızın tarixinə şanlı səhifələr yazmışlar. 50 nəfərdən çox azərbaycanlı partizan yüksək döyüş xidmətlərinə görə Yuqoslaviyanın müxtəlif orden və medalları ilə təltif edilmişdi.[145]

1944-cü ildə sovet döyüşçüləri İtaliya hərbi düşərgələrindən kütləvi surətdə qaçaraq partizan dəstələrinə qoşulurdular. Onlardan Əvəz Mirzəyev, Şahbaba Məcidov, Məhərrəm Nəcəfov, İsa Məmmədov, Məmməd Xəlilov, Həmzə Əsgərov, Mikayıl Abdullayev, Süleyman Vəliyev, Şərif Şərifov, Həsən Quliyev, Hilal Cavadov, Vilayət Hüseynov, Cəlil Rəfiyev və bir çox başqaları İtaliya müqavimət hərəkatında faşistlərə qarşı qəhrəmanlıqla vuruşmuşlar. Mussolinini həbs edən partizanlar arasında Vilayət Hüseynov da vardı. Ümumiyyətlə, Şimali İtaliyada 300-dən çox azərbaycanlı döyüşçünün müqavimət hərəkatında vuruşduğu müəyyən edilmişdir.[146]

1943-cü ilin axırlarında Fransada faşist işğalına və mürtəce Peten üsuli-idarəsinə qarşı xalq müharibəsi gündən-günə yeni qüvvə ilə alovlanırdı. Faşist

komandanlığı partizan hərəkatına qarşı mübarizə aparmaq və ölkə daxilində asayişi qorumaq üçün xeyli silahlı qüvvə saxlamağa məcbur olmuşdu.

1944-cü ilin əvvəllərində Fransa ərazisində 25 mindən çox döyüşçünü birləşdirən 30-dan çox partizan dəstəsi fəaliyyətdə idi. Döyüşçüləri əsasən sovet vətəndaşlarından ibarət olan "Çapayev", "Azadlıq", "Vətən", "Donbas", "Kotovski" və digər partizan dəstələrinin şöhrəti hələ o dövrdə bütün Fransaya yayılmışdı. Bu partizan dəstələrinin tərkibində Azərbaycan xalqının oğulları da qəhrəmanlıqla vuruşmuş və fransız xalqının rəğbətini qazanmışdılar.[147]

1943-cü ilin axırlarında Rodez əsir düşərgəsində toplanmış azərbaycanlılar fransız kommunistləri ilə əlaqə yaratdılar və 1944-cü ildə bu əlaqələr daha da genişləndi. B.Məmmədov Averyon vilayəti müqavimət hərəkatının rəhbəri, kommunist polkovnik Rişardla görüşmüş və azərbaycanlı əsirlərin qaçıb partizanlara qoşulması üçün "Azrodez" - Rodezdəki azərbaycanlılar parolunu müəyyənləşdirmişdi. Bundan sonra gizli təşkilat azərbaycanlı əsirlərin dəstə-dəstə düşərgədən qaçıb, fransız partizanları ilə birləşməsi işinə başladı. Düşərgədən qaçan hərbi əsirlər fransız vətənpərvərlərinin köməyi ilə Aveyron dağlarında yerləşən "Sovet vətənpərvərlərinin hərbi komitəsi" adlanan təşkilatla birləşirdilər. Antifaşist təşkilat əsirlərin kütləvi surətdə qaçmasını təmin etmək üçün 1944-cü il avqustun 15-nə keçən gecə saat 12-də üsyan qaldırmağı qərara aldı. Lakin casus üsyanın başlamasına iki saat qalmış düşərgənin komandanlığına xəbər çatdırmış, üsyanın rəhbərləri dərhal həbs edilmiş, əsir düşərgəsi isə mühasirəyə alınmışdı. Yalnız gizli təşkilatın bir qrup üzvü meşəyə qaçıb fransız partizanlarına qoşula bilmişdi.[148] Faşistlər həbsə alınanları ölüm cəzasına məhkum etmiş, 50 nəfərdən çoxunu diri-diri yandırmışdılar. Lakin bu hadisədən iki gün sonra fransız və azərbaycanlı partizanlar tərəfindən Rodez şəhəri faşistlərdən azad edilmişdi.[149]

Fransa zəhmətkeşləri onların faşizm əsarətindən xilas edilməsi uğrunda qəhrəmanlıqla vuruşan azərbaycanlı partizanları unutmurlar. Rodez qəbiristanlığındakı matəm mitinqində çıxış edən polkovnik Rişard fransız xalqının Azərbaycan xalqına qarşı məhəbbətini belə ifadə etmişdi: "Fransızlar azərbaycanlı hərbi əsirlərin igidliyini unutmayacaqdır. Övladlarımız, nəvə və nəticələrimiz də biləcəkdir ki, bu yerlərdən uzaqda olan, lakin hər bir fransızın qəlbinə yaxın olan azərbaycanlı dostlarımız da Fransanın faşizmdən azad edilməsi yolunda canlarını əsirgəməmişlər. Azərbaycanlı əsgərlərin qəbirləri bizim üçün müqəddəs ziyarətgah olacaqdır. Həlak olanların qəhrəman obrazı əbədi olaraq qəlbimizdə yaşayacaqdır".[150]

Larzak şəhəri yaxınlığında faşist əsarətindən azad olunmuş azərbaycanlı hərbi əsirlərdən ibarət Azərbaycan partizan alayı təşkil edildi. Alayın komandiri gizli antifaşist təşkilatın üzvü H.Məmmədov idi. Alay Larzak, Kursaq, Mand, Nim və Rodez rayonlarının faşistlərdən azad edilməsində qəhrəmancasına vuruşmuşdu.

Ümumiyyətlə, 1943-1945-ci illərdə Fransa antifaşist müqavimət hərəkatında 2000 nəfərə yaxın azərbaycanlı iştirak etmişdi. Bunlardan Ə.Cəbrayılov, X.Hacıyev, D.Abdullayev, N.Abdullayev, R.Rzayev, Ə.Möhsümov, M.Məhərrəmov və başqaları cəsur partizan kimi tanınmış, bir neçə ali fransız hərbi orden və medalları ilə təltif edilmişdilər. Əhmədiyyə Cəbrayılov "Armed Mişel" adı ilə bu ölkənin azadlıq hərəkatında fəal iştirak etmiş, şəxsi igidliyə görə paradda əsgərə generaldan irəlidə getmək kimi şərəfli hüquq verən yüksək mükafatla - Hərbi medalla təltif olunmuşdu.[151]

Azərbaycanlı hərbi əsirlər Berlində yaradılmış gizli antifaşist təşkilatının işində də yaxından iştirak edirdilər. Cümşüd Məmmədov, Bəxtiyar Paşayev, Səttar Kərimov, Seyidəli Seyidov və bu gizli təşkilatın digər üzvləri çalışdıqları sənaye müəssisələrində düşmənə qarşı təxribatlar törədirdilər. Azərbaycan döyüşçülərindən M.Seyidov, Ə.Əlimərdanov faşistlərin Buhenvald, Mauthauzen, Daxau, Zaksenhauzen ölüm düşərgələrində Avropa ölkələrindən olan antifaşistlərlə birgə fəal iş aparırdılar.[152] Ə.S.Ağayev Buhenvald ölüm düşərgəsində antifaşist təşkilatın fəal üzvlərindən biri olmuşdur.[153]

## §4. MÜHARİBƏNİN SON, HƏLLEDİCİ DÖVRÜNDƏ

1944-cü ilin iyununda Avropada ikinci cəbhənin açılmasına baxmayaraq, Vermaxtın əsas qüvvələri alman-sovet cəbhəsində yerləşmişdi. Almanlar Moskvada qalmaq üçün öz qruplaşmalarının birinci cinahını möhkəmləndirməyə çalışırdılar. Son dərəcə gərgin gedən bu döyüşlərdə Azərbaycan diviziyaları da iştirak edirdi.

1944-cü il oktyabrın 20-də sovet və yuqoslav qoşunlarının birgə gücü ilə almanların 20 minlik Belqrad qruplaşması məhv edildi və Yuqoslaviyanın paytaxtı azad olundu.

Həmin il noyabrın sonunda Yuqoslaviya Xalq Azadlıq Ordusunun hissələri ilə birgə qədim Krakov şəhəri yaxınlığında çox ağır hərbi əməliyyatlar başlandı. 223-cü diviziyanın 1041-ci alayının komandiri mayor Baxış Mehdiyev 1037-ci alayın iki batalyonu ilə birlikdə şəhəri alman faşistlərindən təmizlədilər. Düşmən döyüş meydanında 1000-ə qədər əsgər və zabit itirdi. 223-cü Azərbaycan diviziyasının döyüşçüləri Belqradın sakinlərinin alqışları altında qələbə bayrağı ilə qürurla addımladılar. 223-cü diviziyaya "Belqrad" fəxri adı verildi. Bu münasibətlə marşal İosip Broz Tito diviziyanın komandirinə təbrik məktubu göndərmişdi.[154]

1944-cü il avqustun 25-də 223-cü diviziya 3-cü Ukrayna cəbhəsi komandanının əmri ilə Sarata-Qalebna rayonunda mühasirəyə alınmış düşmən qruplaşmasını parçalamaq məqsədilə döyüşə başladı. Alman faşist diviziyaları

güclü hücumlarla mühasirədən çıxmağa çalışdığı zaman mayor Baxış Mehdiyevin 1041-ci alayı özü düşmənin mühasirəsinə düşdü, lakin iki günlük mühasirə şəraitində B.Mehdiyevin alayı igidlik göstərərək 1500 alman faşistini məhv etmiş, 1000 nəfəri isə əsir götürmüşdü.

223-cü diviziyanın adı iki dəfə Ali Baş Komandanın əmrində çəkilmiş və almanların Dnepr çayı sahilindəki müdafiəsini yardığına, Benzeranı hücumla aldığına görə ona iki dəfə təşəkkürnamə göndərilmişdi.[155]

1945-ci il yanvarın 12-də sovet ordusunun Visla-Oder əməliyyatı başlandı. Bu əməliyyatın aparılmasında məqsəd alman-faşist qruplaşmalarını dağıtmaq, Polşanın azad edilməsini başa çatdırmaq, Berlinə həlledici zərbə endirilməsi üçün münasib şərait yaradılmasını təmin etmək idi. Bu əməliyyatda 416-cı Taqanroq və 223-cü Belqrad diviziyaları fəal iştirak etdilər.

Visla sahillərində gedən döyüşlərdə leytenant Bəhyəddin Mirzəyev şöhrət qazandı. Yanvarın 14-dən 15-ə keçən gecə onun rotası Vislanı keçib sağ sahildə möhkəmləndi. Cəsur döyüşçülər tutduqları mövqeyi əldən vermədilər. Əməliyyat B.Mirzəyevin göstərdiyi şəxsi qəhrəmanlıq və döyüş ustalığı sayəsində qələbə ilə başa çatdı.[156]

1945-ci ilin yanvarında düşmənin Visladakı müdafiə istehkamlarının keçilməsində 416-cı diviziyanın batalyonu yüksək döyüş məharəti nümayiş etdirmişdi. Batalyon düşməni birinci və ikinci müdafiə xətlərindən çıxararaq, diviziyanın hərəkətinə imkan yaratdı.

Varşavanın cənubunda düşmən müdafiəsinin yarılması və Visla-Oder arasındakı döyüşlərdə yüksək hərbi nailiyyətlərinə görə 416-cı diviziyanın 1368-ci alayı Qırmızı Bayraq, 1054-cü artilleriya alayı III dərəcəli Suvorov, 444-cü topçu divizionu III dərəcəli Boqdan Xmelnitski, 348-ci sanitar batalyonu Qırmızı Ulduz ordenləri ilə təltif olunmuşdu. 1945-ci il yanvarın 19-da 416-cı diviziya Visladan Polşanın içərilərinə doğru 180 km irəlilədi,[157] fevralın 1-də isə Oder çayının qərb sahilinə çıxdı. Almanlarla bir həftə ağır döyüşlər nəticəsində kapitan Mirzəyevin batareyası tutduğu mövqelərini saxlaya bildi. Bəhyəddin Mirzəyev igidliyinə görə SSRİ Ali Soveti Rəyasət heyətinin Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bu, 416-cı və 295-ci diviziyaların birgə zərbələri altında düşmənin Berlinə gedən yol üzərində yerləşən və müdafiə xətti rolunu oynayan Küstrin şəhər-qalanın alınması üçün böyük strateji əhəmiyyət kəsb edirdi. Yolayrıcında yerləşən binada mövqe tutmuş düşmən pulemyotçusu sovet döyüşçülərinin irəliləməsinə imkan vermirdi. Gənc zabit Məmmədnəbi İsmayılov sürünərək binaya yaxınlaşdı, pulemyot nöqtəsini məhv etdi və hücum üçün yol açıldı.[158] Fevralın 19-da 1373-cü atıcı alay Küstrinin şimalında düşmənin altı əks-hücumunu dəf etmiş, 13 tankı, 650 əsgər və zabiti məhv etmişdi. 1945-ci il martın 12-də Birinci Belorus cəbhəsi qoşunları tərəfindən azad olunmuş Küstrinin alınması

şərəfinə Moskvada 224 topdan 20 yaylım atəşi açıldı. Ali Baş Komandanın əmrində 416-cı diviziyanın döyüşçülərinin qəhrəmanlığı xüsusi qeyd olunurdu. Diviziyanın 1054-cü topçu alayı Qırmızı Bayraq, 1374-cü atıcı alayı Boqdan Xmelnitski, 1368-ci atıcı alayı III dərəcəli Suvorov, 444-cü top divizionu və 345-ci sanitar batalyonu Aleksandr Nevski ordenlərinə layiq görüldü. 1945-ci ilin yanvar-mart aylarındakı döyüşlər ərzində 416-cı diviziyanın 1388 döyüşçüsü orden və medallarla təltif olunmuşdu.[159]

Budapeşt rayonu istiqamətində hərəkət edən 223-cü diviziya Yuqoslaviya-Macarıstan sərhədini keçərək, 4-cü qvardiya ordusunun tərkibində Budapeşt şəhəri uğrunda döyüşlərə başladı. Diviziyanın döyüşçüləri iki ay yarım ərzində Budapeşt yaxınlığında almanların 50-dən çox ağır hücumunu dəf etmişdi. 75-ci atıcı Belqrad-Budapeşt korpusunun tərkibində iştirak edən 223-cü diviziya aprelin 13-də Avstriyanın paytaxtı Vyananı azad etdi. Vyana istiqamətində hazırlanan hücum əməliyyatlarından bir ay əvvəl 223-cü diviziya Avstriyanın 44 yaşayış məntəqəsi və 4 şəhərini alman işğalçılarından azad etmişdi. Bu döyüşlərdə diviziya düşmənin 4500 əsgər və zabitini məhv etmiş, çoxlu texnika və döyüş sursatını qənimət götürmüşdü. Ali Baş Komandanlığın əmri ilə diviziyaya təşəkkür elan edilmişdi. Vyana yaxınlığında uğurlu əməliyyatlara görə 223-cü diviziya SSRİ Ali Soveti Rəyasət heyətinin Fərmanı ilə Qırmızı Bayraq ordeni ilə təltif olunmuşdu. 223-cü diviziya Mərkəzi və Cənubi Avropanın altı ölkəsinin - Rumıniyanın, Bolqarıstanın, Yuqoslaviyanın, Avstriyanın, Çexoslovakiyanın azad olunmasında fəal iştirak etmişdi. Ümumiyyətlə, müharibə illərində diviziya 10 min kv.km ərazini, 400 yaşayış məntəqəsini, o cümlədən 19 şəhəri düşməndən təmizləmişdi.[160]

Alman faşistləri ilə döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri 45 mindən çox alman faşistini məhv etmiş və 43800 nəfər əsgər və zabiti əsir almışdılar. Diviziyanın döyüşçüləri düşmənin 28 təyyarəsini, 113 tank və döyüş maşınını, 549 səhra topunu, 311 minaatan qurğusunu, 1152 pulemyotunu, 25 mindən çox avtomaşınını məhv etmişdi.[161] Yüksək döyüş məharətinə və igidliyə görə 20 nəfər azərbaycanlı döyüşçüyə, o cümlədən A.Vəzirov, M.Vəliyev, A.Quliyev, M.Abdullayev, B.Mirzəyev, M.Cəbiyev, X.Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verilmişdi.[162]

1945-ci ilin yanvarında sovet ordusunun Polşaya hücumu zamanı Ziya Bünyadovun başçılıq etdiyi bölüyün bütün döyüşçüləri Plitsa çayı üstündəki körpü uğrunda qeyri-bərabər döyüşdə göstərdiyi igidliyə görə təltif edildilər. Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adı verildi.[163]

Sovet qoşunları 1945-ci ilin aprelində Berlinin alınması və faşistlərin son iqamətgahının darmadağın edilməsi əməliyyatına başladı. Aprelin 17-də 416-cı diviziyanın iki piyada batalyonu 295-ci diviziyanın hissələri ilə birlikdə Nou-Hardenberqi faşistlərdən azad etdi. Aprelin 20-də diviziya Klossordorfu, 21-də

Ştrausberqi tutaraq Berlinə yaxınlaşdı, aprelin 26-da şəhərin cənub-şərqindən Sileziya vağzalı və Reyxstaq istiqamətində hücuma keçdi. 73-cü atıcı alay amansız döyüşlərdə faşistlərin müqavimətini qıraraq, mayın 1-də gündüz saat 3-də Kayzer sarayını tutdu və üzərinə Qırmızı bayraq sancdı. Berlindəki küçə döyüşlərində göstərdikləri qəhrəmanlığa görə baş leytenant Vaqif Osmanov, Q.İsmayılov, azərbaycanlı qızlar R.Əhmədova, S.Bayramova, N.Yəhyayeva, T.Tahirova, S.Ağayeva, S.Xəlilova, L.Nəzirova yüksək mükafatlara layiq görüldülər. Mayın 2-də səhər 416-cı diviziyanın bir qrup döyüşçüsü leytenant A.Məcidovun başçılığı altında Brandenburq qapıları üzərində qələbə bayrağı qaldırdı.[164]

Azərbaycan xalqının fəxri olan Qırmızı Bayraqlı, II dərəcəli Suvorov ordenli Taqanroq diviziyası Böyük Vətən müharibəsi dövründə Qafqazdan Berlinə qədər şanlı döyüş yolu keçmiş, 23 minə qədər hitlerçini məhv etmiş, 5474 nəfəri əsir almış, düşmənin 21 tankını, 195 topunu, habelə minlərlə silah və sursatını sıradan çıxarmışdı. Diviziyanın 8 döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 11 döyüşçü Lenin ordeni ilə təltif edilmiş, ümumiyyətlə, 14369 əsgər və zabiti SSRİ orden və medallarına layiq görülmüşdü.[165]

Berlin uğrunda döyüşdə azərbaycanlılar qızıl ordunun digər birləşmələrində də fəal iştirak edirdilər. Sovet İttifaqı Qəhrəmanı Əvəz Verdiyevin komandanlıq etdiyi rota Potsdam vağzalı yaxınlığında faşistləri müdafiə istehkamlarından vurub çıxarmışdı.

Aprelin 26-da Berlin uğrunda iki saatlıq döyüşdə 8 tank və 204 hitlerçi məhv edərək, düşmən hücumunu pozmuşdu. Başından ağır yaralanmış komandir Yusif Sadıxov son nəfəsinədək döyüş meydanını tərk etmədi. O, Berlin uğrunda döyüşlərdə xüsusilə fərqləndiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[166]

Hitlerçiləri Berlində sıx halqaya alan I Belorus və I Ukrayna cəbhələrinin qoşunları alman faşizminin darmadağın edilməsini başa çatdırdı. Aprelin 30-da sovet qoşunları hitlerçilərin son müqavimətini qırıb Reyxstaqı ələ keçirdi və üzərinə Qələbə bayrağı sancdı.

1945-ci il mayın 8-də faşist Almaniyası Berlində qeyd-şərtsiz təslim aktına qol çəkdi. 1945-ci il mayın 9-u tarixə sovet xalqının Qələbə bayramı kimi daxil oldu.

1945-ci il iyunun 24-də Moskvada, Qızıl meydanda Azərbaycan döyüşçüləri nümayəndələrinin də iştirak etdiyi sovet ordusunun Qələbə paradı keçirildi.

Sovet İttifaqı 1945-ci il avqustun 9-da Yaponiyaya müharibə elan etdi. Avqustun 10-da Sovet Hərbi Qüvvələri Mancuriya və Koreyada yerləşən yapon qoşunlarına qarşı döyüşlərə başladı. 24 gün davam edən döyüşlərdə Azərbaycan xalqının nümayəndələri də vuruşurdu. 223-cü Azərbaycan diviziyası Uzaq Şərqə

göndərilmişdi.[167] Ayrı-ayrı hərbi hissələrin tərkibində də azərbaycanlılar döyüşürdülər. Göstərdikləri əsgəri rəşadətə görə Qara Sarıyev, Aslan Aslanov, Hacı Hacıyev, Niyaz Hüseynov, Hacı Rzayev, Ələkbər Səfərov və başqaları SSRİ Ali Sovetinin 1945-ci il sentyabrın 30-da təsis etdiyi "Yaponiya üzərində qələbəyə görə" medalı ilə təltif olunmuşdular. Minomyotçu Q.Sarıyev 1945-ci il avqustun 8-də 6-cı Qvardiya tank ordusunun tərkibində Monqolustanın Qobu səhrasından keçərək Xinqan aşırımının alınmasında, Mancuriyada Lyubey, Xaylar, Çan-Çun, Xarbin və digər şəhərlərin Kvantun ordusundan təmizlənməsində iştirak etmiş, Ali Baş Komandanın imzası ilə 1945-ci il 23 avqust tarixli əmrlə Fəxri Fərmanla təltif olunmuşdur.[168]

Sovet qoşunları Kvantun ordusunu darmadağın etdi, beləliklə, SSRİ Yaponiya üzərində qələbədə mühüm rol oynadı. 1945-ci il scntyabrın 2-də Yaponiya hökuməti ABŞ-ın "Missuri" xətt gəmisində təslim aktına qol çəkdi. Bununla da İkinci Dünya müharibəsi başa çatdı.

Müharibədə Sovet İttifaqı xalqları 27 milyon nəfərdən artıq şəhid vermişdi. Azərbaycan SSR-dən cəbhəyə getmiş 700000 nəfərə qədər döyüşçüdən 300000 nəfəri həlak olmuşdu.[169]

Böyük Vətən müharibəsi cəbhələrində H.Aslanov, S.Qəniyev, M.Əbilov, H.Hüseynov, A.Abdullayev, Y.Abduldayev, A.Abasov, Q.Zeynalov, Heybətov, T.Əliyarbəyov, A.Vəzirov, A.Qazızadə, B.Mehdiyev, D.Nəcəfov, N.Kərimov kimi bacarıqlı sərkərdə və komandirlər qələbəyə böyük töhfələr vermişdilər.

Hərbi rəşadətə görə Azərbaycandan olan 120 nəfərdən çox döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü. 30 nəfər azərbaycanlı döyüşçü "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 170 mindən artıq əsgər və zabit ölkənin müxtəlif orden və medalları ilə təltif olunmuşdu.[170]

SSRİ müharibədən qalib çıxdı. Bunun başlıca səbəbi ölkənin, xalqın gücünün qələbəyə uğurla səfərbər olunması idi. Ölkənin rəhbərliyi inzibati idarəçilik metodlarını daha da möhkəmləndirib, iqtisadiyyatı qısa bir zamanda hərbin tələbləri əsasında yenidən qura bildi. Xalqların iqtisadi, hərbi və mənəvi qüvvələri birləşdirildi. Azərbaycan xalqı İkinci Dünya müharibəsində SSRİ-nin qalib çıxmasına öz layiqli töhfəsini vermiş, adı XX əsrdə qəsbkarlığa və mürtəce qüvvələrə qarşı mütərəqqi qüvvələrin tarixi salnaməsinə qızıl hərflərlə əbədi həkk olunmuşdur.

Böyük Vətən müharibəsi İkinci Dünya müharibəsinin həlledici, mühüm tərkib hissəsi idi. Sovet İttifaqı xalqları, o cümlədən Azərbaycan xalqı, əsasən, bu müharibənin ağır yükünü öz çiyinlərində daşımış və faşizm üzərində tarixi qələbə qazanılmasında mühüm rol oynamışdır.

III FƏSİL

## SOVET QOŞUNLARININ İRANA DAXİL OLMASI. CƏNUBİ AZƏRBAYCANDA BAŞ VERƏN HADİSƏLƏR

İran müharibədə neytral mövqedə qalacağını bəyan etsə də, Almaniya ilə strateji əməkdaşlıq xəttini davam etdirirdi. Almaniya İranın xarici ticarətində ikinci yeri tuturdu. İrandan benzin qeyri-qanuni yollarla Almaniyaya aparılırdı.

Almanlar İranın dövlət müəssisələri və hərbi idarələrində mühəndis, texnik, məsləhətçi adları altında öz hərbi və xüsusi idarələrinin nümayəndələrini yerləşdirir, Təbriz, Maku, Xoy, Miyanə, Mərənddəki firmalarında xüsusi xidmət orqanları işçilərinin sayını artırırdılar. Almaniyanın müharibənin ilk illərindəki qələbəsi İranda almanpərəst meyli gücləndirirdi. Bu ölkənin rəhbər dairələrində SSRİ məğlub olarsa, "Zaqafqaziya və Orta Asiyanın 16 şəhərinin" İrana birləşdirilməsi barədə planlar qurulurdu.[1]

Faşist Almaniyasının SSRİ-yə hücumundan sonra, 1941-ci ilin iyun-iyul aylarında Sovet İttifaqı İrana üç xəbərdarlıq notası vermiş, həmin ilin iyun ayında Britaniya xarici işlər naziri İranın səlahiyyətli nümayəndəsi qarşısında "almanların İrandakı şübhəli fəaliyyətinə" son qoyulması tələbini irəli sürmüşdü. İyulun 19-da Britaniya Nazirlər Kabineti İranın cənubuna daxil olmaq barədə qərar qəbul etmişdi.[2]

Dövlət Müdafiə Komitəsinin qərarı ilə sovet qoşunları 1921-ci il 26 fevral tarixli Sovet-İran müqaviləsinin altıncı maddəsinə əsasən, 1941-ci il avqustun 25-də gecə saat 2-də İran sərhədini keçərək, Ərdəbil və Təbriz istiqamətində irəlilədilər.[3] Hərbi əməliyyatlarda Naxçıvandan Xəzərin cənubuna doğru bütün istiqamətlərdən SSRİ sərhəd qoşunları, 44-cü (tərkibində 77-ci Azərbaycan və 20-ci diviziyalar) və 47-ci ordular, Xəzər donanması, Zaqafqaziyadakı 8-ci aviakorpus, Yevlaxdakı 132-ci aviadiviziya iştirak edirdilər.[4]

Sovet qoşunları ilə bir vaxtda İranın cənub və qərbindən ingilis qoşunları da ölkəyə daxil oldu. Sovet ordu hissələri avqustun 26-da Təbriz və Ərdəbilə, avqustun 30-da Zəncana, avqustun 31-də Qəzvinə girdilər. Sentyabrın 17-də sovet, sentyabrın 18-də isə ingilis qoşunları Tehrana daxil oldular.[5] Sovet ordu hissələri Uşnu-Miyandab-Zəncan-Qəzvin-Babol-Zirab-Semnan-Şahrudda, şərqdə isə Əliabadda yerləşdilər. İngilis qoşunları Xanəkin-Kermanşah -Xürrəmabad-Məscede-Süleyman-Rame-Hörmüz-Bəndər-Deyləm xəttindən cənub və qərbə doğru olan ərazini tutdular.[6]

Sovet qoşunlarının İranda keçirdiyi sonrakı hərbi əməliyyatlarda Azərbaycan SSR-dən xüsusi bir qrup iştirak etmişdi.[7]

Cənubi Azərbaycanda sovet təsirini yaymaq məqsədilə 1941-ci il sentyabrın 21-də İran dövlətinin Azərbaycan ərazisində Azərbaycan SSR-dən səfərbər edilmiş partiya, sovet, hüquqmühafizə, təsərrüfat və mədəniyyət işçilərindən ibarət qrup Azərbaycan Kommunist Partiyası MK-nın üçüncü katibi, Təbrizdəki 47-ci ordunun Hərbi Şurasının üzvü Ə.M.Əliyevin rəhbərliyi ilə fəaliyyətə başladı.[8] Bu qrupa Süleyman Rəhimov, Mirzə İbrahimov, Mustafa Quliyev və b. daxil idi.[9]

1941-ci ilin sonuna qədər Bakıdan - Respublika fondundan yardım olaraq Cənubi Azərbaycana 2548 ton qənd, 1371 ton un, 1814 ton buğda, 1494053 metr parça və ümumi dəyəri iki milyon manatlıq digər mallar göndərildi.[10]

Cənubi Azərbaycanda fəaliyyət göstərmiş alman firmalarının əmlakı müsadirə edilib, SSRİ-yə göndərildi."

Mətbuat, redaksiya qrupu 1941-ci il oktyabrın 11-dən ərəb əlifbası ilə Azərbaycan dilində "Vətən yolunda" qəzetinin nəşrinə başladı.[12] Urmiyədə Azərbaycan dilində "Qızıl əsgər" (redaktoru Zülfəli İbrahimov) və Rəştdə fars dilində "Sərbaz-e sorx" ("Qızıl əsgər") (redaktoru Xasay Vəzirov) ordu qəzetləri buraxılırdı.[13]

Azərbaycandan gəlmiş həkimlər əhaliyə tibbi yardım göstərir, sanitariya-gigiyena sahəsində izahat işləri aparır, malyariyaya qarşı geniş tədbirlər həyata keçirirdilər.[14]

Sovet-İran mədəni əlaqələrinin inkişafında Azərbaycan Respublikasının mədəniyyət xadimləri mühüm rol oynayırdılar. İrana qastrol səfərinə gəlmiş ilk sovet incəsənət kollektivlərindən biri - M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrı Ü.Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm", M.Maqomayevin "Şah İsmayıl" operalarını, Ü.Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasını tamaşaçılara göstərmişdilər. Qastrolların müvəffəqiyyətlə keçməsində rejissor İsmayıl Hidayətzadənin, dirijor Niyazinin, balet ansamblının rəhbəri Qəmər Almaszadənin, artistlərdən Bülbülün, Əlövsət Sadıqovun, Həqiqət Rzayevanın böyük əməyi olmuşdu.[15] 1941-ci il oktyabrın 26-da SSRİ xalq artisti Şövkət Məmmədova təbrizlilər qarşısında geniş konsertlə çıxış etmiş, 1942-ci il fevralın 20-dən aprelin 9-dək Rəşid Behbudovun İran qastrolları uğurla keçmişdi.[16] Bakı kinostudiyasının istehsalı olan "Kəndlilər", "Bakılılar", "T-9" sualtı qayığı" bədii, "Ordenli Azərbaycan", "Əbədi Odlar ölkəsi" sənədli və "Zoya", "O, Vətəni müdafiə edirdi", "217 №-li adam" dublyaj filmləri tamaşaçıların böyük rəğbətini qazanmışdı.[17]

Cənubi azərbaycanlılar sovet xalqlarının faşizm əleyhinə mübarizəsinə ehtiramla yanaşır, SSRİ Müdafiə Fonduna, xüsusilə azərbaycanlılardan ibarət 416-cı Taqanroq diviziyasına pul vəsaiti toplanmasını təşkil edir, müttəfiq ölkə

yüklərinin İrandan Sovet İttifaqına pulsuz daşınmasına təşəbbüs göstərirdilər. "İstgah-e İran trans" nəqliyyat təşkilatının fəhlələri birgünlük əmək haqlarını, Miyanədə "İran-Sovet trans"ın fəhlələri gündəlik mədaxillərindən bir hissəsini, Təbrizdəki "Pəşminə", "Azərbaycan", "Mümtaz", "Qəzvini", "Xosrovi" fabriklərinin işçiləri, İran Culfası əhalisi 416-cı diviziyanın fonduna xeyli vəsait keçirmişdilər.[18]

Təbrizin "Gülüstan" bağında məşhur yerli musiqiçilər (müğənni Əbülhəsənxan İqbal Azər, skripkaçı Yeganə, santur çalan Böyük İbadi) konsert proqramı ilə çıxış edərək, pul və qiymətli əşya toplamış, sovet ordusuna yardım göstərmişdilər.[19]

Sovet təbliğatçılarının siyasi fəaliyyəti nəinki İran hökumətini, eləcə də qonşu dövlətləri, o cümlədən onların müttəfiqlərini - İngiltərə və ABŞ-ı narahat edir, üçtərəfli Sovet-İran-İngiltərə danışıqlarına mane olurdu.

SSRİ o vaxt çox əhəmiyyətli tranzit xidməti göstərən İranla və müttəfiqləri ilə münasibəti pozmamaq üçün İrandakı siyasi fəaliyyətini bir qədər zəiflətməyə məcbur oldu.

1942-ci il yanvarın 29-da Tehranda SSRİ-Böyük Britaniya-İran arasında ittifaq müqaviləsi bağlandı. Həmin ilin martında Azərbaycandan İrana göndərilmiş siyasi işçilərin əksəriyyəti geri çağırıldı. 1942-ci ilin ortalarında burada Bakı missiyasından cəmi 84 nəfər qalmışdı.[20] Aprel ayında "Vətən yolunda" qəzetinin nəşri dayandırıldı.[21] 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək ABŞ, SSRİ və Böyük Britaniya dövlət başçılarının Tehran konfransında qəbul edilmiş "İran haqqında Bəyannamə"də bütün tərəflər bu dövlətin ərazi bütövlüyünün qorunub saxlanmasına tərəfdar olduqlarını bildirdilər.[22]

1944-cü ilin əvvəllərində beynəlxalq aləmdə və İranda yaranmış vəziyyətlə əlaqədar Sovet İttifaqı yenidən Cənubi Azərbaycan məsələsinə diqqəti artırdı.

SSRİ XKS 1944-cü il martın 6-da "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" məsələ müzakirə edərək, əhəmiyyətli qərar qəbul etdi. Qərarda siyasi işçilərin tərkibində, diplomatik orqanlarda çalışan konsul, vitse-konsul və konsulluğun katibi vəzifələrində, Tehrandakı Sovet səfirliyi və ticarət nümayəndəliyində çalışan azərbaycanlıların sayını artırmaq, həftədə üç dəfədən az çıxmamaqla"Azərbaycan dilində ordu qəzeti nəşr etmək", Təbrizdə pulsuz "Azərbaycan dilində təhsil verən onillik məktəb", "məktəbdə kitabxana - oxu zalı", Cənubi Azərbaycan yazıçı və şairlərinin əsərlərinin nəşri və əhali arasında yayılması məqsədilə avadanlıqla yaxşı təchiz olunmuş "Təbriz" mətbəəsi açmaq, may-iyun aylarında Azərbaycan Dövlət Dram Teatrının Cənubi Azərbaycan şəhərlərinə qastrolunu təşkil etmək, "Təbrizdə corab-trikotaj fabriki", "Təbriz rayonunda nümunəvi aqrotexniki stansiya" yaratmaq kimi əhəmiyyətli məsələlər öz əksini tapmışdı.[23]

Qərara uyğun olaraq, 1944-cü il martın əvvəllərində azərbaycanlılara Cənubi Azərbaycanda çalışmaları üçün siyasi işçilər üzrə 33, ticarət müvəkkilliyi üzrə 11, diplomatik idarələr üzrə 14, qəzetin nəşri üzrə 27 yer ayrılmış və ümumi rəhbərlik H.M.Həsənova tapşırılmışdı.[24]

1944-cü ilin yaz və yayında Azərbaycandan Cənubi Azərbaycana 620 nəfərdən çox müxtəlif işçilər göndərilmiş və daha 375 nəfər səfərbər edilmişdi.[25] Mühüm tapşırıqla gedənlərin qarşısında duran əsas vəzifə Arazın o tayındakı azərbaycanlıların milli özünüdərk hissini artırmaq, onların tək olmadığını, sərhədin şimal tərəfində qardaşlarının yaşadığını təbliğ etmək idi.[26]

İkiillik fasilədən sonra 1944-cü il aprelin 10-da "Vətən yolunda" qəzeti yenidən nəşrə başladı və onun nəşri 1946-cı il mayın 1-dək davam etdi (bütövlükdə, 1941-1946-cı illərdə qəzetin 406 nömrəsi nəşr olunmuşdu. M.İbrahimov, H.Şahgəldiyev və R.Quliyev onun baş redaktoru olmuşlar).[27]

İçməli su olmadığı üçün Bakıdan 1944-cü il mayın 11-də Qəzvinə qazma qurğusu, boru və 33 qazmaçıdan ibarət briqada göndərildi. Qəzvində 4, Təbrizdə 8 su quyusu qazıldı.[28]

1944-cü ilin yaz-yay aylarında "Təbriz" mətbəəsinin yaradılması və fəaliyyəti üçün ərəb və kiril əlifbası ilə işləyən mətbəə maşını, 30 ton kağız, kitablar, mebel, dəmir sobalar, yağlı boya, makina və hər ay 400 litr benzin və s. göndərildi.[29]

Azərbaycan SSR hökuməti Təbriz nümunəvi aqrotexniki stansiyasının yaradılması üçün 15 traktor, 5 maşın, toxumçuluq laboratoriyası üçün avadanlıq, 50 nəfərlik yeməkxana üçün inventar ayırdı.[30]

SSRİ XKS 1944-cü il iyunun 24-də Təbrizdə Azərbaycan dilində orta məktəbin açılması haqqında qərar qəbul etdi. C.Ələsgərovun direktor olduğu, 36 nəfər müəllim və inzibati-təsərrüfat işçisindən ibarət bu məktəbdə dərslər noyabrın 1-də başlandı.[31]

1945-ci ilin sentyabrında məktəbin 18 sinfində 566 şagird təhsil alırdı. Marağa, Maku, Kürdüstan və Urmiyədən gəlmiş şagirdlər üçün yataqxana ayrılmışdı. Bakıdan məktəbə yeni dərsliklər göndərilmişdi.[32]

1944-cü il sentyabrın 3-də Təbrizdə sovet xəstəxanası (baş həkim S.Səmədov) açıldı. Hər gün 150 xəstəyə tibbi xidmət göstərən xəstəxanada 20 çarpayılıq stasionar, cərrahlıq, daxili xəstəliklər, göz, ginekologiya şöbələri var idi. Xəstəxananın nəzdində diş və dəri, zöhrəvi xəstəliklər də daxil olmaqla, hər cür xəstə qəbul edən poliklinika da fəaliyyət göstərirdi. Burada rentgen, prosedura kabinetləri, palçıq müalicəxanası, laboratoriyalar, həmçinin aptek yerləşirdi.[33]

İki ölkə arasında mədəni əlaqələrin möhkəmlənməsində 1943-cü il oktyabrın 31-də fəaliyyətə başlayan "İranın SSRİ ilə Mədəni Əlaqələr Cəmiyyəti" önəmli rol oynayırdı.[34] Cəmiyyətin İranın 34 şəhərində açılmış şöbələri içərisində

ən fəalı 1944-cü il avqustun 12-də yaradılmış Təbriz şöbəsi idi. Təbriz şöbəsinin nüfuzunun artmasında Ə.Bağırzadənin rəhbərlik etdiyi Sovet mədəniyyət evinin böyük xidmətləri vardı.[35]

1945-ci ilin oktyabrında Bakıda Azərbaycanın İranla Mədəni Əlaqələr Cəmiyyəti (AİMƏC) yaradıldı.[36] Cəmiyyətin sədri S.Vurğun çıxışlarından birində demişdi: "Azərbaycanda yaradılan İranla Mədəni Əlaqələr Cəmiyyətinin məqsədi Azərbaycan xalqının mədəniyyət sahəsindəki nailiyyətlərini İranda tanıtdırmaq, habelə İranın elm və incəsənət sahəsindəki müvəffəqiyyətlərini Azərbaycanın geniş zəhmətkeş kütlələrinin malı etməkdir".[37]

AİMƏC-də 8 bölmə, o cümlədən ədəbiyyat (rəhbəri M.Arif), musiqi (Q.Qarayev), humanitar elmlər (H.Hüseynov), tibb (Z.Məmmədov), memarlıq (S.Dadaşov), rəssamlıq (Q.Xalıqov), incəsənət (M.Haşımov) və nəşr (H.Sultanov) bölmələri fəaliyyət göstərirdi.[38]

Dünya müharibəsindən sonrakı dövrdə nüfuz dairələri, enerji mənbələri, bazarlar uğrunda mübarizə kəskinləşdi.

Sovet İttifaqı Cənubi Azərbaycandakı azadlıq ideallarını və milli prosesi öz təsiri altında saxlamaqla, İkinci dünya müharibəsinin sonunda buradakı siyasi hadisələrə beynəlxalq aləmdə arzuolunmaz bir münasibət formalaşdırmışdı. Böyük Britaniya, ABŞ və Türkiyə bu hadisələrə milli azadlıq hərəkatından daha çox Sovetlərin İrana ərazi, iqtisadi və ideoloji ekspansiyası kimi baxırdılar.[39]

1944-cü il sentyabrın 10-da SSRİ xalq xarici işlər komissarının müavini S.İ.Kavtaradzenin sədrliyi ilə Sovet hökumət komissiyası Tehrana rəsmi səfəri zamanı Şimali İranda - Semnan, Qorqan, Mazandaran, Gilan və Azərbaycanda neft konsessiyası haqqında təkliflərinə[40] müsbət cavab almadı. Sovet İttifaqı yerli demokratik qüvvələrə təsiri gücləndirdi.

1945-ci ilin yayında və payızın əvvəllərində Cənubi Azərbaycanda vəziyyət gərginləşdi. Mərkəzi hökumət, bilavasitə ABŞ və İngiltərənin hərbi-siyasi yardımına arxalanan mürtəce dairələr kəndlilər, həmkarlar ittifaqları fəalları və demokratik təşkilatların üzvlərinə qarşı kütləvi təqib və terrora keçdilər. Bunlara qarşı özünümüdafiə məqsədilə fədai dəstələri təşkil olundu. Belə bir şəraitdə vətəndaş müharibəsinə yol vermədən ictimai-siyasi hadisələrə başçılıq etməyə qadir siyasi təşkilatın yaradılması zərurəti meydana çıxdı. 1945-ci il sentyabrın 3-də S.C.Pişəvərinin (1892-1947) başçılığı ilə milli azadlıq və demokratik hərəkata rəhbərlik edən Azərbaycan Demokratik Partiyası (ADP) yaradıldı.[41]

1945-ci il oktyabrın 2-dən 4-dək Təbrizdə ADP-nin I qurultayı keçirildi.[42] ADP-nin qurultayda qəbul edilmiş proqramında milli məsələ barədə deyilirdi: "İran məmləkəti daxilində yaşayan hər bir nıillətin muxtariyyəti və öz müqəddəratını təyin etmək hüququ əyalət və vilayət əncümənləri vasitəsilə təmin edilməlidir".[43]

İran məclisi və hökuməti Azərbaycan xalqının tələblərini eşitmədi. Əyalət və vilayət əncümənlərinin təşkil olunmayacağını rəsmi surətdə elan etdi. Hökumət çoxlu miqdarda ərzağı Azərbaycandan daşıtmaqla orada süni qıtlıq yaratmaq istədi. Azərbaycan tacirlərinin 15 milyon tümənə yaxın pulunu Tehran banklarına köçürməklə, Azərbaycan ticarətində çətinliklər yaratdı. 1945-ci il sentyabrın 10-da Marağa və oktyabrın 20-də Ərdəbil şəhərlərində hərbi vəziyyət elan edildi. Marağada ADP-nin fəal üzvü, şəhər idarəsinin rəisi Məhəmməd Hüseyn Rahvər terror nəticəsində öldürüldü. Azərbaycan xalqının etirazına baxmayaraq, sentyabrın 12-də qatı irticaçı S.M.Fərrux Azərbaycana vali təyin olundu. Hökumət başçısı, hərbi nazir və İran qoşunu Baş qərargahı rəisinin iştirakı ilə keçirilən iclasda ADP-nin komitə üzvlərinin Təbrizdə həbs edilərək gizli və təcili Tehrana aparılması qərara alındı. Bu barədə hökumətin Azərbaycandakı diviziya komandanlığına xüsusi əmr də verildi.[44]

İrticanın qarşısını almaq üçün demokratik təşkilat üzvlərindən Sovet İttifaqına tərəfdar olanların silahlandırılması zəruri məsələyə çevrilmişdi. Buna görə ÜİK(b)P MK və SSRİ XKS 1945-ci il oktyabrın 8-də vəziyyətin ciddiliyini nəzərə alaraq, Cənubi Azərbaycanda möhkəmlənmək barədə qərar qəbul etdi.[45] Buraya göndərilmək üçün çoxlu silah ayrıldı.

1945-ci il noyabrın 20-21-də Təbrizdə keçiriləcək Azərbaycan Xalq Konqresinə (AXK) Cənubi Azərbaycanın bütün şəhərlərindən nümayəndələrin seçilməsi üzrə kompaniyanın getdiyi bir vaxtda İran qoşununun birinci dəstəsi noyabrın 17-də, ikinci dəstəsi 18-də Tehrandan Qəzvinə tərəf hərəkət etdi. Fədailər hökumətin silahlı qüvvələrinə ilk zərbəni 1945-ci il noyabrın 16-dan 17-nə keçən gecə Marağa, Mərənd, Miyanə, Sərab və Ərdəbil mahallarında eyni bir vaxtda endirdilər. Nəticədə Təbriz, Ərdəbil, Əhər, Astara, Marağa, Miyandab, Urmiyə, Xoy və Maku şəhərlərindəki dövlət qüvvələri bir-birindən ayrı düşərək təklənmiş oldular.[46]

1945-ci il noyabrın 18-dən 26-dək Azərbaycanın böyük qəsəbə və şəhərlərində, o cümlədən Nəmin, Zəncan, Germi, Astara, Biləsuvarda, dekabrın 1-dən 19-dək Xoy, Maku, Səlmas, Marağa, Meşkinşəhr, Təbriz, Əhər, Xalxal, Ərdəbil, Kələybər, Miyandab və Urmiyədə "Hökumət qan tökülmədən irtica qüvvələrinin əlindən çıxıb xalqın əlinə keçdi".[47]

Azərbaycan Xalq Konqresi özünü Müəssislər Məclisi elan etdi və tərkibində Milli Heyət seçildi. Bu heyət Azərbaycan Milli Məclisinə qədər Müəssislər Məclisinin qərarlarının icrasını və seçkilərin keçirilməsini təmin etməli idi. Müəssislər Məclisinin qəbul etdiyi Bəyannamədə Azərbaycana İran dövləti daxilində milli muxtariyyət verilməsi tələb olunurdu.[48]

1945-ci il noyabrın 27-dən dekabrın 1-dək məclisə ümumi seçkilər keçirildi. 12 dekabr - Milli Məclisin açıldığı gün Azərbaycan muxtariyyətinin yarandığı gün

oldu.[49] Ölkədə milli azadlıq hərəkatının ümumi yüksəlişi şəraitində manevr etməklə vaxt qazanmağa çalışan Tehran hökuməti 1946-cı il iyunun 13-də Azərbaycan Milli Məclisini Azərbaycan Əyalət əncüməni kimi tanımağa məcbur oldu.[50] Azərbaycan valisini təyin etmək (Əyalət əncüməninin təklifi ilə) İran hökumətinin səlahiyyətində qaldı.

Azərbaycan Milli hökuməti qısa fəaliyyəti ərzində mühüm əhəmiyyətli tədbirlər həyata keçirdi. 1946-cı il fevralın 16-da "Xalisələrin bölünməsi haqqında qanun" və "Müsadirə haqqında qanun" qəbul etdi. Bu qanunlar əsasında dövlət kəndlərinin torpaqları və sular kəndlilər arasında əvəzsiz olaraq bölünməli, Milli hökumətə qarşı mübarizə edənlərin torpaqları kəndlilərə verilməli idi.[51]

Sənayedə fəhlə nəzarəti yaradıldı. Azərbaycan Milli Məclisinin 1946-cı il mayın 12-də qəbul etdiyi Əmək qanununda 8 saatlıq iş günü, əməkçilərin bir çox sosial-iqtisadi ehtiyaclarının təmin edilməsi nəzərdə tutulurdu. Qənd zavodu, Təbrizin tütün və çay fabrikləri Milli hökumətin ixtiyarına keçdi. Milli hökumət Təbrizin "Şayan" trikotaj fabrikini satın aldı, Təbrizdə "Zəfər" adlı trikotaj fabriki və bir neçə şəhərdə parça və corab fabrikləri açdı.[52]

1946-cı il fevralın 6-dan xalq qoşunları yaradılmasına başlandı. Hərbi məktəb açıldı, az müddətdə xalq qoşunları üçün 250 nəfərdən çox zabit hazırlandı.[53]

Mədəniyyət sahəsində mühüm işlər görüldü. Milli hökumətin 1946-cı il 6 yanvar tarixli "Dil haqqında Azərbaycan Milli hökumətinin qərarı" ilə Azərbaycan dili Cənubi Azərbaycanda rəsmi dövlət dili elan olundu.[54] 1946-cı il yanvarın 6-da Milli hökumət Təbrizdə Azərbaycan Dövlət Darülfünunu təşkil etmək haqqında qərar verdi. Tibb, pedaqoji, kənd təsərrüfatı fakültələrindən ibarət olan Təbriz Universiteti rəsmi surətdə həmin il iyunun 12-də açıldı.[55]

1946-cı il yanvarın 19-da Təbrizdə Ali İncəsənət və Rəssamlıq Məktəbi, martın 28-də Azərbaycan Dövlət Teatrı, aprelin 7-də Azərbaycan radiosu, iyulun 5-də İncəsənət Muzeyi, sentyabrın 3-də Azərbaycan Milli orkestri[56] və onun əsasında təşkil olunmuş Dövlət Filarmoniyası[57] fəaliyyətə başladı. Xalq hökuməti hesabına 7 şəhərdə tərbiyə evləri, şəhər, qəsəbə və kəndlərdə çoxlu kitabxana və qiraətxana açıldı, Azərbaycan Rəssamlar və Heykəltəraşlar Cəmiyyəti təşkil olundu, Ərdəbil, Astara, Marağa və digər şəhərlərdə teatr binaları tikildi. Əhalinin vəsaiti hesabına bir ildə 2000-dən artıq məktəb açıldı. Azərbaycan dilində 20-dən çox qəzet və jurnal nəşr edilməyə başlandı.[58]

İran hökuməti sovet qoşunlarının İrandan çıxmasına qədər gözləmək, ABŞ-dan hərbi-siyasi kömək almaq və mürtəce qüvvələri birləşdirməklə əsas məqsədinə nail olmaq istəyirdi.

Sovet İttifaqı, Böyük Britaniya və İran arasında bağlanmış 1942-ci il 29 yanvar tarixli ittifaq müqaviləsinə görə, sovet qoşunlarının İranda qalması müddəti

1946-cı il martın 2-də qurtardı. Elə həmin gün Məşhəd, Şahrud, Semnan kimi nisbətən sakit şəhərlərdən sovet qoşunlarının çıxarılmasına başlandı.[59] Ancaq Cənubi Azərbaycandakı hadisələrlə əlaqədar bu iş bir qədər dayandırıldı. ABŞ və Böyük Britaniya dövlətləri BMT-nin 1946-cı ilin yanvarında Londonda keçirilən sessiyasında "İran məsələsi"ni Təhlükəsizlik Şurasının gündəliyinə çıxardılar. Lakin SSRİ-nin təkidi ilə bu məsələ təxirə salındı.[60]

1946-cı il martın 18-də "İran məsələsi" ikinci dəfə Təhlükəsizlik Şurasının gündəliyinə çıxarıldı və martın 26-da bu məsələyə baxıldı. Ancaq sovet qoşunlarının martın 24-də yenidən təxliyəsi getdiyi üçün müzakirə İran hökumətinin xahişi ilə dayandırıldı. 1946-cı il aprelin 4-də Moskvada SSRİ və İran hökumətləri qalan qoşunların da çıxarılması haqqında razılığa gəldilər.[61] Həmin tarixdə (4 aprel 1946-cı il) Tehran şəhərində imzalanmış Sovet-İran sazişinin 3-cü maddəsində deyilirdi: "Azərbaycan (Cənubi Azərbaycan nəzərdə tutulur - *Red.)* məsələsi İranın daxili işi olduğundan mövcud qanunlara görə hökumətlə Azərbaycan əhalisi arasında və Azərbaycan xalqına xeyirxah münasibət ruhunda islahat keçirməyin dinc yolu tapılacaqdır".[62]

1946-cı il aprelin axırından həyata keçirilən sovet qoşunlarının təxliyəsi İranın başqa rayonları kimi, Cənubi Azərbaycanda da mayın 26-da başa çatdırıldı.[63]

Beləliklə, "Azərbaycan məsələsi İranın daxili işi olduğundan" artıq onun taleyi həll edilmişdi. Hələ 1942-ci ilin sonundan İranın bütün silahlı qüvvələrinin ixtiyarını öz əlinə keçirmiş ABŞ hərbi heyətləri 21 Azər hərəkatının əvvəlindən İranın silahlı qüvvələrini Azərbaycana qarşı hücuma hazırlayırdılar. Bununla əlaqədar İran hökuməti ABŞ-dan 20 milyon dollarlıq silah və hərbi sursat almış, əməliyyat zamanı amerikalılar İran qoşununa 40 bombardmançı təyyarə vermişdilər. İngilislər isə 1946-cı ilin avqustunda İran sərhədinə, Bəsrə şəhərinə 5 diviziya gətirmiş, hərbi gəmiləri İranın Xürrəmşəhr və Abadan limanlarına yan almışdı.[64]

1946-cı il sentyabrın 1-də Azərbaycan Xalq hakimiyyəti üzərinə ümumi silahlı hücuma başlayan İran hökuməti 1946-cı il dekabrın 20-də onun fəaliyyətinə son qoydu.[65]

## II BÖLMƏ
## AZƏRBAYCAN SSR
## DİNC QURUCULUQ DÖVRÜNDƏ
## VƏ MÜSTƏQİLLİK ƏRƏFƏSİNDƏ

### I FƏSİL

### RESPUBLİKANIN SOSİAL-İQTİSADİ İNKİŞAFI

***(1945-1960-cı illər)***

#### §1. RESPUBLİKANIN İQTİSADİ HƏYATI XALQ TƏSƏRRÜFATININ BƏRPASI VƏ İNKİŞAFI

**40-cı illərin ikinci yarısı.** Müharibə sovet ölkəsinin bütün təsərrüfatına çox ağır zərbə vurdu. 1941-1945-ci illərdə ölkə öz milli sərvətinin üçdə bir hissəsini itirdi. Milyonlarla adam doğmalarını, yaxınlarını itirmiş, sahibsiz uşaqların sayı kəskin surətdə artmışdı. Başqa yerə köçürülmüş milyonlarla insanın, əsirlikdən azad edilmiş yüz minlərlə vətəndaşın taleyi faciəli olmuşdu.

Azərbaycan bilavasitə alman-faşist qəsbkarlarının hücumuna məruz qalmamışdı, bununla belə, respublika zəhmətkeşləri müharibənin bütün ağırlığını çəkmişdilər. Müharibədə sənaye istehsalının əsas göstəriciləri kəskin surətdə aşağı düşmüşdü. Sənayenin ümumi məhsulu 1940-cı illə müqayisədə 22 faiz aşağı düşmüşdü.[2] Neft hasilatı 1945-ci ildə 1940-cı ildəkinə nisbətən təqribən yarıbayarı azalmışdı.[3]

Müharibə dövründə texniki bitkilər məhsulunun xeyli azalması nəticəsində istehlak malları istehsalı kəskin surətdə aşağı düşmüşdü. 1945-ci ildə 1940-cı ilə nisbətən pambıq istehsalı 154 min tondan 65 min tona, barama istehsalı 2384 tondan 1615 tona qədər azalmışdı. 1940-cı ildən 1946-cı ilədək iribuynuzlu mal-qaranın sayı 1382 min başdan 1203,5 minə enmişdi.[4] Kənd təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdi.

Azərbaycan əhalisi 1940-cı ildə 3304,1 min nəfər idi. 1945-ci ildə onun sayı 17,65 faiz azalmışdı.[5]

Müharibə ölkənin əmək ehtiyatlarının istifadəsinə də mənfi təsir göstərmişdi. Azərbaycanın xalq təsərrüfatında fəhlə və qulluqçuların 1940-cı ilin oktyabrında 456 min olduğu halda, 1945-ci ilin sentyabrında 396 min nəfərə qədər azalmışdı.[6]

Respublikada xalq təsərrüfatının bərpası hələ işğal olunmuş ərazilər azad edildikcə başlanmışdı. 1945-ci il mayın 26-da SSRİ Dövlət Müdafiə Komitəsi

"Silah istehsalının azaldılması ilə əlaqədar olaraq sənayeni yenidən qurmaq sahəsində tədbirlər haqqında" qərar qəbul etdi.[7] Azərbaycan SSR xalq təsərrüfatının, xüsusilə neft sənayesinin bərpası və inkişafı üçün mühüm tədbirlər görüldü. 1945-ci il mayın 28-də SSRİ DMK "Bakıda neft hasilatını artırmaq tədbirləri haqqında" xüsusi qərar qəbul etdi.[8] Qərarda neft sənayesini inkişaf etdirməyin böyük proqramı nəzərdə tutulmuşdu. Müharibə qurtarandan sonra müəssisələrdə iş vaxtından artıq işləmək hallarına son qoyuldu. 8 saatlıq iş günü və illik məzuniyyətlər bərpa edildi. 1945-ci il dekabrın 1-dən müharibə illərində istifadə edilməmiş məzuniyyətlərə görə pul kompensasiyasının ödənilməsinə başlandı.[9] Maşınqayıranlar tezliklə neft-mədən avadanlığı buraxılışını bərpa etdilər, yeni neft avadanlığının növlərini istehsal etməyi öyrəndilər. 1946-cı ilin əvvəlində "Azneftmaş" trestinin neft-maşınqayırma zavodlarının mülki məhsul buraxmağa keçidi başa çatdı. Müharibədən qabaqkı məmulatın nomenklaturası tamamilə bərpa olundu, neft avadanlığının bir sıra yeni növlərinin buraxılışı qaydaya salındı. 1946-cı ildə bu zavodların məhsulu 1945-ci ildəki həcmdən 14,5 faiz çoxaldı.[10]

Neft avadanlığının təmiri və ehtiyat hissələrinin hazırlanması, habelə yeni növ cihazların istehsalı geoloji-kəşfiyyat işlərinin genişləndirilməsinə, quyuların bərpa olunmasına, həcminin artmasına, neft hasilatının çoxalmasına kömək edirdi. 1946-cı ildə respublikada neft hasilatı 1945-ci ildəkinə nisbətən 463 min ton, yəni dörd faiz artdı.[11]

1946-cı ildə bütün neft emalı və təmizləyici qurğular əsaslı təmir olunurdu. Elə həmin il termiki krekinq qurğularının yenidən qurulması başa çatdırıldı,[12] kükürd turşusu katalizatoru ilə benzolu propilenlə alkilləşdirən qurğu istismara verildi.[13]

1946-cı ildə Azərbaycanda iqtisadiyyatın yenidən qurulması başa çatdırıldı, respublika sənayesi ümumi məhsulunun həcmi 1940-cı il səviyyəsinin 80 faizinə çatdı.[14]

Sənayenin yenidən qurulmasındakı uğurlar respublikanın xalq təsərrüfatının digər sahələrində də yenidənqurmanın sürətini artırdı. Sənaye tikintisi və mülki tikinti genişləndi.

Hərbi iqtisadiyyatdan dinc iqtisadiyyata keçidin müvəffəqiyyətlə başa çatdırılması xalq təsərrüfatını bərpa və daha da inkişaf etdirmək vəzifələrini yerinə yetirmək sahəsində işləri daha çox genişləndirməyə imkan yaratdı.

SSRİ xalq təsərrüfatının bərpası və daha da inkişaf etdirilməsinə dair dördüncü beşillik (1946-1950-ci illər) plana[15] 1946-cı il martın 18-də SSRİ Ali Sovetinin birinci sessiyasında baxıldı. 1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsinə dair beşillik planda sənayenin və kənd təsərrüfatının inkişafını müharibədən əvvəlki səviyyəyə yüksəltmək və bu səviyyəni ötüb keçmək əsas vəzifə kimi irəli sürüldü.[16]

Ölkənin xalq təsərrüfatının yeni texnika ilə təchizatı neft məhsullarına tələbatı artırdı. Buna görə də Azərbaycanın neft sənayesinin bərpa və inkişafı diqqət mərkəzində idi. Beşillik ərzində respublikanın neft sənayesinə qoyulan əsaslı vəsaitin həcmi 4740 milyon manata bərabər idi ki, bu, SSRİ neft sənayesinə qoyulan bütün əsaslı vəsaitin 20,7 faizini təşkil edirdi.[17] Neftçıxarma sənayesini yeni texnika ilə təchiz etmək üçün ölkənin 50-dən çox zavodu respublika neft sənayesinin sifarişlərini yerinə yetirirdi.[18]

Neft hasilatını artırmaq üçün yeni neft yataqlarının kəşfinə və istismarına böyük ehtiyac var idi. Buzovna-Maştağa (1945-ci il), Gürgan-dəniz və Gəncə rayonu (1947-1948-ci illər), Hövsan və Umbakı (1948-1950-ci illər), Neft daşları (1950-ci il), Darvin bankası (1950-1951-ci illər) kimi yeni neft və qaz yataqları kəşf edilmiş və sənaye üsulu ilə işlənmək üçün istifadəyə verilmişdi.[19]

Neft hasilatını yüksəltməyin həlledici şərtlərindən biri neft quyuları qazılması üzrə işləri genişləndirmək idi. Geoloji-kəşfiyyat işlərini genişləndirmək, yeni neft yataqlarının kəşfi və istifadəyə verilməsi işində SSRİ hökumətinin qərarı ilə 1947-ci ilin sonunda "Azneftkəşfiyyat" Birliyi yaradıldı. 1943-cü ildə "Azneft" Birliyi nəzdində yaradılmış Xüsusi Qazma İdarəsi sonralar "Turbin-qazma" tresti şəklində yenidən təşkil olundu.[20]

1946-cı ildən başlayaraq Azərbaycanın neft mədənlərində turbin qazması getdikcə daha çox tətbiq edilirdi. Bu, neftçilərə turbin üsulu ilə maili istiqamətdə quyular qazmağa imkan verdi. Bu təşəbbüs bütün sovet neft sənayesinin inkişafına Azərbaycan neftçilərinin böyük töhfəsi idi. Bakılıların bir özül üzərindən iki və daha çox neft quyusunun qazılması üsulu mühüm əhəmiyyət kəsb edirdi. Yeni texnikanın tətbiqi, quyuların istismar rejiminin yaxşılaşdırılması neft hasilatının artmasına kömək edirdi. 1948-1950-ci illərdə 2800-ə qədər dayanmış quyu bərpa edilmişdi.[21]

50-ci illərin ortalarına qədər SSRİ-nin əsas neftçıxarma mərkəzi sayılan Azərbaycan artıq müharibədən sonra bütün ölkənin yanacağa olan ehtiyacını tam ödəyə bilmirdi. Buna görə də Xəzər neft yataqlarının aşkar edilməsi və istifadəyə verilməsi problemi meydana çıxdı.

Azərbaycan neft sənayesinin inkişafında Xəzərdə neft yataqlarının kəşfi və istifadə edilməsi çox önəmli hadisə oldu. Mərkəzi hökumətin bəzi yüksək vəzifəli şəxslərinin Azərbaycanda, xüsusilə Xəzər dənizində neftçıxarma sənayesinin iqtisadi cəhətdən səmərəsiz olması iddialarına baxmayaraq,[22] Azərbaycan alimlərinin, neftçilərinin gərgin əməyi sayəsində dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlandı. 1949-cu ilin fevralında qasırğalı bir havada məşhur qazma ustası M.Kaveroçkinin briqadası açıq dənizdə Neft daşlarına çıxdı. Son dərəcə mürəkkəb və çətin şəraitdə neftçilərin qazdığı kəşfiyyat quyusu 1949-cu il noyabrın 7-də fontan vurdu.[23]

Dəniz neft yataqlarını mənimsəmək üçün "Azneft" Birliyi nəzdində "Dəniz qazma" Tresti yaradıldı. 1949-cu il mayın 7-də SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfini və işlənməsini üzən vasitələrlə təmin etmək haqqında" xüsusi qərar qəbul etdi.[24]

Dəniz mədənlərinin yaradılması və inkişafında "Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfi və işlənilməsi üzrə işlərin təşkilini yaxşılaşdırmaq tədbirləri haqqında" SSRİ Nazirlər Sovetinin 1949-cu il 31 oktyabr tarixli qərarının böyük əhəmiyyəti oldu.[25] Dəniz neft yataqlarının işlənilməsini gücləndirmək və bu işə rəhbərliyi yaxşılaşdırmaq məqsədilə 1950-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə yeni neft Birliyi - "Azdənizneft" yaradıldı.[26]

Dəniz neft yataqlarından istifadə etmək üçün dünya təcrübəsində ilk dəfə dənizdə neft-mədən estakadaları tikildi. 1948-ci ildən estakadaların tikintisinə "Hidrodənizneft" İnstitutu rəhbərlik edirdi. 1950-ci ildə estakadanın uzunluğu 18,9 km-ə çatmışdı.[27]

Fəhlələrin, mühəndis-texniki işçilərin və alimlərin fədakar əməyi sayəsində dəniz yataqlarından[28] beşilliyin son ilində 1,6 milyon ton neft çıxarıldı.[29]

1946-1950-ci illərdə neft emalı sənayesində zavodlar yenidən quruldu, yeni texnika ilə təmin edildi, xammaldan istifadə yaxşılaşdırıldı və təkmilləşdirildi. 1946-1947-ci illərdə Bakıda traktorları va neft mədənlərindəki istismar-qaldırıcı mexanizmləri təmir edən zavod-Bakı elektrik təmiri zavodu, 1949-cu ildə isə Binəqədi boru təmiri zavodu istifadəyə verildi.[30]

Maşınqayırma zavodlarının istehsal gücü artırdı. 1946-1950-cı illərdə neft maşınqayırma zavodları elmi-tədqiqat idarələri ilə birlikdə 438 növ yeni maşın, mexanizm və alət istehsalını mənimsədi.[31]

Maşınqayırma sənayesinin yeni sahələrinin yaradılmasına başlandı. 1947-ci ilin martında respublikada elektrotexnika sənayesinin ilki olan Bakı elektrik maşınqayırma zavodu, Bakı diyircəkli yastıq zavodu, yeni cihazqayırma və elektromexanika məmulatı zavodu işə düşdü.

Yeni zavodların istismara verilməsi o vaxta qədər əsasən neft avadanlığı istehsalı ilə məşğul olan maşınqayırmanın birtərəfli inkişafına son qoyulmasının başlanğıcı oldu.

Müharibədən sonrakı ilk illər Azərbaycanda enerji obyektlərinin və elektrik enerjisi istehsalının daha da artması ilə səciyyələnir. Enerji sistemi müəssisələrinin bütün əsas qazanları yenidən quruldu. Sumqayıt İstilik Elektrik Stansiyasının gücü üç dəfə artırıldı.[32]

Lakin istehsal olunan elektrik enerjisi Azərbaycanın xalq təsərrüfatının enerjiyə artan tələbatını ödəmək üçün kifayət qədər deyildi. Bu işdə tikintisinə hələ müharibədən əvvəl başlanmış Mingəçevir SES həlledici rol oynamalı idi. SSRİ

Xalq Komissarları Sovetinin 1945-ci il mayın 6-da qəbul etdiyi qərara uyğun olaraq Mingəçevir SES-in tikintisi bərpa edildi.[33]

Həmin ilin avqustunda isə "Mingəçevirsestikinti" İdarəsi yaradıldı. 1948-ci ilin əvvəlindən su qovşağının əsas obyektlərinin tikintisi sürətlənməyə başladı. Mingəçevir su qovşağının inşaatçılarına bütün ölkə kömək edirdi. 300-dən artıq müəssisə onları avadanlıq, mexanizm və tikinti materialları ilə təchiz edirdi.[34]

Tikinti materialları sənayesində də yeni əmək nailiyyətləri qazanıldı. 1948-ci ildə Bakı asbestşifer və keramika məmulatları kombinatının birinci növbəsi işə düşdü, 1949-cu ildə kombinatın tikinti fayansı zavodu, 1950-ci ildə isə asbest boru sexi istifadəyə verildi.[35] Mingəçevirdə, Sumqayıtda və bir sıra rayonlarda tikinti materialları sonayesinin bir çox müəssisələri istismara verildi. Beləliklə, respublikada inşaat materialları istehsalı ildən-ilə artmağa başladı.

Yüngül, toxuculuq, yeyinti və yerli sənaye bərpa olunur və daha da inkişaf etdirilirdi. Yüngül və toxuculuq sənayesi müəssisələrinin yenidən qurulması və genişləndirilməsi, onların müasir texnika ilə təchiz olunması və texnoloji proseslərin yaxşılaşdırılması nəticəsində əsas istehlak məmulatlarının istehsalı 1950-ci ildə müharibədən əvvəlki səviyyəni ötüb keçmişdi.[36]

Kənd təsərrüfatının bərpa və inkişafına diqqət artırılmışdı. ÜİK(b)P MK-nın fevral (1947-ci il) Plenumu "Müharibədən sonrakı dövrdə kənd təsərrüfatını yüksəltmək tədbirləri haqqında" qərar qəbul etdi.[37] Əkin sahələrinin genişləndirilməsi, dənli və texniki bitkilərin məhsuldarlığının yüksəldilməsi, heyvandarlığın məhsuldarlığının artırılması, MTS və sovxozların işinin yaxşılaşdırılması, kənd təsərrüfatı maşınları istehsalının artırılması barədə tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın kənd təsərrüfatının istehsalat-texniki bazası xeyli möhkəmləndirildi. 1946-1950-ci illərdə dövlətin və kolxozçuların bu sahəyə qoyduqları əsaslı vəsait 109,6 milyon manat idi.[38] Bu müddət ərzində respublikaya 4200 traktor (15 at gücündə), 273 taxıl kombaynı və çoxlu miqdarda digər kənd təsərrüfatı maşını gətirilmişdi.[39] 1945-ci ildən 1950-ci ilədək traktorların sayı 5100-dən 9400-ə, yük avtomobillərinin sayı 900-dən 3700-ə qədər artmışdı.[40] MTS-lərin şəbəkəsi genişlənmiş, 12 MTS və 3 MHS (Maşın-Heyvandarlıq Stansiyası) yaradılmışdı.[41]

İrriqasiya tikintisi genişləndi. Kür-Araz ovalığının, Samur-Dəvəçi kanalı zonasının və respublikanın digər regionlarının suvarılmasının həyata keçirilməsi üçün mühüm tədbirlər görüldü. Salyan düzənliyində və Şimali Muğanda suvarma sistemlərinin yenidən qurulması və tikintisi əsasən başa çatdırıldı. Bunun nəticəsində əkinə yararlı torpaqların sahəsi genişləndi.[42]

Kənd təsərrüfatının inkişafında kolxozların təşkilat-təsərrüfatca möhkəmləndirilməsi mühüm əhəmiyyətə malik idi. "Kolxozlarda kənd təsərrüfatı arteli Nizamnaməsinin pozuntularını ləğv etmək tədbirləri haqqında" SSRİ XKS və

ÜİK(b)P MK-nın 1946-cı il 19 sentyabr tarixli qərarına[43] uyğun olaraq kolxozların ictimai mülkiyyətini möhkəmləndirmək, torpaqlardan istifadə edilməsini nizama salmaq, kolxozçuların əməyini səmərəli təşkil etmək, artelin Nizamnaməsinin prinsiplərinə riayət etmək sahəsində mühüm işlər görüldü. Bunun nəticəsində kolxozlara 20667 hektar torpaq, 5583 baş iribuynuzlu və 21266 baş xırdabuynuzlu mal-qara, 779 baş at və s. qaytarıldı. Kolxozların 16797 nəfər inzibati işçisi ixtisara salınaraq istehsalata göndərildi.[44] Kolxozlara 3588 min manat borc ödənildi. Bütün bunlar təsərrüfatların ictimai mülkiyyətinin daha da inkişafına və kolxozçuların əmək fəallığının artmasına kömək etdi.

Kənd təsərrüfatının daha da inkişaf etdirilməsi və kolxozçuların təşkilat-təsərrüfatca möhkəmləndirilməsi üçün 1950-ci il iyunun 7-də SSRİ Nazirlər Soveti "Xırda kolxozların iriləşdirilməsi haqqında" qərar qəbul etdi.[45] 1951-ci il fevralın 1-nə respublikanın kənd təsərrüfatında 3136 artel 1044 təsərrüfatda birləşdirildi.[46] Kolxozların sayı 1950-ci ildəki 1615-dən 1951-ci ildə 1359-a qədər azaldı.[47] Kənd təsərrüfatında kolxozlarla yanaşı, sovxozlar da mühüm yer tuturdu. 1950-ci ildə Azərbaycanda 46 sovxoz var idi ki, bu da 1940-cı ildəkinə nisbətən 4 sovxoz az idi.[48]

Lakin kənd təsərrüfatına rəhbərlikdəki nöqsanlar kolxoz və sovxozların üstünlüklərindən, onların daxili ehtiyat və imkanlarından istifadə etməyə mane olurdu. Geridə qalan təsərrüfatların sayı çox idi. Kolxozlardan dövlət anbarlarına tədarükü artırmağı tələb edirdilər. Kənd təsərrüfatı məhsullarının təhvili planlaşdırılarkən kəndin imkanları yox, dövlətin tələbləri əsas götürülürdü. Kənd təsərrüfatının texniki təchizatı aşağı səviyyədə qalırdı. Kənd təsərrüfatının idarə olunması sistemi dəyişmişdi. Yerli rəhbərlər kolxoz əmlakına göstəriş verməklə təsərrüfatlara hökm etməkdə, öz mülahizələrinə görə, istədikləri kimi fəaliyyət göstərməkdə davam edirdilər.

Həm şəxsi, həm də ictimai təsərrüfatlar maliyyə məngənəsinin əsarəti altında idi. Kolxozçunun öz həyətində saxladığı hər şeyin üzərinə o qədər vergi qoyulurdu ki, mal-qara saxlamaq, meyvə ağacı yetişdirmək sadəcə olaraq sərfəli deyildi. Kolxoz və sovxozların məhsullarının satınalma qiymətləri isə o qədər aşağı idi ki, kolxozçuların və fəhlələrin əməyinin haqqını çox vaxt ödəmək mümkün olmurdu.

1947-ci ildə dövlətin kolxozlara münasibəti olduqca sərtləşdi. MTS-lərdə 30-cu illərin əvvəllərindəkinə bənzər siyasi şöbələr bərpa olundu. Kolxozların dövlətə məhsul təhvil vermək vəzifəsi daimi nəzarət altında saxlanıldı. Tikinti və zavodlara kənd əhalisinin mütəşəkkil toplanması kəndlilərin şəhərə axınını gücləndirdi.

Müharibədən sonrakı illərdə əsaslı tikintinin miqyası getdikcə artırdı. Tikinti işlərini yerinə yetirmək üçün fəaliyyətdə olan "Azərneftzavodtikinti",

"Qafqazenerjitikinti", iri tikinti təşkilatları, "Zaqsənayetikinti" tresti ilə yanaşı, "Mingəçevirtikinti", "Daşkəsənfiliztikinti", "Kür-Araz sutikinti", "Bakı tikinti-quraşdırma" Tresti, "Azneftdəniztikinti" və başqa tikinti təşkilatları yaradıldı, çoxlu iri sənaye müəssisəsi istismara verildi, ağır sənayenin yeni sahələrinin yaradılmasına başlandı.

Hələ 1944-cü ildə Sumqayıt boru-prokat zavodunun tikintisi bərpa olundu.[49] Sumqayıtda alüminium zavodunun tikintisi üçün hazırlıq işləri genişləndi. Respublikada alüminium sənayesinin yaradılması işləri hələ müharibədən əvvəl başlanmışdı. 1947-ci ilin yayında Sumqayıtda respublikanın böyük kimyasının ilki olan sintetik kauçuk zavodunun tikintisinə başlandı.

Azərbaycan SSR-in məhsuldar qüvvələrinin inkişafında Zaqafqaziyada ən böyük Daşkəsən dəmir filizi yatağı əsasında filiz-mədən sənayesinin yaradılmağa başlanması böyük hadisə oldu. Burada iri filiz-mədən müəssisəsinin-Daşkəsən dəmir mədəninin əsası qoyulurdu. Rustavidəki Zaqafqaziya metallurgiya zavodu bu mədənin bazasında yaradılmışdı. Müharibə nəticəsində - Daşkəsən mədəninin tikintisi dayandırılmış və 1945-ci ilin üçüncü rübündə bərpa olunmuşdu.[50]

Sənaye müəssisələri ilə yanaşı, çoxlu mənzil, mədəni-məişət ocağı və digər obyektlər tikilmişdi. Lakin əsaslı tikintinin sürəti respublikanın inkişaf etməkdə olan iqtisadiyyat və mədəniyyətinin tələblərinə hələ cavab vermirdi.

Azərbaycanda nəqliyyat da inkişaf etməkdə idi. 1945-ci ildə SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə müstəqil Azərbaycan Dəmir Yolu İdarəsi yaradıldı. Uzunluğu 36 km olan Alabaşlı-Quşçu körpüsü dəmir yolu 1948-ci il iyulun 27-də işə salındı.[51] Elektrik dəmir yolu şəbəkəsi genişləndirildi. 1948-ci ildə Suraxanı-Qala, 1949-cu ildə Qala-Buzovna sahələri istismara verildi.[52] Dəmir yolu nəqliyyatı ilə yük daşınması artırdı.

Su, avtomobil və hava nəqliyyatının inkişafında xeyli müvəffəqiyyət əldə edilmişdi. Onların texniki təchizatı yaxşılaşmışdı, bu isə yük dövriyyəsini və sərnişin daşınmasını artırmağa imkan verirdi. Avtomobil yolları yenidən qurulur, möhkəm örtüyü olan yeni yollar çəkilirdi. Sərnişin daşımalarında avtomobil nəqliyyatının rolu daim artırdı. 1950-ci ildə ümumi istifadədə olan avtobuslarla 11 mln sərnişin daşındı, halbuki 1940-cı ildə bu rəqəm cəmi 3,8 mln idi. 1949-cu ildən əhaliyə taksilər xidmət etməyə başladı.[53] Azərbaycanın paytaxtı, respublikanın şəhərləri, ölkənin mühüm inzibati və sənaye mərkəzləri ilə hava xətlərinin sayı artırdı. Respublikanın mülki aviasiyası kənd təsərrüfatı əməkçilərinə də böyük kömək göstərirdi.

Rabitə müəssisələrinin şəbəkəsi, poçt mübadiləsi genişlənirdi. Teleqraf-telefon rabitəsi yenidən qurulurdu. 1946-cı ildə Bakı-Tbilisi arasında yüksək tezlikli teleqraf magistral kanalı açıldı, sonrakı illərdə isə Bakı-Yevlax sahəsində

yeni teleqraf aparatları tətbiq olundu. 1949-cu ildə Bakıda ilk dəfə olaraq əl sistemli abonent teleqraf stansiyası quruldu.[54] Radiorabitə də xeyli inkişaf etdi.

Beləliklə, 1946-1950-ci illər Azərbaycanın xalq təsərrüfatının müvəffəqiyyətlə bərpa edilməsi, dördüncü beşilliyin əsas istehsal tapşırıqlarının yerinə yetirilməsi, sənayenin, kənd təsərrüfatının, tikintinin, nəqliyyat və rabitənin texniki səviyyəsinin daha da yüksəlməsi ilə əlamətdar oldu. 1945-1950-ci illərdə respublika sənayesinin ümumi məhsulu 78 faiz artdı.[55] Sənayedə müharibədən sonrakı birinci beşillik plan 4 ilə yerinə yetirildi.[56]

Azərbaycan neft sənayesi xeyli inkişaf etdi. Plan tam yerinə yetirilməsə də, neft hasilatı 28 faiz artdı. Qaz çıxarılması isə 26 faiz çoxaldı.[57] 1950-ci ildə 14822 min ton neft çıxarıldı.[58]

Neft emalı zavodlarının istehsal gücü artırıldı, məhsulların çeşidləri genişləndi və keyfiyyəti yaxşılaşdı. 1946-1950-ci illər ərzində neft emalının həcmi 1,3 dəfə, bütün əlvan neft məhsullarının istehsalı 14 dəfə, o cümlədən aviasiya benzini növləri 7,5 dəfə, dizel yanacağı 6,5 dəfə, bütün növ yağların istehsalı 1,75 dəfə çoxaldı.[59]

Sənayenin digər sahələri qısa müddətdə bərpa olundu və inkişaf etdi. 1946-1950-ci illərdə polad istehsalı 89 faiz, prokat istehsalı 79 faiz, elektrik enerjisi istehsalı 76 faiz, maşınqayırma və metal emalı məhsulu istehsalı 149 faiz, sement istehsalı 48 faiz artdı.[60]

Yüngül və yeyinti sənayesi uğurla inkişaf edirdi.[61] 1950-ci ildə

Naxçıvan MSSR-də sənayenin ümumi məhsulu 1940-cı il səviyyəsini 44 faiz, Dağlıq Qarabağ Muxtar Vilayətində isə 74 faiz ötüb keçdi.[62]

Azərbaycanın kənd təsərrüfatı bitkilərinin əkin sahəsi 1950-ci ildə 1945-ci ilə nisbətən 47 min hektar artdı,[63] ümumi məhsul istehsalının həcminə görə isə 1940-cı ilin səviyyəsindən 32 faiz çox oldu. Beşillik ərzində xam pambıq istehsalı 64 min tondan 283,6 min tona çatdı. Eyni zamanda hər hektardan götürülən məhsul 2,8 dəfə artaraq, 1950-ci ildə 18,7 sentnerə çatdı.[64]

Kolxoz və sovxozlarda ictimai mal-qaranın sayını artırmağa dair dördüncü beşilliyin planı artıqlaması ilə yerinə yetirilmişdi.[65] Lakin heyvandarlığı inkişaf etdirmək üçün kolxoz və sovxozların böyük imkan və ehtiyatlarından tam istifadə olunmamışdı. Kolxozçuların, fəhlə və qulluqçuların şəxsi istifadəsindəki mal-qaraya münasibətdə ciddi pozuntular olmuşdu. Bunun nəticəsində zəhmət adamlarının yardımçı təsərrüfatında inək, camış, qoyun, keçi və donuzların sayı kəskin surətdə azalmışdı.

Azərbaycanda tikinti işlərinin genişlənməsi, dördüncü beşillikdə tikinti təşkilatlarının yeni texniki bazasının inkişafı, işçilərin ixtisasının artırılması nəticəsində 485 mln manatlıq tikinti-quraşdırma işləri görülmüşdü.[66] 34 iri yeni dövlət sənaye müəssisəsi istifadəyə verilmişdi.[67] Yaşayış evlərinin, məktəblərin və

digər təhsil ocaqlarının, tibb, mədəni-maarif idarələrinin, həmçinin şəhərlərin və yaşayış məntəqələrinin tikintisi və abadlaşdırılması geniş miqyasda həyata keçirilmişdi.

Nəqliyyatın təkmilləşdirilməsi sahəsində mühüm nailiyyətlər qazanılmışdı. Beş il müddətində respublikanın dəmir yollarında xalq təsərrüfatı yüklərinin daşınması iki dəfədən çox artmışdı.[68]

Azərbaycanın avtomobil təsərrüfatı bərpa olunmuşdu. Rayon və şəhərlərdə yeni avtomobil təsərrüfatları yaradılırdı. 1950-ci ildə avtomobil nəqliyyatının yük dövriyyəsi 1940-cı ilə nisbətən 3,5 dəfədən çox, ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə sərnişin daşınması isə iki dəfə artdı.[69] Su və hava nəqliyyatı da inkişaf etməkdə idi.

Yeni müəssisələr yaradıldı. 1950-ci ildə şəhərlərarası teleqraf-telefon xətlərinin uzunluğu 1945-ci ilə nisbətən 2,2 mln km artdı.[70]

Lakin müharibədən sonrakı dövrdə iqtisadi həyatda müvəffəqiyyətlərlə yanaşı, xeyli mənfi hallar da mövcud idi: planların yerinə yetirilməməsi obyektiv təhlil əvəzinə "ziyankarlıq" və işi "qəsdən pozmaq kimi" qiymətləndirilirdi. "Hücumçuluq", "növbədənkənar" işlər geniş miqyas almışdı. Müəssisə rəhbərlərinin planı yerinə yetirmədiyinə görə cəzalandırılması qorxusu hesabatların kütləvi surətdə təhrif edilməsinə, rəqəmlərin şişirdilməsinə və hər cür yalanlara səbəb olurdu.

Müharibədən sonrakı beşillik inkişaf planının əsas vəzifəsi xalq təsərrüfatını dinc quruculuq məqsədlərinə yönəltmək olduğundan əsas diqqət istehsalın bu istiqamətdə bərpasına yönəldilirdi. Bununla belə, bir sıra yeni sahələrin inkişaf etdirilməsi üçün də müəyyən addımlar atılmışdı, lakin bu sahədə fəaliyyətin miqyası xeyli məhdud olmuşdu. Ona görə də Azərbaycan iqtisadiyyatında uzun müddət davam edən birtərəfli inkişaf meyli bu dövrdə də qalırdı. Əsasən bütün Sovet İttifaqının tələbatı ilə inkişaf edən yüksək vəsait tutumlu neft sənayesinə əvvəlki illərdə olduğu kimi, böyük həcmdə sərmayə qoyulsa da, respublikada həmin dövrdə neft və qaz hasilatı artmaq əvəzinə xeyli azaldı. Nəticədə Azərbaycana ayrılan vəsaitin çox hissəsini istifadə edən yanacaq sənayesində (1950-ci ildə sənaye üzrə əsas istehsal fondlarının 69,1 faizi onun payına düşürdü)[71] artıma nail olunmadı. Başqa sahələrin inkişafında da əsaslı dönüş yaranmadı, bir sıra sahələrdə məhsul istehsalı cüzi miqdarda artdı. Hətta mühüm məhsulun istehsalının həcmi (kükürd turşusu, kirəmit, pəncərə şüşəsi, ipək xammalı, pambıq parça ipliyi, yun parça və üst trikotaj, bitki yağı, makaron, duz, qənnadı və s.)[72] müharibədən əvvəlki (1940-cı il) səviyyəsindən aşağı idi. 1950-ci ildə kənd təsərrüfatının bir sıra göstəriciləri də 1940-cı ilin səviyyəsindən geri qalırdı. Xüsusən də respublikanın yüksək fayda verən əkinçilik bitkilərinin (pambıq, taxıl) əkin sahələri və məhsul istehsalının həcmi (taxıl, bostan məhsulları,

meyvə və s.) aşağı düşmüş, bir sıra başqa sahələrdə isə artım çox az olmuşdu.[73] Ümumiyyətlə, müharibədən sonrakı xalq təsərrüfatının ilk beşillik planı ölkə, o cümlədən Azərbaycan iqtisadiyyatının bərpa və inkişaf vəzifəsini nəzərdə tutsa da, respublikada onların gerçəkləşdirilməsi tam həyata keçirilmədi. Ona görə yenə də birtərəfli inkişaf əlamətlərini özündə saxlayan Azərbaycan iqtisadiyyatının uzun illərdən bəri yaratdığı sosial-iqtisadi problemlər məhz bu dövrdən özünü daha kəskin şəkildə göstərməyə başladı. Respublika ərazisi daxilində məhsuldar qüvvələrin həmahəng yerləşdirilməsində yaranan uyğunsuzluqlar nəticəsində onun ayrı-ayrı bölmələri arasında sosial-iqtisadi inkişafın ümumi səviyyəsinə görə tarixən özünü büruzə verən fərqlər artmaqda davam edirdi. Azərbaycan sənayesinin əsas sahəsini neft-qaz hasilatı və onunla əlaqədar çoxlu başqa sahə təşkil etdiyindən və onlar Bakı-Sumqayıt bölgəsində cəmləşdiyindən respublikanın ümumi sənaye məhsulu istehsalının əsas hissəsi də bu regionun payına düşürdü. Ərazinin başqa hissələrinin təbii sərvətlərindən və digər imkanlardan kifayət qədər istifadə edilməməsi nəticəsində onların əksəriyyətində sənaye məhsulları istehsalının həcmi xeyli aşağı səviyyədə idi. Kənd təsərrüfatının lazımi dərəcədə inkişaf etməməsi, buna əsasən həm də emal sənayesinin xeyli zəif inkişafı əksər regionların sosial-iqtisadi yüksəlişini məhdudlaşdırırdı. Nəticədə əhalinin yüksək təbii artımı baş verən ərazilərdən Bakı-Sumqayıt bölgəsinə kütləvi və daimi axın prosesi baş verirdi ki, bu da bütövlükdə respublikada ciddi sosial-iqtisadi problemlərin yaranmasına səbəb olurdu.

**50-60-cı illərin iqtisadi inkişaf problemləri.** Respublikanın iqtisadiyyatını daha da inkişaf etdirmək vəzifələri xalq təsərrüfatının V-VIII beşillik planlarında, habelə yeddiillik (1959-1965-ci illər) planda müəyyən edilmişdi.

Azərbaycan SSR-də neft və təbii qazın hasilatı, neft emalı, maşınqayırma, elektrik enerjisi istehsalı xeyli artmalı, neft kimyası, kimya, elektrotexnika, filizmədən sənayesi, qara və əlvan metallurgiya sənayesinin yaradılması və inkişafı sürətləndirilməli, xalq istehlakı malları istehsal edən sənaye sahələri genişləndirilməli idi.

Kənd təsərrüfatı bitkilərinin, xüsusilə pambığın məhsuldarlığını yüksəltmək, ictimai mal-qaranın sayını artırmaqla yanaşı, onun məhsuldarlığını xeyli qaldırmaq, əkinçiliyin və maldarlığın ümumi və əmtəə məhsulunu çoxaltmaq, irriqasiya tikintisini genişləndirmək kimi ciddi vəzifələr dururdu.

50-ci illər Azərbaycan üçün sənaye istehsalının artması, ağır sənayenin yeni sahələrinin yaranması və inkişafı dövrü oldu. Ümumittifaq neft hasilatında onun xüsusi çəkisinin 1940-cı ildəki 71,4 faizdən 39,1 faizə və 1960-cı ildə 32,1 faizə qədər azalmasına baxmayaraq[74] Azərbaycan əvvəllərdə olduğu kimi, SSRİ-nin xalq təsərrüfatını ən keyfiyyətli neft məhsulları ilə təmin etməkdə mühüm rol oynayırdı.

Respublikanın neft sənayesinin inkişafı üçün onun təşkilat quruluşunun yaxşılaşdırılması mühüm əhəmiyyətə malik idi. 1953-ci ilin sonunda neftçıxarma sənayesinə rəhbərlik edən üç birlik -"Azdənizneft", "Azneftkəşfiyyat", "Azneft" birlikləri "Azneft" Birliyində birləşdirildi.[75] 1954-cü il avqustun 1-dən Azərbaycan SSR Neft Sənayesi Nazirliyi yaradıldı.[76] Nazirlik müəssisələrin strukturunda dəyişikliklər apardı. Məsələn, neftçıxarma trestləri neft-mədən idarələrinə (NMİ) çevrildi.[77]

1954-cü il iyulun 9-da SSRİ Nazirlər Soveti "SSRİ neft sənayesinin daha da inkişaf etdirilməsinə dair tədbirlər haqqında" qərar qəbul etdi. Əsas diqqət SSRİ-nin yeni neft rayonlarının inkişafına yönəldildi. Lakin 1955-ci il üçün Azərbaycan SSR-in neft sənayesinə ayrılan əsaslı vəsait əvvəlki ilə nisbətən 2 dəfədən çox azaldıldı. Azərbaycan neft hasilatı üzrə SSRİ-nin ən perspektivsiz rayonları sırasına daxil edildi. Respublika üçün neft hasilatı planı isə əvvəlki kimi 15 milyon ton həcmində saxlanıldı.

Bütün bunlara baxmayaraq, Azərbaycan neftçiləri fədakarlıqla işləyirdilər.[78]

1955-1957-ci illərdə Əli Bayramlı şəhəri yaxınlığında, Kürçayı ətraf düzənlikdə iri neft yataqları Gürovdağ və Mişovdağ kəşf edildi və mənimsənildi. 1957-1958-ci illərdə Zəyli-Zeyvə yatağının istismarına başlandı.[79] 1959-cu ildə Kənizdağ yatağı sənaye miqyasında işlənməyə verildi.[80]

Xəzər dənizində neftli sahələrin işlənməsi geniş vüsət aldı. Darvin bankası (1950-1951-ci illər), Çilov adası (1951-ci il), Neft daşlarının şimal-şərq hissəsi (1954-cü il), Qum adası (1956-cı il) yataqlarının mənimsənilməsi nəticəsində dənizdə neft hasilatı sürətlə artdı. 1958-ci ildə dəniz neft yataqlarından 1950-ci ilə nisbətən 2,5 dəfə çox neft çıxarılmışdı.[81]

Neft yataqlarının mənimsənilməsində yeni mütərəqqi üsullar tətbiq edilməyə başlandı. 1951-ci ildən neft laylarına süni təsir göstərmək üsulları tətbiq olundu. Təkrar neft hasilatı, layların su ilə parçalanması və quyuların turşu ilə yuyulması metodlarının sənaye miqyasında tətbiqinin böyük səmərəsi olmuşdu. Təkcə 1951-1955-ci

illərdə təkrar neft hasilatı metodlarının tətbiqi nəticəsində əlavə olaraq dörd milyon tondan çox neft hasil edilmişdi.[82]

Qaz sənayesi də tərəqqi edirdi: 1954-1955-ci illərdə Qaradağ qaz-kondensat yatağının, 1958-1959-cu illərdə isə qazlı-neftli Zirə yatağının kəşfi və sənaye miqyasında işlənməsi ilə qaz sənayesi daha çox inkişaf etdi. Nəticədə yüksək kalorili yanacaq və qiymətli kimya xammalı olan qazın hasilatı artdı. 1960-cı ilin əvvəlində Bakı-Tbilisi-Yerevan magistral qaz kəmərinin tikintisi başa çatdı.

Lakin hər il Azərbaycan SSR-in xalq təsərrüfatına qoyulan vəsaitin 80 faizi neft hasilatı və emalına sərf edilsə də, dəniz yataqlarının mənimsənilməsinə başlansa da, istənilən nəticə əldə olunmurdu. 1960-cı ildə neft hasilatı (17,8 mln

ton) 1940-cı il səviyyəsinin (22,2 mln ton) cəmi 80 faizini təşkil edirdi. 1950-ci ilə nisbətən isə cəmi (14,8 mln ton) 20 faiz artmışdı.[83] Buna müharibədən qabaqkı dövrdə və müharibə illərində Bakı rayonunda neft yataqlarının gərgin istismarı təsir etmişdi. Sahəyə rəhbərlikdəki nöqsanlar, elmi-texniki nailiyyətlərin ləng tətbiq olunması, qazmanın geri qalması da hasilatın artım sürətinə mənfi təsir göstərirdi.

Neftayırma sənayesi daha da inkişaf etməkdə idi. 1953-1954-cü illərdə 2 köhnə mazutayıran qurğu və təmizləmə sexləri yenidən quruldu. AzNİİ-4 (1952-ci il) aşqarı istehsal edən ikinci qurğu; qudronu asfaltsızlaşdıran qurğu (1953-cü il); AzNİİ-5 aşqarı istehsal edən qurğu (1958-ci il); yağları selektiv təmizləyən ikinci qurğu (1959-cu il); AzNİİ-7 aşqarı istehsal edən qurğu (1960-cı il) tikilib istifadəyə verildi.[84] Beləliklə, 50-ci illərin sonuna yaxın respublikanın neftayırma sənayesi 80 adda neft məhsulları hazırlayan iri istehsalat kompleksinə çevrildi.[85]

Neft maşınqayırma sənayesi üzrə yeni məhsulların istehsalı ildən-ilə artırdı: məsələn, qazma dəzgahları, ikilüləli qazma üçün vışkalar, səyyar və stasionar qaldırıcılar, üçpərli baltalar, qaldırıb-endirmə əməliyyatları üçün avtomatlar istehsal olunurdu.

Azərbaycanın neft maşınqayırma zavodları öz məhsullarını təkcə respublika üçün deyil, həmçinin bütün ölkəyə ixrac edirdi. Ölkə üzrə istehsal olunan neft maşınqayırma avadanlıqlarının 75 faizə qədəri Azərbaycan müəssisələrinin payına düşürdü.

Respublikada maşınqayırmanın yeni sahələri meydana çıxdı. 1954-cü ildə "Mingəçevirtikinti" təmir zavodu əsasında "Mingəçevirkəndmaş" kənd təsərrüfatı maşınqayırma zavodu yaradıldı, elektrotexnika sənayesinin "Azərkabel" zavodunun tikintisinə başlanıldı. 1956-cı ildə Bakıda güclü ekskavator təmiri zavodu tikildi. Həmin ildə "Azdənizneftkəşfiyyat" təmir-mexaniki zavodu bazasında "Bakı qazaparat" zavodu inşa edildi. 1957-ci ildə Keşlə maşınqayırma zavodunun və səyyar qazma maşınları zavodunun birləşdirilməsi ilə özüyeriyən neft-mədən maşınları istehsalı üzrə iri ixtisaslaşdırılmış müəssisənin yaradılmasının əsası qoyuldu. 1957-ci ildə Bakıda elektrik təmiri zavodu yaradıldı.[87]

Azərbaycanın enerji bazası qüvvətlənirdi. 1954-cü il yanvarın 10-da Mingəçevir SES-in birinci növbəsi işə düşdü. İki güclü turbogeneratorun hərəkətə gəlməsi ilə yaranan ilk sənaye cərəyanı Bakıya və Gəncəyə daxil olmağa başladı.[88] 1954-cü ilin sonuna qədər digər dörd aqreqatın işə düşməsindən sonra SES-in gücü 356 min kilovata çatdı.[89]

Mingəçevir hidrotexniki tikinti kompleksinin inşası Kür-Araz düzənliyinin suvarılması, Kür çayında ilboyu gəmiçiliyin təmin olunması, kənd təsərrüfatına

ciddi ziyan vuran sellərin və daşqınların qabağının alınması kimi mühüm xalq təsərrüfatı vəzifəsinin həllinə kömək etdi.

1954-cü ilin əvvəllərində Şüvəlanda "Şimal" DRES-i işləyən müəssisələr sırasına daxil oldu. O, SSRİ-də ilk açıqtipli enerji qurğusu idi.[90] 1956-1957-ci illərdə Varvara SES tikildi. 1959-cu ildə Əli Bayramlıda yeni istilik elektrik stansiyasının tikintisinə başlanıldı.[91] Bir sıra kommunal elektrik stansiyaları da işə düşdü. "Şimal" DRES-i və Sumqayıt istilik elektrik mərkəzi öz gücünü artırdı. 1960-cı ildə "Şimal" DRES-də güclü enerji qurğusu istismara verildi.[92]

Respublikada ilk dəfə 220 kilovatlıq Mingəçevir-Xırdalan elektrik verilişi xətti çəkildi. 1954-cü ilin dekabrından Azərbaycandan Gürcüstan SSR-ə elektrik enerjisi verilməyə başlandı.[93] 1960-cı ilin sentyabrında Azərbaycan, Gürcüstan və Ermənistan elektrik sistemlərinin birləşdirilməsi başa çatdırıldı[94].

Azərbaycanda qaz və neftayırma sənayesi bazasında kimya istehsalatı yaradıldı və sürətlə inkişaf etməyə başladı. 1952-ci ildə katalizator fabriki işə düşdü. 1953-cü il aprelin 1-dən isə Yeni Bakı neftayırma zavodu (YBNZ) fəaliyyətə başladı. Bu zavod sənayenin yeni sahəsinin - neft-kimya sənayesinin inkişafının başlanğıcını qoydu.

1952-ci ilin avqustunda Sumqayıt sintetik kauçuk zavodunun istismara verilməsi kimya sənayesinin inkişafında yeni mərhələ oldu. Sovet İttifaqında ilk dəfə olaraq bu zavod neft qazlarından etil spirti istehsal etməyə başladı. 1957-ci ilin sentyabrında zavodun ikinci növbəsi,[96] 1959-cu ildə isə onun butan qrupu işə salındı.[97] 1959-cu il noyabrın 5-də Bakı şin zavodunun birinci növbəsi istifadəyə verildi.[98]

50-ci illərdə respublikada yeni kimya məhsullarının, o cümlədən heksaxloran və xlorun istehsalı təşkil edildi. Buruq sularından yod və brom, habelə kaustik soda, xlorlu turşu, müxtəlif əczaçılıq dərmanlarının istehsalı genişləndirildi. 1958-ci ildə kimya və neft-kimya sənayesinin ümumi məhsulunun həcmi 1950-ci ilə nisbətən 8,9 dəfə artdı.[99]

1951-1960-cı illər filiz-mədən sənayesinin sürətli inkişafı ilə əlamətdar olmuşdur. 1954-cü ilin aprelində Daşkəsən dəmir mədəninin tikintisi başa çatdırıldığı vaxtdan respublikanın iqtisadiyyatında filiz-mədən sənayesi mühüm rol oynamağa başladı. Daşkəsəndəki Azərbaycan filizsaflaşdırma kombinatında 1960-cı ildə dəmir filizi çıxarmaq üçün əlavə qurğular işə salındı[100]. Şimal-qərb və şimal-şərq mədənlərindən açıq üsulla çıxarılan dəmir filizi 1955-ci ildə işə düşmüş saflaşdırıcı fabrikə gətirilirdi.[101]

Daşkəsənin filizsaflaşdırma kombinatı Quşçu körpüsü dəmiryolu stansiyası ilə iki xətdən ibarət 6 km uzunluğunda hava kanat yolu ilə birləşdirildi. Həmin filiz Alabaşlı-Quşçu dəmir yolu ilə Gürcüstanın Rustavi şəhərindəki Zaqafqaziya

metallurgiya zavoduna daşınırdı. Bu zavod isə, öz növbəsində, filizin bir hissəsini Sumqayıtdakı Azərbaycan boru-prokat zavoduna göndərirdi.

Kifayyət qədər dəmir filizi ehtiyatları olan Azərbaycanda böyük tələbata uyğun olaraq tam istehsal dövriyyəli metallurgiya kombinatının yaradılması zərurəti meydana çıxdı. Hətta müharibədən əvvəl bu mühüm sənaye sahəsinin respublikada inkişaf etdirilməsinin yolları barədə əsaslanmış müxtəlif təklif və layihələr də irəli sürülmüşdür. Lakin keçmiş totalitar sistemdə istehsalın öz inkişaf tələblərinə məhəl qoymayaraq, Azərbaycanın dəmir filizi ehtiyatları əsasında Gürcüstan SSR-də fəhlə sinfinin sıralarını artırmaq pərdəsi altında iradi olaraq, xammal və yanacaq mənbəyindən xeyli uzaqda yerləşən Rustavidə bu müəssisənin tikilməsi qərarlaşdırıldı. Nəticə etibarilə həmin kombinat bütün Sovet İttifaqında ən bahalı metallurgiya məhsulları buraxan müəssisələrdən birinə çevrildi.

Daşkəsən dəmir mədəninin işə salınması, elektrik dəmir yolunun çəkilməsi Zəylik alunit yatağının alüminium filizindən istifadə etməyə imkan yaratdı.

Azərbaycan SSR-də yeni filiz mədənləri və saflaşdırıcı fabriklərin sayı çoxaldı. Ordubad rayonunda əvvəllər yaradılmış Parağaçay molibden mədəni və saflaşdırıcı fabrik ilə yanaşı, 1954-cü ilin sonunda Noraşen (indiki Şərur) rayonunda gümüşlü qurğuşun yatağının sənaye miqyasında işlənilməsinə başlandı.[102]

Bakı sulfat turşusu zavodunu xammalla təmin edən Çiragidzor mədənindən kükürd kolçedanı çıxarılması, daş duz və digər mineralların hasilatı artdı.

Yeni metallurgiya müəssisələri istifadəyə verildi. 1952-ci il dekabrın 31-də Sumqayıt boru-prokat zavodu ilk məhsulu istehsal etdi. 1953-cü ilin noyabrında burada iki marten sobası istifadəyə verildi.[103] Sonrakı illərdə zavodda yeni boruyayma maşınları, marten sobaları, habelə sexlər işə salındı.

Azərbaycanda sənayenin yeni sahəsi - əlvan metallurgiya sənayesi inkişaf etməyə başladı. 1955-ci il martın 8-də işə düşən[104]Sumqayıt alüminium zavodunun "SAZ" markalı metalı az müddətdə nəinki SSRİ-də, həm də onun hüdudlarından uzaqlarda şöhrət qazandı. 1955-ci ildə respublikanın əlvan metallurgiyasının ən iri müəssisələrindən birinin – Gəncə gil-torpaq zavodunun tikintisinə başlanıldı.[105] 1959-cu ildə Sumqayıt alüminium zavodunda iki elektroliz sexi istifadəyə verildi.[106]

50-ci illərdə respublikada inşaat materialları sənayesi də sürətlə inkişaf etməyə başladı. Yeni müəssisələr - Qaradağ sement və Zığ kərpic zavodları, Mingəçevir plitəblok zavodu, Gəncə bərkidici materiallar zavodu işə salındı. Qaradağ və Tovuz sement zavodlarında 6-7 növ markalı sement istehsal olunurdu. 1960-cı ildə Bakıda iripanelli evtikmə kombinatları fəaliyyətə başladı.[107]

1951-1960-cı illərdə respublikada yüngül sənaye xeyli inkişaf etdi. 1952-ci ilin əvvəlində Bakı zərif mahud kombinatı işə düşdü[108]. 1954-cü ildə Horadiz

qəsəbəsində pambıqtəmizləmə zavodu tikildi. 1955-ci ildə Nuxa (indiki Şəki) ipək kombinatının boyaq-naxış fabriki, Qarabağ ipək kombinatında toxuculuq sexi işə salındı.[109] 1959-cu ildə Bakı kamvol kombinatı və gön-dəri zavodu, 1960-cı ildə isə Mingəçevir pambıq-parça fabriki istifadəyə verildi.[110]

Yeyinti sənayesində də yüksəliş müşahidə olunurdu. Onun müəssisələri yenidən qurulmuş və müasir texnika ilə təmin edilmişdi. Yeni iri müəssisələr - Bakı marqarin zavodu, Astara və Masallı çay fabrikləri, Bakı tütün-fermentasiya zavodu, Bakı ət kombinatının kolbasa zavodu, Bakı süd kombinatı, Ucar konserv zavodu, Bakı konyak, Bakı quru buz, İstisu mineral sularının doldurulması, yağ-pendir, çörək, şərab zavodları işə başlamışdı. Gəncə yağ-piy kombinatının, Bakı pivə zavodunun, makaron fabrikinin, Lənkəran çay fabrikinin, Xaçmaz və Quba konserv zavodlarının sexləri yenidən qurulmuşdu.[111]

Azərbaycanın bütün rayonlarında yerli sənaye müəssisələri, geniş istehlak və məişət malları istehsalı inkişaf etmişdi. 1955-ci ildə respublikada 78 yerli sənaye müəssisəsi, 12 sənət-kooperasiya arteli və əhalinin məişət ehtiyaclarına xidmət edən 1411 emalatxana var idi.[112] Azərbaycan ərazisində sənayenin daha səmərəli yerləşdirilməsinə diqqət artmışdı. Bakıda sənayenin dönmədən inkişafı ilə yanaşı, başqa şəhər və rayonlarda yeni iri sənaye mərkəzləri yaranmışdı. Sumqayıt kimya sənayesinin, əlvan və qara metallurgiyanın mərkəzi, Mingəçevir su-elektrik stansiyası energetiklərin şəhəri, Daşkəsən filiz-mədən sənayesinin mərkəzi, Neft daşları Xəzər neftçilərinin şəhəri oldu, beləliklə, rayonlarda sənayenin xüsusi çəkisi artdı. Əgər 1940-cı ildə Bakının və ona bitişik rayonların payına sənaye məhsulu həcminin 90 faizdən çoxu düşürdüsə, 1958-ci ildə bu, 65,1 faizə bərabər idi.[113]

Azərbaycanda sənaye istehsalı yüksəlişinin əsas amillərindən biri sənayenin texniki səviyyəsinin yüksəlməsi idi. 1955-ci ilin sonunda bütün kompressor quyularının 80 faizdən çoxuna hava verilməsi avtomatlaşdırılmışdı.[114] 1958-ci ilin ortalarında mədənlərdə endirmə-qaldırma əməliyyatlarını mexanikləşdirmək üçün 3300 dəstdən artıq avadanlıq (PSDP) qoyulmuşdu.[115] 1946-1958-ci illərdə neftçilərlə alimlər və konstruktorların əməkdaşlığı nəticəsində 600-dən artıq adda müxtəlif neft-mədən avadanlığı mənimsənilmişdi.[116]

Xəzərdə salınan yaşayış binaları, uzunluğu 163,4 min metr olan estakada yolları və mədəni-məişət obyektləri onu əsil mənada dəniz üzərində neftçıxarma sənayesi şəhərciyinə çevirmişdi.[117]

Lakin elmi-texniki tərəqqinin nəticələrindən istehsalatda, xüsusən tikinti, yüngül və yeyinti sənayesi sahələrində, habelə kənd təsərrüfatında tam və səmərəli istifadə olunmurdu.

İstehsalı inkişaf etdirmək üçün idarə sisteminin təkmilləşdirilməsi yolları axtarılırdı. Sov.İKP MK 1957-ci ildə əsas inzibati-iqtisadi rayonlarda xalq

təsərrüfatı şuralarının (XTŞ) yaradılması təklifini irəli sürdü[118] Bu, sənayeyə sahələr üzrə rəhbərlikdən ərazi üzrə rəhbərliyə keçilməsi demək idi. 1957-ci ilin iyununda 11 sahə idarə orqanı olan Azərbaycan inzibati-iqtisadi rayonunun Xalq Təsərrüfatı Şurası (XTŞ) yaradıldı. Respublikada 5 ittifaq-respublika nazirliyi ləğv olundu və onların bütün müəssisələri, təşkilat və idarələri, Azərbaycan ərazisində yerləşən və səkkiz Ümumittifaq nazirliyinin tabeliyində olan müəssisələr, respublika neft sənayesinin maşınqayırma zavodları XTŞ müəssisələri sisteminə verildi. XTŞ-nin tərkibinə cəmi 394 müəssisə, o cümlədən 278 sənaye müəssisəsi daxil oldu. 1959-cu ildə respublika neft sənayesinin müəssisələri də XTŞ-nin sərəncamına verildi[119]

Xalq təsərrüfatı şuralarının yaradılmasının bəzi müsbət nəticələri də özünü göstərdi. Belə ki, yüklərin lüzumsuz qarşılıqlı daşınması azaldı. Müxtəlif nazirliklərin müəssisələrində bir-birini təkrar edən yüzlərlə xırda istehsal sahələri bağlandı. Bir çox müəssisənin texniki cəhətdən yenidən qurulması prosesi sürətləndi.

Bu illərdə neft-qaz hasilatının artımı və onların emalının genişləndirilməsi sahəsində başlanan uğurlarla yanaşı, həmin ərəfədə istismara verilmiş başqa sənaye sahələri müəssisələrinin istehsal güclərinin daha tam mənimsənilməsi, habelə yeni müəssisələrin tikilməsi hesabına Azərbaycan sənayesi strukturunun tədricən təkmilləşdirilməsi istiqamətində ilk çox ciddi dəyişikliklərin başlanmasının əsası qoyuldu. Nəticədə sənayedə çalışan sənaye istehsal heyətinin sayı 1950-ci ildəki 172,8-dən 1960-cı ildə 219 min nəfərə qalxdı.[120] Sənayenin başqa sahələrinin üstün artımı nəticəsində yanacaq istehsalının Azərbaycan sənayesinin strukturunda xüsusi çəkisi 1950-ci ildəki 37,13 faizdən 1960-cı ildə 22,5 faizə endi.[121] Bu dövrdə ilk növbədə ağır sənayenin maşınqayırma, qara və əlvan metallurgiya, neft-kimya və kimya sənayesi sahələri daha sürətlə inkişaf etmişdir.

Azərbaycanın, həm də SSRİ-nin başqa neft-qazçıxarma rayonlarının artan tələbatını ödəmək məqsədilə respublikada neft maşınqayırma sənayesinin inkişaf miqyasının xeyli genişlənməsi ilə yanaşı, müxtəlif güclü elektrik mühərrikləri, transformatorlar, polad, qara metallar prokatı, dəmir filizi kimi məhsulların istehsalının həcmi artdı. Azərbaycanda mineral gübrələr, kaustik soda, etil və butil spirti, sulfanol, avtomobil və motosikl təkərləri, məişət soyuducuları, qaz plitələri və s. çoxlu yeni sənaye məhsulunun kütləvi istehsalına başlandı. Əhalinin tələbatının daha çox yerli istehsal hesabına təmin edilməsi məqsədilə ənənəvi sənaye sahələrində (pambıq parça, yun və ipək parça, gön-dəri ayaqqabı, qənnadı məmulatları, ət, konserv məhsulları və s.) istehsalın həcminin xeyli artması ilə yanaşı, bir sıra xalq istehlakı və ərzaq məhsulları hasilatı üzrə yeni müəssisələr də yaradıldı.

Lakin inkişafa əngəl törədən maneələr də az deyildi. Sənayenin ərazi prinsipi üzrə idarə olunmasının ciddi nöqsanları getdikcə daha çox özünü büruzə verməyə başladı. Bu nöqsanlar sahənin hərtərəfli və səmərəli inkişafına mane olmağa başladı.

İqtisadiyyata qeyri-iqtisadi, amiranə metodlarla rəhbərlik şəraitində planlaşdırma mexanizmini yaxşılaşdırmaq, onu həvəsləndirici amilə çevirmək cəhdləri də çox az səmərə verdi. Elmi-texniki mərkəzlərlə əlaqələrin zəifliyi də sənaye müəssisələrinin işinə mənfi təsir göstərirdi.

Azərbaycan SSR Ali Soveti (sentyabr, 1965-ci il) Azərbaycan Xalq Təsərrüfatı Şurasının ləğvi haqqında qərar qəbul etdi.[122] İttifaq-respublika nazirlikləri bərpa edildi.[123]

60-cı illərdə neft sənayesi iqtisadiyyatın mühüm sahəsi olaraq qalırdı. Elmi-texniki tərəqqi sayəsində geoloji-kəşfiyyat işləri yaxşılaşmışdı. 1965-ci ildə Dəniz Neft və Qaz Yataqları Kəşfiyyatı İdarəsi yaradıldı. Quruda Qarabağlı, Kürsəngi, dənizdə Cənubi Bankə, Sanqaçal və Duvannı yataqları istismara verildi. Müəssisələr yenidən qurularaq, qazma işində qabaqcıl üsullar tətbiq olunurdu.

"Abşeron", "Azərbaycan" və "Bakı" üzən qazma qurğuları vasitəsilə 15-60 metrlik su qatının altında 1600-1800 metr dərinlikdə kəşfiyyat quyularının istismara verilməsi nəticəsində neft hasilatı artdı. 1960-cı ildə 17,8, 1970-ci ildə isə 20,2 milyon ton neft çıxarılmışdı. Qaz hasilatı ildə təxminən 5,5 milyard kub.m həcmindən yuxarı qalxmırdı.[124] Əsas səbəblərdən biri qazma qurğularının yeni avadanlıqla kifayət qədər təmin olunmaması idi. Mədənlərdə geoloji və mühəndis işi aşağı səviyyədə idi, istehsalat və əmək intizamı zəifləmişdi. Neftçilərin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına da lazımi qayğı göstərilmirdi.

Beləliklə, 60-cı illərin sonlarında neft və qaz hasilatı aşağı düşmüş, neft sənayesində səmərəlilik müharibədən sonrakı bütün beşilliklərdəkinə nisbətən ən aşağı səviyyədə olmuşdu.

60-cı illərdə neft emalı, neft-kimya və kimya sənayesinin əsaslı surətdə yenidən qurulmasına başlanılmışdı. Neft emalı sənayesinin qurğuları təkmilləşdirilmiş, təbii qaz kondensatı emalı qurğusu işə düşmüşdü. 1961-1965-ci illərdə neft emalı 25 faiz artdı.[125] Lakin neft və qaz hasilatı aşağı düşdüyündən neft emalı zavodlarının gücündən tam istifadə olunmurdu, yağların istehsalı da xeyli azalmışdı.[126] Bu illərdə kimya sənayesi inkişaf etməkdə idi. Sumqayıt superfosfat zavodu işə düşmüş, spirt istehsalı sahəsi istismara verilmişdi. Bakı şin zavodunun ikinci istehsal sahəsi fəaliyyətə başlamışdı. 1967-ci ildə Mingəçevirdə şüşə lif zavodu fəaliyyətə başladı, zavodda toxuculuq istehsalı yaradıldı, sintetik yuyucu maddələr istehsalına başlanıldı.

Sənayenin aparıcı sahələrindən olan metallurgiyada 1960-cı illərdə polad istehsalı 84 faiz, qara metal prokatı 6 faiz, dəmir filizi çıxarılması 19 faiz

artmışdı.[127] Azərbaycanın boru-prokat zavodlarında "250-2" prokat dəzgahı işə salınmışdı. 160 min ton polad boru istehsal edə bilən bu zavodda iki marten sobası var idi. 1964-cü ildə alüminium almaq üçün xammal verən Zəylik alunit mədəni işə düşmüşdü.

Respublikada ağır sənayenin inkişafında maşınqayırma sənayesi mühüm rol oynayırdı. Maşınqayırma müəssisələrində istehsal olunan məhsulların texniki səviyyəsini yüksəltmək, köhnəlmiş texnikanı daha təkmil olan yenisi ilə əvəz etmək üçün yeni tədbirlər həyata keçirilmişdi. 60-cı illərin sonlarında respublikanın neft maşınqayırma sənayesi SSRİ-də neft-mədən maşınqayırma məhsulunun üçdə birini verirdi.[128] "Azneft-mədənmaşın"ın müəssisələri istehsalını artırmışdı. 60-cı illərin sonlarında maşınqayırma müəssisələri 353,9 milyon manatlıq maşın və avadanlıq istehsal etmişdi ki, bu, 1965-ci ilə nisbətən 1,57 dəfə, 1950-ci ilə nisbətən isə 10 dəfədən çox idi.[129]

Sənayenin elektrotexnika, cihazqayırma sahələri də uğurla inkişaf edirdi, ölkənin iri müəssisələri üçün elektrik sobaları və digər elektrotexniki avadanlıq istehsal olunurdu. Elektrotexnika sənayesi 1965-ci ilə nisbətən iki dəfə çox məhsul istehsal etmişdi.[130] Cihaz istehsalının ümumi həcmi 1970-ci ildə 1950-ci ilə nisbətən 61,4 dəfə artmışdı.

Respublikada energetika sənayesi sahəsində 150 min kilovat gücü olan "Şimal" elektrik stansiyası, hər biri 150 min kilovat güclü dördbloklu, SSRİ-də ilk açıqtipli Əli Bayramlı elektrik stansiyası, 75 min kilovat gücündə 1 saylı Gəncə elektrik stansiyası istifadəyə verilmişdi. Sumqayıt elektrik stansiyasının gücü iki dəfə artırıldı, Azərbaycan, Gürcüstan və Ermənistan enerji sistemlərinin birləşdirilməsi başa çatdırıldı.

Yüngül və yeyinti sənayesində də irəliləyişlər baş verdi. Gəncə xalça kombinatı işə düşdü.[132] İstehlak malları istehsalı artdı. Belə ki, pambıq lif istehsalı 1960-cı ildə 104,4 min ton, 1970-ci ildə 131,4 min ton, xam ipək sap istehsalı 1960-cı ildə 347 ton, 1970-ci ildə 409 ton, yun iplik istehsalı 1960-cı ildə 1,7 min ton, 1970-ci ildə 4,3 min ton, alt trikotaj 1960-cı ildə 10,3 milyon ədəd, 1970-ci ildə 15,9 milyon ədəd, üst trikotaj 1960-cı ildə 0,5 milyon, 1970-ci ildə 4,6 milyon ədəd, xalça-palaz 1960-cı ildə 54 min kv.m, 1970-ci ildə 823 min kv.m olmuşdu.[133] Lakin yüngül sənaye sahələrində respublikanın xammal ehtiyatlarından pis istifadə olunurdu, bir çox malların növləri və keyfiyyətləri istehsalçıların tələblərini təmin etmirdi.

Yeyinti sənayesinin inkişafında müəyyən irəliləyişlər var idi. 1960-cı illərdə dörd süd, üç konserv zavodu, ət kombinatı, iki çörək zavodu, tütün kombinatı və quşçuluq fabriki işə düşmüşdü. Kolbasa-vetçina məhsulları, bitki, konserv, qənnadı məmulatı istehsalı çoxalmışdı. 1960-cı ilə nisbətən ət istehsalı 12,3 min ton, bitki yağları istehsalı 8 dəfə artmışdı.[134]

Ümumiyyətlə, 60-cı illərdə respublikada sənaye məhsulu istehsalı 94 faiz artdı.[135] Yeni sənaye müəssisələrinin üçdə birindən çoxunun Bakı şəhərindən kənarda - Sumqayıtda, Əli Bayramlıda, Qubada, Naxçıvanda yaradılması, regionlarda sənayenin ayrı-ayrı sahələrinin təşkili Azərbaycanın sosial-iqtisadi, müasir tipli şəhərlərin mədəniyyətinin inkişafı üçün çox mühüm əhəmiyyət kəsb edirdi.

Azərbaycan sənayesi özünün çoxsahəliliyi ilə fərqlənirdi. 1970-ci illərdə Azərbaycan neft və neft avadanlığı istehsalında Sovet İttifaqında ilk yerlərdən birini, avtomaşın şinləri və polad boru istehsalında üçüncü yeri, adambaşına düşən elektrik istehsalı üzrə dördüncü yeri və poladəritmədə beşinci yeri tuturdu. Azərbaycan sənayesinin istehsal etdiyi məhsullar dünyanın 58 ölkəsinə ixrac olunurdu.[136]

Lakin sənayedə nominal göstəricilər artsa da, inkişaf sürəti ləngiməyə başlamışdı. Belə ki, əgər 1951-1960-cı illərdə məhsul istehsalı 104 faiz artmışdısa, 1961-1970-ci illərdə bu göstərici cəmi 94 faiz olmuşdu. 60-cı illərin sonlarında sənayenin yüksəlişi, həmçinin ictimai əməyin məhsuldarlığının artım sürətinə görə Azərbaycan SSR müttəfiq respublikalar arasında axırıncı yerlərdən birini tuturdu. Xalq təsərrüfatında dinamikliyin aşağı düşməsinin başlıca səbəblərindən biri dövlət intizamının pozulması, köhnə sahələrin yenidən qurulması və modernləşdirilməsi proseslərinin həyata keçirilməməsi idi. Planı yerinə yetirməkdə inzibati-amirlik hökmünün təzyiqi altında bir çox müəssisələrin rəhbərləri məhsulların keyfiyyətinə əhəmiyyət vermirdi, bu isə iqtisadiyyata böyük ziyan vurur və istehlakçıların narazılığına səbəb olurdu.

Sənaye istehsalında artım sürətinin aşağı düşməsi neft və qaz hasilatının azalması, maşınqayırma sahəsində inkişafın ləng getməsi, yeni istehsal obyektlərinin yaradılmasına lazımi əhəmiyyət verilməməsi ilə bağlı idi. Respublikada olan müxtəlif zəngin xammal bazaları ilə bu xammaldan son məhsul alınmasını başa çatdıran istehsal arasında uyğunsuzluq çox böyük idi. Respublika iqtisadiyyatına rəhbərlikdəki ciddi nöqsanlar, ölkə miqyasında planlaşdırmada hökm sürən volyuntarizm və Azərbaycanda iqtisadiyyatın bir sıra sahələrinin inkişafına qarşı yaradılmış süni maneələr də sənayenin inkişafını ləngidirdi.

Sənayedə və sosial sahədə potensialın gücləndirilməsi işində əldən verilmiş imkanlar respublikanın 60-cı illərdə sosial-iqtisadi cəhətdən geri qalmasının başlıca səbəbləri idi.

Bu gerilik müddət etibarilə çox uzun çəkdiyindən bütün əsas sosial-iqtisadi göstəricilərə görə, Azərbaycan getdikcə başqa müttəfiq respublikalardan geri qalır, onun böyük təbii-istehsal imkanları aşağı səviyyədə istifadə olunur, iqtisadiyyatın ümumi səmərəliliyi aşağı düşürdü. 60-cı illərdə respublika iqtisadiyyatı dərin böhran keçirmək ərəfəsində idi. Yaranmış bu ağır vəziyyətdən çıxış yolu tapılmalı,

iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində yeni metodlar tətbiq edilməli idi.

İqtisadiyyatın aqrar sektorunda da ciddi problemlər mövcud idi. Sahə rəhbərləri çox vaxt təşkilati tədbirlərin işlənməsinə formal yanaşır, qeyri-iqtisadi idarəçilik metodlarına əl atır, subyektivizmə yol verirdilər. Kolxoz, MTS və sovxozlara rəhbərlikdə istehsalın planlaşdırılmasında bürokratik üsullar tətbiq olunurdu. Maddi maraq prinsipinə, kadrların təşəbbüslərinə və zəhmət adamlarının yaradıcılıq fəaliyyətinə laqeyd münasibət bəslənilirdi. Kənd təsərrüfatının maliyyələşdirilməsi və kreditləşdirilməsində ciddi səhvlərə yol verilirdi. Bir çox kənd təsərrüfatı məhsullarının, xüsusən heyvandarlıq məhsullarının, taxıl və kartofun tədarük və satınalma qiymətləri çox aşağı idi.

Kənd təsərrüfatında kadrların seçilməsi və yerləşdirilməsində ciddi səhvlərə yol verilirdi. Çox vaxt kadrlar iş keyfiyyətlərinə görə yox, şəxsi sədaqət, dostluq və qohumluq prinsiplərinə görə seçilirdilər. Kənd təsərrüfatı texnikasından kifayət qədər istifadə olunmurdu. Bütün ölkənin, o cümlədən Azərbaycanın kənd təsərrüfatında olan nöqsanların mahiyyəti Sov.İKP MK-nın Sentyabr (1953-cü il) plenumunda təhlil olundu. Kənd təsərrüfatının daha da inkişafı haqqında qərar qəbul edildi.

Kənd təsərrüfatı məhsullarının satınalma qiymətləri artırıldı, kolxozçuların əməyinə görə avans verilməsi tətbiq edildi. Kəndlilərin quş, xırdabuynuzlu mal-qara saxlaması üçün bir qədər həvəsləndirilmə prinsipi tətbiq edildi. Taxılçılığı dirçəltmək üçün xam və dincə qoyulmuş torpaqların mənimsənilməsinə başlandı. Kolxoz və sovxozlara becərilən bitkilərin növlərini, mal-qaranın sayını planlaşdırmaq, əmək məhsuldarlığını, torpaqdan səmərəli istifadə qaydalarını müəyyən etmək hüquqları verildi. Lakin dövlətə təhvil verilən və satılan məhsulun həcmini yenə də dövlət müəyyən edirdi. Bu qeyri-əsaslı dəyişikliklər aqrar sahədə vəziyyəti yaxşılaşdıra bilmədi. Sov.İKP MK-nın Mart (1965-ci il) plenumu kənd təsərrüfatı sahəsində partiyanın iqtisadi, texniki siyasətini dəyişdirdi. Kənd təsərrüfatı məhsullarının alınması üçün bir neçə ilə dəyişməz göstəricilər müəyyən etmək əsasında planlaşdırmanı və tədarük sistemini təkmilləşdirmək, iqtisadi həvəsləndirməni gücləndirmək, istehsalın maddi-texniki bazasını möhkəmləndirmək kolxoz və sovxozlarda əməyin maddi və sosial-siyasi şəraitinin, texniki-təşkilati və sosial-iqtisadi məzmununun yaxşılaşması imkanlarını xeyli genişləndirməyə istiqamətləndirilmişdi.[137] Sonralar da dəfələrlə kənd təsərrüfatı məhsullarının satınalma qiymətlərini qaldırmış, əsaslı vəsait qoyuluşunu artırmış, idarəetmə sistemini dəyişdirmişdilər. Əsaslı dönüş isə baş verməmişdi.[138]

Buna səbəb qəbul olunmuş qərarların kənddə iqtisadi münasibətləri mövcud inzibati-amirlik üsuli-idarəsini dağıtmadan dəyişdirməyə yönəldilməsi idi. Həm

köhnə istehsal üsulunu saxlamaq, həm də kəndlinin ictimai mülkiyyətə, əməyə, onun nəticəsinə münasibətini dəyişmək bir-birini inkar edən uğursuz cəhdlər idi.

Azərbaycanın kənd təsərrüfatının inkişafına istiqamətləndirilmiş tədbirlər də səthi xarakter daşıdığından gözlənilən nəticələri verməmişdi. SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın 1954-cü il iyulun 31-də "1955-1960-cı illərdə Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında",[139] 1957-ci ilin iyulunda "Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında"[140] qərarları qəbul edilmişdi. 1957-ci ildə respublikanın iqtisadi cəhətdən zəif olan kolxozlarının hesabından kənd təsərrüfatı məhsullarının məcburi tədarükü üzrə borcları silinmişdi. Bu kolxozlar beş il müddətinə gəlir vergisi ödəməkdən azad edilmişdi. Lakin nə bu tədbirlər, nə də nisbətən artan əsaslı vəsait qoyuluşu, maddi-texniki bazanın möhkəmlənməsi vəziyyəti kökündən yaxşılaşdıra bilmədi.

1951-1960-cı illərdə respublikanın kənd təsərrüfatına dövlət və kolxozlar tərəfindən qoyulan vəsait 750 milyon manat olmuşdu.[141] Bu, bütün əvvəlki beşilliklərdə üst-üstə qoyulmuş əsaslı vəsaitdən xeyli çox idi. 60-cı illərdə bu sahəyə 1 milyard 763 milyon manat əsaslı vəsait sərf edilmişdir.[142] 60-cı illərdə Azərbaycan SSR kənd təsərrüfatına 30 minə qədər traktor, 4,5 min taxılyığan kombayn, 2,6 min pambıqyığan maşın verilmişdi.[143] 1957-ci ildə respublikada 105 maşın-traktor stansiyası var idi.[144] Lakin kolxozların çoxsahəli, iqtisadi cəhətdən güclü təsərrüfatlara çevrildikləri şəraitdə MTS-lərin onlara istehsal-texniki xidmət göstərməsi qaydası artıq köhnəlmişdi. 1958-ci il martın 31-də SSRİ Ali Soveti "Kolxoz quruluşunu daha da inkişaf etdirmək və maşın-traktor stansiyalarını yenidən təşkil etmək haqqında" qanun qəbul etdi. Qanunda MTS-lərin tədriclə, ayrı-ayrı kolxozların iqtisadiyyatını və ölkə rayonlarının xüsusiyyətini nəzərə almaqla yenidən təşkili zəruri hesab edilirdi.

Maşın-traktor stansiyalarının yenidən təşkil edilməsi 1958-ci ildə başa çatdırıldı. Azərbaycanda 78 təmir-texniki stansiyası yaradıldı,[145] kolxozlar MTS-lərə məxsus 9362 traktor, 2043 kombayn və 19,8 mln manat məbləğində digər texnika aldılar. Kolxozlarda kənd təsərrüfatı üzrə ixtisaslı mütəxəssislərin sayı artdı. Kolxoz təsərrüfatında işləməyə 13 min mütəxəssis, o cümlədən 300 mühəndis-texnik, 10 minə qədər traktorçu və iki min kombaynçı gəldi.[146]

Lakin mənəvi və fiziki cəhətdən köhnəlmiş texnikanı MTS-lərdən almış, lakin ondan lazımi səmərə götürə bilməyən bir çox kolxozlar müflisləşdi.

Kənd təsərrüfatını yüksəltməyin mühüm şərtlərindən biri kolxoz və sovxozların elektrikləşdirilməsi idi. Əgər 1950-ci ildə kolxozların yalnız 12 faizi elektrik enerjisindən istifadə edirdisə, 1960-cı ildə onların xüsusi çəkisi 55 faizə, 1970-ci ildə 99,3 faizə çatmışdı. Sovxozların hamısı elektrik enerjisindən istifadə edirdi.[147]

50-60-cı illərdə su təsərrüfatı tikintisində vacib obyektlər inşa edildi. Samur-Dəvəçi kanalının ikinci növbəsi, Yuxarı Qarabağ, Yuxarı Şirvan, Baş Muğan, Abşeron kanalları kimi iri irriqasiya sistemləri istifadəyə verilmişdi.[148] Suvarılan torpaqların sahəsi genişlənmişdi. 1970-ci ildə respublikada 1129,9 min hektar suvarılan torpaq sahəsi vardı.[149]

Kolxozların şəxsi təsərrüfatlarından alınan kənd təsərrüfatı vergilərinin azaldılması nəticəsində 1950-ci ildən 1960-cı ilə qədərki dövrdə Azərbaycan kolxozçularının şəxsi mülkiyyətində iribuynuzlu mal-qaranın sayı 444,2 min, qoyun və keçilərin sayı 1127,4 min, donuzların sayı 11,9 min idi.[150] Lakin 60-cı illərin əvvəllərində mövcud şərait düzgün qiymətləndirilmir, artıq bu təsərrüfatlara ehtiyac olmaması, hətta onların ictimai təsərrüfatların inkişafına maneçilik törətməsi haqqında qeyri-elmi fikirlər əsasında tələsik tədbirlər həyata keçirilirdi.

Kənd yerlərində yaşayıb işləyən fəhlə və qulluqçuların həyətyanı təsərrüfatları üçün Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 1962-ci il 19 may tarixli qərarına əsasən, tikintilərin də sahəsi daxil olmaqla 0,15 hektar, kolxozçuların həyətyanı təsərrüfatları üçün isə 1963-cü il noyabr tarixli qərarına əsasən tikintilərin də sahəsi daxil olmaqla 0,25 hektar torpaq sahəsi müəyyən olundu.[151] Lakin yem, toxum, əmək alətləri əldə etmək çətinlikləri, həyətyanı təsərrüfatına qayğı olmaması, mal-qara saxlayanlar haqqında haqsız olaraq "xüsusi mülkiyyətçi", "möhtəkir", "alverçi" kimi ictimai rəy yaradılması ucbatından ailələr şəxsi təsərrüfatlarından əl çəkdilər.[152]

Kolxozların kadrlarla təmin olunmasına respublikanın şəhərləri fəal kömək göstərirdi. Təkcə 1955-1956-cı illərdə kəndə 700 nəfər göndərilmişdi ki,[153] onların içərisində çoxlu ali və orta ixtisaslılar var idi.

Kənddə həyata keçirilmiş tədbirlər nəticəsində kolxozlar xeyli möhkəmləndi və iri çoxsahəli təsərrüfatlara çevrildi. Azərbaycanda 1950-ci ildəki 1615 kolxoz müqabilində 1970-ci ildə 992 kolxoz var idi. Kolxozların sayının azalmasına onların iriləşdirilməsi və bəzi kolxozların sovxozlara çevrilməsi səbəb olmuşdu.[154]

Azorbaycanda sovxoz quruculuğu müvəffəqiyyətlə inkişaf edirdi. Sovxozların sayı 1950-ci ildə 46-dan 1970-ci ildə 406-ya, onların işçilərinin sayı isə müvafiq olaraq 12,7 mindən 169,5 nəfərə qədər artmışdı.[155]

50-60-cı illərdə Azərbaycanın kənd təsərrüfatını inkişaf etdirmək sahəsində həyata keçirilən tədbirlər kolxoz və sovxozların maddi-texniki bazasını nisbətən möhkəmləndirdi. Kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü artdı. Həmin illərdə kənd təsərrüfatının ümumi məhsulu 1,9 dəfə çoxaldı.[156]

Bununla belə, respublikanın kənd təsərrüfatında vəziyyət qeyri-qənaətbəxş olaraq qalırdı. Rentabelliliyin aşağı olması, aqrotexniki qaydaların ciddi pozulması, kompleks mexanikləşdirmənin, elmin nailiyyətlərinin və qabaqcıl təcrübənin

istehsalata ləng tətbiqi bu vəziyyəti daha da ağırlaşdırırdı. Aqrar bölmənin inkişafına bəzi ünsürlər də maneçilik törədirdilər.

50-60-cı illərdə Azərbaycanda tikinti sahəsində tədricən inşaat işləri genişləndirilir, tikinti sənayeləşdirilir, yeni konstruksiyalar tətbiq edilir, istehsal proseslərinin mexanikləşdirilməsi təmin olunurdu. Yığma dəmir-beton konstruksiyalar istehsalı 1953-cü ildəki 36,3 min kub m-dən,[157]1960-cı ildə 412,7 min kub m-ə qədər artmışdı.[158] Bununla belə, respublikada əsaslı tikinti geri qalır, nəzərdə tutulan planlar tam yerinə yetirilmirdi.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1965-ci il oktyabrın 4-də qəbul etdiyi qərarla müttəfiq respublikalara əsaslı tikintinin planlaşdırılması, əməyin və əmək haqqının maliyyələşdirilməsi sahəsində əlavə hüquqlar verildi. Bakıda iki iripanelli evtikmə kombinatı, Sumqayıtda və Mingəçevirdə evtikmə zavodları, Sumqayıtda şüşə zavodu, dəmir-beton hissələr istehsal edən zavodlar işə düşdü. 1960-1970-cı illərdə yığma dəmir-beton məmulatın istehsalı 2,5 dəfə çoxalmış, kərpic istehsalı 988 milyon ədəddən 1120 milyon ədədə çatmışdı.[159]

50-60-cı illərdə respublikanın nəqliyyatında dəmir yolu nəqliyyatı yüklərin daşınmasının başlıca vasitəsi olaraq qalmaqda idi. 1955-ci ilin noyabrında müstəqil Azərbaycan Dəmiryol İdarəsi yaradıldı. Azərbaycanın dəmir yollarının uzunluğu 1960-cı ildə 1950, 1970-ci ildə isə 1811 km idi.[160] Elektrik dəmir yolu şəbəkəsi genişlənmiş, uzunluğu 794 km olmuşdu.[161]

Azərbaycandan dəniz nəqliyyatı ilə yük göndərilməsi və su yolu ilə respublikaya yük gətirilməsi də artmışdı. Hər il Kür çayı nəqliyyatı ilə 300 min tondan çox yük daşınırdı.[162]

1962-ci ildən işə düşmüş dəmiryol su rabitəsi Bakı-Krasnovodsk xətti ilə daşımada mühüm yer tuturdu. Bərə ilə daşınma Qafqazın Orta Asiya, Qazaxıstan və Sibir ilə nəqliyyat əlaqələrini yaxşılaşdırdı.

Qara dənizdə olan Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin gəmiləri İtaliya, Əlcəzair, Birləşmiş Ərəb Respublikası, Polşa, Rumıniya, Bolqarıstan və başqa ölkələrin limanlarına ardıcıl reys edirdilər. 1964-cü ildə Azərbaycan gəmiləri Volqa-Baltika su yolundan istifadə edərək, İrandan Danimarkaya, Hollandiyaya, Almaniyaya yük daşımağa başlamışdılar.[163]

Avtomobil yük nəqliyyatı sürətlə inkişaf edirdi. Onun yük dövriyyəsi 1950-ci ildəki 522 mln. ton km müqabilində 1970-ci ildə 3709 mln. ton km olmuşdu.[164] Sərnişin daşınması 1950-ci ildəki 11 mln. nəfərdən 1970-ci ildə 3345 mln. nəfərə qədər artmışdı.[165]

Avtomobil yollarının yenidən qurulması və yenilərinin salınması sahəsində böyük işlər görülürdü. 1950-1960-cı illərdə Azərbaycanda avtomobil yollarının uzunluğu 11 min km-dən 1970-ci ildə 21,1 min km-ə qədər artmışdı.[166]

Şose yollarının təzələnməsində də mühüm işlər görülürdü. Bərdə-Tərtər-İstisu, Saatlı-Bəhramtəpə-İmişli şose yolları istifadəyə verilmişdi. Azərbaycanla Ermənistan və Gürcüstan arasında avtomobil əlaqəsi yaradılmışdı.[167]

Lakin sərnişinlərin rayonlararası daşınması lazımi səviyyədə inkişaf etməmişdi. Bakıda şəhər nəqliyyatı pis işləyirdi.

Respublikada hava nəqliyyatı da inkişaf edirdi. 1960-cı ildə hava xətləri Bakını təkcə Moskva ilə deyil, həm də başqa şəhərlərlə əlaqələndirirdi. Təyyarələrlə həm sərnişin, həm də yüklərin daşınması artmışdı. Məsələn, sərnişin daşınması 1950-ci ildəki 21 min nəfərdən artaraq 1970-ci ildə 969 min nəfərə çatmışdı.[168] Aviasiya kənd təsərrüfatı ziyanvericilərinə və bitki xəstəliklərinə qarşı mübarizədə kənd əhalisinə misilsiz kömək göstərirdi.

Respublikada poçt rabitəsi sürətlə inkişaf edirdi. 60-cı illərin əvvəllərində bütün rabitə agentlikləri rabitə şöbələrinə çevrildi.[169] Bakıda rabitə kontoru əvəzinə poçtamt, şəhər və rayonlarda isə rabitə qovşaqları yaradıldı. 1970-ci ildə Azərbaycanda 1555 poçt, teleqraf və telefon müəssisəsi var idi.[170]

Şəhər telefon stansiyalarının sayı 1950-ci ildəki 89-dan 1970-ci ildə 132-yə, o cümlədən ATS-lərin sayı müvafiq olaraq 6-dan 84-ə qədər çoxalmışdı. 1960-cı ilə qədər bütün kənd sovetləri və kolxozlar telefonlaşdırılmışdı.[171]

Radiorabitə vəsaitləri böyük sürətlə inkişaf edirdi. Respublikada radioqəbuledici nöqtələrin sayı 1950-ci ildəki 181 mindən 1970-ci ildə 1701 minə çatmışdı.[172]

Bakıda Azərbaycan televiziya mərkəzi öz fəaliyyətini 1956-cı il fevralın 14-də ilk yoxlama verilişi ilə başladı, sonralar televiziya mərkəzinin verilişləri Bakıdan 200 km-ə qədər məsafədə müntəzəm olaraq qəbul edilməyə başlandı.

1966-cı ildə Bakı-Şuşa, 1969-cu ildə Şuşa-Naxçıvan radiorele xətti istifadəyə verildi. 1970-ci ildə radiorele xətti ilə Bakı televiziya stansiyası ilk dəfə Moskvadan rəngli televiziya proqramını göstərmək imkanı əldə etdi.

Lakin respublikada, xüsusən kənd yerlərində rabitə şəbəkəsinin inkişaf səviyyəsi və sürəti əhalinin durmadan artan tələbatından hələ də geri qalırdı.

Beləliklə, 40-cı illərin ikinci yarısı - 80-ci illərdə Azərbaycan iqtisadiyyatı çətin, ziddiyyətli, eyni zamanda uğurlu inkişaf yolu keçdi. Lakin iqtisadi idarəetmə və planlaşdırmada ciddi qüsurlarla əlaqədar mövcud inkişaf sürəti, əmək məhsuldarlığı, istehsal Azərbaycanın potensial imkanlarından xeyli aşağı idi.

## §2 ƏHALİNİN SOSİAL STRUKTURU, RİFAHI VƏ MƏİŞƏTİ.

Müharibədən sonrakı ilk illərdə Azərbaycan SSR-də əhali sayının artımı ləng gedirdi. 1950-ci ildə respublikada 2859 min nəfər yaşayırdı, bu da 1940-cı ildəkindən 415 min nəfər az idi.[173] Azərbaycan əhalisindən yüz minlərlə döyüşçü, müharibədən sonrakı ilk ağır illərin iqtisadi, sosial və mənəvi çətinlikləri üzündən çoxlu insan dünyasını dəyişmişdi.

50-ci illərdə Azərbaycanda əhalinin sayı artdı, 1960-cı ildə 3816 min, 1970-ci ildə isə artıq 5117 min nəfərə çatdı.[174]

Əhalinin tərkibindəki sosial dəyişikliklərin mühüm meyillərindən biri şəhər əhalisinin sürətlə artımı olmuşdu. 1950-ci ildə əhalinin 44, 1970-ci ildə isə artıq 50 faizi şəhərlərdə məskunlaşmışdı.[175] Buna səbəb şəhərlərin sürətlə inkişaf etməsi, habelə kolxozçulara pasport verilməsi idi. Məsələn, 1951-ci ildə respublikada 37 şəhər və 82 qəsəbə vardısa, 1970-ci ildə onların sayı müvafiq surətdə 57 və 119-a çatmışdı.[176]

Əhalinin sosial strukturunda dəyişikliklərin mühüm amili cəmiyyətdə fəhlə sinfinin kəmiyyət və keyfiyyətcə artması idi. Əhalinin siyahıyaalınması nəticələrinə görə, 1959-cu ildə respublikada fəhlələr (işləməyən ailə üzvləri ilə birlikdə) əhalinin 36,9 faizini və ya 20 il öncə olduğundan, 10,6 faizdən çox hissəsini təşkil edirdi.[177]

Əhalinin sosial strukturunda kolxozçuların (işləməyən ailə üzvləri ilə birlikdə) payı 1939-cu ildəki 54,2 faizə qarşı 1959-cu ildə 42,4, 1970-ci ildə isə 16,7 faiz təşkil edirdi.[178]

İstehsalın həcminin texniki səviyyəsinin artması, elm, təhsil və mədəniyyətin yüksəlməsi qulluqçuların nominal sayının davamlı olaraq artmasına səbəb olmuşdur. 1970-ci ildə respublikada işləməyən ailə üzvləri ilə birlikdə 1830 min nəfərə qədər və ya 1939-cu ildəkindən 1,8 dəfə, 1959-cu ildəkindən 1,4 dəfə çox qulluqçu vardı. Lakin bu təbəqənin əhalinin sosial strukturunda payı az -1939-1959-cu illərdə cəmi 6 faiz artmış, 1959-1970-ci illərdə isə dəyişməmiş qalmışdı.[179]

1959-cu ildə əhalinin 48 faizini kişilər, 52 faizini qadınlar təşkil edirdisə, 1970-ci ildə bu göstəricilər kişilərin xeyrinə 1 faiz dəyişmişdi.[180]

Əhalinin milli tərkibində də dəyişikliklər baş vermişdi. 1959- 1970-ci illərdə azərbaycanlıların sayı 2494,4 mindən 3776,8 minə, rusların sayı 501,3 mindən 510,1 minə, ermənilərin sayı 442,1 mindən 483,5 minə, ləzgilərin sayı 98,2 mindən 137,3 minə, avarların sayı 17,3 mindən 30,7 minə, yəhudilərin sayı 40,2 mindən 41,2 minə çatmışdı.[181]

Müharibə əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olmuşdu. 1945-ci ildə 1940-cı illə müqayisədə Azərbaycan SSR-də çörək-bulka məmulatı istehsalı 48,1 faiz, heyvan yağı istehsalı 18,1 faiz azalmışdı.[182] Ukraynanı, Moldovanı, Rusiyanın cənubunu əhatə edən 1946-cı ilin dəhşətli quraqlığı ölkənin kənd təsərrüfatına böyük ziyan vurdu.

Müharibə illərində tətbiq edilən şəhər əhalisinin mühüm ərzaq və sənaye malları ilə dövlət norma təchizatı 1947-ci ilin axırına qədər saxlanılmışdı.

Ərzaq əldə edilməsi üçün əsas mənbələrdən biri hələ 1944-cü ildə tətbiq edilmiş dövlət kommersiya ticarəti idi. Burada mallar kartoçkasız, lakin yüksək qiymətlərlə satılırdı. Kommersiya ticarəti kolxoz bazarında qiymətlərin aşağı düşməsinə kömək edir, azad ticarətə keçilməsində mühüm rol oynayırdı. 1947-ci il dekabrın 14-də ərzaq və sənaye mallarına kartoçka sistemi ləğv edildi və onların vahid dövlət pərakəndə qiymətləri ilə satışına keçildi. Eyni zamanda pul islahatı keçirildi ki, bu da ölkənin pul sisteminin möhkəmlənməsinə imkan verdi.

İstehsalın ardıcıl olaraq artması əhalinin gəlirlərinin çoxalmasına səbəb oldu.

1945-ci ildən 1947-ci ilədək fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 32,5 faiz artmış,[183] 1950-ci ildə isə müharibədən əvvəlki səviyyəni 80,7 faiz ötüb keçmişdi.[184]

1948-ci ildən başlayaraq ərzaq məhsullarının və sənaye mallarının pərakəndə satış qiymətləri ardıcıl aşağı salındı. 1950-ci ildə qiymətlər 1947-ci illə müqayisədə bütövlükdə 43 faiz, o cümlədən ərzaq məhsulları üzrə 47 faiz, sənaye malları üzrə 35 faiz aşağı düşmüşdü.[185] Sonrakı illərdə də əmək haqqının alıcılıq qabiliyyəti ərzaq məhsullarının və sənaye mallarının pərakəndə satış qiymətlərinin aşağı salınması hesabına artmışdı. 1950-ci ildən 1960-cı ilədək ərzaq məhsullarının qiymətləri 3,2 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri isə 22 faiz aşağı düşmüşdü. 1951-1954-cü illərdə qiymətlər dörd dəfə aşağı salındıqdan sonra dövlət ticarət şəbəkəsində ərzaq məhsullarının qiyməti 1950-ci illə müqayisədə orta hesabla 30 faiz, sənaye mallarının qiyməti isə 19 faiz aşağı oldu.[186] Kartoçka sisteminin ləğvi və vahid qiymətlərin qoyulması dövlət və bazar qiymətləri arasında fərqin tədricən azalmasına kömək edirdi.

Amma nə pul islahatı, nə də qiymətlərin aşağı salınması əhalinin alıcılıq qabiliyyətinin əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarmadı. 1948-ci ildə qiymətlərin ümumi səviyyəsi 1940-cı ildəkindən üç dəfə yüksək idi.[187]

1956-cı il sentyabrın 8-də hökumət azmaaşlı fəhlə və qulluqçuların əmək haqqını 1957-ci il yanvarın 1-dən artırmağı qərara aldı.[188] Azmaaşlı zəhmət adamlarının əmək haqqının artırılması ilə yanaşı, ixtisas səviyyəsindən, iqtisadi əhəmiyyətindən, mürəkkəbliyindən, əmək tutumundan, iş şəraitindən, coğrafi və iqlim şəraitindən asılı olaraq, fəhlə və qulluqçuların əmək haqqı tənzimləndi. 1958-

ci ildən 1970-ci ilədək fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1,5 dəfə artıb 109,6 manata çatmışdı.[189]

Kənd təsərrüfatı istehsalının artması, heyvandarlıq məhsulları tədarükünün mütləq normalarının azaldılması, kənd təsərrüfatı məhsullarının tədarük və satınalma qiymətlərinin artırılması kolxozçuların maddi vəziyyətinin yaxşılaşmasına kömək edirdi. 1949-cu ildə Azərbaycan kolxozçularının pul gəliri 1940-cı ildəkindən 1,5 dəfə çox idi. 1960-cı illərdə kolxozlarda əmək haqqı 2,6 dəfə artıb 80 manata çatmışdı.[190]

1957-ci ildə istiqrazlara inzibati-amirlik metodu ilə abunə yazılışının dayandırılması əhalinin real gəlirinin artmasına kömək etdi.[191]

Fəhlə və qulluqçuların fərdi əmək haqlarına, habelə kolxozçu kəndlilərin gəlirlərinə mühüm əlavə sosial-mədəni tədbirlərə sərf edilən dövlət xərcləri idi. 1960-cı ildə Azərbaycan SSR-in dövlət büdcəsindən sosial-mədəni tədbirlərə xərclər 1940-cı ildəkindən 4,4 dəfə çox idi.[192]

60-cı illərdə ictimai istehlak fondlarından ödəmə və güzəştlər 2,6 dəfə artıb, 1970-ci ildə 972,9 mln manata çatmışdı.[193]

Əhalinin maddi təminatında təqaüdlərin əhəmiyyəti böyük idi. 1970-ci ildə Azərbaycanda 643 min təqaüdçü var idi. SSRİ Ali Soveti 1956-cı il iyulun 14-də dövlət təqaüdçüləri haqqında Qanun qəbul etdi. Qanuna əsasən qocalığa görə təqaüdlərin həcmi iki dəfədən çox, əlilliyə görə təqribən 50 faiz artırılırdı. Ailə başçısını itirmiş ailələrin müavinətlərinə 60 faiz əlavələr edilirdi.

İctimai istehlak fondlarından uşaqların məktəbəqədər tərbiyə müəssisələrində təminatına, uşaqların yay pioner düşərgələrində istirahətinin təşkilinə, çoxuşaqlı və tək analara yardım göstərilməsinə xeyli vəsait ayrılırdı. Əmək qabiliyyətini müvəqqəti itirən bütün fəhlə və qulluqçular sosial sığorta hesabına müavinət alırdılar. 1957-ci il fevralın 1-dən əmək stajından asılı olmayaraq bu müavinətlər əmək haqqından 100 faiz həcmində verilirdi.[194]

Əhalinin əmanət kassalarına pul qoyuluşları çoxalmışdı. 1970-ci ildə 779 min əmanətçi əmanət kassalarında 524 milyon manat pul saxlayırdı.[195]

Sənaye və kənd təsərrüfatı istehsalının, eləcə də əhalinin real gəlirinin artmasına müvafiq olaraq Azərbaycan SSR-də dövlət və kooperativ ticarətində pərakəndə mal dövriyyəsinin ümumi həcmi əvvəlki səviyyəni ötüb keçmişdi.[196] Ticarət müəssisələrinin sayı 15607-ə çatmışdı.

Əhaliyə ərzaq mallarının satışı durmadan artırdı. 1950-ci ildə adambaşına ərzaq satışı 1940-cı il səviyyəsini 2 dəfə ötüb keçmişdi. 50-60-cı illərdə bu göstərici 1,9 dəfə artmışdı.[197]

Ərzaqla təchizatın yaxşılaşmasına ictimai iaşə müəssisələri kömək edirdi. 1970-ci ildə respublikada 6209 ictimai iaşə müəssisəsi var idi.[198] Lakin ictimai iaşə

şəbəkəsi hələ kifayət qədər inkişaf etməmişdi. İctimai iaşənin bir çox müəssisələrində xidmət mədəniyyəti aşağı səviyyədə idi.

Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində onların şəxsi və kollektiv çoxsahəli yardımçı təsərrüfatları, eləcə də kolxoz ticarəti mühüm rol oynayırdı. 50-60-cı illərdə kolxoz bazarlarında mal satışı 2,5 dəfə çoxalmışdı.[199]

Fəhlə və qulluqçuların, habelə onların ailələrinin ərzaq məhsulları ilə təchizatının xeyli yaxşılaşmasına baxmayaraq, onlar tərəfindən ət və süd məhsullarının, yumurta, şəkər, tərəvəz və digər ərzaq növlərinin istehlakı kifayət qədər olmayıb, elmi cəhətdən əsaslandırılmış normalardan aşağı idi.

Fəhlə və qulluqçuların əmək şəraitinin yaxşılaşdırılmasına böyük qayğı göstərilirdi. Xalq təsərrüfatı mütəmadi olaraq yeni texnika ilə təchiz edilir, mexanikləşmənin və elmin nailiyyətlərinin istehsalata tətbiqi, ağır, çox zəhmət tələb edən işlərin avtomatlaşdırılmasından qismən istifadə işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına səbəb olmuşdu. SSRİ Ali Sovetinin 1956-cı il 26 mart tarixli Fərmanı ilə ana qadın əlavə 112 günlük (56 gün doğumdan qabaq və 56 gün doğumdan sonra) pulu ödənilən məzuniyyət alırdı.[200] Yeniyetmələrin və gənclərin iş şəraitini və mühafizəsini yaxşılaşdırmaq üçün mühüm tədbirlər görülmüşdü. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1955-ci il 15 avqust tarixli Fərmanı ilə 14-16 yaşlı şagirdlər üçün istehsalatda dörd saatlıq iş günü tətbiq edilmişdi. 1956-cı ildən 16 yaşından 18 yaşına qədər fəhlə və qulluqçular üçün 6 saatlıq iş günü müəyyən olunmuşdu. Zərərli istehsalatların fəhlələri üçün əlavə məzuniyyət və qısaldılmış iş günü tətbiq edilirdi.

İstirahət günləri qabağı və bayramqabağı günlər iş günü əmək haqqı tam saxlanılmaqla 4 saata qədər azaldıldı.

Əhalinin məişətinin yaxşılaşmasında tikinti sənayesinin sürətlə artması mühüm rol oynadı. Təkcə dövlət və kooperativ təşkilatları tərəfindən 1945-1955-ci illərdə respublikada 1779 min kvadrat-metr mənzil sahəsi istifadəyə verilmişdi.[201]

Mənzil tikintisinin genişləndirilməsi və təkmilləşdirilməsi üçün Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 1957-ci il 31 iyul tarixli "SSRİ-də mənzil tikintisinin inkişafı haqqında" qərarının müstəsna əhəmiyyəti oldu.[202] Azərbaycanda dövlət və kooperativ təşkilatları tərəfindən 1956-1960-cı illərdə 7425 min, 1961-1970-ci illərdə isə 16010 min kvadrat metr mənzil sahəsi istifadəyə verilmişdi.[203]

Tikinti işlərinin geniş vüsət alması ilə əlaqədar bir çox müəssisələrdə yaşayış evlərinin tikintisində fəhlə və qulluqçuların şəxsi əməyindən istifadə olunurdu ki, bu da onlara həmin evlərdə mənzil sahəsi almaq hüququ verirdi. Göstərilən işdə bir sıra sənaye müəssisələrinin və tikinti təşkilatlarının fəhlə və qulluqçularının evləri öz qüvvələri ilə - "xalq tikintisi üsulu" ilə tikmək təşəbbüsü mühüm əhəmiyyət kəsb edirdi.[204]

Tikintinin sürətinin durmadan artmasına baxmayaraq, mənzil problemi bütün ölkədə olduğu kimi, Azərbaycanda da kəskin olaraq qalırdı. Müharibədən sonrakı illərdə respublikada şəhər və qəsəbələrin sayı sürətlə artırdı. 1946-1970-ci illərdə 32 yeni şəhər və 59 qəsəbə salındı.[205] Mingəçevir, Sumqayıt, Əli Bayramlı şəhəri müasir şəhərsalma mədəniyyətinin gözəl nümunələri idi.

Şəhərlərin, fəhlə qəsəbələrinin və kəndlərin abadlaşması, kommunal-məişət xidmətinin genişlənməsi də əhalinin həyat şəraitinin yaxşılaşmasına çox kömək edirdi. 1970-ci ildə respublikada şəhər ümumi ictimai mənzil fondunun 81 faizi su kəmərləri, 79 faizi kanalizasiya, 54 faizi mərkəzi isitmə və buxardan istifadə sistemi, 93 faizi qazla təchiz olunmuşdu.[206]

Şəhər nəqliyyatı genişlənməkdə idi. Trolleybus xətlərinin uzunluğu 1945-ci ildəki 8,1 km-dən 1970-ci ildə 145 km-ə, sərnişin daşınması isə müvafiq olaraq 4,3 mln -dan 57,5 mln nəfərə çatdı.[207] 1955-ci ildə Gəncə şəhərində trolleybus xətti istismara verildi. 1958-ci ildə Sumqayıt şəhərində tramvay xətti işə düşdü.[208]

Bakı şəhərinin abadlaşdırılmasına diqqət artırıldı. SSRİ Xalq Komissarları Sovetinin "Bakı şəhərinin şəhər təsərrüfatına kömək tədbirləri haqqında" 1945-ci il 16 yanvar tarixli və "Bakı şəhərinin şəhər təsərrüfatını yaxşılaşdırmaq sahəsində tədbirlər haqqında" 1946-cı il 5 yanvar tarixli qərarları respublika paytaxtının təsərrüfatını yaxşılaşdırmaq üçün geniş imkanlar yaratdı.[209]

Bakı şəhərində böyük dəyişikliklər baş verdi. Şəhərin ətrafında yeni qəsəbələr salındı. 1951-1960-cı illərdə şəhərdə 2022,1 min kvadrat metr mənzil sahəsi,[210] televiziya mərkəzi, respublika stadionu, Dzerjinski adına (indiki Şəhriyar adına) klub, bir sıra yay kinoteatrları və s. tikilmişdi.

SSRİ Nazirlər Soveti tərəfindən 1951-ci ildə Bakı su kəmərinin ikinci növbəsinin tikilməsi barədə,[211] 1959-cu ildə isə Bakı və onun rayonlarının qazla fasiləsiz təchiz edilməsi, bütün yaşayış massivlərinin 1960-cı ilə qədər tam qazlaşdırılması haqqında qərar qəbul edilmişdi.[212] 1957-ci ildə şəhərə su verilməsi xeyli artdı.[213] Ancaq əhalinin su ilə təchizatı hələ də kifayət deyildi.

1967-ci il noyabrın 6-da Bakı metropoliteninin birinci növbəsinin istismara verilməsi respublikanın həyatında böyük hadisə oldu.[214] O, SSRİ-də beşinci, Yaxın Şərqdə birinci metropoliten idi.

Azərbaycan kəndlərinin siması xeyli dəyişdi. Məsələn, Göyçay rayonunun "Bolqarıstan" kolxozunda geniş asfalt küçələr salınmış, şəhərtipli çoxlu evlər tikilmişdi. Gecələr küçələr elektriklə işıqlandırılırdı. Kolxozun öz univermağı, onillik məktəbi və xəstəxanası var idi. 50-ci illərin axırlarında Quba rayonunda Qudyalçay üzərində yeni körpü salınmışdı. 1958-ci ildə rayon mərkəzində televiziya yarımstansiyası işə başladı.

İnsanların məişətinə paltaryuyan maşınlar, soyuducular, tozsoranlar, tikiş maşınları, elektrik çaynikləri, ütüləri geniş daxil olmağa başladı.

İnsanlara tibbi xidmət ilbəil yaxşılaşır, əhalinin sağlamlığının mühafizəsinə sərf edilən vəsait artır, müalicə-profilaktika müəssisələrinin şəbəkəsi genişlənirdi. 1940-1970-ci illərdə Azərbaycanda xəstəxanaların sayı 222-dən 779-a, onlardakı çarpayıların sayı 12,6 mindən 48,8 minə, ambulator-poliklinika müəssisələrinin, qadın məsləhətxanalarının sayı 1097-dən 1388-ə qədər artmışdı.[215]

Həkimlərin və orta tibb işçilərinin sayı durmadan artırdı. Əgər 1940-cı ildə Azərbaycanda 3,3 min həkim olmuşdusa, 1970-ci ildə onların sayı 13,1 minə çatmışdı. Həmin müddət ərzində orta tibb işçilərinin sayı 7,5 min nəfərdən 39,7 min nəfərə qədər artmışdı.[216]

Əhalinin sağlamlığının mühafizəsində sanatoriya-kurort müalicə və istirahət evləri də mühüm rol oynayırdı. Əgər 1946-cı ildə həmkarlar ittifaqlarının 38 istirahət evi və sanatoriyası var idisə,[217] 1970-ci ildə onların sayı 99-a çatdı.[218] Əməkçilər Mərdəkanda, Naftalanda, Şuşada, İstisuda, Şəkidə müalicə olunur və istirahət edirdilər.

Adamların maddi rifahının yaxşılaşması və səhiyyə sahəsindəki nailiyyətlər əhali arasında ölüm hadisələrinin azalmasına və təbii artımın müntəzəm artmasına kömək edirdi.

İnsanların sağlamlığının möhkəmləndirilməsində, onların əmək qabiliyyətinin saxlanılmasında bədən tərbiyəsi hərəkatı mühüm rol oynayırdı. İdman qurğuları şəbəkəsi ilbəil artır, onların sayı 1946-cı ildəki 1932-dən 1970-ci ildə 5455-yə çatmışdı.[219] İdman oyunları, yarışlar və spartakiadalar, bədən tərbiyəsi hərəkatının əhali arasında geniş yayılması böyük əhəmiyyət kəsb edirdi. İlk dəfə 1949-cu ildə fabrik və zavod kollektivlərinin spartakiadası keçirilmişdi.[220]

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafı üçün könüllü idman cəmiyyətləri - "Neftçi", "Spartak", "Məhsul" minlərlə oğlan və qız arasında müntəzəm idman işi aparırdılar.

Beləliklə, müharibədən sonrakı illərdə həyata keçirilmiş kompleks tədbirlər nəticəsində Azərbaycanda əhalinin maddi rifahının yüksəlməsi təmin olunmuş, zəhmət adamlarının əmək və məişət şəraiti yaxşılaşmışdı.

II FƏSİL

# İCTİMAİ-SİYASİ HƏYAT

***(1945-1960-cı illər)***

## §1. TOTALİTAR SİYASİ REJİMİN SƏRTLƏŞMƏSİ

İkinci dünya müharibəsi, onun tərkib hissəsi - Böyük Vətən müharibəsi başa çatdıqdan sonra bəşəriyyətin ictimai-siyasi həyatında köklü dəyişikliklər baş verdi. Sovetlər ölkəsində 1945-ci ilin sentyabrında Dövlət Müdafiə Komitəsi fəaliyyətini dayandırdı. 1946-cı il fevralın 10-da SSRİ Ali Sovetinə yeni seçkilər keçirildi. Həmin ilin martında SSRİ Ali Soveti xalq komissarları sovetlərini nazirlər sovetlərinə çevirmək haqqında qanun qəbul etdi.[1] İ.V.Stalin SSRİ Nazirlər Sovetinin sədri təsdiq olundu. Əslində siyasi hakimiyyət yenə də ÜİK(b)P MK Siyasi Bürosunun əlində idi. Az sonra bu siyasi qurum da praktiki olaraq fəaliyyətdən qaldı. Stalin dövləti və partiyanı MK Siyasi Bürosunun, 1952-ci il oktyabrından (partiyanın XIX qurultayından sonra) isə MK Rəyasət Heyətinin daxilində şəxsi seçimi ilə yaradılan "üçlük", "beşlik", "altılıq" və s. vasitəsilə təkbaşına idarə etməyə çalışırdı. Partiya nizamnaməsi pozulur, ali orqanlar vaxtlı-vaxtında çağırılmır (XVIII qurultayla XIX qurultay arasından 13 il yarım keçmişdi), kollegiallıq prinsipinə əməl olunmurdu.[2]

Stalinin şəxsiyyətinə pərəstiş, onun əlaltılarının partiyaya, dövlətə zidd hərəkətləri və siyasi avantürist Beriyanın cinayətkar fəaliyyəti totalitar rejimin güclənməsinin əsas səbəblərindən idi. 1949-cu il aprelin 12-də şəhər və rayon milis orqanlarında siyasi idarələr yaradıldı, avqustun 9-da paytaxtlarda, o cümlədən Bakıda milisə xüsusi hüquqlar verildi, oktyabrın 13-də milis SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin tabeçiliyinə keçirildi.[3] Fikirlərə nəzarət, gizlin izləmə, çuğulluq (donos) genişləndi.[4] Əsassız repressiyalar başlandı. Repressiyanın əsas hədəfləri, ilk növbədə, əsirlikdən qayıtmış müharibə iştirakçıları oldular. Vətənə qaytarılan keçmiş əsirlərin üzərində və "tələbələrin əhvali-ruhiyyəsinə nəzarət" gücləndirildi. Partiya dövlət mətbuatında və başqa ideoloji təbliğat vasitələrində 1952-ci ilin sonu - 1955-ci ilin əvvəllərində dərc olunan materiallarda 1937-ci ilin qanlı havası sezilirdi.[5]

Stalinin şəxsiyyətinə pərəstişi formalaşdırmaq totalitar üsuli-idarəni daha da gücləndirməyin vasitələrindən biri idi.

Totalitar rejimin sərtləşməsinin təzahürlərindən biri elm, ədəbiyyat və incəsənət üzərində "hakim" ideologiyanın inhisarının daha da güclənməsi idi.

ÜİK(b)P MK 1947-1951-ci illərdə fəlsəfə, biologiya, fiziologiya, siyasi iqtisad, dilçilik və başqa elm sahələri üzrə açdığı "elmi" diskussiyalarda əslində geniş elmi mübahisə yox idi, "marksist" maskası geymiş elmdə təsadüfi fırıldaqçılar, ehkamçılar hökm edirdilər. Bu cür həqiqi elmdən uzaq olan, "hakim ideyaya" tabe olmaq məqsədini daşıyan saxta tədbirlər ölkədə elmin inkişafına ciddi ziyan vurdu. Genetika belə, lazımsız elm kimi yasaq edilmişdi.

Azərbaycanda da "Lisenko məktəbinə" uyğunlaşmayan bioloqlar - M.Ə.Axundov və başqaları təqib olunurdular. Şəxsiyyətə pərəstişin ağır nəticələri ictimai, humanitar, ələlxüsus, tarix elmində özünü daha çox göstərirdi. XX əsrin tarixinə aid tədqiqatlar "ÜİK(b)P tarixinin qısa kursu"nun təsiri altında qalmışdı. Faktlar saxtalaşdırılırdı. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən istilası haqqında həsətinə qarşı çıxış edən mütərəqqi milli burjuaziyanın nümayəndələrinin müstəqil Azərbaycan Respublikası uğrunda mübarizəsi saxtalaşdırılırdı. Sovet üsuli-idarəsinin, təkpartiyalı siyasi sistemin, cəmiyyət həyatının bütün sahələrində partiya amirliyinin, ictimai mülkiyyətin, "sosialist" istehsal münasibətlərinin ziddiyyətləri ört-basdır olunurdu.[6]

Həqiqəti yazmaq cəhdlərinin qabağı tezliklə təqib, habelə müxtəlif cəzalarla alınırdı. Mir Cəfər Bağırovun əlaltıları olan satqınlar dəstəsi - Markaryan, Qriqoryan, Yemelyanov-Borşov və Sumbatov-Topuridze, Atakişiyev Azərbaycan xalqının ən qabaqcıl, nüfuzlu şəxsiyyətlərinə, ələlxüsus millətin mənəvi aparıcı təbəqəsi olan ziyalılara qarşı səlib yürüşünə başlamışdılar. Azərbaycan neftçi alimlərindən Ələşrəf Əlizadə, Baxışbəy Sultanov, Əli Muradbəyli Cəmil, Yusif Səfərov,[7] filosoflardan Heydər Hüseynov, Əli Əlizadə, yazıçılardan Əbülhəsən Ələkbərzadə, şairlərdən Səməd Vurğun, bəstəkarlardan Üzeyir Hacıbəyov və başqaları təqiblərin əsas obyektləri idilər.

İstedadlı filosof, görkəmli alim və ictimai xadim, akademik Heydər Hüseynovun 1949-cu ildə çap olunmuş "Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən" əsəri Stalin mükafatı almışdı. Elmi-ictimaiyyət və cəmiyyət tərəfindən ehtiramla qəbul olunmuş kitab "Şamilin başçılığı ilə hərəkat, müridizm, guya Rusiya xalqına qarşı mübarizə kimi qiymətləndirilmiş", məhz buna görə Stalin mükafatı hökumətin qərarı ilə ləğv edilmişdi, müəllif ağır təqiblərə məruz qalmış, özünə qarşı haqsızlığa görə intihar etmişdi.[9]

Ədəbi jurnallar, teatr repertuarları və kino sənəti haqqında ÜİK(b)P MK-nın 1946-1948-ci illərdə qəbul etdiyi qərarlarda bədii formanın "yüksək ideyalara" tabe edilməsinin "geniş proqramı" verilmişdi. Ədəbiyyat və incəsənətdə fərdiliyə, milliliyə "formalizm" damğası vurulurdu. "Sosialist realizmi" ideoloji qəlibindən kənara çıxmaq, cəmiyyətin həyatında mövcud olan nöqsanlardan, ziddiyyətlərdən danışmaq olmazdı.

Azərbaycan xalqının dastanları feodal münasibətlərini təbliğ etməkdə, qeyri-xəlqilikdə ittiham olunurdu. Türk dünyasının möhtəşəm orta əsr abidəsi "Kitabi-Dədə Qorqud" "irticaçı feodal-xan eposu" adı ilə damğalanmış, onun tədqiqatçıları təqiblərə məruz qalmışdılar. A.A.Bakıxanov idealizmdə, fanatizmdə, xan və bəyləri müdafiə etməkdə, M.M.Kazım bəy "çarizmin sadiq qulu" olmaqda günahlandırılırdı. Akademik M.A.Dadaşzadə "Türkiyə casusu" kimi damğalanmışdı. Akademik, yazıçı M.İbrahimov, professor, SSRİ Elmlər Akademiyasının müxbir üzvü A.O.Makovelski elmi-siyasi sayıqlığı itirməkdə tənqid edilmişdi. M.Rəfili "kosmopolit" damğası ilə işdən uzaqlaşdırılmış, Süleyman Vəliyev sürgün olunmuşdu. M.C.Bağırov AK(b)P XIX qurultayında (1952, sentyabr) Səməd Vurğunu hədələyərək, "Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan" - demişdi.[10]

Mərkəz azərbaycanlılara etibar etmirdi, mühüm vəzifələrin çoxuna, xüsusən güc orqanlarına başqa millətlərin, əsasən rus və ermənilərin nümayəndələrini cəlb edirdi. Bu şovinist münasibətdən erməni millətçiləri azərbaycanlı kadrlara qarşı hiyləgərcəsinə istifadə edirdilər. Hətta M.C.Bağırov belə vəziyyətin güc orqanlarında kök saldığını hiss edərək, 1945-1953-cü illərdə Azərbaycan xalqının qatı düşməni olan bir sıra erməni daşnak fitnəkarlarını ifşa edərək respublikadan qovmuşdu. Qarabağın, Naxçıvanın və başqa tarixi Azərbaycan torpaqlarının erməni ərazisi olduğunu "yaradıcılığı"nda əsaslandırmağa çalışan yazıçı Marietta Şaginyanın Bakıya gəlməsini rədd etmişdi. O, eyni münasibəti marşal İ.Baqramyanın qardaşı Baqramova və 1918-ci ilin martında Bakıda azərbaycanlıların qırğınını təşkil edən Stepan Şaumyanın oğlu, "Böyük Sovet Ensiklopediyası"nın baş redaktorunun müavini Levon Şaumyana qarşı da tətbiq etmişdi.[11]

İnzibati-amirlik üsuli-idarəsinin güclənməsi, sözdə verilmiş "demokratik" hüquqların çoxunun təmin olunmaması insanların ictimai-siyasi həyatda, dövlət idarəçiliyində fəal iştirakına ciddi maneələr törədirdi. "Xalq hakimiyyəti" orqanlarına seçkilər formal, inzibati nəzarət, hətta təzyiq altında keçirilirdi.

Zehni inkişaf səviyyəsi yüksək olan əhalinin, xüsusən gənclərin arasında mövcud quruluşun ziddiyyətlərini, həqiqi mahiyyətini dərk edənlər çoxalırdı. Təşkilatlanmaq və mübarizə aparmaq arzusunda olanlar da vardı. Gizli fəaliyyət göstərən "İldırım" təşkilatının üzvü olan bir qrup vətənpərvər və romantik gənc - İsmixan Rəhimov, Gülhüseyn Abdullayev, Hacı Zeynalov, Kamal Əliyev, Aydın Vahidov və b. Azərbaycanın azadlığa çıxması üçün xalqa onun qüvvələrini birləşdirə biləcək güclü, tanınmış bir liderin rəhbərlik etməsini vacib bilərək, S.Vurğuna gizli məktubla müraciət etmişdilər ki, bu missiyanı öz üzərinə götürsün. İstibdada qarşı açıq mübarizə üçün hələ real vəziyyət yaranmamışdı. Təşkilat

1947-ci ilin əvvəllərində fəaliyyətini dayandırdı. 1948-1949-cu illərdə onun 8 fəal üzvü həbs edilib sürgün olundu.[12]

Xaricdə fəaliyyət göstərən siyasi mühacirlərin də Azərbaycanda sovet rejiminə qarşı fəaliyyəti genişlənirdi. Müharibədən sonrakı illərdə Azərbaycan mühacirləri "əski" və "yeni" mühacirlər adlanan qruplara bölünmüşdü, onların arasında əsas məsələlərdə birlik yox idi.[13] M.Ə.Rəsulzadə 1949-cu ildə Ankarada "Azərbaycan kültür dərnəyi" təşkil etmişdi. Onun rəhbərliyi ilə 1952-ci ildən Ankarada "Azərbaycan" jurnalı nəşr olunmağa başlanmışdı. Bolşevizmə qarşı mübarizədə Mirzə Bala Məmmədzadə (1954-cü ildən Münhendə (Almaniya) SSRİ-ni öyrənən institutun Azərbaycan dilində nəşr etdiyi siyasi jurnalın redaktoru idi), Əbdürrəhman Fətəlibəyli-Düdənginski (1945-1954-cü illərdə Münhendə ABŞ-ın təsis etdiyi Azadlıq" radiosunun Azərbaycan şöbəsinin rəhbəri idi) və başqaları da fəal iştirak edirdilər.[14]

## §2. AZƏRBAYCANLILARIN ERMƏNİSTAN SSR-dən TARİXİ ETNİK ƏRAZİLƏRİNDƏN DEPORTASİYASI

Müharibədən sonrakı illərdə bütün ölkədə şovinist və yerli millətçilik siyasətinin güclənməsi xalqlar arasında tez-tez münaqişə və toqquşmalar, konfliktlər, ciddi təhlükəli problemlər yaradılmasında açıq təzahür edirdi. Moskva hakimiyyəti Qafqazda da Azərbaycan erməni, gürcü və başqa xalqları bir-birinə qarşı qoymaq və onlar üzərində hakim mövqeyini saxlamaq naminə milli münaqişə ocaqları yaratmaq siyasəti yürüdürdü. Bu məkrli siyasət, əsasən, qondarma "Dağlıq Qarabağ" konfliktinin süni surətdə kəskinləşdirilməsi məqsədi güdürdü. Moskvanın fitvası və havadarlığı ilə mərkəzdəki və xarici ölkələrin lobbisinə arxalanan erməni millətçiləri, kommunist - daşnaklar sonrakı illərdə müharibə, vaxtaşırı azərbaycanlıların Ermənistan SSR-dəki tarixi-etnik ərazilərindən sıxışdırılıb çıxarılması, birinci növbədə, Qarabağın qoparılıb Ermənistana verilməsi tələbi ilə çıxış edirdilər. 40-cı illərdə Moskvanın, bilavasitə A.Mikoyanın təşəbbüsü ilə Ermənistanda partiya elitasının fəal iştirakı ilə gizli "Qarabağ hərəkatı", "Qarabağ komitəsi" yaradılmışdı.[15] 1945-ci ilin payızında Ermənistan rəhbərliyi növbəti dəfə ÜİK(b)P MK qarşısında Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Ermənistana verilməsi məsələsini qaldırır. Ermənistan K(b)P MK və XKS-nin Stalinə müraciətində heç bir elmi, tarixi əsası olmadan Dağlıq Qarabağ ərazisinin guya iqtisadi cəhətdən daha çox Azərbaycan SSR-lə deyil, Ermənistan SSR-lə bağlı olduğunu sübut etməyə cəhd olunur. Məsələyə dərhal reaksiya verən

Mərkəzi hökumətin nümayəndəsi ÜİK(b)P MK katibi G.M.Malenkov 1945-ci ildə noyabrın 28-də Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırova yazdığı məktubunda bu məsələ ilə bağlı məlumat verir və onun rəyini soruşur.[16] M.C.Bağırov 1945-ci il 10 dekabr tarixdə ("tam məxfidir" qrifi ilə) ona cavab məktubu göndərir.[17] Məktubda Ermənistanın Dağlıq Qarabağla bağlı irəli sürdüyü bütün iddiaların heç bir elmi, tarixi əsası olmadığı və Dağlıq Qarabağın tarixən Azərbaycan ərazisi olduğu tutarlı faktlarla sübut edilirdi.

Cavab məktubunda sovet hakimiyyəti illərində ilk dəfə Azərbaycan rəhbəri tarixi Azərbaycan torpaqları problemini qaldırır və burada Dağlıq Qarabağın Ermənistana güzəştə ediləcəyi təqdirdə müxtəlif vaxtlarda Ermənistana, Gürcüstana və Sovet Rusiyasına verilmiş bir çox tarixi ərazilərin Azərbaycan SSR-ə qaytarılmasını vacib hesab edir. Azərbaycan rəhbərliyinin məsələnin bu səpkidə müzakirə olunmasına razılıq verməsi ermənilərin planlarının pozulması ilə yanaşı, Mərkəzi hökumətə problemin bütün ölkə üçün sonsuz fəlakətlər yaradacağını anlatdı. Belə bir təhlükənin real olduğunu görən mərkəzi hökumət ermənilərin iddialarını rədd edərək məsələnin "arxivə verilməsini" tövsiyə etdi. Eyni zamanda Moskva Türkiyə ilə sərhəddə ermənilərin mövqeyini möhkəmləndirmək tədbirləri gördü. Hələ 1943-cü il noyabrın 28-dən dekabrın 1-dək SSRİ ABŞ və İngiltərənin iştirakı ilə keçirilən Tehran konfransında Sovet-İran münasibətləri müzakirə edilərkən, gələcəkdə "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər əlverişli şəraitdən istifadə edərək, SSRİ xarici işlər naziri V.Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdilər. V.Molotov məsələ ilə bağlı İ.Stalinlə danışdıqdan sonra onların Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq vermişdi.[18] 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı Fərman verdi.[19] Ermənilərin Ermənistan SSR-ə repartasiyası "Daşnaksutyun" partiyasının 1947-ci ilin iyununda keçirilmiş XIV konqresinin qəbul etdiyi qərarlarla bilavasitə bağlı idi. Bu qərarlarda isə repartasiyanın "azərbaycanlıların yaşadıqları torpaqların boşaldılması və Ermənistan sərhədlərinin genişləndirilməsi" şəraitində baş verdiyi iddia edilirdi. Bu işə Qriqoryan kilsəsi də xeyir-duasını vermişdi.

Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRI Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" daha bir qərarı ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu. Bu qərara görə,

100 min azərbaycanlı 1948-1950-ci illərdə; 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min, 1950-ci ildə isə 50 min nəfər "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi.[20] Qərarın axırıncı, II maddəsində ayrıca göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki azərbaycanlı əhalinin köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililərdən, yaşayış evlərindən xaricdən gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər.[21] O zaman Ermənistan SSR-də 400 mindən artıq azərbaycanlı yaşayırdı. 1948-ci ildə Ermənistan SSR-dən mütəşəkkil surətdə Azərbaycan SSR-ə 1799 təsərrüfat, 7747 nəfər köçürüldü. 429 ailə (2834 nəfər) müxtəlif təzyiqlərə məruz qaldığına görə pərakəndə halda Azərbaycana gəlməyə məcbur olmuşdu. 1948-ci ilin payızınadək deportasiyaya məruz qalanların sayı 10.584 nəfər idi.[22]

Azərbaycan SSR və Ermənistan SSR rəhbərləri arasında əldə olunmuş razılaşmaya görə, 1949-cu ildə 15713 nəfər (5420 nəfəri yazda, 10293 nəfəri isə payızda) və 3818 təsərrüfat köçürülməli idi. Lakin SSRİ Nazirlər Soveti Azərbaycan SSR və Ermənistan SSR hökumətləri arasında əldə edilmiş razılaşmanı təsdiq etmədi və SSRİ hökumətinin rəsmi nümayəndəsi S.Çeremuşin Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyevdən Ermənistan SSR-dən Azərbaycana əvvəlcədən müəyyənləşdirilmiş 40000 nəfər azərbaycanlının köçürülməsini tələb etdi.[23]

Azərbaycan SSR Nazirlər Soveti çıxılmaz vəziyyətə düşdüyündən məsələnin həlli üçün SSRİ Nazirlər Soveti sədrinin müavini G.M.Malenkova müraciət edib bildirdi ki, bu qədər adamın köçürülməsi və yerləşdirilməsi üçün Azərbaycanın imkanı yoxdur. Müraciətdə 1949-1950-ci illər üçün əvvəllər müəyyən edilmiş köçürmə planlarına yenidən baxılması və "Ermənistan SSR-dən olan azərbaycanlı kolxozçuların və digər əhalinin 10 min nəfərinin 1949-cu ildə, 15 min nəfərinin isə 1950-ci ildə köçürülməsinə icazə verilməsi" xahiş edildi.[24]

Deportasiya tədbirləri Ermənistanın 22 rayonunu, əsasən, Basarkeçər, Zəngibasar, Noyemberyan, Mikoyan, Dilican, Aştarxan, Kirovakan rayonlarını əhatə edirdi. Bu rayonlar əsasən azərbaycanlıların yığcam şəkildə, yaxud ermənilərlə qarışıq halda yaşadıqları dağlıq və dağətəyi rayonlar idi. Erməni millətçiləri, ilk növbədə, azərbaycanlıları bu rayonlardan qovub çıxarmağa çalışırdılar.

Ermənistandan deportasiya olunmuş azərbaycanlılar Azərbaycan SSR-in Kür-Araz ovalığı və digər rayonlarında yerləşdirilərkən burada yaşayan ermənilər tərəfindən də təqib olunur və onlar barədə rəhbərliyə böhtan dolu məktub və teleqramlar göndərilirdi. Azərbaycan SSR Şamxor (indiki Şəmkir) rayon partiya və icra orqanlarında rəhbər vəzifə tutan ermənilər 150 nəfər azərbaycanlının öz təsərrüfatları ilə birlikdə rayondan sürgün edilməsi barədə qərarın qəbul edilməsinə nail olmuşdular.[25] Ermənilərin Azərbaycanda bu özbaşınalığına respublikanın

XDİN-də, partiya və sovet orqanlarında rəhbər vəzifə tutan Markaryan, Qriqoryan, Yemelyanov, Borşov və başqaları himayədarlıq edirdi. Onlar ermənilərin yığcam yaşadıqları DQMV və onun ətrafında yerləşən rayonlarda deportasiya olunanların yerləşdirilməsinə hər cür maneçilik törədir, M.C.Bağırova yalan və böhtanla dolu rəsmi arayışlar təqdim edirdilər. Köçkünlərin ermənilər tərəfindən sıxışdırılması barədə kollektiv imza ilə göndərilən ərizə və məktubları respublika Təhlükəsizlik Nazirliyinin rəhbəri Yemelyanov qəsdən M.C.Bağırova təqdim etdiyi arayışda "millətçilik", "siyasi təxribat" kimi xarakterizə edirdi.[26]

1949-cu ildə Ermənistandan Azərbaycanın Saatlı, Göyçay, Mirbəşir (indiki Tərtər), İmişli, Əli Bayramlı, Zərdab, Salyan, Kürdəmir, Xaldan, Sabirabad, Jdanov (indiki Beyləqan), Yevlax, Ucar, Gədəbəy və Bərdə rayonlarına 15276 adam köçürülmüşdü.[27]

1950-ci il martın 14-də və avqustun 25-də Azərbaycan və Ermənistan respublikalarının Nazirlər Sovetləri həmin ilin yazında və payızında müvafiq olaraq Azərbaycana 3419 təsərrüfatın və 14361 nəfər adamın köçürülməsi barədə qərar qəbul etmişdilər.[28] Lakin köçürülmə, daha doğrusu, mütəşəkkil deportasiya planı erməni millətçilərin istədikləri sürətlə həyata keçirilmirdi. Bu, qeyri-insani tədbirin planlaşdırılmış şəkildə həyata keçirilməsinə bir sıra obyektiv və subyektiv səbəblər mane olurdu. Deportasiya olunanların sosial və məişət problemləri lazımınca həll edilmirdi (respublikanın qısa müddətdə bu yerlərdə kifayət qədər mənzil tikmək imkanı yox idi). Yerlərdə buna süni maneələr də yaradılırdı. Bunun nəticəsi olaraq, 1950-ci ildə Azərbaycandan Ermənistana - öz keçmiş yaşayış yerlərinə qayıtma prosesi başlanmışdı. Köçkünlər içərisindən çıxılmaz vəziyyətə düşənlərin bəziləri əlacsız qalaraq Mərkəzi hökumətə şikayət və etiraz məktubları göndərirdilər. Lakin bu şikayət və etirazlar heç bir nəticə vermirdi.[29] 1950-ci ildə Ermənistandan Azərbaycana 2907 təsərrüfat və ya 12332 adam köçürülmüşdü. Bu, əvvəlki illərlə müqayisədə ən yüksək göstərici idi. Lakin erməni millətçiləri və onların mərkəzi hökumətdəki himayədarları SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarlarının yerinə yetirilməsi vəziyyətindən qəti narazı idilər. Onların təkidi ilə 1951-ci il fevralın 28-də SSRİ Nazirlər Soveti "1951-ci ildə köçürülmə planı haqqında" 605 saylı məxfi qərar qəbul etmişdi. Bu rəsmi sənəddə köçürmə prosesinin sürətləndirilməsi tələb olunurdu. Lakin görülən sərt inzibati tədbirlər də öz lazımi nəticəsini vermədi. Əksinə, hətta 1951-ci ildə erməni millətçilərinin istəyinin əksinə olaraq, köçürülənlərin geriyə qaytarılması halları çoxaldı. Belə ki, Ermənistan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin rəisi 1951-ci mayın 27-də verdiyi məlumatda 36 azərbaycanlı ailəsinin geriyə qayıtdığını göstərirdi.[30]

1952-53-cü illərdə Ermənistandan daha 3155 təsərrüfat və 1376 nəfər azərbaycanlı deportasiya edildi. Lakin geri qayıdanların sayı da artdı. 1954-cü ildə

Azərbaycan SSR kənd təsərrüfatı nazirinin müavini M.Poladovun rəhbərliyi ilə Ermənistana ezam edilmiş xüsusi komissiya müəyyən etdi ki, köçürülənlərin geriyə qayıtmalarının başlıca səbəbi Azərbaycanın Kür-Araz ovalığında elementar yaşayış şəraitinin olmamasıdır. Bu səbəbdən də Azərbaycandan Ermənistana 1115 ailə geri qayıtmışdı. Geri qayıdanlar Ermənistanda qeydə alınmır və adi vətəndaş hüquqlarından məhrum edilirdilər. Deportasiya prosesi 1956-cı ilə qədər davam etdirildi. 1954-1956-cı illərdə 1316 təsərrüfat və 5876 nəfər Ermənistandan deportasiya olunmuşdu.[31] Ümumiyyətlə, Ermənistan SSR-də etnik təmizləmənin bu mərhələsində 100 min nəfərdən çox azərbaycanlı zorla köçürülmüş və ya köçməyə məcbur edilmişdir.[32] Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib, aclıq və xəstəlikdən həlak oldu.[33]

1948-1956-cı illərdə Ermənistan SSR-dən, öz tarixi etnik torpaqlarından deportasiya edilən azərbaycanlıların bu faciəsi hüquqi cəhətdən 1948-ci ildə BMT-nin İnsan Hüquqları Komissiyasının qəbul etdiyi qərarın II maddəsinə uyğun olaraq soyqırım və etnik təmizləmə kimi qiymətləndirilməlidir.

Zaqafqaziyada hökumətin yeritdiyi antiazərbaycan siyasətinin bir təzahürü də Ermənistan və Gürcüstandakı qədim Azərbaycan torpaqlarında toponimlərin özgələşdirilməsinə, azərbaycanlılara məxsus abidələrin məhv edilməsinə geniş rəvac verilməsi idi.

## SİYASİ MÜLAYİMLƏŞMƏ. İCTİMAİ-SİYASİ HƏYATDA DEFORMASİYA VƏ DƏYİŞİKLİKLƏR

1953-cü il martın 5-də totalitar sovet sistemini törədən İ.V.Stalin vəfat etdi. Stalinin şəxsiyyətinə pərəstişin zərərli, ağır nəticələri aşkarlandı. Hakimiyyət uğrunda rəhbərlikdə mübarizə başlandı və həmin ilin sentyabr ayında ölkənin siyasi hakimiyyətində köklü dəyişiklik baş verdi. Hakimiyyətə gələn N.S.Xruşşov, Sov.İKP Mərkəzi Komitəsinin katibi kimi, nəzarət etdiyi partiya aparatının, ali hərbi rəhbərlərin yaxından köməyi ilə hakimiyyəti əlinə keçirməyə cəhd edən siyasi avantürist L.P.Beriyanı və onun əlaltılarını aradan götürdü, stalinizm tərəfdarları hakimiyyətdən uzaqlaşdırıldı.

N.S.Xruşşov 1953-cü ilin sentyabrında Sov.İKP MK-nın birinci katibi seçildi.

M.C.Bağırov Azərbaycan KP MK və Bakı Komitəsinin birgə plenumunda (1953, 12-13 iyul) ziyankarlıqda, qüsurlu rəhbərlik metodlarında, kadrlara səmərəli fəaliyyət üçün şərait yaratmamaqda və başqa əməllərdə təqsirkar bilinib vəzifəsindən kənar edildi.[34] M.C.Bağırov bir müddət Kuybışev Neft Birliyinin rəis müavini vəzifəsində işlədi. Lakin tezliklə həbsə alındı. Bakıda SSRİ Ali

Məhkəməsinin Hərbi Kollegiyası tərəfindən mühakimə edilib (1956, 12-26 aprel), xalq düşməni kimi ölüm cəzasına - güllələnməyə məhkum olundu. Məhkəmədə M.C.Bağırov ittihamnamənin qərəzli olduğunu bildirsə də, öz günahlarını etiraf edərək demişdi: "Mənim əsas səhvim odur ki, Sumbatov, Borşov, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİN orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqım qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır".[35]

1954-cü il fevralın 14-16-da Azərbaycan KP-nin XX qurultayı keçirildi və akademik İ.D.Mustafayev MK-nın birinci katibi seçildi. İmam Daşdəmir oğlu Mustafayev (25.02.1910-10.03.1997) Zaqatala qəzasının Qax kəndində anadan olub. Görkəmli bioloq-alim, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1950), 1934-1940-cı illərdə AKTİ-də işləmiş, 1940-cı ildən Sov.İKP üzvü idi. 1940-1954-cü illərdə Azərbaycan SSR Dövlət nəzarəti komissarının birinci müavini, xalq torpaq komissarının birinci müavini, Azərbaycan SSR kənd təsərrüfatı naziri, AKP Gəncə Vilayət Komitəsinin birinci katibi və AKP-nin birinci katibi (1954-1959-cu illərdə) işləmişdi. Sadıx Rəhimov Azərbaycan SSR Nazirlər Sovetinin sədri, yazıçı Mirzə İbrahimov Ali Sovetin Rəyasət Heyətinin sədri təyin olundular.

İ.D.Mustafayev, M.İbrahimov, S.Rəhimov və həmkarları yeni şəraitdə respublikanın, xalqın vəziyyətini yaxşılaşdırmağa, milli, mənəvi dəyərlərin, mədəniyyətin, elmin, təhsilin inkişaf etdirilməsinə, xalq təsərrüfatının tərəqqisinə nail olmağa cəhdlər göstərdilər. Sənayenin sürətlə inkişafı, yeni iş yerlərinin açılması, kəndli gənclərin Bakıya axını nəticəsində paytaxtın iqtisadi-ictimai həyatında azərbaycanlı kadrların rolu artdı, sosial-siyasi sahədə vəziyyət yeniliyə doğru dəyişməyə başladı. Beynəlmiləl şəhər kimi məşhurlaşmış Bakı azərbaycanlılaşmağa doğru tərəqqi yoluna düşdü. Respublikada kənd təsərrüfatına göstərilən diqqət nəticəsində ərzaq məhsulları istehsalı artmağa başladı.

Azərbaycan rəhbərliyi Mərkəzi hökumət qarşısında respublikada istehsal olunan pambığın emalı üçün yerlərdə müvafiq zavodlar və fabriklərin tikilməsi məsələsini qaldırdı. İ.D.Mustafayev xatirələrində yazır: "Məsələ onda idi ki, biz respublikada istehsal olunan pambığın və eləcə də neftin bir tonuna büdcədən əlavə 10 rubl pul alırdıq və həmin məhsulların 9-10 faizi Azərbaycana qalırdı. Mən məsələnin həlli üçün o zaman N.Xruşşova müraciət etdim və o mənim təklifimi rədd edərək: "Nədir, yoldaş Mustafayev, Rusiya kəndlisi ac-yoxsul vəziyyətdə yaşadığı halda, siz istəyirsiniz Azərbaycanda yağ-bal içində üzsünlər? - "deyə cavab vermişdi".[36]

İctimai-siyasi ab-havanın mülayimləşməsi şəraitində respublikada Azərbaycan dilinin rəsmi dövlət dili statusunun təmin olunmasına təşəbbüs edildi.

Bu məsələnin mətbuatda açıq müzakirəsi keçirildi. 1956-cı ildə Azərbaycan SSR Ali Soveti 1937-ci ildə qəbul edilmiş Konstitusiyaya respublikada dövlət dilinin Azərbaycan dili olması barədə maddə əlavə etdi.[37]

Rəsmi sənədlərin, kargüzarlıq işlərinin Azərbaycan dilində aparılması üçün konkret tədbirlər görüldü. Elmi işçilərin, aspirantların sayı xeyli çoxaldı. 1957-1959-cu illərdə "İncəsənət" almanaxı, 1958-ci ildən Azərbaycan və rus dillərində "Bakı" axşam qəzeti, uşaqlar üçün "Göyərçin" jurnalı çap olunmağa başlandı. 1956-cı ildə Bakı telestudiyası işə düşdü.

Azərbaycan xalqının milli şüurunun, özünü dərindən dərketmə ruhunun oyanması, ədəbiyyatda da, incəsənət aləmində də yaradıcılıq, əsl insan azadlığı iqliminin təşəkkülü görünürdü. İctimai hadisələri tənqidi təhlilə çağıran cəsarətli mövzular meydana çıxırdı. Bəxtiyar Vahabzadənin "Gülüstan", Rəsul Rzanın "Qızılgül olmayaydı" poemaları bu illərin məhsulu idi.

Stalinin şəxsiyyətinə pərəstişin aradan götürülməsi ilə həqiqətən sovet ölkəsinin ictimai-siyasi həyatında mülayimləşmə başlanmışdı. Ölkədə yeni kütləvi tədbirlər, islahatlar, partiya və cəmiyyətdə nüfuz qazanmaq məqsədi daşıyan dəyişikliklər başladı. Partokratik inzibati-amirlik üsuli-idarəsinin ictimai tərəqqiyə əngəl olan, köhnə siyasi bürokratiya sisteminin ifrat cəhətlərini, partiya-təsərrüfat fəallarına qarşı repressiyanı, cəmiyyətdəki vahiməni aradan qaldırmağa cəhdlər göstərilməli idi. Mövcud siyasi sistemin qüsurları, əsasən Stalinin şəxsiyyətinə pərəstişin nəticəsi partiya həyatında "Lenin prinsipləri"nin pozulması kimi qələmə verildi. Sov.İKP XX qurultayında (1956, fevral) sosialist demokratiyasını dərinləşdirməklə sistemi, kollektiv rəhbərliyi, partiyadaxili demokratiyanı, xalqla əlaqəni genişləndirmək tədbirləri müəyyən olundu. Partiyanın Mərkəzi Komitəsi "Şəxsiyyətə pərəstiş və onun nəticələrini aradan qaldırmaq haqqında" (1956, 30 iyun) qərar qəbul etdi. Stalinizm, şəxsiyyətə pərəstiş tənqid olundu, onun təzahürləri göstərildi, lakin bu hadisəni törədən səbəblər, mövcud rejim üçün əlverişli olmadığından, tam açıqlanmadı. Faktiki cəhətdən partiya nəzarətindən çıxmış və siyasi sistemə həddindən çox təzyiq gücünə malik olan Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik və başqa güc orqanları nəzarət altına alındı. Bu orqanlar, habelə partiya aparatı 1953-cü ilin iyun ayında hakimiyyət uğrunda daha çevik hərəkət edən Xruşşovun səyi ilə vəzifəpərəstlikdə, millətçilikdə, xarici kəşfiyyatla əlaqədə təqsirləndirilib həbs edilmiş L.P.Beriyanın əlaltılarından təmizləndi. Azərbaycanda güc orqanlarına rəhbərlik etmiş Y.D.Sumbatov-Topuridze, X.Qriqoryan, T.Borşov, S.Yemelyanov, A.Atakişiyev, K.Markaryan da öz qanlı əməllərinə görə 1956-cı ilin aprelində güllələnməyə məhkum olundular.

Repressiya illərində cəzaya məruz qalanların işlərinə yenidən baxılması üçün komissiyalar təşkil olundu. Bəraətvermə prosesi başlandı. Bu proses repressiyalarda ən ümdə, stalinizmi təqsirləndirmək, hakim partiyanı, sovet siyasi

sisteminin nüfuzunu qorumaq, ona xalqın inamının itməməsinin qarşısını almaq məqsədilə siyasi kampaniya kimi planlaşdırılmışdı. Buna baxmayaraq, bəraətverme prosesi əslində humanist bir proses idi.

SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası, Azərbaycan SSRİ Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyası cəzaya məruz qalanların əksəriyyətinə bəraət verdi. Minlərlə azərbaycanlının üzərindən "xalq düşməni" damğası götürüldü. Onların ailələrinin, övladlarının məruz qaldığı təqiblərə son qoyuldu, hüquqları bərpa edildi. 1956-cı ilin ortalarından yüzlərlə dövlət, ədəbiyyat və incəsənət xadiminə, o cümlədən S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə, R.Axundov, Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Yusif Vəzir Çəmənzəminliyə və başqalarına bəraət verildi. Azərbaycan xalqının tarixi, dili, folkloru və etnoqrafiyası baxımından çox qiymətli monumental dastanı "Kitabi-Dədə Qorqud" və "həbs olunmuş" yazılı abidələr, əsərlər azad edildi, bəraət almış şair və yazıçıların əsərləri yenidən çap olundu.

Bununla belə, minlərlə siyasi mübarizə, günahsız qurbana, habelə 20-30-cu illərdə apardığı istiqlal mübarizəsi üstə təqib olunaraq xaricə getməyə məcbur olmuş mühacirlərə bəraət verilmədi. Tarixi keçmişimizdən, türk xalqları birliyindən bəhs edən bir çox əsərlər üzərindən qadağalar götürülmədi. Hüseyn Cavidin "Topal Teymur", "Peyğəmbər" pyesləri yenə də qəsdən "unuduldu". Azərbaycan tarixinin obyektiv şəkildə öyrənilməsinə cəhdlər mərkəz tərəfindən qısqanclıqla qarşılanırdı. Hətta Sov.İKP MK yanında Marksizm-Leninizm İnstitutunun təsdiq etdiyi "Azərbaycan KP tarixinin oçerkləri" əvəzinə "Azərbaycan Kommunist Partiyası tarixi"nin (iki cilddə) yazılması haqqında bu institutun AKP MK yanındakı filialı alimlərinin təşəbbüsünü Sov.İKP MK katibi M.A.Suslov "millətçilik" təzahürü kimi qiymətləndirmişdi, Bakıya böyük bir komissiya göndərilmişdi.

1959-cu ilin oktyabrında AKP MK xüsusi qərarla "partiya tarixi ədəbiyyatında buraxılan səhvlərin" aradan qaldırılmasını tələb etmişdi.

Respublikanın ictimai-siyasi həyatında mövcud siyasi sistemin əsas prinsiplərinə - təkpartiyalılığa, Kommunist partiyasının bütün siyasi təşkilatlar, dövlət üzərində amirliyinə toxunmadan ictimai təşkilatların, xalq hakimiyyəti orqanlarının fəaliyyətini nisbətən canlandırmaq üçün şərait yaradıldı. Bəzi operativ məsələlərdə idarəçilik mərkəzdən yerlərə keçirildi. Yerli sovetlər iriləşdirildi. Kənd sovetlərinin sayı azaldıldı. 1955-ci il seçkilərində deputatların sayı artırılıb, kənd və qəsəbə sovetlərində 9-dan 15-ə, rayon sovetlərində 25-dən 35-ə çatdırıldı. Deputatların ümumi sayı 3 min nəfər çoxaldı. Sovetlərin daimi komissiyaları 6 minə çatdırıldı. Onların işinə 33 min nəfərdən çox deputat - fəal cəlb edildi.[38] Lakin yenə də partiyanın sovetlər üzərində qəyyumluğu saxlandığı, istər ali, istərsə də yerli sovetlərə seçkilər əvvəlki prinsiplərlə keçirildiyi, deputat korpusunun

əsasən mövcud siyasi sistemə, liderlərə arxa ola biləcək müti, icraçı, səriştəsiz adamlardan formalaşdığı üçün bütün pillələrdən olan hakimiyyət orqanlarının fəaliyyəti əvvəlki kimi formal xarakter daşıyırdı. Elə bu səbəbdən Sov.İKP MK-nın "Zəhmətkeş deputatları sovetləri fəaliyyətini yaxşılaşdırmaq və onların kütlələrlə əlaqəsini möhkəmləndirmək haqqında" 1957-ci il 22 yanvar qərarı[39] ilə əlaqədar yerli sovetlərin təsərrüfat və mədəni quruculuq məsələlərinin həllində iştirakı, seçicilərlə əlaqələri fəallaşdı.

Azərbaycan SSR Ali Sovetinin səlahiyyət dairəsi nisbətən genişləndi. 1956-cı ildə Ali Sovetin sənaye, kənd təsərrüfatı, mədəni-maarif, səhiyyə və ictimai təminat, tikinti və abadlıq komissiyaları yaradıldı. Məhkəmə quruculuğu məsələləri, mülki və cinayət məcəllələrinin qəbulu respublikaların öz ixtiyarına verildi. Rayon, şəhər, kənd və qəsəbə zəhmətkeş deputatları Sovetləri haqqında yeni əsasnamələr qəbul edildi, onların hüquqları artdı.[40]

50-ci illərin ortalarında partiya sıralarında 110 minədək üzv birləşmişdi.[41] Həmkarlar ittifaqı, komsomol təşkilatları, onların seçkili orqanları yenə partiyanın ciddi nəzarəti altında fəaliyyət göstərirdi. Həmkarlar ittifaqlarına bəzi yeni hüquqlar verilmişdi. Onlar 1958-ci ildən fəhlə və qulluqçuların əmək və məişət şəraitini yaxşılaşdırmaq tədbirlərində, təsərrüfat planlarının hazırlanması işində iştirak etmək, idarə rəhbərini dəyişdirmək məsələsini qaldırmaq, əmək mübahisələrinin həllində qəti qərar vermək, əmək mühafizəsi və sığorta işlərini, 1960-cı ildən isə həm də sanatoriya və istirahət evlərini idarə etmək hüququ aldılar. Lakin 600 minə qədər (1960-cı il) fəhlə və qulluqçunun üzv olduğu bu təşkilat xalqın mənafeyinin həqiqi müdafiəçisinə çevrilə bilmədi. Sıralarında 333 min (1960-cı il) oğlan və qızı birləşdirən komsomol təşkilatları da partiyanın diktəsi altında işləyirdi.[42]

Respublikada qadınlar şurası, könüllü xalq drujinaları, məhəllə, valideyn komitələri, yoldaşlıq məhkəmələri kimi ictimai təşkilatlar fəaliyyət göstərirdilər. 1957-ci il martın 27-də Azərbaycan qadınlarının II qurultayı keçirilmişdi. Qurultay ictimai-siyasi və təsərrüfat həyatında qadınların rolunu daha da canlandırmaq üçün tədbirlər müəyyən etmişdi.[43]

50-ci illərin ortalarında siyasi ab-havanın nisbətən yumşalması ilə əlaqədar müttəfiq respublikalarda, o cümlədən Azərbaycan SSR-də milli dirçəliş meyilləri mərkəzdə kök salmış şovinizmi çox narahat etmiş, onlara qarşı ciddi müqavimət göstərilmişdi. 1956-cı ilin oktyabr-noyabr aylarında Macarıstanda baş vermiş antisovet qiyamı da buna təsir göstərmişdi. N.S.Xruşşov hakimiyyətdə möhkəmləndikdən, xüsusən Sov.İKP MK-nın 1957-ci il İyun plenumunda siyasi rəqiblərini məğlub edib partiyadan və rəhbər vəzifələrdən uzaqlaşdırdıqdan, orduda və Dövlət Təhlükəsizlik Komitəsində rəhbərliyi təzələdikdən sonra partiya və

cəmiyyət üzərində şəxsi amirliyini gücləndirdi. Xruşşov "volyuntarizmi" dövrü başlandı.

Milli oyanış əlamətləri hiss edilən respublikaların, o cümlədən Azərbaycanın rəhbərliyinə qarşı təqiblər başlandı. Mərkəz xalqı qorxutmaq, özünə tabe saxlamaq üçün növbəti dəfə Dağlıq Qarabağ məsələsini ortaya atdı. Ermənistan SSR və Azərbaycan SSR-in DQMV erməni əhalisi Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə başladı. Ermənistanda antitürk əhvali-ruhiyyəsi yenidən qızışdırıldı. Yerevan Pedaqoji İnstitutunun əyani və qiyabi Azərbaycan bölmələri bağlandı. Yerevan Azərbaycan Pedaqoji Texnikumu Azərbaycanın Xanlar rayonuna köçürüldü. C.Cabbarlı adına Dram Teatrı, Azərbaycan dilində çıxan rayon qəzetləri və b. nəşrlər bağlandı. Ermənistanda "Qarabağ hərəkatı" xeyli leqallaşdırıldı. 1958-ci ildə erməni katolikosu II Vazgen Bakıya səfəri zamanı respublika Nazirlər Sovetinin Sədrinə Dağlıq Qarabağın Ermənistana verilməsini, Bakıda erməni ruhani seminariyasının açılmasını, hər səhər şəhərin mərkəzində yerləşən erməni kilsəsinin zəng vurmasına icazə verilməsini təklif etmiş, lakin rədd cavabı almışdı. Ermənilərin Moskvada güclü arxası olduğunu bilən, özlərinin təkləndiyini hiss edən azərbaycanlılar həyəcan içində idi. Lakin mərkəz sərhəd dəyişikliklərinin mübahisəli ərazilər olan digər respublikalarda arzuedilməz reaksiyalar doğuracağından çəkinərək, Azərbaycanda məkrli siyasətindən çəkindi.

Azərbaycan SSR rəhbərliyi millətçilik siyasəti həyata keçirməkdə təqsirləndirildi. Sov.İKP MK Azərbaycanda partiya təşkilatının işini yoxlamaq üçün Bakıya 26 nəfərdən ibarət komissiya göndərdi. Həmin günlərdə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyünə respublikanın "millətçi" rəhbərləri dəvət edilmədi.

Sov.İKP MK-nın 1959-cu il iyunun 24-29-da keçirilən plenumu heç bir əsas olmadan, qondarma ittihamlarla Azərbaycan SSR rəhbərliyini ciddi tənqid etdi. Azərbaycan KP MK-nın 1959-cu ilin iyulunda keçirilən XI plenumunda İ.D.Mustafayev vəzifəsindən azad edildi. V.Y.Axundov Azərbaycan KP MK-nın birinci katibi seçildi. **Vəli Yusif oğlu Axundov** (14.05.1916-1986) Bakıda anadan olub. Tibb alimi olaraq Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1969) seçilmişdi. O, tibb işçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri (1946-1949), Azərbaycan SSR səhiyyə nazirinin müavini (1949-1952), AKP-də şöbə müdirinin müavini (1953-1954), Azərbaycan SSR səhiyyə naziri (1954-1958), AKP MK katibi (1958), Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1958-1959) işləmişdi.

Uğursuz islahatlar, Sov.İKP XXII (1961, oktyabr) qurultayında elan etdiyi yaxın gələcəkdə SSRİ-də kommunizm qurulacağı haqqında utopik ideyalar N.S.Xruşşovu cəmiyyətdə və partiyada hörmətdən salmışdı. Partiya elitasında ona

qarşı müxalifət formalaşırdı. 1961-ci ildə qəbul olunmuş nizamnaməyə görə, partiyanın seçkili orqanlarına bir nəfərin dalbadal iki dəfədən çox seçilməsini qadağan edən maddə daxil edilməsi də rəhbər partiya vəzifəlilərinin ona qarşı birləşməsinə səbəb olmuşdu. Hakimiyyəti əldə saxlamaq üçün Xruşşov partiyanı parçalamaq, siyasi məsələlərin həllində təşkilatların birgə fəaliyyətini məhdudlaşdırmaq, onların diqqətini təsərrüfat məsələlərinə, islahatlara operativ rəhbərliyə yönəltmək istədi. Sov. İKP MK-nın 1962-ci il Noyabr plenumu rəhbər partiya orqanlarının istehsalat prinsipi üzrə yenidən təşkil edilməsini qərara aldı. Mərkəzi komitələrdə iki büro - sənaye, tikintiyə və kənd təsərrüfatına rəhbərlik üzrə bürolar yarandı. Azərbaycanda da AKP MK-ya bilavasitə tabe olan sənaye-istehsal, kolxoz-sovxoz istehsalat idarələri, şəhər, dağlıq rayon partiya komitələri təşkil olundu. Başqa ictimai təşkilatlar da bu prinsip üzrə yenidən quruldu. Xruşşov partiya və dövlət nəzarətini birləşdirməkdə partiyanın nəzarət funksiyasını da xeyli zəiflətdi. Lakin onun xüsusən 1958-ci ildən, SSRİ Nazirlər Sovetinin sədri olduqdan sonra xeyli intensivləşən partiya aparatını zəiflətmək cəhdlərindən narazı qalan ali partiya və təsərrüfat rəhbərləri birləşdilər. Sov.İKP MK-nın 1964-cü il 14 Oktyabr plenumunda N.S.Xruşşov vəzifəsindən kənar edildi. L.İ.Brejnev Sov. İKP MK-nın birinci (1966-cı ildən Baş) katibi seçildi.

60-cı illərin ortalarında partiya, onunla birlikdə sovet, həmkarlar ittifaqları və komsomol orqanları təşkilatca yenidən ərazi prinsipi üzrə quruldu. Sov.İKP və respublika KP Mərkəzi Komitələrində bürolar birləşdirildi, kənd, rayon partiya komitələri bərpa olundu. İqtisadiyyata partiya rəhbərliyi gücləndirildi.

Milli dəyərlərə diqqət artdı. Bu işdə 1966-1967-ci illərdə AKP MK katibi vəzifəsində işləmiş Şıxəli Qurbanovun və onun həmfikirlərinin önəmli xidməti olmuşdu. 1966-cı ildə İranda yaşayan böyük Azərbaycan şairi Seyid Məhəmməd Hüseyn Şəhriyarın "Heydərbabaya salam" poeması Bakıda çap olundu. Mütərəqqi fikirli yaradıcı gənclər üçün 1967-ci ildə "Ulduz" jurnalının nəşrinə başlandı. Novruz bayramı "Bahar bayramı" adı ilə rəsmi şəkildə qeyd edildi. Ədəbiyyatda yeni milli motivlər, tənqidi ruh qüvvətləndi.

Milli-azadlıq uğrunda mübariz nəsil yetişməkdə idi. 60-cı illərin əvvəllərində Azərbaycan Dövlət Universitetinin azadfikirli tələbələrindən bir qrupu Əbülfəz Əliyevin rəhbərliyi ilə gizli siyasi mübarizəyə başlamışdılar. Onlar gizli özək təşkil edərək, üçlük qruplar yaradır və tələbə gəncləri azadlıq uğrunda mübariz ruhda tərbiyələndirməyə çalışırdılar.[44]

1962-ci il dekabrın 17-də 95 nəfərin iştirak etdiyi gizli yığıncaqda "Milli Azərbaycan Qərargahı" (MAQ) təşkil olundu. Onun sədri Oqtay Rəfili, sədr müavini Xudu Məmmədov seçildi. MAQ-ın rayonlarda şöbələri yaradıldı. Təşkilat üzvlərinin əksəriyyəti vəzifəli şəxslər idi. Başlıca məqsəd rəhbər vəzifələrdə azərbaycanlıların olmasına, respublika büdcəsinə ayırmaların Moskvada deyil,

Bakıda həll olunmasına çalışmaq, milli oyanışa xidmət etmək idi. MAQ-çılar bir neçə mühüm vəzifəyə azərbaycanlı kadrların təyin edilməsinə nail oldular.

1964-cü ilin yazında Azərbaycanın Rusiyanın tərkibinə "daxil olması"nın 150 illiyi "bayram" edildi, bu, geniş ictimai-siyasi kampaniyaya çevrildi.

Azərbaycan tarixçilərindən bu "bayramın" keçirilməsinə zidd çıxanlar da oldu. 1969-cu ilin martında Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin elmi şurasında çıxış edən tarixçi alimlər Z.M.Bünyadov, M.Ə.İsmayılov və Süleyman Əliyarov qeyd etdilər ki Azərbaycan XIX əsrin əvvəllərində Rusiyaya birləşməmişdir, onu çar Rusiyası zəbt etmişdir. Bu çıxışa görə onlar müəyyən müddət təqibə məruz qaldılar. Şair və yazıçıların, alimlərin çoxu öz əsərlərində "sətiraltı" fikirlər söyləməkdən uzağa getmirdilər. Lakin bu da təsirsiz qalmırdı. Bununla belə, Rusiya və başqa müttəfiq respublikalardakı kimi, Azərbaycanda dissident hərəkatı geniş inkişaf etməmişdi. O vaxt Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində rəhbər vəzifələrdə çalışan, 1964-cü ildən bu komitənin sədr müavini, 1967-ci ildən isə sədri olmuş Heydər Əliyevin Azərbaycanın milli düşüncəli vətənpərvər ziyalılarının müdafiəsində mühüm xidmətləri olmuşdur.

60-cı illərin ortalarında Ermənistan SSR-də növbəti dəfə antiazərbaycanlı hərəkat qızışdı. 1965-ci il aprelin 23-də uydurma "erməni genosidi"nin 50 illiyi, cəllad Andronikin isə 100 illiyi Ermənistanda geniş qeyd edildi və bu da burada ata-baba torpaqlarında yaşayan azərbaycanlıların daha da sıxışdırılmasına yeni, güclü təkan verdi. DQMV-də erməni millətçiliyi açıq surətdə dərin kök salırdı. Azərbaycanlılar burada - öz torpaqlarında sıxışdırılırdı. Vilayətin azərbaycanlılar yaşayan məntəqələrinə kömək etmək məqsədilə 1967-ci ildə ayrılan vəsaitin Bakıda DQMV-nin rayonları üzrə konkret tələblər üzrə bölünüb təsdiq olunması cəhdinə erməni lobbisi ciddi müqavimət göstərdi. Həmin il Stepanakertdə bir neçə azərbaycanlı qətlə yetirildi. Mərkəzin təzyiqi ilə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1969 -cu il 7 may tarixli qərarı ilə sərhəd rayonlarında 2 min hektardan çox Azərbaycan torpağının Ermənistana verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul olunmuş qərarı təsdiq etdi. Lakin az sonra Azərbaycan rəhbərliyinə gəlmiş Heydər Əliyev bu qərarın icrasına yol vermədi.[46]

III FƏSİL

# MƏDƏNİYYƏT QURUCULUĞU

*(1945-1960-ci illər)*

## §1. TƏHSİL

Müharibədən sonra Azərbaycanın xalq maarifi şəbəkəsinin tədris-maddi bazasını möhkəmləndirmək, məktəbləri pedaqoji kadrlarla təmin etmək, təlim və tərbiyə sistemini yaxşılaşdırmaq, tədrisin səviyyəsini yüksəltmək üçün əməli tədbirlər həyata keçirildi.

1946-cı ilin avqustunda Azərbaycan müəllimlərinin III qurultayı yeni dövrün tələblərinə uyğun xalq maarifinin vəzifələrini konkretləşdirdi.[1]

Tədris-tərbiyə müəssisələrinin şəbəkəsi tədriclə genişlənir, şagirdlərin sayı artırdı. 1946-1970-ci illərdə respublikanın şəhər və kəndlərində dövlət və kolxozların vəsaiti ilə 444 min yerlik 169 ümumtəhsil məktəbi binası, 74 min yerlik məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verildi.

1950-1951-ci dərs ilində respublikada 4233, 1970-1971-ci dərs ilində isə artıq 5115 ümumtəhsil məktəbi vardı. Bu məktəblərdə 40-cı illərin sonlarında 660 min, 60-cı illərin sonlarında isə 1444 minə qədər şagird təhsil alırdı.[2]

Gənclərin və yaşlıların istehsalatdan ayrılmadan təhsil alması üçün 1970-1971-ci dərs ilində 772 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 60-cı illərin axırlarında 88 mindən çox istehsalatçı təhsilini artırırdı.[3]

Ümumtəhsil məktəblərində 1970-ci ildə artıq 73,4 min müəllim gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olurdu.[4] Respublikada məktəbəqədər və məktəbdənkənar uşaq müəssisələri şəbəkəsi genişlənmişdi. 1970-ci ildə isə artıq 111 min uşağı əhatə edən 1600 məktəbəqədər uşaq müəssisəsi fəaliyyət göstərirdi.[5] 172 məktəbdənkənar uşaq müəssisəsi, pioner və məktəblilər sarayı, gənc texniklər, təbiət stansiyaları, park və idman məktəbləri vardı.[6]

Respublika və Bakı müəllimləri təkmilləşdirmə institutlarında müəllim kadrları elmi və metodik cəhətdən öz səviyyələrini yüksəldirdilər.

Təlimin məzmununa dəyişikliklər edildi. 1948-ci ildən başlayaraq VIII-X siniflərdə ana dilinin tədrisinə həftədə bir saat əlavə vaxt ayrıldı. Xarici dillər üzrə saatların miqdarı artırıldı. Ədəbiyyat üzrə proqramda dəyişikliklər aparıldı; rus klassik və sovet ədəbiyyatına, SSRİ xalqları ədəbiyyatına, xalq demokratiyası ölkələrinin ədəbiyyatına, habelə Qərbi Avropa ölkələri ədəbiyyatının böyük şəxsiyyətlərinə müəyyən yer verildi. Digər fənlərə dair proqram və dərsliklər də

əsaslı surətdə yenidən tərtib olundu. 1958-1959-cu dərs ilindən orta məktəblərdə "Azərbaycan tarixi" (40 saat) "SSRİ tarixi" içərisində tədris olunmağa başlandı. 1960-cı ildən orta məktəblərin tədris planına "İctimaiyyət" fənni əlavə olundu.

Respublikanın milli məktəblərində rus dili və ədəbiyyatının tədrisinə ciddi fikir verilir, rus dili müəllimlərinin hazırlanması genişləndirildi, II-X siniflərdə rus dili və ədəbiyyatının tədrisinə tədris planlarında həftədə 5-6 saat ayrıldı. Müəllimlərə kömək məqsədilə 1947-ci ildən "Rus dili qeyri-rus məktəbində" adlı aylıq metodiki külliyyat nəşr olunmağa başlandı.

1949-cu ildən ümumi yeddiillik təhsilə keçid başlandı. 50-ci illərdə Azərbaycan xalq təhsili öz inkişafının yeni mərhələsinə daxil oldu, 1959-cu ildən icbari səkkizillik təhsil tətbiq olundu, orta məktəblərin şəbəkəsi genişləndi, şagirdlərin sayı artıb 1954-cü ildə müharibədən əvvəlki səviyyəni ötüb keçdi. Bakı, Gəncə, Xankəndi və Naxçıvan şəhərlərində orta məktəb həcmində ümumi təhsil həyata keçirildi. 1966-cı ildən orta təhsil - ümumtəhsil elan olundu. Ümumtəhsil məktəblərinin yeni forması - "İnternat məktəb"in meydana çıxması məktəb sisteminin həyatında mühüm hadisə oldu.

Politexnik təlimə diqqət artırıldı. Məktəblərin nəzdində tədris emalatxanaları yaratmağa başladılar. Bu işdə şəhərlərin, xüsusən, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin sənaye müəssisələri, kənddə isə sovxoz MTS-lər mühüm rol oynadı. Kənd məktəblərinin və bəzi şəhər məktəblərinin nəzdində tədris-təcrübə sahələri yaradıldı. Kənd məktəblərində kolxoz və sovxozların yanında şagird istehsalat briqadaları təşkil olundu. Ümumtəhsil məktəblərində politexnik təlimin inkişafı məqsədilə tədbirlər həyata keçirildi.[7] 1956-1958-ci illərdə Azərbaycanın 70 şəhər məktəbində istehsalat təlimi tətbiq olundu.[8] Bunun sayəsində həmin illərdə 5 min şagird çilingər, tornaçı və digər kütləvi fəhlə ixtisaslarına yiyələndi.[9]

Kənd məktəblərində Stavropol diyarının təcrübəsi üzrə şagird istehsalat briqadaları yaradılırdı. VIII-X sinif şagirdləri kənd təsərrüfatı istehsalının əsasları və mexanikləşdirilməsi, müxtəlif kənd təsərrüfatı bitkilərinin yetişdirilməsi üsulları ilə tanış olur, əmək vərdişlərinə yiyələnirdilər.[10]

Şagirdlərin əməyə hazırlanmasında və istehsalat üzrə ixtisaslarının artırılmasında 1958-ci ilin martında Azərbaycan SSR Ali Sovetinin məktəbin həyatla əlaqəsini möhkəmləndirmək haqqında qəbul etdiyi qanun mühüm rol oynadı. 1959-cu ilin sentyabrından Azərbaycanda da yeddiillik məktəblər səkkizillik məktəblərə, onilliklər isə istehsalat təlimli onbirillik orta məktəblərə çevrildilər. Təlim-tərbiyə işi sahəsində də yenidənqurma başlandı, şagirdlərdə müstəqil işləmək vərdişlərinin inkişafına daha çox diqqət yetirildi. Lakin maddi baza zəif olduğundan çox vaxt istehsalat təlimi dərsləri boş keçir, lazımi səmərə vermirdi. Buna görə də 1966-cı ildən ümumi orta təhsilə keçidlə əlaqədar yuxarı siniflərin istehsalat təlimi dərsi ləğv edildi. Bununla əlaqədar texniki-peşə

məktəblərinin sayı artırıldı. Əgər 1966-cı ildə respublikada 46 (1951-ci ildə 30 idi) texniki-peşə məktəbi vardısa, 1970-ci ildə onların sayı 78-ə çatmışdı. Bu məktəblərdə 1970-ci ildə 40 min şagird müxtəlif peşələrə yiyələnmişdi.[11]

Şagirdlər arasında müxtəlif tərbiyəvi tədbirlərin həyata keçirilməsində komsomol təşkilatları müəyyən kömək göstərirdilər. Pioner yaşlı bütün məktəblilər pioner dəstələrinə cəlb olunmuşdular.

Müharibədən sonrakı illərdə ali təhsil daha da inkişaf etdi -1945-ci ildə Teatr İnstitutu (1968-ci ildən İncəsənət İnstitutu adlandı),[12] 1947-ci ildə V.İ.Lenin adına APİ-nin xarici dillər fakültəsi bazasında Xarici Dillər İnstitutu,[13] 1950-ci ildə Politexnik İnstitutu yaradıldı.[14] Fəaliyyətini 1941-ci ildə dayandırmış Xalq Təsərrüfatı İnstitutu 1951-ci ildə bərpa olundu. 1952-ci ildə Rus dili və Ədəbiyyatı İnstitutu təşkil edildi. İnstitut 1959-cu ildə Xarici Dillər İnstitutuna birləşdirildi. 1945-46-cı tədris ilində respublikada 17 ali təhsil müəssisəsi olduğu halda, 1950-51-ci dərs ilində onların sayı 20-yə çatdı.[15]

1945-46-cı dərs ilində S.M.Kirov adına ADU-nun filologiya fakültəsində jurnalistika şöbəsi, tarix fakültəsində isə fəlsəfə şöbəsi təşkil edildi.[16] Sonra şərqşünaslıq fakültəsi yarandı. 1947-1948-ci dərs ilinin əvvəlində filologiya fakültəsinin nəzdində məntiq və psixologiya şöbəsi açıldı. Universitet respublikanın ən iri təhsil mərkəzinə çevrildi, orada 1945-ci il iyulun 1-dən 1950-ci il iyulun 1-dək gündüz şöbələrində təhsil alan tələbələrin sayı 1212 nəfərdən 2565 nəfərə çatdı, yəni iki dəfədən çox artdı.[17]

1948-ci il sentyabrın 1-də V.İ.Lenin adına APİ-nin dil və ədəbiyyat fakültəsinin rus bölməsi bazasında rus dili və ədəbiyyatı fakültəsi yaradıldı. 1950-ci ildə institutun coğrafiya fakültəsi nəzdində bədən tərbiyəsi və idman şöbəsi təşkil edildi.[18]

Ali məktəblərin tədris-maddi bazası ildən-ilə möhkəmlənir, onların müharibə illərində hospital və başqa idarələr üçün verilmiş binaları, tələbə ümumi yataqxanaları azad edilirdi. Tibb, pedaqoji və politexnik institutları üçün yeni binalar tikilirdi.

Respublikanın ali təhsil müəssisələrində təhsil alan tələbələrin sayı 1945-1946-cı dərs ilindəki 19,6 min nəfərdən 1950-1951-ci dərs ilində 28,6 min nəfərə çatmışdı.[19] Tələbələrin 68,1%-ni azərbaycanlılar təşkil edirdi.[20] Bundan başqa, yüzlərlə azərbaycanlı tələbə Sovet İttifaqının başqa şəhərlərində təhsil alırdı. 1950-ci ildə təkcə Moskva və Leninqradın ali məktəblərində 800-dən artıq azərbaycanlı oğlan və qız təhsil alırdı.[21]

Ali təhsilli mütəxəssislər hazırlamaq işini yaxşılaşdırmaq məqsədilə bəzi ali məktəblər yenidən təşkil olunurdu. Tələbələr arasında təhsilə qədər bilavasitə maddi istehsal sahəsində məşğul olanların da sayı artırdı. 1970-1971-ci dərs ilində ali məktəblərdə istehsalatdan ayrılmadan 53 min tələbə təhsil alırdı. Professor-

müəllimlərin sayı 1950-ci ildəki 2000 nəfərdən, 1970-ci ildə 5000 nəfərə çatmışdı. 1970-ci ildə tələbələrin təlim-tərbiyəsi ilə 500-dən çox akademik, professor, 1140-dan çox dosent məşğul olurdu.[22]

1969-cu ildən ali məktəblərin yanında fəhlə, kolxozçu və ordudan tərxis edilənlər üçün hazırlıq şöbələri təşkil olunmuşdu.

Orta ixtisas təhsilli müəssisələrin də sayı artmışdı. Sənaye, tikinti, nəqliyyat və kənd təsərrüfatı üçün mütəxəssislər hazırlanmasına xüsusi diqqət yetirilirdi. 1970-1971-ci dərs ilində respublikada 71-ə qədər tələbənin təhsil aldığı 79 orta ixtisas məktəbi fəaliyyət göstərirdi.[23]

Təhsilin inkişafı əhalinin mədəni səviyyəsinin yüksəlməsinə səbəb olmuşdu. 1959-cu ildə yaşı 10-dan yuxarı olan hər 1000 nəfərdən 400-nün, 1970-ci ildə isə 471-nin ali və orta təhsili vardı.[24] Xalq təsərrüfatında ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı 274 minə çatmışdı.[25]

## §2. MƏDƏNİ-MAARİF. MƏTBUAT

Müharibədən sonrakı illərdə Azərbaycanda müharibə zamanı azalmış mədəni-maarif müəssisələrinin şəbəkəsi daha da genişlənmişdi - kütləvi kitabxanaların sayı 1946-cı ildəki 815-dən 1970-ci ildə 2922-yə (o cümlədən 2375-i kənd yerlərində), klub müəssisələrinin sayı isə müvafiq olaraq 1711-dən 2146-ya (o cümlədən 1770-i kənd yerlərində) çatmışdı. Həmin illərdə kitabxanaların kitab fondu 2,6 mln nüsxədən 22,9 mln nüsxəyə qədər çoxalmışdı.[26] Kitabxana oxucularının sayı və kitab verilməsi ildən-ilə artırdı. 1946-cı ildən 1950-ci ilə qədər Azərbaycan mədəni-maarif müəssisələri komitəsi sistemində kütləvi kitabxanalarda oxucuların sayı 1271 min nəfərdən 364,4 min nəfərə çatmışdı.[27]

1970-ci ildə Mədəniyyət Nazirliyinin kütləvi kitabxanalarından 1,6 milyondan çox oxucu istifadə etmişdi.[28]

Mədəni-maarif işinin ən kütləvi vasitələrindən biri kino idi. Respublikada kino qurğularının sayı 1946-cı ildəki 252-dən (kənddə 105-dən) 1970-ci ildə 2004-ə (kənddə 1356-ya) qədər artmışdı.[29]

Mədəni-maarifin inkişafında 1947-ci ildə yaradılmış Azərbaycan Siyasi və Elmi Bilikləri Yayan Cəmiyyət iki ilə öz sıralarında 2,2 min ziyalını və istehsalat qabaqcılını birləşdirirdi.[30]

1970-ci ildə əhali arasında mədəni-maarif işi aparan 27 muzey var idi.[31]

1946-cı ildə Nizami adına Ədəbiyyat Tarixi Muzeyi açıldı. 1955-ci ildə V.İ.Lenin Mərkəzi Muzeyin Bakı filialı yaradıldı. 1958-ci ildə Şəkidə yeni Tarix-Diyarşünaslıq Muzeyi, 1959-cu ildə Xızıda C.Cabbarlının, Şuşada Ü.Hacıbəyovun Ev-muzeyləri, 1964-cü ildə Bakıda "Qız qalası" Muzeyi açıldı. Muzeylərə gələnlərin sayı da xeyli artmışdı. 1960-cı ildə muzeylərə gələnlərin sayı 1206,3

min nəfərə çatmışdı.[33] Bakıda Azərbaycan Tarixi Muzeyi, R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi fəaliyyət göstərirdi. Muzey daxilində keçirilən elmi-kütləvi iş, habelə muzeylərin təşkil etdikləri ekskursiyalar, səyyar sərgilər, müharibə veteranları və əmək qəhrəmanları ilə görüşlər əhali arasında rəğbətlə qarşılanırdı. Muzeylərə gələnlərin sayı 1970-ci ildə 1,1 mln nəfərə çatmışdı.[34]

Bununla belə, mədəni-maarif idarələrinin fəaliyyəti formalizm və siyasi rəsmiyyətçilikdən zərər çəkirdi. Xalq kütlələrinin tərbiyəsi üçün bu müəssisələrin şəbəkəsindən kifayət qədər istifadə olunmurdu.

1959-cu ildə Azərbaycanda ilk xalq universiteti meydana çıxdı. 1961-ci ildə onların sayı 76 oldu. 1970-ci ildə artıq 237 xalq universiteti fəaliyyət göstərirdi.[35]

Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəallığının artmasında mətbuat əhəmiyyətli rol oynayırdı.

1946-cı ildə Azərbaycanda 87 qəzet çıxırdı, 1970-ci ildə isə onların sayı 118-ə (o cümlədən 93-ü Azərbaycan dilində) çatmışdı.[36] 1946-cı ildən komsomolun "Azərbaycan gəncləri" və "Molodyoj Azerbaydjana", 1958-ci ildən "Bakı", 1963-cü ildən "Baku" (rus dilində) qəzetləri nəşr olunur. 1946-cı ildən "Müəllim" qəzeti, 1953-cü ildən "Ədəbiyyat" qəzeti, "Azərbaycan müəllimi", "Ədəbiyyat və İncəsənət", "Azərbaycan kənd təsərrüfatı", 1960-cı ildən isə "Sovet kəndi" adı altında qəzet çıxırdı. Respublikada nəşr olunan jurnalların və başqa dövri nəşrlərin sayı 1946-cı ildə 21 idisə, 70-ci ildə 116-ya çatdı. Azərbaycan dilində 74 jurnal nəşr olunurdu.[37] 1946-cı ildən "Pioner", 1957-ci ildən "Kirpi", 1958-ci ildən "Göyərçin", 1961-ci ildən "Elm və Həyat", 1967-ci ildən "Ulduz" jurnalları, 1969-cu ildən "Qobustan" incəsənət almanaxı nəşr olunmağa başlandı. 1951-ci ildən "Azərbaycan qadını", 1954-cü ildən "Literaturnı Azerbaydjan" jurnalları fəaliyyətini yenidən davam etdirdilər. "Vətən uğrunda" jurnalı 1946-cı ildən "İnqilab və mədəniyyət", 1953-cü ildən isə "Azərbaycan", "Təşviqatçının dəftərçəsi" jurnalı isə 1966-cı ildən "Təşviqatçı" adı ilə çıxırdı.

Respublikada Azərbaycan Dövlət Nəşriyyatı ("Azərnəşr"), Uşaq-Gənclər Nəşriyyatı, Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı və "Azərneft" Nəşriyyatı fəaliyyət göstərirdi.

Nəşriyyat bazasının genişləndirilməsi və möhkəmləndirilməsi sonrakı illərdə ictimai-siyasi, elmi-texniki, kənd təsərrüfatı, tibb və bədii ədəbiyyat nəşri işini gücləndirməyə imkan verdi. 1970-ci ildə ümumi tirajı 11,6 mln nüsxə olan 1300 adda, o cümlədən Azərbaycan dilində ümumi tirajı 8,8 mln. nüsxə olan 839 adda kitab nəşr olunmuşdu.[38] Bədii əsərlər kütləvi tirajla buraxılırdı. Klassik Azərbaycan ədəbiyyatı dəfələrlə nəşr olunurdu. Müasir Azərbaycan yazıçılarının da əsərlərinin nəşri artırdı.

Rus ədəbiyyatı klassiklərinin, müasir yazıçılarının və başqa xalqların yazıçılarının əsərləri Azərbaycan dilinə tərcümə edilmiş və kütləvi tirajla nəşr olunmuşdu. Xarici ölkələrin ən tanınmış yazıçılarının əsərlərinin Azərbaycan dilində buraxılışı artmışdı.

Mədəni-maarif işi eyni zamanda SSRİ xalqlarına bir-birinin ədəbiyyat və incəsənəti ilə yaxından tanış olmağa imkanlar açırdı. 1950 1959-cu illərdə Moskvada Azərbaycan Ədəbiyyatı və İncəsənəti ongünlükləri böyük müvəffəqiyyətlə keçirildi. Azərbaycan mədəniyyətinin beynəlxalq əlaqələri də inkişaf edirdi. 1946-cı ildə "Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələri Cəmiyyəti" təsis edildi. Bu cəmiyyətin "Azərbaycan" adlı jurnalı çap olunaraq dünya ölkələrində yayılırdı.

## §3. ELM

Müharibədən sonrakı illərdə Azərbaycanda elm böyük uğurla inkişaf edirdi. Elmi idarələrin sayı 1945-1970-ci illərdə 66-dan 142-yə çatmışdı. Elmlər Akademiyası özünün elmi fəaliyyətini nəzərəçarpacaq dərəcədə inkişaf etdirir, ayrı-ayrı problemlərin işlənilməsini dərinləşdirir, istehsalatla yaradıcı əlaqəsini möhkəmləndirir, elmi kadrlar hazırlanmasını genişləndirirdi.

Elmi-tədqiqat işləri respublikanın ali təhsil müəssisələrində və iqtisadiyyatın mühüm sahələrində inkişaf edirdi. Respublikada elmi kadrların sayı sürətlə artırdı: 1947-ci ildəki 3282 nəfərdən 1970-ci ildə 17082 nəfərə çatmışdı. Həmin illərdə elmlər doktorlarının sayı 113 nəfərdən 652 nəfərə, elmlər namizədlərinin sayı isə 669 nəfərdən 5346 nəfərə qədər artmışdı.[39] Azərbaycan Elmlər Akademiyasının nüfuzu ildən-ilə yüksəlirdi. Onun ümumi ştatı 1945-ci ildə 977, 1955-ci ildə isə 1650 nəfərdən çox olmuşdu. 1970-ci ildə burada 3318 nəfər elmi işçi çalışırdı.[40]

Fizika elmində mühüm nailiyyətlər əldə edilmişdi. Neftin, neft məhsullarının və neft yataqları sularının fiziki xassələrini tədqiq etmək sahəsində səmərəli tədqiqatlar aparılırdı. 1946-cı ildə Fizika İnstitutunda rentgenostruktur təhlili laboratoriyası yaradıldı. Bu laboratoriyanın elmi işlərinin nəticələrinin selen cihazları hazırlayan zavodlar üçün mühüm əhəmiyyəti var idi.[41]

Radiofizika sahəsindəki tədqiqatlar əsasən cisimlərin dielektrik xassələrinin öyrənilməsini əhatə edirdi. Termodinamika və molekulyar fizika üzrə tədqiqatlar aparılırdı. Spektral təhlil yolu ilə filizlərdə olan maddələrin miqdarı öyrənilirdi.[42]

1950-ci ildən respublikada fizika elminin inkişafında yeni mərhələ başlandı - yarımkeçiricilərin kompleks tədqiqatları, mayelərin optik, radiospektrik və başqa

üsullarla öyrənilməsi, nəzəri fizikanın, metallar fizikası məsələlərinin tədqiqi genişləndi.[43]

Akademik Z.İ.Xəlilovun rəhbərliyi və fəal iştirakı ilə neft qatlarında quyuların ən əlverişli şəkildə yerləşdirilməsinin riyazi öyrənilməsinin böyük əhəmiyyəti var idi. Mingəçevir su qovşağı inşaatçılarının müraciətinə cavab olaraq Azərbaycan Dövlət Universitetinin riyaziyyatçıları Mingəçevir Su-Elektrik Stansiyasının su altındakı borularının təzyiqini müəyyənləşdirmək üçün tədqiqatlar aparırdılar.

Azərbaycan fizikləri yarımkeçiricilərin düzləndirici və digər elektrik xassələrini, habelə mayelərin, başlıca olaraq neftin və neft məhsullarının mikrostrukturunu, fiziki, termodinamik və optik xassələrini öyrənmək sahəsində maraqlı işlər görürdülər.

Respublikanın fizik və riyaziyyatçıları tərəfindən kvant fizikasını və kosmoqoniyanı öyrənmək sahəsində vacib işlər aparılırdı. Beləliklə, Azərbaycanda qədim Şamaxıda Sovet İttifaqı üzrə ən böyük astrofizika rəsədxanalarından birinin bünövrəsi qoyuldu.

Riyaziyyat üzrə tədqiqat işləri Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda və Hesablama Mərkəzində, habelə ali məktəblərin 20-dən artıq riyaziyyat kafedrasında aparılırdı.

Respublika riyaziyyatçıları öz tədqiqatlarını funksional təhlil problemi, inteqral tənliklər nəzəriyyəsi sahəsində aparırdılar. Onlar həmçinin tətbiqi xarakterli məsələləri araşdırırdılar. 1954-cü ildə qazın və qazlı neftin süzülməsinin riyazi məsələləri tədqiq olunurdu. A.X.Mirzəcanzadə tərəfindən tətbiqi əhəmiyyəti olan sahələrdə zəif və isti plastik mayelərin hərəkəti haqqında mürəkkəb riyazi məsələlər həll edilmişdi.[44]

Energetika sahəsində respublika alimləri tərəfindən Azərbaycanın hidroenergetika ehtiyatlarını öyrənmək və aşkar etmək, onlardan düzgün istifadə olunmasının şərtlərini hazırlamaq üçün böyük iş aparılırdı. Respublika Akademiyasının Energetika İnstitutu SSRi Elmlər Akademiyasının Avtomatika və Telemexanika İnstitutu ilə birlikdə neft hasilatını və qazma proseslərini avtomatlaşdırmaq sahəsində mühüm işlər görürdü. Lakin fizika-riyaziyyat elmlərinin vacib nəticələri istehsalatda ləng tətbiq olunurdu.

Respublikanın təkindəki faydalı qazıntıların geoloji quruluşunun öyrənilməsi uğurla davam edirdi. Yeni neft yataqları, yeni filiz və qeyri-filiz faydalı qazıntı yataqları, mineral su mənbələri kəşf edilmişdi.

Azərbaycan alimləri seysmologiya məsələlərinə böyük diqqət yetirirdilər. 1949-cu ildə Şamaxıda, Gəncədə, Naxçıvanda və Lənkəranda seysmik stansiyalar yaradıldı.[45]

1945-ci ildə böyük elmi-tədqiqat mərkəzi - Elmlər Akademiyasının Coğrafiya İnstitutu yaradıldı. Azərbaycanın təbii sərvətlərinin dərindən öyrənilməsində uğurlu fəaliyyətə başlandı.

Azərbaycan geoloqları diqqəti neft geologiyasının, mədən və qeyri-mədən faydalı qazıntılarının, stratiqrafiyanın, petroqrafiyanın və tektonikanın daha çox aktual məsələləri üzərində cəmləşdirdilər. Geoloqların səmərəli işlərinin nəticələri öz əksini yeddicildlik "Azərbaycan geologiyası" toplusunda tapdı (1954-1960-cı illər). İqlimşünaslıq, hidrologiya, geomorfologiya və coğrafi biliklərin digər xüsusi sahələri inkişaf etdi. "Azərbaycan Sovet Sosialist Respublikasının Atlası" hazırlandı.

1950-ci ildə Azərbaycan Elmlər Akademiyasının Neft Ekspedisiyası təşkil edildi. Onun gördüyü işin mühüm xalq təsərrüfatı əhəmiyyəti var idi. Azərbaycan neftçilərinin neft çıxarmaq texnologiyasını təkmilləşdirməsi nəinki Azərbaycanda, digər müttəfiq respublikalarda da neft sənayesinin inkişafına təsir göstərdi. Dəniz sahələrində neft yataqlarının istismarı məsələlərinə mühüm diqqət yetirilirdi.

Alimlər tərəfindən respublikanın enerji ehtiyatları aşkara çıxarılır, onlardan düzgün istifadə olunması şərtləri müəyyənləşdirilir, mövcud enerji sistemlərinin səmərələşdirilməsi üsulları işlənilib hazırlanır, neft sənayesi energetikasının mühüm məsələləri öyrənilirdi.

Neftin kimyəvi tərkibinin öyrənilməsinə dair işlər Azərbaycan kimyaçılarının diqqət mərkəzində dururdu. R.H.İsmayılov, V.S.Qutırya, V.S.Əliyev, Ə.C.Ləmbəranski və başqalarının rəhbərliyi altında katalizatorun "qaynar" təbəqəsində katalitik krekinq prosesi işlənib hazırlandı.[46] Azərbaycanda ilk dəfə olaraq reaktiv mühərriklər üçün yanacaq istehsalı və yüksək keyfiyyətli dizel yanacaqlarının alınması texnologiyası mənimsənildi.

Respublikada kimya elminin inkişafında Y.H.Məmmədəliyevin çox böyük rolu olmuşdur. Onun aviasiya benzinlərinin yüksəkoktanlı komponentlərini hazırlamağın yeni üsullarını öyrənmək təklifi elmə dəyərli töhfə idi.

Azərbaycan kimyaçı alimlərin tədqiqat obyektlərindən biri Zəylik yataqlarının aluniti idi. Qeyri-üzvi kimyaçılar respublikanın mineral xammalını öyrənmək üçün bir sıra qiymətli işlər görmüşdülər.

Kimya elmləri sahəsində tədqiqatlar neftin və neft məhsullarının emalının yeni texnoloji proseslərinin, neft qalıqlarının dərinləşdirilmiş emalının öyrənilməsi və işlənilməsinə, mineral-xammal ehtiyatlarından istifadə olunmasına yönəldilmişdi.

Nəbatatçıların səyləri respublikanın florasını öyrənməyə və xalq təsərrüfatında ondan istifadə etməyin genişləndirilməsinə, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını artırmağın həllinə köməklə əlaqədar bitkilərin fiziologiyası və mühafizəsi məsələlərinin tədqiqinə yönəldilmişdi. Torpaqların

eroziyası hadisələrini aşkar etmək və ona qarşı mübarizə tədbirləri hazırlamaq məqsədilə 1950-ci ildə Torpaq-Eroziya Stansiyası yaradıldı.

Respublikanın zooloqları Azərbaycanın faunasını öyrənmək, onun yenidən bərpası və təsərrüfat məqsədilə heyvan ehtiyatlarından istifadə olunması üçün tədqiqatlar aparırdılar. "Azərbaycan florası" toplusu hazırlandı və nəşr edildi (1950-1961).

Respublikanın torpaq örtüyünün öyrənilməsinə, gübrələrin səmərəli tətbiqinin elmi əsaslarının hazırlanmasına, şoran torpaqların meliorasiyasına çox fikir verilirdi. Torpaqşünasların Kür-Araz düzənliyinin və Lənkəran zonasının şoran və bataqlıq torpaqlarının istifadəyə verilməsi və meliorasiyası sahəsindəki işləri, eləcə də Azərbaycanın dağlıq rayonları torpaqlarının eroziyası ilə mübarizə üzrə tədqiqatları böyük elmi dəyərə malik idi. 1958-ci ildə Türyançay, 1965-ci ildə Göy göl, 1968-ci ildə Pirqulu, 1969-cu ildə Hirkan və Şirvan qoruqları yaradıldı. Dənli bitkilərin yeni növlərini almaq və mövcud növlərini dəyişdirmək prosesinin öyrənilməsi sahəsində səmərəli işlər aparılırdı. Azərbaycanda seleksiyaçılar tərəfindən yüksək məhsuldar buğda növləri yetişdirilmişdi.

Alimlər kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmağın bioloji əsaslarını hazırlamaq sahəsində mühüm işlər görürdülər. F.A.Məlikovun rəhbərliyi altında mütəxəssis alimlər tərəfindən yarımzərif yunlu qoyun cinsi - Azərbaycan dağ merinosu yetişdirmək işi başa çatdırıldı.

Zoologiya sahəsində alimlərin tədqiqatlarının əsas istiqamətləri respublikanın faunasını öyrənmək idi. Elmlər Akademiyasının Zoologiya İnstitutu balıqçılıq təsərrüfatı sahəsində qiymətli tədqiqatlar aparırdı. Zooloqların tədqiqatlarında kənd təsərrüfatı heyvanlarının məhsuldarlığını artırmağın bioloji əsasları məsələləri mühüm yer tuturdu.

Zooloq alimlərin böyük əməyi sayəsində dördcildlik "Azərbaycan faunası" toplusunun birinci cildi çap olundu (1966).

Tibb sahəsində də nailiyyətlər əldə edildi. Ürək-damar xəstəliklərinin səbəbləri, profilaktikası və müalicəsi məsələləri tədqiq olunurdu.

Fəhlələrin, kolxozçuların və şagirdlərin əmək və təhsilinin sanitar-gigiyena şəraitini yaxşılaşdırmaq sahəsində aparılan elmi tədqiqatlar peşə xəstəliklərinin profilaktikasına böyük fayda verdi.

Traxoma, brusellyoz, bağırsaq xəstəlikləri ilə mübarizə məsələləri müvəffəqiyyətlə öyrənilirdi.

Lakin təbiət elmlərinin və texniki elmlərin inkişafında ciddi nöqsan və çatışmazlıqlar da vardı. Geofizika rüşeym halında idi. Müasir fizika və texnikanın daha çox perspektivli problemləri heç işlənilmirdi. Qeyri-üzvi, xüsusən də üzvi kimyanın bir sıra istiqamətləri ləng tədqiq olunurdu.

İctimai və humanitar elmlər sahəsində müharibədən sonrakı illərdə irəliyə doğru ciddi addımlar atılmışdı. Azərbaycan ərazisinin arxeoloji öyrənilməsi genişlənirdi. Qədim və erkən orta əsrlər tarixinin bir çox öyrənilməmiş məsələlərini işıqlandıran maraqlı arxeoloji materiallar əldə edilmişdi. Bu işdə 1946-cı ildə S.M.Qazıyevin başçılığı altında Azərbaycan SSR Elmlər Akademiyasının Mingəçevir arxeoloji ekspedisiyası tərəfindən aparılan tədqiqatlar mühüm əhəmiyyətə malik idi. Ekspedisiya tərəfindən 14 mədəni qat tədqiq edilmişdi.

Abşeron yarımadasının qərbində, Qobustan rayonunda böyük elmi qiymətə malik çoxlu qayaüstü təsvir aşkar olunmuşdu. 1947-ci ildən İsak Cəfərzadənin rəhbərlik etdiyi arxeoloji ekspedisiya dünya əhəmiyyətli bu abidənin tədqiqinə başlamışdı. Qayaların və daşların bir çoxunun səthində insan və heyvanların kontur şəklində təsvirləri saxlanmışdır.[47] Bu təsvirlər Daş dövrünün sonundan orta əsrlərə qədərki tarixi əhatə edir. Örənqala, Qəbələ, Köhnə Gəncə, habelə Bakıdakı Şirvanşahlar sarayında, Qarabağda, Şirvanda aparılan qazıntılar nəticəsində dəyərli məlumat və materiallar əldə olunmuşdu.

Respublika tarixçiləri Azərbaycanın qədim tarixinin, xüsusən Midiya və Qafqaz Albaniyası tarixinin öyrənilməsi məqsədilə vacib tədqiqatlar aparırdılar. Azərbaycan tarixinə dair yeni, qiymətli mənbələr nəşr olundu. Azərbaycan tarixinin öyrənilməsində 1949-cu ildə "Azərbaycan tarixinin oçerkləri"nin nəşri irəliyə doğru mühüm addım idi. Lakin bu kitabda Azərbaycanın qədim, orta əsrlər və yeni tarixinin bir sıra probleminin işlənilməsinin elmi səviyyəsi hələ yüksək deyildi, bir sıra müddəalar mübahisəli, bəziləri isə yanlış idi. Ən qədim, ilk orta və XIX-XX əsrlərdə inqilablar və vətəndaş müharibəsi problemləri dərin və əsaslı tədqiqini gözləyirdi.

Respublika tarixçilərinin çoxillik tədqiqatlarının nəticəsi olaraq 1958-1963-cü illərdə üçcildlik "Azərbaycan tarixi" nəşr olundu. "Azərbaycanda Sovet hakimiyyəti uğrunda fəal mübarizlər", (1958), "Azərbaycan Kommunist Partiyasının tarixi" (I hissə), "Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri" (1964) kitabları çap edildi. Lakin ideoloji təzyiqlə əlaqədar bəzi problemlər hakim konsepsiya mövqeyindən şərh olunurdu.

Azərbaycan fəlsəfəsi və ictimai fikir tarixini öyrənmək sahəsində də müəyyən işlər görülmüşdü. Heydər Hüseynovun "XIX əsrdə Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən" (1949) monoqrafiyası ciddi maraq doğurmuşdu.

Respublika filosofları tərəqqipərvər Azərbaycan mütəfəkkirlərinin - Nizami Gəncəvinin, Xaqani Şirvaninin, M.F.Axundovun, H.Zərdabinin və başqalarının ictimai-siyasi və fəlsəfi görüşlərinin elmi tədqiqi ilə məşğul olurdular. A.O.Makovelskinin "Qədim yunan atomçuları" əsəri üzərində iş başa çatmışdı. 1966-cı ildə "Azərbaycanda fəlsəfi fikir tarixinin oçerkləri" nəşr olundu.

Hüquqşünas alimlər dövlət, mülki və cinayət hüququna, məhkəmə quruluşuna, hüquq tarixinə dair əsərlər üzərində işləyirdilər. 50-ci illərin əvvəllərində Azərbaycan dilində cinayət hüququ məsələlərinə dair ilk əsərlər nəşr olundu.

Azərbaycanın iqtisadçı alimlərinin tədqiqatları sənayenin və kənd təsərrüfatının iqtisadiyyatı ilə bağlı məsələlərin, habelə iqtisadi fikir tarixinin öyrənilməsinə yönəldilmişdi. İqtisadçılar neft sənayesinin iqtisadiyyatını, Azərbaycanın xalq təsərrüfatının və iqtisadi fikir tarixini öyrənirdilər. Lakin iqtisad elmi və hüquqşünaslıq müasir inkişaf tələblərindən çox geri qalırdı.

Memar alimlər və sənətşünaslar memarlıq abidələrini, dekorativ-tətbiqi sənət, musiqi və teatr mədəniyyəti ustalarının fəaliyyətini öyrənmək sahəsində qiymətli tədqiqatlar aparmış, "Azərbaycan Dram Teatrı" (1962), "Azərbaycan memarlığının tarixi" (1963), "Azərbaycan xalçası" I cild (1961) və s. əsərlər nəşr etdirmişlər.

Azərbaycan dilçiləri iki hissədən ibarət "Azərbaycan dilinin qrammatikası" (1959-1960), bircildlik "Azərbaycan dilinin dialektoloji lüğəti" (1964), "Orfoqrafiya lüğəti" (1960), "İzahlı dilçilik lüğəti" (1969) nəşr etdirmişdilər. Akademik M.A.Şirəliyevin "Bakı dialekti" əsəri çapdan çıxmışdı. Azərbaycan dilçilərinin Azərbaycan dilinin tarixi, leksikologiyası və dialektologiyası sahəsində əsərləri mühüm əhəmiyyət kəsb edirdi.

Ədəbiyyatşünaslar tərəfindən müasir sovet ədəbiyyatı və Azərbaycan klassiklərinin ədəbi irsi geniş tədqiq olunurdu. Xalq şairi, akademik S.Vurğun 1954-cü ilin dekabrında Moskvada sovet yazıçılarının II Ümumittifaq qurultayında sovet poeziyasının yaradıcılıq problemlərini dərin elmi-nəzəri əsaslarla yüksək səviyyədə işıqlandırmaq şərəfinə nail olmuşdu. H.Araslının "XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi", M.Quluzadənin "Nizami Gəncəvi", Ə.Mirəhmədovun "M.F.Axundov", K.Məmmədovun "Əbdürrəhimbəy Haqverdiyev", K.Talıbzadənin "Abbas Səhhət", M.Arifin "Cəfər Cabbarlının yaradıcılıq yolu", Q.Qasımzadənin "Azərbaycan ədəbiyyatında xalqlar dostluğu", Ş.Qurbanovun "Puşkin və Azərbaycan poeziyası", M.Əlioğlunun "Cəlil Məmmədquluzadənin dramaturgiyası" kimi monoqrafiyaları nəşr olundu. 1957-1960-cı illərdə üçcildlik "Azərbaycan ədəbiyyatı tarixi", 1963-cü ildə "Azərbaycan sovet ədəbiyyatı tarixi oçerkləri", 1967-ci ildə "Azərbaycan sovet ədəbiyyatı tarixi" kimi fundamental əsərlər çap edildi. "Kitabi-Dədə Qorqud" (1950), "Koroğlu" dastanları (1949), beşcildlik "Azərbaycan nağılları" (1960-1964), beşcildlik "Azərbaycan dastanları" (1965-1977) nəşr olundu. Böyük Azərbaycan şair və nasirlərinin əsərləri oxuculara çatdırıldı. Nizaminin və Azərbaycan ədəbiyyatının digər klassiklərinin yaradıcılığı haqqında monoqrafik əsərlər yazıldı.

Respublika Əlyazmaları Fondunun yaradılmasının xüsusi əhəmiyyəti var idi. Qarşılıqlı ədəbi əlaqələrin öyrənilməsinə böyük diqqət yetirilirdi. Azərbaycan xalqının və ölkənin başqa xalqlarının ədəbiyyatlarının qarşılıqlı əlaqələri ilə oxucuları tanış etmək üçün mühüm elmi dəyəri olan bir sıra əsərlər nəşr olunmuşdu.

## §4. ƏDƏBİYYAT

Azərbaycan ədəbiyyatı müharibədən sonrakı dövrdə də ictimai-siyasi həyatla sıx əlaqədə inkişaf edirdi.

Azərbaycan Yazıçılar İttifaqının bilavasitə ədəbi prosesə fəal müdaxiləsi gücləndi. Təşkilatın qurultay və plenumlarında, xüsusi müşavirələrində nəsr, poeziya və dramaturgiyanın yaradıcılıq problemlərinə həsr olunmuş müzakirələr keçirilirdi.

Poeziya, xüsusilə siyasi lirika fəal mövqe qazanmışdı. S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, O.Sarıvəlli, M.Dilbazi, Ə.Cəmil, N.Rəfibəyli və başqaları müasirlərinin daxili aləmini əks etdirən lirik və epik əsərlər yazdılar. S.Vurğunun "Muğan" və "Zəncinin arzuları", R.Rzanın "Lenin", M.Rahimin "Leninqrad göylərində", S.Rüstəmin "Qafurun qəlbi" kimi poemaları yazıldı.

Azərbaycan romanının da mövzu dairəsi genişləndi, müasir həyata və tarixi keçmişə həsr edilmiş yeni əsərlər oxuculara çatdırıldı. Müharibə zamanı Sevastopol şəhəri müdafiəsinin iştirakçısı olan Ə.Əbülhəsən qələbədən sonra "Müharibə" romanının birinci hissəsini çap etdirdi. S.Rəhimov müharibə ərəfəsində başladığı "Saçlı" romanını bitirdi. M.Hüseynin "Abşeron", M.Süleymanovun "Yerin sirri", Mir Cəlalın "Yaşıdlarım", Ə.Vəliyevin "Gülşən" əsərləri nəşr edildi.

Xalq tarixinin mühüm səhifələrinə, azadlıq uğrunda mübarizə mövzusuna maraq gücləndi. M.S.Ordubadinin "Dumanlı Təbriz" epopeyasının son hissəsi çap olundu, "Qılınc və qələm" oxuculara təqdim edildi. M.Hüseyn "Komissar" povestini tamamladı, S.Rəhman isə "Nina" romanını yazdı.

Dramaturgiya sahəsində də müasirliyə maraq gücləndi. İ.Əfəndiyevin "Bahar suları", İ.Qasımovun "Xəzər üzərində şəfəq" C.Məcnunbəyovun "Böyük məhəbbət", S.Rəhmanın "Aydınlıq"' Ə.Məmmədxanlının "Şərqin səhəri" əsərləri oxucularda böyük maraq oyatdı.

Müharibədən sonrakı ilk illərdə Azərbaycan ədəbiyyatı əsasən uğurla inkişaf etmiş, nəsrdə, poeziyada və dramaturgiyada əhəmiyyətli əsərlər yaradılmışdı. Bununla belə həmin illərdə dəbdə olan konfliktsizlik "nəzəriyyəsi" sənətin inkişafına, onun həyatla əlaqəsinin möhkəmlənməsinə ciddi əngəl törətmiş,

bir sıra istedadlı sənətkarları ziddiyyətlərin mahiyyətinə nüfuz etməkdən, nöqsanları üzə çıxarmaq təşəbbüslərindən uzaqlaşdırmışdı.

1947-ci ildə böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyi İttifaqın mədəni mərkəzlərində təntənə ilə qeyd olundu. Yubiley münasibətilə 1946-cı ildə Gəncədə böyük şairin məqbərə-abidəsi açıldı. SSRİ Yazıçılar İttifaqı ilə Azərbaycan Yazıçılar İttifaqının dahi şairin yubileyinə həsr edilmiş təntənəli plenumu keçirildi.[48]

1956-cı ildə S.Vurğunun anadan olmasının 50 illiyi yüksək ehtiramla qeyd olundu. Azorbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə birinci olaraq S.Vurğuna "Xalq şairi" adı verildi.

50-ci illərdə respublikamızın mədəni həyatında mühüm hadisələrdən biri böyük Azərbaycan şairi Məhəmməd Füzulinin vəfatının 400 illiyinin (1958-ci il) qeyd edilməsi oldu. Bakıda şairin yubiley tədbirlərində bütün respublikaların nümayəndələri, həmçinin İran, Türkiyə, Əfqanıstan, İraq və başqa ölkələrdən gəlmiş xarici qonaqlar iştirak etdilər. Dekabrın 9-da Moskvada, İttifaqlar Evində şairə həsr olunmuş gecə keçirildi. Füzulinin 400 illiyi Sovet İttifaqında xalqların klassik mədəni irsinin məhəbbətlə qorunmasının və təbliğ edilməsinin parlaq nümayişinə çevrildi.

1968-ci ildə Molla Ponah Vaqifin 250 illik yubileyi geniş qeyd olundu. 1962-ci ildən başlayaraq hər ilin may ayında M.Ə.Sabir poeziyası günləri keçirilməsi ənənəsi yarandı.

50-ci illərdə zəngin həyat materialına və sənətin tarixi təcrübəsinə arxalanan yazıçılar yeni ədəbi nailiyyətlər qazandılar. S.Vurğunun "Aygün" poemasında əməyin qüdrəti və şəxsiyyətin fərdi duyğuları bədii təhlil predmetinə çevrilir.

Bu illərdə epik təsvirlərə xüsusi maraq göstərən Azərbaycan nəsri S.Rəhmanın "Böyük günlər", M.Cəlalın "Yolumuz hayanadır", Ə. Sadığın "Mingəçevir", Ə.Vəliyevin "Çiçəkli", M.Hüseynin "Səhər", İ.Qasımov və H.Seyidbəylinin "Uzaq sahillərdə", S Rəhimovun "Ağbulaq dağlarında" romanları ilə zənginləşdi. Əlbəttə, bu əsərlərdə müəllifləri məşğul edən problemlər eyni dərəcədə ictimai əhəmiyyətə malik olmadığı kimi, onların bir qismi sənətkarlıq baxımından da zəif idi.

Stalinin vəfatından sonra cəmiyyətdə baş vermiş ictimai prosesləri dərindən öyrənib, onları yüksək qiymətləndirən bir çox yazıçılar yeni, aktual əsərlərlə çıxış etdilər. M.İbrahimovun "Böyük dayaq", İ.Şıxlının "Ayrılan yollar", İ.Hüseynovun "Yanar ürək", B.Bayramovun "Yarpaqlar", İ.Əfəndiyevin "Söyüdlü arx", Ə.Əbülhəsənin "Tamaşa qarının nəvələri", H.Seyidbəylinin "Telefonçu qız" əsərlərində, şairlərin poema və silsilə şeirlərində, habelə Ə.Məmmədxanlının "Şirvan gözəli" komediyasında yadda qalan bədii obrazlar yaradıldı. Bu əsərlərin

əksəriyyətində nöqsanlara, cəmiyyətin inkişafına maneə olan əngəllərə, məişətdə və psixologiyada özünü göstərən əyintilərə, meşşanlığa qarşı kəskin tənqidi münasibət vardı.

Azərbaycan dramaturgiyası müasirliyə dönüşü daha da gücləndirməklə, bədii kamillik kəsb etdi. Ə.Məmmədxanlının "Od içində", İ.Əfəndiyevin "Atayevlər ailəsi", R.Rzanın "Qardaşlar", İ.Qasımov və H.Seyidbəylinin "Dəniz cəsurları sevir", İ.Səfərlinin "Göz həkimi" əsərlərində bir sıra bitkin ədəbi surətlər yaradıldı. Əldə edilmiş müvəffəqiyyətlərə baxmayaraq, dramaturgiya yaradıcılığı pyeslərin məzmununa, həm də bədii formasına görə açıq-aydın geri qalırdı.

Müharibədən sonra SSRİ və dünya xalqları ədəbiyyatlarının ən gözəl nümunələrinin Azərbaycan dilinə tərcüməsi dövlət əhəmiyyəti kəsb edən mədəni tədbirlərdən idi. Klassik və müasir Azərbaycan sənətkarlarının ədəbi irsinin rus dilinə tərcüməsi də genişləndi. 50-ci illərdən başlayaraq, qarşılıqlı tərcümə dövlət əhəmiyyətinə malik vüsət aldı. Azərbaycan oxucuları A.Radişşev, N.S.Dobrolyubov, İ.A.Qonçarov, V.Latsis, İ.Çavçavadze, A.İ.Gertsen, M.Saltıkov-Şedrin, K.Fedin, A.Tvardovski, A.Tolstoy, O.Balzak, C.London, D.Fenimor-Kuper və başqa sənətkarların əsərlərini öz dillərində oxumaq imkanı qazandılar.

60-cı illərdə "Yeni nəsr" ədəbi məktəbi meydana gəldi. Bu məktəb yeni estetik və siyasi qayəsi, əxlaqi problematikası ilə fərqlənirdi. Onun qəhrəmanları əvvəlki stereotip qəhrəmanlara oxşamayan, mühitində yad görünən "qəribə adamlar" idi. Cəmiyyətdəki dərin barışmaz ziddiyyətləri, insan hüquqlarının tapdalanmasını, qanunsuzluğun baş alıb getməsini, bəşəri və milli dəyərlərin deformasiyasını, saxtakarlığı və başqa eybəcərlikləri mövcud idarəçilik sisteminin labüd nəticəsi kimi təqdim edən əsərlər yaranmışdı. Cəmiyyətdə, ailədə, nəsillər arasında olan ziddiyyətlərin müxtəlif aşkarlıq formaları və əsas səbəbləri S.Rəhmanın "Yalan", İ.Hüseynovun "Yanar ürək", "Doğma və yad adamlar", Anarın "Molla Nəsrəddin-66", Elçinin "Ağ dəvə", "Sos" əsərlərində, Ə.Əylisli, S.Əhmədov, Rüstəm və Maqsud İbrahimbəyovların roman və povestlərində məharətlə açıqlanırdı.

Getdikcə açıq-aşkar dərinləşən ictimai-sosial ədalətsizliyin tənqidi üçün yaradıcı ziyalılar rəmzlərdən, alleqoriyalardan, eyhamlardan, başqa xalqların və tarixi dövrlərin mövzularından geniş istifadə edirdilər. Rəsul Rzanın rənglər silsiləsi bu baxımdan çox səciyyəvi idi. Xəlil Rza təqiblərə məruz qalsa da, sözünü cəsarətlə və açıq deyirdi.

Xalqın zəngin qaynaqları olan mənəvi aləmi öz poetik əksini Rəsul Rzanın, Osman Sarıvəllinin, Bəxtiyar Vahabzadənin, Mirvarid Dilbazinin, Əhməd Cəmilin, Nəbi Xəzrinin, Hüseyn Arifin, Əliağa Kürçaylı, İslam Səfərli, Qasım Qasımzadənin və başqalarının əsərlərində ustalıqla tapmışdı. Vahidin qəzəlləri geniş yayılmışdı.

Milli şüurun oyanmasında Cənub mövzusunda əsərlərin xüsusi əhəmiyyəti vardı. Süleyman Rüstəmin Cənub mövzusunda yazdığı silsilə şeirlər böyük poetik və siyasi təsir gücünə malik idi.

M.İbrahimovun "Gələcək gün", "Pərvanə", P.Makulunun "Səttarxan" romanları maraqla qarşılanmışdı. Balaş Azəroğlunun, Əli Tudənin, Söhrab Tahirin, Mədinə Gülgünün, Həkimə Büllurinin əsərlərində parçalanmış vətən, ayrılıq, həsrət mövzuları əsas yer tuturdu.

Xaricdə yaşayan azərbaycanlı yazıçıların yaradıcılığı da Azərbaycan ədəbiyyatının zənginləşməsinə töhfə idi. Ümbülbanu Mirzə (Banin) 1945-ci ildə Parisdə çap olunmuş "Qafqaz günləri" romanı ilə istedadlı yazıçı kimi tanınmışdı. Onun sonrakı illərdə nəşr olunmuş "Paris günləri", "Sonra", "Yad Fransa", "Son ümidin harayı" və s. əsərləri də maraqla qarşılanmışdı.

## §5. İNCƏSƏNƏT

Azərbaycan incəsənəti də inkişafda idi. Azərbaycan bəstəkarlarının yaradıcılığında mərkəzi yeri simfonik musiqi tuturdu. Q.Qarayev İkinci, C.Hacıyev Üçüncü, S.Hacıbəyov İkinci simfoniyalarını bəstələdilər. Simfonik musiqiyə "Nizami" mövzusu daxil oldu. "Leyli və Məcnun" poemasının motivləri əsasında Q.Qarayev eyniadlı simfonik poema yazdı. F.Əmirov simli orkestr üçün simfoniyasını böyük şairin xatirəsinə həsr etdi.

Respublikanın musiqi həyatında F.Əmirovun yaratdığı yeni simfonik musiqi janrı - simfonik muğam mühüm hadisə oldu. Bəstəkar "Şur" və "Kürd-ovşarı" əsərlərində ilk mənbə kimi Azərbaycan muğamlarının orijinal melodiyalarından istifadə etdi. Bir qədər sonra Niyazi "Rast" simfonik muğamını, S.Ələsgərov isə "Bayatı-Şiraz" simfonik muğamını yaratdı.

F.Əmirov və E.Nəzirovanın ərəb mövzularında orkestrlə fortepiano üçün ikiqat konserti (1957-ci il) musiqi həyatında əlamətdar hadisə oldu. 1960-cı ildə Q.Qarayev skripka və fortepiano üçün Sonata, "Don Kixot" simfonik qravürlərini yaratdı.

Simfonik yaradıcılıq sahəsində proqramlı əsərlər ön plana çıxırdı. C.Hacıyevin "Sülh uğrunda" simfonik poeması mövzusunun publisist istiqamətilə diqqəti cəlb edir. Dünyanın bütün xalqlarına aid olan mövzunu bəstəkar tərəfindən öz xarakterinə görə parlaq milli musiqidə açıb göstərən "Kvartet-poema"sı onun başqa əsərləri arasında seçilirdi.

Azərbaycan musiqisi üçün yeni olan kantata-oratoriya janrında C.Cahangirovun "Füzuli" kantatası (1959-cu il) yarandı.

Bu dövr digər, həm də olduqca mühüm bir hadisə ilə - Azərbaycan bəstəkarlarının yeni, üçüncü nəslinin həyata qədəm qoyması ilə əlamətdar idi. Onların ilk böyük əsərləri - A.Məlikovun "Nağıl" simfonik poeması (1957-ci il) və Birinci simfoniyası, X.Mirzəzadənin Birinci simfoniyası (1957-ci il) və V.Adıgözəlovun Birinci simfoniyası (1958-ci il) 50-ci illərin sonlarında meydana çıxmışdı.

Ə.Bədəlboyli "Nizami" operasını tamamladı. C.Cabbarlının eyni adlı dramının süjetinə F.Əmirovun yazdığı "Sevil" operası (1953) opera sənətində parlaq səhifə oldu. Opera xalq arasında tezliklə çox məşhurlaşdı. C.Cahangirovun "Azad" operası (1957) Arazın o tayında yaşayan azərbaycanlıların öz azadlığı uğrunda apardığı mübarizəni əks etdirdi. Opera janrı R.Mustafayevin yeni əsəri "Vaqif"lə (1960) zənginləşdi.

S.Hacıbəyov müasir mövzuda "Gülşən" (1957) baletini bəstələdi. Q.Qarayevin "Yeddi gözəl" baleti (1952) Azərbaycan balet sənətini yeni inkişaf pilləsinə yüksəltdi. Bu əsər bir çox sovet və xarici ölkə teatrlarının repertuarını zənginləşdirdi. Q.Qarayev Nizami yaradıcılığının humanist ideyalarını öz balet musiqisində yüksək bədii səviyyədə təcəssüm etdirmişdir. "Yeddi gözəl" baleti Azərbaycan balet musiqisinin sonrakı inkişafına böyük təsir göstərmişdir.

Q.Qarayevin 1958-ci ildə yaratdığı "İldırımlı yollarla" əsəri balet musiqisinin yeni nailiyyəti oldu. Balet H.Abrahamsın povestinin motivləri əsasında yazılmış, ilk dəfə 1958-ci ildə Leninqrad Opera və Balet Teatrında tamaşaya qoyulmuşdu. Baletin musiqisi öz azadlığı və xoşbəxtliyi uğrunda mübarizə aparan Afrika xalqına qızğın məhəbbətlə yoğrulmuşdu. Parlaq müasir obrazlar baletin cazibədarlığını gücləndirməklə, onu balet klassikasının ən gözəl nümunələri səviyyəsinə qaldırırdı.

Musiqili komediya janrı fəal inkişaf edirdi. Müasir mövzuya həsr edilmiş ən gözəl Azərbaycan operettaları - S.Rüstəmovun "Durna", F.Əmirovun "Yaxşı yol", S.Ələsgərovun "Ulduz" operettaları idi. Operetta janrında T.Quliyevin "Qızılaxtaranlar" və R.Hacıyevin "Romeo mənim qonşumdur" əsərləri bacarıq və maraqla işlənilmişdi.

Kamera instrumental-vokal musiqisində parlaq əsərlər yarandı. Azərbaycan bəstəkarlarının yaradıcılığı təkrarsız milli özünəməxsusluğu ilə səciyyələnirdi.

Respublikanın musiqi həyatı olduqca zəngin idi. M.F.Axundov adına Opera və Balet Teatrının fəaliyyəti xeyli canlanmışdı. Tamaşalara Niyazi, Ə.Bədəlbəyli kimi müqtədir sənətkarlar dirijorluq edirdilər. Q.Almaszadə, K.Bataşov və başqaları baletdə yetkin sənətkarlıq nümayiş etdirirdilər. Ü.Hacıbəyov adına simfonik orkestrə Niyazi rəhbərlik edirdi. S.Rüstəmovun rəhbərlik etdiyi xalq çalğı

alətləri orkestrinin konsertləri böyük maraqla qarşılanırdı. Xalq rəqslərinin ifaçıları və quruluşçu rejissorları Ə.Dilbazi, Ə.Abdullayev tamaşaçıların rəğbətini qazanmışdılar. R.Behbudovun Azərbaycanı tərənnüm edən mahnıları sovet və xarici ölkə dinləyicilərinin qızğın hüsn-rəğbətini qazanmışdı. Xalq musiqiçiləri Q.Primovun, Ə.Bakıxanovun, B.Mənsurovun, S.Şuşinskinin, X.Şuşinskinin, S.Qədimovanın, Ş.Ələkbərovanın, Ə.Əliyevin və başqalarının ifaçılıq sənəti yüksək səviyyədə idi.

Mahnı janrı sürətlə inkişaf edirdi. Bu janrı T.Quliyev, S.Rüstəmov, Q.Hüseynli, A.Rzayeva, C.Cahangirov, S.Ələsgərov, R.Hacıyev və başqaları təmsil edirdilər.

Azərbaycanda musiqi yaradıcılığının səmərəli inkişafı respublikanın musiqi mədəniyyətinin bütün sahələrinə getdikcə daha çox təsir göstərirdi. İfaçı kollektivlər qarşısında artıq milli repertuar problemi durmurdu. Azərbaycan bəstəkarlarının əsərləri onların proqramında mərkəzi yer tutmaqla, bütövlükdə ifaçılıq sənətinin inkişafına kömək edirdi. Azərbaycan musiqisinin təbliğində Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestri xüsusi rol oynamışdı.

M.F.Axundov adına Opera və Balet Teatrının kollektivinə yeni ifaçı kadrlar gəldi. Rəqqasə L.Vəkilova parlaq yaradıcılıq fəaliyyətinə başladı. Müğənni F.Əhmədova yaddaqalan musiqi-səhnə obrazları yaratdı.

Azərbaycan musiqisinin inkişafına istedadlı özfəaliyyət kollektivlərinin yaradıcılığı kömək edirdi. 1960-cı ilin əvvəlində keçirilmiş özfəaliyyətə respublika baxışında 300-dən çox Azərbaycan xalq çalğı alətləri üçlüyü, xalq yaradıcılığının müxtəlif janrlarının 3000-ə qədər ifaçısı, 213 xor və 42 rəqs kollektivi iştirak etmişdi.[49]

Müharibədən sonrakı illərdə teatrların təşkilat və yaradıcılıq həyatında müəyyən dönüş yarandı. İnsanların mənəvi simasını və qəhrəmanlığını əks etdirən yüksək bədii keyfiyyətli tamaşalar yaradılmağa başlandı. Dram teatrları müasir mövzularda tamaşaların səhnəyə qoyulması sahəsində böyük iş görürdülər.

1947-ci ildə rejissor A.İskəndərov yazıçı İ.Əfəndiyevin "İşıqlı yollar" pyesini və 1948-ci ildə "Bahar suları" əsərini tamaşaya qoydu. Rejissor işi, aktyor ifası cəhətdən diqqəti cəlb edən bu tamaşalar M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının ideya-sənətkarlıq və məfkurəvi həyatında mühüm hadisə idi. 1947-1948-ci illərdə teatrın yaradıcı kollektivi C.Cabbarlının "Yaşar", B.Çirikovun "Qaliblər", Ceyn Qou və Arnoldo Dyussonun "Dərin köklər", A.Fadeyevin "Gənc qvardiya" əsərlərinin tamaşalarını hazırladı.

1948-ci ildə Moskva qastrolu Azərbaycan Dram Teatrının həyatında mühüm hadisə oldu. Teatr paytaxt tamaşaçılarına C.Cabbarlının "1905-ci ildə", S.Vurğunun "Vaqif", Ə.Məmmədxanlının "Şərqin səhəri", V.Şekspirin "12-ci

gecə", A.N.Ostrovskinin "Tufan" pyeslərini və digər əsərlərin tamaşalarını göstərdi.

Rejissor M.Məmmədovun Gəncə Dövlət Dram Teatrında hazırladığı "Otello" bu dövrün ən yaxşı tamaşalarından idi. S.Rəhmanın "Aydınlıq", Lope de Veqanın "Rəqs müəllimi", Q.Mdivaninin "Kimdir müqəssir", Tur qardaşlarının "Bir evin sirri", C.Məcnunbəyovun "Böyük məhəbbət" pyeslərinin tamaşaları da maraqla qarşılandı.

1949-cu ildə Azərbaycan teatrının 75 illik yubileyi təntənə ilə qeyd edildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1949-cu il 23 iyul tarixli fərmanı ilə teatra Qırmızı Əmək Bayrağı ordeni verildi. S.Ruhulla, M.A.Əliyev, M.Davudova SSRİ xalq artisti kimi yüksək ada layiq görüldülər. Teatr müxtəlif janrlı tamaşalar hazırlamaqla ideya-məzmun və üslub etibarilə geniş yaradıcılıq yolunda olduğunu bir daha sübut etdi.

Lakin bu dövrdə Azərbaycan dövlət teatrlarının sayı xeyli azaldı. 1937-ci ildə Azərbaycanın ayrı-ayrı rayonlarında yaradılmış dövlət teatrlarını "səmərəsiz" hesab edib ucdantutma bağladılar. Yalnız Naxçıvanda, Gəncədə, Xankəndi və Qubada olan teatrlar öz fəaliyyətini davam etdirirdilər.

50-ci illərdə Azərbaycan teatrı müasir həyatımızın müxtəlif sahələrinə həsr edilmiş yeni tamaşalar hazırladı, klassik dramaturgiyanın ən yaxşı nümunələrini tamaşaçılara göstərdi. Azərbaycan milli dramaturgiyası teatrla bərabər böyük inkişaf yolu keçərək həyat və sənət problemlərinin həllində mühüm rol oynadı. Müasirlik hissi, hadisələrə müasir baxış klassik əsərlərin tamaşalarında da öz əksini tapmışdı. "Od gəlini" (C.Cabbarlı), "Məzəli əhvalat" (K.Qoldoni), "Namus" (A.Şirvanzadə), "Lənkəran xanının vəziri" (M.F.Axundov), "Hacı Qənbər" (N.Vəzirov), "Şeyx Sənan" (H.Cavid) və s. tamaşalar bu cəhətdən olduqca qiymətli idi.

Bu dövrdə müasir mövzulu tamaşalar içərisində S.Rəhmanın "Nişanlı qız", İ.Əfəndiyevin "Atayevlər ailəsi", İ.Səfərlinin "Göz həkimi", Ə.Məmmədxanlının "Şirvan gözəli" pyesləri mövzu və janr etibarilə müxtəlif olsa da, bu tamaşalarda xalqın müxtəlif təbəqələrinin surətləri yaradılmışdı. Müasirliklə əlaqələri genişləndirmək təşəbbüsü Gəncə Dram Teatrının tamaşalarında da ("Böyük ürək", "Bir gəncin manifesti") özünü göstərdi.

Sülhsevər siyasətin təbliği, müharibə qızışdırıcıların, milli azadlıq hərəkatını boğmağa çalışanların ifşası Azərbaycan teatrının əsas məqsədlərindən olmuşdur. Ə.Məmmədxanlının "Od içində", V.Sebkonun "İkinci cəbhə arxasında", N.Hikmətin "Türkiyədə" və İ.Qasımovla H.Seyidbəylinin müştərək yazdıqları "Uzaq sahillərdə" pyeslərinin tamaşaları bu baxımdan çox əhəmiyyətli idi.

Beləliklə, 1951-1960-cı illərdə Azərbaycan teatrında müasir mövzu və müasir qəhrəmanın səhnəyə gəlməsi prosesi güclənmişdi. Bu yeniləşmə tarixi

mövzulara həsr olunmuş ayrı-ayrı tamaşalara da təsir edirdi. Həmin keyfiyyətlər V.Şekspirin "Qış nağılı", H.Cavidin "Şeyx Sənan" və H.Mehdinin "Cavanşir" pyeslərinin tamaşalarında aydın nəzərə çarpırdı. Lakin həmin illərdə baş alıb gedən bədnam konfliktsizlik "nəzəriyyəsi" müasir mövzulu əsərlərə və onların tamaşalarına öz mənfi təsirini göstərdi ("Zərif tellər", "İldırım" və s.) 1956-cı ildə Azərbaycan Dövlət Akademik Dram Teatrının H.Cavid yaradıcılığına müraciət edib, 20 illik fasilədən sonra şairin "Şeyx Sənan" mənzum faciəsini tamaşaya hazırlaması həm teatr kollektivinin, həm tamaşaçıların, həm də respublika teatr ictimaiyyətinin ürəyindən oldu. Əsərdəki yüksək dramatik ehtiraslar, zəngin şeriyyət, parlaq romantika teatr kollektivi üçün ilham mənbəyinə çevrildi. Bu tamaşada R.Əfqanlı və A.D.Qurbanov (Şeyx Sənan), H.Qurbanova və N.Məlikova (Xumar), S.Ruhulla və A.Gəraybəyli (Platon), Ə.Sultanov (dərviş), Ə.Qurbanov (keşiş), M.Sənani və İ.Dadaşov (Serqo) və b. emosional obrazlar yaratdılar.

V.Şekspirin əsərlərini müvəffəqiyyətlə tamaşaya qoyan Azərbaycan Dövlət Akademik Dram Teatrı 1956-cı ilin aprelində Ümumrusiya Teatr Cəmiyyəti tərəfindən Moskvada keçirilən "Şekspir sovet səhnəsində" konfransında iştirak etdi.

1957-ci ildə keçirilən Ümumittifaq konfransında teatr "Almaz" və "Cavanşir" tamaşalarını göstərdi. Yüksək səviyyədə oynanılan həmin tamaşalara görə teatra festivalın laureatı adı verildi və o, birinci dərəcəli diplomla təltif olundu.

Azərbaycan Dram Teatrı dəfələrlə rus, Avropa və qardaş xalqların dramaturgiyasına müraciət etmişdi, A.İskəndərov, M.Məmmədov, T.Kazımov, Ə.Şərifov, Ə.Ələkbərov kimi rejissorlar "Müfəttiş" (N.Qoqol), "Vassa Jeleznova" (M.Qorki), "Vanya dayı" (A.Çexov), "Məzəli əhvalat", "Mehmanxana sahibəsi" (K.Qoldoni) "Sevilya ulduzu" (Lope de Veqa), "Qış nağılı" (V.Şekspir) pyeslərini müvəffəqiyyətlə tamaşaya qoymuşdular.

Bakıdakı S.Vurğun adına Rus Dram Teatrı da müasir mövzularda tamaşalar hazırlamaq üçün ciddi səy göstərirdi. Qəhrəmanlıq, lirik, satirik, psixoloji tamaşalar teatrın səhnəsində müvəffəqiyyətlə göstərilir və onun kollektivinin yaradıcılıq imkanlarını nümayiş etdirirdi.

Müharibədən sonrakı illərdə Azərbaycan kinosunun inkişafında, onun kollektivinin böyüməsində nəzərə çarpacaq irəliləmələr baş verdi. Respublikada müntəzəm olaraq bədii və sənədli filmlər buraxılırdı. Azərbaycan kinematoqrafçıları tanınmış yazıçılar, ssenaristlər, rəssamlar, bəstəkarlar və artistlərlə sıx yaradıcılıq əməkdaşlığında bir sıra gözəl filmlər yaratdılar.

Azərbaycan kinematoqrafçılarının 1945-ci ildə istehsal etdiyi "Arşın mal alan" filmi nəinki SSRİ-də, hətta bütün dünyada çox böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdi. Bu filmin yaradıcıları və ifaçıları Dövlət mükafatına layiq

görüldülər. 1949-1950-ci illərdə yaradılmış "Bakının işıqları" filmi Bakı neftçilərinin müharibə illərindəki əmək qəhrəmanlığından bəhs edirdi.

50-ci illərdə Azərbaycan kinosunun inkişafında ciddi müvəffəqiyyətlər müşahidə olunurdu. "Xəzər neftçiləri haqqında povest" (1953) və "Dəniz fatehləri" (1959) sənədli filmlərinin ekrana buraxılması kino sənətinin böyük nailiyyəti idi. "Görüş" filmi (1957) Azərbaycan pambıqçılarının Özbəkistanın pambıq ustaları ilə dostluğuna həsr olunmuşdur.

Azərbaycan kinematoqrafçılarının axtarışları, onların tarixi və milli səciyyəvi xüsusiyyətlərdən bacarıqla istifadə etməsi, yeni yaradıcı işçilərin cəlb olunması böyük uğurlarla nəticələndi.

1954-1958-ci illərdə respublikanın kino sənəti tamaşaçılar tərəfindən hərarətlə qarşılanan yeni ən yaxşı filmlərin - "Sevimli mahnılar", "Qara daşlar", "Qızmar günəş altında", "Bir məhəlləli iki oğlan", "Uzaq sahillərdə", "O olmasın, bu olsun", "Ögey ana", "Mahnı belə yaranır" və b. filmlərin yaradılması ilə əlamətdar olmuşdu. Bununla bərabər, bir çox kinofilmlər tamaşaçıların artan estetik tələblərinə hələ də cavab vermir, kino dramaturgiyası geri qalır, kino üçün yaradıcı və ifaçı kadrların hazırlanmasına kifayət qədər diqqət yetirilmirdi.

Azərbaycan rəssamlarının yaradıcılığında dövrün adamlarının məişəti və əmək fəaliyyəti mövzuları əsas yer ruturdu. Mingəçevir tikintisində təbiətin dəyişdirilməsinə M.Abdullayevin "Mingəçevirin işıqları", "Beşillik yolları ilə" romantik sənaye mənzərələri həsr olunmuşdu. Onun "Xoşbəxtlik yaradanlar" rəsmi fəlsəfi baxışı ilə nəzəri cəlb edir. M.Abdullayev özünün "Axşam" rəsm əsərində Azərbaycan qadınının mənən saflığını və gözəlliyini əks etdirmişdir. Rəssam B.Mirzəzadə "Neft mədənlərində" və dəniz neft mədənlərinin mənzərəsini əks etdirən bir sıra rəsmlərdə ("Yeddi gəmi adası", "Estakadalar", "Çənlər") yaradıcı əməyin poeziyasını yaratmışdır. Müasir Azərbaycan kəndinə həsr edilmiş "Dövlətə pambıq təhvili" kompozisiyası da (B.Əliyev, Əbdülxalıq, A.Zarubin) tipik əyani-nəqli əsərlər sırasına aiddir. Rəssamlardan S.Salamzadə, T.Tağıyev, S.Şərifzadə, V.Səmədova və başqaları respublikanın görkəmli adamlarının, milli mədəniyyət xadimlərinin bir sıra portret obrazlarını, lirik qadın portretlərini yaratmışdılar. Səttar Bəhlulzadənin Azərbaycanın gözəl guşələri Quba, Abşeron və Qarabağın təbiətinə həsr edilmiş mənzərə şəkilləri məhəbbətlə təsvir olunmuşdur. Həmin illərdə Azərbaycan rəssamlarının sıraları yeni istedadlı gənclərin hesabına artırdı. T.Nərimanbəyovun "Nar" rəngli rəsm əsərində romantik intonasiya üstünlük təşkil edir. N.Ədülrəhmanovun "Düyü əkini" və A.Cəfərovun "Qolbaq seçmək" şəkilləri lirik əhvali-ruhiyyə ilə zəngindir.

Azərbaycan heykəltəraşlarının fəaliyyəti uğurlu nailiyyətlərlə nəzəri cəlb edirdi. 1947-1949-cu illərdə heykəltəraş F.Əbdürrəhmanov Nizaminin Bakıda və Gəncədə ucaldılmış heykəllərini yaratmışdı. Nizaminin Gəncədəki abidəsi Dövlət

mükafatına layiq görülmüşdü. F.Əbdürrəhmanovun "Çoban" heykəli də Dövlət mükafatı ilə qeyd olundu və Dövlət Tretyakov Qalereyasının daimi ekspozisiyasına daxil edildi.

Heykəltəraş C.Qaryağdı şair M.Sabirin abidəsini, həmçinin respublikanın məşhur adamlarının heykəllərini yaratmışdı. Bu illərdə heykəltəraşlardan T.Məmmədovun, Ö.Eldarovun, M.Mirqasımovun istedadı özünü parlaq surətdə göstərdi.

Rəssamlardan M.Rəhmanzadə, O.Sadıqzadə, Nəcəfqulu tərəfindən yaradılan siyasi plakatlar, illüstrasiyalar, karikaturalar böyük rəğbət qazanmışdı. Lakin təsviri sənətdə çox vaxt fərdi üsul və dəst-xətlərin yeknəsəqliyinə, zahiri bəzəyə və şişirtmələrə rast gəlinirdi. Azərbaycanın təsviri sənəti yeni monumental əsərlərlə zənginləşdi. Rəssamlar yeni üslubda müxtəlif məzmunda çoxlu əsər yaratdılar. N.Əbdürrəhmanovun "Sevinc", T.Salahovun "Növbədən qayıdanda", "Təmirçilər", T.Nərimanbəyovun "Xəzər üzərində şəfəq", L.Feyzullayevin "Qasırğa yaxınlaşır" və başqa rəssamların əsərlərində müasirlərimizin əmək fəaliyyətinin müxtəlif səhnələri təsvir olunmuşdur.

Azərbaycanın təbiəti, onun təbii gözəlliyi S.Bəhlulzadənin "Doğma əkinliklər", "Səhər şəfəqi" kimi mənzərə tablolarında və digərlərində öz əksini tapmışdır.

Azərbaycan memarlığı üçün Xəzər sahilində - Sumqayıtda iri sənaye mərkəzinin yaradılmağa başlanması mühüm hadisə oldu. Sonrakı illərdə Sumqayıtın layihələşdirilməsi və tikilməsi sahəsində iş davam edirdi. Tamamilə boş bir yerdə kimyaçılar və metallurqlar şəhəri böyüməyə başladı.

Bakının mərkəzinin yenidən qurulması həmin illərdə Azərbaycan memarlarının fəaliyyətinin mühüm sahəsi idi. Müharibədən sonrakı ilk illər bir sıra iri obyektlərin başa çatdırılması ilə əlamətdardır. Hökumət evinin (L.Rudiyev və V.Munts) və V.İ.Lenin (indiki T.Bəhramov) adına Respublika stadionunun (Qonsirovski və O.İsayev) inşası başa çatdı.

Bakı şəhərinin mərkəzi rayonlarında iri ictimai binalar - Azərbaycan Dövlət Dram Teatrı (Q.Əlizadə, M.Mədətov), Mərkəzi Univermaq (N.Kəngərli), Daxili İşlər Nazirliyinin binası (Q.Məcidov), V.İ.Lenin Muzeyinin Bakı filialı (indiki Xalq Tətbiqi Sənət Muzeyi) (Q.Məcidov), M.F.Axundov adına Dövlət Kütləvi Kitabxanası (M.Hüseynov) ucaldıldı.

Sabir bağından Gənclər meydanına qədər olan ərazidəki köhnə binalar söküldükdən, İçərişəhər divarları açıldıqdan, onlar Nizami Muzeyi, Azərbaycan SSR Elmlər Akademiyasının binası və Nizaminin heykəli olan bağça ilə uyğun şəkildə bərpa olunduqdan sonra gözəl memarlıq mənzərəsi yarandı. Dağüstü yaylanın tikilib abadlaşdırılması sahəsində işlər başlandı. Mingəçevir su qovşağının tikilməsi və Mingəçevir su hövzəsinin yaradılması ilə əlaqədar olaraq

Mingəçevir şəhərinin layihələşdirilməsinə başlandı. Daşkəsənin layihələşdirilməsi və inşası böyük şəhər tikintisi tədbirinə çevrildi. Müharibə qurtardıqdan sonra mənzil tikintisi sürətlə aparıldı, əksər hallarda standart azmərtəbəli evlər tikilirdi. "Tikintini sənayeləşdirmək, keyfiyyətini yaxşılaşdırmaq və dəyərini azaltmaq sahəsində tədbirlər haqqında" Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 1955-ci il 23 avqust tarixli qərarından sonra Azərbaycanda yaşayış evlərinin kütləvi tikintisində bir çox standart layihələr tətbiq olunmağa başlandı.

Sənaye müəssisələrinin layihələşdirilməsi və tikintisində yeni meyillər özünü açıq-aşkar büruzə verirdi. Öz memarlıq həllinə görə Daşkəsəndəki filizsaflaşdırma fabrikinin, Mingəçevir SES-in (Popov) və Bakı şin zavodunun (Kanukov) binaları diqqəti cəlb edirdi.

Naxçıvanda Musiqili Dram Teatrı binasının tikilməsi (H.İsmayılov, Q.Məcidov) şəhər mərkəzinin layihələşdirilməsi üzrə baş planın həyata keçirilməsinin başlanğıcı oldu. Gəncədə möhtəşəm inzibati bina (Z.İsmayılov, F.Leontyev) ucaldıldı.

Müsabiqələr nəticəsində malikanə tipli, əsasən bir və ikimərtəbəli kənd yaşayış evlərinin tikintisinə başlandı. Lakin memarlıq sahəsində milli ənənələrdən uzaqlaşmaq, yeknəsəqlik kimi mənfi cəhətlər də özünü göstərdi.

1946-1970-ci illər Azərbaycan mədəniyyəti quruculuğunda mürəkkəb və ziddiyyətli olsa da, çox mühüm tərəqqi dövrü hesab edilə bilər.

IV FƏSİL

# AZƏRBAYCANIN İNKİŞAFINDA DÖNÜŞ MƏRHƏLƏSİ

## §1. RESPUBLİKANIN İCTİMAİ-SİYASİ HƏYATI

Azərbaycan KP Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilən Plenumu Azərbaycan üçün böyük tarixi əhəmiyyət kəsb edən taleyüklü hadisə idi. Plenumda Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildi. Heydər Əliyev 1923-cü il mayın 10-da Naxçıvan şəhərində, fəhlə ailəsində anadan olmuşdu. Naxçıvanda orta təhsil almış, Pedaqoji Texnikumu bitirmişdi. 1939-1941-ci illərdə o, Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində oxumuşdu. H.Əliyev 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarlığı Sovetində şöbə müdiri, 1944-cü ildən Dövlət Təhlükəsizlik orqanlarında işləmişdi. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdi. Ağılı və işgüzarlığı sayəsində H.Əliyev general-mayor rütbəsinədək yüksəlmişdi. 1956-1965-ci illərdə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi Əks-Kəşfiyyat İdarəsinin rəisi, 1965-ci ildən bu Komitə sədrinin müavini, 1965-ci ildən isə sədri olmuşdu.

Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu.[1] Həmin il avqustun 5-də H.Ə.Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək, respublikanın iqtisadiyyatını dərin və hərtərəfli təhlil etdi, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd etdi və onları aradan qaldırmaq yollarını göstərdi. Azərbaycan KP MK Avqust plenumunda dövlət əmək intizamını möhkəmləndirmək, respublikada mənəvi-psixoloji iqlimi sağlamlaşdırmaq vəzifələri irəli sürüldü. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nin XXVIII (10-12 may 1971-ci il), XXIX (28-30 yanvar 1976-cı il), XXX (28-30 yanvar 1981-ci il) qurultaylarında, MK-nın plenumlarında, vaxtaşırı çağırılan müşavirələrdə respublikanın iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri, təşkilati tədbirlər müəyyən edildi.[2]

Heydər Əliyev qısa müddətdə respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. Rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizəyə başladı. Sovet hakimiyyəti tarixində ilk dəfə sosialist cəmiyyətində vəzifədən sui-istifadə, korrupsiya kimi mənfi hallar olduğunu və onlara qarşı mübarizənin vacibliyini cəsarətlə elan etdi və bu hallara qarşı qəti mübarizəyə başladı.[3] Heydər Əliyevin SSRİ rəhbərliyində böyük nüfuzu vardı. O, 1976-cı ildə Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçildi və bu vəzifənin verdiyi imkanlardan

Azərbaycanın inkişafı naminə məharətlə istifadə etdi.[4] Heydər Əliyev böyük uzaqgörənliklə bütün dövlət hakimiyyəti orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi və milli oyanış siyasətinin reallaşmasına yönəltdi. Partiya lideri olmaqla bərabər, o, həm də SSRİ Ali Sovetinin (8-10-cu çağırış.) deputatı, onun yuxarı palatası olan İttifaq Sovetinin sədr müavini (9-cu çağ.), habelə Azərbaycan SSR Ali Sovetinin (7-10-cu çağırış.) deputatı və Rəyasət Heyətinin üzvü kimi geniş dövlətçilik fəaliyyəti göstərirdi.[5] Onun təşəbbüsü ilə SSRİ rəhbərliyi - Sov.İKP MK və SSRİ Nazirlər Soveti Azərbaycanın iqtisadi inkişafı üçün olduqca böyük əhəmiyyətə malik beş mühüm qərar qəbul etdi.[6] Bu qərarların biri Azərbaycanın xalq təsərrüfatının inkişafına İttifaq fondundan külli miqdarda vəsait ayrılmasına əsas oldu. Heydər Əliyevin həyata keçirdiyi siyasət bütün sahələrdə olduğu kimi, qanunverici orqanlara da ən bacarıqlı və layiqli adamların seçilməsinə imkan yaratdı. Bu orqanların işi xeyli fəallaşdı, yeni komissiyalar yaradıldı, onların səmərəli işləməsi üçün qayğı göstərildi.

Azərbaycan parlamenti respublikanın iqtisadi, mədəni inkişafı üçün hüquqi baza yaradan onlarla qanun qəbul etdi. Heydər Əliyev respublikada qanunçuluğun hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlərin təşəbbüsçüsü oldu.[7] 70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycanın mülki, mülki-prosessual, cinayət-prosessual məcəllələrinə əlavələr və dəyişikliklər edildi. Azərbaycan SSR-in məhkəmə quruluşu, səhiyyə, dövlət notariatı, xalq təhsili, tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə edilməsi, Nazirlər Soveti, xalq deputatları sovetləri haqqında qanunlar, torpaq, əmək haqqında qanun məcəllələri, inzibati hüquq pozuntuları haqqında, ailə və nikah haqqında məcəllələr qəbul edildi.[8] H.Əliyev 1977-ci il SSRİ Konstitusiyasını hazırlayan Konstitusiya Komissiyasının üzvü və 1978-ci il Azərbaycan SSR-in Konstitusiyasını hazırlayan Konstitusiya Komissiyasının sədri kimi geniş dövlətçilik fəaliyyəti göstərdi.[9] Heydər Əliyev Azərbaycanın suveren hüquqlarının pozulmasına qarşı yönələn bütün cəhdlərin qarşısını vaxtında, qətiyyətlə alırdı. SSRİ-nin 1977-ci ilin oktyabrında qəbul olunmuş Konstitusiyası hazırlanarkən ermənilərin belə cəhdləri xüsusən artmışdı və yalnız Heydər Əliyevin SSRİ Konstitusiyasını hazırlayan Komitənin üzvü kimi SSRİ rəhbərliyi qarşısında qoyduğu qəti tələblər nəticəsində o vaxt Dağlıq Qarabağın statusu məsələsinə baxılmadı.[10] Heydər Əliyevin rəhbərliyi altında fəaliyyət göstərən respublika Konstitusiya Komissiyasının hazırladığı yeni "Azərbaycan SSR Konstitusiyası" 1978-ci il aprelin 21-də qəbul edildi. Bu Konstitusiya mövcud olan dar imkanlar daxilində xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasları genişləndirdi.[11] Ölkə rəhbərliyinin etirazına baxmayaraq, H.Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan dili respublikada dövlət dili statusunu saxladı.

"Qoy ədalət zəfər çalsın!" - o zaman Heydər Əliyevin söylədiyi və bütün əməllərinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrilmişdi.[12]

Seçkili hakimiyyət orqanları respublikanın siyasi, iqtisadi və mədəni həyatında əhəmiyyətli rol oynayırdı. Azərbaycan SSR Ali Sovetinə Süleyman Rüstəm (I-XI çağırışlar, VIII-XI çağırışlarda Azərbaycan SSR Ali Sovetinin sədri olub), Mustafa Topçubaşov (I-X çağırışlar), Fikrət Əmirov (IV-IX çağırışlar), Mikayıl Abdullayev (V-IX çağırışlar) və b. görkəmli şəxsiyyətlər[13] deputat seçildi. SSRİ Ali Sovetində Azərbaycanı Mirzə İbrahimov (I-V, VII, VIII, X çağırışlar), Rəşid Behbudov (VII-IX çağırışlar), Qara Qarayev (V-IX çağırışlar), Həsən Abdullayev (VII-IX çağırışlar), Şamama Həsənova (IV-XI çağırışlar, 1960-1974-cü illərdə SSRİ Ali Soveti sədrinin müavini olub), Sərdar İmrəliyev (VI-IX çağırışlar) və b. qabaqcıl elm, mədəniyyət, incəsənət xadimləri, əmək qabaqcılları təmsil edirdilər.[14]

Yerli Sovetlərə 1969-cu ildə 44,5 min, 1982-ci ildə 50,8 min nəfərə qədər deputat seçilmişdi. Bu sovetlərdə 9,5 mindən çox daimi komissiya fəaliyyət göstərirdi. 80-ci illərin əvvəllərində partiya sıralarında 400 minə qədər üzv və namizəd, komsomol təşkilatlarında milyondan çox gənc, həmkarlar ittifaqlarında 2,6 milyon nəfərə qədər əməkçi birləşmişdi.[15]

Heydər Əliyevin mövcud reallıqlar daxilində məharətlə həyata keçirdiyi çoxcəhətli siyasi-dövlətçilik fəaliyyəti sayəsində partiya, sovet, həmkarlar ittifaqları, komsomol və b. ictimai təşkilatların diqqəti respublikanın iqtisadi, kadr, mənəvi potensialının sürətlə artmasına yönəldildi. Bunun nəticəsi idi ki, 70-ci illərdə Sovet İttifaqında əsas orta iqtisadi göstəricilərin artım sürətinin aşağı düşdüyü bir vaxtda Azərbaycanda bütün başlıca iqtisadi göstəricilər durmadan artırdı. 14 ildə respublikada milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı 2 (əvvəlki 50 ildəki qədər), xalq istehlakı malları istehsalı 3 dəfə, kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə artmış, 250-dən çox fabrik, zavod, istehsal sexləri tikilmiş, iki milyondan çox adamın mənzil şəraiti yaxşılaşdırılmışdı.[16] Xalqın öz gücünə, təsərrüfatçılıq qabiliyyətinə, mənəvi potensialına inam qüvvətləndi. 1970-1982-ci illərdə respublika 12 dəfə müxtəlif Ümumittifaq yarışlarının qalibi oldu, keçici Qırmızı Bayraqlara layiq görüldü. 1970-ci ildə Oktyabr İnqilabı, 1972-ci ildə Xalqlar Dostluğu, 1980-ci ildə Lenin ordenləri ilə təltif edildi.[17] Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə partiya, həmkarlar və komsomol təşkilatları, sovetlər, yaradıcılıq ittifaqları xalqın mənəvi dəyərlərinin öyrənilməsinə və təbliğinə diqqəti artırmışdı. Milli mənəvi sərvətlərin tədqiqi və təbliği, tarixi araşdırmaların geniş vüsət alması Heydər Əliyev dövrünün həyata keçirilən tədbirləri idi.[18] Nizaminin, Əcəminin, Nəsiminin, Tusinin, Vaqifin, Aşıq Ələsgərin, Aşıq Alının,Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Hüseyn Cavidin və başqa elm, ədəbiyyat və incəsənət xadimlərinin yubileyləri, Azərbaycan

professional teatrının yüz illiyi təntənə ilə qeyd olunmuşdu. Azərbaycan tarixinə və Azərbaycan dilinə aid qiymətli araşdırmalara yüksək dövlət mükafatları verilməsi ziyalıları bu sahələrdə fəaliyyətlərini genişləndirməyə ruhlandırırdı. 1977-ci ildə Nizami irsinin yenidən öyrənilməsi haqqında qərar qəbul olundu, bu sahədə səmərəli işlər görüldü. Bir zamanlar "pantürkist" kimi damğalanmış Hüseyn Cavidin cəsədinin qalıqları 1982-ci ildə İrkutsk vilayətindən gətirilib Naxçıvanda torpağa tapşırıldı.[19] Cənubi Azərbaycanla birlik, həsrət hisslərinin ədəbi ifadəsinə geniş imkanlar açıldı. 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqının Cənubi Azərbaycan üzrə katibi seçildi.[20] Heydər Əliyev faşizmə qarşı mübarizədə Azərbaycan xalqının oynadığı rolun düzgün qiymətləndirilməsinə çalışırdı. O, Mehdi Hüseynzadənin Avropanın böyük antifaşist hərəkatında qəhrəmanlığının təbliğinin, haqqında əsərlər, kinofilm çəkilməsinin, ona heykəllər qoyulmasının təşəbbüsçüsü olmuşdu.

70-ci illərdə onun təşəbbüsü ilə Taqanroqda 416-cı Azərbaycan diviziyasının böyük qələbəsinə möhtəşəm xatirə ansamblı, Sevastopolda Sapundağda 77-ci Azərbaycan diviziyasının şərəfinə böyük abidə ucaldılmışdı. Heydər Əliyev Bakı neftinin İkinci dünya müharibəsində faşizm üzərində qələbədə oynadığı ümumdünya tarixi əhəmiyyətli rolunun SSRİ rəhbərləri tərəfindən etiraf edilməsinə nail oldu. 1978-ci ildə Bakı Lenin ordeni ilə təltif edildi.[21]

Heydər Əliyevin təşəbbüsü ilə partiya və dövlət orqanlarının, ictimai təşkilatların, ziyalıların respublikanın milli kadr potensialının möhkəmlənməsinə diqqəti artdı. Minlərlə azərbaycanlı gənc SSRİ-nin aparıcı təhsil və elm ocaqlarına göndərildi. Milli hərbi kadrlar hazırlanmasına böyük qayğı göstərildi. 1971-ci ildə respublika orta hərbi internat məktəbi təşkil edildi. 70-80-ci illərdə SSRİ-nin hərbi məktəblərində müxtəlif hərbi ixtisaslar üzrə 2000-dən çox azərbaycanlı zabit hazırlandı.[22]

Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmişdi. Yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdı.[23]

"Gəncə" sözü yasaq edildiyi vaxt "Yeni Gəncə" rayonu yaradılmışdı.[24] Bakı rayonlarına "Nizami" və "Nəsimi" adları verildi. Rayonlara Naxçıvanda "Babək", Yuxarı Qarabağda "Əsgəran" adlarının verilməsi, Naxçıvan MSSR-də Sədərək qəsəbəsinin salınması bu yerlərin əzəli Azərbaycan torpaqları olduğunu bir daha təsdiqləyirdi. Heydər Əliyev ilk dəfə "İran Azərbaycanı" kimi məqsədli təhrifi "Cənubi Azərbaycan" kimi obyektiv terminlə əvəz etdi.

Naxçıvan MSSR və DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət artırılmışdı. Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Şəhərin tarixi abidələrinin bərpa olunmasına, yeni binaların tikilməsinə başlanıldı. 1980-1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük məqbərə ucaldıldı.[26]

Üzeyir Hacıbəyovun, Bülbülün ev - muzeyləri açıldı. Natəvanın heykəli qoyuldu.[27] Şəhərdə böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikildi. Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Dağlıq Qarabağda əhalinin təminatı həmişə Azərbaycan SSR üzrə orta göstəricilərdən yüksək olurdu, 1973-cü ildə Stepanakertdə Azərbaycan Pedaqoji İnstitutunun filialı əsasında Pedaqoji İnstitut açıldı. 1979-cu ildə Ağdamdan buraya dəmir yolu çəkildi.[28] Heydər Əliyevin ağıllı və uzaqgörən siyasəti sayəsində partiya, sovet orqanları, ictimai təşkilatlar öz işini elə qurmuşdu ki, erməni separatçıları açıq çıxışlardan çəkinirdilər. 1977-ci ildə Dağlıq Qarabağ məsələsi növbəti dəfə qaldırılsa da, qarşısı qətiyyətlə alınmışdı.[29]

Heydər Əliyev erməni millətçilərinin niyyətini yaxşı dərk edir, sərhəd rayonlarının iqtisadi və sosial-mədəni inkişafına böyük əhəmiyyət verir, qayğı göstərirdi. 70-ci illərdə mərkəz ermənilərin təhriki ilə Kəlbəcər rayonunun perspektivsizliyi, buradan əhalinin köçürülməsi, torpaqların isə yaylaq kimi respublikalar arasında bölüşdürülməsi haqqında məsələ qaldırdı. Buna qarşı H.Əliyev 1977-ci ildən bu rayonun potensial imkanlarını genişləndirmək tədbirləri hazırlanmasına və həyata keçirilməsinə nail oldu. İqtisadiyyat xeyli dirçəldi. Mərkəzin, erməni millətçilərinin niyyətləri alt-üst oldu.[30]

Respublikada qadın şuraları, küçə, məhəllə, məktəb valideyn komitələri, əmək veteranları şuraları, könüllü xalq drujinaları və b. kütləvi özfəaliyyət təşkilatları səmərəli fəaliyyət göstərirdi.

4 minə qədər yoldaşlıq məhkəməsi, 25 mindən artıq nəzarət qrupu movcud idi.[31]

Respublikanın ictimai-siyasi həyatında dövlət bayramlarının, tarixi günlərin, rayonlarda məhsul bayramlarının qeyd edilməsi, əldə edilmiş müvəffəqiyyətlərlə bağlı təltiflərin verilməsi, habelə SSRİ partiya və dövlət başçısı L.İ.Brejnevin Bakıya gəlməsi (1970,1978 və 1982-ci illərdə), Azərbaycanda müttəfiq respublikaların mədəniyyət, ədəbiyyat və incəsənət günlərinin, festivalların, beynəlxalq konfransların və s. keçirilməsi ilə əlaqədar təşkil olunan tədbirlər daha zəngin, canlı və maraqla həyata keçirilirdi.

Azərbaycanda siyasi həyatın sürətlə inkişafı, partiyanın qanunverici hakimiyyət orqanının, yerli sovetlərin, ictimai-siyasi təşkilatların, yaradıcılıq ittifaqlarının işindəki mühüm irəliləmələr Heydər Əliyevin şəxsiyyəti, onun çoxcəhətli idarəçilik istedadı, siyasi- dövlətçilik fəaliyyəti ilə sıx bağlı idi. Bununla əlaqədar o, 1982-ci ilin dekabrında Moskvaya yüksək dövlət və partiya vəzifələrinə dəvət olundu. Sov.İKP MK Siyasi Bürosuna üzv seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi.[32]

H.Əliyev bu vəzifələrdən də xalqın naminə səmərəli istifadə edirdi.

Beləliklə, 70-ci illərdə və 80-ci illərin birinci yarısında Heydər Əliyevin çoxcəhətli partiya və dövlət idarəçiliyi sayəsində Azərbaycanın ictimai-siyasi həyatı olduqca zənginləşdi. İnsanların partiya və dövlət orqanlarının, ictimai təşkilatların işində fəallığı artdı. Partiya və dövlətin, yerli sovetlərin, həmkarlar ittifaqlarının, komsomolun, ziyalıların, yaradıcılıq təşkilatlarının əsas diqqəti respublikanın iqtisadi, sosial-mədəni tərəqqisi, xalqın milli oyanışına istiqamətləndirilmiş siyasətin reallaşdırılmasına yönəldildi və səmərəli nəticələr verdi.

Heydər Əliyev kimi fitri istedadlı, uzaqgörən, xalqını sonsuz məhəbbətlə sevən, mütəfəkkir bir şəxsiyyətin, praqmatik siyasətçinin Azərbaycana rəhbərlik etməsi respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında sürətli yüksəlişə səbəb oldu.

## §2. İQTİSADİ İNKİŞAF

XX əsrin ikinci yarısının 1970-1985-ci illəri Azərbaycan iqtisadiyyatının keçdiyi əvvəlki inkişaf illəri ilə müqayisədə ən əlamətdar və böyük yüksəliş dövrü kimi tarixə daxil olub. Həmin ərəfədə Azərbaycanın yeni rəhbəri seçilmiş H.Ə.Əliyevin fədakar və böyük vətənpərvər yaradıcı fəaliyyəti respublika həyatının bütün sahələrində olduğu kimi, onun sosial-iqtisadi tərəqqisində də əsl dönüş mərhələsi yaratdı. H.Əliyev həmin dövrdə iqtisadiyyatın mövcud şəraitdə mümkün olan ən münasib strateji inkişaf məqsədlərini əzm və cəsarətlə müəyyən etdi. Onların başlıca mahiyyəti ondan ibarət idi ki, sovet quruluşunun bütün dövrlərində bir çox respublikalarda, xüsusən Azərbaycanda məhsuldar qüvvələrin inkişafında hökm sürən bir sıra yanlış prinsiplərin əksinə olaraq, onun yüksəlişi respublikanın böyük imkanlarının istifadəsinə və zəruri tələblərinin ödənilməsinə əsaslanmalıdır. Ancaq bu yolla Azərbaycanın milli iqtisadiyyatının geniş təşəkkül məqsədlərinə daha çox cavab verən hərtərəfli kompleks inkişaf meylinin möhkəm əsasları yarana bilərdi. Ona görə də, iqtisadiyyatın nəzərdə tutulan boyük miqyaslı inkişafının sürətlə və tələb olunan səviyyədə genişləndirilməsi məqsədilə, ilk növbədə, yaranmış istehsal potensialından tam istifadə edilməsi tələb olunurdu. Lakin respublika iqtisadiyyatını düşdüyü gerilikdən çox qısa vaxtda çıxarmaq üçün təkcə bu vəzifənin həlli kifayət deyildi. Həm də əvvəllər onun sosial-iqtisadi inkişafında əldən verilmiş imkanlar nəticəsində məhsuldar qüvvələrin ümumi səviyyəsində yaranmış boşluqların müəyyən dərəcədə doldurulması üçün zəruri olan əlavə vəsaitin ittifaq hökumətindən alınması məqsədilə böyük müdrikliklə düşünülmüş və elmi cəhətdən əsaslandırılmış tələblərin irəli sürülməsi çox vacib idi. H.Əliyevin təşəbbüsü ilə ittitaq hökuməti Azərbaycanda sənayenin və kənd təsərrüfatının intensiv ınkişafı üçün beş xüsusi qərar qəbul etdi, xeyli vəsait və

maddi-texniki resurslar ayrıldı. Azərbaycanda iqtisadi quruculuq fəaliyyəti 70-ci illərin ilk ilindən sürətlə başlandı. Sərmayə qoyuluşunun həcmi 1971-1985-ci illərdə 32 milyard rubl təşkil edirdi ki, bu da sovet dövrünün əvvəlki 50 ilində cəmi istifadə edilən vəsaitdən 2,1 dəfə çox idi.[33] Başqa sözlə, göstərilən 15 ildə hər il orta hesabla 2133 milyon rubl vəsait istifadə olunurdu ki, bu da əvvəlki 50 ilin orta illik göstəricilərindən 7 dəfə (288 milyon) çox idi.

Respublikada 70-ci illərdən başlayaraq məhsuldar qüvvələrin inkişafı, onun imkanlarından daha səmərəli istifadə edilməsi və müasir inkişaf meyllərinin vəzifələrinə uyğun möhtəşəm quruculuq proqramı iqtisadiyyatın strukturunda zəruri təkmilləşmənin əsasını qoydu.

Azərbaycanda sənayenin maşınqayırma, kimya, neft-kimya, tikinti materialları, yeyinti sənayesi və b. sahələrin inkişaf imkanları çox olduğundan 1971-1985-ci illərdə mənimsənilən sərmayə qoyuluşunun 45%-dən çoxu bu sahələrin artımı üçün istifadə edildi. Məhz buna görə sənaye daha sürətlə inkişaf edirdi. Onun quruluşunda ciddi dəyişikliklər baş verdi. Belə ki, sənayedə maşınqayırma kompleksinin xüsusi çəkisi 1960-cı ildəki 5,1 faizdən 1985-ci ildə 16,4 faizə, kimya, neft-kimya və meşə sənaye kompleksinki müvafiq qaydada 4,1-dən 8,7 faizə, tikinti materialları istehsalı 2,7-dən 3,2 faizə, yeyinti sənaye kompleksinin xüsusi çəkisi 15,3-dən 31,3 faizə qalxdı.[34]

Respublikanın güclü elmi-texniki və istehsal potensialına söykənərək iqtisadiyyatın mühüm istiqamətlərinin inkişafı ardıcıl mərhələlər üzrə həyata keçirilirdi. Zəngin yerli təbii sərvətlər əsasında əlvan metallurgiyanın yeni istehsal sahələri yaranırdı. Qara metallurgiyada yüksək keyfiyyətli məhsullar istehsal edən elektrometallurgiya mənimsənilirdi. Əvvəllər daha çox xammalın ilkin emalı ilə məhdudlaşan kimya sənayesi üzrə müxtəlif çeşidli və təyinatlı məhsullar istehsalı səmərəli inkişaf edirdi. Üzümçülük istehsal kompleksi ilə bağlı yeni sənaye sahələri tərəqqi edirdi. Kənd təsərrüfatı təyinatlı maşınqayırma sənayesində daha əhəmiyyətli yeni müəssisələrin yaradılması sahəsində ciddi işlər görülürdü. Respublika üçün həyati əhəmiyyət kəsb edən maşınqayırmanın önəmli istiqamətləri əsasında yeni müəssisələr yaradılırdı.

XX əsrin 60-cı illərindən başlayaraq, əsasən Sovet İttifaqının başqa ərazi hissələrində, xüsusilə Qərbi Sibirdə yeni neft yataqlarından çox böyük həcmdə daha ucuz xammal çıxarılırdı. Yanacaq sənayesinin inkişafına lazımi qədər vəsait ayrılmaması nəticəsində respublikada 60-cı illərin ikinci yarısından neft hasilatı ildən-ilə aşağı düşməyə başladı. Lakin 80-ci illərin ikinci yarısından onun hasilat səviyyəsi sabitləşdirildi və uzun müddət 13 milyon həcmində saxlanıldı.[35] Bu illərdə Azərbaycanda təbii qazın çıxarılması sahəsində də uğurlar qazanıldı. Qaz hasilatı 1970-ci ildəki 5521 milyon kubmetrdən 1980-ci ildə 14 milyard kubmetrə çatdırıldı.[36] Demək olar ki, 70-80-ci illərdə Azərbaycanın qazlaşdırılması əsasən

başa çatdırıldı. Bakıda müasir texnologiyaya əsaslanan neft emalı üzrə yeni qurğuların yaradılması nəticəsində Azərbaycan qonşu respublikalardan gətirilən xam neftin də emalını həyata keçirirdi.

Neft hasilatının respublikada sabitləşməsi fürsətindən istifadə edərək, Azərbaycanda, o cümlədən onun Xəzər sektorunda karbohidrogen xammalın çox zəngin ehtiyatlara malik olmasına əsaslanaraq, geoloji-kəşfiyyat işlərinin geniş miqyasda həyata keçirilməsinə başlanıldı. Məhz həmin illərdə Azərbaycanın neft sənayesinin Xəzər dənizi hesabına böyük gələcəyini nəzərə alaraq, son dərəcə mühüm bir tədbir həyata keçirildi. Sovet İttifaqının ümumi vəsaitindən alınan 400 milyon dollar hesabına Bakıda dərin dəniz özülləri kimi çox nəhəng bir zavodun tikilməsinə başlandı. 70-80-ci illərdə, xüsusən H.Ə.Əliyevin rəhbərliyi dövründə Azərbaycanın təbii sərvətlərindən respublikanın öz mənafeyi üçün daha səmərəli istifadə edilməsinə diqqət yetirildi. Yerli xammal resurslarından son hazır məhsullar istehsalı sahəsində, hətta mərkəzdən ciddi maneələr törədilsə də, respublikada çox qəti addımlar atıldı. Az vaxt içərisində yerli alüminium xammalı əsasında soyuducular üçün buxarlayıcılar və başqa hazır məhsulların istehsalı təşkil edildi. Salyan plastik kütlə emalı zavodu inşa edildi. Yerli xammal əsasında respublikada bütün növ parça məhsullarının, geniş çeşidli trikotaj, tikiş məmulatlarının və digər çoxlu hazır məhsulun istehsal həcmi artdı. Məsələn, həmin vaxtlar bütün növ parça məhsulları 43 faiz, o cümlədən ipək parçalar iki dəfə, trikotaj məmulatları iki dəfədən çox, xalça və xalça məmulatları beş dəfəyə qədər artdı. Sumqayıtda nəhəng EP-300 qurğusunun yaradılması Azərbaycan kimya sənayesində müxtəlif məhsullar istehsalının əsasını qoydu.

70-80-ci illərdə yeni müəssisələr sənayenin istehsal quruluşunun təkmilləşdirilməsində və məhsul istehsalının artırılmasında əhəmiyyətli rol oynamışdır. Belə ki, həmin illərdə Azərbaycanda 218 yeni sənaye müəssisəsi istifadəyə verildi ki, bu da Sovet hakimiyyətinin əvvəlki 50 ilində istifadəyə verilən yeni sənaye müəssisələrinin 70 faizə qədərini təşkil edirdi.[37] Mingəçevirdə tikilən və Cənubi Qafqazda ən iri elektrik stansiyası - Yeni Azərbaycan Dövlət rayon Elektrik stansiyası, Şəmkir SES-i, Bakı məişət kondisionerləri zavodu, Sumqayıt kompressorlar zavodu, Salyan plastik kütlə emalı zavodu, Mingəçevir yol maşınları zavodu və rezin-texnika məmulatları zavodu, Əli Bayramlı məişət cihazları, habelə sənaye, avtomatika və telemexanika zavodları, Ağdam dəzgahqayırma və metiz-furnitur zavodları, Neftçala yeni yod-brom zavodu, Bakı və Xankəndində iri ayaqqabı fabrikləri, Gəncə xalça, qənnadı və çini-saxsı qablar fabriki, Bakı şampan zavodu, Naxçıvan alt trikotaj fabriki, Yevlax yunun ilkin emalı fabriki, Göyçay pambıqəyirici fabriki, onlarla yüngül yeyinti və başqa sənaye müəssisələri istifadəyə verilmişdi.

Bu müəssisələrin respublikanın müxtəlif bölgələrində yaradılması ilk növbədə, Azərbaycan üçün həmişə çox ciddi probleminin - sənayenin regionlarda qeyri-bərabər yerləşdirilməsinin həllində mühüm rol oynadı. Tarixən Azərbaycanda sənayenin birtərəfli inkişafı ilə əlaqədar onun müəssisələri əsasən Abşeron (Bakı-Sumqayıt) regionunda yerləşdirildiyindən, respublikanın digər ərazilərində iqtisadiyyatın bu aparıcı sahəsinin ümumi inkişaf səviyyəsi həmişə xeyli aşağı olmuşdur. 1970-1985-ci illərdə yaradılan yeni sənaye müəssisələrinin 158-i və ya 72 faizi Bakı-Sumqayıt iqtisadi rayonunun hüdudlarından kənarda, respublikanın başqa ərazi sahələrində istifadəyə verildi. Nəticədə Bakı-Sumqayıt iqtisadi rayonunun respublika sənaye məhsulu istehsalında xüsusi çəkisi 1970-ci ildəki 70 faizdən 1985-ci ildə 50 faizə endi, qalan rayonların payı isə 41 faizə qalxdı.[38]

Respublika ərazisində məhsuldar qüvvələrin, xüsusən sənayenin daha səmərəli yerləşdirilməsi və təkmilləşdirilməsi rayonların simasını kökündən dəyişdirdi, əhalinin sosial-mədəni həyatı, mədəni şüuru, mənəviyyatı ciddi dəyişikliklərə səbəb oldu, yerli əmək ehtiyatlarından daha tam istifadə edilməsində əhəmiyyətli rol oynadı. Belə ki, 1970-1985-ci ildə sənaye sahəsinə 143 min nəfər əlavə işçi cəlb edilmişdi ki, bu da 1940-cı ildə respublikanın bütün sənayesində çalışanlardan da bir qədər çox idi.

Ağır və yüngül sənayenin mühüm sahələri geniş inkişaf etmişdi. 1985-ci ildə 1970-ci ilə nisbətən istehlak malları istehsalının artımı 305,8 faiz, istehsal vasitələri istehsalı üzrə isə 276,1 faiz oldu. Aparıcı sənaye sahələrinin xüsusi çəkisi artdı, istehsal olunmuş bütün məhsulların 28 faizi mütərəqqi sənaye sahələrinin payına düşürdü.

Sov.İKP MK-nın 1976-cı ildə qəbul etdiyi "1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişafı üzrə Azərbaycan KP MK təkliflərinin müzakirəsinin nəticələri haqqında" qərarı, H.Ə.Əliyevin qeyd etdiyi kimi, elmi-texniki tərəqqi əsasında respublikanın sosial-iqtisadi inkişafının prinsipcə yeni mərhələsinin başlanğıcı oldu: 15 iri kompleks işə düşdü.[41]

Elmi-texniki yüksəliş mexanikləşdirilmiş axın və avtomatik xətlərinin, kompleks-mexanikləşdirilmiş və avtomatlaşdırılmış sahələrin, sexlərin istehsalatlarının artmasına şərait yaratdı. Müəssisələrin yeni maşınlarla, texnika ilə təminatı xeyli yaxşılaşdı. 1971-1985-ci illərdə Azərbaycan iqtisadiyyatının inkişafında elmi-texniki tərəqqinin nailiyyətlərindən geniş istifadə edilməsi onun səmərəsini xeyli yüksəltmişdi. Respublika sənayesinin özündə 581 adda maşın, avadanlıq, aparat və cihaz yaradılmışdı. 1985-ci ildə sənayedə 2519 mexanikləşdirilmiş axın xətti, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış istehsal sahəsi uğurla işləyirdi. Sənayedə ilk növbədə elm tutumlu və elmi-texniki tərəqqiyə xüsusi üstünlük

verilirdi. Azərbaycan sənayesi bu illərdə ən yüksək keyfiyyət nəticələrinə nail olmuşdu. Elmi-texniki nailiyyətlərin geniş tətbiqi nəticəsində ən yüksək keyfiyyətli məhsulların xüsusi çəkisi həmin dövrdə 1,3 faizdən 17,2 faizə qalxmışdı. Müəssisələrin texniki cəhətdən yenidən qurulması, elektrotexnika, radiotexnika, dəzgah istehsalı üçün güclü müəssisələr tikmək proqramının həyata keçirilməsi nəticəsində təcrübə-eksperiment zavodu istismara verildi, neft maşınqayırma, elektrotexnika və başqa müəssisələrin çoxu yenidən quruldu. 15 ildə maşınqayırmada istehsalın həcmi 5,3 dəfə artdı, yüzlərlə yeni maşın, aqreqat, avadanlıq, alət mənimsənildi.[42]

Azərbaycan ölkənin ən iri elektrotexnika sənayesi mərkəzlərindən biri oldu. Respublika elektrotexnika sənayesinin flaqmanı Sovet İttifaqının ən böyük zavodlarından biri - Bakı məişət kondisionerləri zavodu idi. Bu zavod 1975-ci ildə H.Ə.Əliyevin təşəbbüsü ilə tikildi. Bu zavodun tikilməyə başlanmasının birinci günündən onunla bağlı bütün məsələlər şəxsən H.Ə.Əliyevin daimi diqqəti və inadlı əməyi sayəsində həll olunurdu. Zavod ildə 400 min kondisioner istehsal etmək gücünə malik idi. 70-ci illərin axırlarında radiomaşınqayırma, elektrik sobaları istehsal edən zavodlar, alət istehsalı zavodunun ikinci növbəsi və başqa müəssisələrin tikintisinə başlandı.

Respublikada iri maşınqayırma kompleksi ölkə üçün vacib olan neft-mədən texnikasının 70 faizdən çoxunu istehsal edirdi.

70-ci illərdə neft sənayesinin inkişafında da yeni dəyişikliklər baş verdi. Həmin illərin ikinci yarısında 42 yeni perspektivli sahələr açıldı, 6 km və daha dərin quyuları istismar imkanları yarandı, neftçilər ilk növbədə dənizin 84 m dərinliyindən neft çıxaran buruqları yaratdılar, yer səthindən 15 km dərinlikdə nadir quyu qazdılar. Geoloji kəşfiyyatın effektivliyi xeyli yüksəldi, 22 neft və qaz yatağı kəşf olundu.[43] 60-cı illərə nisbətən neftin sənaye ehtiyatları 3 dəfə, qazıntı isə 2 dəfə artdı. Bulla - dəniz, Muradxanlı, Kəmaləddin, 28 Aprel adına yeni neft yataqları neft və qaz verməyə başladı. Neft mədənlərinin yarıdan çoxu avtomatlaşdırıldı.[44]

Üzən buruqlardan "Azərbaycan", "Xəzər", "Oktyabrın 60 illiyi" vasitəsilə dəniz suyunun 60-70 m qatı altında dərinliyi 6000 m-ə çatan quyular qazılırdı. 70-ci illərdə dərin dəniz özülləri hazırlayan iri zavodun tikintisinə başlanıldı. Zavod 1986-cı ildə fəaliyyətə başladı.[45] Bu istiqamətdə yeniliyin tətbiqi nəticəsində xeyli yüksək keyfiyyətli Azərbaycan nefti əldə edildi.

Lakin bir çox müəssisələrdə yeni texnologiya zəif tətbiq edilir, neft məhsullarının itkisi baş verirdi. Qazıntıda, xüsusən kəşfiyyatda hələ çatışmazlıqlar var idi. Bunun nəticəsində neft hasilatını artırmaq kimi əsas vəzifə həyata keçirilmirdi. Bakı şəhərindəki 18 neft-qaz çıxaran və qazıntı ilə məşğul olan müəssisədən 8-i öz vəzifəsinin öhdəsindən gəlmirdi.[46]

Neft çıxarılmasının azalması prosesi bütün yanacaq kompleksinin inkişafına mənfi təsir göstərirdi. Neft emalı sahəsində 1971-ci ildən geniş miqyaslı yenidənqurma işi həyata keçirildi. 1976-cı ildə YBNZ-də rcspublikada ən iri neft emalı kompleksi ELOU-AVT qurğusu istismara verildi, texnoloji proseslər təkmilləşdirildi, neft emalı üsulu yaxşılaşdırıldı, yüksək keyfiyyətli benzin istehsalı bir yarım dəfəyə qədər, yüksək keyfiyyətli sürtkü yağları istehsalı isə 7,5 dəfə artdı.[47]

70-80-ci illərdə kimya və neft-kimya sənayesinə xlor, kaustik soda, kükürd turşusu, sulfanol istehsal edən iri müəssisələr əlavə olundu, sintetik yuyucu vasitələr, superfosfat istehsalı üzrə iri müəssisələr işə düşdü. Mineral gübrə, plastik kütlə, sintetik kauçuk və sulfanol, kükürd turşusu, məişət kimyası malları istehsalı çoxaldı.

Respublikada energetika sənayesi sürətlə inkişaf edirdi. Araz üzərində İran İslam Respublikası ilə müştərək su-elektrik stansiyası, Sumqayıt elektrik stansiyasının ikinci növbəsi, "Qırmızı ulduz" elektrik stansiyasında iki iri boru generatoru işə düşmüşdü. Şamxor enerji kompleksinin və Azərbaycan Dövlət rayon elektrik stansiyasının tikintisinə başlanılmışdı. Əgər 1970-ci ildə Elektrik Stansiyalarının gücü 2741 min kilovat idisə, 1985-ci ildə bu, 4649 min kilovata bərabər olmuşdu, elektrik enerjisi istehsalı 12.027 milyon kilovat-saatdan 20.702 kilovat-saata çatmışdı.[48]

Metallurgiya sənayesinin inkişafında müəyyən irəliləyişlər baş vermişdi. Polad istehsalı 1970-ci ildə 441,4 min tondan 1980-ci ildə 575,0 tona çatmışdı.[49] Azərbaycan boru-prokat zavodunda II mexanikləşdirilmiş və avtomatlaşdırılmış xətlər istismara verilmiş, "252-2" boru-prokat dəzgahı yenidən qurulmuş, boru istehsalı 2,1 dəfə artmışdı.[50] Zavodun məhsullarından SSRİ-dən başqa 17 xarici ölkənin neft rayonlarında geniş istifadə olunurdu.

70-80-ci illərdə respublikada əlvan metallurgiya sənayesinin coğrafi sərhədləri genişləndi. 80-ci ildə bu istehsal sahəsi üzrə Bakıda, Naxçıvanda və Gəncədə müəssisələr yaradıldı.

Yüngül sənaye məhsulları 1985-ci ildə əvvəlki illərə nisbətən artdı, pambıq lifi istehsalı 251,1 min ton, xam ipək sapı 456 ton, yun iplik 8,2 min ton, alt trikotaj paltarı 27,9 milyon ədəd, üst trikotaj paltarı 12,9 milyon ədəd, xalça-palaz və xalça məmulatı 4045 min kv.m-ə bərabər oldu.

Azərbaycanın ənənəvi sənayesi - yeyinti sənayesi ən sürətlə inkişaf edən sahələr sırasında idi. Yeyinti məhsulları istehsalının həcminə görə Azərbaycan yüksək rekorda malik idi. Məsələn, 1985-ci ildə respublikada 76,8 min ton ət, 29,1 min ton kolbasa məmulatları, 219,6 min ton üzlü süd məhsulları, 54,8 min ton bitki yağı, 619,9 milyon şərti banka müxtəlif konservlər, 94,9 min ton qənnadı məmulatları, 164,1 milyon yarımlitrlik şüşə mineral sular, 117,9 min ton duz, 18,6

min ton təbii çay və s. yeyinti sənaye məhsulları hasil edilmişdi.[51] Bütövlükdə, yeyinti sənayesi istehsal olunan məhsulun ümumi həcminə görə Azərbaycan sənaye sahələri üzrə birinci yerdə dururdu.

Azərbaycan Respublikası qiymətli neft məhsulları, neft avadanlığı, polad boru, əlvan metal, sintetik kauçuk, elektrik mühərrikləri, tikinti materialları, məişət kondisionerləri, avtomobil təkərləri, pambıq lifi, şərab materialları, konservlər istehsalında Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Respublikanın 350 növ yüksək keyfiyyətli məmulatı dünyanın 65 ölkəsinə ixrac olunurdu.

Lakin bütün İttifaqda olduğu kimi, Azərbaycanda da iqtisadiyyatın mövcud idarəetmə üsulları onun inkişafını ləngidirdi. Köhnə təsərrüfat mexanizminin həvəsləndirici fəaliyyəti daha da zəifləmişdi. Artıq köhnə üsullarla iqtisadiyyatı inkişaf etdirməyin mürnkün olmaması əlamətləri getdikcə özünü daha çox büruzə verirdi.

Azərbaycan sənayesini 80-ci illərdə inkişaf etdirmək üçün kapital qoyuluşu 24,535 milyon manat təşkil edirdi.[52] Lakin əsas fondların artımı yalnız 22,223 milyon manat oldu,[53] yəni kapital qoyuluşu planı yerinə yetirilmədi. Tikintinin möhkəm istehsal bazasını yaratmaq məsələləri bəzən ləng həll olunurdu. Tikinti təşkilatlarının işinə qüvvələrin və vəsaitin sayca çox, həm də ikinci dərəcəli obyektlər arasında parçalanması mane olurdu.

Azərbaycan iqtisadiyyatının 70-80-ci illərin birinci yarısında böyük yüksəlişi, təbii ki, ancaq onu təşkil edən bütün sahələrinin həmahəng inkişafı zəminində başa çatdırılması respublikanın rəhbərliyinə H.Ə.Əliyevin şəxsi təşəbbüsü, düşüncəsi, inadlı fəaliyyəti sayəsində mümkün oldu.

Azərbaycanın vahid xalq təsərrüfatı kompleksinin çox mühüm sahələrindən biri olan nəqliyyatın da yeni tələblərə cavab verən səviyyədə inkişafı xüsusilə zəruri idi. Bu cəhətdən, ilk növbədə, strateji əhəmiyyətə malik, habelə respublikanın zəngin xammal ehtiyatlarından səmərəli istifadə edilməsi və onun iqtisadiyyatının arasıkəsilmədən tarazlı inkişafı üçün zəruri olan istiqamətlərdə yeni nəqliyyat şəbəkələri yaradılmasının uğurla həyata keçirilməsi çox əhəmiyyətli oldu. Azərbaycan ərazisinin şimal-qərb hissəsini Bakı-Tbilisi dəmir yolu xətti ilə birləşdirən Yevlax-Balakən (uzunluğu-162 km) dəmir yolu tikilib istifadəyə verildi. Bu yolun inşası Azərbaycan ərazisinin böyük bir hissəsini respublikanın ümumi dəmiryol şəbəkəsilə birləşdirməklə, çoxlu xalq təsərrüfatı yüklərinin səmərəli daşınmasına əlverişli şərait yaratdı. Ağdam-Xankəndi, Ağstafa-İcevan və s. dəmir yol xətləri də istifadəyə verildi. 70-ci və 80-ci illərin birinci yarısında dəmir yol xətlərinin uzunluğu 257 km artdı ki, bu da əvvəlki 50 illik sovet hakimiyyəti məkanında istifadəyə verilən dəmiryol xətlərinin ümumi uzunluğunun 25 faizə qədərini təşkil edirdi. İstismarda olan dəmir yol xətlərinin uzunluğu 1970-

ci ildəki 1811-dən 1985-ci ildə 2067 km-ə, o cümlədən elektrikləşmiş xətlərin uzunluğu 269-dan 1141 km-ə çatdı. Biləcəri deposu istifadəyə verildi.

Avtomobil yollarının inkişafında da əhəmiyyətli irəliləyişlər baş vermişdi. Bərk örtüklü avtomobil yollarının ümumi uzunluğu 1970-ci ildəki 13,4 min km-dən 1985-ci ildə 22,4 min km-ə çatdı.[54] Nəqliyyatın başqa vasitələrinin inkişafında da əhəmiyyətli nailiyyətlər əldə edildi. Nəticədə ümumi istifadədə olunan nəqliyyatın bütün növlərində yük dövriyyəsi həcmi 1970-ci ildəki 42439 milyon ton-kilometrdən 1985-ci ildə 61579 milyon ton-kilometrə çatdı.

70-80-ci illərdə nəqliyyatın başqa sahələrində də dəyişikliklər baş vermişdi. 1970-ci ildə Bakı metrosunun "Ulduz" stansiyası istifadəyə verildi. 1972-ci il noyabrın 6-da metropolitenin Bakının mərkəzini "8-ci kilometr" yaşayış massivi ilə birləşdirən yeni xətti işə düşdü. 1976-cı ildə "Nizami", 1979-cu ildə "Bakmil" (Depo) stansiyaları açıldı. 1985-ci il dekabrın 31-də Bakı metropoliteninin ikinci növbəsi - "Elmlər Akademiyası", "İnşaatçılar", "XI Qızıl Ordu" (indiki - "20 Yanvar") və "Memar Əcəmi" stansiyaları istifadəyə verildi. Bakı metro stansiyalarının sayı 16-ya, yeraltı magistralın uzunluğu 25 km-ə çatdı. 1989-cu ildə "Xalqlar dostluğu" və "Əhmədli" stansiyaları işə salındı.[55]

Azərbaycanın dəniz nəqliyyatı da inkişaf edirdi. Bakı dəniz gəmiçiliyi neftdaşıyan, quru maldaşıyan, sərnişindaşıyan böyük donanmaya malik idi. Bakı-Krasnovodsk bərəsi ilə daşınma Qafqazın Orta Asiya, Qazaxıstan və Sibir ilə nəqliyyat əlaqələrini yaxşılaşdırmışdı. Qara dənizdə olan Xəzər dəniz gəmiçiliyi gəmiləri İtaliya, Əlcəzair, Birləşmiş Ərəb Respublikası, Polşa, Rumıniya, Bolqarıstan və b. bir çox ölkələrin limanlarına ardıcıl reyslər edirdilər.

1985-ci ildə Xəzərdə yeni bərə keçidi açıldı. Bu bərə Azərbaycanı Qazaxıstanla birləşdirdi. Yeni xəttin hazırlanması və açılmasına hazırlıqla əlaqədar olaraq donanmanın bərələrinin sayı artırıldı. Xəzərə "Sovet Dağıstanı" və "Sovet Tacikistanı" gəmiləri gətirildi. 80-ci illərin birinci yarısında Xəzər dəniz gəmiçiliyində donanmanın üçdə biri təzələndi.

Respublika iqtisadiyyatında mülki aviasiya mühüm rol oynayırdı. 70-ci illərdə Naxçıvanda, Xankəndində, Balakəndə, Zaqatalada YK-40 reaktiv təyyarələrini qəbul etmək üçün təbii örtüyü olan uçuş-enmə zolaqları yaradıldı. 1974-cü ildə Naxçıvanda hava limanı tikildi. Füzulidə, Naftalanda yeni aerovağzallar yaradıldı. 70-ci illərin birinci yarısında Bakı təyyarə limanı yenidən quruldu, təyyarə parkı təzələndi,[56] TU-154 magistral təyyarəsini qəbul etmək üçün uçuş- enmə xətti yaradıldı.

80-ci illərdə Bakıda Hava Rabitəsi Mərkəzi Agentliyinin yeni binası açıldı. 1985-ci ildə Bakı Sovet İttifaqının 80 şəhəri və sənaye mərkəzləri ilə hava xətti ilə birləşdirildi, Gəncədə yeni aerovağzal istifadəyə verildi.

Şəhərlərarası, şəhərlərətrafı, şəhərlərdaxili sərnişin daşınması xeyli artmışdı. Şəhərlərarası avtobus xətləri 1970-ci ildə 302-dən 1990-cı ildə 426-ya çatdı. Avtomobil nəqliyyatı ilə sərnişindaşımaları 1970-1985-ci illərdə 3 dəfə çoxalmışdı.[57]

Nəqliyyatın digər növləri də inkişaf edirdi. 1970-ci ildə taksi maşınlarında 22,9 milyon, 1980-ci ildə 42 milyon, 1985-ci ildə isə 60 milyon sərnişin daşınmışdı.[58] Sərnişinlərin tramvayla daşınması ənənəsi azalmağa doğru gedirdi. 1960-cı ildə 100,2 milyon nəfər, 1980-ci ildə isə 35,3 milyon nəfər sərnişin daşınmışdı.[59] Sərnişinlərin daşınmasında trolleybusların rolu artmışdı, 1970-ci ildə 57,5 milyon nəfərdən 1980-ci ildə 80,9 milyon nəfərə çatmışdı.[60]

Lakin nəqliyyatın bütün növlərinin işində nöqsanlar da var idi. 80-ci illərin ortalarında dəmiryol nəqliyyatında yük vaqonlarının hərəkəti xeyli ixtisara düşmüşdü. Yük və sərnişin qatarlarının hərəkət cədvəlləri yerinə yetirilmir, əsas yüklərin daşınmasında stansiyaların işində fasilələr baş verirdi.

Xəzər gəmiçiliyinin işində tez-tez işsiz dayanma halları olurdu. Yükdaşıma və hərəkət vaxtından səmərəli istifadə əmsalı azalırdı.

Avtomobil nəqliyyatı bazasının zəifliyi və avtomobil təmirinin lazımi səviyyədə təşkil olunmaması avtomobil və aqreqat ehtiyatlarından tam istifadə etməyə imkan vermirdi. Yükdaşıyan avtomobillərin məhsuldarlığı aşağı düşürdü, mərkəzləşdirilmiş istismar işi də lazımi səviyyədə deyildi.

Respublikada poçt rabitəsi sürətlə inkişaf edirdi. Müəssisələrin 1970-ci ildə teleqraf və telefonlarının sayı 1555, 1980-ci ildə 1846, 1985-ci ildə 1869 idi.[61] Müəssisələrin, idarələrin və əhalinin telefon rabitəsi üzrə tələblərini təmin etmək sahəsində böyük işlər görülürdü. 1976-cı ildə Bakının telefon rabitəsinin 90 min telefon nömrəsini özündə birləşdirən 36 telefon stansiyası vardı. Mənzil telefon aparatının sayı 1970-ci ildə 30,8 min, 1980-ci ildə 230,9 min idi.

Azərbaycanda 1970-1985-ci illərdə həyata keçirilən böyük miqyaslı quruculuq işlərinin uğurlu nəticələrində bütövlükdə tikinti komplekslərinin tələblərə uyğun səviyyədə inkişafının müstəsna əhəmiyyəti olmuşdu. Təkcə bu sahədə işin həcmi əvvəlki 15 ilə nisbətən 2,6 dəfə çox idi. 1981-1985-ci illərdə istifadəyə verilən əsas fondların həcmi 15 ili əhatə edən 1956-1970-ci illərə nisbətən 20 faiz çox olmuşdu. Dövlət işəmuzd və quraşdırma təşkilatlarının miqdarı 1970-ci ildəki 322-dən 1985-ci ildə 569-a, dövlət tikinti quraşdırma trestlərinin sayı isə 42-dən 71-ə çatdırıldı.[62]

1970-1980-ci illərdə respublikada kənd təsərrüfatının maddi bazasının genişləndirilməsinə əsaslanan təsərrüfatçılıq üsullarından daha səmərəli istifadə edilməsi ilə yanaşı, torpaq fondunun intensiv yollarla mənimsənilməsi sistemi də gücləndirilmişdi. Ümumiyyətlə, o illərdə kənd təsərrüfatının intensivləşdirilmə əsasında inkişafı müəyyənləşdirildi. Azərbaycan şəraitində müstəsna əhəmiyyətə

malik aqrotexniki xidmətin səviyyəsinin yüksəldilməsi üçün (kimyalaşdırma, meliorasiya üzrə region proqramları, dövlət proqramları çərçivəsində investisiya siyasəti) xeyli kolxozun sovxoza çevrilməsi hesabına mühüm nəticələr əldə edildi.

Azərbaycanda kənd təsərrüfatına yararlı torpaqlar nisbətən məhdud miqdardadır. Buna görə də kənd təsərrüfatında məhsuldar qüvvələrin mümkün ehtiyatlarından tam və hərtərəfli istifadə edilməsi vacib idi. Lakin bu vacib məsələdə bütün əvvəlki dövrlərdə onun düzgün həllində elə bir əsaslı dönüş əldə edilməmişdi. Bunun üçün, ilk növbədə respublikada kənd təsərrüfatının ayrı-ayrı sahələrini onların hər birinə daha çox münasib olan əlverişli torpaq-iqlim şəraitində yüksək səviyyədə inkişaf etdirmək yolu ilə əkinçilik və heyvandarlığın müxtəlif təbii-iqtisadi zonalar üzrə səmərəli ixtisaslaşması və təmərküzləşməsi tələb olunurdu. Məhz 70-80-ci illərdə Azərbaycan kənd təsərrüfatında qazanılan uğurların təməlində, birinci növbədə onun inkişafının bu başlıca şərtinin tələblərinin düzgün qiymətləndirilib istifadə edilməsində mühüm addımlar atıldı.

Bundan başqa, kənd təsərrüfatının böyük nailiyyətlərində Azərbaycan şəraitində müstəsna əhəmiyyət kəsb edən suvarılan torpaq sahələrinin artırılmasının da böyük rolu oldu. Respublikada mühüm əhəmiyyətə malik çoxlu su təsərrüfatı qurğusu yaradıldı və kanallar çəkildi. 70-80-ci illərdə bir çox hidrotexniki komplekslər və dəryaçalar, o cümlədən Tərtərçay və Yuxarı Xanbulançay su təsərrüfatı kompleksləri, Araz, Şamxor, Arpaçay, Nurs, Sirab, Bənənyar, Aşağı Köndələnçay dəryaçaları, Baş Mil, Lənkəran kanalları, Yuxarı Şirvan kanalının Ağsu qolu və başqa obyektlər istifadəyə verilmişdi. Bu tədbirlər nəticəsində suvarılan əkin sahələri təqribən 30 faizə qədər artdı.[63]

1970-1985-ci illərdə respublikada kənd təsərrüfatı təyinatlı torpaqlar həcmcə az dəyişmişdi. Kənd təsərrüfatına yararlı torpaqların sahəsi 4032 min hektardan 4327 min hektara (artım 285 m.h.) qalxmışdı. Onlardan şum yerləri 1320 min hektardan 1454,3 min hektara (artım 134,3 m.h.), biçənək sahələri 112 mindən 124 min hektara, otlaqlar və örüşlər isə 1089 min hektardan 2245 min hektara qədər artmışdı.

Yeni texnika və texnologiyanın, səmərəli əkinçilik sistemlərinin tətbiqi, növbəli əkinçilik sisteminin geniş mənimsənilməsi, kənd təsərrüfatına yararlı torpaqların, xüsusilə də əkin yerlərinin istifadəsi vəziyyətə əhəmiyyətli təsir göstərdi. Əkin sahələrinin məhsuldarlığını artırmaq məqsədilə mədən gübrələrinin, bitkiləri xəstəlikdən və ziyanvericilərdən qoruyan kimyəvi vasitələrin tətbiqi genişlənməyə başlayır.

Geniş şoran torpaqların, quru iqlimi və az suyu olan Azərbaycan üçün meliorasiya tədbirlərinin çox mühüm iqtisadi və sosial əhəmiyyəti vardır. Bu baxımdan respublikada müəyyən işlər görülmüşdü. 1975-1985-ci illərdə 192 min hektardan çox yeni suvarılan, 381 min hektardan çox sahə meliorasiya cəhətdən

yaxşılaşdırılmış, 493 min hektara qədər əsaslı surətdə hamarlanmış torpaq istifadəyə verilmiş, 989 min hektar otlağa su çıxarılmışdı.[64]

Əsaslı vəsait qoyuluşunun artması əməyin fondlarla silahlanma səviyyəsini nisbətən yüksəltmişdi və 1985-ci ildə burada 7 milyard 394 milyon manatlıq kənd təsərrüfatının əsas istehsal fondları vardı. Lakin kənd təsərrüfatında əməyin fondlarla silahlanma səviyyəsi hələ SSRİ üzrə orta göstəricidən çox aşağı idi və bu gerilik ildən-ilə artırdı. Belə ki, Azərbaycan SSR-də kolxoz və sovxoz, təsərrüfatlararası kənd təsərrüfatı müəssisələrində əməyin əsas fondlarının təchizat səviyyəsi ölkə üzrə orta göstəricidən 1970-ci ildə 1,6 dəfə, 80-ci ildə 2,3 dəfə, 1986-cı ildə isə artıq 2,6 dəfə aşağı olmuşdu. SSRİ-də kənd təsərrüfatı üçün maşınlar, digər texniki istehsalın artması kolxoz və sovxoz istehsalının texniki vasitələrlə daha yaxşı təchiz edilməsinə şərait yaratmışdı. 1985-ci ildə Azərbaycan SSR kənd təsərrüfatı müəssisələrində 38,4 min traktor, 4,5 min taxılyığan kombayn, 7,2 min pambıqyığan maşın və s. kənd təsərrüfatı texnikası var idi.[65]

Texniki vasitələrin getdikcə təkmilləşməsi, gücünün, məhsuldarlığının artması, idarə olunmasının daha mürəkkəb, intellektual xarakter kəsb etməsi, kənd təsərrüfatı əməyində mütərəqqi dəyişikliklər əhəmiyyətli təsir edən amillərdən biri idi. Respublika kənd təsərrüfatının texniki bazası hər beş ildən bir tamamilə təzələnirdi.

Elmi-texniki tərəqqi gücləndikcə, təsərrüfatlar nisbətən daha mükəmməl texnika və mexanizmlərlə təchiz olunduqca, istehsalın və əməyin enerji ilə silahlanma səviyyəsi artırdı. Lakin kənd təsərrüfatında əməyin enerji ilə silahlanma səviyyəsinin artmasına görə respublika ölkə üzrə orta göstəricilərdən hələ geri qalırdı.

Kənd təsərrüfatının məhsuldar qüvvələrinin inkişafı kənd əməkçilərinin peşə ustalığının artmasını tələb edirdi. Azərbaycanda kənd texniki-peşə məktəblərinin sayı ildən-ilə artırdı. Bu məktəblərdə oxuyanların sayı 1970-ci ildə 8,3-dən 1989-cu ildə 48,6 min nəfərə çatmışdı. Bütövlükdə 1961-1990-cı illərdə respublikanın kənd təsərrüfatı üçün 444 min kütləvi peşə kadrları hazırlanmışdı.

Kənd təsərrüfatında mülkiyyət münasibətlərində dəyişiklik baş vermişdi. Kənd təsərrüfatında dövlət mülkiyyətinin rolu getdikcə artırdı. Sovxozların sayı 1985-ci ildə 808-ə çatmışdı. Kolxozların sayı isə 1970-ci ildəki 992-dən 1985-ci ildə 608-ə enmişdi. Sovxozların 1970-ci ildəki əkin sahələri 328,6 min hektardan 1985-ci ildə 516 min hektara qədər genişlənmiş, kənd təsərrüfatı məhsullarının ümumi istehsalında bu bölmənin xüsusi çəkisi xeyli artmışdı.[66]

Kolxozların sovxozlara çevrilməsi bir sıra mənfi sosial hallar da doğurdu. Kənd əhalisinin şəhərə axını gücləndi, məşğulluq problemləri yarandı.

Kənd təsərrüfatının ixtisaslaşdırılması sahəsində elmi cəhətdən əsaslandırılmış tədbirlər həyata keçirildi.

70-ci illərdə Azərbaycanda kənd təsərrüfatında əmək bölgüsünün dərinləşməsi prosesi sürətləndi. Pambıq istehsalı Muğan-Salyan, Mil-Qarabağ və Şirvan zonalarında təmərküzləşmişdi. 60-cı illərin əvvəllərində respublikada 32 rayonda pambıq istehsal edilirdisə, 80-ci illərdə belə rayonların sayı 18 idi.[67] Bərdə, Ağcabədi, Sabirabad və Jdanov (indiki Beyləqan) rayonları pambığın iri istehsalçılarına çevrilmişdi. Əgər 1969-cu ildə pambıq əkini sahələri 197,6 min hektar idisə, 1985-ci ildə 295,5 min hektara çatmışdı.

Başqa sahələrdə də dərin ixtisaslaşma gedirdi. Tərəvəzin 92 faizdən çoxu Lənkəran-Astara və Quba-Xaçmaz, meyvə və giləmeyvənin 80 faizdən çoxu Quba-Xaçmaz və Şəki-Zaqatala, tütünün 90 faizindən çoxu Şəki-Zaqatala və Naxçıvan zonalarında istehsal olunurdu. Çay yarpağının 98 faizdən çoxu Lənkəran-Astara zonasında becərilirdi. Taxılçılıq əsasən Mərkəzi Aran zonasında, Şəki, İsmayıllı rayonlarında təmərküzləşmişdi. Demək olar ki, bütün təbii-iqtisadi zonalarda üzümçülük üzrə ixtisaslaşdırılmış təsərrüfatlar təşkil olunmuşdu.

1970-ci illərin sonundan başlayaraq respublikada üzümçülük sürətlə inkişaf etdirildi, onun sahələrinin 75 faizini texniki üzüm sortları təşkil edirdi.[68]

İxtisaslaşmadakı qüsurlara, yerli şəraitin düzgün qiymətləndirilməməsinə, respublikanın iqtisadi potensialından səmərəli istifadə olunmasına laqeyd münasibət mövcud idi. Kənd təsərrüfatının idarə edilməsinin daha mütərəqqi forma və metodları axtarılırdı. Kənd təsərrüfatının artan kadr və istehsal potensialına, təsərrüfatlararası kooperasiya və aqrosənaye inteqrasiyasının çatdığı səviyyəyə müvafiq olaraq aqrar sahənin idarə edilməsinin sahə strukturlarının ləğv edilməsi zərurətini qarşıya qoydu. Kənd təsərrüfatı məhsullarının tədarükü, saxlanılması, emalı və göndərilməsi zamanı yol verilmiş böyük itkilər və aqrar-sənaye kompleksindəki mövcud ziddiyyətlər investisiya siyasətinə yenidən baxılmasını və bu kompleksin vahid idarəetmə orqanlarının yaradılmasını tələb edirdi. Mərkəzi hakimiyyət orqanlarının qərarlarına əsasən 1982-ci ildən rayon aqrar-sənaye birlikləri yaradılmağa başlandı. Aqrosənaye kompleksi tədricən təşkilatca formalaşdı, 1985-ci ilin sonlarında isə bu, başa çatdırıldı. 80-ci illərin birinci yarısında kəndli əməyinin məhsuldarlığına kollektiv podratın səmərəli təsir göstərəcəyinə ümid bəslənilirdi. Kolxoz və sovxozlarda 1983-cü ildə 948, 1988-ci ildə isə 32 mindən çox manqa və briqada podrat üsulu ilə işləyirdi.[69] Kollektiv podratın düzgün təşkili əməyin maddi və sosial-iqtisadi şəraitinə əhəmiyyətli təsir edirdi.

Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illərdə ən mühüm iqtisadi nəticələrdən birini kənd təsərrüfatının dinamik inkişaf etməsi, ölkənin və respublikanın bütün iqtisadiyyatında onun rolunun artması təşkil edir. Bu dövrdə istehsalın elmi əsaslarla intensivləşdirilməsi və təkmilləşdirilməsi kənd təsərrüfatında nailiyyətlərin artmasında mühüm rol oynadı. Kənd təsərrüfatında

dərin islahatlar səviyyəsində həyata keçirilən zəruri yeniləşmə onun inkişafının heç zaman görünməmiş tərəqqisini təmin etdi. Respublikada kənd təsərrüfatının ümumi məhsulunun həcmi 1981 -1985-ci illərdə orta hesabla 1966-1970-ci illərin orta səviyyəsinə nisbətən 2,6 dəfə çoxaldı.[70] Əkinçiliyin bütün sahələrində məhsul istehsalının həcmi yüksək dərəcədə artmışdı. Məsələn, 1966-70-ci illərə nisbətən 1981-85-ci illərdə orta illik məhsul istehsalı taxıl üzrə 710,5 min tondan 1239,5 min tona, müvafiq qaydada pambıq 327,7-dən 861,4 min tona, tütün 21,2-dən 56,9 min tona, kartof 122,5-dən 189,8 min tona, tərəvəz 364,5-dən 890,4 min tona, meyvə və giləmeyvələr 82,8-dən 317,5 min tona, üzüm 232-dən 1829, 2 min tona, çay 9,2-dən 29,2 min tona çatmışdı.[71]

Taxıl istehsalının intensivləşdirilməsi kənd təsərrüfatının inkişafının ən mühüm problemlərindən biri olaraq qalırdı. 1970-ci ildə respublikada dənli bitkilər 622 min hektardan çox sahəni tuturdu, bütün əkin sahəsinin 52 faizi onların payına düşürdü, həm də bu bitkilərin yarısı suvarılmayan torpaqlarda idi.[72] Lakin buna baxmayaraq, xeyli vaxt idi ki, respublikada bu sahə də başlı-başına buraxılmışdı. Buna səbəb, ilk növbədə, dənli bitkilərin əkilib-becərilməsinə diqqətin zəifləməsi idi. 70-80-ci illərdə taxılçılıq mədəniyyətinin yüksəldilməsinə, dənli bitkilərin sort tərkibinin dəyişdirilməsinə, onların əkin və biçin texnologiyasının yaxşılaşdırılmasına diqqət artdı, yalnız yüksək məhsuldar buğda sortları əkilməyə başlandı, nəticədə 1985-ci ildə əkin sahələri 1970-ci ildəkinə nisbətən 128 min hektar azalsa da, taxıl yığımı bu dövrdə təqribən 1,8 dəfə artdı.[73]

1970-ci ildən etibarən Azərbaycanda pambıqçılığın mühüm yüksəliş dövrü, böyük kapital qoyuluşu hesabına sahə üzrə güclü və müasir istehsal-emal potensialı yaradılmağa başlandı. Nəticədə 1985-ci ildə pambıq istehsalının həcmi 787,8 min tona, məhsuldarlıq isə 26,7 sentnerə çatdırıldı.[74] Ümumi illik istehsal gücü 1200 min ton olan müasir emal sənayesi kompleksi yaradıldı. Azərbaycanda üzümçülüyün təbii-iqtisadi zonalar üzrə dərin ixtisaslaşdırılması, üzümçülük sahələrinin genişləndirilməsi prosesi getdikcə güclənmiş və nəticədə kənd təsərrüfatı istehsalının strukturlarında bu sahənin xüsusi çəkisi artmışdı. Üzüm plantasiyaları 1970-ci ildəki 121,6 min hektardan 1985-ci ildə 268 min hektara qalxaraq, 2,2 dəfə artdı. Tovuz rayonunda M.B.Qasımov, Frunze, Engels adına sovxoz-zavodlar, Cəlilabad rayonundakı R.Axundov, Şamaxı rayonundakı V.İ.Lenin adına sovxoz-zavodlar üzümçülük üzrə ixtisaslaşdırılmış rentabelli təsərrüfatlar idi. Cəlilabad, Şamxor, Xanlar, Naxçıvan MSSR kimi iri üzümçülük rayonları meydana gəlmişdi. Respublikada hazırlanan şərablar, konyaklar İtaliya, Fransa, Yuqoslaviya sərgilərində qızıl və gümüş medallara layiq görülmüşdü.[75]

1970-1980-ci illərdə yeni maddi-texniki bazaya və sənaye xarakterli texnologiyalara əsaslanaraq, kənd təsərrüfatının tərəvəzçilik, çayçılıq, tütünçülük, meyvəçilik, quşçuluq və digər sahələri dinamik inkişaf etmişdir.

Kolxoz və sovxozlar, müxtəlif təsərrüfatlararası birliklər kənd təsərrüfatı sistemində əsas forma olmaq etibarilə məhsul istehsalında həlledici rol oynasa da, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsi zərurəti yardımçı təsərrüfatların rol və əhəmiyyətinin artmasını tələb edirdi. 1985-ci ildə Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsulunun 25,5 faizi onların payına düşürdü. 70-80-ci illərdə şəxsi təsərrüfatların istifadəsində olan torpaq sahələri artmaqla yanaşı, mal-qaranın, xüsusilə qoyun və keçilərin sayı xeyli çoxalmışdır. Hər ilin əvvəlinə olan məlumata görə, respublikamızda kolxozçuların, fəhlə və qulluqçuların şəxsi yardımçı təsərrüfatlarında qaramalın sayı 1970-ci ildəki 893,3 min başdan 1985-cı ildə 1040,9 min başa, qoyun və keçilərin sayı isə 1807,3 min başdan 2284,9 min başa, donuzların sayı 22,3 min başdan 24,1 min başa çatmışdı.[76] Bu illərdə inkişafı üçün lazımi şərait olmasa da, şəxsi yardımçı təsərrüfatlarda ət və süd istehsalı xeyli artmışdı. Meyvə, üzüm, tütün, tərəvəz, kartof, bostan məhsullarının da xeyli hissəsi şəxsi yardımçı təsərrüfatlar hesabına əldə olunurdu.

İqtisadi potensialı ilbəil möhkəmlənən respublikada yeni-yeni inkişaf imkanları üzə çıxırdı. Onların gerçəkləşdirilməsi üçün H.Əliyev düşünülmüş və əsaslandırılmış maliyyə və başqa resurs təminatı almaq barədə vəzifələr irəli sürürdü. Bu, ilk növbədə, Azərbaycanın o zaman ölkədə çox yüksəklərə qalxan nüfuzu və SSRİ məkanında tutduğu mövqeyi ilə bağlı idi. Həmin dövrdə Azərbaycanda ölkənin bütün neft-mədən avadanlığının üçdə iki hissəsi, məişət kondisionerlərinin hamısı, sintetik kauçuk və bir sıra digər kimya məhsullarının xeyli hissəsi istehsal olunurdu. Respublika 70-ci illərin axırında ildə orta hesabla 2 milyon tona qədər üzüm istehsal edərək İttifaqda birinci yerdə, 700-800 min ton pambıq toplayaraq dördüncü yerdə, 6 min tona qədər barama istehsal edərək ikinci yerdə dururdu.

Bütün bu həqiqətləri çox dərinliyi ilə təhlil edən və onları Azərbaycanın ümumi yüksək tərəqqisi mənafeyi ilə uzlaşdıran Heydər Əliyev daim respublikanın yeni-yeni iqtisadi inkişaf imkanlarını araşdırırdı. Bu cəhətdən onun təşəbbüsü və rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi inkişafında çox böyük imkanlara malik mühüm bir istiqamət kimi müalicə və istirahət-turizm sahəsinin əsaslı dərəcədə genişləndirilməsi barədə təklifinin Siyasi Büro tərəfindən qəbul edilməsinin əhəmiyyəti xüsusi qeyd edilməlidir. Azərbaycanın imkan və səylərini bu istiqamətin inkişafına yönəltməklə Heydər Əliyev respublikanı ən məşhur müalicə və istirahət-turizm mərkəzlərindən birinə çevirmək arzusunda idi.

Respublika iqtisadiyyatının hərtərəfli kompleksli inkişafı çox mühüm problemlərin həllində, xüsusən əhalinin maddi rifahının yüksəldilməsində əhəmiyyətli rol oynadı. İlk növbədə respublikada əmək ehtiyatlarından səmərəli istifadə edilməsində böyük dəyişiklik baş verdi. İstehsalın geniş miqyasda inkişafı,

onun bütün regionlarda güclü potensialının yaradılması xalq təsərrüfatında çalışanların sayını 1970-ci ildəki 1273 mindən 1985-ci ildə 2361 min nəfərə qaldırmağa imkan verdi.[77] Bundan başqa, ictimai fondlardan ayrılan və güzəştlərlə birlikdə fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 1985-ci ildə 1970-ci ilə nisbətən 1,5 dəfədən çox artaraq 158-dən 234 rubla qədər qalxmışdı. Həmin dövrdə əhalinin həyat səviyyəsinin bütün başqa sahələrində də eyni dərəcədə yaxşılaşma baş verdi. Həmin dövrdə tikilib istifadəyə verilmiş 21,6 mln kvadratmetr mənzil sahəsinin əhaliyə verilməsi də onun rifah halını yaxşılaşdırılmasının çox əlamətdar göstəricilərindən biridir.[78]

Beləliklə, XX əsrin 70-ci və 80-ci illərinin birinci yarısı Azərbaycan iqtisadiyyatının xüsusi tarixi mərhələsini, onun bütün sahələrinin ona qədərki inkişafının ən yüksək zirvəsini təşkil edir. Əsas sosial-iqtisadi göstəricilərə görə geridə qalan Azərbaycan az vaxt içərisində, inkişafın başlıca keyfiyyət ölçülərinə görə, müttəfiq respublikalar içərisində nəinki ön sıralara, hətta çoxlarına görə birinci yerə çıxdı. Bu illərin misli görünməmiş inkişafı nəticəsində heç zaman Azərbaycan iqtisadiyyatı o mərhələdə olduğu qədər öz təbii sərvətinin ehtiyatlarından və çoxlu başqa istehsal imkanlarından belə dolğun istifadə etmək şəraitinə malik olmamışdı. Respublika xalq təsərrüfatının istehsal yönümünün çoxcəhətliyi, quruluşun təkmilliyi və daha çox mükəmməlliyi baxımından özünün keçdiyi tarixi mərhələlərinin heç birində bu qədər yüksək səviyyəyə qalxmamışdı. Məhz iqtisadiyyatının daha çox hərtərəfli kompleks inkişafı nəticəsində Azərbaycanın ictimai əmək bölgüsündə istər idxal, istərsə də ixrac edilən məhsulların həcminə görə rolu xeyli genişləndi. 80-ci illərin sonunda Azərbaycandan ixrac edilən məhsullar onun istehsalının ümumi həcminin 27,1 faizini, idxal olunan məhsullar isə 21,3 faizini təşkil edirdi.

70-ci illərdə və 80-ci illərin birinci yarısında ilk dəfə olaraq Azərbaycanın milli iqtisadiyyatının belə miqyaslı təşəkkülünün ardıcıl inkişaf xətti həyata keçirilirdi. Bu cəhətdən göstərilən dövrdə Azərbaycanın sosial-iqtisadi həyatında baş vermiş böyük yüksəlişin əvəzsiz tarixi əhəmiyyəti ilk növbədə onunla qiymətləndirilməlidir ki, bu köklü dönüş respublikanın gələcək müstəqilliyinin rəhni oldu.

Beləliklə, 1970-1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatlarının xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində mühüm yerləri tutur.[79]

Akademik C.B.Quliyev yazır: "1969-cu ilin yayından Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilərək respublikaya rəhbərlik etməsi ilə Azərbaycanın sosial-iqtisadi və ictimai-siyasi həyatında dönüş başlandı. Heydər

Əliyev demək olar ki, 22 il Azərbaycan SSR-ə rəhbərlik etdi, bu müddət ərzində o, Azərbaycanın milli dirçəlişi üçün XX əsrdə hamıdan daha çox xidmət göstərdi. Bu illərdə H.Əliyev suveren Azərbaycan Respublikasının əsasını qoydu".[80]

Lakin 80-ci illərin ikinci yarısından Azərbaycanın iqtisadiyyatında ciddi geriləmə prosesi başlandı. Artıq 1985-ci ildən sonra SSRİ-nin süquta doğru əlamətləri iqtisadi qüdrətinin ildən-ilə zəifləməsində özünü büruzə verməyə başlamışdı. Ölkənin ictimai-siyasi rejimində baş verən gərgin və təlatümlü hadisələr onu sarsıdaraq, iqtisadiyyatın tənəzzülünü sürətləndirirdi. Bu hadisələr bir müttəfiq respublika kimi, Azərbaycan həyatının da bütün sahələrinə, o cümlədən iqtisadi inkişafına öz mənfi təsirini göstərirdi. Bu hadisələrin nəticələri hər cəhətdən Azərbaycanda xüsusən ağır və dağıdıcı oldu. Azərbaycanın ictimai-siyasi həyatının, təsərrüfat sisteminin ahəngi 1987-ci ildə erməni millətçilərinin "Dağlıq Qarabağ" ətrafında başladıqları fitnəkarlıqla pozuldu. Sovet İttifaqının səlahiyyətli orqanlarında yüksək vəzifələr tutan erməni millətçiləri Azərbaycan iqtisadiyyatına böyük zərbələr endirmək üçün öz xəyanətkar fəaliyyətlərini genişləndirdilər.

SSRİ-nin əsas üzümçülük respublikası olan Azərbaycanda üzümçülük-şərabçılıq kompleksinin inkişafının böyük vüsət alması ilə respublika iqtisadiyyatının və əhalisinin maddi rifahının ildən-ilə xeyli yüksəlməsini heç cür qəbul edə bilməyən Azərbaycana düşmən qüvvələr 1985-ci ildə alkoqolizmə qarşı mübarizə pərdəsi altında üzümçülüyün ləğvinə çalışdılar. Bu fitnəkar siyasətin həyata keçirilməsində Azərbaycanın təzə rəhbərliyi xüsusi ciddi-cəhd göstərdi - 1985-ci ilə nisbətən 1990-cı ildə üzüm bağlarının sahəsi 107 min hektar azaldı (demək olar ki, ümumi sahəsinin 40 faizi məhv edildi). Halbuki respublikada bu qədər üzüm sahələrinin artırılması üçün milyardlarla manat vəsait və 15 il vaxt sərf edilmişdi. Respublikaya 4 milyard manatdan çox ziyan dəymişdi.[81] H.Əliyevin ölkə rəhbərliyindən getməsi ilə fürsətdən istifadə edərək SSRİ Dövlət Plan Komitəsində, bir sıra başqa nazirliklərdə və partiya-dövlət orqanlarında kök salmış erməni millətçiləri Azərbaycan iqtisadiyyatının gələcək yüksəlişi üçün müstəsna əhəmiyyət kəsb edən, artıq tikintisi qurtarmaq üzrə olan mühüm sənaye müəssisələrinin maliyyələşdirilməsini azaltdılar. 1988-ci ilin axırlarında Gəncə avtomobil zavodu, akustik sistemlər, iri maşınqayırma və başqa mühüm müəsisələrin fəaliyyəti dayandırıldı. Yeni respublika rəhbərliyi bu təxribatların qarşısını almaq iqtidarında deyildi.

Bundan başqa, Azərbaycan həyatının taleyüklü mərhələsində onun idarə olunmasında zəiflik, xüsusən də respublika başçılarının Dağlıq Qarabağ ətrafında başlamış qəsbkar erməni separatizminin və fitnəkarlığının saxta mahiyyətinin bütün dünyada ifşa olunması sahəsində fəaliyyətsizliyi, öz doğma torpaqlarının bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqın qəti əzmkarlığını lazımi məcraya

yönəltmək və istiqamətləndirmək bacarığının olmaması, mərkəzin şovinist rəhbərlərinin Azərbaycana qarşı düşmənçilik mövqeyi tutmasını milli mənafe nöqteyi-nəzərindən ifşa etmək qabiliyyətinin olmaması və nəhayət "Qorbaçov-erməni" elitasının Bakıda törətdiyi Qanlı Yanvar faciəsinə rəvac verməsi - bütün bunların ölkədə yaratdığı qeyri-sabit ictimai-siyasi mühit öz növbəsində iqtisadiyyatın əsaslarının dağılması prosesini getdikcə sürətləndirdi.

Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilən əsaslı vəsait ildən-ilə məhdudlaşdırılırdı. Əsas fondların istifadəyə verilməsi 1990-cı ildə 1985-ci ilə nisbətən 55 faizi aşağı düşdü.[82] Sovet beşilliklərində (İkinci dünya müharibəsini nəzərə almadan) həmişə iqtisadiyyatın dinamik artımına nail olan Azərbaycan təkcə on ikinci beşilliyin (1986-90-cı illər) əsas iqtisadi göstəricilərinin yekunlarına görə artıma nail ola bilmədi. Belə ki, respublikada sənaye məhsulunun ümumi həcmi 1990-cı ildə 1985-ci ilin səviyyəsinin 99,1 faizini, həmin beşillikdə kənd təsərrüfatı məhsullarının orta illik həcmi isə əvvəlki beşilliyin səviyyəsinin ancaq 96,2 faizini təşkil etmişdı. Azərbaycan altmışıncı illərdə olduğu kimi, bir sıra əsas sosial-iqtisadi göstəricilər üzrə yenə də müttəfiq respublikalar içərisində axırıncı yerlərdə dururdu.

80-ci illərdə Zaqafqaziyanın enerji sisteminə ümumi gücü 2 milyon kilovata qədər olan Şamxor elektrik stansiyası və Azərbaycan Dövlət rayon elektrik stansiyaları qoşuldu. Respublikanın enerji gücü 54 faiz artdı. Lakin elektrik avadanlığının, elektrik xətlərinin texniki vəziyyəti qənaətbəxş deyildi. İstilik-enerji ehtiyatlarından səmərəli istifadə olunmurdu. Bu illərdə dərin dəniz özülləri, ağır elektrik qaynağı avadanlığı, bir sıra cihaz istehsalı zavodları işə düşsə də, neft, maşınqayırma, radiotexnika və elektrotexnikanın inkişafı üçün bəzi proqramlar həyata keçirilsə də, onlarda istehsalın həcmi artmırdı. Neft hasilatı və qazma işləri planı kəsirlə yerinə yetirilirdi.

Kimya sənayesi müəssisələrinin çoxu öz imkanlarından aşağı səviyyədə işləyirdi. Məhsul istehsalı və satışı planları yerinə yetirilmirdi, istehsalın artım sürəti plandan iki dəfə aşağı idi. Neft sənayesi üçün boru istehsalı planı yerinə yetirilmirdi. Dəmir filizi və polad borular istehsalı həcmi azalmışdı. Yanacaq-energetika kompleksində neft istehsalının azalması davam edirdi, təbii qazın çıxarılması sürətlə aşağı düşürdü. Neft hasilatı 1985-ci ildəki 13,5 milyon tondan beşilliyin axırında 13,1 milyon tona, təbii qaz çıxarılması da 14,3 milyard kubmetrdən 11,1 milyard kubmetrə enmişdi.[84] Polad istehsalı 1985-ci ildəki 853 min tondan 1990-cı ildə 703 min tona, müvafiq qaydada dəmir filizi 709-dan 531 min tona, polad borular 582-dən 493 min tona, sement 1253-dən 990 min tona, bütün növ toxuculuq məhsulları 189-dan 151 milyon kvadratmetrə, ayaqqabı 23-dən 15 milyon cütə, kondisionerlər 429-dan 309 min ədədə enmişdi və

i.a. Mühüm kənd təsərrüfatı məhsulları istehsalında da ciddi geriləmə baş verdi. Pambığın respublikada yığımı ildən-ilə azalaraq, 788-dən 543 min tona, tütün 66-dan 48 min tona, kartof 220-dən 185 min tona, üzüm 1790-dan 1196 min tona qədər azalmışdı.[85] İribuynuzlu mal-qaranın miqdarı, hər inəkdən süd sağımı, qoyun-keçilərin sayı azalmışdı.[86]

Sənaye potensialının ayrı-ayrı regionlarda artırılmasında durğunluq yarandı. Başqa respublikalardan fərqli olaraq, Azərbaycanda xalq təsərrüfatında çalışan fəhlə və qulluqçuların, xüsusən də fəhlələrin sayı nəinki artmadı, əksinə, azaldı.[87]

80-ci illərin sonlarında yüngül sənaye mallarının inkişafında müəyyən irəliləyişlər baş verdi. 80-ci illə müqayisədə yun ipliyi, corab, geyim malları, ayaqqabı, xalça və xalça məmulatları istehsalı bir qədər artdı. Lakin pambıq lifi, xam ipək sapı istehsalı xeyli azaldı.

Dağlıq Qarabağ münaqişəsi iqtisadiyyatda böhranı daha da dərinləşdirdi. Tətillər, mitinqlər, öz doğma yurdlarından ermənilər tərəfindən zorla çıxarılan qaçqınların böyük axını əmək problemini kəskinləşdirdi.

İstehsal olunmuş yeyinti məhsulları üzrə ayrı-ayrı növlərin çıxdaş olunması xeyli artdı. 1987-ci ilə nisbətən ət və duz, kolbasa məmulatı və başqa məhsulların çıxdaş olmasının xüsusi çəkisi 2 3 dəfədən 8,3 dəfəyə qədər, balıq konservləri 5,4 dəfə, meyvə-tərəvəz konservləri 2,1 dəfə artmışdı.

İqtisadi göstəricilər 90-cı ildə daha aşağı idi. Bu, 89-90-cı illərin siyasi hadisələri ilə bağlı idi. Bakıda baş vermiş 90-cı ilin yanvar hadisələri ilə yaranmış siyasi böhran sənayenin, xalq təsərrüfatının bütün sahələrində əmək ahənginə təsir etdi, hakimiyyəti iflicə, dərin iqtisadi sarsıntılara gətirdi. Maşınqayırma kompleksi, metallurgiya, kimya, neft-kimya sənayesi, yüngül və yerli sənayenin bir çox müəssisəsi məhsul istehsalını azaltdı.

Siyasi sabitliyin olmaması tikinti kompleksinin işinə ciddi təsir göstərdi. İstehsal obyektlərin tikintisi pozuldu.

80-ci illərin ikinci yarısında Azərbaycan sənayesi ziddiyyətli, çox çətin və ağır bir dövr keçirirdi.

Digər tərəfdən isə metodları yararsız olan yenidənqurma, millətlərarası toqquşmalar, Azərbaycanda rəhbərliyin zəifliyi iqtisadi inkişafa mane olurdu.

Azərbaycan sənayesində, xüsusən, yüngül sənaye müəssisələrində "kölgə" iqtisadiyyatı kimi neqativ hadisə getdikcə gücləndi. Sovet cəmiyyətinin, sosialist istehsal üsulunun böhranı ilə Azərbaycanın 70-80-ci illərdə yaratdığı güclü iqtisadi potensialının tədricən itirilməsi təhlükəsi yarandı. Bu dövrün axırlarında Sovet İttifaqının dağılmasının artıq heç kimdə şübhə yeri qoymayan gerçək şəraitində fürsətdən istifadə edən bir sıra partiya-sovet məmurları və istehsal rəhbərləri tərəfindən çox hallarda mövcud müəssisələrin əmlakının dağıdılması, rüşvətxorluq və korrupsiya əməllərinin getdikcə daha açıq şəkildə yer alması da iqtisadiyyatın

geriləməsi prosesini gücləndirirdi. Müstəqilliyin bərqərarlaşması ərəfəsində ölkədə hakimiyyətsizlik və hərc-mərclik hökm sürməyə başlamışdı.

## §3. ƏHALİNİN RİFAHI VƏ MƏİŞƏTİ

Respublikanın iqtisadi yüksəlişi xalqın rifahının yaxşılaşmasına şərait yaratmışdı. Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı 70-ci illərdə 1,4 dəfə, 80-ci illərdə 1,3 dəfə, kolxozçuların orta aylıq əmək haqqı isə müvafiq surətdə 2 və 1,5 dəfə artmışdı.[88] İctimai istehlak fondlarından əhaliyə verilən ödənc və güzəştlərin məbləği 1970-1990-cı illərdə üç dəfə çoxalmışdı.[89]

Qocalara, əlillərə, əmək qabiliyyətini müvəqqəti itirənlərə, əmək və müharibə veteranlarına, başçısını itirmiş uşaqlı ailələrə, tək analara maddi yardım artırdı. Qocalığa və əlilliyə görə dövlətdən pensiya alanların sayı 1970-ci ildə 643 mindən 1989-cu ildə 987 minə çatmışdı. 1989-cu ilin əvvəlində 114,4 min çoxuşaqlı anaya hər ay dövlətdən yardım ayrılırdı.[90]

SSRİ Nazirlər Sovetinin "Hamiləlik, doğum və xəstə uşağa xidmət üçün müavinət təminatının yaxşılaşdırılması haqqında" (1973-cü il 26 iyun) qərarına əsasən qadınlara hamiləliyə və doğuma görə iş stajından asılı olmayaraq əmək haqqının 100 faiz ödənilməsinə, "Aztəminatlı uşaqlı ailələrə maddi köməyin daha da yaxşılaşdırılması haqqında" 1974-cü il 12 sentyabr tarixli qərarına əsasən 1974-cü il noyabrın 1-dək ümumi gəliri ailənin hər üzvü hesabından ayda 50 manatdan az olan ailələrə 8 yaşa qədər uşaqların hər birinə 12 manat müavinət verilməsinə başlandı. 1990-cı ildən aztəminatlı ailələrə uşaqlar 12 yaşına çatanadək belə yardım göstərilməyə başlandı.[91]

Sov.İKP və SSRİ Nazirlər Sovetinin "Uşaqlı ailələrə dövlət yardımını gücləndirmək tədbirləri haqqında" 1981-ci il 31 mart tarixli qərarı ilə ümumi iş stajı bir ildən az olmadan, habelə istehsalatdan ayrılmadan təhsil alan qadınlara uşağın bir yaşına çatanadək ona xidmət etmək üçün əmək haqqının müəyyən hissəsi ödənilməklə bir il müddətinə məzuniyyət verilməyə başlanmış, adambaşına ayda 60 manatdan yuxarı gəlir düşməyən ailələr uşaqların məktəbəqədər uşaq müəssisələrində və internat məktəblərində saxlanılması üçün haqq verməkdən azad edilmişdir. Həmin qərara əsasən 1981-ci ilin dekabr ayından tək analara verilən dövlət müavinətinin minimum səviyyəsi hər bir uşağa ayda 20 manata qaldırıldı. 1987-ci ildən xəstə uşağa qulluq edilməsinə görə haqqı ödənilən vaxtın müddəti 14 günədək uzadılmışdı.[92]

Milli münasibətlərin gərginləşməsi ilə əlaqədar olaraq yurd- yuvasından didərgin düşmüş insanlara da yardım göstərilirdi. Azərbaycan SSR Nazirlər Sovetinin 1989-cu il 4 oktyabr və 4 aprel 1990-cı il tarixli qərarları ilə əvvəlki yaşayış və iş yerini tərk etməyə məcbur olmuş azərbaycanlılara birdəfəlik

müavinətlər verildi. SSRİ Nazirlər Sovetinin 1990-cı 8 avqust il qərarı ilə Azərbaycan SSR-ə gəlmiş, daimi yaşayış yerlərini tərk etməyə məcbur edilmiş didərginlərə kömək proqramı təsdiq olundu. Onlara kömək etmək üçün 1990-cı ildə 150 min manat, 1991-ci ildə isə 100 min manat kredit ayrıldı.[93]

1990-cı ilin may və oktyabr aylarından başlayaraq müharibə əlillərinə, müharibə iştirakçılarına, beynəlmiləlçi döyüşçülərə, həlak olmuş hərbi qulluqçuların ailələrinə əlavə güzəştlər verildi.

Beləliklə, 70-80-ci illərdə əhaliyə verilən pensiyaların həcmi 4,4 dəfə, müavinətlərin həcmi isə 3,3 dəfə çoxalmışdı.[94]

Bununla belə, xüsusən 80-ci illərin ikinci yarısında manatın alıcılıq qabiliyyətinin 37 faiz aşağı düşməsi əhalinin real gəlirlərinin artım sürətinin azalmasına səbəb olmuşdu. Əgər 70-ci illərdə real gəlir 42 faiz artmışdısa, 80-ci illərdə bu, 16 faizdən çox deyildi.[95] Əhalinin istehlak tələbləri ilə təklif arasında uyğunsuzluq mövcud idi. Əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödənilmirdi. 80-ci illərin ikinci yarısından başlayaraq, bu sahədə vəziyyət daha da gərginləşmişdi. Əhalinin alıcılıq qabiliyyətinin artması, istehlak malları istehsalının, ticarət və ictimai iaşə xidmətlərinin nisbətən inkişaf etməsi respublikada mal dövriyyəsinin çoxalmasına səbəb olmuşdu. Respublikada dövlət və kooperativ ticarətində ictimai iaşə daxil olmaqla pərakəndə mal dövriyyəsi 70-ci illərdə 1,8 dəfə, 80-ci illərdə isə 1,5 dəfə çoxalmışdı.[96] Qeyri-ərzaq mallarının satışı daha sürətlə artmış, onun həcmi pərakəndə mal dövriyyəsində 1970-ci ildəki 48 faizə qarşı 1990-cı ildə 60 faiz olmuşdu.

1990-cı ildə respublikada hər 100 ailədən 81-də radioqəbuledici, 102 televizor, 83 soyuducu, 51 paltaryuyan maşın, 34 tozsoran, 60 tikiş maşını, 10 minik avtomobili vardı.[98]

1990-cı ildə respublikada 21 min və ya 1970-ci ildəkindən 5,4 mindən çox pərakəndə ticarət müəssisəsi var idi. Ticarət xidməti sistemi nisbətən təkmilləşmiş, ixtisaslaşdırılmış özünəxidmət mağazalarının sayı artmışdı. Kulinariya və yarımfabrikat mağazaları, fabrik-mətbəx müəssisələri yaradılmışdı. 1990-cı ildə respublikada 12 min (1970-ci ildəkindən 5,8 min ədəd çox) ictimai iaşə müəssisəsi fəaliyyət göstərirdi.

Lakin əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödənilmirdi. Ət, balıq, kürü, süd, meyvə, hətta üzüm, tərəvəz üzrə istehlak səviyyəsi müəyyən edilmiş normalara qalxmırdı. 80-ci illərin əvvəllərində respublikanın şəhərlərində ət, yağ, axırlarında isə səkər talonlarla verilməyə başlanmışdı. Bazar durmadan bahalaşır, inflyasiya, qıtlıq artırdı.[100] 70-80-ci illərdə qeyri-ərzaq mallarının qiymətləri dəfələrlə qaldırılmışdı. Qızılın, digər qiymətli metalların və daş-qaşın qiymətləri 15 dəfə və daha çox artmışdı. 1990-cı ilin yanvarında bu malların qiyməti yenidən 50 faiz artmışdı.[101] Həmin ilin sonunda qızılın və xalçanın qiyməti

yenidən bahalandı. Tələbatı olmayan, dəbdən düşmüş malların qiymətlərinin tez-tez aşağı salınması isə əhalinin güzəranına elə bir əsaslı təsir göstərmirdi. Əhalinin daha çox ehtiyacı olan mallar getdikcə azalır, bəzən də yoxa çıxırdı. Möhtəkirlik artırdı. Mağazalarda malların böyük əksəriyyəti açıq-aşkar artıq qiymətə satılırdı.[102]

70-80-ci illərdə respublikanın şəhər və kəndlərində mənzil tikintisi sürətlə artmışdı. Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda, Mingəçevirdə, Əli Bayramlıda, Daşkəsəndə yeni mikrorayon və qəsəbələr salınmış, çoxmərtəbəli yaşayış binaları tikilmiş, kənd yaşayış məntəqələri yenidən qurulub şəhərtipli qəsəbəyə çevrilmişdi. Həmin illərdə respublikada ümumi sahəsi 35 mln kv.m, o cümlədən kənd yerlərində 16 mln kv.m olan mənzillər tikilmişdi. Üç milyona qədər adamın mənzil şəraiti yaxşılaşdırılmışdı.[103] Bakıda yeni mikrorayonlar - Əhmədli, Günəşli, Yeni Serebrovski (indiki Qaraçuxur), Badamdar yaşayış massivləri salınmışdı. Paytaxtın abadlaşdırılmasında və tikintisində Azərbaycan SSR Nazirlər Soveti Sədrinin müavini Ə.C.Ləmbəranskinin böyük xidməti olmuşdu. Dənizkənarı park yenidən qurulmuş, ərazisində "Bakı Venetsiyası" adlanan uşaq şəhərciyi, şəhərin mərkəzi hissəsində Fəvvarələr meydanı yaradılmışdı. 70-ci illərdə Bakı Dəniz vağzalı, Respublika Sarayı (o zaman Lenin adına saray), "Moskva", "İnturist", "Abşeron" mehmanxanaları, Respublika velotreki tikildi, Azadlıq (o zaman Lenin adına) meydanının memarlıq ansamblı yaradıldı. 80-ci illərdə "Gülüstan sarayı", yeni zoopark, örtülü idman kompleksləri tikildi. Dövlət Filarmoniyasının binası əsaslı təmir olunur.[104] Bakıda yaşıllıqların sahəsi 10 min ha-ya, Gəncədə 2,3 min hektara, Sumqayıtda 700 hektara çatdırılmışdı. Respublikanın kəndləri abadlaşdırılırdı. 80-ci illərin sonlarında respublikada 65 şəhər, 122 şəhərtipli qəsəbə vardı.[105]

Şəhərin içməli su ilə təchizinin yaxşılaşmasında 70-ci illərdə Kür su kəmərinin çəkilib istifadəyə verilməsi mühüm rol oynadı. Şəhərə su verilməsi sutkada 3,5 kub.m çoxaldı.[106]

Mənzil-kommunal təsərrüfatının inkişafında "1986-1990-cı illərdə Bakı şəhər təsərrüfatının daha da inkişaf etdirilməsi haqqında" Sov.İKP və SSRİ Nazirlər Sovetinin 1985-ci il dekabr qərarı müəyyən rol oynadı. 1987-ci ildə "Böyük kanalizasiya"nın birinci, 1990-cı ildə isə ikinci növbəsi istifadəyə verilmişdi.[107]

"Abşeronda bağçılıq təsərrüfatını daha da inkişaf etdirmək haqqında" Azərbaycan KP MK-nın 1988-ci il 25 may qərarına əsasən bağçılıq kooperativlərinin yaradılmasına icazə verildi. Yeni bağ sahələri paylandı. Bağ tikintisi və təmiri ilə məşğul olan kooperativlər yaradıldı.[108] Bütün bunlarla yanaşı, respublikada sosial quruculuq sahəsində çoxlu qüsur vardı. Mənzil problemi hələ də kəskin olaraq qalırdı. Mənzil tikintisi üzrə planlar yerinə yetirilmirdi. Tikintinin

keyfiyyəti aşağı idi. Mənzillərin əsaslı təmiri sahəsində ciddi nöqsanlar mövcud idi. 80-ci illərin sonunda təkcə Bakıda 75 mindən çox, Gəncədə 11 min ailə mənzil növbəsində dayanmışdı.[109] Mənzil qanunvericiliyi, pasport rejimi kobud şəkildə pozulur, çox vaxt boşalmış mənzillər qanunsuz yollarla ələ keçirilirdi.[110] Respublikanın 65 şəhəri su kəməri, 34 şəhəri kanalizasiya sistemi ilə təchiz edilmişdi. Kənd yerlərində kommunal obyektlər, hamam, mərkəzləşdirilmiş su, kanalizasiya sistemləri quraşdırılması işi ləng gedirdi. Şəhərin 3, kəndlərin 89 faizində su kəməri yox idi.[111]

70-ci illərdə Əli Bayramlı-Astara, Yevlax-Şəki, Dəvəçi-Xaçmaz, Yevlax-Xankəndi-Gorus-Naxçıvan, 80-ci illərdə Naxçıvan-Culfa-Ordubad, Qazıməmməd-Qazax qaz kəmərləri çəkildi. 1990-cı ilin sonunda respublikanın 65 şəhər və 89 qəsəbəsində yanacaq qazından istifadə edilirdi. Lakin hər beş kənddən biri, şəhər tipli qəsəbələrin 27 faizi hələ də qazla təmin edilməmişdi.[112] Əhaliyə məişət xidmətlərini yaxşılaşdırmaq sahəsində də müəyyən işlər görülmüşdü. 1970-1990-cı illərdə məişət xidməti müəssisələrinin sayı 6,4-dan 11,5 minə çatdırılmış, xidmətlərin həcmi 18,3 dəfə artmışdı. Xidmətlərin yeni formaları tətbiq olunurdu.[113] Lakin adambaşına məişət xidmətinin həcmi İttifaqın orta göstəricilərindən iki dəfə aşağı idi.[114] Kənd yerlərində də məişət xidməti daha pis təşkil edilmişdi. 207 kolxoz və sovxozda heç bir xidmət obyekti yox idi, onların cəmi 165-də əhaliyə səyyar məişət xidmətləri göstərilirdi. Kənd sovetlərinin cəmi 73 faizində məişət xidməti obyektləri vardı. Xidmətin keyfiyyəti aşağı idi.[115]

70-80-ci illərdə respublikanın şəhər və kəndlərində telefon şəbəkəsi xeyli inkişaf etmiş, telefon aparatlarının sayı 1990-cı ildə 649 minə çatmışdı, yəni dörd dəfə artmışdı.[116] Şəhərlərarası telefon rabitəsi genişlənirdi. Lakin hələ minlərlə ailə telefon növbəsində dayanmışdı.

1970-ci ildə Moskva-Bakı rəngli teleötürücü xətt, 70-80-ci illərdə onlarla başqa radiorele xətləri çəkilmişdi. 1989-cu ildə Xankəndində televiziya studiyası istifadəyə verilmişdi. 1990-cı ildə respublikada 150-yə qədər teleötürücü stansiya vardı, 26 peyk-əlaqə stansiyasından istifadə edilirdi. Respublika əhalisinin 95 faizinin respublika televiziyasının verilişlərinə baxmaq imkanı vardı.[117]

70-80-ci illərdə əhalinin sağlamlığının qorunması sahəsində də mühüm tədbirlər həyata keçirilmişdi. Əhaliyə ambulatoriya-poliklinika yardımı göstərən müəssisələr 1075-dən 1826-ya, qadın məsləhətxanaları, uşaq məsləhətxana və poliklinikalarının sayı 313-dən 1034-ə, həkimlərin sayı 13 min nəfərdən 27,5 min nəfərə, orta tibb işçilərinin sayı 25 min nəfərdən 68 min nəfərə çatdırılmışdı. 1990-cı ildə respublikada 70,9 min çarpayısı olan 731 xəstəxana fəaliyyət göstərirdi.[118] Bakı şəhərində yeni tibb texnikası ilə təchiz edilmiş diaqnostika mərkəzi, kardioloji mərkəz, respublika uşaq sağlamlıq kompleksi, çoxlu xəstəxana və poliklinika, ambulatoriyalar tikilmişdi. Lakin əhaliyə səhiyyə xidməti sahəsində

müvəffəqiyyətlərlə yanaşı, stasionarların düzgün yerləşdirilməməsi, tibb avadanlıqlarının, dərmanların çatışmaması, xəstəxana və poliklinikalarda xidmət səviyyəsinin aşağı olması, bir çox tibb işçiləri tərəfindən səhiyyə etikasının kobud surətdə pozulması kimi qüsurlar da çox idi. 2239 yaşayış məntəqəsində ilk tibbi yardım xidməti təşkil edilməmişdi.[119]

Həmkarlar ittifaqının 12 min yerlik 22 sağlamlıq mərkəzi, 12 turist bazası və kompleksi vardı. 70-ci illərdə respublikada turist-ekskursiya təşkilatları xeyli inkişaf etdi, onlarla turist bazası, kompleksi, mehmanxanası istifadəyə verildi.

70-80-ci illərdə idman kollektivlərinin və idmançıların sayı xeyli artmışdı. 1990-cı ildə respublikada 66 iri stadion, 1299 idman zalı, 31 üzgüçülük hovuzu, 2500 futbol, 5800-dən çox voleybol, basketbol və tennis meydançası vardı. Bütün bölgələrdə şahmat idman məktəbləri fəaliyyət göstərirdi. 8020 bədən tərbiyəsi kollektivi vardı. 2,3 milyon nəfər idmanla ardıcıl məşğul olurdu. Hər il "Əməyə və müdafiəyə hazıram!" kompleksi üzrə 600-700 nəfər idman nişançısı hazırlanırdı.[120] 80-ci illərin axırlarında respublikada 4,3 min SSRİ idman ustası vardı. Beynəlxalq yarışlarda həndbolçu R.Şabanova, şahmatçılar E.Məhərrəmov, E.Əliyeva, A.Sofiyeva yüksək göstəricilərə nail oldular.

Sənaye, kənd təsərrüfatı, nəqliyyat və tikinti texnologiyalarına, təhlükəsizlik texnologiyalarına ciddi əməl edilməməsi, təmizləyici qurğulardan kifayət qədər səmərəli istifadə olunmaması respublikada ekoloji mühitin gündən-günə pozulmasına səbəb olurdu.

Bakı və Sumqayıt şəhərləri və onların ətrafında ekoloji mühit daha çox çirklənmişdi. Təkcə Bakıda il ərzində hər kv.m-ə 800-900 ton zərərli maddələr tökülürdü. Çirkabların 54 faizi təmizlənməmiş halda dənizə axıdılırdı. Ermənistan və Gürcüstandan Azərbaycana gələn çaylar zərərli maddələrlə çirkləndirilirdi. Hərbi obyektlər ətraf mühitin ekoloji vəziyyətini daha da ağırlaşdırırdı.

70-80-ci illərdə əhalinin sayı 5 milyon nəfərdən 7,1 milyon nəfərə çatmışdı. Hər min nəfərə görə təbii artım 22,5 faizdən 20 faizə, doğulanların sayı 29 faizdən 26,1 faizə, ölənlərin sayı isə 6,7 faizdən 6,1 faizə enmişdi. Əhalinin ümumi sayında şəhər əhalisinin miqdarı 50 faizdən 53,8 faizə qalxmışdı,[121] 90-cı illərin əvvəllərində respublikada yaşı 100 və ondan yuxarı olan adamların sayı 2500-dən çox idi.

Əhalinin milli tərkibində dəyişikliklər baş vermişdi. 1989-cu il siyahıyaalınmasına görə Azərbaycanda yaşayan 7 milyondan çox əhalinin 6 milyona qədərini azərbaycanlılar, 392,3 min nəfərini ruslar, 390,5 min nəfərini ermənilər, 171,4 min nəfərini ləzgilər, 44,1 min nəfərini avarlar, 13,3 min nəfərini saxurlar, 30,8 min nəfərini yəhudilər, 21,2 min nəfərini talışlar, 14,2 min nəfərini kürdlər, 6 min nəfərini udinlər təşkil edirdi. Ümumiyyətlə, respublikada 82 xalqın nümayəndəsi məskunlaşmışdı.[123]

Əhalinin sosial-sinfi strukturu da yeniləşmişdi. 1970-ci ildə əhalinin 50,3 faizini fəhlə və qulluqçular, 21,9 faizini isə kolxozçular təşkil edirdisə, 1989-cu ildə bu göstəricilər müvafiq surətdə 86,8 və 12,7 faiz olmuşdu.[124] 1990-cı ildə respublikada 1387 min və ya 1970-ci ildəkindən 1,6 dəfə çox fəhlə, 334 min və ya 1,2 dəfə çox kolxozçu, 713 min və ya 1,7 dəfə çox qulluqçu vardı. 2,8 milyon insan xalq təsərrüfatında məşğul idi. Onlardan 77,9 faizi dövlət, 14,2 faizi kooperativ, 7,9 faizi isə özəl sektorda işləyirdi.[125] Bununla belə əmək qabiliyyətli əhalinin xeyli hissəsi işsiz idi. Kənd rayonlarında sənayenin zəif inkişaf etdiyi zonalarda işsizlik daha çox idi. 80-ci illərin sonunda Ermənistandan azərbaycanlıların və Özbəkistandan Məhsəti türklərinin qovulub Azərbaycana pənah gətirməsi ilə əlaqədar işsizlərin sayı yarım milyonu ötüb keçmişdi. İşsizlərin 60 faizini gənclər, 60 faizini kənd əhalisi təşkil edirdi.[126] İşsizlik üzündən gənclərin bir hissəsi respublikanı tərk edir, qazanc dalınca gedirdi. Şəxsi yardımçı təsərrüfatlara lazımi şərait yaradılmırdı.

Beləliklə, 70-80-ci illərdə respublika əhalisinin sosial-siyasi, milli strukturunda, məişətində, rifahında mühüm dəyişikliklər baş vermişdi, gəlirlər, alıcılıq qabiliyyəti, ticarət, ictimai iaşə, tibb, rabitə, məişət xidmətlərinin səviyyəsi yüksəlmiş, yaşayış məntəqələrinin su, qaz, kanalizasiya sistemləri ilə təchizi yaxşılaşmışdı. Bütün bunlarla yanaşı, əhalinin istehlak tələbləri lazımınca ödənilmirdi, xidmətlərin səviyyəsi xüsusən kənd yerlərində hələ aşağı idi. Ekoloji mühit çirklənirdi. Əhalinin nominal sayı artsa da, illik artım sürəti azalırdı.

## §4. MƏDƏNİ VƏ MƏNƏVİ HƏYAT

**Təhsil.** 70-ci illər Azərbaycanın ictimai-siyasi, iqtisadi mədəni və mənəvi həyatında mühüm irəliləmələr dövrü olmuşdur. Uşaq müəssisələrinin, məktəblərin maddi, texniki-təhsil bazası möhkəmlənmiş, tədrisin səviyyəsi yüksəlmişdi.

70-80-ci illərdə respublikada 101 min nəfərlik məktəbəqədər uşaq müəssisəsi tikilib istifadəyə verildi. Daimi məktəbəqədər müəssisələrin sayı 1990-cı ildə 2185-ə çatmışdı. Onlarda 181 min və ya 1970-ci ildəkindən 1,6 dəfə çox uşaq tərbiyə olunurdu. Bu müəssisələrdə 19,1 min tərbiyəçi və xidmətçi çalışırdı. Tərbiyəçilərin 49,7 faizinin ali, 22 faizinin orta ixtisas təhsili vardı.[127]

Həmin illərdə respublikada 703 min yerlik 1058 ümumtəhsil məktəb binası tikilib istifadəyə verilmişdi.[128] 1990-1991-ci dərs ilində respublikanın şəhər və kəndlərində 4356, o cümlədən 4268 dövlət gündüz, 88 axşam (növbəli) ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.[129] Ümumtəhsil məktəblərində hər il orta hesabla 1,4 milyona qədər şagird təhsil alırdı. Bu məktəblərdə müəllimlərin sayı 73 min nəfərdən 132 min nəfərə çatmışdı. 1990-cı ildə ümumtəhsil məktəblərində işləyən müəllimlərin 80 faizdən çoxu, o cümlədən ibtidai sinif müəllimlərinin 52

faizə qədəri ali, 3,3 faizi natamam ali, 15 faizi orta-pedaqoji təhsilli idi.[130] Məktəblərin 98 faizində fənn kabinələri, emalatxanalar fəaliyyət göstərirdi.[131]

Müxtəlif fənlər üzrə dərinləşmiş proqramlarla təlim verən kimya-biologiya, fizika-riyaziyyat, fars dili, ingilis dili və başqa təmayüllü internat məktəblər fəaliyyətdə idi. Azərbaycanda milli hərbi kadrlar yetişdirilməsini və SSRİ ali hərbi məktəblərinə azərbaycanlı gənclərin daxil olmasını təmin etmək məqsədilə 1971-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski adına orta respublika ixtisaslaşdırılmış internat məktəbi (1991-1997-ci illərdə Bakı ibtidai hərbi məktəbi adlanıb) təşkil olunmuşdu.

İşləyən gəncləri təhsilə cəlb etmək üçün gündüz məktəbləri yanında müstəqil qiyabi məktəblər təşkil olundu. Kolxoz və sovxozlarda rayon qiyabi məktəblərinin 1531 tədris-məsləhət məşğələsi açılmışdı. Axşam və qiyabi məktəb şagirdləri üçün qısaldılmış iş həftəsi müəyyən olunmuşdu. İmtahan vermək üçün XI sinif şagirdlərinə 20, VIII sinif şagirdlərinə 8, başqa sinif şagirdlərinə 4 gün pulu ödənilən məzuniyyət verilirdi.[132]

1990-cı ildə Azərbaycanda 2185 məktəbdənkənar uşaq müəssisələri, o cümlədən 91 pioner və məktəblilər sarayı, 1593 pioner düşərgəsi, 240-dan çox uşaq idman məktəbi, 210 musiqi, bədii və xoreoqrafiya məktəbi, 8-ə qədər uşaq parkı, 69 gənc texniklər, 65 gənc turistlər stansiyası, 118 uşaq kitabxanası fəaliyyət göstərirdi.[133]

Peşə təhsili sistemi inkişaf edirdi. 70-80-ci illərdə respublikada 100 yeni texniki-peşə məktəbi təşkil edilmişdi. 1990-cı ildə 176 belə məktəbdə 83 minə qədər və ya 1970-ci ildəkindən 16 min nəfər çox şagird sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, məişət xidməti və başqa sahələr üzrə 100-dən artıq peşəyə yiyələnirdi.[134]

Təsərrüfat, maarif, mədəniyyət, səhiyyə və başqa sahələr üzrə ixtisaslı kadrlar hazırlayan 78 məktəbdə hər il 60-70 min tələbə təhsil alırdı.[135] Bu illərdə Bakı kitabxanaçılıq texnikumunun, Bakı plan-iqtisad və Gəncə tikinti texnikumları, Şuşa pedaqoji məktəbini tədris binaları və yataqxanaları, Mingəçevir və Naxçıvan politexnikumlarının, Şəki pedaqoji məktəbinin yataqxanaları istifadəyə verildi. Tələbələrin təqaüdü üç dəfə artdı.[136]

70-80-ci illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi. Yeni ali təhsil ocaqları fəaliyyətə başladı. 1971-ci ildə Pedaqoji Dillər İnstitutu bazasında Rus dili və Ədəbiyyatı (indi Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutları (indi Azərbaycan Xarici Dillər Universiteti) təşkil olundu. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi (o vaxt Stepanakert) Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil edildi. 80-ci illərin sonlarında respublikada 17 ali məktəb vardı.[137] Ali təhsilin maddi bazasının

möhkəmlənməsinə diqqət göstərilirdi. Neft və Kimya, Xarici Dillər İnstitutları, Dövlət Universitetinin humanitar fakültələri, pedaqoji institutlar üçün korpus binaları istifadəyə verildi. Politexnik İnstitutunun təhsil binası genişləndi, Neft-Kimya İnstitutunun yataqxanası üçün doqquz mərtəbəli bina istifadəyə verildi. Bir çox ali məktəbdə bədən tərbiyəsi və idman məşğələləri üçün təhsil-maddi baza genişləndirildi. Universitetin təhsil-idman kompleksi və futbol meydançası, böyük idman salonu və 25 metrlik üzgüçülük hovuzu, boks və ağır atletika salonu, Neft-Kimya İnstitutunun velosiped stansiyası, Ç.İldırım adına Politexnik İnstitutunun səkkiz salonlu idman korpusu, Bədən Tərbiyəsi İnstitutunun altı idman salonu olan yeni binası və s. tikildi.[138]

80-ci illərin axırlarında respublikanın ali məktəblərində 8,5 min nəfər, o cümlədən 612 professor, akademik (onların 581-i elmlər doktoru), 3021 dosent dərs deyirdi.[139] Ali məktəblərdə avtomatik idarəetmə sistemi, elektrotexnika, biokimya, rabitə texnikası kimi istehsalın və elmi texniki tərəqqinin tələb etdiyi yeni sahələr üzrə mütəxəssislər hazırlanmağa başlanmışdı.

Respublika ali məktəblərinin flaqmanı olan Azərbaycan Dövlət Universitetində (indi Bakı Dövlət Universiteti) 13 min tələbə təhsil alırdı. Onların təlim-tərbiyəsinə 1200 professor-müəllim cəlb olunmuşdu.[140]

Azərbaycan Dövlət Universiteti xüsusən Azərbaycan dilinin, xalqın tarix və mədəniyyətinin qorunub saxlanılmasında, inkişaf etdirilməsində, gənclərdə milli köklərə bağlılığın möhkəmlənməsində, azadlıq ideyalarının yayılmasında mühüm rol oynamışdı.

Ali məktəblərdə hər il 100 mindən artıq tələbə təhsil alır, 17-18 min gəncə ali təhsilli mütəxəssis diplomu verilirdi.[141]

Azərbaycan üçün SSRİ-nin mərkəzi ali məktəblərində də kadrlar hazırlanırdı. Əvvəllər hər il cəmi 40-50 nəfər gənc SSRİ-nin qabaqcıl ali məktəblərinə qəbul edilirdi. Heydər Əliyevin rəhbərliyi illərində bu iş daha da genişləndi. 70-80-ci illərdə SSRİ-nin 50-dən çox şəhərində 135 mülki, 105 hərbi ali məktəbdə respublika üçün 17 mindən çox mütəxəssis kadr hazırlanmışdı.[142]

Məktəblərdə tədrisin məzmununda müəyyən dəyişikliklər baş verdi. Orta məktəblərdə 1975/76-cı tədris ilindən dövlət və hüququn əsasları tədris olunmağa başlanmışdı. 1974-cü ildə "Azərbaycan tarixi"nin tədrisi 60 saata qaldırıldı. Ali məktəblərdə kommunizm məsələləri, partiya tarixi, marksist fəlsəfə və siyasi iqtisadın tədrisinə mərkəzi hakimiyyət tərəfindən diqqət artırıldı. Məktəblərdə sovet cəmiyyəti antaqonist ziddiyyətsiz, qüsurlardan xali bir ictimai quruluş kimi təqdim və təqdir edilirdi. "Azərbaycan tarixi"nə barmaqarası baxılır, bu fənn saxtalaşdırılmış dərsliklər və proqramlar üzrə tədris olunurdu. Əvvəllər olduğu kimi, yenə də "SSRİ tarixi" adı altında əsasən Rusiyanın tarixi təqdim edilirdi.

Sovet cəmiyyətində iqtisadi inkişaf sürətinin durmadan zəifləməsi ilə əlaqədar ideoloji təzyiq xeyli güclənsə də, siyasi biliklərlə real həyat arasında uyğunsuzluğun dərk olunması şagird və tələbələrdə, ümumiyyətlə bütün xalqda ictimai elmlərə, onların təbliğ etdiyi quruluşa inamsızlıq yaratmışdı.

Məktəblərdə, xüsusən ali və orta ixtisas məktəblərində biliklərin qiymətləndirilməsində, qəbul imtahanlarında qeyri-obyektivlik adi hala çevrilmişdi. Tapşırıqla, rüşvətlə qiymət almaq halları geniş yayılmışdı. Buna görə də istedadlı, qabiliyyətli şəxslər ali məktəblərə, elmi müəssisələrə çox vaxt çətinliklə yol tapırdılar.[143] Lakin bununla yanaşı, əhalinin təhsil səviyyəsi artmaqda idi. 80-ci illərin sonlarında yaşı 15-dən yuxarı olan əhalinin hər 1000 nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-nı natamam orta təhsilli idi.[144]

**Mədəni-maarif. Mətbuat.** İnsanların biliyinin, mədəni səviyyəsinin yüksəlməsində təhsil müəssisələri ilə yanaşı, mədəni-maarif müəssisələri, kütləvi-informasiya vasitələri mühüm rol oynayırdı.

70-80-ci illərdə respublikanın şəhər və kəndlərində 220 min yerlik 1066 mədəniyyət evi və klub müəssisəsi, 50 min yerlik 111 kinoteatr istifadəyə verilmişdi.[145] Dövlət klub müəssisələrinin sayı 2146-dan 3680-ə, kütləvi kitabxanaların sayı 2922-dən 4605-ə, kinoqurğuların sayı 2004-dən 2167-ə çatmışdı.[146] Bakıda 80-ci illərin ortalarında stereofilmlər kinozalı ("Araz" kinoteatrında) fəaliyyətə başlamışdı.

Kütləvi kitabxanalarda kitab və jurnalların sayı 23 milyon nüsxədən 45,3 milyon nüsxəyə çatmışdı. Hər 1000 nəfər sakinə 6,4 min nüsxə kitab və jurnal düşürdü.[147]

Respublikada 87 yeni muzey - 1972-ci ildə Azərbaycan xalçası və tətbiqi sənət muzeyi, Sergey Yeseninin xatirə muzeyi, 1975-ci ildə Bakıda Ü.Hacıbəyovun və S.Vurğunun, 1981-ci ildə Naxçıvanda H.Cavidin, 1982-ci ildə Bakıda C.Cabbarlının, Bülbülün ev muzeyləri, onlarla yeni tarix-diyarşünaslıq muzeyləri təşkil olunmuşdu. Azərbaycan tarixi muzeyinin fondları getdikcə zənginləşir, ekspozisiyası daim təzələnirdi. 70-ci illərdə Zoologiya və Arxeologiya muzeyləri müvafiq elmi-tədqiqat institutları nəzdində yaradılmışdı. 1990-cı ildə 124 muzey fəaliyyət göstərirdi. Bədii muzeylər, şəkil qalereyaları təşkil edilmişdi. Bakıda S.Bəhlulzadə adına sərgi salonu, uşaq şəkil qalereyası, ədəbiyyat və incəsənət xadimlərinin xatirə muzeyləri açılmışdı. Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, şərhini və təbliğini yaxşılaşdırmaq məqsədilə Gəncədə "Nizami təsviri sənət qalereyası", "Nizami dövrü və yaradıcılığı muzeyi" açılmışdı.

Azərbaycan tarixi muzeyində əsas ekspozisiya ilə yanaşı, hər il mühüm hadisələrə və əlamətdar günlərə həsr edilmiş tematik və səyyar sərgilər təşkil edilirdi. Belə sərgilər Bakıda və Azərbaycanın ayrı-ayrı rayonlarında nümayiş

etdirilirdi. Muzey xarici ölkələrdə təşkil olunan sərgilərdə də iştirak etmişdi. Onun eksponatları Tokioda, Budapeştdə, Parisdə, Madriddə, Nyu-Yorkda, London və b. şəhərlərdə keçirilən sərgilərdə nümayiş etdirilmişdi. Azərbaycan Tarixi Muzeyi YUNESKO-nun nəzdində olan Beynəlxalq Muzey Komitəsinin üzvü seçildi. Azərbaycanın tətbiqi sənət sərgisi üç ay müddətində Parisdə və Bordoda göstərilmişdi. Respublikada 6500-dən çox tarix, arxeologiya, memarlıq abidəsi dövlət tərəfindən qorunurdu.[148]

70-80-ci illərdə respublikada səkkiz yeni dövlət teatrı açılmışdı. Onların sayı 20-yə çatmışdı.[149]

Xalq universitetlərini də mədəni-maarif müəssisələri sisteminin mühüm halqalarından birinə çevirmək cəhdləri göstərilirdi. 80-ci illərin axırlarında respublikada müxtəlif ixtisaslar üzrə 550 xalq universiteti vardı. Onlara 121 min nəfərə qədər dinləyici cəlb olunmuşdu.[150] Televiziyanın məişətə geniş daxil olması ilə əlaqədar mədəni-maarif müəssisələrinə maraq azalırdı. Kinoteatrlara gələn tamaşaçıların sayı 1970-ci ildəki 56,4 milyon nəfərdən 1990-cı ildə 30,1 milyon nəfərə enmişdi. Muzeylərə gələnlərin sayı azalmışdı. Teatr tamaşaçılarının sayı 1,5 milyon nəfərdən 1,4 milyon nəfərə qədər azalmışdı.[151]

Azərbaycanda kütləvi informasiya vasitələri şəbəkəsi inkişaf etməkdə idi. 1970-ci ildə respublikada 234, 1990-cı ildə isə 259 qəzet, jurnal və məcmuə nəşr olunurdu.[152]1969-cu ildən "Qobustan" almanaxı, 1970-ci ildən Bakıda "Sovet Türkologiyası", 1975-ci ildən "Azərbaycan təbiəti" jurnalları çap olunmağa başladı. Dövri nəşrlərin illik tirajı 49 milyon nüsxədən çox idi.[153]

80-ci illərin sonunda ölkədə demokratik hərəkatın, plüralizmin genişlənməsi onlarla yeni formal və qeyri-formal nəşrlərin meydana gəlməsinə səbəb oldu. Hadisələri qeyri-ənənəvi tərzdə, müxtəlif qrupların, cərəyanların mövqeyindən şərh edən, qiymətləndirən "Azərbaycan", "Odlar yurdu", "Azadlıq", "Yeni fikir", "Vətən səsi", "Respublika", "Ayrılıq", "Səhər", "Ayna", "Dalğa", "Ədalət", "İlham", "Novruz" və b. qəzetlər, "Gənclik", "Xəzər", "Açıq söz" jurnalları əhali arasında yayılır və maraqla qarşılanırdı.

Ümumiyyətlə, 1990-cı ilin axırlarında respublikada 75-ə qədər qeyri-formal qəzet və məcmuə çap olunurdu.[154]

Azərbaycan Radiosu və Televiziyası qurumu kamilləşdi. Respublika radiosu müxtəlif dalğalarda hər gün 1 proqram, "Araz" və "Stereo" proqramları ilə müxtəlif dillərdə 37 saat veriliş yayırdı. Azərbaycan Beynəlxalq Radiosu təsis edilmişdi.

Azərbaycan kütləvi informasiya vasitələri bəşəri və milli dəyərlər fonunda sovet həyat tərzini, rəsmi ideologiyanı geniş təbliğ edirdi. Onun milli oyanışa təsiri güclənməkdə idi. Respublikada hər il 10-12 milyon nüsxə tirajla 1200-1300 adda kitab nəşr olunurdu.[155]

Partiyanın sənədləri, "marksizm-leninizm klassikləri"nin əsərləri tərcümə və böyük tirajla çap edilir, geniş təbliğ olunurdu.

1976-1988-ci illərdə Azərbaycan xalqının tarixində ilk oncildlik "Azərbaycan Sovet Ensiklopediyası" çapdan çıxdı. Bu, respublikanın ictimai-siyasi və mədəni həyatında əlamətdar bir hadisə idi, çünki sovet dövründə dörd dəfə (1934-cü ildə, 1938-ci ildə, 1959-cu ildə və 1965-ci ildə) Azərbaycan ensiklopediyası nəşr etmək təşəbbüsü olmuş, əfsuslar olsun ki, heç biri baş tutmamışdı. Beşinci dəfə cəhd Heydər Əliyevin rəhbərliyi sayəsində uğurla nəticələndi. Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci il oktyabrın 24-də Azərbaycan KP MK-da "Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasının işində ciddi nöqsanlar haqqında" qərar qəbul olundu. 1976-cı il fevralın 10-da isə Azərbaycan KP MK "ASE-nin Baş redaksiyasının və elmi-redaksiya şurasının yeni tərkibi" haqqında qərar qəbul etdi. Akademik Cəmil Quliyev Baş redaktor təyin olundu. Heydər Əliyevin bilavasitə iştirakı ilə İçəri şəhərdə ASE-nin yeni binası tikilmiş, nəqliyyat (müxtəlif markalı üç maşın ayrılmışdı), təsərrüfat, təchizat, maliyyə məsələləri həll olunmuşdu. ASE-nin tirajı 50 min nəzərdə tutulmuşdu. Lakin bu, Heydər Əliyevin təşəbbüsü ilə 80 minə qaldırıldı.

70-80-ci illərdə klassik Azərbaycan şair və yazıçılarının əsərləri külliyyatları, 20 cildlik "Azərbaycan Ədəbiyyatı Kitabxanası", 50 cildlik "Dünya Uşaq Ədəbiyyatı Kitabxanası", 100 cildlik "Dünya Ədəbiyyatı Kitabxanası", "Molla Nəsrəddin" 12 cildlik toplusunun birinci cildi çap edilmişdi. Bütün bunlar xalqın milli oyanışına əhəmiyyətli təsir göstərirdi.

70-80-ci illərdə Nizaminin 840 illiyi (1981), Əcəminin, Nəsiminin 600 illiyi (1973), Tusinin 780 illiyi (1981), Vaqifin, Aşıq Alının 180 illiyi (1981), Aşıq Ələsgərin 150 illiyi (1972), Üzeyir Hacıbəyovun 100 illiyi (1984), Müslüm Maqomayevin 100 illiyi (1984), Zakirin 200 illiyi (1984), Hüseyn Cavidin 100 illiyi (1981), M.F.Axundovun 175 illiyi (1985), M.A.Əliyevin 100 illiyi (1984), M.S.Ordubadinin 100 illiyi (1972) və başqa ədəbiyyat, incəsənət, elm xadimlərinin, Azərbaycan teatrının 100 illiyi (1974) yubileyləri təntənə ilə qeyd olundu. Nəsiminin YUNESKO-nun himayəsi altında (1979-cu ildə) keçirilən 600 illiyi böyük ədəbi-mədəni hadisəyə çevrildi. Nəsimi əsərlərinin elmi-tənqidi mətni üç cilddə nəşr olundu, yaradıcılığı haqqında monoqrafiyalar, elmi-tədqiqat nümunələri işıq üzü gördü, bir çox əsərləri müxtəlif dillərə tərcümə edildi. Şairin Bakıda keçirilən yubiley təntənələrində keçmiş İttifaqın hər yerindən və 25 xarici ölkədən gəlmiş nümayəndələr iştirak etmişdi.

70-ci illərdə Azərbaycan yazıçılarının və bəstəkarlarının SSRİ-nin böyük şəhərlərində, xüsusən Moskva və Leninqradda yubiley təntənələrinin keçirilməsi bir ənənəyə çevrilmişdi. Bu illərdə Azərbaycanda Rusiya Ədəbiyyatı və İncəsənəti

(1972), Sovet Ədəbiyyatı (1975), Ukrayna və Özbəkistan (1979), Leninqrad (1987) Ədəbiyyatı və İncəsənəti günləri təşkil olunmuşdu.

Vaxtaşırı Zaqafqaziya xalqlarının musiqi festivalı keçirilirdi. 1988, 1989 və 1991-ci illərdə Azərbaycanda "Xarı bülbül" Ümumittifaq muğam festivalı təşkil olunmuşdu.

Ardıcıl olaraq teatr festivalları, baxışlar keçirilirdi.

Rəşid Behbudov, Zeynəb Xanlarova, Elmira Rəhimova, Müslüm Maqomayev və başqalarının tez-tez xarici ölkələrə qastrolları Azərbaycan musiqisinin və ifaçılıq sənəti nailiyyətlərinin geniş təbliğinə kömək edirdi.

Bütün nailiyyətlərə baxmayaraq, maarif sistemi kütləvi informasiya vasitələrinə güclü hakim ideoloji təzyiq olduğundan açıq-aşkar, azad və səmərəli fəaliyyət göstərə bilmirdi.

60-cı illərdə "geniş kommunizm quruculuğu", 70-ci illərdə "inkişaf etmiş sosializm cəmiyyəti" haqqında fərziyyələr, uydurmalar da ideoloji təzyiq "institutunun" əsas ehkamları idi. Adamlarda mövcud sistemin "qələbələrə aparan üstünlükləri" haqqında yəqinlik yaratmaq üçün irəliləyişlər şişirdilir, qüsurlar gizlədilirdi. Sovet cəmiyyəti, sosialist sistemi, kommunist partiyasının "rəhbər və istiqamətverici rolu" haqqında ehkamlar "elmi dünyagörüşü" adı ilə beyinlərə yeridilirdi.

"İdeoloji cəbhə" anlamadan xalqın bir çox adət-ənənələrini dini əlamətlər kimi qiymətləndirir, onları sıxışdırırdı. Xurafatla heç bir əlaqəsi olmayan, hətta islamdan əvvəlki dövrdə xalqın məişətinə daxil olmuş, əməksevərliyi, nəcibliyi, rəhmliyi tərənnüm edən, müəyyən dərəcədə beynəlmiləl xarakterli Novruz bayramı rəsmi şəkildə qeyd olunmurdu. Kənd yerlərində "sosialist" adı altında 21 bayram və mərasim "ənənəyə" çevrilməkdə idi.

Din açıqca sıxışdırıldığından əhalinin çoxu ona gizlincə riayət edirdi. 1970-ci ildə respublikada cəmi 17 məscid və 70 nəfərə qədər əsasən azsavadlı və yaşlı din xadimi vardı.[156] Bu, təhsil, mədəni səviyyəsi, bilik dairəsi xeyli artmış dindarların tələbatını ödəyə bilmirdi. Xüsusi səylərə baxmayaraq, ideoloji aparatın ateist təbliğatı səmərə vermirdi. Xalq milli ənənələrini qoruyub saxlamağa çalışırdı. Dini bayram və mərasimlər yarımleqal şəkildə qeyd olunurdu. Respublikadakı yüzdən çox müqəddəs pir və ocaqdan 25-i, o cümlədən "Mir Möhsün ağa", "Əliayağı" (Bakı), "Babaratma" (Şəki), "Asəfkəf", "İmamzadə" (Babək), "Soltan xalac" (Quba) və başqaları əsasən yaşlı və xəstə adamlar tərəfindən fəal ziyarət olunurdu. Azərbaycanda 40-dan çox qeydə alınmamış müsəlman, habelə digər dini birliklər vardı. 30-dan çox müsəlman dini birliyi isə ancaq məhərrəmlik vaxtı 50 gün ərzində fəaliyyət göstərirdi.[157] Dini birlikləri nəzarət altında saxlamaq üçün Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti 1976-cı il 13 sentyabrda "Azərbaycan SSR-də dini birliklər haqqında Əsasnamə"

qəbul etdi. Dini birliklərin bir neçəsi rəsmi məscidə çevrilə bildi, qalanları isə fəaliyyətini dayandırmalı oldu.[158]

80-ci illərin sonlarında respublikada demokratik hərəkat, plüralizmin artması dünyagörüşün formalaşması prosesində demokratik prinsiplərin bərqərar olunmasına kömək edirdi. Artıq dindarlara hörmətlə yanaşılırdı. 1988-1990-cı illərdə 30-dan çox məscid açıldı. 1989-cu ildə Bakıda mədrəsə təşkil olundu. Naxçıvan MSSR-də 200 məscid binasından 97-si bərpa edilmişdi. Ziyarətgahlar abadlaşdırılırdı. 1990-cı ildə dindar müsəlmanların Məkkəyə ziyarəti təşkil edildi.[159] Dini ədəbiyyatın çap olunub yayılmasına şərait yarandı. 1990-cı ilin noyabr ayında "İslam" qəzetinin nəşrinə başlandı.

Fikirlər plüralizminə, diskussiyalara geniş meydan açıldı. Təhsilin, kütləvi informasiyanın, mədəni-kütləvi tədbirlərin məzmunu zənginləşdi. Aşkarlıq və demokratiya ictimai elmlərin, ədəbiyyat və incəsənətin inkişafına əlverişli şərait yaratdı.

**Elm.** 70-80-ci illər Azərbaycan elminin inkişafında da mühüm dövr kimi səciyyələndi. Elmi müəssisələrin (ali məktəblər də daxil olmaqla) sayı 142-dən 151-ə, o cümlədən elmi-tədqiqat institutları və onların filiallarının sayı 73-dən 85-ə çatmışdı.[160] Elmi tədqiqatla məşğul olan işçilərin sayı 17 min nəfərdən 32,3 min nəfərədək artmışdı. Onların sırasında elmlər doktorlarının sayı 1,8 dəfə artıb 1186 nəfərə, elmlər namizədlərinin sayı isə 1,7 dəfə artıb 8905 nəfərə çatmışdı.[161] Konstruktor büroları və təcrübə təsərrüfatları olan altı elmi-istehsalat kompleksi formalaşmışdı. Neft sənayesi, kənd təsərrüfatı, tikinti, səhiyyə və başqa sahələr üzrə nazirlik və baş idarələr iri elmi-tədqiqat müəssisələrinə malik idi. Elmi-Tədqiqat Oftalmologiya İnstitutu SSRİ-də sanballı elm ocaqlarından biri kimi tanınırdı.

1972-ci ildən Azərbaycan Elmlər Akademiyasının Naxçıvanda Elmi Mərkəzi fəaliyyətə başladı. 1975-ci ildən "Xəzər" Elmi Mərkəzində respublikanın təbii ehtiyatlarının kosmik tədqiqi aparılırdı. 1978-ci ildə Bakıda Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyi fəaliyyətə başladı.

Yüksək ixtisaslı elmi kadrlar hazırlanmasında elmi müəssisə və ali məktəblərin aspirantura və doktoranturaları əhəmiyyətli rol oynayırdı. 1970-ci ildə aspiranturalarda 1991 nəfər (o cümlədən 1185 nəfər əyani) aspirant təhsil alırdı. 70-80-ci illərdə aspiranturalara qəbul diqqətin kəmiyyətdən keyfiyyətə yönəldilməsi, 80-ci illərin ikinci yarısında elmə qayğının və marağın azalması ilə əlaqədar azaldı. 1990-cı ildə respublikada 1340 nəfər (o cümlədən 597 nəfər əyani) aspirant vardı.[162]

1990-cı ildə 13 elmi müəssisədə və 3 ali məktəbdə doktorantura fəaliyyət göstərir, onlarda 36 nəfər tədqiqat işləri ilə məşğul olurdu.[163]

Böyük elmi-texniki potensiala malik olan Azərbaycan Elmlər Akademiyası təbiət, ictimai və humanitar elmlər sahəsində fundamental araşdırmaların iri mərkəzinə, respublikada aparılan elmi işlərin əlaqələndiricisinə çevrildi.

Elmlər Akademiyasının altı bölməsində fizika-texnika və riyaziyyat, Yer haqqında elmlər, biologiya, kimya elmləri, tarix və iqtisadiyyat, fəlsəfə, dilşünaslıq, ədəbiyyat və incəsənət, sənaye, kənd təsərrüfatı və mədəni quruculuğun elm qarşısında qoyduğu mürəkkəb və mühüm məsələlər həll olunurdu.

1970-ci ildə Azərbaycan Elmlər Akademiyasında 30 elmi müəssisə, o cümlədən 22 elmi-tədqiqat institutu, 3,3 min elmi işçi, o cümlədən 209 elmlər doktoru, 1311 elmlər namizədi fəaliyyət göstərirdi. Akademiyanın 54 həqiqi, 41 müxbir üzvü vardı.[164]

Elmin inkişafı sahəsində ali təhsil müəssisələri mühüm rol oynayırdı. Onların yüksək elmi potensialı həm fundamental xarakterli, həm də istehsalın konkret tələblərinin təmin edilməsinə yönəldilmiş təsərrüfathesablı müqavilələr əsasında əhəmiyyətli dərəcədə tətbiqi xarakterli araşdırmalar aparmağa imkan verirdi.

SSRİ Ali Attestasiya Komissiyasının Azərbaycanın elmi idarələrində və ali məktəblərində namizədlik və doktorluq dissertasiyaları müdafiəsini təşkil etmək üçün onlarla ixtisaslaşdırılmış elmi şuraları fəaliyyət göstərirdi. Hər il orta hesabla 350-400 nəfərdən çox gənc elmi tədqiqat işlərinə cəlb edilirdi.

Azərbaycan alimləri elmin inkişafına, xalq təsərrüfatının aktual problemlərinin işlənib hazırlanmasına, elmi araşdırmaların səmərəsinin artmasına öz töhfəsini verirdilər.

Ayrı-ayrı elmi müəssisələr və ali məktəb kafedraları neft və qaz yataqlarının araşdırılması, tibbi termoelektrik turşuların hasilatı və yarımkeçirici maqnitlər problemi sahələrində aparıcı mövqe tutdular.

Bakı "Neft Akademiyası" adlanırdı. Faydalı yataqların aşkar edilməsi və istismar olunmasının mühüm elmi-texniki problemləri öyrənilmişdi. Azərbaycanda 300-dən çox neft, qaz, faydalı qazıntı, tikinti materialları yataqları, çoxlu mineral su mənbələri aşkar edilmişdi. Bu sahədə görkəmli alimlər Mirəli Qaşqay, Şəfaət Mehdiyev, Əliəşrəf Əlizadə, Əzəl Sultanov və başqaları mühüm əməli fəaliyyət göstərmişdilər. Xəzər dənizinin Azərbaycan sektorunda perspektivli yataqlar aşkara çıxarılmışdı. Respublikanın bütün geoloji şəkli çıxardılmış, geoloji, geotektonik, dərinlik yataqları, coğrafi və başqa xarakterli atlaslar tərtib edilmişdi. "SSRİ geologiyası" çoxcildliyinin 47-ci cildi - "Azərbaycan SSR" (iki kitabda), "Azərbaycan SSR Atlası" (1979), "Azərbaycan SSRİ-in istilik balansı" (1979) və b. kitablar nəşr olundu.

Azərbaycan alimlərinin bir çox işləri, xüsusən neft sənayesi ilə bağlı tədqiqatları, neft-kimya, geologiya, riyaziyyat və biologiya sahəsindəki araşdırmaları respublikanın hüdudlarından kənarda da tanınırdı. Onların elmi nailiyyətlərinin tətbiqi coğrafiyası genişlənərək keçmiş SSRİ-nin bütün əsas iqtisadi rayonlarını əhatə edirdi.

Geologiya-mineralogiya elmləri doktoru Fərman Salmanovun rəhbərliyi altında Qərbi Sibirin neft və qaz yataqları kəşf olunmuşdu. Təkcə Tümen vilayətində F.Salmanov 20-dən çox neft yatağı kəşf etmişdi. Azərbaycan geofizikləri Xəzər dənizinin İrana məxsus şelfində qonşu dövlətin xahişinə əsasən 44 perspektivli neftli-qazlı struktur aşkar etmişdilər.

Azərbaycan neft kimyaçıları ölkədə ilk dəfə "qaynar layda" baş verən prosesləri öyrənmiş, onlara əsaslanan texnologiyalar üzrə işləyən qurğular hazırlamışdılar.

Azərbaycan astronomlarının elmi işləri bütün dünyada tanınırdı. Beynəlxalq Astronomiya İttifaqının qərarı ilə görkəmli astronom Nadir İbrahimovun şərəfinə Mars planeti kraterlərindən birinə "İbrahimov krateri", üç asteroidə "Azərbaycan", "Nizami Gəncəvi" va "ŞAR" (Şamaxı Astrofizika Rəsədxanası) adı verilmişdi.

Riyaziyyat və mexanika sahəsində tanınmış elmi məktəblər yaradılmışdı. Fiziklər yeni yarımkeçirici materiallar, çoxtəbəqəli quruluşlar almış, şüalanma qəbulediciləri, elektrik və optik yaddaşlı aşırıcı qurğuları yaratmışdılar.

Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində SSRİ-də ilk dəfə ətraf mühitə operativ nəzarət edən peykaltı nəzarət-ölçü sistemləri yaradılmışdı.

Dördcildlik "Azərbaycan faunası"nın II-IV cildləri nəşr olundu (1976-1978). 1974-cü ildə Bəsitçay, 1978-ci ildə Ağgöl, Qarayazı, 1981-ci ildə İsmayıllı, 1987-ci ildə İlisu qoruqları yaradıldı. Azərbaycanın "Qırmızı kitabı" hazırlandı və çap edildi.

Görkəmli alimlər Xudu Məmmədovun kristalloqrafiyanın, Zahid Xəlilov, Əşrəf Hüseynov və Fərəməz Maqsudovun riyaziyyatın, Hacıbəy Sultanovun astronomiyanın, Tofiq İsmayılovun kosmik cihazqayırmanın, Həsən Abdullayev, Çingiz Cuvarlının fizikanın, Toğrul Şahtaxtinskinin kimyanın, Ümnisə Musabəyova, Sona Vəlixanlı, Zərifə Əliyeva və Zəhra Quliyevanın oftalmologiyanın, Adilə Namazovanın pediatriyanın, Mirməhəmməd Cavadzadənin urologiyanın, Cəlil Hüseynovun patoloji anatomiyanın, Hüseyn Həsənovun neyrofiziologiyanın, Həsən Əliyevin torpaqşünaslığın, Cəlal Əliyevin bitki fiziologiyası və seleksiyanın, Validə Tutayuqun Qafqaz florasının, Musa Musayevin, Mirzəağa Nəzərovun zoologiyanın, Vahid Hacıyevin botanikanın, Urxan Ələkbərovun genetikanın, neftçi alim Midhəd Abasovun, Akif Əlizadənin geologiyanın və Budaq Budaqovun Azərbaycan geomorfologiyasının öyrənilməsində böyük xidmətləri olmuşdur.

Humanitar-ictimai elmlər sahəsində də mühüm nailiyyətlər əldə edilmişdi. Ziya Bünyadov, Cəmil Quliyev, İqrar Əliyev, Sara Aşurbəyli, Teymur Bünyadov, Tofiq Köçərli, Qaraş Mədətov, Mahmud İsmayılov və b. Azərbaycan tarixinə, Məmmədağa Şirəliyev, Zərifə Budaqova, Əziz Əfəndizadə, Ağamusa Axundov, Əlövsət Abdullayev və Yusif Seyidovun Azərbaycan dilinə, Əziz Şərif, Məmməd Cəfər, Mir Cəlal, Həmid Araslı, Abbas Zamanov, Məmmədhüseyn Təhmasib, Mirzə İbrahimov, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Bəkir Nəbiyev, Yaşar Qarayev, Azadə Rüstəmova və b. Azərbaycan ədəbiyyatına, Aslan Aslanov, Firudin Köçərli, Fuad Qasımzadənin fəlsəfəyə, Əhməd Mahmudov, Asəf Nadirov, Ziyad Səmədzadə, Bəhman Axundov, Ağasəlim Ələsgərov, Teymur Vəliyev və b. iqtisadiyyata dair tədqiqat işləri xalqın mənəvi sərvətinə çevrilmişdi. Azərbaycanda pedaqogika elminin inkişafında və xalq maarifinin təşkilində görkəmli alim, SSRİ Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü Mehdi Mehdizadə böyük rol oynamışdı. O, YUNESKO xətti ilə inkişaf etməkdə olan ölkələrdə təhsilin inkişafı planının hazırlanmasında fəal iştirak etmişdi.

Bu illərdə nəşr olunmuş üçcildlik "Müasir Azərbaycan dili" (1978-1981), üçcildlik "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası" (80-ci illərdə), üçcildlik "Rusca-azərbaycanca lüğət" (1970-80-ci illərdə), dördcildlik "Azərbaycan dilinin izahlı lüğəti" (1964-1987), "Azərbaycan dilinin orfoqrafiya lüğəti" (1975), "Azərbaycan dilinin etimologiya və onomastikası məsələləri" (1990), "Sovet Azərbaycanının heykəltəraşlığı" (1973), "Azərbaycan etnoqrafiyası" (I cild, 1988), "Azərbaycan Dram Teatrı" (1974), ikicildlik "Azərbaycan teatrı salnaməsi" (1975,1983), üçcildlik "Azərbaycan xalçası" (1961, 1983, 1987), "Sovet Azərbaycanı musiqi incəsənətinin oçerkləri" (1974, 1976), "Azərbaycan teatrı", "Azərbaycan dekorativ-tətbiqi sənətləri", "Cənubi Azərbaycan tarixinin oçerkləri" (1985), "Cənubi Azərbaycan tarixinin məsələləri" (1991) və başqa ümumiləşdirici əsərlər çap olunmuşdu.

70-ci illərdə respublika ərazisindəki maddi-mədəniyyət abidələri yenidən qeydə alındı, onların tədqiqinə, mühafizəsinə və səmərəli istifadə olunmasına diqqət artırıldı.

Lakin elmlərin, xüsusən ictimai elmlərin inkişafına "hakim ideologiya"nın güclü təzyiqi ciddi mənfi təsir göstərirdi. Xüsusən, Azərbaycan tarixinin, ədəbiyyatının, incəsənətinin sovet dövrü birtərəfli öyrənilir, mövcud dərin ziddiyyətlər və onların kökü, ictimai quruluşun, təsərrüfatçılıq sisteminin qüsurları ilə bağlı səbəblər açıqlanmırdı. Məsələn, 70-ci illərdə müttəfiq respublikaların elmlər akademiyaları tarix institutlarının əksəriyyəti öz xalqlarının çoxcildlik tarixini hazırlamağı planlaşdırmışdılar, o cümlədən Azərbaycan EA Rəyasət Heyəti də "Azərbaycan tarixi"nin (9 cilddə) yazılması qərarı ilə Baş redaksiya şurası yaratmışdı, cildlərin redaksiyaları, müəllifləri artıq fəaliyyətə başlamışdılar. Bu

təşəbbüs "ideoloji rəhbərliyi" (ələlxüsus, MK-nın katibi M.A.Suslovu) çox narahat etmişdi. Hətta Sov.İKP Mərkəzi Komitəsində bu məsələ respublika rəhbərlərinin və tarixçilərinin iştirakı ilə müzakirə olunmuşdu. Müzakirədə hər respublikanın fərdi "çoxcildlik" tarixinin əvəzinə regionlar (zonalar) üzrə birgə kitabın yazılması məsləhət görülmüşdü. Bu səbəbdən bir müddət respublikalar üzrə çoxcildlik tarixin yazılması ləngidildi. Ancaq Azərbaycan KP MK birinci katibi H.Ə.Əliyevin və Qazaxıstan KP MK birinci katibi D.Ə.Kunayevin Moskvaya məktubları sayəsində işə yenidən başlanıldı.

Respublikada elmin maddi-texniki bazasının inkişafına lazımi qədər vəsait ayrılmırdı. Elmə milli gəlirin 0,4 faizindən də az (SSRİ-də 6 faiz idi) vəsait sərf olunurdu.[165] Alimlərin əməyi kifayət qədər qiymətləndirilmirdi. Tədqiqat aparmaq üçün müasir avadanlıq, hesablama texnikası, cihazlar çatmırdı. Alimlərə xarici ədəbiyyatdan, arxivdən istifadə etmək, beynəlxalq aləmə çıxmaq çətin idi.

Lakin bütün bunlara baxmayaraq, 80-ci illərdə elmin inkişafı sahəsindəki xidmətlərinə görə Azərbaycan Elmlər Akademiyasının 5 alimi Lenin mükafatı laureatı adına, 14 alimi isə SSRİ Dövlət mükafatına layiq görülmüşdü. Elmi nailiyyət və fundamental əsərlərinə görə akademiklər R.H.İsmayılov, M.A.Topçubaşov, M.F.Nağıyev, M.Ə.Hüseynov, M.Ə.İbrahimov Sosialist Əməyi Qəhrəmanı fəxri adı, onlarla alim Respublika Dövlət və Komsomol mükafatları almışdılar.

**Ədəbiyyat və incəsənət.** 70-80-ci illərdə Azərbaycan ədəbiyyatının inkişafında da mühüm nailiyyətlər qazanılmışdı. Xalq şairi Mirvarid Dilbazinin "Bənövşələr üşüyəndə" (1970), "Ana qanadı" (1972), "Dağ çiçəyi" (1977), "Yasəmən fəsli", "Seçilmiş şeirlər" (1979) şeir kitabları və üç cilddə seçilmiş əsərlərində (1982-1984) Vətən məhəbbəti, ana torpağa bağlılıq ideyalarının tərənnümü əsas yer tuturdu.

Azərbaycanın gözəl təbiət mənzərələri, Azərbaycan qadınlarının mənəvi zənginliyi, vətənpərvərlik, azadlıq ideyaları xalq şairi Nigar Rəfibəylinin "Günəşdən gənclik istədim", "Bizə bahar yaraşır" kitablarındakı şeirlərin əsas mövzuları idi.

İslam Səfərlinin "Çiçək təranəsi" (1970), "Dan ulduzu, bir də mən" (1974) "Ədəbi beşik" (1978), Əli Kərimin "Qaytar ana borcunu" (1970),"Uşaqlar və ulduzlar" (1971),"Pillələr" (1978),"Qayıt" (1983) şer kitabları oxucuların rəğbətini qazanmışdı.

Nəbi Xəzrinin "Dərələr" (1970), "Ulduz karvanı" (1979), "Heykəlsiz abidə" (1982), "İnam" (1982), dördcildlik seçilmiş əsərləri (1983-1985) və b. şeir kitablarında vətənin, onun təbii gözəlliklərinin, insanların nəcib arzu və ideallarının tərənnümü əsas yer tuturdu. Xalq şairi Rəsul Rzanın şeirlərində ümumbəşəri hiss

və düşüncələr başlıca yer tuturdu. Bu, "Dünən, bu gün, sabah" (1973), "Güneylər, quzeylər" (1977), "Üzüküləyə" (1979) kitablarındakı şeirlərin əsas mövzusu idi.

Xalq şairi Bəxtiyar Vahabzadənin fəlsəfi poeziyası xalqa olduqca yaxın idi. Onun "Muğam", "Atılmışlar" və b. poemaları bu baxımdan daha səciyyəvi idi. Qabilin "Nəsimi" poeması və şeirləri Azərbaycan poeziyasının o dövrdə yaranmış ən yaxşı nümunələrindəndi. Xəlil Rza, Məmməd Araz, Fikrət Qoca və b. yaratdığı əsərlər ədəbiyyatımızı daha da zənginləşdirirdi.

70-80-ci illərdə Azərbaycanın bədii nəsri zəngin bir inkişaf yolu keçmiş, ictimai həyatı müxtəlif cəhətlərdən əks etdirən çoxlu roman və povestlər yazılmışdı. Süleyman Rəhimovun "Ana abidəsi" (1967-1980), "Qafqaz qartalı" (1971-1975), "Qoşqar qızı", İlyas Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" (1978), Əzizə Cəfərzadənin "Aləmdə səsim var mənim", "Bakı-1501", İsa Hüseynovun "Nəsimi" romanları, Ələviyyə Babayevanın "Adamlar və talelər" əsəri oxucular tərəfindən böyük maraqla qarşılanmışdır.

Anarın "Ağ liman" (1977), "Macal" (1978), "Beşmərtəbəli evin altıncı mərtəbəsi" (1972) əsərlərində mühüm mənəvi-əxlaqi problemlər qaldırılmışdı.

Əkrəm Əylislinin "Mənim nəğməkar bibim", "Tənha narın nağılı", "Adamlar və ağaclar" povestləri əsasən kəndin müasir və aktual sosial-mədəni problemlərinə həsr olunmuşdu.

Elçinin "Gümüşü narıncı" (1973), "Bu dünyada qatarlar gedər" (1974), "Bir görüşün tarixçəsi" (1977), "Dolça" (1978) və b. hekayə və povestlərində, "Mahmud və Məryəm", "Ağ dəvə" romanlarında həyatın mənəvi-əxlaqi problemləri əsas mövzu idi.

Xalqda milli şüurun oyanmasında Cənubi Azərbaycan mövzusunda yazılmış əsərlərin xüsusi əhəmiyyəti vardı. M.İbrahimovun "Pərvanə" (1970) romanı, "Cənub hekayələri" silsiləsi maraqla qarşılanmışdı.

Azərbaycan dramaturgiyası bir sıra nailiyyətlər əldə etmişdi. Mirzə İbrahimovun "Bəşərin komediyası" (1978), İ.Qasımovun "Nağıl başlananda" (1972), "Dairəni genişləndirin" (1974), Bəxtiyar Vahabzadənin "Yağışdan sonra" (1971) pyeslərində mənəvi-əxlaqi problemlər əsas yer tuturdu.

İlyas Əfəndiyevin müasir mənəvi-əxlaqi dəyərlərdən söhbət açan "Qəribə oğlan" (1973), "Bağlardan gələn səs" (1976), "Büllur sarayda", "Sevgililərin cəhənnəmdə görüşləri", "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981) pyesləri psixoloji dramın gözəl nümunələri idi.

Anarın "Şəhərin yay günləri" (1978), "Adamın adamı" (1970), "Səhra yuxular" (1981), "Sizi deyib gəlmişəm" (1982) pyesləri oxucular tərəfindən rəğbətlə qarşılanmışdı.

Respublikada musiqi, ifaçılıq, teatr və kino sənəti sahəsində də mühüm irəliləmələr baş vermişdi.

Fikrət Əmirovun "1001 gecə", Aqşin Əlizadənin "Babək" baletləri musiqi sənətinin ən mühüm nailiyyətləri idi. Arif Məlikov, Xəyyam Mirzəzadə və b. əsərləri simfonik musiqinin inkişafında mühüm rol oynadı. Şəfiqə Axundovanın "Gəlin qayası" operası (1972), Emin Sabitoğlunun "Hicran" musiqili komediyası tamaşaçılar tərəfindən maraqla qarşılandı. Tofiq Quliyev, Süleyman Ələsgərov, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Polad Bülbüloğlu, Elza İbrahimova, Cavanşir Quliyev, Ələkbər Tağıyev, Oqtay Rəcəbov və başqalarının mahnıları xalqın rəğbətini qazandı.

Rəşid Behbudov, Müslüm Maqomayev (nəvə), Zeynəb Xanlarova, Firəngiz Əhmədova, Lütfiyar İmanov, Fidan və Xuraman Qasımovalar, Rauf Atakişiyev, Rübabə Muradova, Fərhad Bədəlbəyli, Vaqif Mustafazadə, Habil Əliyev, Həbib Bayramov, Hacı Məmmədov, Ramiz Quliyevin ifaçılıq sənəti özünəməxsus zəngin koloriti və təkrarsızlığı ilə seçilirdi.

Azərbaycan simfonik musiqisinin inkişafı və təbliğində görkəmli dirijor Niyazinin əvəzsiz rolu danılmazdır. 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Filarmoniyasında simfonik konsert gecələrin təşkili ənənə şəklini almışdı.

Rəfiqə Axundova, Maqsud Məmmədov, Çimnaz Babayeva, Tamilla Şirəliyeva və b. milli baletimizin yorulmaz ifaçıları və təbliğatçıları idi.

Bakı, Gəncə, Naxçıvan, Sumqayıt, Şəki, Şuşa, Ağdam, Lənkəran dram teatrlarının səhnəsində klassik və müasir mövzuda bir sıra maraqlı tamaşalar hazırlanmışdı.

Görkəmli aktyorlar Hökümə Qurbanova, Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Leyla Bədirbəyli, Möhsün Sənani, Rza Əfqanlı, Mustafa Mərdanov, Lütfəli Abdullayev, Nəsibə Zeynalova, Məlik Dadaşov, Əli Zeynalov, Məmmədrza Şeyxzamanov, Əliağa Ağayev, Sofya Bəsirzadə və onlarla başqaları Azərbaycan səhnəsində yüzlərlə orijinal və parlaq obrazlar yaratmışdılar.

Azərbaycan səhnəsinə Həsən Turabov, Amaliya Pənahova, Səməndər Rzayev, Fuad Poladov, Səyavuş Aslan, Yaşar Nuri, Hacıbaba Bağırov, Arif Quliyev, Hamlet Xanızadə, Əliabbas Qədirov, Mikayıl Mirzə və başqalarının təmsil etdiyi yeni, istedadlı bir nəsil gəlmişdi.

Böyük dramaturq İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı", "Qəribə oğlan" (1973), "Bağlardan gələn səs" (1975) lirik psixoloji ruhda yazılmış pyesləri müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

B.Vahabzadənin "Yağışdan sonra" (1971), "Əks-səda" (1975), Nəbi Xəzrinin "Sən yanmasan" (1972), Seyfəddin Dağlının "Mənziliniz mübarək" (1971), Səməd Vurğunun "İnsan" (1974), İmran Qasımovun "Nağıl başlananda" (1978), İslam Səfərlinin "Yol ayrıcında" dram əsərləri müvəffəqiyyətlə maraqlı

quruluşda tamaşaçılara təqdim olunmuşdu. 1970-ci ildə Hüseyn Cavidin "Xəyyam" tamaşası ilə görkəmli rejissor Mehdi Məmmədov özünü klassik irsin müasir təfsirçisi kimi bir daha təsdiq etdi. "Dəli yığıncağı" (Cəlil Məmmədquluzadə) tamaşası rejissorun yaradıcılığında klassik mədəniyyətin müasirliyi fikrinin ənənəvi davamı və onun sənət dünyasının estetik prinsipi kimi mənalanırdı.

1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi təntənə ilə qeyd edildi. May ayının 26-dan iyunun 10-na kimi teatr Moskva Kiçik Teatrının binasında yubiley tamaşaları ilə çıxış etdi.

80-ci illərin sonunda Yusif Səmədoğlunun "Qətl günü", Anarın Adamın adamı" və "Təhminə və Zaur" pyesləri tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

1981-ci ildə H.Cavidin 100 illiyi ilə əlaqədar olaraq respublikanın bir çox teatrlarında dramaturqun əsərləri tamaşaya qoyuldu. "İblis" (Akademik teatr), "İsmət" (Sumqayıt teatrı), "Topal Teymur" (Lənkəran və Azərbaycan televiziyası), "Ana", "Mənim tanrım gözəllikdir, sevgidir" (Naxçıvan), "Knyaz" (Şəki), "Şeyx Sənan" (S.Vurğun adına Rus Dram Teatrı) teatrsevərlər tərəfindən rəğbətlə qarşılandı.

80-ci illərdə Akademik Teatrın səhnəsində tarixi qəhrəmanlıq mövzusunda yazılmış və səhnələşdirilmiş "Atabəylər" (N.Həsənzadə), "Fəryad" (B.Vahabzadə), "Torpağa sancılan qılınc" (N.Xəzri) tamaşalarında teatr özünün işıqlı və demokratik ideallar uğrundakı mübarizədə həqiqəti, humanizm mövqeyini, vətəndaşlıq və müasirlik keyfiyyətlərini ifadə etməyə çalışmışdı.

Azərbaycan kinosu da inkişaf etməkdə idi. "Azərbaycanfilm"in istehsal etdiyi kinofilmlərdə xalqın tarixi keçmişi, yüksək mənəvi dəyərləri, habelə çağdaş ictimai reallıqlar öz əksini tapırdı."Şərikli çörək" (1969-cu il, rejissor Ş.Mahmudbəyov), "Yeddi oğul istərəm" (1970-ci il, rejissor T.Tağızadə), "Ulduzlar sönmür" (1970-ci il, rejissor Ə.İbrahimov), "Gün keçdi" (1971-ci il, rejissor A.Babayev), "Nəsimi" (1973-cü il, rejissor H.Seyidbəyli), "Babək" (1979-cu il, rejissor E.Quliyev), "Tütək səsi" (1975-ci il, rejissor R.Ocaqov), "İstintaq" (1979-cu il, rejissor R.Ocaqov), "Axırıncı aşırım" (1971-ci il, rejissor K.Rüstəmbəyov), "Dədə Qorqud" (1975-ci il, rejissor T.Tağızadə), "Yaramaz" (1989-cu il, rejissor V.Mustafayev), "Lətifə" (1990-cı il, rejissor N.Musayev) və başqa filmlər bu baxımdan daha maraqlı idi. Azərbaycan cizgi filmlərinin yaradılmasında rejissorlar B.Əliyev və N.Məmmədovun böyük xidmətləri vardı. Bu illərdə Həsən Məmmədov, Rasim Balayev, Şəfiqə Məmmədova və başqalarının təmsil etdiyi istedadlı kino aktyorları nəsli yetişmişdi.

Azorbaycan memarlığı daha çox tərəqqi etmişdi. Yaşayış binalarının kütləvi inşası ilə yanaşı, orijinal layihələr üzrə şəhərləri bəzəyən iri ictimai binalar da tikilmişdi.

Memarlar M.Hüseynovun, H.Ələsgərovun, Ə.Hüseynovun və b. layihələri ilə Bakıda və respublikanın digər şəhərlərində milli memarlıq elementlərini əks etdirən layihələr üzrə onlarla bina inşa olunmuşdu.

Bakıda "Bakı" (1970), "Moskva" (1978), "Azərbaycan" (1970),

"Qarabağ" (1970), "Abşeron" (1985) mehmanxanaları, "Respublika" ( o zaman Lenin adına) sarayı (1972), "Gülüstan" sarayı (1978), Gəncədə "Kəpəz", Şəkidə "Şəki", Şuşada "Şuşa" mehmanxanaları tikilmişdi.

Bakı metropoliteninin "Nizami", "Əcəmi" və b. stansiyaları müasir və milli memarlıq elementlərinin orijinal, harmonik birləşməsi nəticəsində yaranan uğurlu layihələr əsasında inşa olunmuşdu.

Azərbaycan heykəltəraşları bir sıra uğurlu əsərlər yaratmışdılar. Cəlal Qaryağdının "N.Nərimanov" (1972), "Y.Məmmədəliyev" (Ordubad, 1977), Mirələsgər Mirqasımovun "C.Məmmədquluzadə" (Naxçıvan, 1974), "C.Cabbarlı" (1982), Tokay Məmmədov, İbrahim Zeynalovun "Nəsimi" (1979), Fuad Əbdürrəhmanovun "M.Hüseynzadə" (1973), Elmira Hüseynovanın "H.Zərdabi" (1983) və b. əsərlər Azərbaycan monumental heykəltəraşlığının ən yaxşı nümunələri idi.

Fuad Əbdürrəhmanovun İbn Sinaya Buxarada (1975), Ö.Eldarovun tacik yazıçısı Sədrəddin Ayniyə Düşənbədə (1979) qoyduqları abidələr heykəltəraşlıq sənətinin mühüm nailiyyətləri kimi qiymətləndirilir.

Azərbaycanın istedadlı fırça ustalarından Tahir Salahovun "R.Rza" (1971), "D.D.Şostakoviç" (1975) portretləri və b. əsərləri Azərbaycan boyakarlığının ən görkəmli nümunələri idi. Mikayıl Abdullayevin "İmadəddin Nəsimi" (1973), "Pianoçu F.Bədəlbəyli" (1975) portretləri, Salam Salamzadənin "Çay plantasiyası" (1970) Azərbaycan xalqının müasir həyatının çoxplanlı poetik salnaməsidir.

Səttar Bəhlulzadənin "Azərbaycan nağılları" (1970), "Suraxanı atəşgahı" (1970), "Əfsanəvi torpaq" (1971), "Naxçıvan axşamçağı", "Ordubad bağlarında" (1974), "Abşeron tacı" (1970) tablolarında doğma torpağa, insanlara hədsiz məhəbbət motivləri başlıca yer tutur.

Maral Rəhmanzadənin "Xınalıq", "Bizim qızlar", "Doğma vətənim", "Azərbaycan", "Mənim bacılarım" və b. linoqravürlərində əmək və məişət mövzuları, Azərbaycan kəndinin həyatı, təbiəti böyük sənətkarlıqla əks olunmuşdu.

Toğrul Nərimanbəyovun, Tağı Tağıyevin, xalçaçı rəssamlar Lətif Kərimovun, Kamil Əliyevin, plakat ustası Hacıağa Nəzərovun və başqalarının əsərləri yenilik və sənətkarlıq baxımından təkrarolunmaz idi. Elmira Şahtaxtinskayanın "Azərbaycan qədim mədəniyyət diyarıdır" silsilə plakatları özünün orijinal forma biçiminə, klassik irsə bağlılığına görə xalqın mədəni həyatında mühüm hadisəyə çevrilmişdi.

Azərbaycan, rus, xarici ölkə klassiklərinin əsərlərinə tərtibat vermiş O.Sadıqzadə kitab illüstrasiyası sahəsində uğurla çalışırdı. İ.Nəcəfqulunun satirik rəsm və karikaturaları maraqla qarşılanırdı.

Beləliklə, 70-80-ci illər Azərbaycan mədəniyyətinin inkişafında mühüm dövr oldu. Heydər Əliyevin milli oyanış siyasəti sayəsində təhsil, elm, mətbuat, ədəbiyyat və incəsənətin tərəqqisi üçün münasib imkanlar açıldı. Respublikanın mənəvi sərvətləri, kadr potensialı daha da artdı. Xalqın mədəni irsinin, tarixinin, dilinin öyrənilməsi və təbliği genişləndi.

V FƏSİL

# RESPUBLİKANIN İCTİMAİ-SİYASİ HƏYATI

*(80-ci illərin II yarısı)*

## §1. "YENİDƏNQURMA" VƏ AZƏRBAYCAN. DAĞLIQ QARABAĞ KONFLİKTİ, ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN KƏSKİNLƏŞMƏSİ

Artıq 80-ci illərin ortalarında sovet ölkəsinin ictimai-siyasi, iqtisadi və mənəvi həyatında böhran yaranmışdı. Böhranlı vəziyyətin simptomları hələ 70-ci illərin ortalarından görünürdü, - elmi-texniki tərəqqi ləngiyirdi, sənayedə avadanlığın mənəvi aşınması, infrastrukturun zəifliyi, təbii ehtiyatlar hasilatının çətinləşməsi və bahalaşması, maddi ehtiyatlar qıtlığının meydana gəlməsi təzahür edirdi. Əmək məhsuldarlığının orta illik artımı 1965-1970-ci illərdəki 5,2 faizə qarşı 1981-1985-ci illərdə cəmi 3 faiz təşkil edirdi. Bu dövrdə istehsal olunan məhsulun orta illik artımı sənayedə 8,5 faizdən 3,1 faizə, kənd təsərrüfatında 4 faizdən 1,2 faizə, mal dövriyyəsi 8,2 faizdən 2,8 faizə, əsaslı vəsait qoyuluşu 7,6 faizdən 3,3 faizə enmişdi.[1]

Böhrana əsas səbəb rəvan işləməsi üçün qüdrətli rəhbər tələb edən sosialist cəmiyyətinin uzun müddət, xüsusən 70-ci illərin ortalarından onu idarə edə biləcək, xüsusi keyfiyyətlərə sahib liderə malik olmaması idi. 1985-ci ildən sovet imperiyasına rəhbərlik edən Sov.İKP MK-nın Baş katibi M.S.Qorbaçov isə qurmağa yox, dağıtmağa çalışırdı. Sonralar, Türkiyənin Amerika Universitetindəki çıxışında o etiraf etmişdi: "Həyatının məqsədi kommunizmi məhv etmək olub".[2] Belə bir şəxsiyyətin rəhbərlik etdiyi sosialist dövlətinin dağılması təbii idi.

60-cı illərdə ölkədə keçirilən islahatlar iflasa uğradı. Çünki faktiki olaraq köhnə ictimai-siyasi rejim toxunulmaz qalmışdı, effektli olmayan iqtisadiyyat, ekstensiv inkişaf modeli qalmaqda idi.

İctimai həyatın bütün sahələrinə partiya amirliyi gücləndikcə, bu təşkilatda mənəvi çürümə prosesi sürətlənirdi. Partiya özünə sosial dayaq yaratmaq üçün xalqları, cəmiyyəti, kollektivləri, təşkilatları parçalayırdı. İqtidar tərəfdən dəstəklənən rəhbər elita - partiya-təsərrüfat "fəalları" əldə etdikləri imkanlardan sui-istifadə edərək varlanırdılar. Məkrli yolla faydalanan fırıldaqçılar "sosialist həyat tərzi" meyarlarına sığışmayan dəbdəbəli yaşayış və yığdıqlarından asudə bəhrələnmək naminə mövcud siyasi-ictimai sistemin dağılmasına biganə idilər.

Hakim üsuli-idarənin mənəvi dayağı olan kommunist ideologiyası iflasa uğramaqda idi. Onun təbliğ etdiyi ehkamlarla qurulmuş cəmiyyət, "böyük gələcək" haqqında uydurma iddialarla həyat həqiqətləri arasında ziddiyyətin dərinləşməsi böhranın mühüm səbəblərindən biri idi. Xalq öz real vəziyyətini dərk edir, sovet imperiyasının ideologiya dayaqları sarsılırdı. Sovet respublikalarında milli özünüdərk, suveren hüquqların hakim-şovinist dairələr tərəfindən tapdalanmasına, respublikaların milli sərvətlərinin talan olunmasına etirazlar güclənməkdə idi.

Dövləti qanunlar deyil, partiya elitasının maraqları idarə edirdi. Sözdə elan olunmuş demokratik hüquq və azadlıqların real təminatı yox idi. İqtidar hüquqi nihilizmin dərinləşməsində maraqlı idi. Qanunsuzluq, ona qarşı mübarizənin səmərəsizliyi adamları siyasi həyata münasibətdə laqeydləşdirirdi.

Sovet İttifaqının iflası mühüm xarici səbəblərlə də şərtlənirdi. Qərbdə "Bəla imperiyası" kimi damğalanan bu "super" dövlət iki sistem - kapitalist və sosialist sistemləri arasında çox böyük çətinliklə hərbi paritet yaratmağa nail olmuşdu. Lakin dünyanın demokratik dövlətləri ona qarşı qüvvələrini birləşdirirdilər. Ümumdünya antikommunizm liqasının fəaliyyəti genişlənmişdi. Beynəlxalq müsəlman dini mərkəzləri də bu liqaya qoşulmuşdu. Ümumdünya "İslam Liqası" 1976-cı ildə kommunizmə qarşı müqəddəs müharibə elan etmişdi. 70-ci illərin sonlarında təşkil olunmuş "İslam İnternasionalı" da SSRİ-də müsəlman antikommunist və antisovet qüvvələri birləşdirmək uğrunda mübarizə aparırdı.[3]

70-ci illərin ortalarında SSRİ Şərqi Avropada orta mənzilli raketlər yerləşdirdi. Bu, mövcud strateji tarazlığı pozdu. 1979-cu ilin dekabrında sovet ordusu Əfqanıstana soxuldu.[4] Nəticədə demokratik ölkələr tərəfindən artan sovet təhlükəsinə qarşı yeni hərbi proqramlar, o cümlədən ABŞ-ın "Ulduz müharibələri" proqramı hazırlandı. İqtisadi sanksiyalar tətbiq edildi. ABŞ SSRİ-yə taxıl ixracını dayandırdı. SSRİ-nin isə bu tədbirlərə, xüsusən külli miqdarda vəsait tələb edən yeni proqramlara cavab verməyə imkanı yox idi.

Dünya dövlətlərinin mövcud satış və xammal bazarlarını, tranzit imkanlarını yeni real qüvvələrə müvafiq yenidən bölüşdürmək cəhdləri də SSRİ-nin iflasını sürətləndirirdi. Onu növbəti böhranlı vəziyyətdən qurtarmaq üçün 80-ci illərin ikinci yarısında cəhdlər göstərildi. Sovet İttifaqı Kommunist Partiyasına rəhbərliyi ələ keçirdikdən sonra həqiqi siyasi məqsədini eklektik ideoloji və dövlətçilik sistemi yaratmaq cəhdləri ilə pərdələyən M.S.Qorbaçov Mərkəzi Komitənin 1985-ci il Aprel plenumunda iqtisadi və sosial-mədəni tərəqqinin "sürətləndirmə konsepsiyası"nı irəli atdı.[5] Elmi-texniki tərəqqini, cəmiyyətin maddi-texniki bazasını inkişaf etdirmək, istehsal münasibətlərini təkmilləşdirmək, bütün ictimai, siyasi və ideoloji təsisatlar sistemini fəallaşdırmaq, "insan amilinin rolunu yüksəltmək" üçün sözdə təşəbbüslər edildi. Əməyin təşkili, təsərrüfat hesabının tətbiqi, çoxukladlı iqtisadiyyatı, eləcə də icarə sistemini, kooperasiyanı

inkişaf etdirmək, müxtəlif mülkiyyət formalarına əsaslanan təsərrüfatlara bərabər imkanlar yaratmaq haqqında qanun və qərarlar qəbul olundu. Lakin onların işləməsi üçün münasib şərait yaranmadı. Əvvəlki direktiv aktlar kimi, bu qanun və qərarlar da gözlənilən nəticələri vermədi. Təkpartiyalı siyasi sistem, partiya amirliyi ləğv olunmadan, respublikaların suveren hüquqlarını özlərinə qaytarmadan iqtisadiyyatı dirçəltmək mümkün deyildi.

Partiya elitasının öz dünyagörüşləri ilə Avropa sosial-demokratlarına yaxın olan islahatçıların ilk baxışdan cəlbedici, lakin elmi cəhətdən düşünülməmiş siyasəti dağıdıcı, pozucu proseslərin inkişafına imkan yaradır, bu isə əsaslı islahatları ləngidirdi. Hələ güclü olan rəqiblərinə zərbə vurmaq üçün "islahatçılar" Sov.İKP MK-nın 1987-ci il Yanvar plenumunda yeni siyasi xətt - "aşkarlıq və demokratiya xətti"inin qəbul edilməsinə nail oldular.[6] Əvvəllər stalinizm, 20-30-cu illərin partiya liderlərinə qarşı terror, sosializm quruculuğunun "Lenin prinsipləri"ndən sapınmalar ciddi tənqid olundu. Partiyanın totalitar idarəçilik metodları, qeyri-humanist, milli ayrı-seçkiliyə əsaslanan, xalqları parçalamaq, düşünən beyinlərdən məhrum etmək, insanları mütiləşdirmək, robotlaşdırmaq siyasəti ifşa olundu. 1988-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsini ələ keçirdikdən sonra Qorbaçov partiya amirliyinə qarşı daha ciddi addımlar atmağa başladı. Sov.İKP-nin XIX konfransında (1988-ci il, iyun) o, "Humanist, demokratik sosializm" şüarını meydana atıb, belə bir cəmiyyət qurmaq üçün partiya və dövlət orqanlarının funksiyaları arasında hədd qoyulmasını, partiyanın əsasən nəzəri, strateji siyasətlə məşğul olmasının vacibliyini qeyd etdi.[7] Lakin partokratların müqavimətini qırmaq mümkün olmadı, yenə də rəhbər kadrlar partiya nomenklaturasında saxlanıldı. Partokratlar yeni qəbul olunmuş seçki qanunlarında deputatların üçdə birinin ittifaq üzrə orqanları olan ictimai təşkilatlardan seçilməsinə nail oldular. 1989-cu ildə ilk dəfə çoxmandatlı sistem əsasında SSRİ xalq deputatları seçkiləri təşkil olundu və təbii ki, deputat mandatlarının çoxunu partokratlar aldı. Azərbaycandan seçilən SSRİ xalq deputatlarının da hamısı partnomenklatura siyahısından idilər. Buna baxmayaraq, öz işinə 1989-cu il mayın 25-də başlamış SSRİ xalq deputatlarının I qurultayında "qeyri-formal" deputatlar da sanballı bir qrup təşkil edə bildilər, bu da siyasi müxalifətin formalaşmasına şərait yaratdı.[8]

İqtisadi və siyasi sahədə "yenidənqurma" partiya elitası mühafizəkar qanadının ciddi müqaviməti nəticəsində baş tutmurdu. Siyasi idarəçilikdə mövqelərini saxlaya bilmiş mühafizəkarlar təsərrüfata rəhbərlikdə köhnə, qeyri-iqtisadi metodlardan əl çəkməyə imkan vermirdilər. İdarəçilik sisteminin təzələnməsinə yönəldilən lokal tədbirlər isə nəzarət dairəsini zəiflədir, partokrat işbazlara yeni-yeni gəlir yolları, xalq malının talanmasına daha münasib imkanlar yaradırdı.

"Yenidənqurma" iqtisadiyyata ciddi zərbə vurdu, cəmiyyəti "siyasiləşdirdi", Kommunist Partiyasının nüfuzunu sarsıtdı və imperiyanı daha dərin böhrana saldı. Mərkəzdənqaçan qüvvələr gücləndi, buna qarşı Moskva müxtəlif məkrli tədbirlərə əl atdı, respublikalar arasında konfliktlər, münaqişələr sərtləşdi. Türkdilli xalqların Türkiyə Respublikasına təbii meyli şovinistlər, xüsusən qatı erməni millətçiləri tərəfindən potensial təhlükə kimi qiymətləndirilirdi. Türkdilli xalqlar 70-80-ci illərin birinci yarısında mühüm sosial-iqtisadi, mənəvi-intellektual, siyasi inkişaf yolu keçmişdi. Azərbaycan xalqının nümayəndəsi, bütün sovet ölkəsində görkəmli siyasi xadim kimi nüfuz qazanmış Heydər Əliyev SSRİ-nin ən yüksək dövlət və partiya vəzifələrindən birini tuturdu. Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi uğurlu fəaliyyəti ilə əlaqədar insanların, xüsusən siyasi xadimlərin bir çoxu onu ciddi çətinliklər qarşısında qalmış ölkəni ən yaxşı idarə edə biləcək şəxs hesab edirdi. Sov.İKP MK-nın baş katibi Çernenkodan sonra ikinci şəxsin kim olacağı barədə Siyasi Büroda qızğın müzakirələr gedərkən (bu vaxt Heydər Əliyev Suriyada uzun sürən ezamiyyətdə idi) büro üzvlərinin bəziləri istəyirdi ki, bu şəxs Heydər Əliyev olsun.[9] Lakin şovinist rus millətçiliyi buna yol verə bilməzdi. SSRİ-nin görkəmli dövlət xadimi Andrey Qromıkonun qeyd etdiyi kimi, yalnız milliyyətinə görə gözəl təşkilatçı, təmiz və abırlı adam olan Heydər Əliyevin Sov.İKP MK Baş katibi vəzifəsinə namizədliyi istisna edilmişdi.[10] Heydər Əliyev qeyd edirdi ki, "azərbaycanlılara, müsəlmanlara... ölkədə dördüncü, beşinci təbəqə kimi baxırdılar".[11] O göstərirdi ki, Qorbaçovun ən qabarıq xüsusiyyəti müsəlman, türk dünyasına qarşı olan düşmənçiliyi idi. Müsəlmanlara, türklərə qarşı "Əhalinin köçürülməsi" adlı plan hazırlanmış və həyata keçirilməyə başlanılmışdı. Bu bədnam plan türk respublikalarındakı müsəlman əhalinin çoxunu Rusiyaya və başqa slavyan respublikalarına köçürməyi və yerlərinə xristian əhali yerləşdirməyi nəzərdə tuturdu.[12]

Qorbaçovun rəhbərliyi dövründə mərkəzi və yerli mətbuat qəsdən Azərbaycan SSR-də 70-ci illərdə iqtisadi və mədəni sahələrdə əldə edilmiş mühüm nailiyyətləri qərəzli, məqsədyönlü şəkildə riyakarcasına danır, xalqa qara yaxırdı.[13] Moskvada yüksək partiya və dövlət vəzifələrində işləyən Heydər Əliyev "yenidənqurma"nın metodlarına: milli münaqişələrə səbəb ola biləcək düşünülməmiş dövlət siyasətinə, xüsusən türk respublikalarına qarşı qərəzli siyasətə açıq və kəskin etirazını bildirirdi.[14] Belə bir şəxsiyyətin yüksək vəzifələrdə olması, xalqa dayaq durması imperiyanın planlarını poza bilərdi. Qorbaçov Heydər Əliyevin getdikcə artan nüfuzuna, populyarlığına qarşı gizli, məkrli və daim qızışdırılan paxıllıq hissi keçirirdi. Baş katibə həm də ona möhkəm "himayədarlıq" edən Moskvadakı və xaricdəki erməni lobbisi nümayəndələri təzyiq göstərirdilər. Buna görə də Heydər Əliyev M.Qorbaçovun sonralar etiraf etdiyi kimi,

"yenidənqurma prosesini, demokratikləşmə prosesini çox qızğınlıqla, ürəkdən bəyənməsinə", "Siyasi Büronun fəal üzvü və son dərəcə ciddi rəhbər" olmasına baxmayaraq, nəinki 1987-ci ilin oktyabrında idarəçilikdən uzaqlaşdırıldı, hətta xalqın gözündən düşməsi üçün böhtançı təbliğat obyektinə çevrildi. Sov.İKP MK katibi V.Liqaçov Bakıya göndərildi. O, Baş katibin adından Azərbaycan KP MK-nın ikinci katibi V.Konovalova tapşırdı ki, Heydər Əliyevin birinci katib işlədiyi bütün dövr ərzində onun fəaliyyətinin yoxlanılması üçün komissiya yaratsın.[15] Azərbaycanda ikinci "özbək işi" - guya iqtisadi cinayətkarlıq üzrə qərəzli istintaq işləri başlandı. Əsasən erməni müstəntiqlərdən ibarət istintaq qrupu təşkil edildi. SSRİ Prokurorluğunun bu istintaq qrupu minlərlə günahsız insanı mənəvi-psixoloji və fiziki təzyiqlərə məruz qoyur, Heydər Əliyev əleyhinə saxta ifadələr verməyə, donoslar yazmağa təhrik edirdi. Etiraz edənlərə işgəncə verilirdi. Həbslər başlanmışdı.[16] Bunlar həm də Azərbaycan xalqında öz gücünə, idarəçilik bacarığına inamı zəiflətmək məqsədi güdürdü.

Moskva mərkəzdənqaçan qüvvələri zəiflətmək üçün ənənəvi "parçala, hökm et" siyasətindən daha geniş istifadə etdi, milli münaqişələri qızışdırdı, xalqlar arasında qanlı nifaq saldı. İmperiyanın müxtəlif bölgələrində əvvəldən məharətlə hazırlanmış milli münaqişə ocaqları alovlandırıldı.

"Yenidənqurma"nın elan olunmuş cəlbedici məqsədləri Azərbaycan xalqında, xüsusən ziyalılarda ümidlər doğurmuşdu. Xalq arasında demokratik ideyalar yayılırdı. Bundan narahat olan mərkəz mühüm geosiyasi dəyəri olan Azərbaycanı və deməli, bütün Cənubi Qafqazı əldə saxlamaq üçün yenidən uydurma "Dağlıq Qarabağ problemi"ni qızışdırdı. Hələ 70-ci illərdə mərkəz Türkiyə dövlətinin regiondakı nüfuzunu sarsıtmağa cəhdlər göstərirdi. Yenə erməni millətçiləri rus şovinistlərinin silahına çevrilmişdi. 1975-ci ildə Beyrutda özünü Akopyan kimi təqdim edən marksist dünyagörüşlü bir Suriya ermənisinin başçılığı ilə "Ermənistanı azad etmək üçün gizli ordu" - ASALA təşkil edilmişdi.[17] O, sovet dövlətinin nəzarəti altında olan Fələstin Azadlıq Təşkilatının bazasında təlim keçən terrorçu bir təşkilat idi. Onunla yanaşı, "Erməni inqilabı ordusu", "Erməni genosidinə görə ədalət komandosu" və b. təşkilatlar da bu istiqamətdə fəaliyyət göstərirdilər.[18] Erməni terrorçuları 1975-ci ildən başlayaraq dünyanın diqqətini yenidən "erməni məsələsi"nə cəlb etmək üçün 50 nəfərdən çox Türkiyə vətəndaşını, əsasən diplomatları qətlə yetirdilər. Özünü "əsas zərbə qrupu" hesab edən Amerika erməni təşkilatı müxtəlif beynəlxalq forumlarda terrorçuların siyasi tələblərini elan etməyə başladı. Erməni təşkilatları açıq bildirdilər ki, məqsəd Türkiyəyə "erməni genosidi" faktını etiraf etdirmək, onun ərazisində erməni dövləti yaratmaq, bu dövlətlə Ermənistan SSR-i birləşdirmək, ona Naxçıvanı, Axalkalaki və Dağlıq Qarabağı daxil etməkdir.[19]

80-ci illərin ikinci yarısında, SSRİ-də "yenidənqurma" prosesini mərkəzdənqaçan qüvvələr fəallaşdırdığı vaxt erməni amilindən "Bəla imperiyası"nı dağıtmaq istəyən dövlətlər də geniş bəhrələnməyə çalışdı. "Erməni genosidi" faktı 1987-ci il iyulun 18-də Avropa parlamenti tərəfindən tanındı. Erməni "genosidi" qurbanlarına xatirə günü təsis edildi.[20]

Həm Rusiya, həm də Avropa tərəfindən himayə olunduqlarını görən erməni millətçiləri türk soyqırımına, terrora əsaslanan qanlı siyasətlərini - "Böyük Ermənistan" dövləti yaratmaq kimi sərsəm xülyanı reallaşdırmaq cəhdlərini yenidən fəallaşdırdılar. Ermənilərin tələbi ilə 1984-cü ilin oktyabr ayında Azərbaycanın Qazax və Gədəbəy rayonlarından min hektarlarla ərazi Ermənistana verildi (bu barədə protokolu Moskvanın təzyiqi ilə Azərbaycan Ali Soveti hələ 1938-ci il mayın 2-də təsdiq etmişdi). Lakin yerli camaat müqavimət göstərir, torpaqlarını əldən vermirdi. Azərbaycanın qanunverici orqanı bu bədnam qərarı 1969-cu il mayın 7-də təsdiq etmişdi. Lakin az sonra hakimiyyətə gəlmiş Heydər Əliyev onun icrasına yol verməmişdi.[21] Torpaqların Ermənistana verilməsi xalqda narazılıq yaratmışdı. Hətta Kəmərli, Abasbəyli, Qaymaqlı, Şıxlı, Yuxarı Salahlı, Əskipara, Sofulu, Barxudarlı, Tatlı, Musagöy kəndlərindən 5 min hektar torpaq sahəsinin Ermənistana verilməsi ilə əlaqədar Qazax rayonunun camaatı onu sakitləşdirməyə gəlmiş Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavinini qovmuşdu. Xalqın etiraz çıxışları hərbçilərin köməyi ilə yatırıldı.[22] Erməni təxribatçıları Bakıda yeni təmir olunmuş Opera və Balet Teatrı binasını yandırdılar, şəhər nəqliyyatında partlayışlar törətdilər. Günahkarlar tapılıb cəzalandırıldı, erməni terrorçularının Bakı və Sumqayıtın iri zavodlarında partlayış törətmək planları aşkar olunub zərərsizləşdirildi.[23] Milli münaqişə isə getdikcə alovlanırdı.

1985-ci ildə Daşnak partiyasının Afinada keçirilmiş XXIII qurultayı erməniləri "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, qüvvələri birləşdirməyə çağırdı.[24] Antitürk təbliğatı və terrora səfərbərlik daha da güclənmişdi. 1986-cı ildən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni milli separatçılıq təbliğatı açıq və geniş xarakter almışdı.[25] Moskva rəsmilərində antitürk əhvali-ruhiyyənin formalaşmasına Qorbaçovun yaxın əhatəsində olan "şahnazaryanlar", "aqanbekyanlar" mühüm təsir göstərirdi.

Kütləvi informasiya vasitələrində açıq-aşkar eyhamlar vurulurdu ki, Qorbaçovun xanımı Parisdə əntiq əşyalar satan imkanlı ermənilərlə əlaqə saxlayır və onların diqqətindən məmnun qalmışdır.[26] Lakin verilən vədi yerinə yetirmək müşkül iş idi. Az sonra Yerevanda bəxşişlərin geri qaytarılması tələbi ilə mitinqlər keçirilməyə başlanmışdı. SSRİ Ali Sovetinin sessiyasında deputat İgityan Qorbaçova müraciətlə "Axı siz söz vermişdiniz..." - deyə az qala vədə əməl olunmasını tələb etmişdi.[27] Paruyr Qazaryan, Zori Balayan, S.Xanzadyan,

B.Ulubabyan, S.Kaputikyan və başqalarının tarixi saxtalaşdıran, azərbaycanlıları təhqir edən qızışdırıcı "əsərləri" erməni millətçiliyinin daha davakar xarakter almasında, milli münaqişənin alovlanmasında müstəsna rol oynayırdı. Balayanın "İki od arasında", "Qəza", "Ocaq" kitabları "əzabkeş xalqa" daha emosional təsir göstərmişdi. "Qarabağ" komitəsinin fəaliyyəti genişlənmişdi. Ermənistandan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi vacibliyini sübut etmək niyyəti ilə dünyanın 30-dan çox dövlətinə və beynəlxalq təşkilatlara 300 min erməninin imzası ilə müraciətnamələr göndərildi.[28] 1987-ci ilin oktyabr ayında Heydər Əliyevin SSRİ rəhbərliyində tutduğu yüksək vəzifədən uzaqlaşdırılması ermənilərin öz niyyətlərini reallaşdırmaq ümidini artırdı. 1987-ci ilin oktyabrında Yerevanın Puşkin meydanında "Qarabağ" komitəsinin ilk açıq mitinqi keçirildi.[29] Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə dövlət başçısının əsabələrindən biri olan akademik Abel Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. Aqanbekyan "Humanite" qəzetinin 1987-ci il 18 noyabr tarixli sayında dərc olunmuş müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi.[30]

Erməni hərəkatına bir qrup erməni millətçisi arxasından yenə kommunist-daşnaklar, DTK agentləri rəhbərlik edirdi. Moskvada ermənilərin "Milli müqəddəratı müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi" də bu istiqamətdə fəal iş aparırdı.[31] "Qarabağ" komitəsinin Azərbaycanda, xüsusən Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı "Krunk" adı altında açıq fəal mübarizəyə başlamışdı, "Miatsum" (birləşmə) hərəkatı genişlənirdi. 1988-ci il martın 2-də "DQMV-nin Ermənistanla yenidən birləşdirilməsi uğrunda mübarizə komitəsi" - iri müəssisə rəhbərlərini birləşdirən 55-lər komitəsi yaradılmışdı.[32] Dünyada baş verən dəyişiklikləri vaxtında və düzgün qiymətləndirmək, Azərbaycan xalqını gözləyən təhlükələri görmək və qabaqlayıcı tədbirlər həyata keçirmək, vahid milli platforma yaratmaq əvəzinə Azərbaycan rəhbərliyi bağışlanılmaz bir passivlik, laqeydlik nümayiş etdirdi. Başsız qalmış xalqın kortəbii etiraz hərəkatları səmərəli nəticə vermirdi.

1988-ci ildə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdundan - 185 kənddən və başqa yaşayış məntəqələrindən 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31.000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 214 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, qız-gəlinlərin namusu təhqir olundu.[33] 15 mindən çox kürd və bir neçə min rus Ermənistandan çıxarıldı. Ermənistan, demək olar ki, monoetnik bir respublikaya çevrildi. Bunun üçün əvvəlcədən xüsusi silahlı dəstələr hazırlanmışdı. Ermənistanın Qafan və Mehri rayonlarında bu cinayətkarların vəhşi əməllərindən yaxa qurtaran ilk qaçqınlar 1988-ci il yanvarın 25-də Azərbaycana pənah

gətirdilər.[34] Qaçqınların yeni dəstələri fevralın 18-23-də təqiblərdən can qurtarıb Azərbaycana gəldilər.[35]

1988-ci il fevralın 12-də Yerevanda böyük antitürk mitinqi keçirildi. "Ermənistanı türklərdən təmizləməli", "Ermənistanda ermənilər yaşamalıdır!" və başqa millətçi şüarlar səslənirdi.[36] Fevralın 21-də erməni vandalları Yerevanda qalmış son məscidə hücum edib onu dağıtdılar. Azərbaycan aşıq sənətinin dahisi Ələsgərin qəbri təhqir edildi. Böyük şair Səməd Vurğunun abidəsi uçuruldu. Azərbaycanlılara qarşı terror 1988-ci ilin əvvəllərində Vedibasarda xüsusən genişləndi. Qız-gəlinlər, ağsaqqallar təhqir edilir, kəndlər talan olunurdu.[37] Döyülmüş, alçaldılmış, heç yerdən köməyi olmayan 4000 nəfər adam ev-eşiyini atıb piyada, ayaqyalın-başıaçıq, böyük çətinliklərlə qarlı dağ keçidlərini aşıb Azərbaycana gəlməyə məcbur oldu.

Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətindəki ermənilər bundan ruhlanaraq daha fəal siyasi aksiyalar keçirməyə başladılar.

1988-ci ilin əvvəllərindən Xankəndində (1923-cü ilin avqustundan 1991-ci ilin noyabrınadək Stepanakert adlanıb) erməni əhalisi ardı-arası kəsilməyən kütləvi mitinqlər, nümayişlər keçirirdi.[38] Fevral ayının 15-18-də vilayətin, Şuşadan başqa, bütün rayon sovetlərində sessiya keçirildi və DQMV-nin Azorbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsini təklif edən qərarlar qəbul olundu.[39] Mitinqçilərin tələbi ilə fevralın 20-də Vilayət Sovetinin sessiyası DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarılıb Ermənistan SSR tərkibinə verilməsi haqqında qərar qəbul etdi. SSRİ Ali Sovetindən xahiş edildi ki, bu məsələni müsbət həll etsin.[40] Moskva münaqişəni daha da qızışdırdı. Sov.İKP MK Siyasi Bürosunun Bakıya gəlmiş üzvü sərhədləri dəyişdirməyin yolverilməzliyindən danışır, Yerevana gedən üzvü isə DQMV-dəki separatçılığa haqq qazandırırdı.[41]

Azərbaycan Respublikasının suveren hüquqlarının tapdalanmasına Moskvanın, Azərbaycan rəhbərliyinin qəti tədbirlərlə cavab vermədiyini görən Azərbaycan xalqı böyük həyəcan içində idi. Kortəbii mitinqlər, etiraz nümayişləri keçirilirdi.[42]

Ermənistandan azərbaycanlıların döyülüb, alçaldılıb qovulmasına, Yuxarı Qarabağda isə ermənilərin həyasız separatçı tələblərinə qarşı münaqişə zonasında yaşayan azərbaycanlılar xüsusən qəti etiraz edirdilər. Aşağı Qarabağ bölgəsindən toplanaraq Dağlıq Qarabağda münaqişəni başlanğıcda həll etmək, onun böyüyüb qanlı müharibəyə çevrilməsinin qarşısını almaq üçün, əliyalın olsa da, yürüşə hazırlaşan azərbaycanlıları rəsmi Bakının göstərişi ilə dayandırdılar. Hətta Ermənistandan qovulmuş azərbaycanlıların Dağlıq Qarabağda məskunlaşmasına belə icazə verilmədi. Fevralın 21-də vilayətin Əsgəran rayonunda ermənilərin iki

nəfər azərbaycanlını öldürməsi, 19 nəfərin yaralanması vəziyyəti daha da gərginləşdirdi.[43]

Dünya ictimaiyyəti gözündə öz əməllərinə haqq qazandırmaq üçün ermənilər 1988-ci il fevralın 28-də Sumqayıtda Edik Qriqoryanın fəal iştirakı ilə fitnəkarlıq törətdilər.[44]

Varlı ermənilər bir neçə gün əvvəl əmlakını və əmanət bankındakı pullarını götürüb şəhəri tərk etmişdilər.[45] Ekstremist əhvali-ruhiyyəsi qəsdən qızışdırılan, hər an fitnəkarlıq baş verməsi təhlükəsi olan şəhərdə (Ermənistandan təhqir olunub, alçaldılıb qovulanların xeyli hissəsi buraya gəlmişdi) milisə nəinki odlu silah, heç adi dəyənək də gəzdirməyə icazə verilmirdi. Prokurorluq orqanları, general Kareyevin komandanlığı altında şəhərə gətirilmiş hərbi hissə də hadisələrin ən gərgin vaxtı fəaliyyətsiz dayanmışdı.[46] Törədiləcək fitnəkarlığı lentə almaq, elə səhəri gün hay-küylə bütün dünyaya çatdırmaq üçün əvvəlcədən cinayətlər baş verəcəyi planlaşdırılmış yerlərdə tele-fotooperatorlar yerləşdirilmişdi. Fitnəkarlığın icraçılarından biri olan Edik Qriqoryan şəxsən doqquz erməni öldürmüşdü. Ermənilərin törətdiyi bu faciə nəticəsində şəhərdə 32 nəfər, o cümlədən 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi.[47]

Bütün Azərbaycan xalqı bu fitnəkarlığı, onun müəlliflərini və icraçılarını ciddi lənətlədi.

Ermənilər istəklərinə nail oldular. Onlar bu faciəni ağlasığmaz uydurmalarla bəzəyib, beynəlxalq ictimaiyyətdə azərbaycanlılara qarşı mənfi münasibət yaratmağa çalışdılar.

Sumqayıt fitnəkarlığından sonra Ermənistanda hökumətin və "Qarabağ hərəkatı" liderlərinin mütəşəkkil şəkildə təşkil etdiyi qanlı antitürk hərəkatı daha da genişləndi. Bu işdə yaxşı silahlandırılmış erməni qeyri-formal hərbi birləşmələri fəal iştirak etdilər. 1988-ci il martın 2-də Ermənistanda yaşayan azərbaycanlıların yeni böyük bir dəstəsi təqibdən yaxa qurtarıb Zəngilan rayonuna gəldi. Martın 10-da Yerevandan cənubda Mehmandar kəndinin dörd sakini qətlə yetirildi. Martın 25-də Ararat rayonunun Vedi, Şirazlı, Xalisə və Şidli kimi azərbaycanlı kəndlərində 100-dən çox ev talan edilib yandırıldı, əhalisi qovuldu. Mayın ortalarında Yerevan yaxınlığındakı azərbaycanlı kəndlərinə yenidən basqın edildi. Şirazlı kəndinin 880 nəfər sakini SSRİ-Türkiyə sərhədinə qaçıb orada sığınacaq tapdı.[48] Ararat rayonunda daha beş azərbaycanlı kəndinin on minə qədər sakini silahlı erməni quldurlarından yaxa qurtarıb qaçqınlara qoşuldu. Erməni faşistləri Quqark rayonunda daha dəhşətli faciələr törətdilər. 1988-ci il noyabrın sonu - dekabrın əvvəllərində bu rayonda 70 nəfər azərbaycanlı qətlə yetirildi. Rayonun təkcə Gözəldərə kəndində 21 nəfər, o cümlədən altı qadın və üç körpə öldürülmüşdü. Vartanada 17 azərbaycanlı qətlə yetirilmişdi.[49]

Ermənistanda azərbaycanlıların soyqırımı hətta burada 7 dekabrda baş verən dəhşətli zəlzələdən sonra belə dayanmaq bilmədi. Təbii fəlakətə düçar olmuş qonşusuna ilk kömək əlini Azərbaycan uzatdı. Dekabrın 8-də Bakıdan 80 peşəkar xilasedici, 28 güclü avtokrandan ibarət mexanikləşdirilmiş dəstə Spitaka yola düşdü, bu dəstə təkcə ilk günlər 63 nəfəri uçqunlar altından çıxarıb ölümdən xilas etdi. Dekabrın 11-də Azərbaycandan zəlzələ zonasına İL-76 təyyarəsində köməyə gedən 78 nəfər (50 azərbaycanlı, 13 ləzgi və b) Leninakan yaxınlığında müəmmalı şəkildə qəzaya uğradı, 77 nəfər həlak oldu.[50]

Erməni millətçilərinin azərbaycanlılara qarşı qanlı əməlləri nəticəsində Ermənistanda bir nəfər də azərbaycanlı qalmadı. Onların son nümayəndələri - Nüvədi kəndinin əhalisi 1991-ci il avqustun 8-də bir gün içərisində sovet əsgərlərinin köməyi ilə Ermənistandan qovuldu. Azərbaycanlılar sonradan Ermənistan dövlətinin ərazisi olmuş doğma torpaqlarında tam soyqırımına məruz qaldılar.[51]

Ermənistanda azərbaycanlılara qarşı törədilən cinayətlərin Moskvada, habelə müvəffəqiyyətlə aldadılmış dünya ictimaiyyəti tərəfindən soyuqqanlılıqla qarşılanması Dağlıq Qarabağda separatçıların əl-qolunu daha da açdı.

SSRİ rəhbərliyi Azərbaycanın qanuni ərazisini ondan qoparıb Ermənistana birləşdirmək istəyən ermənilərlə öz torpaqlarını, konstitusiya hüquqlarını qorumaq üçün ayağa qalxmağa məcbur olmuş azərbaycanlıların mənafelərini bərabər tutmaq kimi riyakar təşəbbüslər göstərdi. M.Qorbaçovun 1988-ci il fevralın 23-də hər iki xalqa müraciəti,[52] Sov.İKP MK-nın sosial-iqtisadi inkişafı sürətləndirmək tədbirləri haqqında 1988-ci il 24 mart,[53] habelə SSRİ Ali Soveti Rəyasət Heyətinin Dağlıq Qarabağdakı hadisələrlə bağlı müttəfiq respublikaların Azərbaycan və Ermənistana müraciətləri ilə əlaqədar tədbirlər haqqında 1988-ci il 23 mart, mövcud ixtilafları hər iki xalqın mənafeyinə uyğun şəkildə həll etmək haqqında 1988-ci il 18 iyul[54] tarixli qərarları yaranmış vəziyyətdən real çıxış yolları göstərə bilmədi, əksinə, vilayətin Azərbaycanın tərkibindən çıxarılmasının təməl daşını qoydu. Bu qərarlara əsasən Dağlıq Qarabağa müstəsna hüquqlar verildi, vilayətin bir çox məsələlərinin həlli birbaşa ittifaq nazirlik və qurumlarına tapşırıldı. Azərbaycan rəhbərliyi isə respublikanın hüquqlarının pozulmasına qarşı qəti etiraz etmək əvəzinə bu qərarların münaqişəni aradan qaldırmaq işində mühüm əhəmiyyət kəsb edəcəyini bildirdi. 1988-ci il 11 oktyabrda Xankəndində Ə.Vəzirov və S.Harutyunyan (Ermənistan KP MK-nın birinci katibi) görüşüb bu qərarların həyata keçirilməsində "koordinasiya məsələlərini müzakirə" etdilər.[55]

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1988-ci il 24 mart qərarı ilə "Krunk" cəmiyyəti xalqlar arasında nifaq salmaq kimi yolverilməz bir fəaliyyətdə günahlandırılıb rəsmən qadağan edilsə də, yenə fəal iş aparırdı.[56]

Azərbaycanlıları ermənilərlə "dialoqa çağıran" Qorbaçov özü erməni separatizminin ideoloqlarını birtərəfli qaydada Kremldə söhbətə dəvət etdi. Qorbaçov sonralar etiraf edir: "Mən onlara məsələnin tarixini ətraflı izah etməyə imkan verdim... səylə toplanmış sənədləri, coğrafi xəritələri, tarixi arayışları mənə göstərdilər. Sonra isə ermənilərin necə sıxışdırılmasından, Ermənistandan təcrid edilmələrindən, qədim abidələrinin dağıdılmasından söhbət açdılar... İslamın xristianlıq üzərinə hücumu davam edir! Qonaqlarımdan biri bunları belə səciyyələndirdi".[57] Lakin əlində tarixi həqiqətləri öyrənmək üçün bütün imkanları olsa da, erməni saxtakarlığına uyan, bəlkə də uymaq istəyən Baş katib azərbaycanlıların fikirləri ilə maraqlanmadı. Hətta Azərbaycan KP MK-nın birinci katibi K.Bağırovla görüşməkdən boyun qaçırdı. Bununla açıqca bildirdi ki, Dağlıq Qarabağ məsələsində dövlət başçısı ermənilərin tərəfindədir. Ölkənin rəhbəri bildirirdi ki, bu məsələ Stalinin dövründə düzgün həll edilməyib, onu indi demokratizm və yenidənqurma çərçivəsində həll etmək lazımdır. Erməni separatçıları daha da qızışdılar. Yerevanda vərəqələr yayılırdı: "Ermənilər, mitinqləri qurtarın, silaha sarılın və türkləri əzin!"[58]

Ermənistan SSR Ali Soveti 1988-ci il 15 iyun tarixli qərarı ilə kobudcasına Azərbaycanın daxili işinə qarışaraq, DQMV-ni Ermənistanın tərkibinə qəbul etməyə razılıq verdi.[59] Azərbaycan SSR Ali Soveti XI çağırış VII sessiyası 1988-ci 17 iyun il tarixli qərarı ilə DQMV Xalq Deputatları Soveti sessiyasının 20 fevral tarixli qərarını qeyri-qanuni akt kimi qiymətləndirdi.[60] İyunun 21-də Vilayət Xalq Deputatları Sovetinin fövqəladə sessiyası SSRİ Ali Sovetinə müraciətlə Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsini xahiş etdi. İyulun 12-də Vilayət Sovetinin sessiyasında DQMV-nin Azərbaycan SSR tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul olundu.[61]

Moskvanın səlahiyyətli nümayəndəsi A.Volskinin iki xalq arasında kompromis yaratmaq adı altında ermənipərəst missiyası vəziyyəti daha da gərginləşdirdi. Xankəndində tətil və nümayişlər ara vermirdi. 1988-ci il sentyabrın 18-də ermənilər Xocalıya hücum etdilər. Qanlı toqquşma baş verdi.[62] Sentyabrın 21-i və oktyabrın 18-də Xankəndində azərbaycanlıların və buna cavab olaraq Şuşada ermənilərin evləri, avtomobilləri yandırıldı.[63] Noyabrın 24-də Ermənistan ərazisindən silahlı quldurlar Qubadlı rayonunun Eyvazlı, Davudlu və Qədirli sərhəd kəndlərinə soxulub qırğın törətdilər. Eyvazlı kəndi tamamilə yandırıldı.[64]

SSRİ Ali Soveti Rəyasət Heyəti vəziyyəti nizama salmaq üçün Azərbaycanın hüquqlarını yenidən kobud surətdə pozaraq 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-nin xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. A.Volskinin başçılığı ilə Muxtar Vilayət Xalq Deputatları Soveti, onun İcraiyyə Komitəsi hüququnda birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) təşkil edildi, bütün dövlət və ictimai orqanların səlahiyyəti

dayandırıldı.[65] XİK vilayətdə qayda-qanunu bərpa etmək əvəzinə onu Azərbaycana bağlayan iqtisadi əlaqələrinin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına, ermənilərin silahlanmasına və quldur dəstələrində birləşməsinə şərait yaratdı. DQMV-də, Laçın, o vaxtkı Şaumyan və Xanlar (indiki Goranboy rayonunun bir hissəsi) rayonları ərazisində silah və sursat cəbbəxanaları yaradıldı. Dağlıq Qarabağda "Böyük Ermənistan" vahid cəbhəsində birləşən 80 hərbi-terrorçu qrup fəaliyyət göstərirdi.[66] Ermənistandan DQMV Mardakert (indiki Ağdərə) rayonundakı gizli təyyarə meydanına silah və sursat daşınırdı. Azərbaycanlılardan isə adi ov silahları da müsadirə edilirdi. Onlardan 18 min ov silahı alınmış, yaxşı silahlanmış düşmən qarşısında əliyalın, müdafiəsiz vəziyyətə salınmışdılar. Xüsusi İdarə Komitəsinin tam imkan yaratdığı şəraitdə 1989-cu il iyunun 13-dən başlayaraq vilayətdə azərbaycanlılar yaşayan məntəqələr blokadaya alındı.[67] Sovet ordu hissələrinin köməyi ilə erməni quldurları -"saqqallılar" Xankəndindən bütün azərbaycanlıları-14 min nəfəri qovub çıxartdılar.[68] Avqustun sonlarında isə bir hissəsi qırıldıqdan sonra azərbaycanlılar Cəmilli, Həsənabad və Daşbulaq kəndlərini tərk etməyə məcbur oldular.[69] İyulun sonlarında Şaumyan rayon xalq deputatları Sovetinin erməni deputatları "sessiya" adlandırdıqları yığıncaqlarında bu rayonun DQMV-yə birləşdirilməsini Azərbaycan SSR Ali Sovetindən xahiş etdilər. Avqustun ortalarında daha bir təhrikçi akt həyata keçirildi. DQMV-də "xalq adından çıxış edən nümayəndələrin qurultayı" oldu və burada "Milli Şura" - vilayətin bədnam "ali hakimiyyət orqanı" seçildi.[70]

Azərbaycan demokratik qüvvələrinin təkidli tələbi ilə SSRİ Ali Soveti 1989-cu il noyabrın 28-də Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsini ləğv etdi. Vilayətin idarəsi SSRİ Ali Soveti xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı.[71] Lakin yenə mərkəz tərəfindən qəti tədbirlər görülməməsi erməniləri yeni təhrikçi hərəkətlərə şirnikləndirirdi. Ermənistan SSR Ali Soveti isə 1989-cu il dekabrın 1-də "Ermənistan SSR-ə Dağlıq Qarabağı birləşdirmək haqqında" qeyri-qanuni qərar qəbul etdi.[72] Xankəndində Ermənistanın dövlət bayrağı qaldırıldı. İdarəçilik işləri, müəssisələr bu respublikanın nazirlik və baş idarələrinə tabe edildi. 1990-cı il yanvarın 9-da DQMV-nin 1990-cı il üçün sosial-iqtisadi inkişaf planı Ermənistan SSR-in dövlət planına daxil olundu.[73] 1990-cı ildə Azərbaycan ərazisində DQMV-də Ermənistan SSR xalq deputatları seçkiləri üzrə qeyri-qanuni seçki dairələri təşkil edildi və "deputatlar" seçildi.[74]

Vəziyyət gərgin idi. 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti DQMV və qonşu rayonlarda fövqəladə vəziyyət elan etdi.[75] RespublikaTəşkilat Komitəsi, Xüsusi Təyinatlı Milis Dəstələri (OMON), hərbi komendantlıq vilayətdəki azərbaycanlılar yaşayan kəndlərin blokadasını açmağa, qanunsuz silahlı dəstələri ləğv etməyə başladı. Ermənistandan buraya silah daşınmasının qarşısını almaq

üçün tədbirlər görüldü. 1990-cı ilin yanvar-iyun aylarında vilayətin 43 yaşayış məntəqəsində 67 xüsusi əməliyyat aparılaraq quldurlardan silahların bir hissəsi alındı.[76]

Bu vaxt Ermənistan ərazisindən Azərbaycanın sərhəd bölgələrinə hücumlar genişlənməyə başladı. Ermənistanda dövlətin himayəsi ilə 6 böyük qeyri-qanuni silahlı qruplaşma təşkil olunmuşdu. Quldurlar hərbi hissələrə hücum edir, silah və sursatı ələ keçirirdilər. 1990-cı ildə burada iri miqyaslı hərbi əməliyyatlar kcçirməyə qabil olan hərbi hissələrdə - Erməni milli ordusu, erməni ümummilli hərəkatının hərbi təşkilatı, respublika partiyasının müstəqil ordusu, "David Sasuni", "Vretaruner" (qisasçılar), "Haydat" (erməni məhkəməsi) və b. silahlı dəstələrdə 10 minə qədər "döyüşçü" toplanmışdı.[77]

Ermənistan SSR Ali Soveti 1990-cı il iyulun 31-də "SSRİ qanunvericiliyində nəzərdə tutulmamış silahlı dəstələrin yaradılmasını qadağan etmək və silah qanunsuz saxlanıldığı halda onu geri almaq haqqında" 1990-cı il 25 iyul tarixli prezident fərmanının Ermənistan və DQMV-də qüvvədə olmadığını elan etmişdi.[78]

Ermənistan hərbi birləşmələri tez-tez Azərbaycan ərazisinə basqın edirdilər. Naxçıvan MSSR Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tuturdular. 1990-cı il yanvarın 12-də düşmən bir neçə hərbi vertolyotla Xanlar rayonunun Quşçu kəndinə desant ataraq dinc əhaliyə vəhşicəsinə divan tutdu, onlarca adam - qadın, uşaq və qoca məhv edildi. Erməni faşistləri Naxçıvanın Kərçi kəndinə basqın edib yanvarın 18-də onu tutdu və 320 sakini qovub çıxartdı. Bu əməliyyatlarda sovet qoşun hissələri də iştirak edirdi.[79] Martın 24-də gecə üç erməni hərbi hissəsi rusların köməyi ilə Qazax rayonunun Bağanis-Ayrım kəndinə hücum etdi, kəndin 7 sakini, o cümlədən iki qadın və ikiaylıq körpə işgəncə ilə öldürülüb yandırıldı, 11 ev talan edildi və külü göyə sovruldu.[80]

Azərbaycan SSR Ali Soveti 1990-cı il iyunun 11-də Ermənistanla sərhəd boyu (975 km) fövqəladə vəziyyət elan etdi. Sərhədlər mühəndis qurğuları ilə möhkəmləndirildi, onu müdafiə etmək üçün Xüsusi Təyinatlı Milis Dəstələri yaradıldı.[81] 1991-ci ilin əvvəllərindən DQMV təyyarə meydanına nəzarət Azərbaycan milisinə verildi.

Sovet imperiyasının silahlı qüvvələri bu vaxt SSRİ-nin saxlanılmasına münasibət haqqında 17 mart Ümumittifaq referendumunda iştirak etməyən Ermənistana "dərs vermək", habelə Azərbaycandakı kommunist rejimini dəstəkləmək üçün erməni quldurlarına köməyi azaltdı. 1991-ci il mayın əvvəllərində Çaykənd və Martunaşendə pasport rejimi yoxlanıldı və hərbiləşmiş erməni birləşmələri tərksilah edildi. İyulun əvvəllərində Goranboy rayonunun

Azadkənd, Sarısu, Manaşid, Erkeç və Buzluq kəndlərində düşmənin dayaq məntəqələri dağıdıldı.[83]

Lakin erməni quldurları yenə rusların köməyi ilə sərhəd zonalarındakı Azərbaycan kəndlərinə basqınları davam etdirirdilər. avqustun 18-20-də erməni hərbi hissələri rusların, vertolyot və ağır texnikanın köməyi ilə Qazax rayonuna hücum etdi. Bağanis-Ayrım kəndi yenə dağıdıldı, əhaliyə işgəncələr verildi.[84] Vəhşilər bir kişini ot tayasında yandıraraq ətrafında yallı getmişdilər. Ermənilərin Zəngilan, Qubadlı və Laçın rayonu kəndlərinə də hücumları ara vermirdi. Qubadlının Yuxarı Cibikli kəndinin əhalisi düşmənə mərdliklə müqavimət göstərmiş, 20 qulduru məhv etmişdi. Burada olan Sovet Ordu hissəsi, demək olar ki, seyrçi mövqe tutmuşdu. Təkcə ukraynalı Olek Babak əliyalın azərbaycanlılara kömək etdi və qəhrəmancasına həlak oldu. Ölümündən sonra ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.[85]

Vəziyyəti gərginləşdirmək üçün erməni terrorçuları hər vasitədən istifadə edirdilər. 1989-cu il sentyabrın 16-da onlar Tiflis-Bakı şəhərlərarası sərnişin avtobusunu Yevlax şəhəri yaxınlığında partlatdılar. 1990-cı il avqustun 10-da Xanlar rayonunda Tiflis-Ağdam sərnişin avtobusunda yeni terror aktı törətdilər. Partlayış nəticəsində 17 nəfər həlak oldu və 15 nəfər yaralandı. 1991-ci il iyulun 31-də erməni terrorçuları Moskva-Bakı sərnişin qatarında Mahaçqala yaxınlığında böyük partlayış törətdilər. Nəticədə 15 sərnişin həlak oldu, 16 nəfər ağır yaralandı. Buna oxşar cinayət 1991-ci il mayın 30-da Kolonyurd stansiyası yaxınlığında baş verdi. Sərnişin qatarının partladılması nəticəsində 12 nəfər həlak oldu. Bir qədər əvvəl Rostov şəhəri yaxınlığında Simferopol-Bakı qatarını da partlatmağa cəhd edilmişdi.[86]

İmperiya milli münaqişəni daha da dərinləşdirirdi. Lakin bu yolla imperiyanın xalqlar üzərində ağalığını saxlaması artıq mümkün deyildi. Onun süqutu gündən-günə yaxınlaşırdı. İmperiyanın pəncəsindən xilas olmağa çalışan xalqın tələbi ilə 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında respublikanın dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat və xüsusən oktyabrın 18-də bu barədə Konstitusiya aktının qəbulu ilə əlaqədar Dağlıq Qarabağ münaqişəsi daha da kəskinləşdi. Bu münaqişə Ermənistanın əli ilə Azərbaycana qarşı aparılan təcavüzkar müharibəyə çevrildi.

## §2. MİLLİ HƏRƏKATIN BAŞLANMASI. ÖLKƏDƏ SİYASİ VƏZİYYƏTİN DƏYİŞMƏSİ

"Yenidənqurma" siyasətinin ziddiyyətliliyi, mühafizəkarların ciddi müqaviməti üzündən mövcud siyasi və iqtisadi rəhbərlik metodlarını demokratikləşdirmək tədbirləri baş tutmurdu. Köhnə idarəçilik mexanizminin dağılması, yeni mexanizmin isə hələ yaradılmaması ilə əlaqədar İttifaqın düşdüyü ümumi böhran gündən-günə dərinləşirdi. Xalqın güzəranı pisləşirdi. Belə bir şəraitdə SSRİ-nin dağılma prosesinin qarşısını almaq üçün hakim dairələr milli münaqişələri, antitürk, antiislam siyasəti qüvvətləndirirdilər. Mühüm geosiyasi məkanda imperiyanın türk xalqları ilə Türkiyə arasında körpü olduğundan Azərbaycan əsas zərbə hədəfi idi. Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ bölgəsində azərbaycanlıların soyqırımını törətmək, Azərbaycanı parçalamaq, bu yolla bütün regionda ağalığı saxlamaq siyasəti həyata keçirilirdi. Uzun illər münasib fürsət gözləyən erməni millətçiləri yaranmış vəziyyətdən məharətlə istifadə edib, bu dəfə də Azərbaycanın hesabına öz torpaqlarını genişləndirmək məqsədi ilə fəaliyyətə başladılar. Lakin Azərbaycan Respublikasının Moskvaya sədaqətlə xidmət edən rəhbərliyi yaranmış yeni beynəlxalq şəraitdə qüvvələri düzgün qiymətləndirib, xalqı vahid ümummilli platforma ətrafında mübarizəyə qaldıra bilmədi. Onun bağışlanılmaz passivliyi və laqeydliyi nəticəsində Azərbaycanın suveren hüquqları tapdalandı. Ərazisində milli münaqişə ocağı alovlandırıldı, azərbaycanlılar öz dədə-baba torpaqlarında növbəti dəfə soyqırımına məruz qaldılar. Hadisələrin belə gedişi Azərbaycanda milli hərəkatın qalxmasına güclü təkan verdi. 1988-ci ilin əvvəllərindən ilk kütləvi etiraz çıxışları başlanmışdı. Hərəkat həmin ilin sonunadək, demək olar ki, kortəbii xarakter daşıyırdı. Cəmiyyətdə "Demokratiya və aşkarlıq" şüarı altında ədalət, humanizm, hüquqi dövlət, xüsusən milli suveren hüquqların qorunması haqqında fikirlər plüralizmi yaranmışdı. Yeni ictimai-siyasi təşkilatlar meydana gəlirdi. 1987-ci ilin axırlarında Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universiteti) yaradılmış "Yurd" təşkilatı, 1988-cı ilin baharından fəaliyyətə başlayan "Çənlibel", "Müstəqillər", "Qala , "Aşıq Ələsgər", "Ozan" cəmiyyətləri, "Varlıq" komitəsi, "Azərbaycan Xalq Cəbhəsi"nin (AXC) təşəbbüs qrupu, "Bakı gənc alimlər klubu", "Bakı incəsənət mərkəzi" və başqa təşkilatlar bu hərəkata istiqamət verməyə çalışırdı.[87] Lakin yeni yaranmış və təbii ki, siyasi təcrübəsi olmayan bu təşkilatları birləşdirib vahid istiqamətə, ümummilli məsələlərin həllinə yönəldən mütəşəkkil qüvvə yox idi. Xalq Azərbaycanı parçalamaq cəhdlərinə, ermənilərin Dağlıq Qarabağın Ermənistana verilməsi tələblərinə qarşı münasibətini əvvəllər Mərkəzi Komitəyə, ölkə və respublika rəhbərlərinə etiraz teleqramları, məktubları göndərməklə, imza toplamaqla bildirirdi.[88] İlk etiraz mitinqi 1988-ci il fevralın 19-

da Bakıda keçirildi. Martın 16-da Azərbaycan Elmlər Akademiyasında (indiki Azərbaycan Milli Elmlər Akademiyası) etiraz mitinqi təşkil olundu. Ermənistanda azərbaycanlıların soyqırımının kütləvi hal almasına qarşı mayın 16-da Dövlət Universiteti qarşısında "Yurd" təşkilatının fəal iştirakı ilə böyük mitinq keçirildi. Mitinqçilər şəhərin Lenin adına baş meydanına (indiki Azadlıq meydanı) istiqamət aldılar. Burada davam edən mitinqdə respublikanın görkəmli ziyalıları çıxış etdilər, xalqı və rəhbərləri respublikanın hüquqlarını müdafiə etməyə çağırdılar. Mitinqçilər Moskvadan və Azərbaycan rəhbərliyindən erməni millətçilərinin azğın hərəkətlərinə qanunu əsas götürməklə qəti cavab verilməsini tələb edirdilər.[89] Respublikanın başqa şəhərlərində də mitinqlər keçirilirdi. Ermənipərəst siyasət yeridən, Moskvada sözü keçməyən respublika rəhbərləri xalqın ciddi narazılığını nümayiş etdirib ölkə başçılarına təsir göstərmək ümidində idilər. Buna görə də mitinqlərin keçirilməsinə inzibati orqanlar demək olar ki, mane olmurdu. Eyni zamanda tanınmış ziyalıları mitinq tribunalarına cəlb etməklə kortəbii etiraz hərəkatının böyüyüb mövcud rejimə, onun respublikadakı canişininə qarşı ümumxalq hərəkatına çevrilməsinə yol verməməyə çalışırdılar.

Moskva 1988-ci il mayın 21-də Azərbaycandakı canişinini dəyişdirib, Əbdürrəhman Xəlil oğlu Vəzirovu hakimiyyətə - Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) birinci katibi vəzifəsinə gətirdi.[90] Əbdürrəhman Vəzirov xalqa, onun milli mənafelərinə zidd siyasəti ilə Dağlıq Qarabağ məsələsində erməniləri öz xəbis niyyətlərini həyata keçirməyə daha da həvəsləndirdi.[91]

Moskvanın Dağlıq Qarabağdakı səlahiyyətli nümayəndəsi A.Volskinin ermənipərəst siyasəti, xüsusən nadir Topxana meşəsində sənaye obyekti tikintisinə başlanması xəbəri bütün xalqı hiddətləndirdi. Noyabrın 15-də Dövlət Universiteti qarşısında, səhəri gün Elmlər Akademiyasının dəyirmi salonunda "Varlıq" cəmiyyəti və M.Ə.Sabir adına bağda "Yurd" təşkilatının təşəbbüsü ilə mitinqlər keçirildi.

Xalq hərəkatının kortəbii mərhələsinin ən qızğın dövrü noyabrın 17-dən başlandı. Həmin gün səhər Universitet, Akademiya, Politexnik və İqtisad institutları qarşısından nümayişçi dəstələr milisin canlı maneələrini aşaraq, M.Ə.Sabir adına bağa, oradan isə şəhərin baş meydanına gəldilər. Meydanda mitinqçilərin tələbləri oxundu. Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan siyasəti yeridən qurumun ləğv edilməsi, əks təqdirdə Ermənistana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsi, Azərbaycandan olan deputatların SSRİ Ali Soveti sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırması başlıca tələblərdən idi. Bu tələblər Azərbaycan rəhbərliyini qane edirdi, lakin hökumət nümayəndələri mitinqi dayandırmağı tələb etdikdə mitinqçilər tələbləri yerinə yetirilməyincə meydanı tərk

etməyəcəklərini bildirdilər. Burada "Moskvanın fitnələrinə son qoyulsun!", "Suverenlik!", "Azadlıq!" şüarları səslənməyə başlandı. Bundan Moskvaya təzyiq edib respublikalarda hakimiyyəti ələ keçirmək istəyən qüvvələr istifadə etməyə çalışırdılar. Bakının bəzi rayonlarında vəziyyət qəsdən gərginləşdirilir, xuliqanlıq hərəkətləri törədilirdi. Naxçıvanda dövlət orqanları binasına hücum edilmişdi, noyabrın 22-də Gəncədə əhali ilə ordu arasında qanlı toqquşma baş vermiş, 160 nəfər yaralanmış, üç əsgər və bir uşaq həlak olmuşdu. Noyabrın 24-də Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saatı tətbiq edildi. Küçələrə ağır silahlı qoşun hissələri yeridildi.[93]

Meydan səngimək bilmirdi. İnsanlar küçələrə çıxarılmış tankların lülələrinə qərənfillər taxır, əsgərləri camaatın tələbləri ilə tanış edir, qan tökməməyə çağırırdılar. Nümayişçilər meydana Azərbaycan SSR-in oraq çəkicli bayrağı ilə gəlmişdisə, bir neçə gün sonra - noyabrın 19-da burada ilk dəfə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qaldırıldı. Hər gün yüz minlərlə adam tankların, əsgərlərin arasından keçib meydana axışırdı. Çox vaxt mitinqçilərin sayı milyon nəfəri ötürdü. Gecələr meydanda qalanmış tonqalların ətrafında minlərlə adam qalırdı.

Xalq artıq mitinqlə mümkün olan nəticəni əldə etmişdi. Ölkə rəhbərliyi mövcud problemə Azərbaycan xalqının münasibətini bilmişdi. Lakin erməni millətçiliyinə, separatizminə qarşı heç bir tədbir görülmürdü.

İndi təşkilatlanmaq, mübarizəni demokratik vasitələrlə davam etdirmək lazım idi. Cəmiyyətin bunu dərk edən qüvvələri mitinqdən tədricən uzaqlaşırdılar, meydanın mühasirə həlqəsi daraldılırdı. Dekabrın 3-də hərbi hakimiyyət mitinqçilərdən meydanı tərk etməyi tələb etdi. Dekabrın 4-də isə gecə hərbçilər hücum edib zorla meydanı boşaltdılar, burada gecələyən mitinqçiləri həbs etdilər.[95]

Meydan dağıldıqdan sonra da bir neçə gün Bakıda və başqa şəhərlərdə etiraz tətili və nümayişləri keçirildi. Həmin günlər təkcə Bakıda 14,5 min fəhlə və qulluqçu tətil etmişdi.[96]

Xalq hərəkatının birinci - kortəbii mərhələsinin zirvəsi olan Meydan göstərdi ki, mitinq və nümayişlərlə mövcud problemi həll etmək olmaz, demokratikləşmə yolu ilə getmək, Moskvanın təyin etdiyi rəhbərlər əvəzinə demokratik yolla xalqın nümayəndələrini seçmək, xalq birliyini təmin etmək, respublikanın suveren hüquqlarının qorunmasına nail olmaq lazımdır. Xalqın mənafeyini yalnız onun istədiyi, ona etimad etdiyi lider müdafiə edə bilər.

Kommunist elitası içərisində kəskin, gurultulu çıxışları ilə xalqın etimadını qazanmaq və hakimiyyətə gəlmək istəyənlər də vardı.[97] Xalq isə Azərbaycanın üzləşdiyi taleyüklü problemləri həll etməyə qadir siyasətçinin Heydər Əliyev olduğunu dərk edərək, onun yenidən respublikaya rəhbər təyin olunmasını arzulayırdı. Minlərlə adam mitinq və nümayişlərə, xüsusən münaqişə bölgələrində,

Heydər Əliyevin portreti ilə çıxırdı.[98] Təkcə Yevlax şəhərində 1988-ci ildə vətənpərvər gənclərin təşkil etdiyi nümayiş və izdihamlı mitinqdə 20 minədək adam iştirak etmişdi. Nümayişçilər Heydər Əliyevin yenidən hakimiyyətə qaytarılmasını tələb edirdilər. Mitinqin təşkilatçıları həbs olunmuş, izdiham ordu hissələrinin köməyi ilə dağıdılmışdı.[99] Xalqı birləşdirib mübarizəni vahid istiqamətə yönəltmək məqsədi ilə bir qrup nüfuzlu ziyalının təşəbbüsü də Xudu Məmmədovun qəfil ölümü ilə (14 oktyabr 1988-ci il) boğuldu.[100]

Xalq Azərbaycan SSR-in SSRİ daxilində iqtisadi və mədəni suverenliyi uğrunda mübarizə aparmağı, hüquqi dövlət, vətəndaş cəmiyyəti qurmağı proqram məqsədi elan edən, lakin kifayət qədər siyasi təcrübəsi olmayan liderlərin rəhbərliyi altında fəaliyyət göstərən AXC ətrafında birləşməyə başladı. 1989-cu il martın 13-də AXC təşəbbüs qrupu və "Varlıq" komitəsi arasında siyasi razılaşma əsasında AXC-nin Müvəqqəti Təşəbbüs Mərkəzi təşkil edildi. 1989-cu il iyulun 16-da Bakıda AXC-nin təsis konfransı keçirildi. Cəbhənin Proqram və Nizamnaməsi qəbul olundu. İdarə heyəti formalaşdı. Əbülfəz Elçibəy AXC-nin sədri seçildi.[101]

AXC demokratik - mərkəziyyət prinsipindən imtina etmişdi. Onun konfederativ quruluşu, yuxarı təşkilatların qərarının üzvlər üçün yalnız məsləhət xarakteri daşıması, tədbirlərdə iştirakın tam könüllü olması buna imkan yaradırdı. Cəbhə daxilində plüralizm, ən müxtəlif fraksiyaların yaradılması nəzərdə tutulurdu. AXC sədri təmsilçi funksiya daşıyırdı, onun hətta səsvermə hüququ yox idi.[102]

Demokratiya mədəniyyəti hələ formalaşmamış cəmiyyətdə ifrat demokratik nizamnamə ilə çox mürəkkəb siyasi şəraitdə taleyi həll olunan xalqa rəhbərlik edə biləcək güclü təşkilat yaratmaq mümkün olmadı. Bundan yuxarı dairələrdə hakimiyyət uğrunda mübarizə aparan qüvvələr məharətlə istifadə edir, öz adamlarını, xüsusi idarə agentlərini bu təşkilata yeridirdilər.[103] Hansı yolla olur-olsun xalqın etimadını qazanıb hakimiyyət iştahasına düşənlər çoxalmışdı. "Xalq arasından çıxan bu insanlar öz maraqlarını, öz şəxsi ambisiyalarını, hakimiyyət hərisliyini ümummilli mənafelərdən üstün tuturdular".[104]

Respublikada üçdə ikisi hələ məskunlaşdırılmamış 230 mindən çox didərgin vardı. İqtisadi çətinliklər, cinayətkarlıq gündən-günə artırdı. İyulun 13-dən DQMV-də azərbaycanlılar yaşayan kəndlərin, Naxçıvan MSSR-in blokadaya alınması, Ermənistandan Azərbaycanın sərhəd məntəqələrinin atəşə tutulması vəziyyəti daha da gərginləşdirirdi.[105]

Radikal tədbirlərə üstünlük verən xalq cəbhəsi liderləri iyunun 29-da Bakıda ümumşəhər mitinqi təşkil etdilər.[106] Əvvəl belə mitinqlərin əleyhinə olan AXC İdarə Heyəti mitinq və tətil hərəkatının genişləndiyini görüb onu idarə etməyi vacib bildi. Sonrakı mitinqlər AXC-nin rəhbərliyi ilə təşkil olunur, üçrəngli, ay-ulduzlu bayraq altında keçirilir, Üzeyir Hacıbəyovun "Koroğlu" operasının birliyə,

qələbəyə çağıran uvertürası ilə açılır və bağlanırdı. Bu mitinqlərdə Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyasını çağırmaq, sessiyada da AXC İdarə Heyətinin iştirakı ilə DQMV-də XİK-nin ləğv olunması məsələsinə baxmaq, suverenlik, iqtisadi müstəqillik, vətəndaşlıq haqqında qanunlar qəbul etmək, Bakı və başqa şəhərlərdə fövqəladə vəziyyəti ləğv etmək, AXC-ni rəsmi tanımaq və b. demokratik tələblər irəli sürülürdü.[107] Ə.Vəzirov isə bu tələbləri qəbul etmədi. Avqustun 14-də Bakıda birgünlük, 21-22-də Bakı və Sumqayıtda ikigünlük xəbərdarlıq tətilləri keçirildi.[108]

Sentyabrın 2-də Bakı ümumşəhər tətilində tələblərə cavab verilməsə, sentyabrın 4-dən birhəftəlik ümummilli tətil başlanacağı elan olundu.[109] Həmin gün respublikanın əksər şəhərlərində mitinqlər təşkil edildi. İki gün sonra ümummilli tətil başlandı. Bakıda şəhərin normal həyat fəaliyyətini təmin edən müəssisə və texnoloji rejim işi dayandırmağa yol verməyən neftayırma qurğularından başqa bütün müəssisələr, habelə dəmiryolçular tətilə qoşuldu. Ayın 5-də Şimali Qafqaz dəmir yolunda hərəkət tam dayandı.[110] Tətillər təsərrüfata böyük ziyan vurdu.

Sentyabrın 6-da mitinqçilər öz tələblərinə respublika rəhbərliyinə "istefa" tələbini də əlavə etdilər. Bundan sonra AXC və AKP MK arasında danışıqlar başlandı. Tələblərin ödənəcəyi barədə razılıq əldə olundu. Sentyabrın 13-də xüsusi saziş protokolu imzalandı.[111] Sentyabrın 15-də Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı. Burada DQMV-də XİK-nin ləğvi, Azərbaycan SSR Konstitusiyasına respublikanın sərhədlərinə yalnız ümumxalq referendumu yolu ilə dəyişiklik etməyin mümkünlüyünü nəzərdə tutan əlavələr edilməsi, suverenlik, vətəndaşlıq və iqtisadi müstəqillik haqqında qanun layihələrinin geniş müzakirəyə verilməsi haqqında qərarlar qəbul edildi.[112]

Suverenlik haqqında qanun layihəsinin ümumxalq müzakirəsi keçirildi. Qanuna respublikada Azərbaycan SSR qanunlarının ittifaq qanunlarından üstünlüyü və onun SSRİ tərkibindən çıxmaq reqlamenti haqqında mühüm bəndlər daxil edildi. Ali Sovetin sentyabrın 23-də öz işini davam etdirən növbədənkənar sessiyası "Azərbaycan SSR-in suverenliyi haqqında" Konstitusiya qanununu qəbul etdi.[113]

Azərbaycan SSR Nazirlər Soveti 1989-cu il oktyabrın 5-də AXC-ni rəsmi qeydə aldı.[114] AXC-nin bu vaxta qədər buraxılan bülleteni əvəzinə dekabrın 4-dən "Azadlıq" qəzetinin kütləvi tirajla nəşrinə başlandı.[115]

Azərbaycan Xalq Cəbhəsi artıq nüfuzlu kütləvi təşkilata çevrilmişdi. Onun sıralarında 300 minə qədər üzv və tərəfdar birləşmişdi.[116]

Lakin xalq içərisində Heydər Əliyevin nüfuzu daha böyük idi. Avtomobillərin ön şüşələrində onun şəkillərini gəzdirirdilər. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi sədrinin Moskvaya göndərdiyi 1990-cı il 3 yanvar tarixli məlumatında yazılırdı: "Əvvəlki kimi... Heydər Əliyevin mövqeləri

güclüdür. Əhali indiyədək Heydər Əliyevin adını ehtiramla çəkir... Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinə Ordubad rayonundan deputatlığa namizədliyini irəli sürməyi, əlverişli şərait yarandığı halda isə onu Ali Sovet Rəyasət Heyətinin sədri vəzifəsinə seçməyi planlaşdırırlar".[117]

## §3. XALQ HƏRƏKATINI BOĞMAQ CƏHDLƏRİ. QANLI YANVAR

1990-cı ilin mart ayında keçirilməsi nəzərdə tutulan seçkilərdə "demokratik qüvvələrin" hakimiyyətə gələcəyi şübhə doğurmurdu."[8] Moskva demokratik qüvvələrin hakimiyyətə gəlməsini suverenlik haqqında Azərbaycan SSR Konstitusiya qanununa ardıcıl əməl olunmasına, iqtisadi müstəqilliyin təmin edilməsinə imkanlar açılması kimi qiymətləndirirdi.

AXC liderlərinin 1989-cu ilin payızından başlayaraq düşünülməmiş addımlar atması, türkçülüyə meyllərini açıq ifadə etməsi də imperiya rəhbərlərini çox ciddi narahat edirdi.[119] Mərkəz belə bir təşkilatın hakimiyyətə gəlməsinə heç vəchlə razılaşa bilmirdi. SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakov Əbülfəz Elçibəyə verdiyi "Sizin məqsədiniz nədir?" sualına "Demokratik seçkilər keçirmək!" cavabı aldıqda demişdi: "Bundan sonra Sovet İttifaqından ayrılmağa bir pillə qalır".[120]

Mərkəz tərəfindən xalq hərəkatına dini məzmun vermək, onun meylini Türkiyədən, demokratik Qərbdən ayırıb İrana, islam fundamentalizminə bağlamaq cəhdləri də olmuşdu.[121]

Təcrübəsiz və hakimiyyətə can atan siyasi liderləri "radikallar"a və "liberallar"a bölüb xalq hərəkatını daxildən parçalamaq, seçkiləri fövqəladə vəziyyət, komendant saatı şəraitində keçirməklə yenə "kommunistlərin" qalib gəlməsinə nail olmaq üçün məkrli siyasət aparılırdı.

Xalqı radikallaşdırmaq, bəzi güzəştlərlə onu zorakı hərəkətlərə şirnikləndirmək əsas vasitə idi. Ə.Vəzirov AXC rəhbərləri ilə görüşündə açıqca demişdi; "Gücünüzü göstərin, sizinlə hesablaşaq".[122] AXC İdarə Heyətində hakimiyyət uğrunda mübarizə aparan radikallar bu tələyə düşdülər. 1989-cu il oktyabrın 28-29-da keçirilmiş AXC Məclisinin birinci sessiyasında cəbhə daxilində "radikallar" və "liberallar" arasında ixtilaf bütün barışmazlığı ilə üzə çıxdı.[123] "Radikallar" AXC İdarə Heyətinin "liberal" üzvlərini təslimçilikdə, xalqa xəyanətdə, qətiyyətsizlikdə təqsirləndirirdilər. Onlar AXC-nin yeni rəhbər orqanları seçiləcək fövqəladə konfransının keçirilməsini tələb edirdilər. Xalq cəbhəsinin bütövlüyünü qoruyub saxlamaq üçün "liberallar" müəyyən güzəştlərə getməyə məcbur oldular. 1989-cu il dekabrın 9-da AXC müşavirəsində İdarə Heyəti buraxıldı.[124] Onun səlahiyyətlərini yerinə yetirən, əslində "radikallar"dan ibarət

Müvəqqəti Təşkilat Qrupu seçildi, "radikallar" daha da fəallaşdı. Onlar narazılığı artan xalq kütləsini öz ardınca apardı. Bir çox bölgələrdə əsl ikihakimiyyətlilik - kommunistlərin və cəbhəçilərin hakimiyyəti yaranmışdı. AXC təşkilatlarında dövlət funksiyalarını yerinə yetirən strukturlar meydana gəlmişdi.[125]

Cəlilabadda 1989-cu il dekabrın 8-dən fasiləsiz mitinqlər, tətillər başlandı. İnzibati orqan işçiləri xalqın tərəfinə keçdi. Xalqın tələbi ilə raykomun 57 gün əvvəl təyin olunmuş birinci katibi istefa verdi. Yeni katib paytaxtdan göndərildi. Rayonda hakimiyyətə gəlmək istəyənlər yenidən adamları qızışdırdılar. Vəziyyəti nizama salmaq üçün dekabrın 27-də rayona gətirilən milis dəstələri həbslər keçirdi. Qəzəblənmiş əhali hücum edib raykomun, milisin binalarını dağıtdı, rəhbərləri döyüb qovdu. Toqquşmalarda 150-dən çox adam yaralandı. Dekabrın 29-da burada "Xalq hökuməti" adlandırılan hökumət fəaliyyətə başladı. Müvəqqəti Təşkilat Komitəsi və Milli Müdafiə Şurası yaradıldı.[126]

İnsanlar Cənubi Azərbaycanda, İran İslam Respublikasında yaşayan qan qardaşları, qohumları ilə mədəni və iqtisadi əlaqələri, gediş-gəlişi bərpa etmək tələbi ilə dəfələrlə rəhbər orqanlara müraciət etmişdi.

Naxçıvan MSSR kimi aztorpaqlı respublikada 17 min kv.m münbit torpaq sahəsi sərhədlə tikanlı məftillər arasında qalmışdı. Bu zonadakı qədim qəbiristanlığa və ziyarətgaha getmək mümkün deyildi. Lakin vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər. "Sərhəd hərəkatı" isə genişlənirdi.[127]

1989-cu ilin dekabrında Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar qalanmışdı.[128] Xalq cəbhəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum göndərib dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, qohum-qardaşları ilə əlaqə saxlamasına imkan yaratmasını tələb etdi. Lakin razılıq əldə olunmadı.[129]

İmperiyanın rəhbərliyi haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onun planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə müqavimət göstərməmək əmri verilmişdi.[130]

Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km Sovet-İran sərhədində həyəcanlar başlandı. Sərhəd qurğuları dağıdıldı.[131] Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. 1990-cı il yanvarın 7-də isə SSRİ-Türkiyə Respublikası sərhəddində həyəcanlar baş verdi.[132] Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı.[133]

1990-cı il yanvarın 11-də AXC Lənkəran şöbəsinin qərarı ilə gecə raykom, daxili işlər şöbəsi, rabitə qovşağı, mətbəə və digər dövlət müəssisələri mühasirəyə alındı, partiya komitəsinin, hökumət orqanlarının fəaliyyəti dayandırıldı. Müvəqqəti Müdafiə Komitəsi təsis olundu.[134]

Bütün bunlar hakimiyyət böhranının, Moskva canişininin respublikadakı hadisələrə nəzarəti tam itirməsinin təzahürü idi. Bununla barışa bilməyən mərkəz 1990-cı il yanvarın əvvəllərindən Azərbaycanda müxtəlif qoşun hissələri, cəza dəstələri yerləşdirdi. SSRİ müdafiə naziri D.Yazov gizlicə Gəncəyə gəlmiş, vəziyyətlə tanış olmuş və respublika rəhbərliyinin də təklifləri nəzərə alınmaqla "Tayfun" adlı qanlı əməliyyat planı hazırlamışdı.[135]

Erməni millətçilərinin təhrikçilik hərəkətləri, Azərbaycanın sərhəd kəndlərinə, DQMV-də azərbaycanlılar yaşayan kəndlərə silahlı basqınlar isə getdikcə artırdı.

Bu hadisələrə müxtəlif vasitələrlə şərait yaradan Moskva öz istəyinə nail olmuşdu. Siyasiləşmiş insanların çoxu AXC-nin 1990-cı il yanvarın 6-7-də keçirilmiş konfransında yeni seçilmiş İdarə Heyətində üstünlük təşkil edən "liberallar"ın deyil, "radikallar"ın ardınca gedirdi. Yanvarın 12-də "radikallar" Milli Müdafiə Şurası (MMŞ) təşkil etdilər.[136] Məqsəd mövcud özünümüdafiə dəstələrini birləşdirmək, yeni hərbi dəstələr yaratmaq və erməni hərbi birləşmələrin hücumlarının qarşısını almaq idi. Respublikanın rəhbərliyi də gəncləri MMŞ-nin köməyi ilə milis dəstələrinə cəlb edərək silahlandırıb cəbhəyə göndərməyə, müəssisələrdə fəhlə drujinaları təşkil etməyə çağırırdı.[137]

AXC-ni dağıtmaq, "demokratik hərəkatı" boğmaq üçün müvafiq vaxt yetişmişdi. Təhrikçilər fəallaşırdılar. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsinə cavab olaraq erməni talanları başlandı.[138] 56 nəfər öldürüldü, 112 nəfər xəsarət aldı.[139] Talançı dəstələrin azğın əməllərinə nə yerli hüquq mühafizə orqanları, nə də o zaman Bakıda olan SSRİ Daxili İşlər Nazirliyinin 12 minlik silahlı qüvvəsi mane olurdu.[140] Onlar milli münaqişəyə qarışmamaq əmri almışdılar.[141]

Əhalinin köməyi ilə ermənilərin çoxu evlərdə, məscidlərdə, hərbi hissələrdə sığınacaq tapdı. Talanların qarşısı MMŞ özünümüdafiə dəstələrinin gücü ilə yanvarın 15-də, demək olar ki, alınmışdı. MMŞ dəstələri şəhərə nəzarət edirdilər.[142]

1990-cı il yanvarın 13,15,16, 17 və 18-də Azərbaycan KPMK-nın büro iclaslarında respublikadakı vəziyyət müzakirə edilmiş, çıxış edənlər - Ə.Vəzirov, A.Mütəllibov, V.Polyaniçko, E.Qafarova, M.Məmmədov, V.Hüseynov və başqaları, habelə Bakıda olan Y.Primakov və yüksək rütbəli Moskva hərbçiləri güc tətbiq olunması vacibliyini bildirmişdilər. Etiraz edən və ya başqa təklif verən olmamışdı.[143]

1990-cı il yanvarın 15-də Ə.Vəzirov Moskvaya göndərdiyi teleqramda tələb edir ki "Antisovet, antipartiya şüarları ilə mitinq edən ekstremistlərin liderləri dərhal məsuliyyətə cəlb edilməlidirlər. Bunun üçün hüquqi əsaslar vardır". Ertəsi gün Ə.Vəzirov yenə "ağalarına" teleqram vurub bildirir ki, müxalifətin əlində

çoxlu silahın olması Azərbaycanda sosialist quruluşunun məhvinə gətirib çıxaracaq və buna görə də dərhal güc tətbiq olunmalıdır. Elə bu vaxt Azərbaycan SSR Nazirlər Sovetinin Sədri A.Mütəllibov Moskvaya teleqram vurmuşdu ki, respublikanın SSRİ güc nazirlikləri hərbi kontingentini qeyri-qanuni silahlı birləşmələri tərksilah etmək üçün əməliyyat keçirəcəkləri müddətdə yerləşdirmək və ərzaqla təmin etmək imkanı vardır.[144]

Xalqa, demokratik qüvvələrə tutulacaq divana hüquqi don geyindirmək üçün fövqəladə vəziyyət elan olunması vacib idi. Ə.Vəzirov yanvarın 14-də AKP MK bürosunda müzakirə etdikdən sonra çağırdığı Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti iclasında "Azərbaycan SSR-in DQMV-də vəziyyətin normallaşdırılması sahəsində təxirəsalınmaz vəzifələr haqqında" qərar qəbul edilməsinə nail oldu. Qərarda DQMV və zəruri olarsa, ona bitişik rayonlarda və sərhəd boyunca fövqəladə vəziyyət elan olunması və mərkəzdən lazımi köməklik göstərilməsi üçün SSRİ Ali Soveti Rəyasət Heyətinə müraciət olunması nəzərdə tutulurdu.[145] Azərbaycan Ali Soveti Rəyasət Heyətinin müraciətinə əsasən SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 15-də "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi.[146] Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatları tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görsün.

Respublika hökuməti iflic vəziyyətində idi. Respublika Dövlət Təhlükəsizlik Komitəsinin sədri Moskvaya göndərdiyi şifrəli teleqramlarda bildirirdi ki, respublika xaos vəziyyətindədir, qiyam ərəfəsindədir, qətiyyətli tədbirlər görülməsə, Azərbaycan əldən gedə bilər.[147] İmperiya buradakı hakimiyyət böhranından, bəzi ölkələrdə olduğu kimi, Bakıda da Sovet hakimiyyətinin devriləcəyindən, beləliklə, Azərbaycanı itirəcəyindən qorxub Bakı ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı.[148] MMŞ-nin təşəbbüsü ilə şəhərin girəcəklərində və Bakı qarnizonu hissələrinin ətrafında əhali yük, minik maşınlarını, avtobus və trolleybusları yan-yana düzüb barrikadalar qurdu, piketlər təşkil etdi. Yollarda 26 maneə yaradıldı. Şəhərdəki qoşun hissələrinin, o cümlədən Salyan kazarmalarının yolu kəsildi.[149]

Bakının hərbi komandanlığı, buna heç bir ehtiyac olmadığı halda, xalqa tutulacaq divana cavab olaraq adamların rusdilli əhaliyə, ilk növbədə hərbçi ailələrinə zərər yetirəcəyindən qorxub onları Azərbaycandan çıxarmağa başladı.[150]

Rəsmi Moskvanın Bakıya göndərdiyi emissarları - SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Y.Primakov və Sov.İKP MK katibi A.Girenkonun AXC-nin "liberal" və "radikal" qanadları nümayəndələri ilə ayrı-ayrılıqda görüşləri müsbət nəticə vermədi.[151]

Yanvarın 17-dən AKP MK binası qarşısında izdihamlı mitinq başlandı, ümumi tətil elan olundu. Tələb edildi ki, Moskva Ermənistanın Azərbaycana ərazi iddialarına qəti son qoysun, imperiyanın Bakıya və ətrafına yığdığı qoşunlar Dağlıq Qarabağa və daim erməni basqınlarına məruz qalan sərhəd bölgələrinə göndərilsin.[152]

Mitinqçilər xalqa xəyanətdə təqsirkar bildikləri respublika partiya, sovet və hökumət başçıları üçün simvolik dar ağacları düzəltmişdilər. Onlar AKP MK birinci katibi vəzifəsinə öz namizədlərini irəli sürürdülər. Xalqın Moskvanın təyin etdiyi canişini istefaya göndərmək, yerinə öz nümayəndəsini gətirmək tələbi qəti rədd edildi. A.Girenko açıqca bildirdi ki, respublika rəhbərliyini Sov.İPK MK deyil, kütlənin dəyişməsi yolverilməzdir.[153]

Mərkəz Naxçıvanda da xalqa divan tutmaq məqsədi ilə fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Yanvarın 18-də Şərur rayonu Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi. Xalqın tələbi ilə yanvarın 19-da Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi.[154]

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi.[155] Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək üçün qoşunlardan istifadə ediləcəyi, aman verilməyəcəyi, habelə ən başlıcası fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Fövqəladə vəziyyət və komendant saatı vaxtının elan edilməsi qanlı planları poza bilərdi. Buna görə də AXC İdarə Heyəti komendant saatı tətbiq olunduğu təqdirdə orduya müqavimət göstərmədən piketləri götürmək haqqında qərar qəbul etmişdi. Lakin "radikallar" adamlara "silah, kömək gələcək" - deyə yalan vədlər verir, barrikadaları axıradək tərk etməməyə çağırırdılar. Piketçilər imperiyanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar.[156]

Xalqa məlumat verilməsin deyə yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı.[157]

Fövqəladə vəziyyətin yanvarın 20-də, saat 00-dan başlanmasına göstəriş verildiyinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-dən ilk olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi.[158] "Bakı əməliyyatı"na SSRİ müdafiə naziri D.Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonu qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən desant, xüsusi cəza dəstələri hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomat silahlardan güclü atəş açırdılar. Qaçıb sığınacaqlarda

gizlənənlər tanklar üzərindəki projektorların köməyi ilə axtarılıb tapılır, güllələbaran edilirdilər. Hərbçilər təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını, şəhər nəqliyyatını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, adamları tankların tırtılları altına salıb əzabla öldürür, eybəcər hala salırdılar. Şəhərin küçələri öldürülmüş, yaralanmış adamların, qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Əsgərlər tibb müəssisələrini mühasirəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.[159]

Rəsmi məlumatlara görə, Bakıya və başqa yaşayış məntəqələrinə sovet ordusunun hücumu vaxtı 131 nəfər, o cümlədən 117 azərbaycanlı, 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür.[160] Evlərə, ictimai və şəxsi nəqliyyat vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi.

Fövqəladə vəziyyət haqqında fərman artıq iş işdən keçəndən sonra, yanvarın 20-də saat 7-də elan olunmuşdu.[161]

Azərbaycan xalqı fövqəladə vəziyyət şəraitində partizan müharibəsi aparmaq kimi avantürist çağırışları rədd etdi, qarşıya mövcud reallıqlar daxilində həll edilməsi mümkün olan məsələlər qoymağa, mübarizəni dinc siyasi vasitələrlə davam etdirməyə başladı. Azərbaycanda yüksək vəzifə sahibi olanlar xalqa kömək etmək, ona arxa durmaq əvəzinə kürsülərini qorumaq naminə qaçıb gizləndilər. Bir sıra qabaqcıl ziyalı yanvarın 20-də Elmlər Akademiyasında etiraz mitinqi keçirdi. Ziyalıların səsini boğmaq, onları qorxutmaq üçün bu mitinqin iştirakçısı olan üç görkəmli alim, professor Sumqayıta, mitinqə gedərkən yolda tankın altına salınıb məhv edildi.[162]

Gərginliyi bir qədər yatırmaq üçün hərbi hökumət həmin gün radio ilə Azərbaycan SSR Ali Soveti sədrinin Bakıda fövqəladə vəziyyət elan olunmasına və şəhərə qoşun yeridilməsinə qarşı etiraz bəyanatının yayılmasına icazə verdi.[163]

Xalq deputatları şair Bəxtiyar Vahabzadə, yazıçılar Anar və Elçin Ali Sovet Sədrindən fövqəladə sessiya çağırılmasını, hadisəyə qiymət verilməsini tələb etdilər. B.Vahabzadə radio ilə xalq deputatlarına müraciət etdi.[164] Yanvarın 21-də deputatların üçdə birinin təşəbbüsü ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası keçirildi. Moskvanın hakimiyyət uğrunda didişən kommunist rəhbərlərindən kimi birinci katib təyin edəcəyini gözləyən yüksək vəzifə sahibləri bu sessiyanın işində, demək olar ki, iştirak etmədilər, hətta onu "qeyri-qanuni yığıncaq" adlandırdılar.[165]

Sessiya baş vermiş faciəyə siyasi qiymət verməyə çalışdı. Onu törədən ölkə və respublika rəhbərlərinə qəti etiraz bildirildi. Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında fərmanın fəaliyyətini dayandırmaq, ordu hissələrini

şəhərdən çıxarmaq barədə qərarlar qəbul olundu.[166] Lakin Moskva bu qərarlara əhəmiyyət vermədi.

Xalq başsız qalmışdı, vahimə içində idi. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş, 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda çıxış etdi, bu ağır günlərdə yaralı, heç yerdən kömək almayan doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. H.Əliyev çıxışında qeyd etdi ki, "Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki hala çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı". Ölkə rəhbərliyini ciddi tənqid edən Heydər Əliyev ona yarınan respublika başçılarının da yarıtmaz fəaliyyətini ifşa etdi və göstərdi ki, Vəzirov "bu yüksək vəzifədə olduğu müddətdə... Azərbaycanda vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır".[167] Heydər Əliyev qorxmadan imperiya rəhbərlərini "qatillər" adlandırırdı.[168]

Heydər Əliyevin Moskvadakı tarixi çıxışının mətni, bütün maneələrə baxmayaraq, respublikada və dünyada geniş yayıldı. Heydər Əliyev Azərbaycan xalqına verdiyi başsağlığında onu bu ağır gündə "ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə" çağırdı.[169] Təklənən, heç nəyə əli çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi bacarıqlı, nüfuzlu bir şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Azərbaycan, Bakıda fövqəladə vəziyyət olmasına baxmayaraq, yanvarın 22-də şəhidlər ilə vidalaşdı.[170] Paytaxt matəm libası geyinmişdi. Respublikada üç gün matəm elan olunmuşdu. Azadlıq meydanında izdihamlı matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində milyona qədər insan iştirak edirdi.[171] Bu, azadlıq, haqq, ədalət, demokratiya yolunda müqəddəs şəhidlərə ehtiramın, habelə Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Küçələrdə, AKP MK binası divarlarında "Qorbaçov cəlladdır!", "Rədd olsun Sov. İKP!", "İşğalçılar, rədd olub gedin!" və b. şüarlar yazılmışdı. Partiya biletlərindən tonqallar qalanmışdı.[172]

Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildi.

Xalqa qarşı sovet ordusunun qanlı cinayətləri isə hələ bitmək bilmirdi. Sovet ordusunun tam döyüş hazırlıqlı qoşun hissələrinin Ermənistandan Naxçıvana yeridilməsinə cəhd göstərildi, lakin xalq bunun qarşısını aldı.[173] Siyasi çevriliş

edilmiş bölgələrdə ordunun köməyi ilə kommunistlərin hakimiyyəti bərpa olundu. Ordu hissələri Lənkərana yeridildi.[174]

Gizlicə respublikadan qaçmış Ə.Vəzirovun yerinə Moskva yanvarın 24-də Ayaz Mütəllibovu Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gətirdi.

İmperiya rəhbərləri, onların yerli əlaltıları istədiklərinə nail oldular. Bakıda fövqəladə vəziyyət, komendant saatı tətbiq edildi. AXC MMŞ dağıdıldı, bir çox fəal cəbhəçilər həbs olundu, ölkədən qaçdı, qeyri-leqal işə keçdi. AXC-nin hakimiyyətə gəlmək cəhdi baş tutmadı.

İmperiyanın şovinist rəhbərliyi qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədi, özünün dayağı olan Kommunist Partiyasını, Sovet hakimiyyətini xalqın gözündən daha da saldı, bəzilərində "yenidənqurma"ya olan ümidi puç etdi, təsdiq etdi ki, imperiya üçün rcspublikanın suverenliyi, xalqların ləyaqəti heç nədir.

1990-cı ilin Qanlı Yanvarı Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir, ləyaqətini qorumaq üçün mübarizə aparmağa, bu yolda qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir.

Azərbaycan xalqının qabaqcıl qüvvələri əgər Qanlı Yanvara qədər respublikanın suverenliyini SSRİ daxilində mövcud siyasi və iqtisadi münasibətlərin təkmilləşdirilməsi kimi qeyri-real imkanlarda axtarırdısa, bu hadisə sübut etdi ki, suverenliyin yeganə yolu imperiyanın dağılmasında, müstəqilliyin bərqərarlaşmasındadır. Heydər Əliyevin "Bizim Ümumittifaqdan nicatımız yoxdur!" sözləri xalqın ümumi rəyinin ifadəsi oldu.[175] Xalq hərəkatı bu şüar altında keyfiyyətcə yeni mərhələyə qədəm qoydu.

VI FƏSİL

# AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

*(1945-1990-cı illərdə)*

## 1. AZƏRBAYCANIN BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİ

İkinci dünya müharibəsi başa çatdıqdan sonra SSRİ-nin beynəlxalq aləmdə siyasi və iqtisadi nüfuzu xeyli yüksəldi. İlk olaraq Şərqi Avropa və Asiyada onun hərbi və iqtisadi yardımı ilə bir sıra yeni dövlətlər yarandı. Bu dövlətlər siyasi və iqtisadi inkişaf yollarını SSRİ-nin birbaşa müdaxiləsi və köməyi ilə hakimiyyəti ələ keçirmiş sovet təmayüllü Kommunist və Xalq Demokratik partiyalarının işləyib hazırladıqları proqramlar əsasında müəyyən edirdilər. 1945-1961-ci illər ərzində isə Asiya, Afrika, Avropa və Amerika qitələrində "sosialist" inkişaf yolunu seçmiş bir sıra dövlətlər yarandı ki, onların da hamısı ilk siyasi, hərbi və iqtisadi yardımı SSRİ-dən almışdılar. Bu dövlətlər içərisində Şərqi və Cənubi Avropada Polşa, ADR, Çexoslovakiya, Rumıniya, Bolqarıstan, Albaniya, Yuqoslaviya, Cənubi-Şərqi Asiyada, Çin, Vyetnam, Laos, Şimali Afrikada Misir, Liviya və Əlcəzair, Yaxın Şərqdə Suriya və İraq, Amerikada Kuba və başqaları idi. Həmin ölkələrə SSRİ tərəfindən göstərilən yardımda bütün "müttəfiq" respublikalar, o cümlədən Azərbaycan SSR də fəal iştirak edirdi. Bu yardım iqtisadi, ideoloji, kadr hazırlığı və digər sahələri əhatə edirdi. SSRİ dövlətinin apardığı bu siyasət XX əsrin ikinci yarısında dünyanın hərbi-siyasi və iqtisadi cəhətdən iki sistemə bölünməsi ilə nəticələnmişdi. "Sosializm düşərgəsi"nə daxil olan ölkələrlə Sovet İttifaqı arasında olan siyasi iqtisadi və mədəni əlaqələr çox geniş və hərtərəfli idi. Bu isə SSRİ-nin siyasi və strateji maraqlarından irəli gəlirdi. Lakin XX əsrin II yarısında Sovet İttifaqının ideoloji və siyasi fərqlərə baxmayaraq dünyanın inkişaf etmiş ölkələri ilə iqtisadi və mədəni əlaqələri də mövcud idi. Bu əlaqələr dünya xalqlarına Sovet İttifaqında yaşayan xalqların, ilk növbədə iqtisadiyyatının mədəniyyəti və incəsənəti ilə yaxından tanış olmağa imkan yaradırdı.

Müharibədən sonrakı illərdə Azərbaycanın beynəlxalq aləmdə diqqətəlayiq fəaliyyəti olmuşdur. Həmin dövrdə ölkənin ictimai-siyasi, iqtisadi, mədəni və elmi potensialı dünya dövlətləri arasında gedən əməkdaşlıq sistemində özünəməxsus yer tutmuş və çoxsahəli beynəlxalq əlaqələr yaratmışdır. Respublikanın beynəlxalq aləmdə həyata keçirdiyi əməkdaşlığının və əlaqələrinin əsas sahələrindən biri də onun dünyada gedən iqtisadi proseslərdə öz milli potensialının imkanları daxilində

iştirakı və bu istiqamətdə Yer kürəsinin müxtəlif qitələrində yerləşən ölkələr ilə geniş iqtisadi əlaqələr yaratmasıdır. Azərbaycanın beynəlxalq iqtisadi əlaqələri öz məzmununa, əhatə dairəsinə və istiqamətlərinə görə ikitərəfli və çoxtərəfli olmuşdur. Bu əlaqələrin özü də müxtəlif dövrlərdə müxtəlif forma və həcmdə həyata keçirilmişdir. 50-60-cı illərdə Azərbaycandan dünyanın müxtəlif ölkələrinə çoxçeşidli sənaye məhsulu göndərilirdi. Əgər 1956-cı ildə Azərbaycanın sənaye məhsulu 14 ölkəyə ixrac olunurdusa,[1] 1957-ci ildə respublikadan artıq 20 ölkəyə məhsul ixrac edilirdi.[2] İxrac olunan sənaye məhsullarının növləri də, həcmi də artmışdı. Azərbaycandan dünya ölkələrinə 1947-ci ildə 35, 1958-ci ildə 120, 60-cı illərdə isə 280 adda sənaye məhsulu ixrac edilirdi. İxraca işləyən sənaye müəssisələrinin sayı 1947-1950-ci illərdə 5-dən 17-yə, 1960-1970-ci illərdə isə 60-a çatmışdı.[3] İxracda neft və maşınqayırma sənayesi məhsulları əsas yer tuturdu. Onlar ümumi xarici ixracda 1958-ci ildə 57,4 faiz, 1964-cü ildə isə artıq 62 faiz təşkil edirdilər.[4] 1960-cı ildə Azərbaycandan neft məhsullarının ixracı 1958-ci ilə nisbətən 270 faiz artmışdı.[5]

Azərbaycandan xarici ölkələrə ixrac olunan məhsulların ümumi çəkisində neft sənayesi üçün avadanlıqlar əsas yer tuturdu. Azərbaycan 1945-1970-ci illərdə bu sahədə dünyanın 15-dən çox ölkəsi ilə əlaqə saxlayırdı. 1970-1990-cı illərdə bu əlaqələr daha geniş miqyasda olmuşdur.[6]

Həmin illərdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin daha effektli işləməsi üçün dövlət orqanları yaradılmışdı. Bunların sayəsində Azərbaycanın beynəlxalq iqtisadi münasibətləri, dünyanın bütün qitələrində yerləşən ölkələrlə inkişaf etdirilmiş və beynəlxalq təsərrüfat əlaqələrinin bütün forma və istiqamətlərində özünü göstərmişdir. Respublikanın bu sahədə töhfəsi həm keyfiyyətcə, həm də kəmiyyətcə artmışdı. Əgər 1970-ci ildə Azərbaycan dünyanın 55 ölkəsinə öz 20 sənaye sahəsinin 70 böyük müəssisələrinin istehsal etdiyi 300 adda məhsulu ixrac edirdisə, 1980-ci ilin axırına olan məlumata görə artıq ölkənin bütün sənaye sahələrini əhatə edən 115 zavod, müəssisə və fabrikləri xarici ölkələrə 340 addan yuxarı məhsul ixrac edirdilər. Ümumiyyətlə, 1970-1990-cı illərdə Azərbaycan 100-dən yuxarı xarici ölkəyə 400 adda məhsul ixrac edirdi.[7] Xarici iqtisadi əlaqələrdə, ələlxüsus, məhsul ixracında, respublikanın əsas sənaye mərkəzi kimi Bakı əsas rol oynayırdı. Onun 53-dən artıq müəssisəsi dünyanın 65 ölkəsinə öz məhsullarını ixrac edirdilər. Həmin əlaqələrdə Bakı şəhərindən başqa Gəncə, Mingəçevir, Sumqayıt, Salyan, Zaqatala və başqa şəhərlərin sənaye müəssisələri də fəal iştirak edirdilər, kimyaçılar şəhəri Sumqayıtın sənaye müəssisələri dünyanın 60 ölkəsinə müxtəlif növdə sənaye məhsulları göndərirdi.[8]

Azərbaycan istehsal etdiyi məhsulları xarici ölkələrə ixrac edərək, öz növbəsində dünyanın bir çox ölkələrindən respublikada yeni sənaye obyektlərinin tikilməsi üçün kompleks avadanlıqlar, maşın və aqreqatlar, avtomat sistemləri

alırdı. Bu isə respublikada bir sıra yeni sənaye sahələrinin yaranmasında və inkişafında böyük rol oynadı. 1976-1980-ci illərdə xarici ölkələrdən idxal olunmuş məhsulların köməyi ilə Azərbaycanda 20-dən yuxarı aqrar-sənaye obyektləri tikilmiş, yenidən qurulmuş, Sumqayıtda kauçuk və superfosfat zavodlarında yeni texniki sahələr, "Orqsintez", "Kimyasənaye" və "Azərsu", Bakı kondisionerlər zavodu, Ələt Ağac Emalı Kombinatı, Gəncə Təcrübə Kombinatı, Dərin Dəniz Özülləri zavodu tikilmiş, bərpa edilmiş və yenidən inşa edilmişdi.[9]

1945-1990-cı illərdə Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsində onun beynəlxalq sərgilərdə, yarmarkalarda iştirakı mühüm rol oynayırdı. Respublikada istehsal olunan sənaye məhsulları 1950-ci ildə Milanda keçirilmiş yarmarkada, 1958-ci ildə Belçikanın Brüssel şəhərində 52 ölkənin iştirakı ilə keçirilən yarmarka-konfransda təmsil olunmuşdu.[10]1965-ci ildə ilk dəfə SSRİ respublikalarından yalnız Azərbaycan İranın paytaxtı Tehranda keçirilən ticarət-sənaye sərgisində iştirak etmişdi. 1966-cı ildə isə respublikamız Suriya Ərəb Respublikasının paytaxtı Dəməşqdə 13-cü Beynəlxalq yarmarkada (bu sərgidə respublikanın 40 sənaye müəssisəsinin 300-dən çox məhsulu nümayiş etdirilmişdi), 1967-ci ildə Kanadanın Monreal şəhərində keçirilən "EKSPO-67" ümumdünya sərgisində, həmin ildə Buxarestdə keçirilən xalq ticarət-sənaye sərgisində, 1968-ci ildə Əlcəzairdə 5-ci Beynəlxalq yarmarkada özünün 51 sənaye müəssisəsinin istehsal etdiyi 360 məhsul növü ilə iştirak etmişdi.[11] 1970-1990-cı illərdə də Azərbaycan SSR-in ilk növbədə beynəlxalq sərgilərdə iştirakı daha da geniş miqyas almışdır. Həmin illərdə Azərbaycan dünyanın müxtəlif şəhərlərində keçirilən 100-ə yaxın böyük beynəlxalq iqtisadi yarmarka və sərgilərdə respublikanın 115 sənaye sahəsinin 100-dən yuxarı müəssisəsində istehsal olunan 15000-ə yaxın məhsul növləri nümayiş etdirmişdi. Respublikanın özündə keçirilmiş 80-dən artıq yarmarka və sərgilər də əhəmiyyətli olmuşdur.[12] Bakı demək olar ki, dünyanın yarmarka, sərgi və simpozium mərkəzlərindən birinə çevrilmişdi. Bakıda keçirilən yarmarka sərgilərdə ayrı-ayrı bölmələrdə 18000-dən yuxarı məhsul növü nümayiş etdirilmişdi. Bakıda 40-dan çox beynəlxalq iqtisadi, elmi-texniki simpoziumlar, o cümlədən "Konfleksil" (Fransa), "Simens-AQ" (Almaniya), "Şell" (Böyük Britaniya), "AQA-İnfrered AB" (İsveçrə) kimi şirkətlərin iştirakı ilə keçirilmişdir.[13] Bakıda 1989-cu ildə Amerika, Avropa, Asiya və Afrika iş adamlarının 15 ölkənin iştirakı ilə keçirilən iqtisadi sərgi daha nəticəli olmuşdur. Sərginin işlədiyi 10 gün müddətində Azərbaycanın 86 müəssisəsi iqtisadi təşkilatları və kooperativləri xarici ölkələrin 75 firmaları ilə iş əlaqəsi yarada bilmişdilər.[14]

1981-1985-ci illərdə Bakıda 48 xarici firmanın 131 və 1690 Azərbaycan mütəxəssisinin iştirakı ilə 13 beynəlxalq simpozium və respublikanın 3650 mütəxəssisinin fəal iştirakı ilə 35 simpozium təşkil edilmişdi.[15] 1945-1990-cı

illərdə keçirilmiş yarmarka və sərgilərdə Azərbaycan 35 dəfə qızıl medala layiq görülmüşdü. Bundan başqa, Azərbaycanın sərgi bölmələri onlarca yüksək diplomlar və fəxri fərmanlarla təltif edilmişdi.[16]

Azərbaycan Respublikasının ictimai və siyasi quruluşlarından asılı olmayaraq dünyanın müxtəlif dövlətləri ilə beynəlxalq iqtisadi əlaqələri yaradılmışdı. Azərbaycanla "sosialist" dövlətləri arasında iqtisadi əlaqələr daha geniş idi. Əgər, 1966-cı ildə Azərbaycan həmin ölkələrə 180 adda məhsul göndərmişdisə, 70-80-ci illərdə onların sayı artıq 250-yə çatmışdı. Həmin illərdə respublikanın 100-dən yuxarı sənaye müəssisəsi sosialist ölkələrinə məhsul ixrac edirdi.[17] Azərbaycandan bu ölkələrə göndərilən məhsulların arasında kənd təsərrüfatı məhsulları mühüm yer tuturdu. Təkcə 1980-1985-ci illərdə həmin ölkələrə 331 min 60 ton pambıq ixrac edilmişdi. Onun ümumi ixracı 1970-ci illə müqayisədə 1985-ci ildə 22-dən 37 faizə qədər artmışdı. Xarici ölkələrə ixrac olunan məhsullar içərisində şərab məhsulları mühüm yer tuturdu. 1976-1980-ci illərdə sosialist ölkələrinə 2,5 mln dollar dəyərində 110 min dekalitr konyak, 32 mln 600 min manatlıq şampan şərabları göndərilmişdi.[18] Öz növbəsində Azərbaycan da sosialist ölkələrindən həmin illərdə 20-55 adda məhsul almışdı.[19]

Azərbaycanın "sosialist" ölkələrindən aldığı məhsullar içərisində kənd təsərrüfatı texnikası idxalı əsas yerlərdən birini tuturdu. 1971-1979-cu illərdə Azərbaycan Bolqarıstandan, Çexoslovakiyadan, Rumıniyadan, ADR-dən, Macarıstandan kənd təsərrüfatının müxtəlif sahələrində istifadə olunan traktor kombayn və başqa maşınları almışdı.[20]

Keçmiş SSRİ ilə dünya dövlətləri arasında yaranan iqtisadi əlaqələrin inkişafında Azərbaycanın da özünəməxsus yeri olmuşdur. Məsələn, 70-ci illərdə Azərbaycan Hindistana 30 adda 20 sənaye müəssisəsinin məhsulunu, Suriyaya - 30, İrana - 30 və 70, Əfqanıstana - 20 və 50, MƏR-ə - 20 və 30, Pakistana - 18 və 25, Şri-Lankaya - 15 adda 20 sənaye müəssisəsinin məhsullarını göndərmişdi. Afrika ölkələrindən Əlcəzair, Qvineya, MƏR, Keniya, Konqo, Liviya, Mali, Mərakeş, Somali, Sudan, Tanzaniya, Efiopiya, Anqola və başqa ölkələrə 50 sənaye müəssisəsinin 35 adda məhsulları göndərilirdi.[21]

Qərbi Avropa ölkələrindən Belçika, Avstriya, Finlandiya, AFR, Böyük Britaniya, Fransa, İtaliya, İspaniya, Norveç, həmçinin Avstraliya, ABŞ, Niderland, İsveçrə, İsveç, Yaponiya və digər dövlətlərin həmin dövrdə Azərbaycan SSR-lə əlaqələri olmuşdur. Bu ölkələrə respublikadan 200-ə yaxın məhsul növü ixrac edilmişdir. Öz növbəsində isə Azərbaycana həmin ölkələrdən 350-yə qədər adda müxtəlif məhsullar - avadanlıq, maşın, texniki vasitələr alınmışdı. Təkcə 1981-ci ildə Fransadan "Azneft" üçün 150 ton tutumu olan soyuducu, Dərin Özüllər zavodunda platformaların tikintisi üçün 48796 min manatlıq, Sumqayıt "Kimya" Birliyi üçün 26,7 milyon manatlıq avadanlıq idxal edilmişdi.[22] 80-ci illərdən isə

Azərbaycanda bir sıra Qərb ölkələri ilə birgə istehsal sahələri işə başlamışdı. 1989-cu ildə xarici ölkə şirkətinin iştirakı ilə istismara verilmiş "Bakı-Milan" istehsal sahəsinin illik məhsul buraxılışı həmin illərdə elektrik cihazları üzrə 700 min ədəd, elektrik mühərrikləri üzrə isə 1,5 milyon ədəd olmuşdu. Bu müəssisə "Bakı kondisioner" Birliyi ilə İtaliyanın "Merlopi-Pricetti" firması arasında 1987-ci ildə bağlanmış müqavilə əsasında Bakıda fəaliyyətə başladı. 1988-ci ildən isə "Delta" Azərbaycan-Türkiyə birgə müəssisəsi işə başlamış, "Bakı kondisioner" Birliyi ilə ABŞ-ın "Dceneral elektrik" şirkəti arasında birbaşa əlaqələr yaranmışdı.[23] Təkcə 1970-1990-cı illərdə ABŞ, Böyük Britaniya, Fransa, Finlandiya, Danimarka, Avstriya, Argentina, İsveçrə, Türkiyə və digər dövlətlərdən Bakıya 120-dən artıq nümayəndə heyəti gəlmişdi. Bundan başqa, bu ölkələrin iş adamlarının 100-dən çox nümayəndə heyəti Bakıda olmuş və burada onlarca iqtisadi sərgi və simpoziumlar təşkil edilmişdi.[24]

Ümumiyyətlə, 1945-1990-cı illərdə Azərbaycan dünyanın müxtəlif dövlətləri ilə beynəlxalq iqtisadi əlaqələr yaratmış və həmin əlaqələrin ən müxtəlif formalarından istifadə etmişdir. Eyni zamanda, o bu əlaqələrin vasitəsi ilə özünün maddi potensialı haqqında geniş məlumatların yayılmasına nail olmuşdur. Bu, həmçinin Azərbaycanın həmin illərdə inkişaf etmiş iqtisadi potensiala malik olmasını, onun dünya iqtisadi prosesləri sistemində özünəməxsus yer tutmasını göstərir.

## §2. AZƏRBAYCANIN BEYNƏLXALQ MƏDƏNİ ƏLAQƏLƏRİ

1945-1990-cı illərdə Azərbaycanın həmçinin mədəni həyatının əsas sahələrini - elm, təhsil, ədəbiyyat, musiqi, təsviri sənət, teatr, radio və televiziya sahələrini əhatə edən çox əhəmiyyətli və geniş beynəlxalq əlaqələri olmuşdur. Bu əlaqələr mənəvi həyatımızın şah damarı olan milli mədəniyyətimizin bütün sahələrini əhatə etmişdir.

Azərbaycanın həmin illərdə beynəlxalq mədəni əməkdaşlığının əsas forma və istiqamətlərinin başlıcasından biri onun elmi potensialının bu istiqamətdə dünyada gedən proseslərdə iştirakı olmuşdur. Azərbaycanın elmi fikri beynəlxalq aləmdə, xüsusən XX əsrin 50-ci illərindən yaxından tanınmağa başlanmışdır. Bu işdə 1953-cü il mayın 6-da Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyəti nəzdində beynəlxalq elmi əlaqələr üzrə yaradılmış xüsusi komissiyanın böyük rolu olmuşdur.[25] Həmin dövrdən Azərbaycan elminin sədası, demək olar ki, dünyanın bir çox qitələrindən gəlməyə başlamışdı. Azərbaycan alimləri elmin bir çox sahələrində xarici ölkələrin alimləri ilə birgə yeni-yeni elmi problemlərin həllində fəaliyyət göstərmişlər. Bu istiqamətdə əlaqələrin genişlənməsi məqsədi ilə

beynəlxalq xarakterli elmi tədbirlərin, müşavirələrin, koordinasiya şuralarının elmi problemlərə həsr edilmiş sərgi və simpoziumların, konfransların, alimlərin yaradıcı görüşlərinin və digər yüksək beynəlxalq elmi əlaqələrin mühüm rolu olmuşdur. 1959-1965-ci illərdə təkcə "sosialist" ölkələri alimləri ilə 150 dəfə belə tədbirlər keçirilmişdir. Azərbaycan alimləri ilə Çexoslovakiya alimlərinin elmi problemlərin birgə həllinə həsr olunmuş 30 yaradıcılıq və elmi görüşləri olmuşdur.[26] Bunlardan başqa, 1961-ci il yanvar ayının 17-26-da kimya reaktiv və izotoplar elmi nəticələrinə həsr olunmuş sərgi (həmin sərgidə 2000-dən yuxarı müxtəlif eksponatlar nümayiş etdirilmişdi), 1961-ci ilin noyabrında Azərbaycan alimlərinin iştirakı ilə Berlində fizik və kimyaçıların beynəlxalq müşavirəsi, 1962-ci ilin sentyabr ayında Bakıda QİYŞ-in (Qarşılıqlı İqtisadi Yardım Şurası) iştirakçısı olan ölkələrin mütəxəssislərinin Bakı görüşü, 1962-ci ilin may ayında Bakıda elmi-texniki əməkdaşlıq üzrə Sovet-Polşa birgə komissiyasının XX sessiyası, 1963-cü ildə Çexoslovakiyada tibb sərgisi keçirilmiş, 150 mindən yuxarı insanın baxdığı bu sərgidə çex sənayesinin 122 adda tibb texnikası nümayiş etdirilmiş, 1963-cü ildə Praqada texniki problemlər üzrə alimlərin müşavirəsi, 1964-cü ildə Azərbaycan-Çexoslovakiya elmi koordinasiya şurasının iclası keçirilmiş, 1964-cü ilin mart ayında həmin ölkələrin Elmi-Texniki Şuralarının birgə iclası, 1965-ci ildə Macarıstanın istehsal etdiyi tibb texnikası sərgisi təşkil edilmişdir.[27]

Ümumiyyətlə, 1945-1970-ci illərdə Azərbaycan alimləri sosialist ölkələrinin alimləri ilə birgə ən mühüm elmi problem üzərində iş aparmışlar.[28] Bolqarıstan alimləri ilə torpaqşünaslıq və aqrokimya sahəsində, Macarıstan alimləri ilə riyaziyyat, kibernetika, fiziologiya və bitkilərin qidalanması sahəsində, ADR alimləri ilə astrofizika, neft-kimya, aqrokimya, linqvistika və kibernetika sahəsində, Rumıniya alimləri ilə neft-kimya, qeyri-üzvi və fiziki kimya, təbiətin mühafizəsi sahələrində, Çexoslovakiya alimləri ilə neft-kimya, bitkilərin bioloji mühafizə üsulu, zoologiya və digər elmi sahələrdə Azərbaycan alimlərinin sıx əməkdaşlığı olmuşdur.[29] Həmin dövrdə eyni zamanda qeyd olunan ölkələrlə geniş elmi mübadilə də aparılmış, alimlərin ezamiyyəti təşkil edilmişdir. Təkcə 1963-1965-ci illərdə göstərilən ölkələrdə 64 Azərbaycan alimi elmi səfərdə olmuş,[30] dünyanın müxtəlif ölkələrində, o cümlədən ABŞ, Fransa, İngiltərə, İtaliya, İspaniya, Belçika, Asiya, Afrika və Latın Amerikası ölkələrində keçirilən 100-dən artıq yüksək beynəlxalq elmi forumlarda iştirak etmişdilər.[31] Öz növbəsində xarici ölkələrin elmi nümayəndələri tez-tez Bakıda elmi ezamiyyətdə olmuş, birgə elmi-tədqiqat işləri aparmışlar. 1959-1970-ci illərdə Azərbaycanda 300-dən çox xarici ölkənin elmi nümayəndələri səfərdə olmuşlar.[32] Onlardan 180 nəfəri sosialist ölkələrindən, 120 nəfəri isə kapitalist və inkişaf etməkdə olan ölkələrdən olmuşdur.[33]

1970-1990-cı illərdə Azərbaycan elmi dünyada həyata keçirilən elmi əməkdaşlığın ən mühüm formalarında təmsil olunmuşdur. 5000-ə qədər Azərbaycan alimi xarici ölkələrdə yaradıcılıq səfərində olmuş, 3000-ə yaxın öz xarici həmkarını respublikamızda qəbul etmişlər. Azərbaycan EA-nın alimləri hər il 51 ölkənin orta hesabla 570 elmi təşkilat və mərkəzi ilə əlaqə saxlamış və müxtəlif elm sahələrini əhatə edən 40 mövzu üzrə birgə tədqiqat işləri aparmışlar. 1970-1990-cı illərdə Azərbaycan Elmlər Akademiyasının elmin müxtəlif sahələrində çalışan 4000-ə qədər nümayəndəsi xarici ölkələrdə, o cümlədən 210 nəfəri elmi-tədqiqat işi aparmaq, 301 nəfəri beynəlxalq tədbirlərdə, konqreslərdə, simpoziumlarda konfranslarda və müşavirələrdə iştirak etmək, 250-yə qədəri elmi turizm, 115 nəfəri elmi-texniki kömək göstərmək və digər elmi məqsədlər üçün xarici ölkələrdə olmuşlar. Öz növbəsində Azərbaycan EA alimləri həmin dövrdə xarici ölkələrin 2500-ə qədər alimini qəbul etmişlər.[35]

Azərbaycanın beynəlxalq elmi əlaqələri həmçinin ədəbiyyat, turizm və elmi əməkdaşlığın başqa sahələrində müxtəlif formalarda olmuşdur, beynəlxalq konfransların, simpoziumların və digər elmi forumların keçirilməsi yolu ilə də inkişaf etdirilmişdir. Azərbaycan EA-nın Fundamental Elmi Kitabxanası həmin illərdə 53-ə qədər xarici ölkənin 460-dan 580-nə qədər elmi mərkəzlərlə əməkdaşlıq etmişdir, beynəlxalq kitab mübadiləsi yolu ilə xarici ölkələrdən 110 mindən artıq müxtəlif elmi ədəbiyyat almış, öz növbəsində isə, 105 min elmi ədəbiyyat göndərmişdir. 1981-1985-ci illərdə o, xaricə 43532 ədəbiyyat yollamış, 52834 ədəbiyyat almışdır.[36] M.F.Axundov adına Dövlət Kitabxanası isə xarici həmkarlarına 10 minə qədər elmi ədəbiyyat yollamış, 11 mindən yuxarı elmi ədəbiyyat almışdır.[37]

Azərbaycan alimləri həmin dövrün 5 ili ərzində 200-ə yaxın beynəlxalq elmi konfranslarda, simpoziumlarda və digər elmi tədbirlərdə iştirak etmişlər. Təkcə 1981-1985-ci illərdə isə respublika elminin müxtəlif istiqamətlərinin nümayəndələri 60-dan yuxarı beynəlxalq konqreslərin, konfransların, simpozium və müşavirələrin iştirakçısı olmuşdur. Respublika alimlərinin əsərləri 30 dildə 60-dan artıq ölkədə çapdan çıxmışdır, 20 Azərbaycan alimi müxtəlif beynəlxalq elmi təşkilatların üzvü seçilmişlər.[38] Bakıda 90-dan çox beynəlxalq elmi konfrans, simpozium, konqres və digər elmi xarakterli mühüm tədbirlər keçirilmişdir.[39]

1945-1990-cı illərdə dünyada gedən mədəni əlaqələrin genişlənməsində və inkişaf etdirilməsində Azərbaycan öz milli-mədəni potensialının digər imkanlarından da fəal istifadə etmişdir. Bu əlaqələrin inkişafında milli incəsənət müstəsna rol oynamışdır. Respublikadan xarici ölkələrə not və valların göndərilməsi, musiqi kollektivlərinin qarşılıqlı səfərləri, beynəlxalq musiqi festivalları və incəsənət xadimlərinin şəxsi əlaqələri o vaxt bu sahədə olan əlaqələrin, əsas istiqamətlərindən olmuşdur. Xarici ölkələrə Azərbaycan

bəstəkarlarının notları göndərilirdi, İngiltərə və Cənubi Azərbaycana "Koroğlu" operasının partiturası və musiqi notları, digər ölkələrə isə bir sıra əsərlər bəstəkarların adından hədiyyə kimi verilmişdir. O zaman respublikada qonaq olan Çexoslovakiya nümayəndə heyətinə Azərbaycan bəstəkarlarının 64 əsərinin notları və valları təqdim edilmişdi (1953-ci ildə). Belə hədiyyələr 1954-cü ildə Bakıda çinli qonaqlara da verilmişdi.[40]

Azərbaycan artistləri 1958-ci ildə Brüsseldə keçirilən Ümumdünya sərgisində SSRİ Milli günlərində öz konkret proqramları ilə uğurla çıxış etmişlər. Azərbaycan Dövlət rəqs ansamblı Çində qastrol səfərində olmuş, SƏR-in paytaxtı Dəməşqdə keçirilən Beynəlxalq yarmarkada isə Azərbaycanın altı mahnı ustası iştirak etmişdir. 1959-cu ildə Azərbaycan artistləri Bolqarıstanda, Tunis və Mərakeşdə geniş proqramla çıxış etmişlər, Əfqanıstan artistləri isə Bakıda konsertlər vermişlər. Həmin il Bakıda 11 xarici ölkənin incəsənət mahnı ustaları konsertlə çıxış etmiş, dünyanın 16 ölkəsinə isə Azərbaycan bəstəkarlarının 130 əsərinin notu, 130 val göndərilmişdir. Bakıda ingilis estrada müğənnisi Cerri Skot, ABŞ-ın Miçiqan nəfəsli orkestri, skripkaçı Rudcier Riçç, artistləri S.Kart, Verzye, Kuba, Meksika, Yuqoslaviya, Fransa, Türkiyə, Kanada sənətçiləri konsertlər vermişlər, ADR-də keçirilən festivalda respublikamızın artistləri, rəqqasları və müğənniləri iştirak etmişlər, "Bayatı-Şiraz" muğamı və klassik opera musiqisi "Şeyx Sənan" səsləndirilmişdir (1961), hind rəqqası Zəhra Sahalyi Bakıda konsertlər vermişdir. Respublikamızın artistləri ADR-də, Afrika ölkələri və İraqda konsert proqramı ilə çıxış etmiş, xarici ölkələrlə qarşılıqlı şəkildə not və val mübadiləsi olmuşdur (1962-ci il), Bolqarıstanda keçirilən Azərbaycan mədəniyyəti günləri ilə əlaqədar bu ölkəyə bəstəkarlarımızın 58 əsəri, 12 valı göndərilmişdir. Azərbaycanın dünya şöhrətli sənətçiləri R.Behbudov İranda, Niyazi isə Türkiyədə çıxış etmişlər.

1964-cü ildə Braziliya dirijoru Xose Sikeyro və müğənnisi Alis Ribeyro, İspaniya pianoçusu Xose Torlesilhas, Norveç dirijoru Odd Qryunner Xeqqe, Avstriya, İran, Meksika artistləri, ABŞ-ın "Pro-Muzik" kamera orkestri Bakıda konsertlərlə çıxış etmişlər. 1965-ci ildə respublikanın incəsənət ustaları Ərəb Şərqi ölkələrində və İranda konsertlər vermişlər. Rəşid Behbudovun rəhbərliyi altında Azərbaycan incəsənət ustaları 1966-cı ilin aprel-may aylarında Hindistanda keçirilən sovet mədəniyyəti festivalında iştirak etmiş və 10 min nəfərdən çox dinləyicisi olan salonda 20 konsert vermişlər.[42] Azərbaycanın artistləri həmin ildə Dəməşqdə keçirilən XIII Beynəlxalq sərginin iştirakçıları qarşısında konsert proqramları ilə çıxış etmişlər, İran, Hindistan, Türkiyə, ADR-də konsertlər vermişlər. Azərbaycan bəstəkarları ABŞ, Kanada, İngiltərə, Fransa, Yuqoslaviya, İtaliya, Türkiyə və başqa ölkələrə səfər etmişlər, Hindistan, Yuqoslaviya, Monqolustan, Çexoslovakiya, Türkiyə, Fransa, İraq bəstəkarları isə

respublikamızda səfərdə olmuşlar, Bakıda Bolqarıstan, Kuba, Çexoslovakiya və Monqolustan musiqisi həftələri keçirilmişdir.[43]

Azərbaycanın beynəlxalq əlaqələrində incəsənətin başqa sahələrinin - rəssamlıq, memarlıq və heykəltəraşlığın da rolu az olmamışdır. Bu sahələrin nümayəndələri xarici ölkələrdə yaradıcılıq ezamiyyətində olmuş, görüşlər keçirmiş, sərgilərini təşkil etmişlər. Dəməşqdə Azərbaycanın 55 rəssamının 88 rəsminin sərgisi keçirilmiş, Varşavada 47, Osloda 65 əsər nümayiş etdirilmişdi. Bakıda isə Norveç, Hindistan, Bolqarıstan, ADR rəssam və heykəltəraşlarının sərgisi keçirilmişdir (1969-cu ildə). 1970-ci ildə "Dost Hindistanla" seriyasından əsərlərinə görə görkəmli rəssam M.Abdullayev Cəvahirləl Nehru adına mükafata layiq görülmüşdü. Azərbaycan rəssamlarının əsərlərindən ibarət sərgilər dünyanın on ölkəsində təşkil edilmiş, 11 görkəmli rəssam dünyanın beş ölkəsində səfərdə olmuşdur. ADR və Bolqarıstan rəssamlarının nümayəndə heyətləri Bakıya gəlmişlər.[44]

1945-1990-cı illərdə Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin ən mühüm formalarından biri də onun mədəniyyət günlərində, ongünlüklərdə və başqa mərasimlərdə iştirakı olmuşdur. 1957-ci ilin sentyabrında Bakıda Albaniya-Sovet dostluğu aylığı keçirilmişdi. 1963-1969-cu illərdə Bolqarıstanda Azərbaycan mədəniyyəti ongünlüyü, Azərbaycanda Bolqar mədəniyyəti günləri olmuşdur. Bolqarıstanda həmin dövrdə Plovdiv, Ruse, Silistr, Razqrad və başqa şəhərlərdə təntənəli gecələr, Azərbaycanda isə Gəncə, Bakı, Sumqayıt, Nuxa (indiki Şəki), Zaqatala və Mingəçevir şəhərlərində görüşlər (1963-cü ildə), Bakıda Çexoslovakiya (1964-cü ildə), Macarıstan mədəniyyət ongünlüyü (1965-ci ildə), Kubada (1967-cı ildə) Azərbaycan mədəniyyəti ongünlüyü keçirilmişdir. Mədəniyyət, elm, incəsənət xadimləri 25-dən çox görüşdə iştirak etmişlər. 1968-cı ildə Azərbaycan mədəniyyəti günləri Hindistanda və Suriyada olmuşdur. Bakıda Kuba və Suriya mədəniyyəti günləri, 1969-cu ildə isə Polşa və Hindistanda Azərbaycan mədəniyyəti günləri keçirilmişdir. Bu ölkələrin bir sıra böyük şəhərlərində Azərbaycan musiqiçilərinin görüşləri, konsertləri təşkil edilmişdir.[45]

Azərbaycanın beynəlxalq mədəni əlaqələrinin inkişaf edib genişlənməsində, xalqın milli mədəni irsinin dünyaya yayılmasında respublikanın yazıçı və şairlərinin də fəal rolu olmuşdur. Bu istiqamətdə aparılan işlər 50-ci illərdən başlayaraq genişlənməyə başlamışdır. Bu əlaqələr müxtəlif formalarda – şəxsi və yaradıcılıq əlaqələri yaratmaq, müşavirə və konqreslərdə iştirak etmək və digər yollar ilə həyata keçirilirdi. 1958-ci ilin oktyabrında Bakıda Asiya və Afrika yazıçılarının çox yüksək səviyyədə konfransı keçirilmişdi. 1960-cı ildə macar yazıçısı Dyerd Rado, 1964-cü ildə isə Amerika yazıçısı Cestik Smit respublikada olmuşlar.[46] 1966-cı ilin oktyabrında Bakıda dünyanın 30-a yaxın ölkəsinin nümayəndəsinin iştirakı ilə Asiya və Afrika ölkələri yazıçılarının müşavirəsi

keçirilmişdi.[47] 1967-1968-ci illərdə 12 xarici ölkənin yazıçıları respublikada səfərdə olmuşlar. 1968-ci ildə M.P.Vaqifin yubileyi münasibətilə İran, Türkiyə, ADR, Bolqarıstan, Macarıstan, Rumıniya və Sudandan çoxlu şair, yazıçı və ədəbiyyat xadimi Bakıya gəlmişlər.[48]

Respublikanın beynəlxalq mədəni əlaqələri 1970-1990-cı illərdə daha geniş vüsət almışdır. O dövrdə Azərbaycan dünyanın 120 ölkəsində mövcud olan 860-dan çox təşkilatla mədəni əlaqə saxlamışdır.[49] Hər il Azərbaycan mədəniyyətinin yüzlərlə nümayəndəsi, onlarca bədii yaradıcı kollektivi, aktyor qrupu xarici ölkələrə getmiş və o qədər də xarici dövlətlərin bu və ya digər janr sahələrində çalışan mədəniyyət xadimləri Azərbaycana gəlmişlər. Respublika mədəniyyətinin beynəlxalq həyatın bu istiqamətlərindəki əlaqələri əsasən incəsənətin teatr, heykəltəraşlıq, televiziya və radio kimi sahələrini əhatə etmişdir. Mədəniyyət xadimləri nümayəndələrinin və yaradıcı kollektivlərinin mübadiləsi, şairlərin, yazıçıların əsərlərinin qarşılıqlı nailiyyətlərinin təbliğinə xidmət edən birgə tədbirlərin keçirilməsi, mədəniyyət günləri, festival və sərgilər, dram və musiqi kollektivlərinin yaradıcı əlaqələri, jurnalistlərin qarşılıqlı gediş-gəlişi, kinofilmlərin, radio vo televiziya verilişlərinin mübadiləsi formasında həyata keçirilmişdir. Həmin illərdə Azərbaycanın 2000-dən çox mədəniyyət xadimi, yaradıcı birliklərinin nümayəndəsi, 80-dən çox kollektivi, ifaçı qruplar, 9000-dən artıq musiqiçisi, xanəndə və aktyorları xarici ölkələrdə olmuşdur.[50] Ümumiyyətlə, Azərbaycan incəsənətinin nümayəndələri 1970-1990-cı illərdə 120-dən çox xarici ölkələrə yaradıcılıq səfərinə çıxmış, 160-dan çox xarici ölkənin incəsənət nümayəndələri isə Azərbaycanda yaradıcılıq səfərində olmuşdur.[51] Respublikanın incəsənət xadimləri xarici ölkələrin 800-dən çox şəhərində olmuş, 2000-dən çox konsert vermiş və 7500-ə qədər görüş keçirmişlər. 1978-1981-ci illərdə sosialist ölkələrinin 30 nəfərdən artıq nümayəndəsi Azərbaycanda olmuş və 260 konsert, o cümlədən Yuqoslaviya incəsənət ustaları 86 konsert, Bolqarıstan-35, ÇSSR 33, Macarıstan 32, Polşa 30 konsert[52] vermişlər.

1970-1990-cı illərdə Azərbaycan Respublikasının beynəlxalq mədəni əlaqələrinin formalarından biri də onun xarici ölkələrlə keçirdiyi nəşr olunmuş ədəbiyyat mübadiləsi, kitab sərgi və yarmarkalarında iştirakı olmuşdur. Həmin illərdə həyata keçirilən beynəlxalq ədəbi və mədəni əlaqələrin bu istiqamətində əməkdaşlığının coğrafiyası və əhatə dairəsi xeyli genişlənmişdir. Azərbaycan oxucuları dünyanın görkəmli şair və yazıçılarının əsərləri ilə tanış olmaq imkanları əldə etmiş və öz növbəsində Azərbaycan müəlliflərinin əsərləri isə xarici ölkə əhalisinin diqqət mərkəzinə yol açmışdır. Azərbaycan nəşriyyatlarında onlarla xarici ölkə yazıçı, şair və dramaturqunun 900-ə yaxın əsəri tərcümə edilib, çap olunmuşdur. Həmin illərdə respublikamızda çex və slovak müəlliflərinin əsərləri 27 dəfə yarım milyon nüsxə tirajla nəşr edilmişdir.[53] 1980-ci illərdə Azərbaycan

əhalisi məşhur yapon poeziyası janrı Xokku ilə ünsiyyətdə olmuşdu. "Gənclik" nəşriyyatı Yaponiyanın orta əsrlərdən tutmuş ta bizim günlərimizədək olan 52 görkəmli şair və yazıçısının birgə külliyyatını nəşr etmişdir.[54] "Yazıçı" nəşriyyatı amerikalı müəllifin kitabını, "Gənclik" nəşriyyatı "Dünya xalqlarının nağıl və əfsanələri" seriyasından ABŞ və Kanada, eləcə də Böyük Britaniya xalq nağıllarını çap etmişlər. "Gənclik" və "Yazıçı" nəşriyyatları Əfqanıstanın sifarişlərini yerinə yetirərək Nizaminin, Xaqaninin və müasir Azərbaycan ədiblərinin əsərlərini fars dilində çap edərək, həmin ölkəyə göndərmişdi.[55] Təkcə 1985-ci ildə xarici ölkələrə 1500-dən artıq Azərbaycan müəllifinin əsərləri göndərilmişdir.[56] "Europa konuvkıada" nəşriyyatı M.İbrahimbəyovun "Ondan yaxşı qardaş yox idi" kitabını Budapeştdə macar dilində çapdan buraxmışdı. Dəməşqdə S.Vəliyevin əsərləri nəşr edilmişdir.[57] Madridin "Anaya" nəşriyyat birliyi "Azərbaycan xalq nağılları"nı böyük həcmdə və gözəl illüstrasiya ilə buraxmışdır. Dəməşq nəşriyyatı şair Qasım Qasımzadənin yaradıcılığı ilə SƏR oxucularını tanış etmişdir. S.Vurğunun əsərləri Yaxın və Orta Şərq ölkələrində çap olunmuşdur. 1987-ci ildə Londonda SSRİ xalqlarının klassik ədəbiyyatından toplanan və çap olunan külliyyatına M.Ə.Sabirin, Səməd Vurğunun, R.Rzanın əsərləri də daxil edilmişdir. Suriya nəşriyyatı "Nidal ən Şfab"ın çap etdiyi "Sovet poeziyası antologiyası"nda Azərbaycan ədəbiyyatını Məmməd İsmayıl təmsil etmişdir. Həmin il Türkiyədə müasir Azərbaycan poeziyası və nəsri antologiyası adlı iki kitab çapdan çıxmışdır. Antologiyaya 34 Azərbaycan müəllifinin 41 hekayəsi daxil edilmişdir. "Qaraca oğlan və Azərbaycan", "Aşıq Ələsgər", "Azərbaycan xalıları", "Azərbaycan poeziyası antologiyası" və Azərbaycan müəlliflərinin əsərlərinə həsr edilmiş kitablar çap olunmuşdur.[58]

Azərbaycanın kitab sahəsində beynəlxalq mədəni əlaqələri kitab yarmarka və sərgiləri vasitəsilə də həyata keçirilmişdir. 1981, 1982-1983-cü illərdə respublikanın Leypsiq beynəlxalq kitab yarmarkasında, ikinci Moskva beynəlxalq kitab sərgisində, üçüncü-dördüncü Moskva Beynəlxalq sərgi-yarmarkasında, 1986-cı ildə Bakıda ADR yarmarkasında, həmin ildə Frankfurt-Maynda 38-ci Beynəlxalq kitab yarmarkasında, 1987-ci ildə Bakıda keçirilən "Sloveniya kitab çapçıları, poliqrafiya və kağız sənayesi nailiyyətləri" sərgisində, Moskva kitab-sərgi yarmarkasında və digər beynəlxalq sərgi və yarmarkalarda iştirak etmişdir.[59]

Beləliklə, 1945-1990-cı illərdə Azərbaycan Respublikasının ictimai həyatının başqa sahələrində olduğu kimi, mədəniyyət sahəsində də öz milli potensialı bazasında və çərçivəsində dünya mədəni əlaqələr sistemində özünəməxsus yeri olmuşdur. Azərbaycan mədəniyyətinin bu və ya digər janr və sahələrinin inkişafı haqqında beynəlxalq aləmdə düzgün fikir formalaşdırılması istiqamətində mühüm nəticələr əldə edilmişdir. Azərbaycan öz maddi, mənəvi, mədəni potensialına arxalanaraq, beynəlxalq aləmdə gedən iqtisadi və mədəni

əlaqələr sistemində fəal iştirak etmiş Azərbaycanın dünya miqyasında tanınması uğrunda əhəmiyyətli fəaliyyət göstərmişdir.

# III BÖLMƏ

# MÜSTƏQİL AZƏRBAYCAN RESPUBLİKASI

***(1991-2002-ci illər)***

## I FƏSİL

## SSRİ-nin SÜQUTU. AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MÜSTƏQİLLİYİNİN ELAN EDİLMƏSİ. RESPUBLİKANIN MÜSTƏQİLLİYİNƏ QARŞI XARİCİ VƏ DAXİLİ QÜVVƏLƏRİN FƏALLAŞMASI

### §1. AZƏRBAYCANIN AZADLIQ BƏYANNAMƏSİ VƏ DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA KONSTİTUSİYA AKTI

SSRİ-də davam edən inzibati-amirlik rejimi Kommunist Partiyasının rəhbər və istiqamətverici rolunu dəyişdirdi, o, sosial-iqtisadi, ictimai-mədəni, idarəçilik siyasəti problemlərini həll etmək iqtidarını itirməyə başladı. "Yenidənqurma" və digər tələsik tədbirlərlə çoxmillətli Sovet dövlətini labüd iflasdan xilas etmək mümkün deyildi.

Tarixin bu məsuliyyətli dövründə Azərbaycan Xalq Cəbhəsi artıq xalqa rəhbərlik edə bilmədi. Onun başçıları siyasi naşılıq göstərərək, hakimiyyəti bölüşdürmək barədə iqtidarla sövdələşməyə başladılar və xalq içərisində nüfuzlarını itirdilər. Bir qrup ziyalının müraciətindən "təsirlənən" iqtidar və AXC liderləri mayın 17-də görüşüb Məşvərət Şurası yaratdılar.[1]

Azərbaycan SSR Ali Sovetinin sessiyası mayın 18-də Məşvərət Şurasında əvvəlcədən əldə olunmuş razılığa əsasən, müxalifətin maneəsinə rast gəlmədən prezident vəzifəsi təsis etdi və Ayaz Mütəllibovu respublikanın prezidenti seçdi.[2]

İqtidar bir sıra güzəştlərə getdi. Demokratlara qarşıdakı seçkilərdə deputat yerləri vəd olundu. 21 may tarixli prezident Fərmanı ilə 28 May - 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gün "Azərbaycan dövlət quruluşunun dirçəliş günü" elan edildi.[3] Həmin gün demokratik qüvvələr Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağını keçmiş Azərbaycan parlamenti binası üzərində yenidən qaldırdılar. Fövqəladə vəziyyət olmasına baxmayaraq, Bakıda, Gəncədə və respublikanın başqa şəhərlərində 28 May münasibətilə mitinqlər, nümayişlər keçirildi.[4]

Lakin bütün bu tədbirlərə baxmayaraq, Azərbaycan xalqı Xalq Cəbhəsi liderlərinin qeyri-ardıcıl movqeyini görüb bu təşkilatdan uzaqlaşmağa başladı. Heydər Əliyevin qeyd etdiyi kimi, "AXC qısa bir müddətdə özünü Azərbaycan ziyalılarının əsas kütləsindən təcrid etdi, düzgün elmi təhlil, siyasi proqnozlar əsasında ümummilli platforma yaratmaq əvəzinə populist çıxışlara üstünlük verdi... Xalq tez başa düşdü ki, onun ən ülvi, ən müqəddəs, ən pak hissləri siyasi alverə, siyasi rəqabətə, kiminsə ucuz siyasi ambisiyalarının gerçəkləşməsinə xidmət edir".[5] Qısa bir müddotdə xalq cəbhəsi üzvlərinin sayı 3 dəfəyə qədər azaldı.[6]

Xalq bütün ümidini Heydər Əliyevə bağlamışdı. Qanlı Yanvardan sonra Azərbaycan xalqının öz qüdrətli rəhbəri ilə birləşəcəyindən qorxuya düşən imperiya və respublika başçıları Heydər Əliyevə qarşı repressiya planları hazırladılar və həyata keçirdilər, onun Azərbaycana qayıtmasına mane olmağa çalışdılar. Ayaz Mütəllibov Moskvaya - Heydər Əliyevə xəbər göndərib bildirmişdi ki, onun qayıdışı ilə "Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər".[7] Bakı hava limanında Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri, görkəmli naşir Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi.[8]

Ən yüksək dairələrdən edilən xəbərdarlıqlara baxmayaraq, tarixin bu məsuliyyətli və çətin dövründə xalqı ilə bir olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də təyyarə ilə Bakıya qayıtdı. Xalq bu gəlişi böyük ümid və sevinclə qarşıladı. Şəhəri gəzərkən Heydər Əliyevin ətrafına yüzlərlə adam toplaşırdı. Lakin iqtidar o qədər təşvişə düşmüşdü ki, bir qrup əlaltısının, habelə ondan hakimiyyət bölgüsü gözləyən bəzi sol müxalif qüvvələrin iştirakı ilə təyyarə meydanında piket təşkil etdirmişdi.[10] İki gündən sonra - iyulun 22-də Heydər Əliyev Naxçıvana getdi.[11] Həmin gün o, Naxçıvanın Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqə dəvət olundu və orada çıxış etdi.[12] Xalqın respublikanın müxtəlif bölgələrindən gəlmiş nümayəndələri ilə görüşlər keçirdi, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırdı. O, Azərbaycan xalq deputatlığına namizəd irəli sürüldüyü Nehrəm seçki dairəsi seçiciləri ilə görüşündə demişdi: "Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır... Bütün bu vəzifələri həyata

keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır... Rəhbərliklə xalqın yekdilliyi tam təmin olunmalıdır".[13]

Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatları sovetlərinə seçkilər kampaniyası başlaması ilə əlaqədar iyulun 28-də respublika demokratik qüvvələrinin forumunda 20-dən artıq ictimai təşkilatın iştirak etdiyi "Demokratik Blok" (Demblok) yaradıldı.[14] Seçki komissiyalarına cəbhənin və digər ictimai təşkilatların nümayəndələri də salındı. Seçkilər alternativ əsasda keçirildi. 360 Azərbaycan SSR xalq deputatı mandatını almağa 1200 nəfər namizəd irəli sürülmüşdü. Seçkilər sentyabrın 30-da keçirildi. Bəzi dairələrdə oktyabrın 14-də və dekabrın 16-da təkrar seçkilər oldu. Kommunistlərin qüvvələri səfərbər etməsi, habelə fövqəladə vəziyyət, repressiyalar seçkilərin nəticəsinə təsir göstərdi. Azad və ədalətli rəqabət təşkil etmək mümkün olmadı. Qeyri-demokratik seçki qanununun özünü də rəhbər dairələr biabırçı şəkildə pozurdular. Bu yolla onlar seçkilərin nəticələrini saxtalaşdırıb parlamentdə yerlərin çoxunu kommunistlərə verdilər.[15]

Demblokun cəmi 30 nümayəndəsi Azərbaycan SSR xalq deputatı seçildi.[16]

İqtidarın və AXC liderlərinin başı hakimiyyət, vəzifə uğrunda mübarizəyə qarışdığı bir vaxtda Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının imperiyapərəst qüvvələrə qarşı mübarizəsinə rəhbərlik edirdi. O, Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçildi.[17]

Süqutu labüd olan SSRİ-ni xilas etmək üçün Moskva yeni cəhd kimi "SSRİ-nin taleyi" məsələsini ortaya atmışdı. Yeni İttifaq müqaviləsi hazırlanmış və mətbuatda dərc edilmişdi. Azərbaycan rəhbərliyi bu layihənin hazırlanmasının iştirakçısı olmuş və SSRİ Ali Sovetinin sessiyasında onu müdafiə etmişdi.[18] Heydər Əliyev respublika başçılarının bu mövqeyini Naxçıvan MR Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında kəskin tənqid etdi, göstərdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir. "Əgər bizim respublikamız həqiqətən milli dirçəliş yoluna çıxıbsa və bu yolla getmək istəyirsə, onda hansı ittifaq birliyindən söhbət gedə bilər? Burada təyin etmək lazımdır, bizim respublikamız hansı yolla gedəcəkdir?"[19] Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 7 mart tarixli sessiyasında Heydər Əliyev SSRİ-nin saxlanmasına münasibət bildirilməsi üçün təşkili nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. "Mən yeni İttifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir".[20] Heydər Əliyev respublika rəhbərliyinin əməldə müstəqillik əleyhinə olduğunu, bunu iqtisadi çətinliklər, uydurma "vətəndaş müharibəsi təhlükəsi" kimi amillərlə

əsaslandırmağa çalışdığını, Bakıda fövqəladə vəziyyəti ləğv etmək istəmədiyini və bütün bunların hakimiyyəti əldə saxlamaq niyyətindən irəli gəldiyini göstərdi.[21]

SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün kommunistlər birləşib referendumda Azərbaycanın iştirakı haqqında qərar qəbul etdilər.[22] Ermənistanın boykot etdiyi referendumda Azərbaycanın iştirakının Moskvanın münasibətini ikincinin xeyrinə dəyişəcəyi xülyası da buna az təsir göstərmədi.

Respublikanı nümayişlər və tətillər dalğası bürüdü.[23] Xalqın "İttifaq Müqaviləsi"nə, SSRİ-yə münasibət üzrə referenduma qarşı çıxması müstəqillik hərəkatının parlaq təzahürü idi. Bu məsələ müzakirə olunduğu dövrdə təkcə Naxçıvan MR-də etiraz tətilləri nəticəsində müəssisələrdə 671,6 min adam-gün itirilmişdi.[24]

Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan MR Ali Məclisi 1991-ci il martın 14-də referendumda iştirak etməmək haqqında qərar qəbul etdi.[25] İqtidarın bunu "separatçılıq" kimi qiymətləndirməsi, Muxtar Respublikaya təzyiqlər göstərməsi əhalini yolundan döndərə bilmədi. Azərbaycanın demokratik qüvvələri referendumu boykot etdilər.[26]

On gün (qanunla iki ay olmalı idi) tələm-tələsik "hazırlıq"dan sonra martın 17-də keçirilmiş "referendum"un nəticələri saxtalaşdırıldı, guya səsvermədə iştirak edənlərin 93,3 faizi[27] SSRİ-nin saxlanılması lehinə oldu.

Saxta referendumda iştirak etməmiş Naxçıvana qarşı hücum başlandı. Aprelin 5-də Muxtar Respublika Ali Məclisinin sədri Afiyəddin Cəlilov vəzifədən azad edildi. Moskva ermənilərin əli ilə Naxçıvan əhalisini cəzalandırmağa çalışdı. Aprelin 10-da Şərur, mayın 20-də Sədərək yenidən güclü atəşə tutuldu.[28]

Heydər Əliyev rcspublikada xalq kütlələri tərəfindən başlanmış milli dövlət quruluşunun dirçəlişi hərəkatını dəstəkləməyə çağırırdı. Onun rəhbərliyi altında milli dövlətçilik ənənələrinin bərpasına başlanmışdı. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR parlamentinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyası Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Dövlət Bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul etdi. Muxtar Respublika Ali qanunverici orqanı "Ali Məclis" adlandırıldı.[29] Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi 1990-cı il noyabrın 21-də 20 Yanvar faciəsinə siyasi qiymət verdi, bu qanlı hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika başçıları Ə.Vəzirovun, A.Mütəllibovun və onların əlaltılarının günahkar olduqlarını qeyd etdi, xalqa kimlərin ona rəhbərlik etmək istədiyini göstərdi.[30]

Naxçıvan MR Ali Məclisində DQMV-də, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyət müzakirə olundu, imperiya və respublika rəhbərliyinin bu sahədə yol verdiyi bağışlanılmaz səhvlər açılıb

göstərildi, rəhbərlikdən bu bölgələrdə Azərbaycanın hüquqlarının bərpa olunmasına istiqamətləndirilmiş təxirəsalınmaz tədbirlər görülməsi tələb edildi.[31] Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 5 fevral sessiyasındakı çıxışında respublikada yaranmış vəziyyətin səbəblərini təhlil etdi və göstərdi ki, "biz torpaqlarımızı özümüzə qaytarmalıyıq, orada hakimiyyətimizi bərpa etməliyik, biz respublikamızın suverenliyini təmin etməliyik".[32] Heydər Əliyevin bu çıxışı qüvvələri səfərbər edib, müdafiədən hücuma keçməyə çağırış idi.

Heydər Əliyevin irəli sürdüyü təkliflərin xalqda böyük hərəkat doğuracağından qorxuya düşən, onları qaragüruhçu qalmaqalda itirib-batırmağa çalışan iqtidar əlaltıları sessiyada çığır-bağır saldılar. Bu cəhdləri millət vəkili, xalq şairi Bəxtiyar Vahabzadə sessiyadakı çıxışında ifşa etdi: "Biz bu gün böyük həyat təcrübəsinə və siyasi diplomatik biliyə malik olan, bütün ömrü boyu siyasət qazanında qaynayıb-bərkiyən bu vətən oğlunun ağlından, təcrübəsindən istifadə etmək əvəzinə, vətənin taleyinə tüpürüb şəxsi ambisiyamızı qabağa çəkdik".[33] Qaragüruhçuların əməllərini insanlar etirazla qarşıladılar.

Naxçıvan MR-də həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana örnək oldu. Demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Cümhuriyyətinin bayrağı Dövlət Bayrağı kimi təsdiq olundu.[34]

Azərbaycan yazıçıları Heydər Əliyevi 1991-ci ilin martında öz qurultaylarına dəvət etdilər. Ona böyük hörmət və sayğı göstərdilər. Bu, xalqın, ziyalıların öz böyük oğluna həqiqi ehtiramının daha bir təzahürü idi.[35]

Kommunist rejimi respublikada son günlərini yaşayırdı. 1990-cı ilin əvvəllərindən SSRİ Konstitusiyasının ölkədə Kommunist Partiyasının rəhbər və istiqamətverici rolunu qanuniləşdirən 6-cı maddəsini ləğv etmək çağırışı altında demokratik hərəkatın genişləndiyi bir vaxtda partiya daxilində müxtəlif cərəyanlar meydana gəlmişdi. "Sov.İKP-də demokratik platforma" kommunizm qurmaq kimi utopik son məqsədi inkar edir, "Yeniləşən partiya" şüarı irəli sürür, idarəçilikdə mövcud inzibati-amirliyin tədricən demokratik metodlarla əvəz olunmasını vacib bilirdi. Respublika kommunistləri arasında da SSRİ-də qurulmuş cəmiyyətin sosializm cəmiyyəti olmadığını bildirən, marksizm mənbələrindən öyrənməyə qayıtmağı təkid edən, Sov.İKP-də "marksist platforması" mövqeyində dayananlar vardı. Hətta onların bir qrupu hələ 1989-cu ilin yayında təşkilatlanmış, "Hümmət" adlı bülleten buraxaraq öz məqsədlərini elan etmişdi. Bu qrup idarəçilikdə yol verdikləri ciddi qüsurlara görə kommunist rəhbərləri tənqid edir, bütün kommunistləri "xalqın xoşbəxt gələcəyi uğrunda mübarizə aparmağa" çağırırdı.[36]

Sov.İKP-nin 1990-cı ilin iyulunda "Humanist, demokratik sosializm" şüarı altında keçən XXVIII qurultayı güclü müqavimətə baxmayaraq, "demokratik

platforma"nı müdafiə etdi, qurultayın yekun sənədlərinə partiyanın sosial-demokratikləşdirilməsinə dair ideyalar salındı. Mərkəzi Komitənin Siyasi Bürosu respublikaların partiya rəhbərlərindən-birinci katiblərdən formalaşdırıldı.[37] Bu orqan tədricən ali hakimiyyət funksiyasından məhrum edildi. Lakin əks qüvvələr də sürətlə qruplaşmağa başladılar.

Aprelin 23-də SSRİ prezidenti ilə referendumda iştirak etmiş 9 respublikanın yüksək vəzifəli şəxsi Moskva yaxınlığındakı Novo-Oqaryova prezident iqamətgahında tezliklə yeni ittifaq müqaviləsi -"Suveren Dövlətlər İttifaqı" müqaviləsinin bağlanacağı haqqında niyyət protokolu imzaladılar.[38] Müqavilə bağlandıqdan sonra altı aydan gec olmayaraq ittifaq orqanlarına yeni seçkilər keçirilməsi və bu yolla rəqiblərin siyasi hakimiyyətdən uzaqlaşdırılması nəzərdə tutulurdu.

Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 26 iyun tarixli sessiyası, Demblokun etirazına baxmayaraq, bu layihəni ümumən bəyəndi və başda prezident olmaqla Azərbaycan adından onu imzalayacaq nümayəndə heyətini təsdiq etdi.[39]

İmperiya rəhbərliyi may-iyun aylarında Goranboyda erməni quldurlarına köməyi azaltmaqla həm Ümumittifaq referendumunda iştirak etməmiş Ermənistanı "cəzalandırdı", həm də Azərbaycanda Mütəllibov rejimini bir qədər populyarlaşdıra bildi. Bundan istifadə edən prezident mövqelərini möhkəmləndirmək, parlamentdən asılılığını azaltmaq üçün ümumxalq prezident seçkilərinə getməyi qərara aldı. Seçkilər sentyabrın 8-nə təyin olundu.[40] İqtidar xalq arasında böyük nüfuza malik olan Heydər Əliyevin prezident seçilə biləcəyindən təşvişə düşüb qanuna yaş senzi və son beş ildə Azərbaycanda yaşamaq haqqında tələbi daxil etdi. Xalq bu məhdudiyyətlərin götürülməsini tələb edir, mitinqlər keçirirdi.[41]

Heydər Əliyev imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə, Kommunist Partiyasına və Sovet hökumətinə açıq etirazını bildirdi, onların riyakar siyasətini ifşa etdi. O, 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarından çıxdı. H.Əliyev SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına bəyanatında partiyanı 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzə siyasi rəhbərlikdə və bu cinayətin üstünü açmamaqda, gunahkarları üzə çıxarmamaqda, mərkəzin ikiüzlü siyasəti, erməni separatçılarına havadarlığı sayəsində Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətdə, vilayətin əslində tamamilə Azərbaycan dövlətinin idarəçiliyindən çıxarılmasında, demokratikləşmə, siyasi azadlıqlar və plüralizm bəyan edilən bir dövrdə Azərbaycanda demokratik hərəkat və cəmiyyətin demokratikləşdirilməsini əngəlləməkdə təqsirləndirərək qeyd etdi ki: "Yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesabsız bəyanatlar yenə xalqı aldatmaqdır. Xalqa açıq demək lazımdır ki, bizim ölkəmizdə kommunizm eksperimenti,

sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanılan respublikaların ittifaqı süquta uğramaqdadır".[42]

Bu vaxt AXC-də parçalanma daha da dərinləşmişdi, idarə heyətində fikir birliyi yox idi. İki platforma - birinci, müstəqilliyə doğru insan hüquqlarının aliliyinə zidd olmayan yollarla getməyi vacib hesab edən "liberal-demokratlar", ikinci isə müstəqilliyə hər bir mümkün, hətta lazım gələrsə, insan hüquqlarına zidd olan yollarla getməyi lazım bilən "millətçi-vətənpərvərlər" platforması formalaşmışdı.[43] Cəbhə daxilində partiyalaşma prosesi başlamışdı. Buna görə də AXC-nin 1991-ci il iyulun 13-16-da keçirilən I qurultayında idarə heyəti buraxıldı.[44]

Hələ 1990-cı ilin əvvəllərində xalq cəbhəsi üzvləri müxtəlif siyasi partiyaların təşəbbüs qruplarını yaratmışdılar. Xalq Azadlıq Partiyası, Dirçəliş Partiyası, Azərbaycan Sosial-Demokrat Partiyası, Azərbaycan Milli Demokrat (Yeni Müsavat) Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası və s. siyasi təşkilatlar meydana gəlmişdi. Lakin onların sosial bazası geniş deyildi.[45]

İmperiya hakimiyyətinin yuxarı eşelonlarında mühafizəkar qüvvələrin müqaviməti getdikcə güclənirdi. Onların səmərəli fəaliyyəti üçün inflyasiyanın sürətlə artması, əhalinin vəziyyətinin gündən-günə pisləşməsi münasib şərait yaradırdı. 1991-ci ilin iyununda SSRİ Ali Sovetinin qapalı iclasında mühafizəkarların liderləri Nazirlər Kabinetinə fövqəladə səlahiyyətlər verilməsini tələb etdilər. Bu, baş tutmadı. İrticanın növbəti hücumu 18-19 avqust dövlət çevrilişi cəhdində təzahür etdi. Onun başçıları Forosda (Krımda) istirahət edən M.Qorbaçovu "neytrallaşdırıb", Dövlət Fövqəladə Vəziyyət Komitəsi (QKÇP) təşkil etdilər və "demokratikləşdirmə"nin, "yenidənqurma"nın çıxılmaz vəziyyətə saldığı imperiyanı iflasdan qurtarmaq üçün bütün hakimiyyəti öz əllərinə aldılar. Kommunist Partiyası bu çevrilişi müdafiə etdi.[46]

Qiyamçılar səhv etmişdilər, onlar iri şəhərlərdə demokratik qüvvələrin güclü olduğunu nəzərə almamışdılar. Avqustun 19-da Rusiya prezidenti Boris Yeltsinin başçılığı ilə bütün demokratik qüvvələr birləşib qiyama qarşı ayağa qalxdılar.[47]

Azərbaycanda da demokratik qüvvələr "hərbi xuntanın" - Dövlət Fövqəladə Vəziyyət Komitəsinin qanunazidd fəaliyyətinə qarşı çıxdılar. Lakin respublikanın prezidenti A.Mütəllibov avqustun 21-də Azərbaycan televiziyası ilə bəyanat verib bildirmişdi ki, respublikanın qarşısında duran mürəkkəb məsələlərin həllində ümidini bu komitəyə bağlayır.[48] Azərbaycan KP MK-nın ikinci katibi V.Polyaniçko da çevrilişi razılıqla qarşıladığını elan etmişdi. Sov. İKP-dən, "QKÇP"-dən gələn bütün göstərişlər yerinə yetirilirdi.[49] Demokratik qüvvələrin birgə fəaliyyəti nəticəsində SSRİ-də dövlət çevrilişinin qarşısı alındı. Azərbaycanda da irticaya tərəfdar olan qüvvələrə qarşı mübarizə, mitinqlər

başlandı. Avqustun 22-də fövqəladə vəziyyətin hökm sürdüyü Bakının Nizami meydanında izdihamlı mitinq oldu. Burada respublika rəhbərliyinin dövlət çevrilişinə müsbət münasibəti pislənildi.[50] Mitinq zorla dağıdıldı və onun təşkilatçıları həbs edildi. Avqustun 23-də AXC qərargahı qarşısındakı mitinqdə dinc əhaliyə qarşı güc tətbiq edildi, adamlar xəsarət aldılar. Lakin xalqı qorxutmaq mümkün deyildi.[51] Avqustun 25-27-də Bakının Azadlıq meydanında bir milyona yaxın adamın iştirak etdiyi ümumşəhər mitinqləri keçirildi.

Naxçıvanda da mitinqlər səngimək bilmirdi. Üç gün davam edən, 60 mindən çox adamın iştirak etdiyi izdihamlı mitinq və nümayişlər nəticəsində xalq avqustun 26-da Muxtar Respublika Ali Məclisinin fövqəladə sessiyasının açılmasına nail oldu. Sessiya Naxçıvan MR-da kommunistlərin hakimiyyətini ləğv etdi. Muxtar Respublika ərazisində AKP və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu.[52] Mitinqlərdə respublikada prezident seçkilərinin dayandırılması, parlamentin buraxılması, yeni parlament seçkiləri keçirilməsi, Kommunist Partiyası hakimiyyətinin, fövqəladə vəziyyətin ləğv edilməsi, DQMV-də Azərbaycanın suveren hüquqlarının təmin olunması üçün qəti tədbirlər görülməsi tələb edilirdi.[53]

Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da saat 13.30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında bəyanat - "Azadlıq Bəyannaməsi" qəbul etdi.[54]

"Azadlıq Bəyannaməsi"ndə qeyd olunurdu: "Azərbaycan Respublikasının Ali Soveti xalqın ali dövlət mənafelərini rəhbər tutaraq və onun iradəsini ifadə edərək;

1918-ci ildən 1920-ci ilədək Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış müstəqil dövlət kimi mövcud olduğunu qeyd edərək;

Azərbaycan Respublikası Konstitusiyasına, Azərbaycan Respublikasının suverenliyi haqqında və Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında Konstitusiya Qanunlarına əsaslanaraq;

Azərbaycan xalqının müqəddəratı və azad inkişafının təmin olunması üçün öz məsuliyyətini dərk edərək;

Milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan Azərbaycan Respublikasının bütün vətəndaşlarının beynəlxalq aktlarda nəzərdə tutulmuş bütün insan hüquqlarına və əsas azadlıqlarına təminat verərək;

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü üçün təhlükəni aradan qaldırmağa çalışaraq;

Azərbaycan Respublikasının təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək kimi müqəddəs borcu rəhbər tutaraq;

Respublikanın bütün vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyini dərk edərək;

Azərbaycan Respublikasının və onun xalqının mənafeyinə zidd olmayan beynəlxalq paktları, konvensiyaları və başqa sənədləri qəbul edərək;

SSR İttifaqına daxil olan bütün respublikalarla dostluq münasibətlərini bundan sonra da saxlamağı arzu edərək;

Beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmağa hazır olduğunu bildirərək;

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsipləri müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir".[55]

Sessiyada Heydər Əliyevin az əvvəl keçirilmiş referendum nəticələrinin ləğv edilməsi, "Azadlıq Bəyannaməsi"nin legitimliyini təmin etmək üçün yeni referendum keçirilməsi haqqında tələbi qulaqardına vuruldu.[56] Heydər Əliyev sessiyadakı çıxışında dedi: "Biz artıq sovet imperiyasının, Kommunist Partiyasının dağılmasının şahidiyik... Bizim respublikamızın, Azərbaycan xalqının vəziyyəti daha çətin, daha ağırdır. Bunun əsas səbəbi respublikada hökm sürən Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı kobud, bağışlanılmaz səhvlərdir". O bildirdi ki, Azərbaycan Kommunist Partiyası dərhal hakimiyyətdən getməlidir.[57] Respublika başçıları isə hələ də gözləmə mövqeyi tuturdular.

1991-ci il sentyabrın 5-də SSRİ xalq deputatları V qurultayı keçid dövrünün hakimiyyəti haqqında Konstitusiya Qanunu qəbul etdi və öz səlahiyyətlərini yüksək vəzifəli şəxslərdən təşkil edilmiş SSRİ Dövlət Şurasına və tezliklə formalaşacağı nəzərdə tutulan SSRİ Ali Sovetinə verdi.[58] Lakin respublikalarda, o cümlədən Azərbaycanda bu qərarın həyata keçirilməsinə qarşı ciddi mübarizə başlandı. İqtidarın imperiya tərəfdarları ilə əməkdaşlığı ona qarşı olan ümumxalq narazılığını daha da artırdı.

Naxçıvan MR Ali Məclisi 1991-ci il sentyabrın 3-də dəfələrlə namizədliyini geri götürməsinə baxmayaraq, Heydər Əliyevi xalqın təkidli tələbi ilə Ali Məclisin sədri seçdi.[59] Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkiləri dayandırıldı.[60] Azərbaycan iqtidarı Naxçıvana ciddi təzyiqlər göstərdi. Bir qrup zabit, parlament deputatlarından ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanlarını qərarı dəyişməyə məcbur etsin. Lakin Ali Məclisin sədri Heydər Əliyev yerli televiziya ilə bəyanat verib xəbərdar etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr buranı tərk etməlidirlər,

əks təqdirdə bütün əhali ayağa qalxacaqdır.[62] İqtidar geri çəkilməyə məcbur oldu. Naxçıvan MR Ali Məclisi 1 oktyabr tarixli qərarı ilə keçid dövrü İttifaq orqanlarında Azərbaycan Respublikasının iştirakını qeyri-mümkün saydı, respublika rəhbərliyinin müstəqillik məsələsində qeyri-ardıcıl mövqeyini ittiham etdi.[63] Respublikada dövlət müstəqilliyi uğrunda mübarizə daha da genişləndi.

Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri boykot etdilər. Prezident seçkiləri Naxçıvan MR ərazisində keçirilmədi. 8 sentyabr seçkilərinin nəticələrinə görə A.Mütəllibov yenidən prezident elan olundu.[64]

Xalqın rəğbətini qazanmaq üçün birinci katib - prczident Ayaz Mütəllibovun təşəbbüsü ilə sentyabrın 14-də tam iflasa uğramış Azərbaycan Kommunist Partiyası XXXIII fövqəladə qurultayını çağırıb özünü buraxdı.[65]

İqtidar artıq dövləti idarə edə bilmədiyini, AXC cəmiyyətdə nüfuzunun durmadan aşağı düşdüyünü hiss edirdi. Onların hər ikisini xalq arasında Heydər Əliyevin böyük siyasətə qayıtmasını tələb edənlərin sayının artması ciddi narahat edirdi. Bu, iqtidarı xalq cəbhəsi liderləri ilə yaxınlaşdırırdı. AXC səsi, az olduğundan, sözünü keçirə bilmədiyi parlamenti buraxmağı, paritet əsasında müvəqqəti Milli Şura yaratmağı, rəhbərliyini ələ keçirəcəyinə əmin olduğu ordunun yaradılmasını, iqtidar isə belə güzəştlər əvəzində sabitliyə təminat, əlavə səlahiyyətlər tələb edirdi.

1991-ci il oktyabrın 3-də prezident və xalq cəbhəsi liderlərinin görüşündə Milli Şura yaradılması haqqında razılıq əldə olundu.[66] Heydər Əliyev hakimiyyətpərəstlərin xalqa, demokratiyaya qarşı yönəlmiş bu sövdələşməsinin əleyhinə çıxdı, AXC-nin ona Milli Şuraya daxil olmaq təklifini rədd etdi.[67]

Ali Sovetin 8 oktyabr tarixli sessiyasında "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Qanun qəbul edilməklə, Azərbaycan prezidentinə əlavə səlahiyyətlər verildi. Əvvəldən sövdələşməyə əsasən müxalifət bununla razılaşdı. Beləliklə, əslində paralel qanunverici orqan yarandı - prezident Konstitusiyada dəyişikliklər və əlavələr etmək səlahiyyəti qazandı.[68]

Prezident yerlərdə tərəfdarları vasitəsilə möhkəmlənmək üçün dövlət, hakimiyyət, idarəetmə quruluşunu və fəaliyyətini təkmilləşdirmək adı ilə oktyabrın 18-də rayonlarda, şəhərlərdə, şəhər rayonlarında icra hakimiyyəti başçıları vəzifəsini təsis etdi və bu vəzifələrə özünə dayaq hesab etdiyi adamları qoydu. Prezident idarəsi yaradıldı. Dövlət katibi və dövlət müşavirləri vəzifələri təsis edildi. İlk dövlət katibi Tofiq İsmayılov təyin edildi.[69] Lakin nə bu tədbirlər, nə də əhalinin sosial vəziyyətini yaxşılaşdırmağa yönəldilən, dərin inflyasiya şəraitində real təsirə malik olmayan bəzi sosıal güzəştlər A.Mütəllibovun mövqeyini möhkəmləndirə bilmədi.

İmperiyanın güc toplayıb təşəbbüsü ələ alacağını gözləyən respublika rəhbərliyi Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Qanunun qəbul olunmasını xeyli yubatdı.[70]

Nəhayət, 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" yekdilliklə qəbul edildi.[71]

Konstitusiya Aktında qeyd olunurdu ki, Azərbaycan dövləti müstəqil, unitar və dünyəvi dövlətdir. SSRİ-nin Azərbaycan ərazisindəki bütün daşınar və daşınmaz mülkiyyəti Azərbaycan Respublikasının mülkiyyəti hesab olunur. Siyasi, iqtisadi, mədəni həyatını öz tarixi və milli ənənələrinə, ümumbəşəri dəyərlərə uyğun inkişaf etdirmək Azərbaycan xalqının ayrılmaz, inkaredilməz və bölünməz hüququdur. Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə, onun qanunlarına tabe olan bütün Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir. Siyasi hakimiyyət xalqa məxsusdur, bu suveren hakimiyyət parlament, ali icra orqanı və məhkəmələr, ümumi, birbaşa, gizli, bərabər səsvermə yolu ilə seçilmiş nümayəndələr vasitəsilə həyata keçirilir. Respublikanın ərazisi və sərhədləri toxunulmazdır. Təbii ehtiyatlar Azərbaycan Respublikasına məxsusdur. İqtisadi fəaliyyət bazar münasibətləri və azad sahibkarlığa əsaslanır. Qanunla müəyyənləşdirilmiş hallardan başqa, məcburi əmək qadağandır. Zəhmətkeşlərin qanunla tənzimlənən tətil hüququ vardır. Konstitusiya Aktında vətəndaşların seçib-seçilmək, siyasi partiya və birliklər yaratmaq hüququ, respublikanı müdafiə etmək, qanunlara danışıqsız əməl etmək vəzifələri və s. təsbit olunurdu.[72]

Lakin Azərbaycan iqtidarı hələ də imperiyanın iflasdan xilas olacağına və öz hakimiyyətini qoruyub saxlaya biləcəyinə ümidini itirmirdi. Respublikanın dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktının referendumla təsdiq edilməsi uzadılırdı.[73]

1991-ci il oktyabrın 19-da mühafizəkarların cidd-cəhdlərinə baxmayaraq, müxalifətin təklifi ilə Azərbaycan Respublikası Ali Sovetinin XII çağırış II sessiyası M.Qorbaçovun yeni ittifaq üçün iqtisadi baza yaratmaq məqsədilə irəli sürdüyü iqtisadi birlik haqqında müqavilə bağlamaq təşəbbüsünə Azərbaycanın qoşulmasına etiraz etdi. Azərbaycan başqa respublikalarla birtərəfli iqtisadi müqavilələr bağlanmasına üstünlük verdi.[74]

1991-ci il noyabrın 14-də Moskva yaxınlığında Novo-Oqaryovada yeddi respublika - Rusiya, Belarus, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistan rəhbərləri yeni dövlətlərarası birlik - "Suveren Dövlətlər İttifaqı"nı yaratmaq haqqında niyyətlərini bildirdilər. Respublikalarda, o cümlədən Azərbaycanda demokratik qüvvələr buna qarşı qəti mübarizəyə qalxdılar. Hazırlanmış müqaviləyə M.Qorbaçovdan başqa heç kim imza atmadı.[75]

"Milli Şura haqqında" oktyabrın 30-da qəbul olunmuş Konstitusiya Qanunu parlamentin bir orqanı kimi nəzərdə tutulan bu şuraya elə bir real səlahiyyət vermədi. Bu qanuna görə Milli Şura 72 deputatdan təşkil olunmalı idi. Bu, cəmi 30-a qədər səsi olan müxalifətə parlamentdə yenə də üstünlük əldə etmək imkanı vermirdi.[76]

Noyabrın 20-də Yuxarı Qarabağda Xocavənd kəndinin düşmən tərəfindən ələ keçirilib vandalizmə məruz qalması ilə əlaqədar vəziyyətlə yerində tanış olan respublikanın bir neçə yüksək vəzifəli şəxsini, o cümlədən Dövlət katibini, daxili işlər nazirini, Baş prokuroru, habelə SSRİ Müdafiə Nazirliyi nümayəndələrini, Rusiya və Qazaxıstan müşahidəçilərini Ağdama gətirən vertolyotun vurulub salınması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi.[77]

Noyabrın 26-da Ali Sovet "Milli Şura haqqında" Konstitusiya Qanununa yenidən baxmağa məcbur edildi. Bu şuranın səlahiyyətlərini məhdudlaşdıran maddələr dəyişdirildi. Paritet əsasında 25 nəfər Demblok nümayəndəsindən və 25 nəfər başqa deputatdan ibarət Milli Şura yaradıldı.[78] Ali Sovetin digər deputatlarının, habelə onların seçicilərinin hüquqları tapdandı.

1991-ci il dekabrın 8-də Brest şəhəri yaxınlığındakı "Viskuli" iqamətgahında Rusiya Federasiyası, Ukrayna və Belarus respublikaları rəhbərləri Müstəqil Dövlətlər Birliyi (MDB) yaradılması haqqında müqavilə bağladılar. "Belovejsk sazişi" adlı müqavilədə SSRİ-nin hüquqi subyekt kimi mövcudiyyətinə son qoyulduğu elan olundu. Brest "üçlüyü" keçmiş SSRİ-yə daxil olan respublikaları da bu birliyə qoşulmağa dəvət etdi.[79]

Orta Asiya respublikaları və Qazaxıstan rəhbərləri Türkmənistanın Aşqabad şəhərində görüşüb MDB-yə daxil olmaq niyyətlərini bildirdilər. Dekabrın 21-də Qazaxıstanın Almatı şəhərində Brest "üçlüyü", Aşqabad "beşliyi", Ermənistan, Moldova və Azərbaycan rəhbərlərinin görüşü oldu. Burada SSRİ-nin mövcudluğunun dayandırılması və bununla əlaqədar problemlərin nizama salınması haqqında Bəyannamə qəbul edildi.[80] Almatı görüşündə Azərbaycan prezidenti MDB ilə münasibətləri müəyyən edən müqavilələr imzaladı. Lakin Azərbaycan parlamenti 1992-ci il oktyabrın 7-də onları təsdiq etmədi.

Azərbaycan Respublikasında dekabrın 29-da ümumxalq səsverməsi keçirildi. Referendum bülleteninə bir sual yazılmışdı: "Siz Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?" Səsvermə hüququ olanların 95 faizdən çoxu referendumda iştirak etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.[82]

1992-ci il mayın 27-də Milli Məclis Azərbaycan Respublikasının Dövlət Himnini (musiqisi Üzeyir Hacıbəyovun, sözləri Əhməd Cavadındır), 1993-cü il

fevralın 23-də isə üçrəngli dairəvi qalxan üzərində, içində alov olan səkkizguşəli ulduz təsvirli Dövlət Gerbini təsdiq etdi.[83]

SSRİ-nin dağılması, imperiyapərəst qüvvələrin onun bərpa olunmasına göstərdiyi cəhdlərə qarşı xalqların mübarizəsi sayəsində sovet respublikaları dövlət müstəqilliyi əldə etdilər. Tarix XX əsrdə Azərbaycan xalqına dövlət müstəqilliyini elan etmək imkanı verdi. Azərbaycan Respublikasının dövlət müstəqilliyi elan edildi. Lakin xalq müstəqil dövlətçiliyini qurmaq, onu inkişaf etdirmək, möhkəmləndirmək və müdafiə etmək yolunda ağır məşəqqətlərlə üzləşdi.

## §2. MÜSTƏQİL DÖVLƏT QURUCULUĞUNA MANEƏLƏR

Azərbaycan dövlət müstəqilliyini olduqca mürəkkəb beynəlxalq şəraitdə əldə etmişdi. SSRİ-nin süqutu ilə "soyuq müharibə" sona çatmış, bipolyar beynəlxalq münasibətlər sistemi aradan qalxmış, qloballaşma prosesləri sürət götürməyə başlamışdı. Yeni xammal mənbələri və satış bazarları əldə etmək istəyən super dövlətlərlə keçmiş SSRİ-nin varisi kimi onun nüfuz dairələrini əlində saxlamaq istəyən Rusiya Federasiyası arasında ciddi mübarizə gedirdi. Bu geosiyasi dəyəri, böyük maddi sərvətləri olan Azərbaycanla bağlı münasibətlərdə daha aydın hiss edilirdi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini qısa bir müddətdə dünya dövlətlərinin böyük əksəriyyəti tanımışdı. Onu ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Respublikası, sonra Rumıniya (11 dekabr 1991-ci il), Pakistan (13 dekabr 1991-ci il), İsveçrə (23 dekabr 1991-ci il), İran İslam Respublikası (25 dekabr 1991-ci il), ABŞ (23 yanvar 1992-ci il), Rusiya Federasiyası (10 aprel 1992-ci il - 109-cu dövlət olaraq) və başqa dövlətlər tanıdı. 1993-cü ildə Azərbaycanın dövlət müstəqilliyini artıq 116 dövlət tanımış, 70 xarici dövlət ilə Azərbaycan arasında diplomatik əlaqələr yaradılmışdı.[84] Azərbaycan Respublikası 14 beynəlxalq təşkilata üzv qəbul edilmişdi. O, 1991-ci il dekabrın 8-də İslam Konfransı Təşkilatına, 1992-ci ilin fevralında İran, Türkiyə və Pakistan dövlətlərinin daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatına üzv oldu. 1992-ci il iyulun 8-də Azərbaycan Respublikası Ümumavropa təhlükəsizlik və əməkdaşlıq proseslərini tənzimləyən Helsinki müşavirəsinin 1976-cı il Yekun aktına, 1992-ci il iyulun 10-da Helsinki Yekun sənədinə tərəfdar çıxdı, 1992-ci il yanvarın 20-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM-ə) qoşuldu.[86] 1992-ci il martın 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına (BMT-yə) üzv qəbul olundu, bu təşkilatın qəbul və təsdiq etdiyi bir çox mühüm beynəlxalq konvensiya və paktlara imza atdı. 1992-cı il iyunun 25-də Azərbaycan Qara dəniz hövzəsində iqtisadi əməkdaşlıq haqqında Bəyannamə imzalayan 11 dövlətdən biri oldu.

Azərbaycanın bir çox ölkələrdə, o cümlədən Türkiyə, ABŞ, İran, Almaniya, Fransa, Böyük Britaniya və İrlandiya Krallığında səfirlikləri açıldı.

Azərbaycan Respublikası başqa dövlətlərlə öz münasibətlərini dövlətlərin suveren bərabərliyi əsasında qurdu. Zor işlətməmək, dövlət sərhədlərinin toxunulmazlığı, mübahisələri dinc yolla nizama salmaq, başqa dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini əsas götürdü. Xalqların bərabərliyini və başqa xalqların hüququnu pozmursa, onların öz müqəddəratını təyin etmək hüququnu tanıdı.

Bununla belə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün dünya dövlətlərinin təsirli dəstəyini qazanmaq, müharibəni dayandırmaq mümkün olmadı. İlk zamanlar respublikada hakimiyyətdə olan siyasətçilər bu sahədəki fəaliyyətlərində problemin əvvəldən regionda nüfuz dairələrinin bölünməsi ilə bağlı beynəlxalq xarakter daşıması, onu törədən və idarə edən xarici qüvvələrin siyasi və iqtisadi maraqlarının Azərbaycan üçün mümkün qədər zərərsiz təmin olunması vacibliyini lazımınca nəzərə almırdılar. Biri Rusiyaya, digəri Türkiyəyə meyllənməklə qarşı tərəfi qıcıqlandırırdı.

Belə bir şəraitdə Ermənistan və Dağlıq Qarabağdakı erməni silahlı quldurları əvvəl sovet, MDB, sonra isə rus hərbi qüvvələrinin köməyi ilə Dağlıq Qarabağda irimiqyaslı hərbi əməliyyatlar keçirmiş, bir sıra əlverişli strateji mövqelər tutmuş, azərbaycanlıları buradan qovub çıxarmağa başlamışdılar. 1991-ci il sentyabr ayının əvvəllərində burada qeyri-qanuni bir qurum - oyuncaq "Dağlıq Qarabağ Respublikası" yaradılmışdı.[88] Keçirilmiş referendumda erməni icması buna tərəfdar olduğunu bildirmişdi. Üzdəniraq respublikanın bədnam "ali sovet"inə "seçkilər" də keçirilmişdi. Həmin il noyabrın 26-da Azərbaycan Respublikasının Ali Soveti DQMV-nin statusunu ləğv etdi.[89]

Erməni silahlı dəstələri 1991-ci il sentyabrın ortalarında Yuxarı Qarabağda yerləşən sovet ordusu hissələri şəxsi heyətinin və döyüş texnikasının köməyi ilə azərbaycanlıları öz torpaqlarından qovub çıxarmağa, kəndləri yandırıb viran qoymağa başladılar. Sentyabrın 14-18-də düşmən hücum edib Goranboy bölgəsində Erkeç, Manaşid, Buzqov, Baş Qışlaq kəndlərini yenidən ələ keçirdi.[90] Son damla qanınadək döyüşən igidlərin fədakarlığına baxmayaraq, pis silahlanmış, bir-birilə əlaqəsi zəif olan yerli özünümüdafiə dəstələri ilə güclü hücumların qarşısını almaq mümkün deyildi. Düşmən oktyabrın 28-də Tuğ, 31-də Salaketin kəndlərini ələ keçirib yandırdı. Noyabrın 19-da güclü artilleriya atəşindən sonra ermənilər müdafiəçilərin müqavimətini qırıb Xocavənd qəsəbəsini tutdular. Erməni faşistləri iki sakini, o cümlədən bir yaşlı körpəni diri-diri yandırdılar. Noyabrın 20-də Zamzur, 23-də Əmiranlar kəndləri zəbt edildi. Dekabrın 23-də düşmən Meşəli kəndində dinc, köməksiz əhalini gülləbaran etdi. 33 nəfər, o cümlədən 29 sakin

öldürüldü, üç ailə evindəcə yandırıldı. Yanvarın 13-də kənd tamamilə darmadağın edildi. Dekabrın 23-də Daşbaşı, Axullu kəndləri işğal olundu, odlara qalandı.[91]

1991-ci ilin axırlarında Ermənistan və Rusiya arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı.[92] Beynəlxalq ictimaiyyət tərəfindən, demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən erməni millətçiləri və separatçıları daha da azğınlaşdılar.

Düşmənin müvəffəqiyyət qazanmasının bir səbəbi də Azərbaycanda ordu quruculuğunun, demək olar ki, formal xarakter daşıması idi. Azərbaycan iqtidarı hərbi hissələrin müxalifət qüvvələrinin təsirinə düşüb ona qarşı duracağından qorxaraq əvvəl sovet ordusuna, sonra MDB, daha sonra isə Rusiya silahlı qüvvələrinə arxalanmağı üstün tuturdu. Respublika rəhbərliyi və mərkəz müxtəlif təxribatlarla xalqa öz gücünə inamsızlıq təlqin edir, onda milli ordu qurmağın qeyri-mümkünlüyü haqqında yəqinlik yaratmağa cəhd göstərirdilər.

1991-ci il sentyabrın 23-də Jeleznovodskda Rusiya, Qazaxıstan, Azərbaycan və Ermənistan arasında dördtərəfli saziş imzalanmış, atəşin dayandırılması, qanunsuz dəstələrin tərksilah edilməsi haqqında razılıq əldə edilmiş, münaqişənin həlli ittifaq orqanlarına tapşırılmışdı.[93] Lakin bunun heç bir müsbət nəticəsi olmadı.

Demokratik qüvvələr milli ordu yaradılmasını tələb edirdi. 1991-ci il avqustun 30-da prezidentin milli ordu deyil, milli qvardiya yaratmaq təklifi Ali Sovetdə keçmədi, milli özünümüdafiə qüvvələri yaratmaq haqqında qərar qəbul olundu. Sentyabrın 5-də Müdafiə Nazirliyi təşkil edildi. General Valeh Bərşadlı müdafiə naziri təyin edildi.[94] Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikası silahlı qüvvələri haqqında Qanun qəbul etdi.[95] Lakin ordu quruculuğuna lazımi diqqət göstərilmədi. Nizami ordunun 3-4 çağırışda formalaşdırılması və döyüşə tam hazır olmayınca cəbhəyə göndərilməməsi nəzərdə tutulurdu. O vaxta qədər yerlərdə könüllü muzdlulardan təşkil edilmiş özünümüdafiə taburları fəaliyyət göstərməli idi. Noyabrın 19-da 22 rayon və şəhər özünümüdafiə taburu yaradılması haqqında əmr verildi.[96] Tərkibi yerli əhalidən olan Qazax, Ağstafa, Ağdam, Kəlbəcər, Laçın, Şuşa, Qubadlı, Zəngilan, Cəbrayıl, Tovuz, Füzuli, Goranboy, Xanlar, Yevlax, Bərdə, Tərtər, Ucar, Gədəbəy və Şəmkir rayonlarında, Gəncə və Xocalı şəhərlərində, 1992-ci ilin fevralında isə Ağcabədi və Beyləqanda ərazi özünümüdafiə taburları yaradıldı. Martda Füzuli, Şəmkir özünümüdafiə taburları, Bakı, Gəncə, Laçın, Göyçay, Ucar, Ağdam və Mingəçevirdə xüsusi təyinatlı reyd dəstələri təşkil olundu. Bu qüvvələr müvəqqəti hesab olunur, yerli imkanlar hesabına saxlanırdı. Silah, sursat, təcrübəli hərbçilər çatışmırdı.

Özünümüdafiə taburlarının komandirləri və onların müavinləri rayonun hərbi komissarı tərəfindən seçilir, icra hakimiyyəti başçısının razılığı ilə Müdafiə Nazirliyi tərəfindən təsdiq edilirdi. Tabur komandirləri rayon icra hakimiyyəti başçısının müdafiə məsələləri üzrə müavinləri idi. Bu hissələrə rəhbərlikdə iki başlanğıc (Müdafiə Nazirliyinə və rayon icra hakimiyyəti başçısına tabeçilik) kimi yolverilməz vəziyyət yaranmışdı. Prezident İcra Hakimiyyəti vasitəsilə hərbi hissələri öz əlində saxlamaq istəyirdi.[97]

Dağlıq Qarabağın azərbaycanlılar yaşayan kəndlərinin çoxunda 1992-ci ilin fevralında yerli əhalidən ibarət müstəqil hərbi hissələr təşkil olunmuşdu.[98]

Lazımi döyüş qabiliyyəti, təchizatı olmayan və müdafiə taktikasına keçməyə məcbur olan bu özünümüdafiə qüvvələri qat-qat artıq silahlanmış və təlim görmüş düşmənlə yaxşı vuruşa bilmir, tez-tez məğlubiyyətə uğrayırdı.[99]

Hərbi hissələrə müxtəlif siyasi qüvvələrin təsiri güclü idi. Bəzi ictimai təşkilatların, məsələn, AXC-nin, hətta ayrı-ayrı siyasətçilərin hərbi dəstələri vardı. İqtidarın etibarsız saydığı hissələr dağılır, qeyri-qanuni silahlı dəstələr təşkil edilirdi. Hərbi hissələrdə nizam-intizam yox idi, xaos yaranmışdı. Baş qərargahın işi pis qurulmuşdu. Hərbi hissələrə pozuculuqla məşğul olan, xarici ölkələrin xüsusi idarələrinə işləyən satqınlar soxula bilmişdilər. İnformasiya axınına yol verilirdi.

Silahlı qüvvələrin yaranmasına öz hərəkətləri ilə müxalifət də mane olurdu. İqtidar vaxt qazanmaq, müxalifət isə silahlı qüvvələrə nəzarəti gücləndirmək məqsədilə müvəqqəti kompromis kimi Milli Müdafiə Şurası yaradılması üçün razılığa gəldilər. 1991-ci il sentyabrın 29-da paritet əsasında iqtidar və müxalifəti təmsil edən 8 nəfərdən ibarət Milli Müdafiə Şurası yaradıldı.[100] Bu, heç bir hərbi səriştəsi olmayan, siyasi həyata şəxsi ambisiyalarını reallaşdırmaq üçün soxulmuş şəxslərə orduya, ayrı-ayrı hərbi hissələrə nüfuz etmək, silahlı qüvvələrdən öz niyyətlərini həyata keçirmək üçün istifadə etmək imkanı verdi. Şuranın bəzi üzvləri ruslar tərəfindən respublikadan aparılmasına cəhd göstərilən xeyli hərbi texnika və silahın müsadirə olunmasında iştirak etdilər və bunları əsasən özlərinə tabe olan silahlı dəstələrə verdilər.[101] Milli Müdafiə Şurasının müxalifətdən olan üzvlərinin silahlı hissələr yaratmaq, hərbi hissələri öz nəzarəti altına almaq cəhdləri aydın olduqda Respublikanın prezidenti 1992-ci il yanvarın 3-də bu qurumun buraxılması haqqında Fərman verdi. Dövlət Müdafiə Komitəsi təsis edildi.[102] Siyasi qüvvələrin təsiri güclü olan təzə yaranmış ikinci tabur itaətsizlik göstərdiyi üçün 1992-ci il yanvarın 10-da buraxıldı.[103]

Müxalifətin tələbi ilə parlament hökumətə ordu yaratmağa üç ay vaxt vermişdi. Ə.Elçibəy respublika prezidentinə "Qarabağ məsələsini həll etmək üçün 20-25 gün" vaxt verilməsini tələb edirdi.[104] Müdafiə Nazirliyini ələ keçirmək və hərbi hissələrin gücündən istifadə edib hakimiyyətə gəlmək istəyən "liderlər" bu

nazirliyə hərbçinin deyil, mülki şəxsin rəhbər təyin olunmasını tələb edir, piketlər keçirirdilər.[105] Qısa müddətdə onlar bir neçə müdafiə nazirinin dəyişdirilməsinə, nəhayət, bu orqanda "öz adamlarının" mühüm vəzifələr tutmasına nail oldular. Müdafiə nazirinin tez-tez dəyişməsi ordu quruculuğuna ağır zərbə vururdu. Şıx qəsəbəsində yaradılmalı olan iki desant-hücum briqadasından cəmi bir ala-yarımçıq tabur və kəşfiyyat rotası təşkil olunmuşdu.

Azərbaycan Respublikasının Silahlı Qüvvələr haqqında 1991-ci il 9 oktyabr Qanununun qüvvəyə minməsi barədə Ali Sovetin qərarı ilə hərbi obyektləri, silah və texnikanı inventarlaşdırıb milliləşdirmək tələb olunsa da bu sahədə bağışlanılmaz lənglik rus hərbçilərinə mümkün olan hər şeyi respublikadan çıxarmaq, dağıtmaq, məhv etmək və ayrı-ayrı adamlara, qruplara satmaq imkanı yaratmışdı. Rus hərbçiləri hərbi təyyarə meydanlarından birində vertolyotları yandırmağa çalışdılar. Sitalçay, Kürdəmir və Dəllərdə yerləşən aviasiya hissələrindən isə, əldə edilmiş razılığın əksinə olaraq, hərbi təyyarələr aparıldı, təyyarə meydanları dağıdıldı, qiymətli hərbi cihazlar məhv edildi.[106] Xəzər donanması gəmilərində avadanlığa, sahil obyektlərinin hamısına xəsarət yetirilmiş, sökülüb dağıdılmışdı.[107] 1992-ci il fevralın 14-də MDB ölkələri başçılarının Minsk görüşündə Ukrayna, Belarus, Azərbaycan və Moldova qəti şəkildə milli ordu yaratmaq istədiklərini bildirdilər və keçmiş sovet ordusu mirasından paylarını tələb etdilər.[108]

1990-cı ildə imzalanmış Avropada adi silahlı qüvvələr haqqında müqavilə şərtləri əsasında bu mirasdan, əhalinin sayı və digər mühüm göstəricilər nəzərə alınmaqla, Azərbaycana 4,3 faiz, Ermənistana isə 2,8 faiz düşməsi nəzərdə tutulurdu.[109] Lakin az sonra, mayın 15-də müdafiə naziri Rəhim Qazıyev Daşkənd görüşündə ağalarına yarınaraq hər iki respublikaya bərabər sayda, özü də Azərbaycana əvvəl nəzərdə tutulduğundan xeyli az silah ayrılmasına razılıq verdi və Azərbaycan Ordusuna, onun gələcəyinə böyük zərbə vurdu.[110]

Belə bir şəraitdə erməni hərbi hissələri MDB qoşununun köməyi ilə Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinə hücumu genişləndirdilər. 1991-ci il dekabrın axırlarında Kərkicahan qəsəbəsinə növbəti dəfə güclü hücum başlandı. Qanlı döyüşlərdə qəsəbə dəfələrlə əldən-ələ keçdi. Erməni faşistləri burada ilk dəfə odatan silahdan istifadə etdilər. Ağır döyüşlərdə 30 azərbaycanlı əsgər qəhrəmancasına həlak oldu. 1992-ci il yanvarın 19-da Kərkicahan düşmən əlinə keçdi və tamamilə yandırıldı. Yanvarın 21-də Qeybalı, fevralın 12-də Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular işğal edildi. Xocalı və Şuşanın mühasirəsi getdikcə daralırdı. Azərbaycan ordu hissələri, xüsusi təyinatlı milis dəstələri və yerli özünümüdafiə batalyonlarının müqavimət göstərmək tədbirləri nizamsızlıq, əlaqəsizlik, satqınlıq üzündən baş tutmurdu.[111]

Daşaltı tərəfdən Şuşanın mühasirəsini yarmaq üçün Azərbaycan ordu hissələrinin 1992-ci il yanvarın 25-dən 26-na keçən gecə keçirdiyi hərbi əməliyyatlar da bu səbəblərdən uğursuzluğa düçar oldu. Satqın bələdçilər bir taqım əsgəri və zirehli maşınları minalanmış əraziyə saldılar, ordu böyük tələfat verdi - 33 nəfər həlak oldu, 34 nəfər itkin düşdü, 36 nəfər yaralandı. Döyüşlərdə düşmən də 150 nəfərədək itki verdi.[112] Bir neçə gün sonra Şuşanın mühasirəsini Ağdam istiqamətində yarmaq məqsədilə keçirilən Xromot-Xanabad əməliyyatı da gözlənilən nəticəni vermədi.[113]

1992-ci il fevralın ortalarında düşmən növbəti dəfə Qarabağlı kəndinə güclü hücuma başladı. Qanlı döyüşlərdə kənd dəfələrlə əldən-ələ keçdi. Dörd gün davam edən qeyri-bərabər döyüşdən sonra ermənilər Qarabağlını ələ keçirib onun 92 müdafiəçisini va 54 sakinini vəhşicəsinə öldürüb silos quyularına atdılar. Qalan əhali əsir alındı.[114]

Təcavüzkar Ermənistan hökuməti Azərbaycana qarşı qanlı terror aksiyalarını daha da genişləndirdi. 1992-ci il yanvarın 8-də "Krasnovodsk-Bakı" dəniz sərnişin bərəsində belə bir terror aktı nəticəsində 25 nəfər həlak oldu, 88 nəfər ağır yaralandı. Həmin il fevralın 28-də Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" sərnişin qatarının partladılması zamanı 11 nəfər həlak oldu, 18 nəfər yaralandı.[115]

Erməni quldurları Rusiyanın Xankəndindəki 366-cı mexanikləşdirilmiş atıcı alayı ilə əlbir olaraq XX əsrin Xatın, Sonqımi faciələrini geridə qoyan Xocalı soyqırımını törətdilər. Respublika rəhbərliyinin cinayətkar laqeydliyi üzündən şəhərin müdafiə işləri təşkil olunmamışdı. 80 nəfərdən ibarət Xocalı özünümüdafiə taburu heç bir zirehli texnika ilə silahlandırılmamışdı. Onlara Şıx briqadasının ikinci taburu və cəmi 20 nəfərdən ibarət minaatanlar batareyası kömək edirdi. 60 nəfərlik milis dəstəsi təyyarə meydanını qoruyurdu.[116]

1992-ci il fevralın 25-də saat 21-də erməni hərbi birləşmələri, 366-cı alay (üç batalyondan ikisi tam tərkibdə, biri isə qismən), habelə xarici ölkələrdən gətirilmiş muzdlu quldurlar Xocalıya hücum etdilər. İlk zərbə hava limanına vuruldu. Şəhərin müdafiəçiləri azsaylı və pis silahlanmış olsalar da, mərdliklə vuruşurdular. Xüsusi təyinatlı milis dəstəsinin komandiri, milis mayoru Əlif Hacıyev döyüşdə xüsusən fərqləndi. Onun rəhbərlik etdiyi 22 nəfərlik dəstə düşmənin güclü hücumlarını üç dəfə uğurla dəf etdi. Lakin qüvvələr bərabər deyildi. Ə.Hacıyev vəziyyətin çıxılmaz olduğunu görəndə hava limanının dispetçer məntəqəsini partladaraq düşmən əlinə keçməsinə imkan vermədi. Döyüşlərdə igid komandir ağır yaralandı və qəhrəmancasına həlak oldu.[117] Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi. Düşmən tankları, zirehli maşınları güclü artilleriya hazırlığından sonra Mehdikənd, Qaragah və Daşbulaq tərəfdən şəhərə soxuldu, küçə döyüşləri başlandı. 366-cı alayın mayor Ohanyanın

komandası altında ikinci, mayor Nabogixin komandası altında üçüncü motoatıcı taburları, topçu diviziyası, Lixodeyanın rəhbərliyi altında D-3 topu vəhşiliyi ilə xüsusən fərqlənirdi.[118]

Tofiq Hüseynovun rəhbərlik etdiyi ərazi özünümüdafiə taburunun döyüşçüləri qat-qat güclü olan yırtıcı düşmənlə qəhrəmancasına vuruşurdu. Tofiq son nəfəsinədək döyüşdü, yağıları azdırıb onlarla adamın mühasirədən çıxmasına imkan yaratdı. Axırda özü mühasirəyə düşdü. O, düşmənin təslim olmaq çağırışına məhəl qoymayıb son gülləni özünə vurdu, ana torpağı qucaqlayıb gözlərini əbədi yumdu. Ölümündən sonra T.Hüseynova Azərbaycanın Milli Qəhrəmanı adı verildi.[119]

Ağdam-Əsgəran istiqamətində toplanmış milli hissələr arasında əlaqə və ümumi rəhbərlik olmaması üzündən onlar düşmənə qarşı hücum təşkil edə bilmədilər.[120]

Xocalıda soyqırım törədildi. Şəhər yandırıldı. Sağ qalanların bir hissəsi, əsasən qadınlar, qocalar və uşaqlar şəhərin şimal-şərq istiqamətində iki yolla Ağdama tərəf qaçmağa başladılar. Qarlı, şaxtalı gecəni ayaqyalın-başıaçıq meşədə keçirən qaçqınların çoxunu don vurdu, yaralıların bir hissəsi tab gətirməyib öldü. Sağ qalanlar səhəri gün Xocalıdan 6-7 km aralı, Qaraqaya adlı yerdə meşədən çıxarkən pusquda durmuş erməni faşistləri tərəfindən gülləbaran edildilər. Yüzlərlə köməksiz qadın, qoca, uşaq həlak oldu. Xilas olaraq Abdal-Gülablı kəndinə getməyə çalışan qaçqınları da düşmən mühasirəyə alıb atəşə tutdu. Erməni quldurları yaralılara işgəncə verib meyitləri eybəcər hala salır, qadın və qızları təhqir edirdilər.[121]

Xocalıda erməni faşistləri azərbaycanlılara qarşı növbəti soyqırımı törətdilər. 613 nəfər, o cümlədən 106 qadın, 83 azsaylı uşaq, 70 qoca öldürüldü. 1000 nəfərdən artıq dinc sakin müxtəlif dərəcəli güllə yarası alaraq şikəst oldu. 1275 nəfər əsir alındı, 8 ailə bütövlüklə məhv edildi. 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı, başlarının dərisi soyuldu, gözləri çıxarıldı, başları kəsildi, hamilə qadınların qarnı süngü ilə deşildi.[122]

Bu faciədə təkcə erməni faşistləri və rus şovinistləri deyil, həm də uzun müddət düşmən əhatəsində qalan şəhərə lazımi kömək göstərməmiş, düşmənin güclü hücuma hazırlığı barədə məlumat aldıqdan sonra belə əhalini təhlükəsiz yerlərə köçürmək üçün tədbirlər görməyən respublika rəhbərliyi, habelə hakimiyyət uğrunda mübarizədə Qarabağ problemindən istifadə edib siyasi kapital toplamağa, respublikada siyasi vəziyyətin gərginləşməsinə çalışan siyasətbazlar günahkar idilər.

Xocalı faciəsi respublikada siyasi gərginliyi daha da artırdı. Martın 3-dən Prezident sarayı qarşısında "istefa" tələbi ilə piket keçirildi. İqtidar Ali Sovetin

sessiyasını çağırmağa məcbur oldu. Martın 5-də fövqəladə sessiya keçirən Ali Sovetin binası qarşısında izdihamlı mitinq başlandı.[123]

Sessiyada Ali Sovetin sədri Elmira Qafarova istefa verdi. Onun yerinə deputat Yaqub Məmmədov seçildi.[124] İqtidar bu dəyişikliklərlə qarşıdurmanı zəiflətdi. Demblokdan olan 26 deputat A.Mütəllibovun Respublika Konstitusiyasını və qanunlarını pozduğuna görə prezident vəzifəsindən götürülməsi haqqında qərar layihəsi təqdim etdi. A.Mütəllibov sessiya tribunasından xalqı açıqca hədələməyə başladı. Axşam parlament binasını mühasirəyə almış mitinqçilər, xüsusən qadınlar deputatlara və iqtidara daha təsirli təzyiq göstərmək üçün binanın bütün giriş və çıxışlarını tutdular. Gecə yarısı MDB-nin Bakıdakı 5-ci ordusunun hissələri mitinqi dağıtmaq üçün parlament binasına doğru hərəkətə başladı. Bundan xəbər tutan Demblokdan olan deputatlar və Ali Sovetin yeni sədri vətəndaş qırğını başlamağın yolverilməzliyini bildirib buna qəti etiraz etdilər.[125]

Martın 6-da parlament qarşısındakı mitinq daha izdihamlı idi. Mitinqçilər tərəfindən prezidentin saat 14-dək istefa verməsi tələbi ultimatum şəklində tərtib olunub parlamentə göndərildi. A.Mütəllibov istefa verməyə məcbur oldu. Nazirlər Kabineti buraxıldı. Onun sədri Həsən Həsənova yeni kabinet təşkil etmək tapşırıldı.[126]

Yeni Dövlət Müdafiə Komitəsi təşkil olundu. Yaqub Məmmədov ölkədə siyasi sabitlik yaratmaq üçün martın ikinci yarısında bütün siyasi qüvvələrə müraciət edib onları birliyə, əməkdaşlığa çağırdı. Müxalifət və iqtidar arasında danışıqlar başlandı. Lakin nəzərdə tutulduğu kimi, koalision hökumət yaratmaq mümkün olmadı.[128] Ölkədə "əsil hərc-mərclik dövrü başlandı".[129] Bu vəziyyət hakimiyyəti ələ keçirməyə səy edən qüvvələrin fəallaşmasına, gərginliyin artmasına səbəb oldu. Ali Sovet 1992-ci il iyunun 7-nə yeni prezident seçkiləri təyin etdi.[130]

Azərbaycanda nüfuzunu gücləndirməyə çalışan qüvvələrin mübarizəsi kəskinləşmişdi. Azərbaycanın Türkiyə Respublikası ilə yaxınlaşması Rusiyanı narahat edirdi. 1992-ci il yanvarın 24-də Türkiyə və Azərbaycan respublikaları arasında danışıqlar zamanı dostluq, əməkdaşlıq və mehriban qonşuluq haqqında müqavilə imzalanmışdı.[131] Cənubi Qafqazda nüfuzuna xələl gələcəyindən təşvişə düşən Rusiya Azərbaycana təzyiqini artırdı: ermənilər martın 12-də Tərtər, Qazax, Tovuz, Ağdam, Cəbrayıl və Füzuli istiqamətlərində güclü hücuma başladılar.[132] Yaqub Məmmədov martın sonunda mətbuatda açıq elan etdi ki, "Rusiya Ermənistanın köməyi ilə Azərbaycana təzyiq göstərməyə cəhd edir", "Müharibəni yalnız Yeltsin dayandıra bilər".[133] Bunu bilə-bilə, dövlət başçısı digər dövlətlərin maraqlarından səmərəli istifadə edə bilmədi. Doğrudur, bir sıra bəyanatlar verdi. 1992-ci il martın 31-də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin

üzvü olan dövlətlərin (ATƏM) Xarici İşlər Nazirləri Şurasının sədri ilə görüşüb Qarabağ probleminin dinc yolla aradan qaldırılmasına dair beynəlxalq konfrans çağırılması və Azərbaycanda ATƏM-in daimi nümayəndəliyinin açılması haqqında ilkin saziş əldə etdi. Az sonra - martın 24-də ATƏM-in Azərbaycan və Ermənistanla yanaşı on nüfuzlu dövlətin təmsil olunduğu Minsk qrupu təşkil edildi.[134] Lakin xarici siyasət mövcud reallıqlar nəzərə alınmaqla düzgün qurulmadığından nüfuzlu dövlətlər öz məqsədlərinə nail olmaq üçün daha münasib şəraitin yaranmasını gözləyirdilər. Minsk qrupu ilə paralel Rusiyanın xarici işlər naziri Kozırevin bu sahədə öz dövlətinin mənafeyinə uyğun iş aparması da münasibətlərin mürəkkəbləşməsinə səbəb olurdu.[135]

İqtidar xalqın qüvvələrini birləşdirib düşmənə qarşı qəti mübarizə aparmaq üçün əməli tədbirlər görə bilmədi.

"Lider"lərin siyasi oyunbazlığı, hakimiyyət uğrunda hətta vətən torpaqlarından belə keçməyə hazır olması xalq cəbhəsini xalqın gözündən daha da salmışdı. Bu liderlər hakimiyyətə yalnız zor gücünə gələ biləcəklərini dərk edir, silahlı dəstələr yaradır, cəbhələrdə hər an vəziyyətə təsir göstərmək imkanları əldə edirdilər. Y.Məmmədov 1992-ci il martın 17-də Rəhim Qazıyevi müdafiə naziri təyin etməklə ordunu öz tərəfinə çəkməyə çalışdı. Rusiya hərbi dairələrinə arxalanan yeni hərbi nazir ağalarının köməyi ilə hərbi diktatura qurmaq və hakimiyyəti öz əlinə almağa cəhd edirdi. Rusiyanın müdafiə naziri P.Qraçov Yaqub Məmmədova təkidlə Qazıyevin Azərbaycana rəhbər olması vacibliyini bildirmişdi. Müdafiə nazirinin 1992-ci il 30 aprel tarixli əmri ilə Şuşa və Laçında xalq cəbhəsi könüllülərindən ibarət hərbi hissələr buraxıldı.[136] Şuşa taburunun komandiri R.Qəmbərov müəmmalı şəkildə öldü.[137] Cəbhədə mövcud silahlı qüvvələr arasında münaqişə yarandı. 1992-ci il mayın 3-5-də Ağdam şəhərində Qarabağ uğrunda döyüşən könüllü hərbi hissə komandirlərinin müşavirəsi keçirildi. Müşavirə iştirakçıları xalqa, iqtidara, hətta tabe olmadıqları Müdafiə Nazirliyinə müraciət edib bildirdilər ki, bu hissələrin Hərbi Birliyi və bu Birliyin Hərbi Şurası təsis olunmuşdur. Nəzarət, təşkilat və təchizat işləri ilə Birliyin səlahiyyətli nümayəndəsi Surət Hüseynov məşğul olacaqdır.[138] Beləliklə, Rəhim Qazıyevə qarşı Surət Hüseynov qoyuldu.

Respublikanın əksər bölgələrində və paytaxtda hakimiyyət uğrunda mübarizədə ən alçaq vasitələrdən belə istifadə etməkdən çəkinməyən siyasətbazların oyunlarından təngə gəlmiş xalq belə mürəkkəb vəziyyətdən çıxış yolunu Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Heydər Əliyevin çox mürəkkəb və ağır şəraitdə Naxçıvan MR-ə uğurla rəhbərlik etməsi, xalqı birləşdirib düşmənə sinə gərməsi, diplomatik vasitələrdən məharətlə istifadə etməsi insanlara böyük ümidlər verirdi.

Heydər Əliyevin respublikada hakimiyyətə qayıtması tələbi ilə çoxsaylı izdihamlı mitinqlər keçirilirdi. 1992-ci il martın 3-də düşmənin "Qrad" qurğularından güclü atəşə tutulan Ağdam şəhərində keçirilən mitinqə insanlar bu tələblə çıxmışdılar.[139] Bakıda, Naxçıvanda, Şəkidə, Zəngilanda, Füzulidə və digər yerlərdə keçirilən mitinqlərdə Konstitusiyanın 121-ci maddəsinin prezident seçilmək üçün yuxarı yaş senzini müəyyənləşdirən bəndini ləğv etmək tələb olunurdu. Mərkəzi Seçki Komissiyasına bu məzmunda minlərlə adamın imzaladığı saysız-hesabsız protokollar, müraciətlər daxil olurdu. Aprelin 25-dən respublikanın hər yerində bu tələblərlə keçirilən mitinqlərin sayı daha da artmışdı.[140]

Hakimiyyətə gəlməyə çalışan AXC mühüm strateji mövqelərdə olan hərbi hissələrinə və Türkiyənin siyasi dəstəyinə arxalanırdı. Mayın 3-də xalqın böyük məhəbbət bəslədiyi Türkiyə Respublikasının baş bakanı Süleyman Dəmirəl AXC sədri ilə görüşdü, Bakının Azadlıq meydanında Alparslan Türkeşin iştirakı ilə Türk xalqlarının ümumdünya həmrəylik günü izdihamlı mitinqlə qeyd olundu. Bütün bunlar cəbhənin populyarlığını artırmağa yönəldilmişdi.

Qarşıdakı prezident seçkiləri nəticəsində Heydər Əliyevin və AXC-nin hakimiyyətə gəlmək şanslarının böyük olması barədə proqnozlar bu geosiyasi məkanda müstəqil güclü dövlət yaranmasını, Türkiyənin nüfuzunun artmasını istəməyən dövlətləri ciddi narahat edirdi.

Seçkilər yaxınlaşdıqca Ayaz Mütəllibovun da tərəfdarları fəallaşır, revanş almağa çalışırdılar. Aprelin 25-də eks-prezident Şamaxıda öz tərəfdarları qarşısında çıxış edərək bildirmişdi ki, onu qeyri-qanuni yolla, zorla istefa verməyə məcbur etmişlər. O qeyd etmişdi ki, Rəhim Qazıyev onu istefaya çıxmasa, Şuşanı ermənilərə verəcəyi ilə hədələmişdi.[142] Mayın 2-də A.Mütəllibovun silahlı tərəfdarları Azərbaycan Teleradio Şirkətinə gələrək birbaşa efirə çıxmağı tələb etsələr də, niyyətləri baş tutmamışdı.[143]

Cəbhələrdə vəziyyətə əsaslı təsir etmək imkanına malik silahlı dəstələrə arxalanan qüvvələr çəkişməsinin, xainliyin növbəti qurbanları Şuşa və Laçın oldu.

Şuşanın müdafiəsinin olduqca böyük hərbi strateji və mənəvi-siyasi əhəmiyyəti vardı. Şəhər uzun müddət mühasirədə qalmışdı. Güclü hücum gözlənilirdi. MDB-nin 366-cı alayının 180 hərbi mütəxəssisinin 90 ağır hərbi texnika ilə ermənilər tərəfə keçməsi məlum idi. Alay Gürcüstana köçürülərkən çoxlu hərbi texnika erməni hərbi hissələrinə təhvil verilmişdi.[144] Şuşanm müdafiəsində isə cəmi 24 ağır hərbi texnika dururdu. Hərbi rabitə lazımi vəziyyətdə deyildi. Şəxsi heyətin hazırlıq səviyyəsi, nizam-intizam aşağı idi. Şəhərin müdafiə qabiliyyətini yüksəltmək üçün əməli iş, demək olar ki, görülməmişdi. Əksinə, şəhəri qorumalı olan silahlı qüvvələr arasında ziddiyyət daha da dərinləşmiş, parçalanma baş vermişdi. Şəhərdə kimin - şəhər milis şöbəsi rəisinin, yoxsa buradakı Azərbaycan Qarabağı könüllü müdafiə taburu

komandirinin üstün səlahiyyətə malik olması aydın deyildi.[145] Bu iki qüvvə arasındakı çəkişmə respublikada hakimiyyəti ələ keçirməyə çalışan Müdafiə və Daxili İşlər Nazirliyinin kəskin mübarizəsinin təzahürü idi. 1992-ci il martın 12-də Dövlət Müdafiə Komitəsində Şuşadakı vəziyyət müzakirə edildi. Aprelin 26-da buradakı bütün hərbi qüvvələr ümumi komandanlığa tabe edildi.[146] Lakin vəziyyət dəyişmədi. Bunun üçün heç cəhd də göstərilmədi. İqtidar iki güc nazirliyi rəhbərliyinin yaxınlaşmasını özünə qarşı təhlükə hesab edirdi.

Respublikanın başçısı məsuliyyətli bir vaxtda diqqəti yayındırmaq üçün məharətlə qurulmuş diplomatik tələyə düşdü. İranın vasitəçiliyi ilə Ermənistanla danışıqlar aparılırdı. Arxayınçılıq yaranmışdı. Minalanmış sahələr zərərsizləşdirilmiş, xeyli döyüşçü qısa müddətli məzuniyyətə buraxılmışdı. Şuşa taburu ştatında 1500-ə yaxın döyüşçü olduğu halda, hücum günü şəhərdə cəmi 500 döyüşçü vardı.[147] 200 könüllü əsgər silahı ilə şəhəri tərk etmişdi. Hərbi texnikanın "Qrad" qurğularının şəhərdən çıxarılmasına başlanmışdı. Xüsusi milis taburunun döyüşçüləri mayın 4-də Şuşanı tərk edib, Böyük Kirsdə mövqe tutmuşdular.[148]

Mayın 7-dən 8-nə keçən gecə düşmən şəhəri güclü artilleriya atəşinə tutdu. Hücumda 80 T-72 tankı, 6000-ə yaxın döyüşçü, o cümlədən xarici muzdlular iştirak edirdi.[149] Səhərə yaxın şəhər ətrafındakı postların əksəriyyəti tutulmuşdu, yalnız bəzi mövqelərdə milli qüvvələr düşmənə qarşı qəhrəmancasına vuruşurdular. Düşmənin üç tankı səhərə yaxın şəhərə soxuldu. Azərbaycan ordusunun 533 saylı tankı onlardan birini vurub sıradan çıxardı, o biri tanklar geri qayıtdılar. "Qayabaşı" adlanan yerdə mövqe tutmuş əsgərlər son nəfəsədək vuruşurdular. 40 nəfər şəhid oldu. Digər müdafiə dəstələri axşama qədər müqavimət göstərdilər. Lakin onlara kömək gəlmədi. Axşama yaxın köməyə göndərilmiş vertolyot isə səhvən şəhərin müdafiəçilərinin mövqeyini atəşə tutdu, piyadalar üçün döyüş maşınını məhv etdi. Axşam qalan 30-40 müdafiəçi də şəhəri tərk etdi.[150] Döyüşlərdə şəhərin 155 müdafiəçisi şəhid oldu, 167 nəfər yaralandı, 20 nəfər itkin düşdü.[151]

Şuşanın süqutu ilə erməni faşistləri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalı başa çatdı.

Şuşanın süqutu, milli hərbi hissələrin Laçını tərk etməyə başlaması respublikada siyasi vəziyyəti daha da gərginləşdirdi. Bunun əsas səbəbi faktiki olaraq hakimiyyət uğrunda mübarizə aparan tərəflərin satqın hərəkətləri idi. Artıq iş-işdən keçəndən sonra - mayın 9-da AXC sədri Ə.Elçibəy və digər siyasi qüvvələrin kütləvi-siyasi tədbirləri dayandırmaq, birliyə çağırışları[152] daldan atılan daş kimi gərəksiz oldu.

Hakimiyyət çəkişmələrində iştirak edən, demək olar ki, bütün tərəflər öz silahlı qüvvələrini Bakıya gətirmişdilər. Ayaz Mütəllibov Bakıda yerləşən 295 saylı rus diviziyasına, onun zirehli texnikasına, özünün təşkil etdiyi "Qardaşlıq" və

"Tövbə" təşkilatlarının silahlı dəstələrinə arxalanırdı. Rəhim Qazıyev də burada özünə tabe dəstələrini yerləşdirmişdi. AXC döyüş mövqelərindən öz silahlı dəstələrini, "Milli qurtuluş" və "Lənkəran" taburlarını və başqa qüvvələri çıxarıb paytaxta gətirmişdi. Bakıda müxtəlif dəstələrin əlində 40 minə qədər avtomat və pulemyot vardı.[153]

Mütəllibovçu qüvvələr ilk təşəbbüsü ələ aldılar. Hələ mayın 3-dən onlar Ali Sovetin binası qarşısında gecə-gündüz piket keçirib liderlərinin yenidən vəzifəyə qaytarılması tələbini irəli sürürdülər.[154] Mayın 12-də piketçilərin bir qrupu müqavimətə rast gəlmədən Milli Şuranın iclas salonuna soxulub şura üzvlərini silahla hədələyərək, Ali Sovetin sessiyasını çağırmağı tələb etdi. 26 nəfər şura üzvü sessiya çağırılmasına səs verdi. Mayın 13-də milli təhlükəsizlik naziri İ.Hüseynov televiziya ilə çıxış edib mövcud böhrandan çıxmaq üçün ölkədə nizam-intizamın möhkəmləndirilməsini, başqa sözlə, diktatura yaradılmasını vacib hesab etdiyini bildirdi.[155]

Mayın 14-də Ali Sovetin sessiyası azlıqda qalan Demblokun etirazına baxmayaraq, Ayaz Mütəllibovu vəzifəsinə qaytardı. A.Mütəllibov elə həmin saat respublikada fövqəladə vəziyyət tətbiq etmək, siyasi azadlıqları məhdudlaşdırmaq haqqında Fərman verdi. Milli Şura buraxıldı. Prezident seçkiləri ləğv edildi.[156]

AXC Bakıdakı silahlı qüvvələrinə, döyüş bölgələrində hadisələrə təsir etmək imkanlarına arxalanaraq hakimiyyət uğrunda qəti döyüşə girdi. Onun qərargahı ətrafında yüzlərlə insan, silahlı dəstələr toplaşmışdı. AXC rəhbərliyi Mütəllibovun Konstitusiyaya zidd rejimini tanımamağa çağırdı. Bütün müxalif qüvvələr bu çağırışa qoşuldu. Naxçıvan, Gəncə, Şəki və başqa şəhərlərdə də Mütəllibov rejiminə itaətsizlik göstərildi. İnzibati orqanların fövqəladə rejim yaratmaq cəhdləri bəzən hətta silahlı müqavimətlə dəf olunurdu.[157] Mütəllibovun arxalandığı qoşun hissələri Bakıda ona qarşı dayanan qüvvələrin gücünü, mütəllibovçuların acizliyini görüb neytral qaldılar. Bundan başqa, Rusiya Naxçıvan MR-ə erməni hücumları ilə əlaqədar Türkiyənin ciddi reaksiya verdiyi bir vaxtda[158] Bakıdakı hadisələrə açıq fəal təsir göstərməkdən çəkindi.

Mayın 15-də AXC qərargahı qarşısında mitinq keçirildi. Ölkədə baş verən Konstitusiyaya zidd proseslərə qarşı Heydər Əliyevin bəyanatı burada dəfələrlə səsləndirildi.[159] A.Mütəllibov AXC rəhbərliyini danışığa dəvət etdi. Lakin cavab olaraq ondan saat 16-dək dövlət hakimiyyəti iddiasından rəsmi əl çəkmək və prezident iqamətgahını tərk etmək tələb olundu. Vaxt tamam olanda AXC fəalları silahlı qüvvələrin, zirehli texnikanın müşayiəti ilə parlament binasına hücum etdilər. Atışmada bir nəfər öldü, üç nəfər yaralandı. Parlamentin, Dövlət Teleradio Şirkətinin binaları, az sonra Prezident sarayı və başqa strateji obyektlər zəbt olundu. A.Mütəllibov gizlicə Rusiyaya qaçdı.[160]

Fürsətdən istifadə etməyə çalışan müdafiə naziri Rəhim Qazıyev mayın 16-da Milli Şurada respublikada hərbi diktatura yaradılmasını bütün hakimiyyətin Müdafiə Nazirliyinə verilməsini tələb etdi. Hazırlanmış plana görə o, mayın 18-də "diktator" elan olunmalı idi. Onun mərasimdə oxuyacağı nitqin mətni də artıq tərtib edilmişdi.[161] Lakin hadisələri idarə edən qüvvələr Şuşanın süqutu ilə həmişə "Şuşa getsə, başıma güllə çaxaram!" deyən Rəhim Qazıyevin siyasi karyerasına böyük zərbə dəydiyini görürdülər.

AXC hakimiyyəti ələ almaq üçün hətta vətəndaş müharibəsinə getməyə hazır idi. AXC-nin hakimiyyətə gəlişinə hadisələri idarə edən bütün tərəflər razılaşdılar. Xalqın fikri ilə maraqlanan isə yox idi. AXC hakimiyyətə gəlişini legitimləşdirmək istəyirdi. Ali Sovetin 14 may qərarlarının qəbulu zamanı kvorum olmadığını sübuta yetirməyə çalışan komissiyanın rəyini parlamentin sədri qəbul etmək istəmir, kompromis tərəfdarlarının xeyrinə siyasi güzəştlər əldə etməyə çalışırdı. Yaranmış böhrandan çıxmaq üçün mayın 16-17-də tərəflər arasında sövdələşmə oldu. Koalision hökumət yaradılması və İsa Qəmbərovun Ali Sovet sədrliyinə namizəd göstərilməsi qərara alındı.[162]

Ali Sovetin mayın 18-də keçirilmiş sessiyasında qeyd olundu ki, mayın 14-də parlamentin qəbul etdiyi qərarlar qanuni deyildir. Ali Sovetin sədri Yaqub Məmmədovun istefası qəbul edildi. Bu vəzifəyə, bir qrup deputatın təkidli tələbi ilə İsa Qəmbərovla yanaşı, Heydər Əliyevin də namizədliyi irəli sürüldü. Lakin razılıq almaq üçün guya onunla telefon əlaqəsi yaratmaq mümkün olmadı. İsa Qəmbərov Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Yeni seçkilərə qədər prezident səlahiyyətlərini yerinə yetirmək ona həvalə olundu. Ali Sovetin Milli Şurası "Milli Məclis" adlandırıldı və parlament səlahiyyətləri ona verildi. Koalision hökumətə, əsasən, AXC və keçmiş kommunistlər daxil idi.[164]

Bakıda hakimiyyət davası getdiyi vaxt silahlı qüvvələrin Laçından çıxarılmasından istifadə edən düşmən mayın 18-də Laçını işğal etdi. Dağlıq Qarabağ separatçıları ilə Ermənistan arasında birbaşa əlaqə - dəhliz yarandı.[165]

İnsanlar AXC-nin nəyin hesabına və necə hakimiyyətə gəldiyini, əksər liderlərinin məqsədinin yalnız bundan ibarət olduğunu anlayıb ondan daha çox uzaqlaşdılar.

Azərbaycan xalqı həmin günlərdə Naxçıvan MR-dəki hadisələri, Heydər Əliyevin xalqı, ordunu səfərbər etməsini, düşünülmüş diplomatik tədbirlər görməklə düşmənin güclü hücumlarının qarşısını uğurla almasını böyük ümid və həyəcanla izləyirdi. 1992-ci il may ayının əvvəllərində Naxçıvan MR-də, Azərbaycanın Ermənistanla sərhədlərində gərginlik yenidən artmışdı. Düşmən Şuşa və Laçının işğalı zamanı Ermənistan hərbi hissələrinə arxadan, Naxçıvan tərəfdən hücum olacağından ehtiyatlanaraq oradakı hərbi hissələrin başını qatmaq, həm də Azərbaycanda yaranmış xaosdan bəhrələnərək yeni torpaqlar ələ keçirmək

niyyətində idi. Mayın 18-də Muxtar Respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və s. kəndlərinə güclü hücumlar başlandı. Erməni faşistləri hətta zəhərli kimyəvi silahdan istifadə edirdilər. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Naxçıvanlılar qəhrəmanlıqla vuruşurdular. Xeyli ölən və yaralanan vardı. Kəndlər dağılmışdı. On minlərlə insan çadırlarda, meşələrdə ağır şəraitdə yaşamağa məcbur olmuşdu.[166]

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev erməni təcavüzünün qarşısını almaqda diplomatik vasitələrdən geniş istifadə etdi. Hələ martın 23-də onun Türkiyəyə səfəri zamanı baş bakan Süleyman Dəmirəl bütün dünyaya bəyan etmişdi ki, Naxçıvan MR-in statusunda bir dəyişiklik meydana gələrsə, mövcud müqaviləyə əsasən Türkiyə öz sözünü deyəcəkdir.[167] Mayın 18-də gecə Türkiyə Nazirlər Kabineti toplanıb geniş bəyanat qəbul etdi. Türkiyə rəhbərlərinin və Heydər Əliyevin birgə səyləri sayəsində erməni təcavüzkarlarının niyyəti dünya ictimaiyyətinə çatdırıldı. 57 dövlət bu təcavüzü pislədi. NATO xüsusi bəyanat verdi.[168] Rusiya burada geri çəkilməyə məcbur oldu. MDB Birləşmiş Silahlı Qüvvələrinin Baş komandanı marşal Şapoşnikovun qeyd etdiyi kimi, Türkiyənin Naxçıvana kömək etməsi Üçüncü dünya müharibəsinə gətirib çıxara bilərdi.[169] Mayın 24-də Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi.[170]

Xalq təkidlə tələb etsə də, Heydər Əliyevin böyük siyasətə qayıtmaq, prezident seçilmək iddiası yox idi. Respublikada prezident seçkiləri adı altında gedən demokratiya oyununun həqiqi mahiyyətini dərk edən insanlar siyasi passivlik nümayiş etdirdilər.

İyunun 7-də keçirilən prezident seçkilərində AXC sədri Əbülfəz Elçibəyin qalib gəldiyi elan olundu.[171] Lakin bu, hakimiyyəti ələ keçirmiş, dövlətçilik təcrübəsi olmayan iddialı adamlar üçün əslində qələbə deyil, böyük məğlubiyyətin, iflasın başlanğıcı idi.

Tezliklə hakimiyyətdə xalq cəbhəsi - kommunist alyansını AXC-Müsavat tandemi əvəz etdi.

Hakimiyyəti ələ almış qüvvələr onu saxlaya, möhkəmləndirə və ondan xalqın xeyrinə səmərəli istifadə edə bilmədilər. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardı.

Başlıca səbəb bu idi ki, AXC-Müsavat tandemini hakimiyyətə gətirən qüvvələr onun möhkəmlənməsini istəmirdilər. Onlara Azərbaycanda güclü dövlət lazım deyildi. Zəif dövlətə təzyiq göstərmək daha asan idi.

Cəmiyyət xeyli dəyişmiş, çoxlu siyasi partiya və hərəkat meydana çıxmışdı. Mövcud siyasi təşkilatlar sırasına 1991-ci ilin payızında "Azərbaycan İslam Partiyası", "Vahid Azərbaycan uğrunda Mübarizə İttifaqı", "Azərbaycanın Qarabağa Nicat Cəmiyyəti" və s. daxil olmuşdu.

1992-ci il iyunun 3-də "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edilmişdi.[172] 1992-ci ilin yayında "Azərbaycan Milli İstiqlal Partiyası", "Türk Dünyası Birliyi Partiyası", "Çağdaş Turan Partiyası" yaranmış, həmin ilin payızında "Müsavat" Partiyasının bərpa qurultayı keçirilmiş, "Yeni Azərbaycan Partiyası", "Boz qurd" Partiyası fəaliyyətə başlamışdı. 1993-cü ilin yayında "Azərbaycan Demokratik İstiqlal Partiyası", payızında isə "Vətəndaş Həmrəyliyi Partiyası" təşkil edilmişdi.[173]

İctimai təşkilatlar arasında xaricdə yaşayan soydaşlarla mədəni əlaqələr - "Vətən" Cəmiyyəti, "Azərbaycan Mədəniyyət Fondu", "İnkişaf" Assosiasiyası, H.Z.Tağıyev adına "Xeyriyyə Fondu", "Bakılı" Cəmiyyəti, Bakı İncəsənət Mərkəzi, respublikada yaşayan azsaylı etnik qrupların "Rus İcması", "Содружества" (Birlik) cəmiyyətləri, Azərbaycan Slavyan Mədəniyyət Mərkəzi, Azərbaycan Kazaklar Birliyi, Ləzgi Milli Mərkəzi, "Avar", "Ronai" kürd, "Tat", "Dağıstan" cəmiyyətləri, tatar, gürcü, talış, ukraynalı icmaları, dağ Avropa yəhudilərinin dini icmaları vardı. 1992-ci ilin payızında "Azərbaycan Azad Müəllimlər Birliyi" yaradılmışdı. 1993-cü ilin fevralında Azərbaycan Həmkarlar İttifaqı Şurası XIX növbədənkənar qurultayında özünü buraxdı. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası təşkil olundu.[174]

1993-cü ilin ortalarında respublikada 30-a qədər siyasi partiya, cəmiyyət və hərəkat fəaliyyət göstərirdi.[175] Onlar arasında da qarşılıqlı konstruktiv münasibət yox idi.

AXC-Müsavat tandemi xalq arasında gündən-günə nüfuzu artan Heydər Əliyevə qarşı ciddi mübarizəyə başlamışdı. 1991-ci ilin dekabr ayından Naxçıvan MR-ə qaz, 1992-ci ilin iyul ayından elektrik enerjisi verilmirdi. 1992-ci ilin aprel ayından buraya qatarların hərəkəti tam dayandırılmışdı.[176] Muxtar Respublika blokadaya düşmüşdü. Heydər Əliyev çox ağır bir şəraitdə Naxçıvan MR-i müvəffəqiyyətlə idarə edirdi. Naxçıvanlılar aclığa, qışda 40 dərəcə şaxtaya dözürdülər. Ağacların 70 faizi kəsilib yandırıldı. 1992-ci il martın 22-25-də Heydər Əliyev Türkiyə Respublikası hökumətinin dəvəti ilə Türkiyəyə səfər edib, qardaş ölkənin dövlət başçıları ilə danışıqlar apardı. Türkiyə Naxçıvana 100 min dollar kredit verdi və bunun hesabına ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi.[177]Az bir vaxtda İqdır-Naxçıvan elektrik xətti çəkildi, Muxtar Respublika Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. Sədərək-Türkiyə yolu tikildi. Qarşılıqlı avtonəqliyyat əlaqələri yaradıldı. "Türksat" rabitə şirkəti Naxçıvanın Bakı ilə telefon əlaqəsini bərpa etdi. 1992-ci il mayın 28-də Naxçıvan ilə Türkiyə arasında "Sədərək-Dilucu" 228 m-lik "Ümid körpüsü" açıldı.[178] 1992-ci ilin martında Naxçıvan yeni hava limanının birinci növbəsi istifadəyə verildi.[179]

Heydər Əliyev 1992-ci il avqustun 22-26-da İran İslam Respublikasının dəvəti ilə Tehrana səfər etdi. Naxçıvan MR-in ehtiyacları ilə bağlı qonşu dövlətlə

danışıqlar aparıldı.[180] Dekabrın 3-də Şaxtaxtı-Poldəşarası üzən körpü istifadəyə verildi.[181] Müştərək bazarlar açıldı. İran Naxçıvana elektrik enerjisi verməyə başladı.[182] Heydər Əliyevin gərgin əməyi, diplomatik fəaliyyəti sayəsində Naxçıvan MR-in nəqliyyat, enerji blokadası yarıldı, əhali sözün əsil mənasında aclıqdan və ölümdən xilas oldu.

Muxtar Respublikada Heydər Əliyevin rəhbərliyi altında dövlət quruculuğu, hakimiyyət və idarəetmə işlərinin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. İqtisadi islahatlar keçirildi, mal-qara, torpaqlar camaata paylandı. Sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı.[183]

Heydər Əliyev AXC-Müsavat hökumətinə qarşı müxalifətdə dayanmır, ona köməklik göstərməyə çalışırdı. Surət Hüseynov ilk dəfə ona tabe olan qüvvələri cəbhədən çıxarıb iqtidarla münaqişəyə başlayarkən, Heydər Əliyev bu oyunların nə qədər təhlükəli olduğunu bildirərək dövləti, prezident Elçibəyi müdafiə etdiyini bəyan etmiş və bütün qüvvələri onun ətrafında birləşməyə çağırmışdı.[184]

Lakin AXC-Müsavat iqtidarı Azərbaycanda hakimiyyətə qayıtmaq iddiasının olmadığını dəfələrlə bəyan etmiş müdrik siyasətçi Heydər Əliyevin məsləhətlərinə əməl etmək əvəzinə, onu separatçılıqda günahlandırır, Naxçıvan MR-də çevriliş etməyə, burada qeyri-demokratik yolla xalq cəbhəsi hakimiyyəti qurmağa çalışırdı. 1992-ci il oktyabrın 24-də Naxçıvanda xalq cəbhəsinə məxsus silahlı dəstələr Muxtar Respublika Daxili İşlər Nazirliyi, Televiziya və Radio Verilişləri Komitəsi, Rabitə İdarəsi, şəhər elektrik şəbəkəsi binalarını, habelə telestudiyanı zəbt edib hakimiyyət əleyhinə bəyanat verdilər.[185] Lakin xalq onları müdafiə etmədi. Əhalinin böyük əksəriyyəti ayağa qalxdı. Hətta Nehrəm, Cəhri kəndlərindən adamlar piyada Naxçıvan şəhərinə yürüş etdilər. Qısa bir vaxtda 50 mindən çox adam Heydər Əliyevi müdafiə etmək üçün Ali Məclis binasının qarşısına gəldi. Xalq Cəbhəsi silahlıları parlament binasına hücum etməkdən çəkindilər. Bakıda hazırlanmış xüsusi cəza dəstəsi Naxçıvana gəlməyə cəsarət etmədi. Camaat silahlı dəstələri dövlət idarələrindən qovub çıxardı. [186]

Heydər Əliyevi Muxtar Respublikada hakimiyyətdən uzaqlaşdırmaq üçün iqtidar hətta Naxçıvanın mövcud statusunu ləğv etməyə və ya Muxtar Respublika Ali Məclisinin hüquqlarını məhdudlaşdırmağa cəhd göstərirdi. Respublikanın dövlət katibi 1992-ci ilin noyabr ayında Bakı Dövlət Universitetində çıxışında Naxçıvanın muxtar statusuna qarşı çıxmışdı.[187] AXC-nin II qurultayında da bu fikir səslənmişdi.[188] Bütün bunlar Naxçıvanın muxtariyyət statusunu müəyyən edən qüvvədə olan Moskva (1921-ci il 16 mart) və Qars (1921-ci il 13 oktyabr) beynəlxalq müqavilələrinə, habelə 1969-cu il Vyana konvensiyası tələblərinə zidd idi.

Lakin Heydər Əliyev diplomatik uzaqgörənliyi sayəsində Naxçıvanın statusunu qoruyub saxladı. Türkiyə Respublikasının rəhbərliyi ilə görüşərkən

Moskva və Qars müqavilələrinin prinsipial müddəalarının qüvvədə olduğunu bütün dünyaya bəyan etdi. Muxtar Respublikanın Ali Məclisi 1992-ci il 25 oktyabr tarixli qərarı ilə mövcud səraitdə AXC-Müsavat iqtidarının Muxtar Rcspublikanın statusu ilə bağlı əsassız, zərərli iddialarını qəti rədd etdi. Qeyd olundu ki, "...xüsusi coğrafi və geosiyasi şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl Muxtar Respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər hansı bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan MR-in hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır".[189]

Heydər Əliyevin Naxçıvan MR-də cəsarətli və məqsədyönlü siyasəti Azərbaycanın bütün regionlarının diqqət mərkəzində idi. Xalqın ona olan inamı və ümidi daha da möhkəmlənirdi.

Hakimiyyət davası AXC-ni daxildən parçalamışdı. "Vəzifəyə gələnlər"lə "kənarda qalanlar" arasında münaqişə, didişmə başlandı. May çevrilişindən sonra AXC-yə üzv olanları "köhnə cəbhəçilər" vəzifələrə yaxın buraxmırdılar.[190] Ə.Elçibəy etiraf edirdi ki, "Xalq Cəbhəsində bəzən bir-birimizə qarşı elə diş-dişə, dırnaq-dırnağa dururuq ki, nəinki ətrafdakı rəqiblər, hətta ermənilər də yaddan çıxırlar".[191] Nüfuzlu ziyalılar yaxın buraxılmırdı. İdarəçiliyə, əsasən, heç bir təcrübəsi olmayan, səriştəsiz adamlar gəlmişdi. Onların çoxu fürsət ələ düşmüşkən çalıb-çapmaqla məşğul olurdu. Dövlət başçısı AXC-nin 1993-cü il 27 fevral tarixli müşavirəsində qeyd etmişdi ki, "dövləti icra hakimiyyəti başçıları və hüquq mühafizə orqanları işçiləri nüfuzdan salır".[192] Mayın 25-də keçirdiyi müşavirədə Elçibəy bildirirdi: "Ölkəni korrupsiya bürüyüb. Respublikada rüşvət baş alıb gedir... Bundan bezmiş insanlar kommunistlərə rəhmət oxuyur. Azərbaycan benzini Ermənistana satılır. Xalq bir gün məmurlardan qisas alacaq".[193]

Kadr siyasətindəki səhvlər, idarəçilikdə olan ciddi qüsurlar xalqı, qabaqcıl ziyalıları iqtidardan daha da uzaqlaşdırırdı.

AXC-Müsavat iqtidarı hakimiyyəti əldə saxlamaq üçün qanunsuzluqlara yol verirdi. Demokratiya ciddi şəkildə sıxışdırılır, hərbi-polis rejimi yaradılması üçün cəhdlər göstərilirdi. Parlament sədri "Demokratiya boş şeydir!" deyirdi.[194] Opponentlərə hücum, qarayaxma, böhtan kampaniyası genişlənirdi. Cəmiyyətdə vahimə, qorxu yaratmaq üçün vəzifəli şəxslər özbaşınalıq edirdilər. Daxili işlər naziri şəxsən "İstiqlal" qəzetinin redaktorunu döymüşdü. "Meydan" qəzetinin redaksiyası bir dəstə "omonçu" tərəfindən yerlə-yeksan edilmişdi. Alimlərin, söz sahiblərinin döyülməsi, təhqir edilməsi, təqib olunması, qətlə yetirilməsi adi hala çevrilmişdi.[195]

AXC-nin dövlət orqanlarını əvəz etmək cəhdləri artırdı. AXC orduya alternativ silahlı dəstələr yaradırdı. 1993-cü il fevralın 10-da AXC-nin ümumi yığıncağında bu təşkilatın bütün rayon şöbələrində cəbhəçilərdən ibarət taburlar təşkil edilməsi qərara alınmışdı. AXC İcraiyyə Komitəsi sədrinin 17 fevral tarixli

əmri ilə bu sahədə əməli işə başlanmışdı[196] (doğrudur, AXC Ali Məclisi sonra bu qərarı və əmri ləğv etdi, lakin iqtidarı müdafiə etmək üçün qanunsuz silahlı dəstələrin yaradılması davam edirdi).[197]

AXC ilə Müsavat elitası arasında münasibətlər 1992-ci ilin payızından soyuqlaşmağa başladı. Elçibəyin "qətiyyətsizliyindən və acizliyindən" narazılıq artırdı.[198] Buna görə də Elçibəy idarəçilik işlərində AXC strukturuna, xüsusən İcraiyyə Komitəsinə (İK) güvənməyə başlamışdı.[199] AXC İK-nın respublikada hərbi-siyasi durum haqqında 1993-cü il 8 fevral bəyanatı əslində AXC-nin diktaturasını təşkil etməyin vacibliyi barədə cəmiyyətdə yəqinlik yaratmaq məqsədi güdürdü.[200] AXC hərbi hissələri sürətlə təşkil olunub silahlandırılırdı.[201]

Müxalifətdə olan 9 partiya 1993-cü ilin fevralında AXC-yə qarşı Ümummilli cəbhə yaratmağa çalışırdı.[202] Fevralın 18-də 21 siyasi partiyanın təmsil olunduğu forumda bəzi partiya liderləri mövcud siyasi böhranın qarşısını almaq üçün Milli Şuranı, Nazirlər Kabinetini buraxmağı, prezidentin başçılığı ilə bütün siyasi qüvvələrin nümayəndələrinin daxil olduğu "Fövqəladə Dövlət Milli Qurtuluş Komitəsi" yaradılmasını təklif etdilər.[203] Kəlbəcərin işğalından sonra ölkədə siyasi durum daha da ağırlaşdı. İqtidar aprelin 3-dən fövqəladə vəziyyət, aprelin 8-dən isə Bakıda qadağan saatı tətbiq etdi. Azərbaycan Respublikası Ali Sovetinin 140-dək deputatı isə imza toplayıb aprelin 27-də parlamentin tam tərkibdə sessiya çağırmasını və ölkədəki ictimai-siyasi vəziyyətin müzakirə olunmasını tələb edirdi. Milli Məclis bu tələbi rədd etdi və onu dövlət çevrilişinə cəhd kimi qiymətləndirdi.[204]

İqtidar güc orqanlarına nəzarəti, demək olar ki, tam itirmişdi. Daxili işlər naziri öz tərəfdarları hesabına polisin sayını 10 min nəfər artırmış, "Boz qurd" adlı siyasi-silahlı dəstəsini təşkil etmişdi. Daxili qoşun hissələrində "bozqurd"lar və "omonçu"lar arasında münaqişə başlanmışdı. Hətta "omonçu"lar Daxili İşlər Nazirliyi binasını mühasirəyə alıb nazirin istefasını tələb etmişdilər.[205] Silahlı dəstələr getdikcə pozğunlaşır, bir çoxları quldurluq, qarətçiliklə məşğul olur, mafioz dəstələrin silahına çevrilirdi.

AXC-Müsavat hökumətinin cinayətlərindən biri yeni formalaşmaqda olan orduya nəzarəti tam itirməsi idi.

Doğrudur, keçmiş sovet ordusu mülkiyyətinin az bir hissəsinin Azərbaycan Ordusuna verilməsi onun maddi vəziyyətini nisbətən yaxşılaşdırmışdı. Bakı Ali Ümumqoşun (1991-ci il 17 dekabr), Ali Hərbi Dənizçilik (1992-ci il 3 iyun) məktəbləri Azərbaycan Müdafiə Nazirliyinin sərəncamına verilmişdi.[206]1992-ci il fevralın 20-də ilk Azərbaycan aviaeskadrilyası, həmin ilin iyununda isə onun əsasında ilk aviapolk təşkil edildi.[207] 1992-ci ilin aprelində Xəzər Donanması mülkiyyətinin 25 faizi, o cümlədən Ali Hərbi Dənizçilik Məktəbi Azərbaycan Respublikasına verildi. Azərbaycan Respublikasının Dövlət Bayrağı iyunun 26-da

"Bakılı" keşikçi gəmisində qaldırıldı.[208] 1992-ci ilin iyun-avqust aylarında Azərbaycan Ordusunun I və II korpusları yaradıldı və əvvəlki hərbi hissələr bu korpuslara daxil edildi. "Hərbi tribunallar haqqında" 1992-ci il 27 may, "Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" 1992-ci il 10 iyun, "Hərbi xidmət haqqında" 1992-ci il 3 noyabr tarixli qanunlar, Müdafiə Nazirliyində vahid komandanlıq yaradılması haqqında 1992-ci il 27 iyun tarixli Dekret qəbul olundu.[209] Lakin bunlar kadr siyasətinin düzgün qurulmaması üzündən səmərə vermirdi.

1992-ci il 16 may sövdələşməsinə görə "Moskvanın adamı" hesab etdiyi Rəhim Qazıyevi hərbi nazir vəzifəsində saxlayan iqtidar onu neytrallaşdırmaq məqsədilə Surət Hüseynovun hərbi-siyasi qüvvəsini himayə edib gücləndirdi. Surət Hüseynov 1992-ci il avqustun 8-dən korpus komandiri, oktyabrın 8-dən Azərbaycanın Milli Qəhrəmanı, prezidentin Dağlıq Qarabağ və cəbhə bölgəsində səlahiyyətli nümayəndəsi oldu. Elçibəy sonralar etiraf edirdi ki, "Rəhim Qazıyev, Surət Hüseynov və Əlikram Hümbətovun xarici dövlətlərə işlədiyini bilirdik, sadəcə olaraq, onlarla bacarmırdıq".[210] İqtidarın acizliyi üzündən hərbi qüvvəyə arxalanan "sərkərdələr" hakimiyyət uğrunda mübarizə aparırdılar. Buna görə də bir sıra döyüşlərdə xalqın qəhrəman oğullarının qanı bahasına əldə edilən uğurlar sonrakı məğlubiyyətlər hesabına heçə endirilirdi.

1992-ci ilin ikinci yarısındakı hərbi əməliyyatlar bunu sübut edir. 1992-ci il iyunun 4-də ilk dəfə erməni qəsbkarları Ağdaban və Çərəkdar kəndləri yaxınlığında Azərbaycan hərbi hissələrinin güclü müqaviməti ilə üzləşdilər. İki saat yarıma Əsgəran rayonunun Aranzəmin, Pircamal, Naxçıvanik kəndləri erməni silahlılarından təmizləndi. Sırxavənd, Orta və Baş Güneypəyə, Kiçan, Bəşirlər, Maniklu və Qaraşlar kəndlərindən də düşmən qovulub çıxarıldı.[211] 1992-ci il iyunun 12-də Azərbaycan silahlı qüvvələri podpolkovnik N.Sadıqovun rəhbərliyi altında Ağdərədə irimiqyaslı hücum əməliyyatına başladı. Üç-dörd gün ərzində 30-a qədər kənd, o cümlədən Yuxarı Canbuz, Aşağı Canbuz, Buzluq, Gülüstan, Talış, Zeyvə, Qaraçinar, Erməni Borisi, habelə Ortakənd qəsəbəsi düşməndən azad edildi, strateji əhəmiyyətə malik ərazilər nəzarət altına alındı. Ermənistan ekspedisiya korpusu birləşmələri və yerli erməni hərbi hissələri çoxlu canlı qüvvə (500-dən çox əsgər və zabit, o cümlədən 9 zənci) və hərbi texnika, o cümlədən bir təyyarə itirib meydandan qaçdı.[212] Azərbaycan hərbi hissələri Xankəndinin 10-15 km-nə çatmışdı.[213] İgid Azərbaycan döyüşçüləri Kəlbəcər-Tərtər yolu üstündəki kəndləri azad etmişdilər. 1992-ci il yay döyüşlərində Vəzir Orucov, Rəmzi Novruzov, Şaiq Mustafayev, Yunis Əliyev, Sərhəd Zöhrabbəyov, Yavər Cəbrayılov kimi yüzlərlə igid əsgərimiz rəşadətləri ilə fərqlənmişdilər. Gültəkin Əsgərova, Nurcahan Hüseynova, Könül Qəhrəmanova, Rəhilə Orucova, Məleykə

Əhmədova kimi onlarla qadın döyüşlərdə igidlərə arxa olmuş, mərdliklə vuruşmuşdular.[214]

Avqustun 5-də Azərbaycan silahlı qüvvələri Ermənistanın Azərbaycan ərazisindəki anklavını - Başkəndi tutdular.[215]

Düşmən əks-hücuma keçmək üçün qüvvələrini cəmləşdirdi. Laçın yolu vasitəsilə Ermənistandan çoxlu yeni canlı qüvvə, texnika gətirildi. İyunun ortalarında ermənilər Ağdərə rayonunda Maqavuz və Orataq kəndlərini tutub Sərsəng su anbarını nəzarət altına aldılar. Sentyabrın ilk günlərində Ağdam istiqamətində Abdal-Gülablı, Xromot, Dəhraz, Ağbulaq, Aranzəmin, Pircamal, Naxçivanik, Qaraşlar, Qazançı və Bəşirlər kəndləri düşmən tərəfindən işğal edildi. Sentyabrın 23-də Azərbaycan hərbi hissələri Xocavənd yaxınlığında düşmənə güclü zərbələr endirdilər.[217]

Oktyabrın əvvəllərində Qubadlı tərəfdən Laçına yeridilən qüvvələr Suarası, Xanallar, Dəhyan, Cəfərabad, Mıxıdərəsi, Mazutlu, Fətəlitəpəyə, Malxələf kəndlərini işğalçılardan azad etdi. Bu vaxt Azərbaycan ordusunun Kəlbəcərdəki hissələri cənub istiqamətində hücum edib Laçın dəhlizini daraltdılar. İki briqada arasında cəmi 6 km məsafə qalmışdı. Lakin hərbi rəhbərlikdə Rusiya meyilli qüvvələrin təxribatı artdı. Hücum davam etdirilmədi. Ə.Hümbətov oktyabrın 5-də tank briqadasını geri çəkdi. Tutulmuş mövqelər yenidən düşmən əlinə keçdi.[218]

Düşmən oktyabrın 12-də Hadrutdan böyük qüvvə ilə Qubadlının Torağac-Düzyurd yüksəkliyinə hücum etdi və onu ələ keçirdi. 16 gün gecə-gündüz davam edən döyüşdə strateji yüksəklik düşməndən geri alındı.[219] Dekabrın 10-da Ermənistan silahlı qüvvələri Azərbaycanın Qubadlı və Zəngilan rayonlarına soxulub bir neçə kəndi ələ keçirdi və yandırdı. Düşmən Tovuz və Gədəbəy istiqamətində də hücum etdi. Azərbaycan silahlı qüvvələri onları geri oturda bildi - Ermənistan ərazisindəki hərbi bazalar atəşə tutuldu.[220]

Lakin Azərbaycan hərbi hissələri zəifləmişdi. Hərbi texnika bərbad vəziyyətdə idi. Ordu demək olar ki, yox idi. Silahlı qüvvələrin başçıları Dövlət Müdafiə Şurasına, Ali Baş Komandana tabe olmurdular. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Respublikanın Ağdam, Qazax, Kəlbəcər, Qubadlı, Laçın, Tovuz və Şəmkir rayonlarında müdafiə sədlərinin tikilməsi və müdafiə zolağının mühəndis qurğuları ilə təmin edilməsi tədbirləri haqqında" 1992-ci il 23 avqust tarixli qərarı yerinə yetirilmirdi.[221] Rəhbər vəzifələrdə qeyri-mütəxəssislər işləyirdi. Ehtiyatlar yaradılmır, silah-sursat uçotu aparılmırdı. Oğurluq, rüşvətxorluq baş alıb gedirdi.[222]

1992-ci ilin axırları - 1993-cü ilin əvvəllərində Azərbaycan Silahlı Qüvvələri müdafiə naziri R.Qazıyevin təkidi ilə yenidən ağır döyüşlərə cəlb edildi və böyük məğlubiyyətlərə düçar oldu. 1993-cü il yanvarın 26-da Fərrux yüksəkliyi ətrafındakı döyüş cəlb edilən qüvvələrin miqyasına görə Qarabağ müharibəsində

ən böyük döyüşlərdən biri oldu. Düşmənə əsas zərbələr Yeddixırman-Fərrux və Xromot-Fərrux istiqamətində vurulmalı idi. Döyüşlərdə Azərbaycan silahlı qüvvələri məğlub oldular, ağır itkilər verib geri çəkildilər. Vaxtı çatmamış əməliyyatlar keçirməklə R.Qazıyev respublikanı ordusuz, silahsız və texnikasız qoydu.[22]

Cəbhədəki uğursuzluqlar ölkədə siyasi vəziyyəti daha da dərinləşdirdi. İmperiyapərəst qüvvələr fəallaşdı. Dövlət çevrilişi etməyə hazırlıq məqsədilə korpus komandiri Surət Hüseynov 1992-ci ilin dekabrında qüvvələrini Kəlbəcərin strateji yüksəkliklərindən geri çəkdi. 1993-cü il yanvarın 28-də Ağdərə bölgəsindən hərbi texnikanı çıxarıb Gəncəyə gətirdi.[224] 1993-cü il fevralın 5-nə keçən gecə Ermənistan ekspedisiya korpusu Rusiyanın 7-ci ordusunun 128-ci motoatıcı alayı və kazaklardan ibarət silahlı dəstənin iştirakı ilə Ağdərə istiqamətində hücuma keçdi. Fevralın 15-dən 16-na keçən gecə Ağdərə-Kəlbəcər yolu düşmən tərəfindən tutuldu.[225]

Müdafiə naziri R.Qazıyev və korpus komandiri S.Hüseynov vəzifələrindən kənar edildilər. Onların təsiri altında olan hərbi hissələr Müdafiə Nazirliyinə tabe olmaqdan imtina etdi. Düşmən yaranmış vəziyyətdən məharətlə istifadə edib, 1993-cü il martın 10-dək Ağdərə bölgəsinin bir çox yaşayış məntəqələrini ələ keçirdi. Martın 20-dən həm Ermənistan, həm də Ağdərə tərəfdən Kəlbəcər güclü atəşə tutuldu. Rayonun müdafiəsi, demək olar ki, təşkil edilməmişdi. Əksinə, hərbi bölmə və texnikanın bir hissəsi buradan çıxarılmışdı. Bu, bir tərəfdən, satqın ordu rəhbərliyinin imperiyapərəst qüvvələrə nökərçiliyi, digər tərəfdən, respublika rəhbərliyinin Kəlbəcəri təslim etməklə Ermənistanı təcavüzkar bir dövlət kimi tanıtmaq cəhdi ilə bağlı idi. 1993-cü il martın 26-da həmin rayonun Ağdaban kəndi ikinci dəfə düşmən əlinə keçdi və yandırıldı (birinci dəfə 1992-ci il aprelin 8-də tutulmuşdu). Martın 28-də düşmən mühüm strateji əhəmiyyətə malik Qaraqaya yüksəkliyini tutdu. Bir gün sonra Başıbel-Tunel yolu ələ keçirildi. Martın 31-də Qamışlı körpü də tutuldu, Kəlbəcər tam mühasirəyə düşdü. Aprelin 3-də Kəlbəcər düşmən tərəfindən işğal olundu.[226]

Respublika iqtidarının laqeydliyi üzündən hərbi hissələr geri çəkilərkən əhalini bölgədən vaxtında çıxarmaq mümkün olmadı. Erməni faşistləri tərəfindən 15 min adam əsir alındı. Ermənilər işləyə bilməyən qocaları və uşaqları yerindəcə güllələyirdilər. Rayonda 144 yaşayış məntəqəsi işğal edildi. 500-dən çox müəssisə, 13 min ev, şəxsi təsərrüfatlarda olan 100 min baş qaramal, 500 min baş davar, 5000 baş at, 1 milyon ev quşu, 50 min arı ailəsi, 195 min xalça və s. qarət edildi.[227]

Silahlı qüvvələrin parçalanmasına qəsdən şərait yaratmış iqtidar artıq onlara təsir vasitələrini itirmişdi və çıxış yolunu yeni bir siyasi-silahlı qüvvə-orduda hökumətə sadiq hərbi hissələr, habelə qeyri-rəsmi silahlı dəstələr təşkil etməkdə görürdü.[228]

AXC-Müsavat tandemi hökuməti xarici siyasətdə də ciddi qüsurlara yol verdi, böyük dövlətlərin iqtisadi və siyasi maraqlarına əsaslanan dünya siyasətini düzgün qiymətləndirmədi. Dövlətçilik təcrübəsi olmayan bu hökumətin Türkiyəyə meylini açıq nümayiş etdirməsi nəinki Rusiya və İranı, həm də Azərbaycanın gələcəkdə Türkiyədən asılı olacağından ehtiyatlanan Qərb dövlətlərini narahat edirdi. Elçibəy daxildə Dağlıq Qarabağ problemini həll edə bilmədiyi halda, gah İrana, gah da Çinə türklərin hüquqlarının müdafiəsi ilə bağlı mövcud şəraitdə heç nə ilə bəraətlənməyən, əksinə, vəziyyəti daha da ağırlaşdıran bəyanatlar verirdi.[229]

Hansı tərəfdən daha çox faydalanmağın mümkünlüyünü ölçüb-biçən "dünya siyasəti nəhəngləri" çox ləng tərpənirdilər. "Minsk qrupu"nun işi, demək olar ki, hiss edilmirdi.

ABŞ konqresi 1992-ci il oktyabrın 24-də Azərbaycanı guya Ermənistanı blokadaya salmaqda günahlandırıb, "Azadlığa Dəstək Aktı"na Azərbaycana dövlət səviyyəsində hər cür, o cümlədən humanitar yardım göstərilməsinə sərt məhdudiyyətlər qoyan 907-ci əlavəni qəbul etdi.[230]

İqtidarın səbatsız siyasəti nəticəsində regionda, o cümlədən Azərbaycan daxilində müxtəlif dairələrdə boyük təsir gücünə malik olan Rusiya respublikaya qarşı təzyiq siyasətindən onu "cırtdan dövlət"lərə parçalamaq siyasətinə keçdi. Rusiya öz qoşununu Azərbaycandan, başqa postsovet respublikalarında olduğu kimi, mərhələlərlə, ağır şərtlərlə deyil, tezliklə çıxardı və bu zaman Azərbaycana çatacaq silahın bir hissəsini döyüşən tərəflər arasında payladı. Talış, ləzgi separatçılarını qızışdırıb silahlandırdı. "Ləzgistan dövləti", "Talış Muğan Respublikası", Rusiyanın "Bakı quberniyası" ideyalarını irəli atdı.[231] Azərbaycan hökuməti isə bu ideyaların yayılmasına münasib imkanlar yaratdı. "Azərbaycançılıq" ideyasının arxa plana keçirilməsi özünü Azərbaycan xalqının tərkib hissəsi hesab edən qeyri-türk mənşəli etnik qrup və xalqları narazı saldı. Bundan xarici və daxili düşmənlər məharətlə istifadə etdilər. 1992-ci ilin aprel-may aylarında Ermənistanın kəşfiyyat idarəsi separatçı ləzgi "Sadval" (Birlik) təşkilatı vasitəsilə milliyyətcə ləzgi olan 17 Azərbaycan vətəndaşının Ermənistanın Nairi rayonu Lusoker qəsəbəsindəki hərbi təlim-məşq bazasında xüsusi hazırlıq keçməsini təşkil etdi. Onlardan biri sonralar (1994-cü il martın 19-da) Bakı metropolitenində partlayış törətdi və özü də alçaq əməlinin qurbanı oldu[232] 1992-ci ilin iyununda Dağıstandan gələn "sadval"çılar Qusarda bir qrup insanı qızışdırıb Azərbaycan dövlətçiliyi əleyhinə mitinqlər təşkil etdilər. İyunun 11-də silahlı "sadval"çılar Qusar şəhərində Azərbaycan Respublikasının bayrağını çıxardılar. İki gün sonra bir qrup qusarlını avtobuslarla Dağıstanın Məhərrəmkənd yaşayış məntəqəsində təşkil edilmiş mitinqə apardılar. Lakin Azərbaycanın ləzgi vətəndaşlarının böyük əksəriyyəti imperiya qüvvələrinin bu təxribatlarına uymadı. 1993-cü il martın 31-də ləzgilər "Samur" Ləzgi Mədəniyyət Mərkəzinin təşəbbüsü

ilə Rusiya səfirliyinin Bakıdakı binası qarşısında piket keçirib iki xalq arasında qarşıdurma yaradanlara etirazlarını bəyan etdilər.[233]

Cənub rayonlarında talışlar arasında İrandan gəlmiş dini missionerlərin separatçılıq təbliğatı güclənmişdi.[234]

1992-ci ildən 1994-cü ilin əvvəllərinədək Rusiyanın ağır yük təyyarələri Ermənistana 1300 tondan çox hərbi texnika, silah, sursat daşıdı. Bu silahlar Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğal edilməsində həlledici rol oynadı.[235]

AXC-Müsavat hökuməti yalnız 1992-ci ilin axırlarında Rusiya ilə münasibətləri yaxşılaşdırmağın vacibliyini dərk etdi. Oktyabrın 12-də Elçibəy Moskvaya səfər edib B.Yeltsinlə görüşdü. İki ölkə arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı, sərhədlərin şəffaf olması haqqında razılıq əldə edildi.[236] Lakin Rusiya Azərbaycanı nüfuz dairəsində saxlamaq niyyətindən əl çəkmirdi. O, BMT-dən keçmiş SSRİ məkanındakı münaqişələrin həlli üçün mandat almağa səy göstərirdi. 1993-cü ilin martında Moskvada Rusiya və Fransa xarici işlər nazirləri Dağlıq Qarabağda hərbi əməliyyatların dayandırılmasına və münaqişənin dinc vasitələrlə həll edilməsinə kömək göstərməyə hazır olduqları barədə bəyanat imzaladılar.[237] Azərbaycan Rusiyanın bu səyinə qarşı xüsusi bəyanatla çıxış etdi.[238]1993-cü il martın 13-də respublikanın cənub sərhədlərinin müdafiəsi Azərbaycan sərhəd qoşunlarının sərəncamına verildi.[239] Nəticədə imperiyapərəst qüvvələr və onların yerli əlaltıları daha da fəallaşdılar. Cəbhələrdə vəziyyət gərginləşdi, ölkədə siyasi böhran daha da dərinləşdi.

Surət Hüseynovun başçılığı ilə 1993-cü il iyunun əvvəllərində hərbi qiyam başlandı. Hökumətə tabe olmaqdan imtina edən bir qrup zabit S.Hüseynovun başçılığı ilə hələ aprelin 3-də Gəncədə "Hərbi Birlik" adlı hərbi-siyasi təşkilat yaratmışdı. Birlik, onun təsiri altında olan 709 saylı hərbi hissə Ali Baş Komandana və Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.[240] Dövlət Müdafiə Komitəsi və Müdafiə Nazirliyinin 709 saylı hərbi hissənin ləğv olunması, tərksilah edilməsi haqqında 25 may qərarı və müdafiə nazirinin 31 may tarixli əmri yerinə yetirilmədi. Qiyamı yatırmaq üçün siyasi bacarığı olmayan iqtidar zora - silahlı qüvvələrə əl atdı. Parlamentin sədri, baş nazir, güc nazirlikləri başçılarının daxil olduğu Mərkəzi Qərargah yaradıldı. Elçibəyin göstərişi ilə cəbhə bölgələrindən qiyamçılara qarşı 3000-dək canlı silahlı qüvvə, o cümlədən daxili qoşunlar və milli qvardiyanın hərəsindən 200 nəfər, habelə xeyli ağır texnika, 7 tank, 10 "Qrad" qurğusu, 11 uzaqvuran top, 11 piyadalar üçün döyüş maşını cəlb edildi. Bundan başqa, "cəbhəçi könüllülər"dən ibarət üç tabur (1100 nəfər) təşkil edilib silahlandırılmışdı. İyunun 5-də əməliyyata hərbi hava qüvvələri də cəlb edilmişdi.[241]

Hökumət qüvvələri iyunun 4-də səhər saat 11-də qiyamçılara qarşı hücuma keçdi. Azərbaycan döyüşçüləri üz-üzə dayandı. 709 saylı hissənin kazarmaları dağıdıldı. Lakin qiyamçılar təşəbbüsü ələ aldılar.[242] Hökumət qüvvələrindən 1200 nəfər və respublika prokuroru girov götürüldü. Qvardiyaçıların bir hissəsi avtobusa doldurulub güllələbaran edildi. Qardaş qırğınında 68 nəfər öldü, 150 nəfər yaralandı. Hökumət qüvvələri məğlub oldu. Qiyamçılar isə hökumətə və prezidentə qarşı "istefa" tələbi ilə paytaxta doğru yeriməyə başladılar. S.Hüseynovun imzası ilə xalqa yağlı vədlərlə dolu itaətsizliyə çağırış vərəqələri yayılırdı. Yerlərdə - Qəbələ, Balakən, Gədəbəy, Tovuz, Göyçay, Ucar, Ağcabədi, Ağdam, Füzuli, Saatlı, Hacıqabul, Şamaxı, Qobustan, Ağsu, Yevlax rayonlarında, Mingəçevir, Əli Bayramlı, Sumqayıt şəhərlərində icra hakimiyyəti başçıları, digər vəzifəli şəxslər özbaşına dəyişdirilir, idarəçilik S.Hüseynova yaxın adamlara tapşırılırdı.[243] İyunun 14-də artıq qiyamçılar və hökumət qüvvələri Bakının lap yaxınlığında (Lökbatan yaxınlığında, Şamaxı yolunun 75 km-də) üz-üzə dayanmışdılar, atışma başlanmışdı. Hökumət danışıqlara getməyə məcbur oldu. Razılığa görə parlamentin sədri, baş nazir, üç güc nazirliyi rəhbərləri istefa verdilər.[244] Ölkədə hakimiyyət boşluğu yarandı.

II FƏSİL

# MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN QURULMASI VƏ MÖHKƏMLƏNDİRİLMƏSİ

## §1. QURTULUŞ HƏRƏKATI. VƏTƏNDAŞ QARŞIDURMASI, ÖLKƏNİ PARÇALAMAQ VƏ DÖVLƏT ÇEVRİLİŞİ CƏHDLƏRİ QARŞISININ ALINMASI

**Qayıdış.** Xalq böyük fəlakətin yaxınlaşdığını hiss edirdi. Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş imperiyapərəst qüvvələr və onların əlaltıları iqtidarın səriştəsizliyindən məharətlə istifadə edərək ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə çalışırdılar. Xalqın qabaqcıl qüvvələrinin başçılığı ilə ölkədə Qurtuluş hərəkatı başlandı. Hərəkatın carçıları Heydər Əliyevin ətrafında sıx birləşərək onu ümumxalq mübarizəsi səviyyəsinə qaldırdılar. Ölkənin mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə əmək adamları dəfələrlə Naxçıvana, Heydər Əliyevin yanına gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş etdilər.[1] Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaranması xalqın çox hissəsinin respublikamızı düşdüyü vəziyyətdən çıxarmaq üçün və artıq mövcud olan partiyalara və təşkilatlara inamları olmadıqlarına görə yeni bir partiyanın yaranması ilə əlaqədar ayrı-ayrılıqda fikirlərinin, arzularının cəmləşməsi və nəhayət, formalaşması nəticəsində olmuşdur. Bir adam, bir qrup adam yox, Azərbaycanın, demək olar ki, bir çox bölgələrində - Bakıda, başqa böyük şəhərlərdə, rayonlarda, yaşayış məntəqələrində ayrı-ayrı adamlar bir-biri ilə əlaqəsi olmadan belə bir fikrə gəlmişdilər.[2]

"Əlincə" Cəmiyyətinin nəşr etdirdiyi "Səs" qəzetində çap olunmuş "Heydər bəyi biz çağırmalıyıq!" adlı müraciət ölkədə böyük əks-səda doğurmuşdu. Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılmış ictimai rəy sorğularının nəticələri, Yeni Azərbaycan Partiyasının (YAP) Təşkilat Komitəsinə daxil olan minlərlə şifahi yazılı təklif diktə edirdi ki, yeni partiyaya rəhbərlik etməyə qadir yeganə şəxs Heydər Əliyevdir.[3] Naxçıvan blokada şəraitində, gedib-gəlmək böyük problem olsa da, adamlar dəstə-dəstə ora gedir, Heydər Əliyevə müraciət edirdilər ki, Bakıya, böyük siyasətə qayıtsın. Lakin Heydər Əliyev bu fikirdə deyildi. O, bütün müraciətlərə ehtiramla yanaşır, lakin təklifdən imtina edirdi.[4] Heydər Əliyev belə bir gərgin şəraitdə yeni müxalif qüvvə yaratmaq istəmirdi.

Azərbaycanın 91 nəfər tanınmış ziyalısı 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" - deyə

müraciət etdi. Bu tarixi sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin – Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı.[5] Heydər Əliyev Azərbaycan ziyalılarının müraciətinə 24 oktyabr 1992-ci il tarixli cavabında mövcud ictimai-siyasi durumu dərindən təhlil etdi, cəmiyyətin bütün qüvvələrini birləşdirməklə yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi, Azərbaycanın müharibə vəziyyətindən çıxması, Qarabağ probleminin tezliklə həll olunması, sosial-iqtisadi böhranın aradan qaldırılması, düzgün kadr siyasəti aparılması, səriştəli kadrlardan səmərəli istifadə olunması, respublikada qanunların aliliyinin təmin edilməsi, demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizmə, insan azadlığına şərait yaradılması, yeni, müstəqil dövlət quruculuğu prosesinə vətəndaşların hamısının, əhalinin bütün təbəqələrinin cəlb olunması, heç bir məhdudiyyət qoyulmaması, Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin qarşısının qətiyyətlə, sivil, demokratik yollarla alınması, dövlətin bütövlüyünün demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi vacibliyini qeyd etdi. O bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə bir partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".[6]

Yeni Azərbaycan Partiyasının təsis konfransını Bakıda keçirməyə imkan vermədilər. Konfrans 1992-ci il noyabrın 21-də, şaxtalı bir gündə Naxçıvanda keçirildi. Müxtəlif bölgələrdən təşəbbüs qruplarının 550-dən çox nümayəndəsinin iştirak etdiyi konfrans YAP-ın təsis olunması haqqında qərar qəbul etdi. Partiyanın Heydər Əliyev tərəfindən hazırlanmış Proqram və Nizamnaməsi müzakirə olunub qəbul edildi. Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi. Təşkilatın rəhbər orqanları formalaşdırıldı.[7]

Partiyanın 1992-ci il 21 noyabr tarixli bəyanatında qeyd olunurdu ki, bu partiyanın başlıca proqram məqsədi dövlət müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyü, sivilizasiyalı demokratik hüquqi dövlət, möhkəm əmin-amanlıq və ictimai həmrəylik, sabit və sosial istiqamətli iqtisadiyyat yaratmaqdan, geniş demokratik islahatlar həyata keçirmək uğrunda mübarizə aparmaqdan ibarətdir. "Bizim şüarımız müxalifət naminə müxalifət ola bilməz! Bizim prinsipimiz konstruktivlikdir".[8] Partiyanın sıraları sürətlə artırdı. Lakin o, iqtidara birdən-birə gələ bilmədi.[9]

Heydər Əliyev təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri idi. O öz məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan daha böyük fəlakətlərdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. Uzun müddət bu məsləhətlərə məhəl

qoymayıb səriştəsiz siyasəti ilə ölkəni parçalanmaq, vətəndaş müharibəsi həddinə gətirmiş iqtidar başlanmış təhlükəli proseslərin qarşısını almaqda gücsüzlüyünü görüb son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Prezident Elçibəyin dəfələrlə təkidli dəvətlərindən sonra Heydər Əliyev 1993-cü il iyunun 9-da hökumətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi.[10]

Heydər Əliyev genişlənmək təhlükəsi olan vətəndaş müharibəsini dayandırmaq üçün ağıllı, düşünülmüş siyasi tədbirlər həyata keçirdi. O, iyunun 13-14-də Gəncə şəhərində hərbi müxalifətlə danışıqlar apardı, mövcud siyasi böhrandan çıxış yollarını müəyyənləşdirdi.

İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası Heydər Əliyevi Ali Sovetin sədri seçdi.[12] Bu gün Azərbaycanın müasir dövr tarixinə "Qurtuluş Günü" kimi daxil oldu. Sonralar - 1997-ci ilin iyununda Milli Məclis bu günü "Milli Qurtuluş Günü" kimi bayram elan etdi.[13] 1992-ci ilin 15 iyunu - Üçüncü Azərbaycan Respublikasının həyatında baş verən bu əlamətdar hadisə Azərbaycan tarixində yeni bir dövrün başlanğıcı oldu.

Siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, siyasi pərakəndəlik həddinə gətirib çıxarmış, iqtisadi və sosial problemləri daha da mürəkkəbləşdirmiş AXC - Müsavat iqtidarı komandası özü hakimiyyətə dəvət etdiyi Heydər Əliyevə bu mürəkkəb problemləri aradan qaldırmaqda köməkçi olmaqdansa, müxalifətə keçdi: bir çoxu qaçıb gizləndi, bəziləri fəaliyyətlərini "dondurdu". Siyasi gərginliyə tab gətirə bilməyən, şəxsi təhlükəsizliyindən qorxan, baş götürüb qaçmaqla guya paytaxtda qardaş qırğınının qarşısını almağa çalışan prezident Elçibəy iyunun 17-dən 18-nə keçən gecə Bakını gizlicə tərk edib Naxçıvan MR-in Ordubad rayonuna - doğulduğu Kələki kəndinə getdi və ölkəni bu ucqar dağ kəndindən idarə etmək iddiasında olduğunu bildirdi.[14] Milli Məclis qaçqın prezidentə geri qayıdıb ölkəyə belə bir mürəkkəb şəraitdə lazımi səviyyədə rəhbərlik etməyi dönə-dönə təklif etsə də, hər dəfə faktik olaraq rədd cavabı aldı. İyunun 24-də Milli Məclis respublika prezidentinin səlahiyyətlərini Ali Sovetin sədri Heydər Əliyevə həvalə etdi.[15]

Vətəndaş müharibəsini dayandırmaq məqsədilə Heydər Əliyev heç bir siyasi idarəçilik bacarığı olmayan, xarici dövlətin xüsusi orqanlarının və revanş almaq istəyən qüvvələrin əlində oyuncağa çevrilmiş, lakin real silahlı gücə malik S.Hüseynovu öz sayıq nəzarəti altında baş nazir vəzifəsinə təyin etdi. Güc nazirliklərinə rəhbərlik ona tapşırıldı.[16]

Heydər Əliyev iqtidarında yüksək vəzifələr tutsa da, öz məqsədinə nail ola bilməyəcəyini dərk edən S.Hüseynov qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. Burada R.Qazıyev və iyunun 15-də Lənkəranda hakimiyyəti hərbi hissələrin köməyi ilə devirmiş, cənub bölgəsinə faktiki rəhbərlik edən Ə.Hümbətovla birgə dövlət başçısını hakimiyyətdən əl çəkməyə məcbur etmək planlarını həyata keçirməyə cəhd etdi.

1993-cü ilin yayı və payızında hərbi müxalifətin cinayətkar satqınlığı nəticəsində Azərbaycanın ərazi bütövlüyünə yeni zərbələr endirildi. Ermənistanın hərbi qüvvələri Azərbaycandakı siyasi böhrandan istifadə edib iyunun əvvəllərindən başlayaraq güclü hücuma keçdi. Hərbi qiyam vaxtı Ağdam cəbhəsindən həm AXC-Müsavat iqtidarına, həm də S.Hüseynova tabe xeyli canlı qüvvə və hərbi texnika çıxarılmışdı.[17] Daxili qoşun hissələri Bakının "surətçi"lərdən müdafiəsinə çağırılmışdı.[18] Düşmən bundan istifadə edib Ağdamın Qarqar çayı və Sayıbalı kəndinə qədər ərazisini ələ keçirmişdi. İyunun 25-dən 26-na keçən gecə milli silahlı qüvvələr Ağdam cəbhəsindən çıxarıldı. Cəbhə yerli özünümüdafiə taburlarının ümidinə qaldı. İyulun əvvəllərində S.Hüseynova sadiq 709 saylı hərbi hissə Ağdama daxil oldu.[19] S.Hüseynov Ağdamı düşmənə, özünün dediyi kimi, "əlborcu verməklə" ölkədə siyasi vəziyyəti daha da gərginləşdirmək, Heydər Əliyevi hakimiyyətdən kənarlaşdırmaq istəyirdi. Döyüşlərin bütün ağırlıqlarını çəkmiş özünümüdafiə taburları döyüş mövqelərindən çıxarıldı. Ağdam şəhəri düşmən tərəfindən intensiv atəşə tutularkən "surətçilər" heç bir cavab tədbiri görmədilər. Düşmən sürətlə irəlilədi. Malıbəylidə ağır döyüşlər getdi. Asif Məhərrəmovun başçılıq etdiyi özünümüdafiə taburu iyulun 22-23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa vuruşdu, lakin heç bir kömək almadığından geri çəkilməyə məcbur oldu. İyulun 23-də səhər əsasən özünümüdafiə taburlarının gücü ilə 43 gün düşmənlə qanlı döyüşlər aparmış Ağdam şəhəri işğal olundu.[20]

S.Hüseynov Gəncədə bəyanat verib bildirdi ki, o, "xalq və dövlət taleyinin həll edilməsi məsələsini" öz üzərinə götürür. Ə.Hümbətov bu bəyanatı alqışladı.[21]

Cənub bölgələrində separatçılıq edən qüvvələrlə münasibəti sivil qaydada nizama salmaq istəyən Heydər Əliyev Ə.Hümbətovla görüşməyi qərara aldı. Bu görüşdə "səlahiyyətim avtomatımdır" -deyən Hümbətov davakar-ultimativ iddialar irəli sürdü. S.Hüseynova geniş səlahiyyətlər verilməsini, Ali Sovetin sessiyasını çağırıb A.Mütəllibovu öz vəzifəsinə qaytarmağı tələb etdi və qəti rədd cavabı aldı.[22]

1993-cü il avqustun 7-də respublikanın cənub bölgələrində üzdəniraq "Talış Muğan Respublikası" (TMR) yaradıldığı elan olundu. "Hökumət" təşkil edildi. Rusiya, İran və Belarus dövlətlərinə, BMT-yə müraciət edib bu qondarma qurumu tanımağı xahiş etdilər. Təbii ki, cavab almadılar.[23]

Yerlərdə baş verən kortəbii mitinqlərdə əhali Ə.Hümbətovun silahlı quldur dəstəsinin ləğv olunmasını, qondarma "TMR"-i tanımadığını bəyan edirdi. Heydər Əliyev xalqın dəstəyinə arxalanaraq məsələni dinc vasitələrlə həll etməyə üstünlük verdi. Avqustun 13-də o, bu bölgədən olan xalq deputatları, tanınmış ziyalılar və ağsaqqallarla görüşdü. Onlar "hümbətovçulara" qarşı qəti tədbirlər görülməsini tələb etdilər. Avqustun 17-də Milli Məclis Lənkəran hadisələrinə siyasi qiymət verdi, onu Azərbaycanın müstəqilliyinə qarşı qüvvələrin siyasi oyunu kimi ifşa

etdi. S.Hüseynov avqustun 18-19-da Gəncədə Ə.Hümbətovu dost kimi qəbul edib möhkəm dayanmağı məsləhət gördüyü vaxt cənub rayonları əhalisinin etiraz hərəkatı genişlənirdi. Xalqın və dövlət qüvvələrinin birliyi sayəsində avqustun 23-də separatçılar dövlətin gücü ilə məğlub edildilər. Ə. Hümbətov qaçdı, "TMR" ləğv olundu.[24]

Satqınların və köhnə iqtidara sadiq hərbi hissələrin təxribatı nəticəsində avqustun 18-də Cəbrayıl, 23-də Füzuli, 31-də Qubadlı rayonları işğal olundu. Mühasirəyə düşmüş Zəngilan rayonu oktyabrın 29-30-da düşmən əlinə keçdi.[25]

Ölkənin müstəqilliyinə qənim kəsilmiş, xaricdən idarə olunan qüvvələrin hakimiyyəti ələ almaq üçün heç nədən çəkinmədiyini görən xalq Heydər Əliyevin ətrafında daha sıx birləşməyə başladı. Milli Məclisin qərarı ilə 1993-cü il avqustun 29-da prezident Ə.Elçibəyə etimad haqqında referendum keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi prezidentə etimadsızlıq göstərdi.[26]

1993-cü il oktyabrın 3-də Azərbaycan xalqı Heydər Əliyevi alternativ əsasla, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi.[27]

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz olduğunu təsdiqləyən uğurlu daxili və xarici siyasəti düşmənləri ciddi narahat edirdi. Onlar paytaxtda və respublikanın digər iri yaşayış məntəqələrində siyasi sabitliyi pozmaq üçün hər vasitəyə əl atırdılar. Bakı metropolitenində yanğın və partlayışlar törədilir, Prezidentə sui-qəsd təşəbbüsləri, dövlət çevrilişinə cəhdlər göstərilirdi.

1993-cü il sentyabrın ortalarında S.Hüseynov, Ə.Hümbətov və R.Qazıyev qüvvələrini birləşdirib Bakıya hücum etmək, Heydər Əliyevi hakimiyyətdən salmaq planı hazırlamışdılar. Respublikanın qərb rayonlarında qeyri-rəsmi hərbi qruplar yaradılmışdı. Murovdağ, Goranboy və Gədəbəy bölgələrindən 50-yə qədər, Lənkərandan 8 zirehli texnika və canlı qüvvə Gəncə ətrafındakı meşələrdə yerləşdirilmiş və fürsət gözləməkdə idi. S.Hüseynov Gəncədə və Yevlaxda öz əlaltılarının müşavirəsini keçirmiş, çevrilişə hazırlıq tədbirlərini müzakirə etmişdi.[28] Baş nazir və onun tərəfdarları ölkədə narazılıq salmaq üçün digər təxribatlara da əl atır, ərzaq təchizatında süni gərginlik yaradır, inflyasiyanı dərinləşdirən tədbirlər görürdülər.

Cəmiyyətdə vahimə yaratmaq üçün 1994-cü il sentyabrın 21-dən 22-nə keçən gecə Təhlükəsizlik Nazirliyi istintaq təcridxanasından dövlətə qarşı cinayətlərdə ittiham olunan bir neçə cinayətkar qaçırıldı. Sentyabrın 29-da daha bir neçə cinayət aktı törədildi. Ali Sovet sədrinin müavini A.Cəlilov və Prezident yanında Xüsusi İdarə rəisi Ş.Rəhimov qətlə yetirildilər.[29] Xüsusi Təyinatlı Polis Dəstəsinin əvvəllər müəyyən hərbi xidmətləri olsa da, pozucu qüvvələrin təsiri ilə artıq cinayət yoluna düşmüş 30-a qədər "döyüşçüsü" oktyabrın 2-də Respublika Prokurorluğu binasına soxuldu.[30] Daxili işlər nazirinin müavini Rövşən Cavadov

40 nəfərlik silahlı dəstə ilə nazirliyin binasına hücum edib dəf olunduqdan sonra prokurorluğun binasına, qardaşının rəhbərlik etdiyi dəstəyə köməyə gəldi.[31]

Prezident Heydər Əliyevin apardığı danışıqlar nəticəsində Cavadov qardaşları öz tərəfdarları ilə prokurorluğun binasını tərk etdilər. Bu, hərbi qiyam cəhdinin başlanğıcı idi. Oktyabrın 4-də Gəncədə S.Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı adam şəhər İcra Hakimiyyəti binasını və başqa strateji obyektləri ələ keçirdi. Bu zaman paytaxtda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident sarayı, Ali Sovet və Müdafiə Nazirliyi binalarına tuşlayıb əmrə müntəzir dayanmışdılar. Oktyabrın 4-dən 5-ə keçən gecə Prezident H.Əliyev Azərbaycanın müstəqil dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi.[32] Onun çağırışı ilə, gecə yarısı olmasına baxmayaraq, qısa bir vaxtda on minlərlə adam Prezident sarayı qarşısına toplaşdı.[33] Qiyamçılar Prezident sarayına hücuma cəsarət etmədilər. Prezidentin həyata keçirdiyi tədbirlər qiyamçılara qüvvələrini birləşdirməyə imkan vermədi. Gəncədə qiyam yatırıldı. Vəziyyətin dəyişdiyini görən Cavadov qardaşları Prezidenti müdafiə etdiklərini bildirdilər.[34]

Xalq oktyabrın 5-də Bakının Azadlıq meydanında təşkil olunmuş izdihamlı ümumxalq mitinqində qanuni Prezidenti dəstəklədiyini bir daha nümayiş etdirdi.[35]

Qiyam və dövlət çevrilişi qəsdində günahkar olan S.Hüseynov hakimiyyətdən kənarlaşdırıldı, Azərbaycandan Rusiyaya qaçdı. 1996-cı ildə isə Rusiyada həbs olunub respublikaya gətirildi və məhkum edildi.[30]

Düşmənlərin, xarici kəşfiyyat orqanlarının əlində oyuncaq olan hakimiyyət hərisləri yenə də öz niyyətlərindən əl çəkmirdilər. 1994-cü il dekabrın 4-də "Azərbaycana xidmət" vəqfi tərkibində "Azərbaycan Strateji Araşdırmalar Mərkəzi" adlı təşkilat yaradılmışdı.[37] Bu təşkilat ölkədə siyasi müxalifətlə hərbi müxalifəti birləşdirib dövlət çevrilişi etməyi, qanuni Prezidenti fiziki cəhətdən məhv edib A.Mütəllibov, Ə.Elçibəy və başqalarının təmsil olunduğu "Dövlət Şurası" yaratmağı planlaşdırmışdı. Mərkəzin işində "Müsavat" və "Doğru yol" partiyalarının nümayəndələri də fəallıq göstərirdilər. Bu vaxt AXC və ona yaxın qüvvələr də xeyli fəallaşmışdılar.[38]

Martın 12-dən 13-nə keçən gecə Ağstafa və Qazaxda Xüsusi Təyinatlı Polis Dəstəsi əməkdaşları (omonçular) qiyam qaldırıb dövlət idarələrini zəbt etdilər.[39] Martın 15-də omonçular Bakıda Nizami rayon polis idarəsinə silahlı basqın etdilər və dəf olundular. Prezidentin 16 mart tarixli fərmanı ilə Xüsusi Təyinatlı Polis Dəstəsi ləğv edildi və onun Bakıdakı əməkdaşlarından silahı könüllü təhvil verib, "8-ci km" qəsəbəsindəki bazalarını tərk etmək tələb olundu.[40] Cavadov qardaşları Prezidentin münaqişəni dinc yolla həll etmək istəyinə məhəl qoymadılar. Onlar bazada toplanmış silahlıları dörd hücum qrupuna bölüb, martın 16-dan 17-nə keçən

gecə Prezident sarayı, Dövlət Teleradio Şirkəti və Daxili İşlər Nazirliyi binalarını tutmaq üçün həmlə ilə mühasirəni yarıb şəhərə çıxmağa çalışdılar.[41]

İqtidarın fövqəladə tədbirləri, hökumət qüvvələrinin çevik hərbi əməliyyatları nəticəsində dövlət çevrilişi cəhdi bu dəfə də baş tutmadı.

Sonralar da qanuni hakimiyyəti devirmək, Prezidenti fiziki cəhətdən məhv etmək və başqa siyasi terror cəhdləri baş verdi və hər dəfə respublikanın hüquq-mühafizə orqanları tərəfindən qətiyyətlə dəf edildi.[42] Xalq respublikanın dövlət müstəqilliyinin təminatçısı olan Prezident Heydər Əliyevi dəstəklədi, siyasi yetkinlik, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirdi.

## §2. ORDU QURUCULUĞU. ATƏŞKƏS

Heydər Əliyevin yenidən rəhbərliyə gəldiyi vaxtdan əvvəlki bütün iqtidarlar, demək olar ki, əsil mənada Azərbaycan ordu quruculuğu ilə məşğul olmurdular. Onların səriştəsiz siyasəti nəticəsində respublika ərazisinin 20 faizi düşmən əlinə keçmişdi. Ermənilər "torpağı viran qoymaq" taktikasından istifadə edirdilər. İşğal olunmuş ərazilərdə evlər, müəssisələr, kommunikasiya vasitələri, təbii sərvətlər talan edilir, dağıdılır, yandırılırdı. Müharibədə 20 min azərbaycanlı şəhid olmuş, 100 min nəfər yaralanmış, 5 min nəfər əlilə çevrilmişdi. Qaçqın və köçkünlərin sayı milyon nəfəri ötmüşdü.[43]

Erməni işğalçıları tərəfindən 4861 nəfər azərbaycanlı, o cümlədən 314 qadın, 58 uşaq, 255 qoca əsir və girov götürülmüşdü.[44] Erməni faşistləri əsir və girovların həqiqi sayını beynəlxalq humanitar təşkilatlardan gizlədir, onlarla qeyri-insani rəftar edir, qul kimi işlədir, təhqir edir, alçaldırdılar. Yalnız bir fakt: öldürülmüş əsir Fərhad Atakişiyevin meyiti üzərində ekspertlər 72 işgəncə əlaməti aşkar etmişdilər. Onun əlləri, ayaqları sındırılmış, qulaqları kəsilmiş, gözləri çıxarılmış, dırnaqları kökündən qoparılmış, burun, qulaq dəliklərinə və qarnına məftil keçirilmişdi. Əsirlərə Azərbaycanın milli bayramları günü daha ağır işgəncələr verilirdi, erməni qəbri üstə əsir başı kəsmək ənənəyə çevrilmişdi.[45]

Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş və separatçı "Dağlıq Qarabağ Respublikası"nın nəzarətində olan əraziləri beynəlxalq terrorizmin təlim düşərgələrinə və müxtəlif növ kimyəvi qırğın silahlarının sınaq meydanına, habelə nüvə tullantılarının basdırıldığı zonaya çevrilmişdi. Laçın rayonunun Zabux kəndində "Kürd konqresi" (başçısı Zeylan Öcalan), Xocavəndin Qırmızı Bazar ərazisində suriyalıların "Xalq Azadlıq Cəbhəsi" (başçısı Zamir əl-Qisse), Zəngilan rayonunun Mincivan qəsəbəsində liviyalıların "Hizbullah" (başçısı Ömər Şəhabi) və livanlıların "Həmas" (başçısı Musa Qulam Haq) kimi terrorçu qrupları yerləşdirilmişdi. "ASALA" erməni terrorçu təşkilatının radikal qanadı üçün Şuşanın Xəlfəli, Xocavəndin Kiş, Əsgəranın Xankəndi yaşayış məntəqəsində təlim

düşərgələri təşkil edilmişdi. 1996-cı il mayın 26-da Azərbaycanın işğal olunmuş ərazilərinə əfqan ərəbləri - "əl-Qaidə"çilər gətirilmişdi. Burada nüvə terrorizmi (Ağdaban, Xanabad, Həsənriz, Kropatkin), bioloji terrorizm (İstisu, Kiş, Aşağı Veysəlli), kimyəvi terrorizm (Vejnəli, Havıslı) və kompüter terrorizmi (Şuşa, Xankəndi) üzrə qruplar fəaliyyət göstərirdi.[45a]

Dağlıq Qarabağ ərazisində yerləşdirilmiş "S-300" və "Tayfun" raketlərini Rusiya, Çin və Ermənistan alimləri modernləşdirmişdilər. Ermənistan nüvə silahı hazırlamağa çalışırdı. Ermənilərin nüvə texnologiyası məsələləri ilə məşğul olan "Vartanoil", "Razdanmaş", "Jak-Mak Metaliz" və b. şirkətlərinin, "Lizinq" Biznes Mərkəzinin İran, Rusiya, Fransa, İraq, Pakistan Səudiyyə Ərəbistanı və b. ölkələrdə filialları fəaliyyət göstərirdi. Dağlıq Qarabağda təşkil edilmiş nüvə tədqiqatı laboratoriya və mərkəzlərində Suriya, Səudiyyə Ərəbistanı, Pakistan, İran, Ermənistan alimləri və Əfqanıstandan olan ərəb mütəxəssisləri elmi axtarışlarını davam etdirirdilər. Erməni və rus alimlərinin birgə sınaq təcrübələri keçirilmişdi. 2000-ci il dekabrın 14-də qəbul edilmiş Ermənistanın nüvə proqramının 4-cü maddəsində işğal olunmuş Azərbaycan əraziləri - Kəlbəcərin Başalıbel, Şuşanın Göytala və Laçının Mixidərə, Malxələf, Aşağı Fərəcan yaşayış məntəqələri Ermənistanın nüvə zonalarına aid olunmuşdu.[45b]

İşğal olunmuş Azərbaycan ərazilərindən işğalçı ordunun dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələbi BMT Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel 822, 29 iyul 853, 14 oktyabr 874 və 11 noyabr 884 saylı qətnamələrində öz əksini tapsa da, Ermənistan müxtəlif bəhanələrlə onları yerinə yetirməkdən imtina edirdi.[46] Əslində münaqişə tərəflərindən birinə - Ermənistana doğma, o birinə - Azərbaycana yad münasibət bəsləndiyindən bu qətnamələrin heç birində Ermənistan təcavüzkar elan olunmurdu. Bunlardan yalnız birində Ermənistanın adı çəkilir və ondan tələb edilirdi ki, Dağlıq Qarabağa təsir göstərsin.[47] ABŞ, Rusiya və başqa dövlətlərin parlamentlərində özünə doğma münasibət görən Ermənistan təcavüzkar əməllərini azğınlıqla davam etdirirdi.

Azərbaycan Ordusu bərbad vəziyyətdə idi, parçalanmışdı, hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsiri altına düşmüşdü. Silah, sursat, geyim və ərzaqla təminat yarıtmaz halda idi. Korrupsiya geniş yayılmışdı. Xalq orduya yadlaşır, fərarilik artırdı. 1991-1992-ci illərdə ordunu 30 min döyüşçü özbaşına tərk etmişdi.[48] Müdafiə Nazirliyinə tabe olmayan müxtəlif siyasi ambisiyalı, döyüş qabiliyyəti aşağı olan, nizam-intizamsız hərbi hissələri ləğv etmək, güclü nizami ordu yaratmaq, bunun üçün xalqı ayağa qaldırmaq, birləşdirmək lazım idi. Prezident Fərmanı ilə 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı. Onun həmin gün keçirilən ilk iclasında ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələri şəxsi heyətinin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə

istiqamətləndirilmiş tədbirlər müəyyən edildi.[49] Prezident Heydər Əliyev 1993-cü il noyabrın 2-də televiziya və radio vasitəsilə xalqa müraciət etdi, onu ölkənin qeyrət və azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı.[50]

Prezidentin çağırışı xalqı silkələdi, hərəkətə gətirdi, orduya könüllü yazılanların sayı minlərlə idi. Könüllülərdən ibarət taburlar yaradılıb cəbhəyə göndərildi. Əfqanıstanda xidmət etmiş keçmiş döyüşçülər Prezidentə müraciət edib, alay yaratmaq təşəbbüsü irəli sürdülər. Bu təcrübəli döyüşçülərdən ibarət hərbi hissə yaradıldı.[51]

1993-cü il noyabrın 23-də Milli Şura "Müdafiə haqqında" Qanun qəbul etdi. Qanunda ordu quruculuğunda məsul vəzifəli şəxs və orqanların fəaliyyəti sistemləşdirildi, məsuliyyət sahələri dəqiqləşdirildi.[52] Noyabr-dekabr aylarında 16,7 min döyüşçüsü olan 40 ehtiyat taburu təşkil edildi. Prezident şəxsən cəbhə bölgələrində ordunun, əsgərlərin döyüş hazırlığının vəziyyəti ilə yaxından tanış olub, konkret tədbirlər müəyyənləşdirdi.[53]

Səhra Cəbhə İdarəsi, 33 köhnə başıpozuq hərbi hissə ləğv edildi, əldəqayırma "generallar", siyasi hoqqabazlar, xainlər və satqınlar ordudan uzaqlaşdırıldı,[54] 36 tabur təşkil edildi.[55] Səmərəli hərbi təlim üçün proqramlar hazırlandı, ordunun döyüş hazırlığının yüksəldilməsi işi dövlət başçısının ciddi nəzarəti altına alındı. 1994-cü ilin sonunda milli ordunun sıralarında 54 min əsgər və zabit var idi.[56] Silahlı qüvvələrin maddi bazası xeyli möhkəmlənmişdi. Bütün bunların nəticəsində Azərbaycan Ordusu düşmənin respublikanın içərilərinə doğru hücumunu dayandırdı, hətta əks-hücuma keçib bir sıra əraziləri işğaldan azad etdi.

1993-cü il noyabrın ortalarında cəbhələrdə intensiv hücuma başlamış ermənilər Azərbaycan Ordusunun güclü müqavimətinə rast gəldilər. Dekabrın ortalarında Beyləqan istiqamətində milli ordunun əsgərləri böyük rəşadət göstərdilər. Birinci tabura hücum edən 15 düşmən tankının 7-si məhv edildi.[57] Azərbaycan döyüşçüləri hücuma keçib 30 km irəlilədilər. Minomyotçular komandiri Akif Xanəliyev döyüşdə 50-yə qədər düşmən əsgərini məhv etdi. Xankəndi tərəfə kəşfiyyata getmiş hərbi hissə qəfildən düşmənlə üzləşsə də, mərdliklə vuruşmuş, ermənilər xeyli itki vermişdilər. Etibar İsmayılov tank əleyhinə qumbara ilə özünü düşmənə köməyə gələn tankın altına ataraq onu partlatdı və həyatı bahasına döyüşçü yoldaşlarını ölümdən xilas etdi. Ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.[58]

1994-cü il yanvarın 5-də Azərbaycan Ordusu müvəffəqiyyətli əməliyyatlar nəticəsində Füzuli rayonunda strateji əhəmiyyətli Horadiz qəsəbəsini, 22 kəndi işğaldan azad etdi, hücumu genişləndirib Cəbrayıl rayonu ərazisinin bir hissəsini, Kəlbəcər rayonunda Bozlu, Təkəqaya, Babaşlar, Qanlıkənd, Çənli, Susuzluq, Qasımbinəsi, Yanşaqbinə, Yanşaq, Bağırsaq, Qamışlı, Bağırlı yaşayış məntəqələrini azad etdi.

Çiçəkli dağı və başqa strateji yüksəklikləri ələ keçirdi, Kəlbəcər-Ağdərə yolunun Tunelə qədərki hissəsini nəzarət altına aldı.[59] 1993-cü il dekabr - 1994-cü il yanvar döyüşlərində düşmən 4 min əsgər və zabit, 50 zirehli texnika, 15 artilleriya qurğusu və s. itirdi. Azərbaycan tərəfinin itkisi bundan 1-1,5 dəfə az idi.[60]

Ordunun möhkəmlənməsi, NATO-ya tərəf əməli addımlar respublikada müstəqilliyin dönməzliyinə şərait yaradırdı. Bunun qarşısını nəyin bahasına olursa-olsun almaq istəyən nüfuzlu imperiyapərəst qüvvələr ermənilərə köməyi daha da artırdılar. Bu səbəbdən 1994-cü ilin fevralında Kəlbəcərdə uğurla həyata keçirilməyə başlanan "Murovdağ" əməliyyatı məğlubiyyətlə nəticələndi.[61]

Azərbaycanda çaşqınlıq, vahimə yaratmaq üçün Ermənistan dövləti terror əməllərini də fəallaşdırmışdı. 1994-cü il fevralın 1-də Bakı dəmiryol vağzalında "Kislovodsk-Bakı" sərnişin qatarında törədilmiş terror aktı nəticəsində 3 nəfər həlak olmuş, 20 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdı. 8 gün sonra Xudat stansiyasında yük vaqonu partladılmış, dövlətə böyük ziyan dəymişdi. 1994-cü il aprelin 13-də "Daqestanskiye oqni" stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdı.[62]

Rusiya 1994-cü ilin aprelində regionda mövqelərini qoruyub saxlamaq, qoşunlarını atəş xəttində yerləşdirmək, ağlasığmaz siyasi və iqtisadi güzəştlər əldə etmək məqsədilə Azərbaycana münasibətdə alçaldıcı bir saziş layihəsi təklif etdi.[63] Azərbaycanı artıq Ermənistan tərəfindən bəyənilmiş bu layihə ilə razılaşmağa məcbur etmək üçün aprelin 10-dan ermənilər bütün cəbhələrdə güclü hücuma başladılar. Azərbaycan Ordusu düşmənin hücumunu müvəffəqiyyətlə dəf etdi. Goranboy rayonunun Talış və Gülüstan kəndləri uğrunda döyüşlərdə Azərbaycan əsgərləri qalib gəldilər, düşmən 150 əsgər və zabitini itirib geri çəkildi.[64] Tərtər rayonunun İlxıçılar və Göyarx kəndləri tərəfdə gedən ağır döyüşlərdə düşmənin 200-dən çox canlı qüvvəsi məhv edildi.[65] Lakin arxalı ermənilər Ağdam rayonunun daha 18 kəndini, Ağdərə bölgəsində bir neçə kəndi işğal edə bildilər. Bərdə üçün ciddi təhlükə yarandı. Azərbaycan Ordusu buraya əlavə qüvvələr gətirməklə düşmən hücumunun qarşısını aldı və əks-hücuma keçib bir neçə yaşayış məntəqəsini azad etdi.[66] Beləliklə, imperiyapərəst qüvvələrin təklif etdiyi plan - döyüşən tərəflərin ayrılmasında ATƏM-in iştirakı olmadan yalnız Rusiyanın vasitəçiliyini nəzərdə tutan plan baş tutmadı. Bu işdə ABŞ-ın və ATƏM-in Minsk qrupunun mühüm rolu oldu.[67]

Azərbaycan öz suverenliyinə hörmət çərçivəsində qonşu Rusiyanın atəşkəsə nail olmaq sahəsində səylərindən də imtina etmədi. 1994-cü il mayın 8-də münaqişədə iştirak edən tərəflərin, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının, habelə Rusiya Federasiyasının bu niyyətini təsdiq edən Bişkek protokolu Azərbaycan Respublikası tərəfindən də imzalandı.[68]

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin uğurlu diplomatiyası, milli ordunun yaradılması və güclənməsi nəticəsində düşmən və onun havadarları artıq münaqişəni zorakı vasitələrlə həll etmək cəhdlərinin perspektivsizliyini dərk edirdilər. 1994-cü il mayın 12-də cəbhələrdə atəşkəsə nail olundu.[69]

Gündəlik dövlət qayğısı sayəsində Azərbaycan Ordusu getdikcə inkişaf etdi, müasir hərbi texnika və bacarıqlı kadrlarla təchiz olundu, silahlı qüvvələrin şəxsi heyətinin döyüş qabiliyyəti artdı, hərbi hissələrdə nizam-intizam möhkəmləndi. Bu işdə Azərbaycanın NATO ilə sülh naminə tərəfdaşlıq proqramı çərçivəsində həyata keçirilən tədbirlərin, qardaş Türkiyə Respublikası hərbçilərinin köməyi böyük idi. Azərbaycan xalqının orduya yardımını tənzimləmək məqsədilə 2002-ci il avqustun 17-də Prezident Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondu" təsis edilmişdi.[70]

## §3. XARİCİ SİYASƏT

Azərbaycan Respublikasına qarşı informasiya blokadasının yarılması, Dağlıq Qarabağ probleminə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın dünya siyasətində, dünya dövlətləri arasında özünə layiq yer tutması, beynəlxalq münasibətlərin ümumbəşəri dəyərlər əsasında inkişafına kömək etməsi, Cənubi Qafqazda başqa dövlətlərin Dağlıq Qarabağ münaqişəsinin həllində də maraqlı olması, respublikanın ərazi bütövlüyünün sülh, danışıqlar yolu ilə təmin edilməsi istiqamətində Prezident Heydər Əliyevin başçılığı ilə gərgin və səmərəli iş aparıldı. Heydər Əliyev diplomatiyası beynəlxalq münasibətlər sistemində yaranmış dəyişikliklər, qloballaşma meylləri, dövlətlərin Cənubi Qafqaz regionundakı siyasi və iqtisadi maraqlarının Azərbaycanın maraqları ilə mümkün qədər uzlaşdırılması kimi praqmatik əsaslar üzərində quruldu. Azərbaycan Prezidenti 68 ölkənin prezidenti, hökumət başçısı ilə görüşlər keçirdi.[71] Azərbaycan üzv olduğu beynəlxalq təşkilatların sessiyalarında, zirvə toplantılarında iştirak etdi. 2000-ci il sentyabrın 6-da BMT Baş Məclisində, 2001-ci il yanvarın 25-də Avropa Şurası Parlament Assambleyasında Heydər Əliyev mövcud şəraitdə müstəqillik əldə etmiş dövlətlərə münasibətdə aydın hiss olunan ikili standartlarla yanaşmanın yolverilməzliyini, qloballaşmaya töhfələrini verən ölkələrə texnoloji yardım göstərilməsi, mədəniyyətlərin toqquşması təhlükəsini aradan qaldırmaq üçün demokratiya və bazar iqtisadiyyatının inkişafında ayrı-ayrı xalqların mentalitetinin nəzərə alınması vacibliyini qeyd etmişdi.[72]

1993-cü il sentyabrın 24-də Azərbaycan Respublikası MDB-yə daxil oldu.[73] Doğrudur, bu təşkilat daxilində üzv dövlətlərin bərabərhüquqlu əməkdaşlığı lazımınca təmin edilməmiş, subyektlər arasında münaqişələrin aradan qaldırılması üçün təsirli tədbirlər həyata keçirmək mümkün olmamışdı. Üzv dövlətlərə Rusiya

Federasiyasının ikili münasibəti bu birliyin səmərəsini xeyli azaldır, narazılığa səbəb olurdu. Heydər Əliyev MDB dövlət başçılarının, demək olar ki, bütün görüşlərində birlik daxilində belə qeyri-sağlam münasibətlər olmasının yolverilməzliyini, separatizmlə mübarizənin vacibliyini diqqətə çatdırırdı.[74]

MDB-yə daxil olan dövlətlərlə ikitərəfli əlaqələrin möhkəmlənməsinə diqqət artırılmışdı. 1993-cü ilin sonlarına qədər Azərbaycanla kəskin münasibətlərə malik olan Mərkəzi Asiya respublikaları ilə əlaqələr yeni forma və vasitələrlə köklü surətdə yenidən qurulurdu.[75]

Birlik üzvlərinə RF tərəfindən ikili münasibət MDB daxilində dövlətlərin ayrılıqda birliklər təşkil etməsinə səbəb olurdu. 1996-1997-ci illərdə Azərbaycan-Gürcüstan və Azərbaycan-Ukrayna arasında strateji əməkdaşlıq haqqında sazişlər bağlandı. 1997-ci ilin oktyabrında Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova respublikalarının başçıları öz aralarında əməkdaşlıq haqqında kommünike imzaladılar. Noyabrın 25-də Bakıda "GUAM" bloku təşkilini bəyan edən rəsmi protokol imzalandı. Bu ölkələrin NATO və ATƏT çərçivəsində, habelə öz aralarında siyasi, hərbi və iqtisadi sahələrdə mövqelərini əlaqələndirməyə imkan verən strateji partnyorluğa hüquqi əsas yarandı.[76] 1999-cu il aprelin 4-də Vaşinqtonda GUAM təşkilatına üzv olan dövlətlərin prezidentlərinin görüşündə Özbəkistan Respublikası da bu təşkilata qəbul edildi. GUAM bundan sonra GUÖAM adlandırılmağa başlandı. Heydər Əliyev təşkilatın sədri seçildi. GUÖAM-ın icraçı katibliyinin yaradılması qərara alındı.[77] Belə bir birliyin təşkili Rusiyanı olduqca narahat edirdi. Vəziyyəti 1999-cu ilin martında MDB dövlətləri başçılarının zirvə toplantısında Azərbaycan, Gürcüstan, Moldova və Özbəkistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi müddətinin uzadılmasına razılıq verməməsi daha da gərginləşdirdi.[78] Rusiya bu dövlətlərə münasibətini xeyli yumşaltmağa istiqamətlənən addımlar atdı. Bununla əlaqədar sonralar - 2001-ci il iyunun 6-7-də Yaltada GUÖAM təşkilatı başçılarının görüşündə qəbul olunmuş "Yalta Xartiyası"nda yaradılan bu təşkilatın iqtisadi sahələrdə əməkdaşlığa üstünlük verəcəyi elan edildi.[79]

Heydər Əliyev ATƏT-in 1999-cu il noyabrın 18-də İstanbul zirvə toplantısında "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı" təsis edilməsi təşəbbüsü ilə çıxış etdi. Bu paktda dövlətlərarası münasibətlərin, habelə münaqişələrin aradan qaldırılmasının prinsipial əsasları təsbit edilməli idi. Ona əsasən regiondan xarici hərbi qüvvələr çıxarılmalı, Cənubi Qafqazı bölən ayırıcı xətlər aradan qaldırılmalı, təcavüzə, etnik təmizləmələrə, separatizmə son qoyulmalı, ikili standartlara yol verilməməli idi.[80] Lakin Rusiya Ermənistan vasitəsilə bu planın həyata keçməsinə ciddi mane oldu.[81]

2001-ci ilin əvvəllərində RF prezidenti Rusiyanın da iştirak etdiyi "Qafqaz dördlüyü" yaradılması təklifini irəli sürdü. Mayın sonlarında Rusiya, Azərbaycan,

Ermənistan və Gürcüstan prezidentlərinin Minskdə görüşü keçirildi, belə bir birliyin yaranması məsələləri müzakirə edildi.

Azərbaycan Respublikası 1992-ci ildə NATO-nun Şimali Atlantika Əməkdaşlıq Şurasına (1997-ci ildən bu şura Avropa-Atlantika Tərəfdaşlıq Şurası - AATŞ adlanır) qoşuldu. 1994-cü ilin yanvar ayında Azərbaycan NATO-nun Avropa və dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına xidmət edən "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qəbul edildi. Həmin il mayın 4-də Prezident Heydər Əliyev bu proqramın Çərçivə sənədini imzaladı.[82] NATO-nun və AATŞ-ın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin iyul ayında keçirilən zirvə toplantısında Prezident Heydər Əliyev NATO-nun baş katibi ilə görüşdü və bu təşkilatla Azərbaycan arasında əməkdaşlığın genişlənməsi məsələləri müzakirə edildi. NATO-nun və Avropa-Atlantika Tərəfdaşlıq Şurası üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1997-ci ilin iyul ayında keçirilən Madrid zirvə toplantısının qəbul etdiyi sənədlərdə NATO-nun tərəfdaş dövlətlərin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığına təminat verdiyi, onun strukturunda olan dövlətlərin bir-birinə qarşı güc işlətmək, hədə-qorxu gəlmək hüququna malik olmadığı bildirildi. Bunlar Azərbaycanın haqq işinin müdafiəsi sahəsində böyük əhəmiyyətə malik idi. Azərbaycan dövləti hərbi inkişafının perspektivləri məsələlərində NATO ilə sıx əməkdaşlığa istiqamətləndi.[83] Azərbaycanın hərbi hissəsi Kosovoda və Əfqanıstanda sülhməramlı qüvvələrin keçirdiyi əməliyyatlarda iştirak etdi.[84] 2002-ci il noyabrın 18-də NATO Parlament Assambleyasının İstanbulda keçirilən iclasında Azərbaycan Respublikası NATO PA-na assosiativ üzv qəbul olundu.[85] AATŞ-ın 2002-ci il noyabrın 22-də Praqada keçirilmiş zirvə görüşündə Prezident Heydər Əliyev bu təşkilat və Azərbaycanın onda iştirakının əhəmiyyəti haqqında belə demişdi: "Dünya son dərəcə mürəkkəb bir dövr yaşayır. Beynəlxalq terrorizm bəzi dövlətlərin dəstəyindən istifadə edərək dünya nizamına qarşı hərəkət edir, ekstremizm, təcavüzkar millətçilik və davakar separatizm ideologiyası əsasında yeni qarşıdurma xətləri yaratmağa çalışır, sərhədləri yenidən bölməyə, dəyişməyə cəhd göstərir. Beynəlxalq sistemin ümumi təhlükəyə qarşı səmərəli mübarizə aparmaq qabiliyyəti ciddi sınağa çəkilir. 11 sentyabr faciəsindən dərhal sonra Avroatlantika birliyi antiterror koalisiyası yaratdı və Azərbaycan ilk gündən bu koalisiyaya qoşuldu. Biz bu gün də başqa ölkələr və beynəlxalq təşkilatlarla birlikdə bu təhlükələrə qarşı əlimizdən gələni edirik".[86]

BMT-nin Baş katibi Butrus-Butrus Qali Azərbaycana gəlib respublika ilə daha yaxından tanış oldu. Azərbaycana qarşı informasiya blokadası yarıldı. Prezident Heydər Əliyev 1994-cü ilin sentyabrında, 1995-ci ilin oktyabrında, 2000-ci ilin sentyabrında BMT Baş məclisinin sessiyaları tribunalarından Azərbaycan

həqiqətlərini bütün dünyaya bəyan etdi, bu ölkənin sülhsevər, humanist, demokratik dəyərləri üstün tutduğunu göstərdi.[87]

Ölkənin xarici siyasət kursunda 1993-cü ilin yayından Türkiyə Respublikası ilə münasibətlərdə keyfiyyətcə ciddi dəyişikliklər edildi. Bu dost və qardaş ölkə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabili oldu. Türkiyə Ermənistanı təcavüzkar bir dövlət kimi tanımış, Dağlıq Qarabağ məsələsi ədalətlə həll olunmayınca onunla heç bir əlaqə saxlamayacağını elan etmişdi. Azərbaycan-Türkiyə münasibətləri həm də dünyada və bölgədə sülhün, əmin-amanlığın bərqərar olması işinə xidmət edirdi.[88] 2001-ci il iyulun 23-də Xəzər dənizinin mübahisəli sularında Azərbaycan gəmilərinə İran təyyarələrinin hücum cəhdini Türkiyə qəti etirazla qarşıladı. Ankara bütün dünyaya bildirdi ki, "Azərbaycana əl qaldıran qarşısında Türkiyəni görəcək!"[89]

Azərbaycan İran İslam Respublikası ilə də hər iki tərəf üçün faydalı normal siyasi-iqtisadi və mədəni münasibətlər qurdu. İran dövləti Ermənistanın Azərbaycana təcavüz etdiyini bildirsə də, onunla hərtərəfli münasibətlər yaratmışdı. Bu qonşu müsəlman dövləti Azərbaycana qarşı münasibətlərində tam səmimi olmadığını göstərirdi. İran Azərbaycanı özünün təhlükəsizlik zonası elan etmişdi. 2001-ci il iyulun 23-də İran mübahisəli hesab etdiyi sulardan Azərbaycan gəmilərinin çıxarılması haqqında nota verdikdən sonra hərbi təyyarələrini havaya qaldırmışdı. Azərbaycan buna cavab tədbiri gördü. Münaqişə dinc yolla nizama salındı.[90]

Azərbaycan Prezidenti Heydər Əliyevin İran Respublikasına səfəri zamanı - 20 may 2002-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə İran Respublikası arasında dostluq və əməkdaşlıq münasibətlərinin prinsipləri haqqında" müqavilə iki dövlət arasında münasibətlərin nizamlanmasına istiqamətləndirilmişdi.[91]

Qonşu Gürcüstan Respublikası ilə əlaqələr çox önəmli idi. 1996-cı ilin mart ayında Prezident Heydər Əliyev Gürcüstana rəsmi səfər etdi. İki ölkə arasında dostluq və əməkdaşlıq haqqında sənəd imzalandı. Bu, qonşu ölkədə yaşayan azərbaycanlılara qarşı münasibətin xeyli yaxşılaşmasına səbəb oldu. İki ölkənin bütün sahələrdə strateji əməkdaşlığı başlandı.[92]

Azərbaycanın xarici siyasətində ABŞ, Böyük Britaniya, Çin, Yaponiya, Fransa, Almaniya, İtaliya kimi iri dövlətlərlə münasibətlər mühüm yer tuturdu. Bu ölkələrlə tərəfdaşlıq prinsiplərinə əsaslanan qarşılıqlı əlaqələr yaradılmışdı.[93]

Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycan diplomatiyasında Avropa istiqaməti mühüm yerlərdən birini tutur. İngiltərə və Avropanın digər nüfuzlu dövlətləri ilə sabit bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurulmuşdu. Bu ölkələrlə imzalanmış 90-dan artıq sənəd qarşılıqlı münasibətlər üçün ən möhkəm hüquqi əsas yaratmışdı.[94]

Azərbaycan Qərblə Şərqin qovşağında bərpa olunan qədim İpək Yolunun mərkəzində mühüm yer tuturdu. Dünyada nüfuzlu Çin Xalq Respublikası və Yaponiya kimi Şərq dövlətləri ilə siyasi və iqtisadi əməkdaşlıq respublikanın xarici siyasətində uğurlu addımlar olmuşdu.[95]

Pakistan dövləti ilə dostluq və əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilirdi. İsrail dövləti ilə də əməkdaşlıq genişlənməkdə idi.[96]

XXI əsrin əvvəllərində Azərbaycan Respublikası artıq 137 ölkə ilə diplomatik əlaqələr yaratmışdı. Azərbaycanda 63 (24-ü bilavasitə Bakıda) ölkənin səfirliyi fəaliyyət göstərirdi. Azərbaycanın 21 ölkədə səfirliyi, baş konsulluğu və daimi nümayəndəliyi vardı.[97]

1996-cı ilin aprelində Azərbaycan ilə Avropa Şurası (AŞ) və onun üzvü olan dövlətlər arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında saziş imzalandı.[98] Həmin ilin iyununda Azərbaycan Respublikası AŞ Parlament Assambleyasında "xüsusi dəvət olunmuş qonaq" statusu aldı.[99] Prezident Heydər Əliyevin 1996-cı ilin iyunu və 1998-ci ilin yanvarında Azərbaycan Respublikası ilə AŞ arasında əməkdaşlığın dərinləşdirilməsi tədbirləri haqqında sərəncamları mövcud əlaqələri xeyli intensivləşdirdi.[100] Aparılan böyük təşkilatçılıq işi, respublikada həyata keçirilən demokratik ruhlu siyasi və iqtisadi islahatların səmərəli nəticələri Azərbaycanı AŞ-yə daha da yaxınlaşdırdı. 2001-ci il yanvarın 25-də Azərbaycan Respublikası Avropa Şurasına tam hüquqlu üzv qəbul olundu.[101] Millət vəkili İlham Əliyevin başçılıq etdiyi Azərbaycan parlamentinin AŞ-də nümayəndə heyəti bu təşkilatda səmərəli fəaliyyət göstərməyə başladı. Öz işgüzarlığı ilə Avropa Şurasında böyük nüfuz qazanmış İlham Əliyev iki ildən sonra - 2003-cü il yanvarın 27-də bu təşkilatın Parlament Assambleyası sədrinin müavini və büro üzvü seçildi.[101a] Belə bir diqqətə səbəb həm də, Beynəlxalq Venesiya Komissiyasının sədri Puetro Aqounin qeyd etdiyi kimi, Azərbaycanda aparılan islahatların Avropada razılıqla qarşılanması olmuşdu.[101b] Bu təşkilatda Azərbaycan nümayəndə heyətinin əsas məqsədi Ermənistanın təcavüzkar kimi tanınmasına nail olmaq və onu işğal etdiyi əraziləri qaytarmağa məcbur etmək idi.[101v] 2001-ci il aprelin 24-də Azərbaycan nümayəndə heyəti AŞ tribunasından Ermənistanın azərbaycanlılara qarşı soyqırım siyasəti yeritdiyini, işğal olunmuş Azərbaycan ərazilərində, o cümlədən Dağlıq Qarabağda narkotik maddələr istehsal və ixrac etdiyini, bu vasitə ilə əldə olunan vəsaitlə ordu saxladığını, terrorçu dəstələr yaradıb onlara təlim verdiyini əsaslandırılmış şəkildə bütün dünyaya bəyan etdi. May ayında AŞ Nazirlər Komitəsinin 108-ci sessiyası konsensusla Azərbaycanın təşəbbüsü ilə Avropa dövlətlərinin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünü təsdiq edən xüsusi kommünike qəbul etdi.[102] İyun ayında AŞ Parlament Assambleyası sessiyasında İlham Əliyev Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində tarix və mədəniyyət abidələrini dağıtmasını, təbiətin amansızcasına korlanmasına

şərait yaradılmasını faktlarla ifşa etdi. AŞ Nazirlər Komitəsinə müraciət edildi ki, Ermənistanın AŞ prinsiplərinə zidd olaraq Azərbaycanın ərazi bütövlüyünü tanımamasına münasibət bildirilsin. Bu müraciət 43 ölkə nümayəndəsinin iştirakı ilə müzakirə edildi. Nazirlər Komitəsinin bununla bağlı qərarında qeyd olunurdu: "...Xalqların öz müqəddəratını təyin etmək hüququna... dövlətlərin ərazi bütövlüyünə dair normalara uyğun olaraq hörmət edilməlidir.

...Torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz".[103]

AŞ Parlament Assambleyasının 2001-ci il 25 sentyabr tarixli iclasında İlham Əliyev erməni terrorizmini, Ermənistanın Azərbaycana qarşı keçirdiyi terror və soyqırım siyasətində terrorçu ASALA təşkilatının fəal iştirak etdiyini, törədilmiş 32 terror aktı nəticəsində 2000 adam öldürüldüyünü, on minlərlə adamın yaralandığını bildirdi. Terroru dəstəkləyən Ermənistan dövlətini ifşa etdi.[104] İlyarım ərzində Avropa Şurası Parlament Assambleyasında Ermənistanın terrorçu dövlət adlandırıldığı 12 sənəd (bunlara üst-üstə AŞPA-nın 300 deputatı imza atmışdır) qəbul olundu. 2002-ci il sentyabrın 26-da AŞPA-nın sessiyasında müzakirə edilən Azərbaycan haqqında məruzədə ilk dəfə bu təşkilatın çox vacib sənədində açıq-aydın bildirilir ki, Azərbaycanın torpaqları işğal olunubdur. Ermənistan Azərbaycana qarşı təcavüz edibdir və bu işğal nəticəsində Azərbaycanın bir milyondan artıq qaçqını vardır.[105]

Bəzən AŞ-ın ikili standartlardan çıxış edərək Azərbaycana verdiyi ədalətsiz tövsiyələrə də respublikada diqqətlə yanaşılır, beynəlxalq ictimaiyyətə mövcud problemlərin həqiqi mahiyyəti haqqında doğru məlumat çatdırılırdı. 2002-ci il yanvarın 24-də AŞ Parlament Assambleyası Azərbaycandakı qeyri-dövlət hüquq müdafiə təşkilatlarının təqdimatına əsasən "siyasi məhbus" hesab etdiyi şəxslərin, xüsusi olaraq R.Qazıyevin, S.Hüseynovun və Ə.Hümbətovun azad edilməsi və ya işlərinə yenidən baxılması təklifini verdi. Bununla əlaqədar həmin şəxslərin işlərinə yenidən baxılması haqqında Respublika Baş prokurorunun hələ 2001-ci il dekabrın 26-da qəbul etdiyi qərarın icrası sürətləndirildi[106] (lakin konkret cinayət əməli ilə əlaqədar həbs olunmuş bu şəxslərin işində siyasi motivlər aşkar edilmədi).

Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı daha da genişlənirdi. 2002-ci ildə Avropa İttifaqı ilə "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi"nin (1992-ci ildə bağlanıb) yerinə yetirilməsinə dair milli proqram hazırlanmışdı. Bu əlaqələrin respublikanın inkişafına böyük təsiri vardı. Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin Brüsseldə 25-26 fevral 2002-ci ildə keçirilmiş iclasında qeyd edildiyi kimi, "siyasi, iqtisadi, hüquqi islahatların aparılması Azərbaycanın Avropaya inteqrasiyası üçün yeni perspektivlər açır.[107]

2002-ci il oktyabrın 2-də Azərbaycan Respublikası BMT-nin "İqtisadi və Sosial Şurasına" üzv seçildi.[108]

Azərbaycan Respublikası Prezidentinin dövlət müstəqilliyinin dönməzliyi istiqamətində ardıcıl siyasəti imperiyapərəst qüvvələrin bütün təzyiqlərini qətiyyətlə rədd etdi. Rusiya 1994-cü ilin axırlarından Azərbaycana dəmir, şose və dəniz yollarını bağlamaq kimi ciddi iqtisadi sanksiyalar tətbiq etməsinə, Ermənistana 1994-1996-cı illərdə-atəşkəs şəraitində ümumi dəyəri 1 milyard dollardan çox olan 84 ədəd T-72 markalı tank, 50 ədəd piyadalar üçün RDM-2 döyüş maşını, 8 ədəd R-17 uzaqmənzilli raket kompleksi, "OCA" zenit kompleksi üçün 40 raket, 349 raketlə birlikdə 27 ədəd "Kruq" raket-zenit kompleksi, 40 ədəd "İqla" səyyar raket kompleksi, 18 ədəd reaktiv "Qrad" qurğusu, 1000-ə qədər "Strela-2" və "Strela-3" raketləri, 1998-ci ilin sonlarında MİQ-29 təyyarələri, C-300 raketləri, külli miqdarda başqa silah və sursat verməsinə, Ermənistanda öz hərbi bazalarını yerləşdirməsinə və onları daim modernləşdirməsinə, Rusiya-İran-Ermənistan strateji əməkdaşlıq xətti yaratmasına baxmayaraq,[109] Azərbaycanı qorxuda, tutduğu müstəqillik yolundan döndərə bilmədi.

Azərbaycan və Türkiyə respublikaları 1997-ci ilin may ayında strateji əməkdaşlığı daha da dərinləşdirmək haqqında müqavilə imzaladılar.[110]

Azərbaycanın qəti mövqeyi dövlətlərin ona münasibətinin getdikcə dəyişməsinə, sağlamlaşmasına səbəb oldu. 1997-ci il iyulun 3-də Moskvada Rusiya Federasiyası və Azərbaycan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə imzalandı.[111] 1997-ci il avqustun 29-da Rusiya ilə Ermənistan arasında da "Dostluq, əməkdaşlıq, qarşılıqlı yardım haqqında" yeni müqavilə bağlandı. Bu sənəddə hərbi vəziyyət yaranarkən Rusiyanın rəsmi surətdə Ermənistan tərəfində çıxış edəcəyi bəyan olunurdu.[112] Azərbaycanda narazılıq yaratdığını görən Rusiyanın yüksək vəzifəli şəxsləri, habelə Xarici İşlər Nazirliyi xüsusi nota ilə bu sənədin Azərbaycan Respublikasına qarşı çevrilmədiyini bildirdilər. Azərbaycan Prezidenti Heydər Əliyev MDB dövlət başçılarının 1997-ci il oktyabr, 1999-cu il mart və sonrakı zirvə görüşlərində bu müqavilənin Azərbaycana qarşı təhlükə yaradan bəndlərinin ləğv olunmasını tələb etdi.[113] 2001-ci ilin may ayında Bakıda səfərdə olan RF hərbi naziri rəsmi surətdə elan etdi ki, Ermənistan və Azərbaycan arasında silahlı münaqişə olarsa, Rusiya neytral qalacaqdır.[114]

Rusiya Federasiyasının prezidenti V.Putin Azərbaycan prezidentinin dəvəti ilə 2001-ci il yanvar ayının 9-da Bakıya rəsmi səfərə gəldi. Ölkələr arasında münasibətlərin inkişaf etdirilməsinə istiqamətləndirilmiş tədbirlər görülməsi barədə razılıqlar əldə olundu. V.Putin Azərbaycan və Gürcüstanın bölgədə Rusiyanın iştirak etmədiyi siyasi birliklərə qoşulmasının qarşısını almaq üçün "Qafqaz dördlüyü" (Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistan) yaradılması təşəbbüsünü irəli sürdü. "Bakı Bəyannaməsi" imzalandı. Prezident V.Putin RF-nin

Azərbaycan Respublikasının ərazi bütövlüyünü müdafiə etdiyini bir daha bəyan etdi.[115]

2002-ci ilin yanvar ayında Rusiya ilə Türkiyə arasında hərbi əməkdaşlıq haqqında müqavilə imzalandı. Bəşəriyyət üçün böyük bəlaya çevrilmiş terrorizmlə mübarizədə aparıcı rol oynayan ABŞ-ın müttəfiqi olan Türkiyənin Qafqazda nüfuzu xeyli artdı. 2002-ci il yanvarın 24-də Azərbaycanın dövlət başçısı Rusiya Federasiyasına rəsmi səfər etdi. Bağlanmış müqavilələr iki dövlət arasında qarşılıqlı faydalı münasibətlərin inkişafına istiqamətlənmişdi. Azərbaycan Qəbələ Strateji[116] İnformasiya Mərkəzini on il müddətinə Rusiyaya icarəyə verdi. Respublikalar arasında iqtisadi əməkdaşlığın genişlənməsinə daha münasib şərait yaradıldı, 12 illik müqavilə imzalandı. 2002-ci ilin aprelindən Azərbaycan kənd təsərrüfatı məhsulları Rusiya bazarlarına sadələşdirilmiş yolla, tez çatdırılmağa başlandı. 2002-ci il sentyabrın 23-də Azərbaycan və Rusiya prezidentləri Kremlin "Şərəf salonu"nda "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında Xəzər dənizi dibinin həmhüdud sahələrinin bölgüsü haqqında saziş" imzaladılar. İki ölkənin təhsil nazirləri hökumətlərarası təhsil haqqında sənədlərin, namizədlik və doktorluq diplomlarının tanınması haqqında sazişlər imzaladılar. İqtisadi xarakterli başqa müqavilələr bağlandı. Azərbaycan-Rusiya əlaqələrinin bütün sahələrini daha da inkişaf etdirmək üçün imkanlar genişləndi.[117]

İri dövlətlərin təzyiqinə, imperiya siyasətinə qarşı məharətlə apardığı müstəqillik, "açıq qapı" siyasəti sayəsində Azərbaycan bölgədə, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilirdi. O, öz mənafelərini dünyada nüfuz sahibi, Cənubi Qafqazda marağı olan dövlətlərin, xüsusən ABŞ və onun müttəfiqlərinin maraqları ilə uzlaşdırırdı. ABŞ-Azərbaycan münasibətləri strateji partnyorluq mərhələsinə yüksəlmişdi. Azərbaycan-ABŞ əlaqələrinin inkişaf etməsinə Xəzər dənizi enerji ehtiyatlarının mənimsənilməsi, neft, qaz hasilatı və nəqlində ABŞ şirkətlərinin geniş iştirakı əhəmiyyətli təkan verirdi.[118] Azərbaycan ABŞ kimi fövqəldövlətin sabit, münaqişəsiz görmək istədiyi Qafqaz bölgəsində əsas siyasi, iqtisadi tərəfdaşı oldu. "Arzu olunan dövlət"lər qrupuna daxil edildi. 1997-ci il iyulun 27-dən avqustun 7-dək Prezident Heydər Əliyev ABŞ prezidenti Bill Klintonun dəvəti ilə ABŞ-da ilk rəsmi səfərdə oldu, böyük hörmət və ehtiramla qarşılandı. Avqustun 1-də Ağ Evdə iki ölkə arasındakı münasibətlərin əsas prinsip və istiqamətlərini müəyyən edən sənəd - "Amerika-Azərbaycan münasibətləri haqqında" prezidentlərin birgə bəyanatı imzalandı.[119]

Hökumət dairələrində "Azadlığa Dəstək Aktı"na 1992-ci il 907 saylı əlavənin ləğv edilməsinə tərəfdarlar çoxaldı. Azərbaycana dövlət səviyyəsində kömək göstərmək üçün yollar axtarılıb tapıldı. ABŞ administrasiyası Konqresə müraciət edərək 2002-ci ildə Azərbaycana yardımın 46 faiz artırılmasını, Ermənistana verilən yardımın isə 22 faiz azaldılmasını təklif etdi.[120]

2001-ci il sentyabrın 11-də Nyu-York və Vaşinqton şəhərlərində dəhşətli terror hadisələri törədilməsinə cavab olaraq ABŞ beynəlxalq terrorizmə qarşı mübarizə elan edərkən Azərbaycan Respublikası onunla bir mövqedə olduğunu birincilər sırasında bəyan etdi, öz ərazisindən ABŞ silahlı qüvvələrinin istifadəsi üçün imkanlar yaratdı. Oktyabr ayının sonlarında ABŞ senatı 907-ci əlavəni müvəqqəti olaraq dayandırmaq üçün prezidentə səlahiyyət verdi. ABŞ prezidenti 2002-ci il yanvarın 28-də, növbəti dəfə 2003-cü il yanvarın 17-də bu səlahiyyəti reallaşdırdı.[121]

Az sonra ABŞ Azərbaycana silah satışına qoyulmuş qadağanı aradan qaldırdı. Təhlükəsizlik tədbirlərində Azərbaycana kömək etməyə başladı.[122]

Azərbaycan Respublikası və ABŞ arasında münasibətlərin daha da yaxınlaşmasında 2002-ci ilin oktyabr ayında millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyevin ABŞ-ın vitse-prezidenti Riçard Çeyni, dövlət katibinin birinci müavini Riçard Armitac, ABŞ prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşavirinin müavini Stiven Hedi, müdafiə, energetika, maliyyə, ticarət nazirliklərinin, habelə Beynəlxalq Valyuta Fondunun, Dünya Bankının rəhbərləri ilə görüşü və əməkdaşlığı genişləndirmək üçün səyləri daha da artırmağın vacibliyinə dair fikir mübadiləsi, Con Hopkins Universitetinin Mərkəzi Asiya və Qafqaz Araşdırmaları İnstitutunda "Cənubi Qafqaz və Xəzər bölgəsi: Bakıdan baxış" mövzusunda çıxışı, Zbiqnev Bjezinski, Madlen Olbrayt, Vrent Skoutroft və b. görkəmli siyasətçilərlə görüşü mühüm əhəmiyyət kəsb etdi.[123] V.Skoutroft bu görüşdən sonra demişdi: "...Mən Azərbaycanın gələcəyinə nikbin baxıram. İlham Əliyev bizə güclü siyasətçi təsiri bağışlayır".[124]

Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mümkün qədər qan tökülmədən, qırğın və dağıntılara yol vermədən, dinc vasitələrlə həll etmək xətti götürdü. O, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT - 1994-cü il Budapeşt sammitindən sonra ATƏM belə adlanır) Minsk qrupunun fəaliyyətinin xeyli canlanmasına, ona nəzarət edən və üzv dövlətlərin münaqişənin həllinə və regionda sabitlik yaradılmasına marağının artmasına nail oldu. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi Heydər Əliyevin bütün ölkələrin dövlət başçıları ilə görüşlərində əsas mövzulardan biri olmuşdu. 1993-2000-ci illərdə Heydər Əliyev bu məsələni ABŞ rəhbərliyi ilə 18, Fransa rəhbərliyi ilə 16, Rusiya rəhbərliyi ilə 28, Türkiyə rəhbərliyi ilə 78 dəfə müzakirə etmiş, problemin həlli yollarını araşdırmışdı. BMT-dəki çıxışlarında, NATO-nun, İslam Konfransı Təşkilatının, Türkdilli dövlət başçılarının sammitlərində, MDB dövlət başçılarının, demək olar ki, bütün görüşlərində Heydər Əliyev bu məsələyə toxunmuş, onun həllinin regionda və dünyada siyasi, iqtisadi, beynəlxalq münasibətlərin inkişafına geniş imkanlar açacağını vurğulamışdı.[125] Bütün bu fəaliyyətin nəticəsi olaraq dünya ictimaiyyəti

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyətini anlaya bildi. 2001-ci il sentyabrın ortalarında Ermənistanda olmuş Avropa Şurasının Parlament Assambleyasının sədri Lord Rossel Conston açıqca bildirmişdi: "Beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, Ermənistan Dağlıq Qarabağı işğal edib".[126]

Prezident Heydər Əliyev bu illərdə ATƏT rəhbərliyi və onun Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirdi.[127] ATƏT-in 1994-cü ilin dekabrında Budapeşt, habelə 1996-cı ilin dekabrında Lissabon sammitləri Dağlıq Qarabağ münaqişəsinin Minsk qrupu vasitəsilə ədalətli, beynəlxalq prinsiplərə əsaslanaraq həllinin vacibliyini təsdiq etdi. Budapeşt sammiti Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan və Ermənistan arasında gələcəkdə bağlanacaq sazişdən sonra regiona daxil olub, silahlı münaqişənin nəticələrini aradan qaldıracaq çoxmilli beynəlxalq qüvvələr yaradılacağı haqqında qərar qəbul etdi. Minsk qrupu həmsədrləri təsisatı yaradıldı. Bu, vasitəçilərin fəaliyyətində əlaqəsizliyi, paralelliyi aradan qaldırdı.[128] Burada iki il sonra keçirilmiş Lissabon sammitində Prezident Heydər Əliyevin siyasi uzaqgörənliyi və iradəsi sayəsində Azərbaycanın mövqeyi dünyanın 53 dövləti tərəfindən tanındı və müdafiə olundu. Sammitin yekun qərarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllolunma prinsipləri haqqında təklif edilən bəndinə Ermənistan prezidenti razı olmadığı üçün Heydər Əliyev zirvə toplantısı iştirakçılarının bu məsələ ilə bağlı münasibətlərinin ifadəsi olan bir sənəd qəbul etdirmək məqsədilə yalnız yekdilliklə qəbul oluna biləcək Yekun Aktına bütövlükdə imza atmaqdan imtina etdi. Nəticədə ATƏT-in fəaliyyətdə olan sədrinin 54 üzv dövlətdən 53-ü (Ermənistan etiraz etmişdi), o cümlədən ABŞ, Rusiya, Fransa və b. adından verdiyi və zirvə toplantısının rəsmi sənədi elan olunmuş bəyanat qəbul olundu. Bu sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün, birinci, Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınması, ikinci, Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində yüksək dərəcəli özünüidarə statusu - muxtariyyət hüququ verilməsi, üçüncü, Dağlıq Qarabağın bütün əhalisinə - ermənilərə və azərbaycanlılara təhlükəsizlik təminatı verilməsi kimi üç mühüm prinsip irəli sürüldü.[129] İkinci prinsip təcavüzə məruz qalmış Azərbaycan üçün məqbul olmasa da, münaqişəni aradan qaldırmaq naminə buna razılıq verilmişdi.

Lissabon sammitindən sonra Minsk qrupuna üç dövlət - ABŞ, Rusiya və Fransa həmsədrlik etməyə başladı. Minsk qrupunun fəaliyyəti nisbətən fəallaşdı. Həmsədrlər tərəfindən 1997-ci il iyun ayının 11-də "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlı layihə təklif edildi. Bu, dəqiq öhdəliklər ehtiva edən hüquqi sənəddən daha çox gələcək danışıqların əsas istiqamət və tezislərini əks etdirən ümumi bəyannamə idi. Burada bir paketdə

birləşdirilmiş iki qrup məsələnin həlli nəzərdə tutulurdu: Birinci, silahlı münaqişənin dayandırılması. İkinci, Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi. Bu sənəddə Azərbaycanı təmin etməyən bir sıra ciddi məsələlər vardı. Sənəd BMT-nin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlum qətnamələrinə əsaslanmır və hüquqi baxımdan icbari xarakter daşımırdı. İşğal olunmuş ərazilərin boşaldılması ilə status məsələsinin əlaqəli baxılması, dəqiq mexanizmin və konkret zaman çərçivəsinin göstərilməməsi, bir çox problemlərin "daimi qarışıq komissiya"ların öhdəsinə buraxılması əslində münaqişənin həllinin illərlə uzadılmasına gətirib çıxaracaqdı. İkinci hissədə verilən təkliflər də Dağlıq Qarabağın Azərbaycan tərkibində özünüidarə statusu konsepsiyası ilə uzlaşmırdı. Azərbaycan tərəfi bu və bir çox başqa dolaşıq məsələlərə aydınlıq gətirilməsi üçün həmsədrlərə müraciət etmişdi. Bununla belə, taktiki mülahizələrlə danışıqlar prosesinə başlamaq və Ermənistanın mövqelərini ümumi şəkildə də olsa müəyyənləşdirmək üçün Azərbaycan tərəfi "paket təklifi" qəbul etdi.[130] Lakin Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmədiyinə görə, habelə Minsk konfransı çağırılmamış ilkin mərhələdə Dağlıq Qarabağın statusunu müəyyənləşdirməyin yolverilməzliyini bəhanə gətirib bu sənədi qəbul etmədi.[131]

1997-ci il sentyabrın 19-da həmsədrlər "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" adlı ikinci layihə təklif etdilər. Bu sənəd münaqişəni mərhələlərlə aradan qaldırmağı nəzərdə tuturdu. Birinci mərhələdə Laçın rayonu istisna olunmaqla Dağlıq Qarabağın inzibati hüdudlarından kənardakı altı işğal edilmiş rayonun azad olunması, ATƏT-in sülhü qorumağa yönəldilmiş əməliyyatının həyata keçirilməsi, qaçqınların azad edilmiş ərazilərə qaytarılması, habelə Ermənistanın və Dağlıq Qarabağın həyat fəaliyyəti üçün zəruri olan kommunikasiya vasitələrinin bərpa edilməsi nəzərdə tutulurdu. İkinci mərhələdə tərəflər Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi Dağlıq Qarabağın statusunu müəyyənləşdirməklə və onun təhlükəsizliyi üçün tədbirlər görməklə, habelə Laçın, Şuşa və keçmiş Şaumyan rayonları ilə bağlı məsələləri nizama salmaqla məşğul olmalı idilər. Həm də bu zaman hər bir bəndin həyata keçirilməsinin dəqiq mexanizmi və konkret zaman çərçivəsi, prinsipləri pozan tərəflərə qarşı sanksiyalar müəyyənləşdirilmişdi.[132] Bu sənəddə Dağlıq Qarabağın azərbaycanlı əhalisi, "Laçın dəhlizi" və s. ilə bağlı Azərbaycanı qane etməyən çoxlu maddə vardı. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan 1997-ci il oktyabrın 1-də "mərhələli həll" təklifinin danışıqlara başlamaq üçün əsas kimi qəbul olunmasına razılığını bildirdi.[133] Ermənistan prezidenti L.Ter-Petrosyan da buna müsbət münasibətini açıqladı. Buna səbəb Ermənistanın və Dağlıq Qarabağın son dərəcə ağır iqtisadi durumu, dəyişən beynəlxalq iqtisadi və siyasi maraqların Ermənistan rəhbərliyi tərəfindən dərk edilməsi idi.[134] 1997-ci il oktyabrın 10-da Strasburqda Azərbaycan və Ermənistan prezidentləri həmsədrlərin 1997-ci il 19

sentyabr tarixli təklifləri əsasında danışıqları davam etdirməyə razılıq verdiklərini bildirdilər.[135] Lakin Ermənistan prezidentinin danışıqları davam etdirmək fikri qondarma "DQR" liderləri tərəfindən kəskin etirazla qarşılandı. Oktyabrın 26-da "DQR" adlanan qondarma qurumun "prezidenti" Qukasyan "mərhələli həll" təklifinin qəbuledilməz olduğunu bəyan etdi. Sonrakı çıxışlarında qondarma "prezident" nizamlamanın erməni sxeminin konturlarını açıqladı: Laçın, Şuşa istisna olmaqla, başqa işğal edilmiş ərazilər hesabına Dağlıq Qarabağın Azərbaycandan şaquli asılılığı olmayan statusu əldə edilsin.[136] Ermənilərin nazı ilə oynayan ATƏT-in Minsk qrupunun həmsədrləri dekabrın 2-də "mərhələli həll" təklifinin yenidən işlənmiş, "DQR"-in münaqişə tərəfi kimi tanınmasını təklif edən maddə əlavə olunmuş variantını təqdim etdi. Təbii, Azərbaycan bu variantla razılaşmadı və danışıqların əvvəlki variant üzrə aparılmasının mümkün olduğunu bildirdi.[137]

1998-ci il yanvarın 7-8-də Ermənistan Respublikası Təhlükəsizlik Şurasının iclasında L.Ter-Petrosyanın mövqeyi kəskin tənqid edildi. Fevralın 3-də o, istefa verməyə məcbur oldu. Ermənistanın yeni rəhbərliyinin radikal mövqeyi danışıqların bu təməl üzərində davam etdirilməsi imkanlarını puça çıxardı.[138]

Uzun sürən fasilədən sonra həmsədrlər 1998-ci il noyabr ayının 9-da əsasən rusiyalı həmsədrin fəal iştirakı ilə hazırlanmış yeni, sayca üçüncü -"Ümumi dövlət" adlanan təklifi təqdim etdilər. Bu təklif də birinci təklif kimi paket xarakteri daşıyırdı, ATƏT-in Budapeşt və Lissabon sammitlərinin münaqişənin mərhələli həllini əsas götürən qərarlarına zidd idi. Dağlıq Qarabağın statusunun qəbul edilməsi silahlı qarşıdurmanın dayandırılmasından daha əvvəl nəzərdə tutulurdu. Bundan başqa, ortaya atılmış "ümumi dövlət" modelinin heç bir beynəlxalq hüquqi bazası yox idi. Əslində Dağlıq Qarabağ müvafiq atributları olan respublika şəklində dövlət, ərazi qurumuna çevrilir, "ümumi dövlət" çərçivəsində ona Azərbaycanla bərabər-subyektlilik verilirdi. Azərbaycan öz sərhədləri daxilində suveren hüquqlarını gerçəkləşdirmək imkanından faktiki olaraq məhrum olurdu. Azərbaycan özünə qarşı bu alçaldıcı təklifdən qəti imtina etdi.[139] Bundan sonra Ermənistan münaqişənin həllində Azərbaycanı qeyri-konstruktiv mövqe tutmaqda təqsirləndirməyə başladı.

Prezident Heydər Əliyev 1999-cu ilin əvvəllərində Minsk qrupu həmsədrlərinə prosesi canlandırmaq təklifi ilə müraciət etdi. Hər üç dövlət başçısı münaqişənin ATƏT prinsipləri əsasında aradan qaldırılması üçün yollar axtarılmasında maraqlı olduqlarını bildirdilər. Həmin ilin aprel ayında Vaşinqtonda ABŞ prezidenti və dövlət katibinin təklifi ilə Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqu-münaqişənin nizama salınması danışıqlarında yeni format yarandı. Prezidentlər bir neçə dəfə görüşüb məsələni müzakirə etdilər. 1999-cu ilin oktyabr ayında mövqeləri xeyli yaxınlaşdırmaq mümkün oldu.[140]

Lakin 1999-cu il oktyabrın 27-də Ermənistan parlamentindəki terror hadisəsindən sonra prezident Koçaryan, kiçik də olsa, əldə edilmiş müəyyən razılaşmalardan imtina etdi.[141]

Havadarlarına arxalanaraq müharibəyə girişmiş Ermənistanın iqtisadi və mənəvi durumu gündən-günə ağırlaşırdı. Ölkəni 1,5 milyondan çox insan tərk edib getmişdi. Vaxtın Ermənistanın əleyhinə işlədiyini görən havadarlar bir qədər fəallaşdılar. 2001-ci ilin yanvarında Parisdə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü oldu. Həmsədr ölkələrin rəhbərləri tərəflərə münasibətdə yenə də ikili standartlardan çıxış edərək Azərbaycanı "yazıq", "kasıb", "iqtisadiyyatı ağır vəziyyətdə olan" Ermənistana güzəştə getməyə təhrik edirdilər.[142]

2001-ci il fevralın 23-də Azərbaycan Respublikası Milli Məclisi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələni müzakirə etdi. İki gün əvvəl - fevralın 21-də rəsmi qəzetlərdə ATƏT-in təklif etdiyi hər üç layihə çap olunub ictimaiyyətə çatdırılmışdı.[143] Müzakirəyə bütün siyasi partiyalar, təklifləri olan şəxslər dəvət olunmuşdular. İclasda Prezident Heydər Əliyev və xarici işlər naziri təklifləri, mövcud vəziyyəti əhatəli təhlil etdilər. Müzakirələr göstərdi ki, Azərbaycan cəmiyyətinin münaqişənin həlli üçün güzəşt imkanları tükənmişdir. Bu fikir Azərbaycan ziyalılarının 2001-ci il mayın 30-da yaydıqları bəyanatda daha açıq ifadə olunurdu: "Biz sülh tərəfdarıyıq, müharibə başlanmasının, qan tökülməsinin əleyhinəyik, amma sülhdən daha vacib vətənimizin əzəli torpaqlarının qaytarılmasıdır. Lazım gələrsə, bu yolda BMT Nizamnaməsinə uyğun olaraq təcavüzkara qarşı güc tətbiq edilməsi də istisna olunmamalıdır".[144]

Azərbaycan və Ermənistan prezidentlərinin yeni formatda-Minsk qrupu həmsədrlərinin iştirakı ilə 4-6 mart Paris (Fransa), 3 aprel 2001-ci il Ki-Uest (ABŞ) görüşləri, bütün təzyiqlərə baxmayaraq, Azərbaycanın mövqelərinin dəyişməzliyini nümayiş etdirdi.[145]

Heydər Əliyev həmsədrlərin və bu münaqişənin həllində öz prinsiplərini tam müdafiə etməyib, ikili siyasət yeridən beynəlxalq təşkilatların "reallıqla razılaşmaq lazımdır" tövsiyəsini[146] qəti rədd etdi. Yaltada GUÖAM dövlət başçılarının sammitində həmsədrlərin problemin həllindən boyun qaçırmaqla, onu münaqişə edən tərəflərin öhdəsinə buraxmaqla ciddi səhvə yol verdikləri, beynəlxalq hüquq normalarını və prinsiplərini təhlükə altında qoyduqları tənqid edildi.

Jurnalistlərlə görüşündə Azərbaycan Prezidenti "müharibə variantı"nın istisna olunmadığını bildirmişdi.[147] AATŞ-ın üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2002-ci il noyabrın 22-də Praqada keçirilmiş zirvə görüşündə Prezident Heydər Əliyev demişdir: "Nə qədər ki gec deyil, dünya birliyi

beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması əsasında münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün əlindən gələni etməlidir".[148]

Azərbaycanın mövqeyinin dəyişməzliyinə səbəb Heydər Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən daxili və xarici siyasət, ölkənin iqtisadiyyatının sürətli inkişaf yoluna düşməsi, milli ordu quruculuğu sahəsində irəliləmələr, regionla bağlı məsələlərin həllində iri dövlətlərin onunla hesablaşmağa məcbur olması idi.

## §4. DEMOKRATİK, HÜQUQİ DÖVLƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ QURUCULUĞU

Ölkədə real imkanlar, xalqın mentaliteti nəzərə alınmaqla demokratiya, qanunçuluq, plüralizm münasib yollar və vasitələrlə inkişaf edirdi. Bu proses 90-cı illərin ikinci yarısında xüsusən intensivləşmişdi. "1995-ci ilin ortalarında Azərbaycan bütün qeyri-qanuni silahlı qüvvələrdən xilas olmuş, tamamilə möhkəmlənmiş, keyfiyyətcə yeni bir mərhələyə daxil olmuş, dövlət quruculuğunda ...böyük işlərə başlamaq üçün möhkəm ictimai-siyasi sabitlik və qanunçuluq şəraitinə gətirilmiş dövlətə çevrilmişdi".[149]

1995-ci il iyun ayının 2-də Milli Məclisin qərarına əsasən Azərbaycan Respublikasının Konstitusiyasını hazırlamaq üçün Prezident Heydər Əliyevin sədrliyi ilə 33 nəfərdən ibarət Konstitusiya Komissiyası təşkil edildi. Respublikanın görkəmli hüquqşünasları, qanunverici, icra və məhkəmə hakimiyyəti nümayəndələri cəlb olunmuş bu mötəbər komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsini hazırladı. Layihə 1995-ci il oktyabr ayının 15-də ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi və cəmiyyətdə böyük maraqla müzakirə olundu. Bəzi məsələlər, anlayışlar, məsələn, dövlət dilinin adı ilə bağlı geniş diskussiyalar keçirildi. Komissiyaya vətəndaşlardan və təşkilatlardan 2450 təklif, düzəliş və əlavə daxil olmuşdu.[150] Cəmiyyətin rəyi nəzərə alınmaqla layihəyə düzəliş və əlavələr edildi. Yeni variant - o, əvvəlki kimi 199 deyil, 158 maddədən ibarət idi - noyabrın 8-də mətbuatda dərc edildi. "Azərbaycan Respublikasının Konstitusiyası" - müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu 1995-ci il noyabr ayının 12-də referendumla qəbul olundu. Referendumda 4 milyona yaxın seçici korpusunun 86 faizi iştirak etdi. Onların 94,8 faizi Konstitusiya layihəsini bəyəndiyini bildirdi.[151]

Azərbaycan Respublikasının dövlət quruculuğunun hüquqi, qanuni əsasları qoyuldu. Konstitusiya bəyan etdi: Azərbaycan xalqının və dövlətinin ən mühüm məqsədləri Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməkdir.[152]

Azərbaycan Respublikası Konstitusiyası maddələrinin üçdə bir hissəsi (158 maddədən 48-i) insan hüquqlarına və onların təminatlarına həsr edilmişdi.[153]

Hakimiyyət bölgüsü konsepsiyasına uyğun olaraq Konstitusiya təsbit etdi ki, icra hakimiyyəti Azərbaycan Respublikası Prezidentinə mənsubdur, qanunverici hakimiyyəti Azərbaycan Respublikasının Milli Məclisi, məhkəmə hakimiyyətini isə müstəqil məhkəmələr həyata keçirirlər. Azərbaycan Respublikası Prezidenti təsisatının ikili hüquqi təbiəti vardır, Ali icra hakimiyyətinin ona mənsub olması ilə yanaşı, o, birinci növbədə, Azərbaycan dövlətinin başçısıdır, Azərbaycan xalqını bütövlükdə təmsil edir və xalqın vahidliyinin rəmzidir.[154]

Konstitusiyada məhkəmələrin müstəqilliyini təmin edən əsas prinsiplər müəyyən edilmişdi: Hakimlər müstəqildir, onlar yalnız Konstitusiyaya və qanunlara tabedirlər, səlahiyyətləri müddətində dəyişməzdirlər.[155]

Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan MR-ə Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi. Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhədinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarəetməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Ali Məclisin - parlamentin sədri Muxtar Respublikanın ali vəzifəli şəxsidir. İcra Hakimiyyəti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında məsuliyyət daşıyır. Naxçıvan MR-in Ali Məclisi, məhkəmələri qanunla və Prezident fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin həllində müstəqildirlər. 1998-ci il aprelin 28-də Naxçıvan MR-in Azərbaycan Respublikası Konstitusiyası əsasında hazırlanmış yeni Konstitusiyası Muxtar Respublikanın Ali Məclisində qəbul edildi və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq olundu.

Azərbaycan Respublikasının Konstitusiyası ölkədə demokratik dövlət və iqtisadiyyat, vətəndaş cəmiyyəti quruculuğuna hüquqi əsas yaratdı.

Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə 2000-ci il 3 may iclasında qeyd olunduğu kimi, Azərbaycanın Avropa standartlarına çatması üçün ölkənin rəhbərliyi "son dərəcə böyük səylər göstərir. Bu ölkədə rəhbərliyin və

xalqın azad, çiçəklənən cəmiyyət qurmaq əzmi heyranlıq doğurur. 70 illik sərt rejimdən sonra Azərbaycan keçmişin irsindən əl çəkə bilmişdir və suveren, hüquqi dövlət qurur".[157]

Konstitusiyanı daha da demokratikləşdirmək üçün Prezident Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci il avqust ayının 24-də referendum vasitəsilə ona 39 mühüm dəyişiklik edildi.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritar (100 deputat) və proporsional (25 deputat) sistemlə ilk seçkilər keçirildi. 125 deputat yerinə 600, o cümlədən birmandatlı dairələrdə 100 deputat yerinə 400 namizəd qeydə alındı.[158] Cəmiyyətdə daha çox sosial dəstəyi olan səkkiz siyasi partiya deputat mandatları uğrunda mübarizəyə qoşuldu. Seçkilərin gedişinə nəzarət üçün 214 beynəlxalq müşahidəçi dəvət olunmuşdu. Noyabrın 12-də Naxçıvan MR parlamentinə də demokratik seçkilər keçirildi. Azərbaycan parlamenti geniş qanunvericilik fəaliyyətinə başladı. Parlamentdə insan hüquqları, elm, təhsil, mədəniyyət, iqtisadiyyat, ekologiya və b. sahələr üzrə daimi komissiyalar təşkil olundu.

Azərbaycan parlamenti dünyanın qabaqcıl ölkələri qanunverici orqanlarının təcrübəsini öyrənməyə başladı. Parlamentin nümayəndələri Avropa Şurası sessiyalarında dəfələrlə iştirak etdilər. Bütün bunlar respublikada demokratik qanunvericiliyin formalaşmasına və inkişaf etməsinə münasib imkanlar açırdı. Parlamentin qəbul etdiyi qanunlar əsasında Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatlar həyata keçirildi.

2000-ci ilin noyabrında yeni parlament seçkiləri təşkil olundu. Mərkəzi Seçki Komissiyasında (MSK) 17 siyasi partiya və bir seçki bloku qeydiyyatdan keçdi. Demokratik konqresə üzv partiyaların, demək olar ki, hamısı seçkilərdə iştirak etdi. 13 partiya həm çoxmandatlı, həm də təkmandatlı seçki dairələri üzrə imza vərəqəsi aldı.[159] Respublika Prezidenti parlamentdə iri partiyalara öz nümayəndələrini MSK-ya göndərmələrini xahiş etdi. Altı iqtidaryönümlü, altı müxalif partiya və dörd bitərəf nümayəndələrindən ibarət MSK yaradıldı. Prezident Heydər Əliyev 2000-ci il sentyabrın 3-də seçkilərdə avtomatlaşdırmanın tətbiqi haqqında" Fərman verdi.[160]

Xalqın fəal iştirakı ilə 2000-ci il noyabrın 5-də keçirilən parlament seçkiləri nəticəsində Azərbaycan Respublikasının yeni parlamenti yarandı və qanunvericilik fəaliyyətinə başladı.[161]

2002-ci il avqustun 24-də referendumla Konstitusiyaya edilmiş dəyişikliyə görə Milli Məclisə seçkilər daha da demokratikləşdirildi, "mojaritar və proporsional" seçki sistemi ləğv edildi, ümumi "mojaritar" seçki sistemi müəyyən olundu.

Qanunların sivil dünya dövlətlərinin hüquqi dövlət quruculuğu ənənələrinə, beynəlxalq hüquq normalarına, Avropa Şurası və dünya demokratik qanunvericilik təsisatlarının tələblərinə uyğun hazırlanması üçün Azərbaycan Respublikası Prezidenti yanında 1996-cı ilin fevral ayında xüsusi "Hüquqi İslahatlar Komissiyası" yaradılmışdı. Siyasi və iqtisadi islahatlarla əlaqədar hazırlanan hüquqi aktların insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına uyğunluğu baxımından Avropa Şurasında ekspertiza olunması respublikada demokratik cəmiyyət qurulmasına təsirli kömək idi.[162]

Azərbaycan Avropa Şurasının "Qanun vasitəsilə demokratiyaya doğru" Venesiya Komissiyasına assosiativ üzv qəbul olundu.[163]

1998-ci ilin dekabr ayında Prezident Heydər Əliyev dövlət idarəetmə sistemində islahatlar üçün proqram hazırlanması haqqında fərman verdi. Xüsusi komissiya yaradıldı, dünya təcrübəsindən istifadə olunmaqla belə bir proqram hazırlandı və həyata keçirilməyə başlandı.[164]

1998-ci ilin fevral ayında Azərbaycan Prezidenti Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman verdi.[165] İnsan hüquqlarının təmin olunmasının hüquqi mexanizmi yaradılmağa başlandı. "Kütləvi informasiya vasitələri haqqında", "Dini etiqad azadlığı haqqında", "Ölkədən getmək və ölkəyə gəlmək haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında" və digər qanunlar qəbul edildi. 1998-ci ilin oktyabr ayında "Vətəndaşlıq haqqında" yeni Qanun qəbul olundu.

1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq edildi, bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu yaradıldı, beynəlxalq qurumlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi, mütəxəssis kadrlar hazırlanması üçün əməli addımlar atıldı.[167]

Azərbaycan Respublikası insan hüquqları ilə bağlı 29 beynəlxalq konvensiyaya qoşuldu. 1998-ci il avqustun 18-də Azərbaycan hökuməti ilə BMT "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi və müdafiəsi sahəsində birgə bağlı layihə haqqında memorandum" imzaladılar. BMT bu sahədə Azərbaycana fəal köməklik göstərməyə başladı.[168]

2001-ci ilin dekabrında Azərbaycan Respublikasının Milli Məclisi "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı və onun 1, 4, 6 və 7 saylı protokollarını təsdiq etmək barədə Qanun və "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ambudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu qəbul etdi.[169]

"İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını təsdiq etmək haqqında Qanun qəbul edildi. 2002-ci ildə respublikada Ambudsman İnstitutu

yaradıldı. İyulun 2-də Milli Məclis alim Elmira Süleymanovanı bu vəzifəyə seçdi. 2002-ci ilin avqustunda referendum vasitəsilə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklə əlaqədar hətta fövqəladə və hərbi vəziyyət zamanı səlahiyyətli şəxsin verdiyi əmrin yerinə yetirilməsi ilə bağlı insana qarşı silah işlədilməsinə yol verilmirdi.

1998-ci il avqustun 6-da "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Prezident Fərmanı ilə hələ 1992-ci il aprelin 12-də Y.Məmmədov və 1993-cü il aprelin 15-də Ə.Elçibəy iqtidarları dövründə sərbəst informasiya fəaliyyətinə qoyulmuş məhdudiyyətlər aradan qaldırıldı, mətbuatda və digər kütləvi informasiya vasitələrində dövlət sirlərini qoruyan idarə, senzura ləğv edildi. Prezident Heydər Əliyev qeyd edirdi ki, "fikir azadlığı, söz azadlığı bizim həyatımızın əsasını təşkil etməlidir. Kim nə cür düşünür, o cür düşünsün. Heç kəsi məcbur etmək olmaz. Sadəcə biz çalışmalıyıq ki, öz fikirlərimizin daha doğru, düzgün olduğunu sübut edək və insanları bu fikirlərə şüurlu inandıraq".[170]

2001-ci ildə Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi. 2002-ci il oktyabrın 5-də Azərbaycan Prezidentinin fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı.[171] Demokratiyanın, plüralizmin inkişaf etdirilməsi sahəsində "Söz Azadlığı Komitəsi", "Azərbaycan İnsan Hüquqları və Demokratiya Komitəsi", "Azərbaycan Demokratiya Fondu", "RUH" jurnalistləri müdafiə fondu və başqa ictimai təşkilatlar da müəyyən iş aparırdılar.[172]

Azərbaycan Respublikası Şərqdə ölüm cəzasını ləğv etmiş ilk ölkə oldu. 1993-cü ildən burada ölüm cəzasına faktiki moratorium qoyuldu. 1996-cı ildə Prezident Heydər Əliyev Cinayət Məcəlləsində 21-ci maddənin sanksiyasından ölüm cəzasını götürmək təşəbbüsünü irəli sürdü. Qadınlara və 65 yaşından yuxarı kişilərə ölüm cəzası qadağan edildi. 1998-ci ilin fevral ayında Prezidentin təşəbbüsü ilə respublikada ölüm hökmü tamamilə ləğv olundu.[173]

1995-ci ilin may ayından respublikada Əfvetmə İnstitutu fəaliyyətə başladı. 1995-ci ildən 2003-cü ilin əvvəllərinədək Azərbaycan Prezidenti Heydər Əliyev 30 əfv fərmanı imzaladı. 2900-dən çox məhbus azadlığa buraxıldı. Prezidentin təşəbbüsü ilə Milli Məclis amnistiya haqqında 6 akt qəbul etdi. Bu aktlar 63477 məhbusa tətbiq edildi. Onlar arasında dövlətə qarşı cinayət işlətmiş şəxslər də vardı.[174]

Dövlətçiliyin təmin olunmasının mühüm vasitələrindən biri də hüquq-mühafizə orqanlarının inkişaf etdirilməsi və möhkəmləndirilməsi idi.

1997-ci ilin oktyabr ayında "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci ildə Konstitusiya Məhkəməsi təşkil olundu.[175] "Vəkillik və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz

hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" qanunlar, cinayət, cinayət prosessual, mülki, mülki prosessual, inzibati xətalar, əmək, ailə, vergi məcəllələri qəbul edildi.[176] 2002-ci ilin aprel ayından respublikada hakimlərin, 2002-ci ildən isə prokurorluq orqanları işçilərinin imtahandan keçməsi institutu tətbiq olunmağa başlandı.[177] 2002-ci ilin avqustunda Konstitusiyaya edilmiş dəyişikliklərə görə hər bir şəxs Konstitusiya Məhkəməsinə müraciət edə bilərdi.

2002-ci ilin sentyabr ayından Azərbaycanda üçpilləli məhkəmə sistemi formalaşdı. Yeni, ikinci instansiya - apellyasiya məhkəməsi yarandı.[178]

Respublikanın daxili işlər və milli təhlükəsizlik nazirlikləri, onların yerli təşkilatları, silahlı hissələri təsadüfi, cinayətkar, xain və satqın ünsürlərdən əsasən təmizləndi. Əvvəlki iqtidarlar dövründə işdən uzaqlaşdırılmış mütəxəssislər yenidən öz yerlərinə qaytarıldı. Polisin şəxsi heyəti azaldıldı, lakin məsuliyyət artırıldı. Prezidentin 1994-cü il 9 avqust tarixli Fərmanının müvəffəqiyyətlə həyata keçirilməsi mövcud cinayətkar qrup və dəstələrin, şəxslərin zərərsizləşdirilməsində, gizli cəbbəxanaların, əllərdə olan silahların, hərbi texnikanın və döyüş ləvazimatlarının aşkar edilib götürülməsində, cəmiyyətdə əmin-amanlıq, sabitlik yaranmasında əhəmiyyətli rol oynadı. 1995-2001-ci illərdə 6904 cinayətkar qrup zərərsizləşdirildi. 14.899 odlu silah yığıldı. Hakimiyyətə qeyri-qanuni, zorakı yollarla gəlmək kimi zərərli ənənə, dövlət çevrilişi cəhdləri aradan qaldırıldı.[179]

Bu illərdə dünya narkomafiyasının Azərbaycanı tranzit yola çevirmək cəhdlərinə qarşı ciddi mübarizə aparıldı. 1996-cı ilin avqust ayında Azərbaycan Prezidenti "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı tədbirlər haqqında" Fərman verdi. Narkomanlıqla və narkobiznеslə mübarizə üzrə komissiya yaradıldı, dövlət proqramı hazırlandı və həyata keçirilməyə başlandı.[180] 2001-ci il iyunun 29-da "Narkoloji xidmət və nəzarət haqqında" Qanun Prezident tərəfindən təsdiq edildi.[181]

Respublikada kriminogen vəziyyət aradan qalxdıqca Daxili İşlər Nazirliyi sistemində ştatlar ixtisar olunurdu. 1999-cu ilin əvvəllərində burada 600 ştat ixtisar edilmiş, külli miqdarda dövlət vəsaitinə qənaət olunmuşdu.[182]

Yeni Konstitusiyanın tələbinə görə, ölkədə demokratik cəmiyyətin mühüm elementi kimi yerli özünüidarə - seçkili bələdiyyələr sistemi qurulmağa başlanmışdı. "Bələdiyyələrə seçkilər haqqında", "Bələdiyyələrin statusu haqqında" Qanun qəbul edilmişdi. 1999-cu il dekabr ayının 12-də Azərbaycan Respublikasında ilk bələdiyyə seçkiləri keçirildi.[183] Bələdiyyələr vətəndaşların yerli özünüidarə təşkilatları kimi dövlətdən ayrı, müstəqil fəaliyyət göstərirdilər. Azərbaycan "Yerli özünüidarə haqqında" Avropa Xartiyasına qoşulmuşdu.

İqtidar müstəqil dövlətçiliyi möhkəmləndirməyin, vətəndaş həmrəyliyinə nail olmağın mühüm vasitəsi kimi mövcud siyasi və ictimai təşkilatlarla sağlam münasibətlər qurulmasına, bu təşkilatların demokratik prinsiplər əsasında inkişaf etməsi üçün şərait yaradılmasına qayğı göstərirdi. 1993-cü il noyabrın 17-də Prezident Heydər Əliyev respublikadakı siyasi partiya və hərəkatların liderləri ilə görüşdü, onları konstruktiv əməkdaşlığa çağırdı.[184] Lakin müxalif siyasi qüvvələr vətəndaş həmrəyliyi yaradılmasını hakimiyyətin onlarla bölüşdürülməsi ilə bağlayır, öz siyasi ambisiyalarını ön plana çəkirdilər. 1994-cü ilin noyabr ayında Bakı Kəndlər Birliyinin, habelə başqa təşkilatların vətəndaş həmrəyliyi yaratmaq cəhdləri baş tutmadı.[185] Xalq Prezident Heydər Əliyevin ətrafında daha sıx birləşdi.

Respublikada qanuni, demokratik vasitələrlə siyasi fəaliyyət və fikirlər plüralizmi üçün münasib imkanlar yaranmışdı. 1995-ci ildə burada 50-dən çox ictimai-siyasi təşkilat və partiya vardı. Siyasi partiyalarda 410 mindən çox üzv birləşmişdi.[186] 2002-ci ildə isə rəsmi qeydə alınmış 350 minə qədər üzvü olan 39 siyasi partiya, habelə 1350 ictimai birlik, qeyri-hökumət təşkilatı fəaliyyət göstərirdi.[187] Qeyri-hökumət təşkilatlarının vətəndaş cəmiyyəti formalaşmasında mühüm əhəmiyyətini nəzərə alan dövlət onların potensialının artması və fəaliyyətinin genişlənməsi üçün münasib şərait yaradırdı. 1997-ci ildə Azərbaycanla BMT-nin İnkişaf Proqramı arasında razılaşmaya əsasən respublikada Qeyri-Hökumət Resurs və Təlim Mərkəzi təsis olunmuşdu.[188] Ölkədə milli, millətçi, liberal, dini, sosial-demokrat, kommunist ideologiyalı müxtəlif təşkilatlar vardı. Lakin elektoratların tam əksəriyyəti siyasi partiyaların fəaliyyətindən kənarda idi. Gənclərin cəmi 5 faizə qədəri siyasi təşkilatlarda birləşmişdi.[189]

Yeni Azərbaycan Partiyası sürətlə inkişaf edib ən böyük partiyaya çevrilmişdi. 1995 və 2000-ci il parlament seçkilərində bu partiya çoxluq əldə etdi, həm qanunverici, həm də icra hakimiyyətində çoxluğu təşkil etdiyi üçün iqtidar partiyasına çevrildi.[190] 2001-ci il noyabrın 21-də keçirilmiş II qurultayı ərəfəsində bu partiyanın sıralarında artıq cəmiyyətin bütün təbəqələrini əhatə edən 230 min nəfər birləşmişdi. Partiyada bir sıra siyasət, dövlət, mədəniyyət xadimləri yetişmişdi. Onlardan biri Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, ölkə gəncləri və sahibkarlar arasında böyük nüfuz qazanmış İlham Əliyev idi. Qurultayda o, partiya sədrinin yeni təsis olunmuş birinci müavini vəzifəsinə seçildi. 2001-ci ildə İlham Əliyev nüfuzlu ekspertlərin rəyinə əsasən ilin siyasətçisi nominasiyası üzrə Azərbaycan Strateji Araşdırmalar Mərkəzinin mükafatına layiq görülmüşdü.[191]

Yeni Azərbaycan Partiyası ümummilli partiyaya çevrilmişdi. Onun rəhbərliyi ilə iqtidaryönümlü partiyalar 1998-ci ilin sonralarında "Azərbaycan Dövlətçiliyi və Vətəndaş Birliyi uğrunda Demokratik Alyans" yaratmışdılar.

Alyans iqtidarın daxili və xarici kursunu dəstəkləyir, islahatların həyata keçirilməsində ona fəal ideoloji kömək göstərirdi.[192]

Sağlam müxalifətin siyasi həyatda mühüm rol oynaya biləcəyini düşünən iqtidar respublikada belə bir siyasi qüvvənin formalaşmasında maraqlı idi. Müxalif partiyalara demokratik vasitələrdən istifadə etməklə təbliğat və təşviqat imkanları yaradılırdı. Müxalif qüvvələr onlarla qəzet və jurnal nəşr edib yayır, televiziya və radio kanallarından istifadə edir, seçki komissiyalarında, parlamentdə təmsil olunurdular. Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər üzrə iclasında qeyd olunduğu kimi, Azərbaycanda sərt müxalifət mövcud idi və o, bəzən iqtidarla çox amansız rəftar edirdi.[193] Lakin ölkədə demək olar ki, konstruktiv müxalifət yarana bilmədi. Buna səbəb əvvəla, xalqın köklü mənafelərinin mövcud iqtidar tərəfindən təmin olunması idi. Hakimiyyət iddiasında olan müxalif qüvvələr cəmiyyətə yeni heç nə təklif edə bilmirdilər. Hətta müxalif "Yeni Müsavat" qəzeti özünün 2001-ci il 13 iyul sayında yazırdı ki, "belə şəraitdə cəmiyyətdən nə gözləmək, hansı dəstəyi almaq olar?"[194] İlham Əliyevin qeyd etdiyi kimi, bu adamlar özlərinin yaratdığı xırdaca siyasi mikromühitdə yaşayırdılar. Respublikanın real siyasi həyatı isə başqa miqyaslarda cərəyan edir və elmin, istehsalın, incəsənətin, biznesin müxtəlif sahələrində özünü göstərən istedadlı adamlar ön mövqelərə çıxırdılar.[195]

Müxalifətin uğursuzluğunun bir səbəbi də ayrı-ayrı siyasi partiya və blok liderləri arasında müxalifətin lideri olmaq, ondan prezident seçilmək üçün dəstək almaq iddiaları idi. Bunun üçün fərqlənməyin, siyasi kapital toplamağın, önə çıxmağın vasitəsi isə cəmiyyətə mövcud problemləri həll etmək üçün ağıllı təkliflər vermək yox, qeyri-demokratik, qeyri-etik vasitələrə əl atmaq, ağ yalan, böhtan, şayiə, insanları iqtidara itaətsizliyə, kütləvi aksiyalara çağırmaq, icazəsiz mitinqlər, küçə yürüşləri keçirmək, radikallıq, dağıdıcılıq, zorakılıq göstərmək idi. 1993-cü ilin ikinci yarısı və 1994-cü ilin əvvəllərində müxalifətin radikal qanadına rəhbərlik edən qüvvələr, xüsusən "Boz qurd" Partiyası, habelə gizli hərbi-siyasi qurumlar xeyli fəal idilər. Bu təşkilatların üzvləri populist şüarlarla insanları yenidən küçələrə səsləyir, üsyana çağırır, mitinqlər keçirir, hələ zəif olan siyasi sabitliyi pozmağa çalışırdılar. Onların təşəbbüsü ilə keçirilən tədbirlərə müxalifətin liberal qanadı da qoşulurdu.[196] Lakin dövlətin sayıqlığı nəticəsində bu cəhdlər baş tutmadı. "Boz qurd" Partiyasının fəaliyyəti dayandırıldı.[197]

Xarici havadarlarının köməyi ilə bəzi din xadimləri Azərbaycan Respublikasında İransayağı islam rejimi yaratmağa çalışırdılar. Hələ 80-ci illərin sonlarında Şəkinin bir para dindarları "Yeni Azərbaycan İslam Cəmiyyəti" adlı təşkilat yaratmış, "İslam Ordusu" adlı silahlı qrup təşkil etmişdilər. Təşkilatın liderləri dövlət orqanlarının işinə qarışır, rayonda hakimiyyəti zorla ələ keçirmək

istəyirdilər. 1993-cü ilin noyabr ayında hökumət bu təşkilatın qanunsuz fəaliyyətinə son qoydu.[198]

1992-ci ildən Azərbaycanda fəaliyyət göstərən İslam Partiyası liderləri də İran İslam Respublikası xüsusi xidmət orqanları ilə əlbir işləyir, hakimiyyətə gəlmək üçün bu təşkilatın yüksək rütbəli zabitləri ilə tədbirlər planı qurur, əməli hazırlıq görürdülər. Dini təhsil almaq adı ilə İrana göndərilmiş gənclərə hərbi təlim keçirilirdi. İranda təlim keçmiş 1000-dən çox gəncə xüsusi kod adları verilmiş, onların hər biri ilə ayrıca əlaqə vasitələri müəyyənləşdirilmişdi[199]. Partiyaya külli miqdarda vəsait verilirdi. İrandan gələn "qonaqlar" əhali arasında təbliğat işi aparırdılar. 1996-cı ildə İslam Partiyasının satqın liderləri ifşa edilib həbs olundular.[200]

2000-2002-ci illərdə Bakının Nardaran qəsəbəsində, Azərbaycan Respublikası Prokurorluğunun və Daxili İşlər Nazirliyinin 2002-ci il 1 avqust tarixli bəyanatında qeyd olunduğu kimi, regionda gərginlik yaradılmasında maraqlı olan bəzi dövlətlər və ekstremist yönümlü beynəlxalq dini təşkilatların təsiri ilə sosial problemləri qabartmaq və təhrif olunmuş islami dəyərləri ön plana çəkməklə mövcud konstitusiyalı quruluşa qarşı çıxan, dövlət hakimiyyəti orqanlarının səlahiyyətinin yaratdıqları "Dini Şura"ya verilməsini tələb edən, radikal mövqedə olan bir qrup şəxs yerli sakinlərin dinə inamından sui-istifadə edərək əvvəlcədən planlaşdırılmış şəkildə asayişin pozulması ilə nəticələnən qanunsuz aksiyalar, hətta kütləvi iğtişaşlar təşkil etmişdilər.[201]

90-cı illərin ortalarında "Sadval" təşkilatı ölkədə həyəcanlar törətmək, qarışıqlıq yaratmaq məqsədilə bir sıra terror aktları təşkil etmişdi. Ermənistan xüsusi xidmət orqanlarının rəhbərliyi ilə bu təşkilatın üzvləri 1994-cü il martın 19-da Bakı metrosunun "20 Yanvar" stansiyasında partlayış törətdilər, 14 nəfər həlak oldu, 49 nəfər yaralandı. Həmin il iyulun 3-də metronun "Gənclik" və "28 May" stansiyaları arasında partlayış törədildi. Yenə insan tələfatı oldu. Cinayətkarlar yaxalanıb cəzalandırıldılar.[202] "Sadval" vasitəsilə məqsədinə nail ola bilməyən təxribatçılar Rusiya Müsəlmanları İttifaqına, onun Cənubi Dağıstan filialına və bu təşkilatın redaktoru erməni olan "Vestnik" qəzetinin hay-küyünə ümid bəsləyirdilər. Özünü "ləzgilərin imamı" adlandıran Aşum Qasımov 1996-cı ildə ləzgilərin hüquqlarını müdafiə adı altında məscidlərdə gəncləri cihada çağırırdı. Bu təxribatçılar Azərbaycan-Rusiya sərhədində iğtişaş törətməyə, Dağıstandan topladıqları silahlı dəstələrlə Azərbaycan tərəfdən sərhəddəki rus əsgərlərinə hücum edib münaqişə yaratmağa hazırlaşırdılar. Lakin onların bu cəhdləri vaxtında ifşa olundu.[203]

1998-ci ilin yayında AXCP (AXC əsasında 1995-ci ildə Azərbaycan Xalq Cəbhəsi Partiyası - AXCP yaranmışdı) "Müxalifətin mitinq taktikası" və "AXCP-nin iqtidara qarşı təbliğat mübarizəsi" adlı proqramlar hazırlamışdı. Obyektiv

problemləri qabardıb faciə kimi təqdim etmək, "şantaj", "dezinformasiya", "kütləvi çıxışlar", "vətəndaş itaətsizliyi", "pozuculuq fəaliyyəti", kəskin ittihamlarla hakimiyyəti cəmiyyətə "xəyanətkar" obrazında təqdim etmək, sosial-iqtisadi infrastrukturları dağıtmaq, hətta cəbhədə atəşkəsin pozulmasına nail olmaq, sosial partlayışlar törətmək, cəmiyyətlə iqtidar arasında qarşıdurma yaratmaq və digər pozucu tədbirlər planlaşdırılmış, həyata keçirilməsi üçün səylər göstərilməyə başlanmışdı.[204] 2002-ci il sentyabr-oktyabr aylarında Ayaz Mütəllibovun rəhbəri olduğu "Azərbaycanın tərəqqisi uğrunda" ictimai-regional mədəni-maarif fondu Azərbaycana qarşı təxribat fəaliyyətinin mərkəzinə çevrilmişdi.

Fond hətta separatçı qüvvələrdən də istifadə edirdi. A.Mütəllibovun Bakıdakı tərəfdarlarının bir qrupu hakimiyyəti zorla ələ keçirmək planı hazırlamışdı.[205] Hakimiyyəti ələ keçirmək uğrunda hər şeyi qurban verməyə hazır olan dağıdıcı müxalifət hətta xarici xüsusi idarələrin Azərbaycanı parçalamaq, müstəqil "Qırmızı Kürdüstan", "Yaşıl Nardaran" bölgələri yaratmaq, cənub və şimal regionlarındakı bəzi separatçı qüvvələrə külli-ixtiyar vermək planlarının reallaşması cəhdlərinə dəstək verirdilər.[206]

Müxalif partiyalarda belə bir fikir vardı ki, əgər birləşsələr, iqtidarı hakimiyyətdən sala bilərlər. Bunun səhv olduğunu 1998-ci il prezident seçkiləri ərəfəsində əsas müxalifət partiyalarının SİDSUH (Seçki İslahatları və Demokratik Seçkilər Uğrunda Hərəkat) kimi cəlbedici ad daşıyan qeyri-formal təşkilatda birləşmələri, həmin ilin iyul-sentyabr aylarında provokasiya törətməklə, qan tökülməsinə nail olmaqla cəmiyyəti hərəkətə gətirmək cəhdlərinin gözlənilən nəticəni verməməsi sübut etdi. Müxaliflər rəsmi şəkildə ayrılmış yerdə deyil, məhz, Azadlıq meydanında mitinq keçirmək bəhanəsi ilə sentyabrın 12-də aralarında daş, butulka sınığı, kəsici alətlərlə silahlanmış 200 nəfərə yaxın mitinqçinin polislə qarşıdurmasına nail oldular. Hər iki tərəfdən yaralananlar vardı.[207] Bu dəfə də xalq müxalifətin zorakı tələblərini müdafiə etmədi.

Lakin SİDSUH-un bəzi konstruktiv tələbləri, təbii ki, seçki qanunvericiliyində, seçkilərin təşkilində iqtidar tərəfindən nəzərə alındı. Seçki qanunvericiliyini müxalifətin və ATƏT-in tələblərinə uyğunlaşdırmaq üçün 1998-ci il iyulun 10-da ona dəyişikliklər və əlavələr edildi, 16 təklifdən 12-si qəbul olundu.[208] Bu təşkilatın fəaliyyəti sübut etdi ki, cəmiyyətə, iqtidarın fəaliyyətinə zorakılıqla deyil, konstruktiv təkliflərlə təsir göstərmək olar, bu cür təkliflər qəbul edilir və qiymətləndirilir.

1998-ci ilin sonlarında təşkil olunmuş DUH (Demokratiya Uğrunda Hərəkat) da səmərəli fəaliyyət göstərə bilmədi və tezliklə dağıldı. 2002-ci il yanvar ayının 10-da Müsavat və ona yaxın olan partiyalar "Birləşmiş Müxalifət Hərəkatı" adlı yeni bir qurum təsis etdilər.[209] Lakin bu təşkilat da müxalif qüvvələri birləşdirə bilmədi.

90-cı illərin ortalarında müxalif sağ qüvvələrin liberal qanadına Müsavatın və AXCP-nin lider olduqları "Demokratik Konqres" rəhbərlik edirdi. Özünü mövcud iqtidara "barışmaz müxalifət" adlandıran Müsavat-AXCP dueti bu təşkilatda liderliyi əldə saxlamaq üçün başqa siyasi partiyaların inkişafında, təşkilatca möhkəmlənməsində maraqlı deyildi.[210] Onun bəzi üzvləri dövlət çevrilişi cəhdlərində iştirak etmişdilər. Lakin həm Müsavat, həm də AXCP liderləri prezident olmağa can atdıqları üçün bu duet daxilində ziddiyyətlər getdikcə dərinləşməyə başlamışdı. 2000-ci il mayın 20-də Demkonqresə daxil olan 20 partiyanın təşkil etdiyi mitinqdə cəmi 3500-4000 nəfər iştirak etmişdi.[211] 2000-ci ilin sonlarında Müsavat Partiyasının başqanı Demokratik Konqresi öz siyasi komandasına çevirməyə çalışdı. Buna etiraz edən başqa partiyaların bir qrupu "Alternativ Demokratik Konqres" təşkil etdi. Azərbaycan Liberal Partiyası sədrinin müxalifət liderlərini bir araya gətirmək səyləri baş tutmadı. 2002-ci ilin dekabr ayında, prezident seçkiləri ərəfəsində müxalifət ATƏT-in təşəbbüsü ilə Milli Məclisdə Seçkilər Məcəlləsi layihəsinin müzakirəsi üçün təşkil olunmuş "Dəyirmi masa"ya qeyri-konstruktiv tələblər irəli sürərək qatılmadı. Müxalifətin Koordinasiya Mərkəzi (MKM) təşkil edildi. Lakin bu təşkilat da müxalifət daxilində birlik yarada bilmədi. Ziddiyyət MKM-nin yaratdığı "Azad Seçki Formu" ilə müxalifətin alternativ "Azad Seçki Mərkəzi" arasında davam edirdi.[212]

Ziddiyyətlər təkcə müxalifət partiyaları və birlikləri arasında deyil, həm də ayrı-ayrı partiyaların öz daxilində də mövcud idi. "Yurdçular" və "klassiklər" arasındakı ziddiyyət partiya sədri Ə.Elçibəy dünyasını dəyişdikdən sonra AXCP-nin parçalanmasına səbəb oldu. 2002-ci il avqustun 18-də AXCP-nin "klassiklər" və "islahatçılar" qanadlarını bir araya gətirmək təşəbbüsündə olan başqa bir qrup partiyanı bütövləşdirmək məqsədilə qurultay keçirdi. Lakin yenə partiyanın "liderləri" arasında mübarizə səngimədi. Bu işdə Müsavat və AMİP qızışdırıcı mövqe tutub faydalanmağa çalışırdı.[213] 1998-ci ilin əvvəllərində Ə.Elçibəyin təşəbbüsü və rəhbərliyi ilə "Bütöv Azərbaycan Birliyi" adlı təşkilat yaradılmışdı.[214]

Müxalif "sol" qüvvələrdə də bloklaşma meyli vardı. Vahid Azərbaycan Kommunist Partiyası ictimai mülkiyyətin özəlləşdirilməsi əleyhinə çıxır, SSRİ-nin, bəzi islahatlarla əvvəlki sovet rejiminin bərpa olunacağı günü gözləyirdi.[215] Azərbaycan Kommunist Partiyası isə kommunizm ideallarının modernləşməsinə, sosial qayğılara istiqamətləndirilən bazar iqtisadiyyatına, sosialist ölkələri siyasi birliyinə tərəfdar idi.[216] Daxilində ciddi didişmə gedən kommunist partiyaları elə bir güclü sosial bazaya malik deyildilər.

İnsanlar kimin-kim olduğunu getdikcə daha aydın dərk edir, iqtidarın siyasətini, ona mane olan qüvvələrin məqsəd və əməllərini düzgün qiymətləndirirdilər.

Xalq demokratiya məktəbi keçir, mübahisəli fikirləri hay-həşirlə deyil, demokratik qaydada, sivil şəkildə müzakirə və həll etməyin yollarını öyrənirdi.

Gənc nəslə, onun tərbiyəsinə, mənəvi və fiziki sağlamlığına qayğı artmışdı. Gənclər ölkə əhalisinin 66 faizini təşkil edirdilər.[217] 1994-cü ilin iyun ayında Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi təsis edilmişdi. 1995-ci ilin noyabr ayında Respublika Gənclər Təşkilatının Milli Şurası yaradıldı. 1997-ci ildə bu təşkilat Avropa Gənclər Forumuna, Dünya Türk Gənclər Birliyinə qəbul edildi. 2003-cü ildə bu şurada 40-a qədər uşaq və 80-dən çox gənclər təşkilatı birləşmişdi.[218]

Gənclərin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də Gənclərin Birinci Respublika Forumu keçirildi. Prezident Heydər Əliyev forumda gənclər üçün proqram əhəmiyyətli nitq söylədi, onları -müstəqil respublikanın gələcək sahiblərini daha mütəşəkkil, milli dövlətçilik, vətənin bütövlüyünün təmin edilməsi və möhkəmləndirilməsi uğrunda fəal mübariz olmağa çağırdı.[219] Prezident Fərmanı ilə 1997-ci ildən fevral ayının 2-si Azərbaycanda "Gənclər Günü" kimi qeyd olunmağa başlandı.[220]

1996-cı ilin iyununda Azərbaycan Prezidenti Heydər Əliyev istedadlı gənclərə, onların yaradıcılıq potensialının inkişafına dövlət qayğısını təmin etmək məqsədilə xüsusi Fərman verdi.[221] 1999-cu il iyulun 29-da "Dövlət gənclər siyasəti haqqında" Proqram qəbul edildi.[222]

Respublikada yetişən yeni nəslin bəzi nümayəndələri bir neçə ali təhsil almışdılar, müxtəlif əcnəbi dilləri bilirdilər. Bank işində, sahibkarlıqda, biznesdə böyük uğurlar qazanır, Azərbaycanın dövlətçiliyini və müstəqilliyini mərdliklə qoruyur, müxtəlif istehsal obyektlərinin, fermer təsərrüfatlarının idarə olunmasında nəzərəçarpacaq nailiyyətlər əldə edirdilər.[223]

Azərbaycanda Respublika Uşaq Təşkilatı da fəaliyyət göstərirdi. "Uşaq hüquqları haqqında" Qanun (1998-ci il mayın 19-da qəbul olunub), "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında" Dövlət Proqramı qəbul edilmiş, BMT-nin YUNİSEF uşaq təşkilatının (Azərbaycanda 1994-cü ilin sentyabrından fəaliyyətə başlayıb) köməyi ilə "Erkən uşaqlıq dövründə qayğı və inkişaf konsepsiyası"nın, mənəvi, fiziki və estetik tərbiyənin təşkilinə, çətin şəraitdə yaşayan uşaqların problemlərinin həllinə dair layihələrin həyata keçirilməsinə başlanılmışdı.[224]

Azərbaycan qadınlarının da ictimai-siyasi fəaliyyəti xeyli genişlənmişdi. 2001-ci ildə respublikada 41 qadın təşkilatı fəaliyyət göstərirdi.[225] "Sevil" Qadınlar Məclisi, "Neftçi" Qadınlar Cəmiyyəti, "Bakı" Qadınlar Assosiasiyası, "Qadın və İnkişaf Mərkəzi", D.Əliyeva adına "Qadın Hüquqlarını Müdafiə Cəmiyyəti", "Əsgər Anaları Cəmiyyəti" və s. ictimai-siyasi həyatda fəal rol oynayırdılar. Azərbaycan BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının

ləğv olunması haqqında" 1995-ci il 30 iyun tarixli Konvensiyasına qoşuldu.[226] Azərbaycan qadınlarının nümayəndələri 1995-ci ilin iyununda Pekində keçirilən IV Ümumdünya Qadınlar Konfransında iştirak etdilər. Bu konfransın qərarları respublikada qadın hərəkatının ümumi fəaliyyət platformasının formalaşmasında mühüm rol oynadı.[227]

1998-ci ilin yanvar ayında Prezident Heydər Əliyevin Fərmanı ilə "Qadın Problemləri üzrə Dövlət Komitəsi" yaradıldı. Görkəmli alim, professor Zəhra Quliyeva onun sədri təyin edildi.[228]

1998-ci il sentyabrın 14-15-də Azərbaycan Respublikası qadınlarının qurultayı keçirildi. Qadınların böyük əksəriyyəti respublikada mürəkkəb ictimai-siyasi proseslərin gedişində daim milli dövlətçilik mövqeyində olduqlarını nümayiş etdirdilər. Qadınları narahat edən problemlər aşkarlandı və onların aradan qaldırılması, həlli yolları müəyyən olundu.[229]

Respublikada qadınlara dair dövlət siyasətinin daha səmərəli həyata keçirilməsi üçün 2000-ci il martın 6-da Azərbaycan Prezidenti "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Fərman verdi.[230]

2002-ci il sentyabrın 17-də Bakıda GUÖAM ölkələri qadınlarının qurultayı keçirildi.[231]

XXI əsrin əvvəllərində ölkədə insan hüquqlarının müdafiəsi sahəsində 30-dan çox ictimai birlik fəaliyyətdə idi. Onların böyük əksəriyyəti yalnız siyasi fəaliyyətlə məşğul olan insanların hüquqlarının qorunmasına diqqət yetirir, mülki, sosial, əmək, mədəni və başqa hüquqların, habelə qaçqın və məcburi köçkün olan 1 milyon vətəndaşın hüquqlarının qorunmasına təəssüf ki, lazımi qayğı göstərmirdi.[232]

İnsanların maraq və tələblərinə görə başqa ictimai qurumlar da fəaliyyət göstərirdi. Mədəniyyət xadimləri Azərbaycan mədəniyyətinin inkişafı və təbliğinə kömək üçün 1994-cü ildə İncəsənət və Bədii Yaradıcılıq Mərkəzi təsis etmişdilər. 1994-cü ildə xaricdə yaşayan həmvətənlərlə ictimai-siyasi, mədəni və iqtisadi əlaqələr birliyi - "Soydaş" Beynəlxalq Assosiasiyası təşkil olundu. 1995-ci ildə "Azərbaycan Mədəniyyətinin Dostları Fondu" yaradıldı.[233]

1996-cı ilin noyabr ayında Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç Komitəsinə, Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Beynəlxalq Federasiyasına üzv qəbul edildi.[234] Respublikanın tanınmış siyasi, ictimai, elm və mədəniyyət xadimləri 1997-ci ilin iyun ayında "NATO və Azərbaycan" əməkdaşlıq və əlaqələndirmə mərkəzi təsis etdilər.[235]

Ermənistandakı etnik ərazilərindən deportasiya olunmuş azərbaycanlıların "Ağrıdağ" təşkilatı, "İrəvan" Cəmiyyəti, "Qaçqınlar" Komitəsi fəaliyyət göstərirdi. 2001-ci ildə onların maraqlarını qorumaq və təmsil etmək üçün daha bir təşkilat - "Qərbi Azərbaycan" Komitəsi yaradıldı. Bu komitənin tələbləri içərisində, sonuncu

deportasiya zamanı azərbaycanlılara dəymiş 50 milyard dollar həcmində maddi zərərin Ermənistan tərəfindən ödənilməsi, azərbaycanlıların Qərbi Azərbaycandakı doğma torpaqlarının qaytarılması və burada onların muxtariyyətinin yaradılması əsas yer tuturdu.[236]

Ayrı-ayrı elm sahələri üzrə ictimai təşkilatlar, birliklər, assosiasiyalar, habelə dini fanatizmə, din pərdəsi altında xalqı parçalamaq cəhdlərinə qarşı mübarizə aparan təşkilatlar, şuralar və s. təşkil edilmişdi. Bəstəkar Azər Rzayevin rəhbərliyi altında qocaman sənətkarları birləşdirən "Ulduzlar sönmür" Assosiasiyası fəaliyyət göstərirdi.[237]

1999-cu ilin əvvəllərində Azərbaycanın ziyalı elita nümayəndələri yazıçı Maqsud İbrahimbəyovun rəhbərliyi altında keçmiş kübar nəslindən olan insanların əqli və əxlaqi keyfiyyətlərini müdafiə etmək, habelə bunlardan cəmiyyətin bəhrələnməsi məqsədilə "Əsilzadələr məclisi" adlanan birlik yaradılmışdı.[239]

1999-cu ilin mart ayında "Azərbaycan Sahibkarlar Assosiasiyası (2000-ci ilin martından "Konfederasiya" adlanır) təşkil olunmuşdu.[240]

Ölkədə 1 milyon 500 min nəfərə qədər üzvü olan 40-dan çox həmkarlar ittifaqı, onları birləşdirən Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası (AHİK) fəaliyyət göstərirdi. 2001-ci ildə AHİK Beynəlxalq Azad Həmkarlar İttifaqları Konfederasiyasına qəbul edilmişdi.[241]

İnsanların azad düşünməsi, sərbəst siyasi-ictimai fəaliyyət göstərməsi, qeyri-demokratik, zorakı əməllərin dəf olunması üçün cəmiyyətdə münasib imkanlar mövcud idi. Bütün bunları Prezident Heydər Əliyevin adı ilə bağlayan xalq 1998-ci il oktyabrın 11-də alternativ əsasda keçirilən prezident seçkilərində onu yenidən Azərbaycan Respublikasının Prezidenti seçdi.

Ölkədə siyasi sabitliyin yaranması, dövlətçiliyin inkişafı, ilk növbədə dövlət intizamının və nəzarətinin güclənməsi, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, nüfuz qazanması ölkənin iqtisadi və mədəni həyatına önəmli təsir göstərdi.

III FƏSİL

# ƏSASLI İQTİSADİ İSLAHATLAR. İQTİSADİ İNKİŞAF. SOSİAL DİRÇƏLİŞ

## §1. AZƏRBAYCAN RESPUBLİKASININ iqtisadi İNKİŞAF STRATEGİYASI

**İqtisadi böhranla mübarizə. Neft strategiyası. Yeni İpək Yolu.** SSRİ-də 80-ci illərin ikinci yarısında başlanan siyasi proseslər müttəfiq respublikaların, o cümlədən Azərbaycanın da iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. İstehsal azalır, iqtisadi tənəzzül dərinləşirdi. Respublikaların iqtisadi əlaqələri pozulmuşdu, müqavilə öhdəliklərinə əməl olunmurdu. Azərbaycan iqtisadiyyatının xammal və materiallara tələbatı cəmi 40 faiz ödənilirdi. Müəssisələrin istehsal gücündən yalnız 25-30 faiz istifadə olunurdu. Sumqayıt boru-prokat zavodunun altı marten sobasında iş dayandırılmışdı.[1] Demək olar ki, bütün sahələrdə əsas istehsal vasitələri mənəvi və fiziki cəhətdən köhnəlmişdi. Respublikada sənayenin aparıcı sahəsi olan neft sənayesində vəziyyət ağır idi. Mədənlərdə 4000-dən çox neft quyusunda hasilat dayanmışdı. Qazma dəzgahlarının 80 faizi işləmirdi. 1992-ci ildə 11, 1996-cı ildə isə cəmi 9 milyon ton neft çıxarılmışdı.[2] Mövcud perspektivli dəniz yataqlarının istismarına başlanması üçün xeyli investisiya tələb olunurdu.

Kolxoz və sovxozların maşın-traktor parkı, meliorasiya qurğuları köhnəlmiş, çoxu sıradan çıxmış, suvarma kanalları bərbad hala düşmüşdü.[3] Torpaqların böyük bir hissəsi şoranlaşmışdı.

İqtisadiyyata Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibəsi ciddi ziyan vurmuşdu. Respublika gəlirinin üçdə birini müharibəyə xərcləməyə məcbur idi. Onun ərazisinin dörddə bir hissəsində döyüş əməliyyatları getmişdi. Bir milyon hektar kənd təsərrüfatı sahəsi, 72 min hektardan artıq əkin sahəsi, 34 min hektar üzümlük, 65 min baş qaramal, 240 min baş davar, 173 sənaye obyekti, 122 tikinti təşkilatı, 200-dən çox faydalı qazıntı yataqları, dörd qızıl, üç civə, iki qranit, iki mərmər, on mineral su mədəni, dörd daş karxanası, beş müxtəlif inşaat materialları yatağı, 250000 hektar meşə sahəsi, o cümlədən Zəngilan çinar meşəsi düşmən əlinə keçmişdi. 60000-dən çox şəxsi təsərrüfat, yüzlərlə sənaye müəssisəsi, kolxoz və sovxoz dağıdılmışdı.[4]

1991-1993-cü illərdə respublikanın mövcud iqtisadi və mədəni potensialından, zavod və fabriklərdən, kommunikasiya vasitələrindən, yüksək ixtisaslı mütəxəssislərdən də səmərəli istifadə olunmurdu.

Sosialist istehsal üsulunun dağıdılması, yeni iqtisadi münasibətlərin yaradılmasında, əsaslı iqtisadi islahatların tətbiq edilməsində cəsarətsizlik də iqtisadi böhranın başlıca səbəblərindən idi. Demokratik iqtisadiyyatın yaranması üçün vacib olan özəlləşdirmə, çoxukladlı təsərrüfatçılığa keçid prosesləri çox ləng gedirdi.

Siyasi sabitliyin olmaması xarici investorların ölkəyə sərmayə qoymasına mane olurdu. Bu sahədə ilk addımlar atılmışdı: "Bakmil" (Azərbaycan-İtaliya), "Pet-Azəri" (Azərbaycan-Türkiyə) kimi bir neçə birgə müəssisə yaradıldı. Azərbaycan Neft Şirkəti dəniz neft yataqlarının işlədilməsinin mümkün texniki-iqtisadi səmərəliliyini öyrənmək məqsədilə ABŞ və Böyük Britaniyanın neft şirkətləri ilə müqavilələrin bağlanmasına başlamışdı. Neftçala rayonunda neft kəşfiyyatı və hasilatı üzrə Azərbaycan-Türkiyə birgə müəssisəsi yaradılmışdı.[5] Lakin 1993-cü ilin yazında Azərbaycan iqtidarının xarici şirkətlərlə imzalamağa hazırlaşdığı neft müqaviləsində ölkənin milli mənafelərinə zidd şərtlər olduğu üçün o, Heydər Əliyev rəhbərliyə gəldikdən sonra dayandırıldı.[6]

Tədricən yeni iqtisadi institutlar meydana gəlirdi. Milli, beynəlxalq əmanət bankları, özəl banklar təşkil olunurdu. Dövlət torpaq, əmlak komitələri yaradılmışdı. Milli valyuta - manat dövriyyəyə buraxılmışdı. Yüksək sosial-sığorta ayırmaları, əlavə dəyər vergisi azaldılmışdı.[7] Nə bu tədbirlər, nə də yeni iqtisadi münasibətlərin hüquqi bazasını yaratmaq üçün qəbul edilmiş 30-dan artıq qanun, o cümlədən Özəlləşdirmə haqqında Qanun, Torpaq kodeksi normativ aktlar olmadığından səmərəli işləyə bilmirdi.[8]

Azərbaycan iqtisadiyyatı ciddi sarsıntılara məruz qalmışdı. 1992-ci ilin əvvəllərində heç bir zəmin olmadan qiymətlərin sərbəstləşdirilməsi müəssisələrdə dövriyyə vəsaitlərinin qiymətdən düşməsinə, əhalinin alıcılıq qabiliyyətinin kəskin azalmasına səbəb oldu. Mərkəzləşdirilmiş kredit resurslarına faiz dərəcələrinin 200-250-yə qalxması istehsala investisiya qoyuluşunu dayandırdı, istehsalın maliyyə vəziyyəti pisləşdi, dövriyyə vəsaiti çatışmadı və müəssisələrin xeyli hissəsi fəaliyyətini tamam və ya qismən dayandırdı.[9]

İqtisadiyyatda hərc-mərclik baş alıb gedirdi. Yalançı bazar -cəzasız soyğunçuluq meydana gəlmişdi.[10]

İşgüzar fəaliyyətlə, əsasən, əyri yollarla çoxlu vəsait ələ keçirmiş şəxslər, yeni "bəy"lər, "imkanlı" dövlət məmurları, "təsərrüfat rəhbərləri", onların himayə etdiyi adamlar məşğul olurdular. "Nomenklatura sahibkarlığı" yaranmışdı. 1992-ci ilin sonlarında 600-ə qədər mövcud kiçik müəssisənin 70 faizdən çoxu dövlət müəssisələri nəzdində fəaliyyət göstərir və əsasən onların istehsal etdiyi malları

satır, gəliri isə öz xeyirlərinə bölürdülər. Dövləti qarət etmək vasitəsi kimi kağız üzərində onlarca kiçik müəssisə yaradılmışdı.[11] Müştərək və kiçik müəssisələrin çoxu xaricə satdığı malın əvəzinə alınan valyutanı respublikaya qaytarmır, xarici banklardakı şəxsi hesablarında saxlayırdılar. Respublikanın beynəlxalq valyutaya böyük ehtiyacı olmasına baxmayaraq, 1991-ci ildə onlar 2 milyard 300 milyon dollar vəsaiti xarici banklarda saxlamışdılar.[12] 1993-cü ilin ortalarında respublikanın yalnız 8 müəssisəsi xarici banklara 100 milyon dollar qoymuşdu.[13]

Respublika talanır, xalqın sərvəti dağıdılırdı. Müəssisələrin avadanlığı sökülüb xaricə daşınırdı. Hətta Bakı metrosunun ehtiyat kabelləri də oğurlanıb satılmışdı. Oğuz, Zaqatala, Qax, Qəbələ, Şəki, Xudat, Ağstafa, Lerik və Cəlilabad meşələri, xüsusən qoz ağacları icazəsiz kəsilib xaricə satılırdı.[14]

Nəzarətsizlik iqtisadiyyata böyük ziyan vururdu. 1992-ci ildə pambıq sahələrində 100 min tondan çox məhsul yığılmamış qalmışdı. Üzümlüklərdə və başqa sahələrdə də vəziyyət belə idi. İstehsal olunan məhsul bazar olmadığından anbarlarda yığılıb qalırdı.

Müəssisələr bağlanır, işsizlik artır, əhalinin güzəranı sürətlə pisləşirdi. İri şəhərlərdə ucuz iş qüvvəsi satılan qeyri-rəsmi bazarlar meydana gəlmişdi. Respublikanı milyona qədər gənc tərk etmişdi. Təminatsızlıq üzündən alim və mütəxəssislər dolanacaq dalınca xaricə getməyə məcbur olmuş, "ağıl axını" başlamışdı.[16]

Aztəminatlı adamlara kömək məqsədilə dövlətin verdiyi güzəştlər, o cümlədən 1991-ci ilin iyulundan pensiyaçılara şəhər nəqliyyatından pulsuz istifadə etmək hüququ, 1992-ci ilin aprelində müəllimlərə imtiyazlar verilməsi, 1992-ci ilin dekabrından tənha vətəndaşların sosial müdafiəsini gücləndirmək sahəsində tədbirlər həyata keçirilməyə başlanması dərin inflyasiya şəraitində az səmərəli olmuşdu.[17] Cəmiyyətdə orta təbəqə qalmamışdı. Minimum əmək haqqı rəsmi istehlak minimumu həcmindən 20 dəfə az idi. Dövlət əmək haqqını vaxtında verə bilmirdi. Manatın illik inflyasiya səviyyəsi min faizlə ölçülürdü. Şəhərlər xırda alverçilər ve dilənçilərlə dolu idi. 1991-ci ilin fevral ayında Sumqayıt və Ağdam, 1992-ci ilin iyununda Bakı, Sumqayıt və Ağdam bazarlarında alıcı qiyamları baş vermişdi.[18]

"Təzə iqtidar"lar ölkənin qarət olunması, müflisləşməsi qarşısını almaq üçün heç bir təsirli tədbir görə bilmir, əksinə, öz səriştəsizlikləri ilə onun sökülüb-dağıdılmasına münasib şərait yaradırdılar. Heydər Əliyev yenidən rəhbərliyə qayıtdıqdan sonrakı ilk illərdə də xarici düşmənlər və daxili müxalif qüvvələrin qeyri-sabitlik yaratmaq, dövlət çevrilişləri, terror cəhdlərinə, Ermənistanın təcavüzünə qarşı mübarizə daha çox səy tələb etdiyinə, habelə idarəçilik sistemində hələ iqtisadi nizamsızlıqdan mənfəət götürən məmurlar köklü islahatların həyata

keçirilməsinə müxtəlif vasitələrlə müqavimət göstərdiklərinə, korrupsiya geniş yayıldığına görə iqtisadi böhranı aradan qaldırmaq mümkün olmamışdı.

Azərbaycanın dövlət müstəqilliyinin ardıcıl şəkildə həyata keçirilməsindən narazı olan dövlətlərin iqtisadi təzyiqi də ciddi maneə idi. Rusiya Federasiyası 1994-cü ilin dekabr ayından quru və su yollarını bağlamış, İran İslam Respublikası isə 1995-ci ilin ortalarından bir sıra mühüm məhsulların Azərbaycana ixracına qadağan qoyaraq respublikanı, demək olar ki, blokadaya salmışdılar. Hələ siyasi və hərbi sabitlik, azad iqtisadi münasibətlər üçün hüquqi baza zəif olduğundan xarici investisiyalar da az idi.[19]

Xarici investisiyalara mane olmaq üçün Rusiyanın təşəbbüsü ilə Xəzər dənizinin statusu məsələsi ortaya atılmışdı. Halbuki hələ SSRİ zamanında bu dənizin müttəfiq respublikalara aid hissələri müəyyən olunmuşdu.[20]

Ölkənin maliyyə sistemi də bərbad vəziyyətdə idi. Milli Bank krediti təminatsız və olduqca aşağı faizlə verirdi. Kommersiya bankları Milli Bankdan vəsait alıb kredit alverinə başlamışdılar. Mafioz qüvvələr manatı qiymətdən salmaq, əhalinin güzəranını daha da pisləşdirərək iqtidara qarşı narazılıq yaratmaq üçün 1993-cü ilin oktyabr-noyabr aylarında milli pulun çox hissəsini yığıb gizlətdilər. Onu yenidən dövriyyəyə qaytarmaq üçün baş nazir S.Hüseynovun təşəbbüsü ilə 1 dollar 400 manata bərabər tutuldu. Manat sürətlə qiymətdən düşdü. 1994-cü ilin avqustunda Milli Bank Aqrar-Sənaye Kompleksini dəstəkləmək adı altında 60 milyard manat kredit emissiya etdi. Nəticədə manatın qiyməti daha da azaldı. 1994-cü ilin sonlarında 4000 manata cəmi 1 dollar düşürdü.[21] Həmin il inflyasiya 1600 faizə qalxmışdı, yəni istehlak qiymətləri 16 dəfə artmışdı.[22]

Ümumi daxili məhsul hər il orta hesabla 18-20, sənaye məhsulu 20-25, kənd təsərrüfatı məhsulu isə 7-10 faiz azalırdı. Dövlət büdcəsi böyük kəsirlə icra olunurdu.[23]

Respublika köhnə texnologiya və standartlarla istehsal olunan malları xarici bazara çıxara bilmirdi. İstehsal zəif olduğundan daxili bazar əsasən (70-80 faiz) idxal hesabına formalaşırdı. 1993-cü ildə Azərbaycan dünyanın 30, 1996-cı ildə 70 ölkəsinin 2500 şirkət və müəssisəsi ilə ticarət-iqtisadi əlaqələri saxlayırdı. İxracın 70 faizini strateji xammallar, idxalın böyük əksəriyyətini istehlak malları təşkil edirdi. Xarici ticarətdə barter əməliyyatlarına geniş yer verilir, bundan ayrı-ayrı dairələr külli miqdarda mənfəət götürürdü.[24]

Dövlət orqanlarında işləyən şəxslərin vəzifədən sui-istifadə etməsi halları, korrupsiya cəmiyyətin ən böyük bəlası idi. Xarici Əlaqələr Nazirliyində, Gömrük Komitəsi və onun idarələrində, hüquq mühafizə orqanlarında qeyri-sağlam münasibət, rüşvətxorluq, oğurluq geniş yayılmışdı. Müəssisələrin, xüsusən özəl sektorda, çoxu gəlirinin bir hissəsini gizlədir, vergi ödəməkdən yayınırdı. Malların

bir hissəsi ölkənin sərhədlərində mövcud olan 400-ə qədər qeyri-rəsmi keçidlərdən ötürülür, qeydə alınmırdı.[25]

Prezident Heydər Əliyev tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitliyin yaranmasına nail oldu və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı. Bazar iqtisadiyyatının formalaşmasına münasib şərait yaratmaq məqsədilə qanun, fərman və qərarlar qəbul edildi. Prezident 1994-cü il aprelin 5-də xarici ticarəti sərbəstləşdirmək haqqında Fərman verdi.[26] Xarici iqtisadi əlaqələr liberallaşdırıldı, həm fiziki, həm də hüquqi şəxslərə azad surətdə xarici ticarət hüququ verildi. 1997-ci ilin yanvarında respublikada ixrac vergisi ləğv olundu. 1994-cü ilin may ayında respublikanın maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün qəti addımlar atıldı. 1994-cü ilin əvvəllərindən milli valyuta - manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan olundu. Prezidentin 14 may 1994-cü il Fərmanı ilə kredit siyasəti ciddiləşdirildi. Banklararası valyuta birjasının işi nizama salındı.[27] 1995-ci ilin fevral ayında prezident ilk radikal addım atıb valyuta bazarının təşkili haqqında Fərman verdi, bundan sonra valyuta ehtiyatları bazar vasitəsilə tənzimlənməyə başlandı. Beynəlxalq Valyuta Fondu və Ümumdünya Bankı ilə müqavilələr bağlandı. Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankına qoşuldu. Büdcə kəsirinin artmasına yol verilmədi. Nəticədə 1995-ci ildə inflyasiya 85 faizə endi. 1996-cı ildə inflyasiya cəmi 6,7 faiz oldu. Onun səviyyəsi 2000-ci ildə cəmi 2 faiz, 2001-ci ildə isə 1,5 faiz idi.[28] Manatın dollara nisbətən dəyəri möhkəmləndi, istehlak mallarının qiymətləri artmadı, əksinə, azalması müşahidə olundu.[29] İnflyasiyanın cilovlanması mühüm makroiqtisadi göstərici kimi iqtisadi tərəqqiyə, investorların cəlb olunmasına münasib imkanlar açırdı.

1996-cı ilin ortalarında Prezident daha bir yeni ciddi iqtisadi addım atdı - vergi sistemi təkmilləşdirildi. Burada ağırlıq mərkəzi istehsal üzərindən götürülüb istehlak üzərinə qoyuldu. Əvvəllər əmək haqqı məhsulun maya dəyərinə daxil olunmur, mənfəətdən verilirdi və buna görə də əmək haqqından əlavə 35 faiz kooperativ vergi tutulurdu. 1996-cı ilin sentyabr ayından əlavə vergi 50 faiz azaldıldı, 1997-ci ilin əvvəllərindən isə tamamilə ləğv edildi. Müəssisələrə ümumi vergi təzyiqi xeyli azaldı. Fiziki şəxslərdən tutulan vergilərin yuxarı dərəcəsi 55 faizdən 40 faizə endirildi, onların gəlirinin vergi tutulmayan hissəsi isə 40 min manatdan 60 min manata qaldırıldı. Eyni zamanda xarici iqtisadi əlaqələri fəallaşdırmaq üçün gömrük rüsumları 30-40 faizdən 15 faizə endirildi. Nəticədə vergi və rüsumlardan büdcəyə gəlir 2 dəfəyə qədər artdı.[30]

2001-ci il yanvarın 1-dən ölkədə vahid vergi qanunvericiliyi tətbiq olundu. Vergi Məcəlləsində mülkiyyət formasından və təşkilat-hüquqi statusundan asılı olmayaraq, bütün vergi ödəyiciləri üçün eyni vergiqoyma siyasəti həyata keçirildi. Yerli və xarici iş adamları eyni vergiləri ödəyərək eyni imtiyazlara, güzəştlərə

malik oldular. Vergi Məcəlləsinə görə Yol Fonduna vergilər ləğv edildi. Əsas fondların fəal hissəsi əmlak vergisindən azad olundu. Mənfəətin sərmayələrə yönəldilən hissəsi vergilərdən tam azad edildi. Hüquqi şəxslərdən mənfəət vergisinin dərəcəsi 2000-2002-ci illərdə 5 faiz aşağı salınıb 27 faiz müəyyən olundu. Əlavə dəyər vergisinin dərəcəsi 20 faizdən 18 faizə endirildi. Fiziki şəxslərdən gəlir vergisinin maksimum həddi 40 faizdən 35 faizə (bu dərəcələr inkişaf etmiş ölkələrin əksəriyyətindəkindən aşağıdır) düşdü.[31] 2002-ci ilin noyabr ayından 62 yerli vergi idarəsi ləğv olunub, əvəzinə 12 ərazi vergi idarəsi təşkil edildi. Vergi Nazirliyində işçilərin 40 faizi ixtisar olundu. Sonralar mənfəətdən tutulan verginin Bakıda 27 faizdən 25 faizə, Naxçıvanda 10 faizə, Gəncə, Sumqayıt, Mingəçevir və Əli Bayramlıda 20 faizə, başqa şəhər və rayonlarda isə 15 faizə endirilməsi planlaşdırıldı.[32]

1997-ci ildən dövlət büdcəsi xərclərinin səmərəli təşkili, iqtisadi idarəetmədə şəffaf mexanizmlər yaratmaq üçün maliyyə işləri xəzinədarlıq sistemi üzrə qurulmağa başlandı. Baş və yerli xəzinədarlıq orqanları təşkil edildi.[33]

İstehsalı inkişaf etdirmək üçün respublikanın kifayət qədər investisiya imkanları yox idi. Xarici kapitalı cəlb etmək məqsədilə "açıq qapı" siyasəti yeridilməyə başlandı. Xarici investorlara və kreditorlara təminat verən, onları müdafiə edən qanunlar qəbul olundu. Gömrük vergiləri sərbəstləşdirildi və aşağı salındı. Xarici sərmayələrə immunitet haqqında Qanun qəbul edildi. Fiziki və ya hüquqi şəxslər, respublikada qanunların dəyişdirilməsindən asılı olmayaraq, on il müddətində investisiyanı qoyduğu şərtlərlə işlətmək hüququ aldı. Xarici səhmdarların gəlirlərinin repartasiya olunması haqqında da Qanun qəbul olundu. Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Beynəlxalq İnkişaf Assosiasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı ilə əməkdaşlıq yaradıldı. Bu, Azərbaycan Respublikasının maliyyə-bank sistemini dünya standartlarına uyğunlaşdırdı.[34]

Beynəlxalq maliyyə təşkilatlarının ayırdığı kreditlər ölkədə iqtisadi struktur dəyişikliklərinə, mühüm iqtisadi tədbirlərin həyata keçirilməsinə kömək etdi. Təkcə 1995-ci ildə Dünya Bankı Azərbaycana reabilitasiya layihəsi üçün 65 milyon dollar kredit ayırdı. Bu bank 1997-ci ildə ölkədə 195 milyon dollar dəyəri olan altı layihəni, o cümlədən Bakı su kəmərinin bərpası, neft-qaz sənayesində yenidənqurma, kənd təsərrüfatında özəlləşdirmə ilə əlaqədar altı nümunəvi fermer təsərrüfatı yaradılması layihələrini maliyyələşdirdi. Avropa Yenidənqurma və İnkişaf Bankı 1997-ci ildə Mingəçevir Su-Elektrik Stansiyasının yenidən qurulması, Ağdam-İmişli 330 kilovatlıq elektrik xəttinin bərpası üçün 21 milyon dollar kredit ayırdı.[35]

Dünya Bankı respublikanın işğaldan azad olunmuş ərazilərində bərpa işlərinə kömək məqsədilə "Bərpa" proqramı hazırlanmasında, onun həyata

keçirilməsi üçün donor ölkələrin maliyyə vəsaitinin cəlb olunmasında fəal iştirak edirdi. Beynəlxalq maliyyə təşkilatları ilə 1997-ci ildən Azərbaycana 700 milyon dollar həcmində kredit kanalları açılması haqqında razılıq əldə olunmuşdu. Təkcə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu Azərbaycana 1 milyard 300 milyon dollardan çox kredit vermişdi.[36]

Ölkə iqtisadiyyatının dirçəldilməsi və inkişaf etdirilməsi üçün xarici investisiyalar cəlb etmək olduqca vacib idi. Respublikanın geniş potensial imkanlarını təbliğ etmək, investorları maraqlandırmaq üçün 1994-cü ilin payızında Bakıda, 1995-ci ilin qışında Londonda və Parisdə, 1996-cı ilin baharı və payızında, 1997-ci ilin baharında Bakıda və İstanbulda beynəlxalq biznes konfransları keçirildi. Bu konfranslarda Prezident Heydər Əliyevin iştirakı və xarici investorları respublikaya cəsarətlə vəsait qoymağa şəxsən dəvət etməsi çox səmərəli oldu. 1997-1998-ci illərdə ABŞ-da Amerika-Azərbaycan Ticarət Palatası tərəfindən keçirilən beynəlxalq konfranslarda respublikanın iqtisadi imkanları geniş müzakirə edildi. Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyevin bu konfranslarda inandırıcı və əhatəli çıxışları investorların respublika iqtisadiyyatına diqqətini xüsusilə cəlb etmişdi.[37] Bu sahədə sonrakı illərdə də beynəlxalq iqtisadi konfrans və seminarların keçirilməsi, xüsusən 2002-ci il may ayının 31-də Bakıda Avropa Şurası Parlament Assambleyası İqtisadi Məsələlər və İnkişaf Komitəsinin iclası Çərçivəsində keçirilmiş "Avropa və Xəzərin enerji ehtiyatlarının inkişafı" mövzusunda beynəlxalq seminar və burada İlham Əliyevin çıxışı, mövcud iqtisadi və siyasi vəziyyətin hərtərəfli təhlil edilməsi böyük səmərə vermişdir.[38]

2000-ci ildə Azərbaycan Respublikasında 1300-dən çox xarici şirkət və firmanın nümayəndəliyi fəaliyyət göstərirdi.[39]

**Neft strategiyası.** Azərbaycan Respublikası iqtisadiyyatının böhrandan çıxarılması və inkişaf etdirilməsində neft sənayesinin dirçəldilməsi, müasir texnologiyalar əsasında yenidən qurulması mühüm əhəmiyyət kəsb edirdi. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni dövlət neft strategiyası hazırlandı və uğurla həyata keçirilməyə başlandı. Bu, Azərbaycan neft sənayesində yeni eranın başlanğıcı idi.[40]

Neft sənayesinə investisiya və yeni texnologiyalar cəlb etmək, respublikaya sərfəli şərtlərlə xarici neft şirkətləri ilə müqavilələr bağlamaq üçün danışıqlar aparılması Azərbaycan Dövlət Neft Şirkətinə (ADNŞ) tapşırıldı. Danışıqlar qrupuna neft və beynəlxalq əlaqələr üzrə görkəmli mütəxəssislər daxil edildi. Bu qrupun fəaliyyətində İlham Əliyevin, Xoşbəxt Yusifzadənin, Natiq Əliyevin rolu xüsusən səmərəli oldu, Azərbaycanın maraqlarına tam cavab verən müqavilə şərtləri razılaşdırıldı.[41]

Müqavilənin bağlanmasına müxtəlif, əsasən xarici qüvvələr ciddi mane olurdular. Rusiya Federasiyasının təşəbbüsü ilə belə bir tezis irəli sürüldü ki, Xəzər dənizi bütün Xəzəryanı ölkələr üçün ümumidir və onu milli sektorlara bölmək olmaz. Buna görə də Azərbaycan birtərəfli qaydada xarici şirkətlərlə neft müqavilələri bağlaya bilməz. Diplomatik notalar, bəyanatlar verilirdi. Xarici şirkətlər belə fikirdə idilər ki, müqavilə Xəzər dənizinin statusu həll ediləndən sonra qüvvəyə minməlidir. Lakin Azərbaycan hökuməti tərəfindən Vaşinqtona ezam edilmiş ADNŞ-in birinci vitse-prezidenti İlham Əliyev ABŞ-da Energetika Nazirliyi rəhbərləri ilə səmərəli danışıqlar apardıqdan sonra ABŞ hökumətinin dəstəyi sayəsində xarici şirkətlər bu fikirdən əl çəkdilər.[42]

1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında ADNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətləri daxil olan konsersum (sonralar bu konsersuma Yaponiya şirkəti də qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı. Bu müqavilə dünyada "Əsrin müqaviləsi" adı ilə məşhurlaşdı (2001 -ci ildən başlayaraq Prezidentin Fərmanı ilə həmin gün respublikada "Neftçi günü" kimi bayram edilir). Razılığa görə, investisiyanın 80 faizini konsersum qoyur, Azərbaycanın ümumi gəliri çıxarılacaq neftin qiymətinin 80 faizi miqdarında müəyyən olunurdu. Bundan əlavə, hasil olunacaq səmt qazı tam Azərbaycanın ixtiyarına verilirdi.[43]

"Əsrin müqaviləsi"nin təkcə hazırlanması və bağlanmasını deyil, həm də həyata keçirilməsini olduqca ağır və çətin problemlər müşayiət edirdi. Bu işə mane olmaq üçün xarici qüvvələrin dəstəyi ilə ölkədə dövlət çevrilişi, Prezidentə qarşı terror cəhdləri törədildi. Hətta xarici şirkətlərə yalan informasiyalar və müxtəlif yollarla təzyiq göstərməyə çalışırdılar. Lakin Azərbaycan Prezidenti H.Əliyevin siyasi iradəsi, qətiyyəti və müdrikliyi sayəsində bu maneələr müvəffəqiyyətlə aradan qaldırıldı. Ölkədə xarici sərmayələr qoyuluşu üçün ən vacib şərt-siyasi sabitlik yaradıldı.[44]

1995-ci il noyabrın 10-da Xəzərin yeni aşkar olunmuş "Qarabağ" strukturunda və ona bitişik ərazilərdə kəşfiyyat aparılması, yataqların işlədilməsi və çıxarılan neftin bölüşdürülməsi haqqında Rusiya, İtaliya, ABŞ şirkətləri ilə yeni saziş imzalandı. Müqavilədən əldə olunan daxili gəlirin 65-80 faizinin Azərbaycana çatacağı razılaşdırıldı.[45]

1996-cı il iyunun 4-də Xəzərin "Şahdəniz" yatağının birgə işlədilməsi haqqında ADNŞ ilə Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Fransa və İranın neft şirkətləri konsersumu müqavilə imzaladılar. Bu müqaviləyə görə də ümumi gəlirin 80 faizi Azərbaycana çatacaqdı.[46] Burada dərinliyi 6,5 min m olan quyular qazıldı və nadir qaz-kondensat yatağı kəşf edildi. Qərb ekspertlərinin fikrincə, çox

böyük qaz ehtiyatı olan bu yatağın kəşf edilməsi ilə Azərbaycan təkcə neft deyil, həm də qaz "kralına" çevrildi.[47] Dövlət Azərbaycan qaz sənayesinin inkişafı strategiyasını hazırlamağa, onun dünya bazarına çıxarılması yollarını müəyyənləşdirməyə başladı.

1996-cı il dekabrın 14-də Xəzərdə "Dan ulduzu" və "Əşrəfi" yataqlarının birgə işlədilməsi üzrə ABŞ, Səudiyyə Ərəbistanı və Yaponiya, 1997-ci il yanvarın 13-də "Lənkəran-dəniz" və "Talış-dəniz" yataqlarının birgə istismarı üzrə Fransa neft şirkətləri ilə ADNŞ arasında sazişlər bağlandı.[48]

1997-ci il avqustun 1-də Vaşinqtonda - "Ağ Ev"də ABŞ-ın qabaqcıl neft şirkətləri ilə ADNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Abşeron", "Naxçıvan", "Oğuz" və "İnam" neft yataqlarında birgə iş barədə üç yeni müqavilə imzalandı.[49]

1998-ci ilin iyun ayında İtaliya, Yaponiya, Türkiyə, ABŞ, Britaniya-Kanada neft şirkətləri konsersumu ilə, həmin ilin iyul ayında isə Böyük Britaniya, ABŞ və Rusiya neft şirkətləri ilə ADNŞ arasında yeni neft müqavilələri imzalandı. 1999-2000-ci illərdə daha bir neçə neft müqaviləsi bağlandı.[50] 2001-ci ilin yanvarında Zığ və Hövsan yataqları üzrə Rusiyanın LUKOYL şirkəti ilə müqavilə imzalandı.[51]

Ümumiyyətlə, 1994-2001-ci illərdə ADNŞ 14 ölkənin 32 neft şirkəti ilə 21 müqavilə imzaladı. 2001-ci ildə bu şirkətlərə servis xidməti göstərən 400-ə qədər xarici şirkət fəaliyyətdə idi.[52] Bu müqavilələr çərçivəsində Azərbaycana 60 milyard dollar həcmində investisiya qoyulması nəzərdə tutulurdu. Bu müddətdə xarici neft şirkətləri müqavilələr üzrə işlərin həyata keçirilməsi üçün 6 milyard dollara qədər investisiya qoymuşdu.[53]

1995-ci ilin aprelində "Əsrin müqaviləsi"ni reallaşdırmaq üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), 1996-cı ilin aprelində isə "Qarabağ" strukturu üzrə müqaviləni həyata keçirmək üçün "Xəzər" Beynəlxalq Neft Şirkəti, habelə başqa müqavilələr üzrə əməliyyat şirkətləri təşkil edildi. Bu şirkətlər qazma qurğularından və infrastrukturdan birgə istifadə etmək üçün xüsusi klub yaratdılar.[54]

ABŞ-ın "EKSON", "AMOKO", "YUNOKAL", "MOBİL" və "PENZOYL", Böyük Britaniyanın "Britiş Petrolium", Yaponiyanın "İTOÇİ", "MİTSUPİ", Norveçin "STATOYL", Səudiyyə Ərəbistanının "DELTA", Rusiyanın "LUKOYL", Fransanın "ELF AQİTEN", "TOTAL", İtaliyanın "ACİP" kimi dünyada ən qabaqcıl neft şirkətləri Azərbaycanın neft, neft-maşınqayırma sənayesinə müasir texnologiyalar, idarəetmə təcrübəsi gətirdilər.[55] Respublikanın neft donanması, neft sənayesi infrastrukturu yenidən quruldu. "Bakı" elmi-tədqiqat gəmisi modernləşdirilib dünyada ən mükəmməl geofiziki tədqiqat gəmilərindən birinə çevrildi.[56] "Xəzərdənizneft" yarımdalğa qazma qurğusu yenidən quruldu, "Dədə Qorqud" adı ilə ikinci həyatına başladı.[57] "Şelf-5" qazma qurğusu əsaslı

şəkildə yenidən quruldu, müasir avadanlıqla təchiz olunaraq, dünyada ən böyük üzən qazma qurğularından birinə çevrildi və 1998-ci ilin sentyabrında "İstiqlal" adı ilə istifadəyə verildi.[58] Xəzər Gəmiqayırma müştərək müəssisəsində 1998-ci ilin iyul ayından 2000-ci ilin avqust ayınadək dənizin 7620 m-dək dərin yerlərində neft quyuları qazmağa imkan verən "Qurtuluş" adlı ən müasir çoxfunksiyalı özüqalxan qazma qurğusu yaradıldı.[59] 2002-ci ilin yayında "Azəri", "Çıraq" və "Günəşli" yatağında ən yeni texnologiya üzrə Xəzərdə ilk dəfə qazma qurğularının altı üçün sualtı qazma dayaq tavası quraşdırıldı.[60] Tofiq İsmayılov adına dalğıc, "Azərbaycan", İsrafil Hüseynov adına kran gəmiləri təmir edilib yeni avadanlıqla təchiz olundular.[61] Dənizdə "Çıraq-1" platforması beynəlxalq standartlara uyğun, Qərb texnologiyası əsasında yenidən quruldu.[62] Bu platformadan sahilədək 120 m dərinlikdə 176 km neft, Neft daşlarına 48 km qaz kəmərləri çəkildi. Səngəçal terminalı tikildi. Zığ zavodu sualtı boruların üzlənməsi üzrə ixtisaslaşdırıldı.[63]

1994-cü ildən başlayaraq hər ilin iyun ayında Bakıda xarici firma və şirkətlərin iştirak etdiyi ənənəvi Beynəlxalq neft-qaz sərgisi təşkil olunurdu. 4000 nəfərdən çox azərbaycanlı mütəxəssis dünyanın ən qabaqcıl neft şirkətləri bazasında yeni texnologiya və iş metodlarına yiyələnmişdi. 2001-ci ildə hasilat və servis şirkətlərində 10 mindən çox Azərbaycan vətəndaşı işləyirdi.[64] Bakı neftçilərinin böyük təcrübəsi yüksək qiymətləndirilir və ondan səmərəli istifadə olunurdu. Neft şirkətlərinin beynəlxalq tenderlərdə bağladığı müqavilələrin 20 faizdən çoxu Azərbaycan müəssisələrinin və onların xarici tərəf müqabilləri ilə birgə yaratdıqları müəssisələrin payına düşürdü.[65]

"Azəri", "Çıraq" və "Günəşli" yataqlarından hasil olunacaq ilkin neftin Qara dəniz limanlarına Rusiya və Gürcüstandan keçən "Şimal" (14000 km) və "Qərb" (920 km) neft kəmərləri ilə nəql ediləcəyi barədə müqavilələr bağlandı.[66] Bakı-Novorossiysk "Şimal" kəmərinin Azərbaycan hissəsi 1996-cı ilin sonuna qədər hazır oldu, mövcud kəmərə 26 km yeni kəmər əlavə edildi. Kəmər neftlə dolduruldu. 1997-ci il oktyabrın 25-də "Şimal" kəməri istifadəyə verildi.[67] Bakı-Supsa "Qərb" kəmərinin tikintisi 1998-ci ilin axırlarında başa çatdırıldı. 1999-cu il aprelin 17-də bu kəmər və Supsa terminalı istifadəyə verildi.[68]

1996-cı ildə dənizdə ABƏŞ-in qazdığı ilk neft quyusu güclü fontan vurdu və yataqların böyük ehtiyatları bir daha təsdiq olundu.

1997-ci il noyabrın 12-də "Əsrin müqaviləsi" üzrə neftin hasilatına başlanıldı. Bu hadisə Bakıda böyük təntənə ilə qeyd edildi.[69]

Bu müqavilə üzrə əsas işlərin birinci fazasının başlanması üçün Xəzər dənizindən Aralıq dənizinə qədər uzanan, ildə 50 milyon ton neft nəql edə biləcək, uzunluğu 1760 km olacaq iridiametrli Bakı-Tibilisi-Ceyhan əsas neft ixrac kəmərinin tikintisi haqqında saziş əldə olunması vacib idi.[70] 1998-ci ilin mayında müqavilə hazırlanması üçün işçi qrup yaradılmışdı. Həmin il oktyabrın 29-da

Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Özbəkistan prezidentlərinin və ABŞ energetika nazirinin imzaladıqları bəyanat bu kəmər üzrə danışıqlara təkan verdi.[71]

1999-cu il noyabrın 18-də İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas boru kəməri vasitəsilə nəql edilməsinə dair" saziş imzalandı. Bu zaman Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və ABŞ-ın dövlət başçıları tərəfindən verilən "İstanbul Bəyannaməsi" layihənin yüksək səviyyədə dəstəkləndiyinə sübut oldu.[72]

Bu sazişin hazırlanmasına da ciddi maneələr törədilirdi. Şirkətlərin bəziləri kənardan təsirlər nəticəsində belə bir kəmərə ehtiyac olacağına skeptikcəsinə yanaşırdılar. Qoyulacaq investisiyalar haqqında da müxtəlif fikirlər vardı. Lakin Azərbaycan Prezidentinin müdrik siyasəti sayəsində bütün bu maneələr dəf edildi.[73] 2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilməsi üçün BTCKO (Bakı-Tbilisi-Ceyhan) şirkəti təsis edildi.[74] 2002-ci il sentyabrın 18-də kəmərin təməli qoyuldu. Bu münasibətlə təntənələrdə iştirak etmək üçün Türkiyə Respublikasının prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Respublikasının prezidenti Eduard Şevardnadze, ABŞ-ın energetika naziri Spenser Abrham Bakıya gəlmişdilər. 3 milyard dollara qədər dəyəri olan bu kəmərin sahibi Azərbaycan Dövlət Neft Şirkəti (25 faiz), Böyük Britaniyanın BiPi (30,1 faiz), ABŞ-ın Yunokal (8,9 faiz), Konoko-Filips (2,5 faiz), Norveçin Statoyl (8,72 faiz), Türkiyənin Türkiyə Petrolları (6,53 faiz), Yaponiyanın İtoçi (3,4 faiz) və İnpeks (2,5 faiz), Səudiyyə Ərəbistanının Delta Hess (2,36 faiz), İtaliyanın Epi (5 faiz) və Fransanın Total Elna Elf (5 faiz) şirkətləri idi.[75]

2001-ci il avqustun 30-da "Əsrin müqaviləsi" üzrə əsas işlərin birinci, mühüm fazasına başlanıldı.[76]

Həyata keçirilən tədbirlər sayəsində respublikanın neft sənayesi dirçəldi və sürətlə inkişaf etməyə başladı. 2002-ci ildə ölkədə 15,3 milyon ton neft hasil edildi.[77] Neft müqaviləsi gəlir gətirməyə başladı.

Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında "Azərbaycan Dövlət Neft Fondu" təsis olundu.[78] Respublika Prezidentinin 2001-ci il 27 dekabr sərəncamı ilə bu fondun Müşahidə Şurası təşkil edildi. Azərbaycan yeni neft strategiyasının baniləri Heydər Əliyev və İlham Əliyev bu fondu güclü iqtisadiyyat yaratmaq vasitəsi kimi qiymətləndirirdilər. İlham Əliyevin qeyd etdiyi kimi, Dövlət Neft Fondunu yaratmaqda başlıca məqsəd mineral-xammal ehtiyatlarını təkrar istehsala yönələn maliyyə ehtiyatlarına çevirməkdir və bu fond nəsildən-nəslə keçməlidir.[79] Dövlət Neft Fondunda yığılan vəsaitlər investisiya şəklində Azərbaycan iqtisadiyyatının başqa sektorlarına qoyulmalı, neftlə bağlı olmayan digər sahələrin inkişafı, yeni iş yerləri yaradılması üçün, habelə gələcək nəsillərin neft hasilatı

səviyyəsindən və dünya bazarında neftin qiymətinin dəyişməsindən asılılığını istisna edən proqramlar həyata keçirilməlidir.[80] 2003-cü ilin əvvəllərində fondda 730 milyon ABŞ dolları həcmində vəsait var idi.[81] Ondan respublikanın iqtisadi və sosial rifahı naminə səmərəli istifadə etmək üçün xüsusi proqram hazırlanmışdı.

İqtisadiyyatın başqa sahələrinə də xarici sərmayə qoyuluşu sürətlə artırdı. Əgər 1996-cı ildə respublikaya gələn xarici investisiyanın 33 faizi qeyri-neft sahələrinə yönəldilmişdisə, 2000-ci ildə bu, 50 faizdən çox idi.[82]

Ümumiyyətlə, respublika iqtisadiyyatına 1993-cü ildə 15 milyon, 1995-ci ildə 375 milyon, 1996-2002-ci illərdə 9 milyard (qeyri-neft sektoruna 3 milyard) dollar xarici investisiya qoyulmuşdu.[83] Xarici sərmayənin 90 faizi istehsal sahələrinin inkişafına yönəldilmişdi.[84]

Azərbaycan Respublikası iqtisadiyyatının dirçəldilməsinə və inkişafına Avropa Birliyi "Traceca" proqramı üzrə AVROPA-QAFQAZ-ASİYA nəqliyyat kommunikasiyasının - "Yeni İpək Yolu"nun işə düşməsi də əhəmiyyətli təsir göstərirdi. 1993-cü ilin may ayında Avropa Birliyinin təşəbbüsü ilə bu istiqamətdə nəqliyyat dəhlizinin açılması barədə 8 ölkənin, o cümlədən Azərbaycanın iştirakı ilə "Brüssel Bəyannaməsi" qəbul olunmuşdu. 1996-cı il mayın 13-də Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan respublikaları arasında tranzit yük daşınmasının tənzimlənməsi sahəsində əməkdaşlıq və dəmiryol nəqliyyatı fəaliyyətinin əlaqələndirilməsi haqqında Sarahs (Türkmənistandadır) sazişləri imzalandı.[85] 1996-cı ilin dekabrında Odessada Azərbaycan, Gürcüstan və Ukrayna respublikaları başçılarının Avrasiya nəqliyyat dəhlizi yaradılması haqqında saziş imzalaması da bu işə qüvvətli təkan oldu.[86]

**Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də Bakıda "Böyük İpək Yolu" Beynəlxalq konfransı keçirildi.** Dünyanın 32 ölkəsinin və beynəlxalq təşkilatının təmsil olunduğu bu konfransda "Bakı Bəyannaməsi" qəbul edildi, Yeni İpək Yolunun tranzit ölkələr üçün son dərəcə faydalı olacağı bildirildi, Böyük İpək Yolunun mənzil qərargahı yaradıldı və onun Bakıda yerləşməsi qərara alındı.[87]

Yeni nəqliyyat yolu ilə Azərbaycandan 1996-cı ildə 345 min, 2002-ci ildə isə artıq 33 milyon tondan çox yük daşınmışdı. Qazaxıstanın Tengiz yatağından çıxarılan neft tankerlərlə Bakıya gətirilir, Azərbaycan və Gürcüstan dəmir yolları vasitəsilə Avropaya ixrac olunurdu. 1998-ci ilin yanvar ayında Bakı yaxınlığında Orta Asiya neftinin Xəzər dənizi, Azərbaycan və Gürcüstan əraziləri vasitəsilə Qara dənizin Batumi limanına çatdırılması üçün nefti tankerlərdən dəmiryol sisternlərinə yükləməyə imkan verən Dübəndi terminalı istifadəyə verildi.[88] 2002-ci ilin dekabr ayında Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan kəməri ilə ixrac edilməsi barədə razılıq əldə olundu. Aktau-Bakı-Tbilisi-Ceyhan enerji nəqliyyat dəhlizinin təməli qoyuldu.[89]

Bakı Beynəlxalq Dəniz Limanı Yeni İpək Yolunda baş körpüyə çevrildi. Bərə keçidi dünya standartlarına uyğun şəkildə yenidən quruldu.[90] Xəzər Nəqliyyat Donanmasında yük tutumu 320 min ton olan 69 gəmi, o cümlədən 34 tanker və 27 quru yük, 8 sərnişin gəmisi və bir bərə-gəmi vardı.[91]

Azərbaycanı nəqliyyat blokadasına almaq və ona təsir göstərmək cəhdləri baş tutmadı. 1997-ci ilin martında Rusiya Federasiyası Azərbaycanla sərhəddəki məhdudiyyətləri götürdü, şose, dəmir və su yollarını açdı. Üçillik fasilədən sonra 1997-ci ilin may ayında Bakı-Moskva, Bakı-Kiyev, Bakı-Mahaçqala, Bakı-Həştərxan qatarları yenidən işləməyə başladı. Bakı-Poti limanı arasında etibarlı dəmiryol əlaqəsi yaradıldı.[92]

2001-ci ilin ortalarında Rusiya Federasiyası "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünü irəli sürdü.[93]

**İqtisadiyyatda struktur dəyişiklikləri.** Ölkənin iqtisadiyyatında struktur dəyişiklikləri getdikcə dərinləşirdi. Onun başlıca istiqamətləri dövlət mülkiyyətinin özəlləşdirilməsi, aqrar islahatların həyata keçirilməsi və sahibkarlığın inkişaf etdirilməsi idi. 1995-ci il sentyabrın 29-da Qanunla təsdiqlənmiş "Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi Dövlət Proqramı", "Sahibkarlıq fəaliyyəti haqqında", "Müəssisələr haqqında", "Səhmdar cəmiyyətləri haqqında", "Auditor xidməti haqqında" qanunlar, "Dövlət müəssisələrinin səhmdar cəmiyyətlərinə çevrilməsi haqqında Əsasnamə" və başqa mühüm hüquqi aktlar qəbul edilmişdi. Sahibkarlığın inkişafı üçün Milli Fond təsis olunmuşdu. "Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsi", yerlərdə sahibkarlığı inkişaf mərkəzləri, "Kiçik və Orta Sahibkarlığı İnkişaf Agentliyi", "Xarici İnvestisiyalar Mərkəzi", "İqtisadi və Biznes İnformasiya Mərkəzi" "Azərbaycan Respublikası Auditorlar Palatası" yaradılmışdı. Bu təşkilatlar sahibkarların investisiya layihələrini ekspertiza edir, onların həyata keçirilməsi üçün maliyyə yardımı göstərirdilər. Sahibkarlar üçün müxtəlif kurs və seminarlar təşkil olunurdu.[94]

Vətəndaşların xarici banklarda saxlanılan pullarının Azərbaycanda investisiya qoyuluşuna cəlb edilməsi üçün 1995-ci ilin iyul ayında qəbul olunmuş Qanuna əsasən qoyulan vəsaitin mənbəyi haqqında məcburi təlimat alınması qadağan edildi.[95] Prezident 1996-cı il iyunun 17-də və 1999-cu il yanvarın 7-də sahibkarların hüquqlarını müdafiə edən, onların fəaliyyətinə yersiz müdaxilənin və əsassız yoxlamaların qarşısını alan fərmanlar verdi.[96]

Prezident 1996-cı ilin avqustunda sahibkarların nümayəndələri ilə görüşdü, vəziyyət müzakirə edildi. Onun 2002-ci il aprel ayının 25-də yerli, may ayının 14-də isə respublikada fəaliyyət göstərən xarici sahibkarlarla görüşü zamanı bu sahədə hələ də mövcud olan nöqsanlar, maneələr əhatəli araşdırıldı və az sonra dövlət məmurları ilə xüsusi müşavirədə bu sahədə müvafiq tədbirlər müəyyənləşdirildi.

2002-ci il avqustun 27-də Prezidentin sərəncamı ilə Prezident yanında Sahibkarlar Şurası yaradıldı. Prezident Fərmanı ilə "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə" təsdiq olundu.[97]

"Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı (1997-2000-ci illər)" hazırlandı və qəbul olundu. 2002-ci ilin yayında "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)" təsdiq edildi.[98] Müəssisələrin dövlət qeydiyyatı işi sadələşdirildi, zonalar üzrə qeydiyyat mərkəzləri yaradıldı.[99]

2002-ci ilin sentyabr ayında Prezidentin Fərmanı ilə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı 240-dan 30-a endirildi və lisenziyaların fəaliyyət müddəti 5 ilə qaldırıldı.[100] 2002-ci il sentyabrın 10-da Azərbaycan Prezidentinin sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi və hüquqi şərait yaratmaq məqsədilə "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanı verildi.[101] Həmin il sentyabrın 28-də "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" Prezident Fərmanı imzalandı. Hüquq-mühafizə orqanlarının (məhkəmədən başqa) sahibkarlıq subyektlərinə müdaxilələri qadağan edildi. DİN-in İqtisadiyyatda Cinayətkarlıqla Mübarizə İdarəsi ləğv olundu.[102]

Kiçik və orta sahibkarlığın inkişafına kömək üçün dövlət qarşıdakı üç ilə 250 milyard manat vəsait ayırdı.[103] Bu məqsədlə 2002-ci ilin oktyabr ayında Dünya Bankının Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Qara dəniz Ticarət və İnkişaf Bankı və s. maliyyə qurumları birlikdə Azərbaycan Mikromaliyyə Bankı təşkil etdilər.[104]

İşgüzar adamların fəaliyyətini tənzimləmək, onlara istiqamət, proqnozlar vermək məqsədilə Azərbaycanda və qabaqcıl xarici ölkələrdə qarşılıqlı ticarət və sənaye palataları və başqa təşkilatlar yaradılmışdı. "Amerika-Azərbaycan Ticarət Palatası", "Azərbaycan-İran Birgə İqtisadi, Texniki, Elmi və Humanitar Komissiyası", "Türkiyə-Azərbaycan Müştərək İqtisadi Komissiyası" təşkil olunmuşdu.[105]

Respublikada sahibkarlığın inkişafına beynəlxalq iqtisadi təşkilatlar da köməklik göstərirdilər. BMT-nin İnkişaf Proqramı sənaye komplekslərinin inkişafı, yoxsulluğun aradan qaldırılması, qaçqın və köçkünlərin yerləşdirilməsi, işlə təmin olunması, həyat səviyyəsinin yüksəldilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması və başqa layihələrin hazırlanması və maliyyələşdirilməsində iştirak edirdi. Avropa Birliyi İqtisadi Komissiyası TASİS Texniki Yardım Proqramı respublika iqtisadiyyatında struktur dəyişiklikləri, sahibkarlığın inkişafı, xüsusən kənd təsərrüfatında islahatların aparılmasına investisiyalar cəlb olunması, Avropa-Qafqaz-Asiya ticarət, nəqliyyat əlaqələrinin inkişafına kömək üçün layihələr hazırlanmasında fəal iştirak edirdi. Bu proqram dairəsində KOSİA-SMEDA

təşkilatı, habelə "Türk Sənaye İş Adamları Birliyi", "Türk İş Birliyi İnkişaf Agentliyi" respublikada sahibkarlığın inkişafına yardım göstərirdilər.[106]

Almaniya Texniki Əməkdaşlıq Təşkilatı kənd təsərrüfatını özəlləşdirmək işləri üçün xüsusi layihə hazırlayıb Azərbaycana hədiyyə etmişdi.[107]

İngiltərənin "Kayzer" firması ilə Sumqayıt Əlvan Metal İstehsalatı Birliyinin müqaviləsi əsasında alüminium zavodu yenidən işə başladı.[108] İtaliyanın "Porçeti SPA" firması ilə kontrakta əsasən natrium qələvisi istehsal edən müasir qurğular işə salındı. Səudiyyə Ərəbistanı firması ilə aşağı təzyiqli polietilen, polivinilxlorid istehsalı qurğuları yaradılması, "Polimer-120" qurğusunun, Yaponiya firmaları ilə etilen-propilen zavodunda "EP-300" qurğusunun yenidən qurulması və s. üçün başqa müqavilələr bağlandı. İtaliya firması ilə müqaviləyə əsasən, Qaradağda yeni şin zavodu tikilməsi planlaşdırıldı.[109] Suraxanı maşınqayırma zavodunda ABŞ-ın "Haylənd" firması ilə müştərək müəssisə yaradıldı və dünya standartlarına uyğun nasoslar istehsal edildi. Bakı maşınqayırma zavodunda ABŞ-ın "Red-Tul" firması ilə yaradılmış müştərək müəssisədə müasir texnologiyalara cavab verən qazma baltaları, Avstriya firması ilə birgə qazma qıfılları istehsal olunurdu. Bakı poladtökmə zavodu Türkiyə şirkəti ilə müştərək müəssisə yaradıb tikinti üçün armatur istehsalına başlamışdı.[110] Bakı tütün kombinatı ABŞ-ın "Raynold Tobakko" və Türkiyənin "Star" firmaları ilə birgə müəssisə yaradıb istehsalatı modernləşdirmişdi.[111]

Xarici investisiya ilə Bakıda qurulmuş "Evropean Tobakko-Baku" fabrikində artıq 2000-ci ildə 20 növ siqaret istehsal olunurdu. Respublikanın müxtəlif bölgələrində xarici investisiyalar hesabına 5 nümunəvi kənd təsərrüfatı müəssisəsi yaradılmağa başlanmışdı. Meliorasiya qurğularının bərpası və yenidən qurulması üçün xeyli kredit verilmişdi. Türkiyənin "Polsan" şirkəti Azərbaycanda "Saro LTD" firması təşkil edərək Şri-Lankadan çay gətirib burada qablaşdırırdı. Bu ölkənin "İntersun" şirkətlər qrupu Bakı çayçəkmə fabriki ilə müştərək "Azərsun" müəssisəsi yaratmışdı. Fabrik əsaslı şəkildə yenidən qurulmuş, müasir texnologiyalar əsasında "Məryəm", "Final" və s. markalı çaylar istehsal edilməyə başlanmışdı.[113] Türkiyənin "Pet Holdinq" şirkəti dəri fabriki, fındıq və qoz emalı müəssisəsi təşkil etmişdi. Bu şirkət ADNŞ ilə birgə müəssisə yaradaraq Neftçalada iki köhnə neft mədənini işlətməyə başlamış, burada hasilat xeyli artmışdı. İranın "Şibarra", Türkiyənin "Star" və digər şirkətləri respublikada tikinti işləri aparırdılar. Türkiyənin "BMS" sənaye və ticarət şirkəti Bakı avtomobil zavodu ilə birgə müəssisə yaradıb avtobus istehsalına başlamışdı.[114]

İnvestisiya qoyuluşunun artması, iqtisadi struktur dəyişmələri sahibkarlığın inkişafına münasib imkanlar açırdı. 1993-cü ildə respublikada cəmi 300, 1997-ci ildə isə artıq 60 min özəl müəssisə vardı. Daxili mal dövriyyəsinin 75 faizə qədəri, xarici ticarətin 44 faizi bu müəssisələrin payına düşürdü.[115]

Kiçik dövlət müəssisələrinin özəlləşdirilməsi 1997-ci ilin martında artıq başa çatmışdı. 10174 kiçik müəssisə özəl mülkiyyətə, əsasən, əmək kollektivi üzvlərinə satılmışdı. İri və orta müəssisələrin özəlləşdirilməsi səhmdar cəmiyyətləri yaradılması yolu ilə həyata keçirilirdi. Belə sənaye müəssisələrinin səhmləri 1997-ci il martın 1-dən əhaliyə paylanan ümumi mülkiyyət bölgüsündən hər kəsə düşən hissənin ifadəsi olan 7 milyon 500 mindən çox hər biri 4 çekdən ibarət paya dəyişdirildi. 1998-ci ilin sonlarında Prezidentin Fərmanına əsasən müharibə və Çernobıl əlillərinə, onların ailələrinə əlavə özəlləşdirmə payları verildi. Özəlləşən müəssisələrin göstəriciləri hərracdan azı iki həftə qabaq mətbuatda dərc olunurdu. Səhmlərin 15 faizi əmək kollektivi üzvlərinə güzəştlə nağd pula satılır, 50 faizi isə çeklərə dəyişdirilirdi. Dövlət Əmlak Komitəsi çeklərin hərracı üçün Respublika Hərrac Mərkəzi təşkil etmişdi. Çekləri toplayıb səmərəli yerləşdirmək, əldə ediləcək dividentləri bölüşdürmək üçün çek investisiya fondları yaradılmışdı.[116]

2002-ci ilin oktyabr ayınadək 36,2 minə qədər kiçik dövlət müəssisəsi, müəssisə obyekti və avadanlığı, o cümlədən 9,5 mindən çox məişət xidməti, 2797 ticarət, 773 ictimai iaşə müəssisəsi, 552 yanacaqdoldurma məntəqəsi, 570-ə qədər çörək ticarəti və çörəkbişirmə obyekti, 700 sənaye, 120 kənd təsərrüfatı müəssisəsi, 337 tikinti təşkilatı, 181 yarımçıq tikinti, 14,7 mindən çox nəqliyyat müəssisəsi və vasitəsi, 119 aptek, 1,3 mindən çox qeyri-yaşayış obyekti və s. özəlləşdirilmişdi. 1463 orta və iri dövlət müəssisəsi səhmdar cəmiyyətinə çevrilmişdi. 100 mindən çox vətəndaş səhmdar, 140 mindən çox adam əmlak sahibi idi. 331,3 min mənzil-özəlləşdirilməsi nəzərdə tutulan mənzillərin 52,8 faizə qədəri xüsusi mülkiyyətə verilmişdi.[117]

2002-ci ilin əvvəllərinə qədər çeklərin cəmi təqribən 10 faizi dövriyyədən çıxmışdı. Qalan çeklər qara bazarda əvvəllər 100 dollara, sonralar isə 4 dollardan da ucuz (təqribən 20 min manata) qiymətə satılmış, bir hissəsi xarici qrupların əlində toplanmışdı.[118] Bunu nəzərə alaraq strateji özəlləşməyə başlamazdan əvvəl ölkənin və vətəndaşların maraqlarını qorumaq üçün 2000-ci ilin martında çek dövriyyəsinin tənzimlənməsinə istiqamətləndirilmiş qaydalar müəyyən edildi. Mövcud vəziyyətin öyrənilməsi və nəzərə alınması üçün 400-dən çox çekə sahib olanların çekləri Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydə alındı.[119]

2000-ci il avqustun 10-da özəlləşdirmənin İkinci Dövlət Proqramı qəbul edildi. Özəlləşdirmənin daha səmərəli formaları tətbiq olunmağa başlandı. "Bakelektroqaynaq" Səhmdar Cəmiyyəti, Siyəzən broyler fabriki və s. üzrə investisiya müsabiqələri təşkil olundu. Strateji müəssisələrin özəlləşdirilməsi üçün maliyyə məsləhətçiliyi üzrə tenderlər keçirildi. Bir çox iri müəssisələr, o cümlədən "Azərbaycan-alüminium", "Bakelektrik-şəbəkə", "Siyəzən-broyler" və s. özəlləşdirildi.[120] Prezidentin 2001-ci il 22 mart tarixli Fərmanı ilə kimya, neft-

kimya, maşınqayırma, yanacaq-energetika kompleksi müəssisələri, ADNŞ-in bəzi müəssisələri, o cümlədən neft bazaları, qaz zavodu, Sumqayıt aşqarlar zavodu, Azərkabel zavodu özəlləşdirilməyə başlandı. 2001-ci ilin payızınadək artıq respublikada dövlət müəssisələri bazasında 1275 səhmdar cəmiyyəti yaradılmışdı. Kənd Təsərrüfatı Nazirliyi üzrə 248, "Azəravtonəqliyyat" Dövlət Konsemi üzrə 101, "Xidmət" Dövlət Konsemi üzrə 95, Ticarət Nazirliyi üzrə 86, "Taxıl məhsulları" Dövlət Şirkəti üzrə 62, "Azəryeyintisənaye" Dövlət Şirkəti üzrə 55, "Xalq üçün mallar" Dövlət Konserni üzrə 47, "Azərsənayetikinti" Dövlət Şirkəti üzrə 29, "Azərquşsənaye" Dövlət Şirkəti üzrə 32, "Sənaye-ticarət" Dövlət Konserni üzrə 31, "Azərkəndtikinti" Dövlət Şirkəti üzrə 22, Dövlət Neft Şirkəti üzrə 17, "Azərbalıq" Dövlət Konserni üzrə 10 müəssisə, səhiyyə üzrə 18, rabitə üzrə 9, metallurgiya üzrə 10, mənzil-kommunal təsərrüfatı üzrə 4 belə təşkilat vardı.[121] Beləliklə, iqtisadi özünütənzimləmə sisteminin yaranmasına münasib imkanlar açılır, rəqabət yaradılırdı. Məsələn, çörək mağazaları və çörəkbişirmə müəssisələri özəlləşdirildikdən sonra çörək qıtlığı, uzun növbələr aradan qalxdı.[122]

Lakin hələ də iqtisadi islahatların reallaşmasına mane olan, narazılıq yaratmaq, haram pullarla varlanmaq istəyən şəxslər vardı. İqtisadiyyatın inkişafı üçün sərmayə qoymaq istəyən layihə sahibləri korrupsiyaya qurşanmış məmurlar tərəfindən soyuq, hörmətsiz və "şapka" təklifi ilə qarşılanırdılar.[123] Bəzi müəssisələr istehsaldan tutmuş, əmək haqqının ödənilməsinə, satışa qədər bütün prosesləri nağd pulla yerinə yetirir, sənədlərdə müəssisəni, istehsalın, xidmətin bir hissəsini göstərmirdilər. Kəndlərdə torpaq bölgüsü sahəsində qüsurlara yol verilir, narazılıqlar meydana çıxırdı. Prezident Heydər Əliyev ölkəyə investisiya gəlməsinə, iqtisadiyyatın inkişafına, yeni müəssisə və istehsalatlar yaradılmasına öz şəxsi maraqlarını güdərək mane olanları "xalqın daxili düşməni" adlandırır və onlara qarşı qəti mübarizə aparılmasını tələb edirdi.[124] Korrupsiyaya qarşı mübarizənin təşkili haqqında xüsusi fərman verilmişdi.

**Aqrar islahatlar. Kənddə sahibkarlığın inkişafı.** İqtisadiyyatda struktur dəyişikliklərinin mühüm istiqamətlərindən biri də torpaq islahatının həyata keçirilməsi idi. İlk vaxtlar kənd təsərrüfatında sahibkarlıq çox ləng inkişaf edirdi. 1992-ci ildə 320, 1995-ci ilin əvvəllərində isə 830 müstəqil və kollektiv fermer təsərrüfatı vardı.[12]

1995-ci ilin fevral ayında "Aqrar islahatların əsasları" və "Kolxoz və sovxozların islahatı haqqında" qanunlar qəbul edildi.[126] Bu mühüm qanunların həyata keçirilməsi ilk növbədə torpağa mülkiyyət münasibətlərinin yenidən müəyyənləşdirilməsindən çox asılı idi. 1995-ci ilin mart ayında "Dövlət Aqrar İslahatı Komissiyası" yaradıldı.[127]

1996-cı il iyulun 16-da ölkənin aqrar sektorunda radikal bir addım atıldı. Prezident Heydər Əliyevin rəhbərliyi altında hazırlanan, onun təfəkkürünün və

siyasi iradəsinin məhsulu olan "Torpaq islahatı haqqında" Qanun qəbul edildi.[128] Bu qanuna görə, bütün postsovet respublikalarından fərqli olaraq, torpaq sosial ədalət prinsipinə əsasən kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz verildi. Respublikanın vahid torpaq fondu əsasında üç - dövlət, bələdiyyə və xüsusi torpaq mülkiyyəti forması müəyyən olundu. Kənd təsərrüfatı torpaqlarının 22 faizi - 1 milyon 911 min hektarı xüsusi mülkiyyətə, 45 faizi dövlət mülkiyyətinə, 33 faizi isə bələdiyyə mülkiyyətinə verildi.[129] Qanunun icrası üçün Prezident Fərman imzaladı. "Dövlət torpaqları haqqında", "Torpaq vergisi haqqında" qanunlar, normativ aktlar qəbul olundu. 1999-cu il martın 12-də "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" və "Torpaq icarəsi haqqında", həmin il iyulun 18-də "Torpaq bazarı haqqında" qanunlar verildi. Bütün rayonlarda torpaq istifadəçilər üzrə inventarlaşdırıldı və iqtisadi cəhətdən qiymətləndirildi. Özəl qurumların tələbatını təmin etmək üçün 1996-cı ilin iyul ayında Aqrar kredit kassaları təşkil olundu.[130]

Prezident Heydər Əliyev "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" 1999-cu il 22 mart tarixli Fərmanı ilə kənd təsərrüfatı məhsulları istehsalçılarını beş il müddətinə torpaq vergisindən başqa bütün (8 növ) vergilərdən azad etdi və bu vergilər üzrə borcların hamısı silindi. Nazirlər Kabinetinin 1996-cı il 26 mart tarixli qərarı ilə onlara neft məhsulları, yanacaq 50 faiz güzəştlə satıldı.[131]

1999-cu il noyabrın 9-da Prezident xüsusi Fərmanla "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı"nı təsdiq etdi.[132] Bu sahədə iş daha da intensivləşdi.

2001-ci ilin əvvəllərində 1 milyon 329 min 285 ha torpaq özəlləşdirilmiş, kənddə yaşayan 830 min ailədən 818 mini (3 milyon 238 min adam) torpaq payını almışdı.[133]

Kənd təsərrüfatı müəssisələrinin 2,9 milyard manatlıqdan artıq əmlakının 2,1 milyard manatlığının özəlləşdirilməsi nəzərdə tutulurdu.[134]

Aqrar islahatlara eksperiment qaydasında daha tez başlamış Xızı, Zaqatala, Salyan və Masallı rayonlarında bu iş artıq 1996-cı ilin axırlarında başa çatmışdı.[135]

1996-cı ilin yazından başlayaraq ictimai kənd təsərrüfatı müəssisələrinin mal-qarası özəl mülkiyyətə verildi.[136]

1995-ci ildən başlayaraq 1300-dən çox kolxoz və sovxoz ləğv edildi, onların bazasında 35 minədək kəndli-fermer təsərrüfatı, o cümlədən 224 kooperativ, 491 kiçik müəssisə, 1676 birgə təsərrüfat yaradıldı.[137]

1996-cı ilin oktyabr ayında "Sudan pulla istifadə haqqında Əsasnamə" qəbul olunması meliorasiya xidmətlərinin yaxşılaşmasına imkanlar açdı. Meliorasiya qurğularının bərpası və genişləndirilməsinə başlanıldı. 2000-ci ildə uzunluğu 52,9

km olan Baş Muğan-Mil kollektorunun ikinci hissəsi istifadəyə verildi. Samur-Abşeron kanalında yenidənqurma işləri başlandı.[138]

Kənd təsərrüfatında lizinq (icarə) xidməti formalaşdı. Bu işdə Yaponiya fəal iştirak edirdi. 1997-1998-ci illərdə bu ölkə Azərbaycana 350 milyon iyen (12 milyard manat), 1999-cu ildə isə 400 milyon iyen texnika şəklində qrant ayırmışdı.[139] 2002-ci ilin əvvəllərinədək bu qrant hesabına 705 kənd təsərrüfatı texnikası, traktor, kombayn və s. alınmışdı.[140]

Aqrar islahatların həyata keçirilməsi sahəsində bəzən tələsikliyə və səhvlərə də yol verilmişdi. Torpaqlar paylandıqdan və pambıq zavodları özəlləşdirildikdən sonra pambıqçılıq kimi əhəmiyyətli bir sahə özbaşına buraxılmışdı. 1998-ci ildə 60 min tona qədər pambıq tarlalarda yığılmamış qalmışdı.[141] Konserv zavodları gücünün 10-15 faizi həcmində işləyirdi. Özəlləşdirilməsi nəzərdə tutulan 126 şərab zavodunun cəmi 14-ü səhmdar cəmiyyətinə, 6-sı özəl kiçik müəssisəyə çevrilmişdi. İslahatlar Bərdə, Neftçala, Dəvəçi, Beyləqan, Şəki, Qəbələ, Ucar, Ağdaş, Goranboy, Tərtər rayonlarında çox ləng gedirdi.[142] 557 kənd təsərrüfatına xidmət müəssisəsində özəlləşdirmə zəif idi. Buna əsas səbəb respublikaya 90-cı illərin əvvəllərindən kənd təsərrüfatı texnikası gətirilməməsi, mövcud maşın-traktor parkının köhnəlib sıradan çıxması olmuşdu. Dövlət mülkiyyətində qalmış 41 toxumçuluq və damazlıq müəssisəsinin də maddi bazası olduqca zəif idi. Prezidentin 1999-cu il 22 mart tarixli Fərmanı bu sahədə nöqsanların aradan qaldırılmasına, inkişaf üçün yeni imkan və vasitələr tapılmasına istiqamətləndirirdi.[143]

Çətinliklərə baxmayaraq, respublikada özəlləşdirmə uğurla həyata keçirilirdi. 2002-ci ildə artıq ümumi daxili məhsulda özəl sektorun payı 71 faiz təşkil edirdi. Sənaye məhsulunun 50 faizi, kənd təsərrüfatı istehsalının 99 faizi, ticarətin 99 faizi, tikintinin 76 faizi, nəqliyyat və rabitədə xidmətlərin 65 faizi özəl sektorun payına düşürdü. Məşğul əhalinin 70 faizdən çoxu özəl müəssisələrdə işləyirdi.[144]

**İqtisadi dirçəliş.** Prezident Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər mövcud iqtisadi böhranı aradan qaldırmağa, iqtisadi sabitlik yaratmağa və tərəqqiyə yol açmağa imkan verdi.

Ölkənin iqtisadiyyatına bütün mənbələrdən sərmayə qoyuluşu 1993-cü ildəki 29 milyard manatdan 2000-ci ildə 4,2 trilyon, 2001-ci ildə 5,7 trilyon manata çatdırıldı. 2002-ci ildə bu, 1 milyard 200 milyon dollar təşkil edirdi. Ümumiyyətlə, 1996-2002-ci illərdə iqtisadiyyata 12 milyard dollar investisiya cəlb olunmuşdu.[145]

Respublikada bir çox yeni sənaye müəssisəsi, istehsalat, sex, qurğu işə salındı. 1993-cü ildə Bakıda çoxsaylı lövhələr istehsal edən "Peyk" zavodu, parket, plastik pəncərə fabrikləri işə düşdü. 1995-1996-cı illərdə Neft daşlarında yanacaq qazının tutulub sahilə ötürülməsi üçün kompressor stansiyası istifadəyə verilərək

modernləşdirildi və gücü iki dəfə artırıldı. 600-dən çox, təkcə Balaxanı-Sabunçu-Ramana yatağında 380 köhnə quyu təmir olunub istismara qaytarıldı.[146] Şirvanın köhnə Gürovdağ neft yatağında yeni məhsuldar qatlar kəşf olundu. 1997-ci ilin yazında burada qazılan iki quyu fontan vurdu.[147] "Bahar" dəniz neft yatağında yeni üsulların tətbiqi nəticəsində köhnə neft quyusu işə düşdü.[148] 1997-ci ildə "Günəşli" yatağında ilkin neftin hasilinə başlanıldı.[149] 2000-ci ildə respublikada 14 milyon ton neft hasil edildi.

1994-1995-ci illərdə neftayırma zavodlarında qurğular modernləşdirildi.[150] Qaz emalı zavodu yenidən quruldu.[151]

Respublikanın maşınqayırma sənayesi müəssisələri xarici bazar olmadığından profilini dəyişib respublika sənayesi və kənd təsərrüfatı üçün avadanlıq, texnika, ehtiyat hissələri istehsal etməyə başladılar. Müasir qazma baltası, qazma qıfıl, kultivator, toxumsəpən, kotan, nasos, reduktor, hidrodomkrat, çuğunsiyirmə istehsalı mənimsənildi.[152] Mingəçevir yol maşınları təmiri zavodunda dənüyüdən dəyirmanlar, xəmiryoğuran maşınlar, qum mexanizmləri istehsalına başlandı.[153] 1996-cı ildə Bakıda qoz-fındıq emalı, yağ, "Koka-Kola", 1999-cu ildə "Pepsi-Kola" sərinləşdirici içki zavodları açıldı. 1997-ci ildə Sumqayıt "Azərboru" İstehsalat Birliyində (keçmiş boru-prokat zavodu) hər biri 10 tonluq 5 yeni elektrik sobası quraşdırıldı. Burada nasos kompressor boruları ilə yanaşı, beynəlxalq standartlara uyğun Batters yivli qoruyucu boru istehsalı təşkil olundu. Avropada ən böyük, 150 tonluq marten sobası yenidən işə salındı.[154] Sumqayıt və Gəncə alüminium zavodları, Daşkəsən alunit mədəni tədricən işə düşməyə başladı.

Kimya sənayesi müəssisələrində polietilen, kaustik soda, sulfat turşusu, alüminium-sulfat və s. istehsalı çoxaldı. Tullantılardan istifadə etməklə texniki soda, xam rezindən plevmatik kabel və s. istehsalı mənimsənildi. Bakı kimya-əczaçılıq zavodu 119 adda, "Loğman" Səhmdar Cəmiyyəti 58 adda dərman preparatı istehsal edirdi.[155] 1996-cı ildə Naxçıvan MR-də 18 min hektara yaxın sahənin suvarılmasına imkan verəcək Vayxır su anbarının inşası yenidən bərpa olundu (bir hissəsi 1983-89-cu illərdə tikilmişdi).[156]

2002-ci ildə Şəmkir-Yenikənd Su-Elektrik Stansiyası, Abşeronda "Şimal" Dövlət Rayon Elektrik Stansiyasının enerji bloku, 1 saylı Bakı İstilik-Elektrik Mərkəzində yeni qaz-turbin elektrik qurğusu, "Azərneftyağ" İstehsalat Birliyində bitum qurğusu və s., 2001-ci ildə "Kaspian-Fiş" balıq məhsulları istehsalı müəssisəsi, Bakı elektroqaynaq səhmdar cəmiyyətinin Bakı poladtökmə zavodu (Bakı elektroqaynaq zavodu bazasında), qaz zavodunda yeni, müasir emal qurğusu, İran vasitəsilə Naxçıvan MR-ə elektrik enerjisi tranzit etmək üçün 51 km-lik İmişli-Parsabad elektrik xətti və s. işə salındı.[157] Fəaliyyətini 1990-cı ildə dayandırmağa məcbur olmuş Şəki ipək kombinatı dövlətin yardımı ilə "Şəki-ipək"

Səhmdar Cəmiyyəti kimi fəaliyyətə başladı. 2002-ci ilin yayında Bakıda dəmir yolları üçün dəmir-beton şpallar istehsal edən zavod işə düşdü.[158]

Beləliklə, 1996-cı ildən respublikanın sənayesində tənəzzülün qarşısı alındı. Əgər 1991-1994-cü illərdə sənaye məhsulu istehsalı orta hesabla 20-24 faiz azalırdısa,[159] 1997-2002-ci illərdə sənaye istehsalı 23,2 faiz artdı.[160]

Kənd təsərrüfatında keçirilən islahatlar da çox səmərəli oldu. Əgər 1991-1994-cü illərdə bu sahədə istehsal hər il 15-20 faiz azalırdısa,[161] 1997-2002-ci illərdə 51 faiz artmışdır.[162] 2002-ci ildə əvvəlki illərdə heç vaxt olmadığı qədər - 2 milyon 200 min ton (1995-ci ildəkindən 2 dəfə çox) taxıl, 700 min ton (1995-ci ildəkindən 3,9 dəfə çox) kartof istehsal edildi.[163] Ölkədə çəltik istehsalı bərpa edilməyə, şəkər çuğunduru istehsal olunmağa başlandı.

2001-ci ilin əvvəllərində respublikada 2 milyon 21 mindən çox qaramal, 6 milyon 86 mindən çox davar vardı.[164] Daxili məhsulda heyvandarlığın payı xeyli artmışdı. Əhalinin heyvandarlıq məhsullarına tələbatının ödənilməsində mühüm irəliləmələr oldu. Artıq ölkəyə başqa yerlərdən heyvandarlıq məhsulları gətirilməsinə ehtiyac yox idi.[165]

Respublikada iqtisadi tənəzzülün qarşısı 1995-ci ildə alındı. Dirçəliş başlandı. Əgər 1991-1994-cü illərdə ümumi daxili məhsul ildə orta hesabla 20-25 faiz azalırdısa, 1996-2000-ci illərdə 39 faiz artmışdı. 2002-ci ildə ölkədə 29,6 trilyon manatlıq (6,1 milyard dollar) ümumi daxili məhsul istehsal edilmişdi.[166]

XX-XXI əsrlərin qovşağında ölkə 123 xarici dövlətlə ticarət əlaqələri saxlayırdı.[167] Xarici ticarət dövriyyəsi 1993-cü ildə 1 milyard 300 milyon dollar idisə, 2002-ci ildə bu, 3 milyard 833 milyon dollara çatmışdı.[168] 2000-ci ildə ilk dəfə xarici ticarət dövriyyəsində ixrac (63,3 faiz) idxaldan (36,7 faiz) çox olmuş, müsbət saldo yaranmışdı.[169] İstehsal olunan malların miqdarının və keyfiyyətinin artması buna imkan vermişdi. İdxalda istehlak malları azalır, xammal, avadanlıq artırdı.

İqtisadi dirçəliş ölkənin maliyyə vəziyyətini xeyli yaxşılaşdırdı. 1996-2002-ci illərdə Azərbaycan Respublikasının dövlət büdcəsinin gəlirləri 2,2 dəfə artmışdı. 2003-cü ildə dövlət büdcəsi 1 milyard 200 milyon dollar həcmində (1994-cü ildəkindən 17 dəfə çox) müəyyən edilmişdi.[170] Dövlət büdcəsinin kəsiri durmadan azalırdı: 1996-cı ildə o, cəmi 3 faiz 2001-ci ildə isə 0,1 faiz təşkil etmişdi.[171]

Ölkənin valyuta ehtiyatları 2002-ci ildə 1 milyard 374 milyon dollara çatmışdı ki, bu da 1993-cü ildəkinə nisbətən 103 dəfədən çox idi.[172]

Beləliklə, Prezident Heydər Əliyevin müdrik daxili və xarici siyasəti sayəsində Azərbaycan Respublikasının iqtisadiyyatı dərin böhrandan, tənəzzüldən qurtardı.

Daxildə siyasi sabitliyin təmin edilməsi, makroiqtisadi göstəricilərin sabitləşməsi, tənəzzülün cilovlanması, iqtisadi dirçəliş, respublikanın etibarlı

tərəfdaş imicinin yüksəlməsi, xarici iqtisadi əlaqələrin, investisiya qoyuluşunun genişlənməsi, struktur və institusion dəyişikliklərə istiqamətləndirilmiş islahatların dərinləşməsi iqtisadi inkişafın dönmədən sürətlənməsinə şərait yaradırdı.

## §2. SOSİAL SİYASƏT

90-cı illərin əvvəllərində iqtisadi böhran, tənəzzül əhalinin güzəranını ağırlaşdırmış, ərzaq məhsulları, enerji daşıyıcıları, sərnişin daşımaları və başqa xidmətlərin qiyməti yüz dəfələrlə artmışdı. Əmək haqqının və pensiyaların indeksasiyası üçün müəyyən olunmuş minimum əmək haqqı səviyyəsi 1993-cü ilin yayında 500 manat, 1994-cü ilin payızında isə 4000 manat müəyyən olunmuşdu. Bu, dolanacaq üçün adi xərclərin cəmi 7 faizinə çatırdı.[173] Dövlət əmanət kassalarında əhalinin bir milyard dollara qədər pulu, demək olar ki, batmışdı. Əmək haqqının nominal göstəricisi tez-tez artsa da, real səviyyəsi aşağı düşürdü. 90-cı illərin birinci yarısında inflyasiyanın artımı əhalinin pul gəlirlərinin artım sürətini üç dəfə üstələyirdi.[174] Bir adamın normal yaşaması üçün vacib tələbat zənbilinin dəyəri 1994-cü ilin əvvəllərində təqribən 5 min, ortalarında isə artıq 25,8 min manat, orta aylıq əmək haqqı isə müvafiq surətdə cəmi 4,4 min və 13,8 min manat olmuşdu.[175] İnflyasiyanın daim artmasında marağı olan və buna çalışan bəzi işbazların yaratdıqları soyğunçu "Vahid", "Mərhəmət", "Aleks", "Etimad", "Xəyal" və başqa "xeyriyyə cəmiyyətləri" əhalinin aztəminatlı təbəqələrini aldadıb var-yoxdan çıxarırdı.[176]

İqtisadiyyatın pozulması, əhalinin sürətlə yoxsullaşması, qaçqınlıq və köçkünlüyün ağırlığı uşaqlara və yeniyetmələrə daha pis təsir göstərirdi. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycanda 300 min nəfərədək (79 min nəfəri 5 yaşına qədər) uşaq məcburi köçkünə çevrilmişdi.[177] 90-cı illərin ortalarında respublikada 34 mindən çox, o cümlədən hər iki valideynini itirmiş 9 min uşaq var idi. Yoxsul ailələrin uşaqları aclıq çəkir, çoxu səfil həyat keçirməyə, məktəbdən uzaqlaşmağa məcbur olurdu.[178]

Əhalinin sosial müdafiəsi tədbirləri və islahatların sosial yönümü 90-cı illərin ortalarından başlayaraq həyata keçirilən iqtisadi siyasətdə mərkəzi yer tutdu. Prezident Heydər Əliyevin rəhbərliyi altında bu sahədə müntəzəm iş aparıldı.

İqtisadi tənəzzülün aradan qaldırılması və inkişafa yol açılması nəticəsində dövlət büdcəsi 1994-cü ildə cəmi 682 milyard manat idisə, 2001-ci ildə 6-7 dəfə artmışdı.[179]

Hiperinflyasiyanı cilovlamaq üçün 1995-1996-cı illərdə həyata keçirilən tədbirlər nəticəsində 1996-cı ilin birinci yarısında orta əmək haqqının artım sürəti inflyasiyanı iki dəfə üstələdi.[180]

Əmək haqqının artırılması üçün dövlət tədbirlərinin həyata keçirilməsi nəticəsində işçilərin orta aylıq nominal əmək haqqı xeyli artdı. Təkcə 1994-1998-ci illərdə orta aylıq əmək haqqı 12 dəfə artmış, 184,4 min manata çatmışdı. 1999-cu ilin avqustunda dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarda əmək haqqı 1,8 dəfə, 2000-ci ilin yanvarında təhsil işçilərinin, aprelində isə elm, mədəniyyət və sosial təminat sahələri işçilərinin əmək haqları 25 faiz artırıldı. Bir qrup ədəbiyyat, incəsənət və elm xadiminə, gənc istedadlara fərdi təqaüdlər müəyyən edildi.[181] 2002-ci ildə orta aylıq əmək haqqı 315 min manat idi.[182] Əmək haqqının artması, inflyasiyanın çox aşağı səviyyədə olması 1999-2000-ci illərdə isə istehlak qiymətlərinin aşağı düşməsi şəraitində baş vermişdi. 90-cı illərin ikinci yarısında əhalinin pul gəlirlərinin artım sürəti inflyasiya səviyyəsini 2,5 dəfə qabaqlayırdı, başqa sözlə, əhalinin alıcılıq qabiliyyəti 2,5 dəfə artmışdı. 2000-ci il yanvarın 1-dən əmək haqqının vergi tutulmayan minimum həddi 60 min manatdan 100 min manata qaldırıldı. Maaşlar və pensiyalar vaxtlı-vaxtında verilirdi, bu, dövlət başçısının nəzarəti altında idi.[183]

Özəl müəssisələrdə, xarici və müştərək şirkətlərdə əmək haqqı xeyli yüksək idi. Məsələn, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində işləyən 1,5 mindən çox azərbaycanlıdan hər birinin orta aylıq əmək haqqı 780 dollar təşkil edirdi.[184] 2001-ci ildə xarici neft şirkətləri və onlara xidmət göstərən başqa xarici şirkətlərdə 10 mindən çox Azərbaycan vətəndaşı çalışırdı.[185]

Lakin bu sahədə problemlər hələ də az deyildi. İşləyənlərin 90 faizinin əmək haqqı 150 min manatdan artıq olmurdu. 2002-ci ildə adambaşına pul gəliri 2,6 milyon manat olmuşdu (1995-ci ildə 886 min manat idi).[186]

90-cı illərin birinci yarısında iqtisadi tənəzzül, müəssisələrin bağlanması işsizliyin artmasına səbəb olmuşdu. İşsizlər qeydə alınır, onlara status, müavinət verilirdi. 1995-ci ildə ölkədə 28 min, 2000-ci ildə isə 44 minə qədər işsiz qeydə alınmışdı.[187] İşsizlərin işlə təmin olunması üçün Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən 1997-ci ildən başlayaraq dövlət və özəl müəssisələrin, o cümlədən xarici şirkətlərin köməyi ilə böyük şəhərlərdə hər dəfə minlərlə işsizin işlə təmin edildiyi "Əmək yarmarkaları" təşkil olundu. Dövlət məşğulluq xidməti təkcə 2000-ci ildə 19 min nəfəri işlə təmin etmişdi.[188]

1995-2000-ci illərdə dövlət büdcəsindən sosial təyinatlı xərclər üç dəfəyə qədər artmışdı. Büdcə xərclərinin yarıdan çoxu sosial yönümlü idi.[189] Əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə 1994-cü il iyulun 24-də "Əhalinin sosial müdafiəsi haqqında" Qanun qəbul edildi.[190] Həmin il noyabrın 21-də "Əhalinin Sosial Müdafiəsi Fondu" təsis olundu. Bu fonda bütün müəssisələr balans mənfəətindən 1 faiz məcburi ayırma verməyə başladı. Fond bütün təşkilatlardan sosial sığorta ayırmaları toplayır və yaranan vəsait hesabına pensiya və müavinətləri maliyyələşdirirdi.[191] 1994-cü ilin iyununda dövlət 1 milyondan çox

pensiyaçının, 130 min tələbənin pensiya və təqaüdlərini 2,2 dəfə artırdı. Aztəminatlı ailələrdə uşaqlara ayda 750 manat pul kompensasiyası ödənilməyə başlandı. Sosial pensiyaçılara, tələbələrə, şagirdlərə kompensasiyalar ayda 1500 manata çatdırıldı.[192]

1995-ci ilin yanvarında pedaqoji işçilərin ailələri elektrik enerjisindən, qazdan istifadə və kommunal xidmət xərclərindən tamamilə azad edildilər. "Vətəndaşların pensiya təminatı haqqında" Qanunla əlaqədar 1995-ci ilin sentyabr ayında pensiyaların aylıq həcmi 35-40 faiz, qocalığa görə pensiyaların orta aylıq məbləği 2 dəfə artırıldı.[193]

1996-cı ilin may ayında Prezident aztəminatlı ailələrə verilən müavinətləri, aspirant, tələbə və şagird təqaüdlərini artırmaq haqqında yeni sərəncam verdi.[194]

İqtisadiyyata və sosial-ictimai həyata mənfi təsir göstərdiyi üçün 1997-ci ilin iyun ayında pedaqoji işçilərə, ahıllara, sosial pensiyaçılara, əlillərə edilən qeyri-vergi güzəştləri ləğv olundu və əvəzində onlara aylıq əlavə müavinət verilməyə başlandı. Pensiyalar yenidən artırıldı. 650 min nəfərdən çox pensiyaçının pensiyası iki dəfədən çox, pedaqoji işçilərin aylıq vəzifə maaşları 30 faiz artırıldı. İşləyən pensiyaçılara pensiya 50 faiz həcmində ödənildi.[195]

1998-ci ildən müharibə və 20 Yanvar əlillərinə dövlət hesabına "Oka" markalı minik maşınları verilməyə başlandı. 2003-cü ilin yanvarına qədər 1090 nəfər belə əlil pulsuz minik maşını ilə təmin olunmuşdu. Müharibə əlillərinin məişət şəraitini yaxşılaşdırmaq üçün evlər tikilir, növbə ilə pulsuz paylanırdı. Əlilləri fəal iqtisadi həyata qaytarmaq üçün "Əlillərin Reabilitasiya Mərkəzi" təşkil olunmuşdu.[196]

2001-ci ilin ortalarında Prezident Heydər Əliyevin "Pensiya islahatı haqqında" Fərmanı əhalinin pensiya təminatının təşkilini daha da təkmilləşdirməyə istiqamətləndirilmişdi.[197] İqtisadiyyata mənfi təsirini nəzərə alaraq dövlət 2002-ci ilin yanvar ayında sosial güzəştlərin böyük əksəriyyətini ləğv etdi. Bu güzəştlər əvəzinə büdcədən müavinətlər verilməyə başlandı.[198]

2002-ci il iyunun 11-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Fərman verdi. Xalq qarşısında mühüm xidmətləri olmuş şəxslərə yüksək Prezident təqaüdü verilməyə başlandı.[199]

2002-ci ildə respublikada 1 milyon 200 min pensiyaçı vardı. Aylıq pensiyaların orta məbləği 94 min manata yaxın idi, 1996-2002-ci illərdə pensiyaların məbləği 3,4 dəfə artmışdı.[200]

Ölkədə bir milyondan çox qaçqın (Ermənistandakı tarixi etnik torpaqlarından qovulmuş azərbaycanlılar və Özbəkistandan qovulmuş Məhsəti türkü - 230 min nəfər) və məcburi köçkün (Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərindən köçənlər - 778 min nəfər) vardı.[201] Onların üçdə ikisi qadın və uşaqlar

idi.[202] Qaçqınların bir qrupu məskunlaşmışdı, qalanı isə ağır şəraitdə yaşayırdı. Köçkünlərin 77 min nəfəri çadır düşərgələrində yaşayırdı.[203]

Prezident Heydər Əliyevin 2001-ci il 22 avqust tarixli Fərmanında Ermənistan ərazisindəki tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli ilə bağlı konkret tədbirlər müəyyən olundu[204] və həyata keçirilməyə başlandı. 2001-ci il 7 sentyabr tarixli Fərmanında Prezident Ağdam və Füzuli rayonlarından olan məcburi köçkünlərin məskunlaşdırılması üçün Ağdam rayonu ərazisində 500, Füzuli rayonu ərazisində isə 800 ailəlik evlər tikilməsi, qəsəbələr salınması haqqında göstərişlər verdi.[205]

Məcburi köçkünlərin sosial müdafiəsini gücləndirmək məqsədilə 1998-ci ildən başlayaraq onlara yemək xərci üçün verilən aylıq müavinət hər il artırılırdı. 1998-2000-ci illərdə bu müavinətlər 3,5 dəfə çoxalmışdı.[206]

Qaçqın və məcburi köçkünlərə dünyanın ayrı-ayrı ölkələrinin və beynəlxalq birliklərin 50-dən çox humanitar təşkilatı, o cümlədən BMT-nin Qaçqınlarla İş üzrə Ali Baş Komissarlığı, Ümumdünya Ali Ərzaq Proqramı, Uşaq Fondu, Dünya Bankı, Avropa Birliyi ESNO-EKO xətti, Beynəlxalq Qızıl Xaç Cəmiyyəti, ABŞ-ın Beynəlxalq Uşaqları Xilasetmə Federasiyası xətti ilə maliyyələşdirilən 6 müstəqil humanitar təşkilatı, Beynəlxalq İnkişaf Agentliyi Avropa və MDB Ölkələri İdarəsi, Asiya Müsəlmanları Komitəsi, Beynəlxalq İslam "Nicat" Təşkilatı, İran, Türkiyə, Səudiyyə Ərəbistanının Qızıl Aypara cəmiyyətləri, Almaniya Beynəlxalq Texniki Yardım Təşkilatı humanitar yardım göstərirdi.[207]

Respublikanın müxtəlif rayonlarına səpələnmiş köçkünlər üçün beynəlxalq humanitar təşkilatların yaxından köməyi ilə yaşayış yerləri yaradılmışdı. Avropa Birliyi Humanitar Yardım İdarəsi ESNO 1993-1994-cü illərdə üç məskunlaşdırma proqramı həyata keçirmiş, Sabirabad, Ağcabədi, Dəvəçi, Goranboy, İmişli, Yevlax, Şəki və Saatlıda 20 min adam üçün qurma evlər, 1995-ci ildə Beyləqanda iki qəsəbə tikilməsini maliyyələşdirmiş, əhaliyə sosial xidmətlər göstərilməsini, hər ay ərzaq yardımı verilməsini təmin etmişdi. Almaniyanın köməyi ilə 1996-cı ildə Ağcabədi rayonunda Laçın köçkünləri üçün 2 qəsəbə, BMT-nin köməyi ilə Oğuz-Şəki yolu üstə Laçın, Kəlbəcər, Ağdam köçkünləri üçün 2 qəsəbə salınmışdı.[208]

ABŞ-ın "Keyə" (Qayğı) Humanitar Təşkilatı İmişli, Saatlı, Beyləqan, Zərdab, Kürdəmir, Göyçay və Ağsu rayonlarında birtipli layihələr üzrə 1800 köçkün ailəsi üçün evlər inşa etmiş, 6,5 min ton ərzaq paylamışdı.[209] ABŞ-ın qeyri-dövlət təşkilatları 1992-1997-ci illərdə Azərbaycana 125 milyon dollarlıq humanitar yardım etmişdilər. 1996-1997-ci illərdə ABŞ Dövlət Departamentinin sponsorluğu ilə Azərbaycana dava-dərman və tibb preparatlarından ibarət böyük humanitar yardım göndərilmişdi.[210] İranın Hilal-i Əhmər, Türkiyənin və Səudiyyə Ərəbistanının Qızıl Aypara cəmiyyətləri köçkünlər üçün 10 çadır şəhərciyi qurmuş, burada yaşayanlara ərzaq yardımı göstərmişdi. ABŞ, Almaniya, Norveç, Yaponiya,

Hindistan milli Qızıl Xaç cəmiyyətləri də Azərbaycanda imkansız adamlara humanitar yardım göstərmişdilər.[211] 1996-cı ilin payızında Böyük Britaniya hökuməti Azərbaycanın şimal-qərb bölgəsində məskunlaşmış 8 min köçkün ailəsinə 156 min dollar məbləğində yardım göndərmişdi.[212]

Humanitar yardımın paylanmasına nəzarəti gücləndirmək üçün 1995-ci ilin yanvar ayında Prezidentin xüsusi Fərmanı ilə Beynəlxalq Humanitar və Texniki Yardım üzrə Respublika Komissiyası təşkil edildi.[213] Prezidentin sərəncamı ilə 1998-ci il sentyabrın 17-də "Qaçqınların və Məcburi Köçkünlərin Problemlərinin həlli üzrə Dövlət Proqramı" təsdiq edildi.[214] Bu proqramda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etmək, məcburi köçkünlərin məişət şəraitini yaxşılaşdırmaq, müvafiq sosial infrastruktur yaratmaq, iş yerləri açmaq məqsədilə 1999-cu ilin dekabr ayında "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu" yaradıldı.[215]

Yeni iqtisadi münasibətlərin formalaşması labüd olaraq cəmiyyətdə ictimai təbəqələşməni dərinləşdirmişdi. Varlı-karlı insanlar, sahibkarlar yaranmışdı. Orta təbəqə meydana gəlirdi. 2002-ci ildə yoxsulluq həddində yaşayan insanlar əhalinin 49 faizini təşkil edirdi.[216] Prezident Heydər Əliyevin qeyd etdiyi kimi, "Bir qütbdə həddindən artıq zənginləşmiş, bəzi hallarda qanunsuz zənginləşmiş, öz vəzifəsindən sui-istifadə edərək zənginləşmiş, harınlamış insanlar və onların övladları eyş-işrət içindədirlər, o biri tərəfdən çadırlarda yaşayan insanlar inildəyirlər, nə qədər əziyyət çəkirlər".[217] Prezident imkanlı insanları ölkənin iqtisadi inkişafı üçün investisiyalar qoymağa, yeni iş yerləri açmağa, bununla yoxsulların həyatının, güzəranının yaxşılaşmasına kömək etməyə, xeyriyyəçilik işləri ilə məşğul olmağa çağırırdı.[218]

İnsanları kasıbçılıqdan qurtarmaq, onların rifah halını yaxşılaşdırmaq üçün Prezidentin təşəbbüsü ilə ölkədə "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı" hazırlandı. 2003-2005-ci illəri əhatə edəcək bu proqramın təqdimatına həsr olunmuş ümummilli konfrans keçirildi. Proqramda makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın sahəvi və regional baxımdan tarazlı şəkildə, investisiyaların daha geniş inkişaf etdirilməsi, iqtisadiyyatda struktur islahatlarının, o cümlədən özəlləşdirmənin sürətləndirilməsi, sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin açılması, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi tədbirləri müəyyən edilmişdi.[219]

Beynəlxalq təşkilatlar da yoxsulluqla mübarizəyə, iş yerləri yaradılmasına, özəl müəssisələr açılmasına kömək edirdilər. BMT İnkişaf Proqramı, Beynəlxalq Əmək Təşkilatı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ilə birlikdə iş yerləri açmaq üçün Naxçıvan MR, Ağdam və Salyan rayonlarında "Təhsil və Özünüməşğulluğun İnkişaf Proqramı"nı hazırlamışdılar. Salyan rayonunda kiçik sahibkarlığın inkişafı üzrə belə bir proqram həyata

keçirilmişdi.[220] Şahbuz rayonunun Badamlı kəndində "Mineral suların fərdi qaydada qablaşdırılması" ixtisası üzrə kurs təşkil olunmuş, sex açılmışdı. İslam İnkişaf Bankının vəsaiti ilə 10 rayonda insanları işlə təmin etmək üçün müəssisələr yaradılmışdı.[221] Qatar Əmirliyi Xeyriyyə Cəmiyyəti Qax rayonunda tikiş sexi təşkil etmişdi.[222] Avropa Birliyi Fermer təsərrüfatlarına kömək etmək üçün 1996-cı ilin əvvəllərində Avropa İttifaqı Partnyorluq Fondu yaratmışdı.[223] BMT İnkişaf Proqramı yoxsulluq səviyyəsi daha yüksək olan Naxçıvan MR-ə kömək etmək, iş yerləri açmaq üçün xüsusi proqram hazırlamış, bu məqsədlə 1200 min dollar vəsait ayırmışdı.[224]

Dövlət işsiz insanların, qaçqın və köçkünlərin xırda, səyyar ticarətlə məşğul olmaları üçün münasib imkanlar yaradır, yeni ticarət mərkəzləri, yarmarkalar açır, satış yerləri təşkil edirdi.[225]

Ölkədə iqtisadi tənəzzülün qarşısının alınması, istehsalın genişlənməsi, yeni müəssisələr, iş yerləri açılması, sosial inkişaf proqramları hazırlanması və həyata keçirilməyə başlanması yoxsulluğun aradan qaldırılması üçün imkanlar açırdı.

Əhalinin gəlirinin, alıcılıq qabiliyyətinin artması ticarətin, pullu xidmətlərin inkişafına səbəb olmuşdu. Ölkədə pərakəndə əmtəə dövriyyəsi 1995-2000-ci illərdə iki dəfədən çox artmış, əhaliyə 2000-ci ildə 10,6 trilyon manat mal (onun 68 faizi ərzaq, 32 faizi isə qeyri-ərzaq malları olub) satılmışdı.[226] Mal satışının 72 faizi yarmarka, bazar və küçələrdə, fiziki şəxslərin ticarət şəbəkəsində reallaşdırılmışdı. Bu illərdə əhaliyə göstərilən pullu xidmətlərin həcmi üç dəfəyə qədər artmış, 2000-ci ildə 2,4 trilyon manata çatmışdı. Yüzlərlə iri ticarət mərkəzi, məişət xidməti müəssisəsi təşkil olunmuşdu. "Sədərək" yarmarkasında, "Şərq bazarı" və başqa ticarət mərkəzlərində hər gün gur alver gedirdi. 2001-ci il avqustun 30-da Biləsuvarda iki qonşu dövlətin müştərək "Muğan" sərhəd bazarı açılmışdı.[228]

80-ci illərin axırları - 90-cı illərin əvvəllərində respublikanın yaşayış məntəqələri əvvəlki səliqə-sahmanını, yaraşığını itirməyə başlamışdı. Mitinqlər vaxtı, 1990-cı ilin Qanlı Yanvar günlərində sovet ordusu Bakıya və başqa yaşayış məntəqələrinə soxularkən çoxlu dağıntı törətmişdi.

Erməni işğalçıları Dağlıq Qarabağda, ona ətraf bölgələrdə 730 yaşayış məntəqəsini, o cümlədən Şuşa, Laçın, Xocalı, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı və Zəngilanı ələ keçirib darmadağın etmiş, 102 mindən çox evi, o cümlədən əhalinin şəxsi istifadəsində olan 9099 min kv.m mənzil sahəsini, 4366 sosial obyekti qarət edərək söküb aparmış, yandırmışdılar. 800 km yol, 15 min km elektrik və qaz xətləri, 2300 km su-kommunikasiya sistemləri, 160 körpü bərbad hala salınmışdı.[229] Xəzər dənizi səviyyəsinin qalxması ilə əlaqədar sahildə yerləşən yaşayış məntəqələrini su basmışdı. Bakının gözəlliyi ilə məşhur Dənizkənarı parkında (Bulvar) aşağı yarus su altında qalmış, yaşıllıqlar məhv olmuşdu.

Şəhər və kəndlərdə mövcud ictimai nəqliyyat vasitələri tam köhnəlmişdi. Rayonlara qaz yanacağı verilməsi, demək olar ki, dayandırılmışdı. Əhaliyə su, elektrik enerjisi verilməsində tez-tez uzun fasilələr olurdu. İstirahət evləri, yataqxanalar qaçqın və köçkünlərlə dolu idi. Paytaxtda iki milyondan çox insan yaşayırdı.[230] Şəhər yaşayış məntəqələrində, əsasən Bakıda əhalinin sayının kəskin surətdə artması xidmət, təminat, sanitariya işlərini xeyli çətinləşdirmişdi. Mənzil fondu təmir olunmur, köhnə binalar sökülüb dağılırdı.

Bakının İçərişəhərində 100-dən çox abidə sökülüb məhv edilmişdi. Zığ qəsəbəsində XVIII əsr abidəsi həyətyanı sahəyə salınmışdı. Tovuz rayonunda XIX əsr memarlıq abidəsi şəxsi mülkiyyətə verilmişdi.[231]

Yeni yaşayış massivləri salınması işi dayandırılmışdı. İctimai mənzil tikintisi kəskin şəkildə azalmışdı. Dövlət mənzil fondunun özəlləşdirilməsinə başlanmışdı.

1991-2000-ci illərdə respublikada 10 milyon kv.m-dən artıq, o cümlədən əhalinin şəxsi vəsaiti hesabına 7,4 milyon kv.m ümumi sahəsi olan yaşayış evləri tikilmişdi.[232] Fərdi tikintilərin böyük əksəriyyəti layihəsiz, nizamsız aparılırdı. Bu, yaşayış məntəqələrinin memarlığını pozur, simasını pisləşdirirdi.

Heydər Əliyevin rəhbərliyə qayıtması ilə respublika əsl tikinti meydanına çevrildi. Şəhər və kəndlərin ən yaxşı yerlərində işgüzar adamlar müasir, milli və klassik üslublarda yaraşıqlı imarətlər ucaltmağa başladılar. "Xəzərinşaat", "Bayraqdar Holdinq", "Sarna" (İstanbul evləri), "Star", "Şibarra" və başqa xarici firmalar müasir tikinti texnologiyası ilə onlarla gözəl bina-ticarət mərkəzləri, yaşayış evləri, mehmanxanalar, mədəni-əyləncə mərkəzləri və s. inşa etdilər. Paytaxtda Beynəlxalq Bank və Milli Bank üçün yaraşıqlı göydələnlər, onlarla yeni çoxmərtəbəli bina tikilmişdi. "Naxçıvan" mehmanxanası yenidən qurulub "Həyat-Recensi-Naxçıvan" otelinə çevrilmişdi, onun yeni korpusu, "Avropa" oteli, "Azərturizm" şirkətinin "Bakı İstirahət Mərkəzi" və başqa ictimai mərkəzlər tikilib istifadəyə verilmişdi. "Super market"lər, ticarət mərkəzləri, yarmarkalar, məişət xidməti obyektləri yan-yana düzülmüşdü. Xüsusi "Ət və ət məhsulları bazarı" açılmışdı.[233] 2000-ci ildə professor Hacıbala Abutalıbov Şəhər İcra Hakimiyyəti başçısı təyin edildikdən sonra Bakıda abadlıq, təmizlik, yenidənqurma işləri xüsusən genişləndi. 2001-ci ilin əvvəllərində şəhərdə 25 mindən çox qanunsuz tikilmiş, paytaxtın simasını korlayan köşklər, çayxanalar və başqa tikililər söküldü.[234] Bakı milli, Şərq və müasir Avropa memarlığı ilə bəzənmiş unikal, modern bir şəhərə çevrildi.

Prezident əvvəllər bir çox işbazın müxtəlif yollarla ələ keçirdiyi ictimai binaların xalqa qaytarılmasına xüsusi diqqət yetirdi. Azərbaycan Musiqili Komediya Teatrının yararsız hala düşmüş köhnə binası yerində yeni teatr binası tikildi. Milli Akademik Dram Teatrının binası yenidən quruldu. İçərişəhərdə qədim

binalar, Dövlət Filarmoniyası, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti binaları və başqa qiymətli memarlıq abidələri təmir edilməsi planlaşdırıldı. Bakı Dənizkənarı parkı yenidən quruldu.[235] 1998-ci il dekabrın 29-da Prezidentin Fərmanı ilə ona Milli Park statusu verildi.[236] Hər il may ayının 10-u - Prezidentin anadan olduğu gün respublikanın hər yerində iməciliklər keçirilməsi, təmizlik, abadlıq, yaşıllaşdırma işləri aparılması ənənəsi yaranmışdı. Yaşayış məntəqələrində yaşıllıqlar, bağlar, parklar, istirahət sahələri salınırdı.[237]

Naxçıvanda "Heydər bulağı" kompleksi, Bakının Hövsan qəsəbəsində "Yeddi gözəl" fəvvarə bulaq kompleksi, Xırdalan-Binəqədi yolu üstə yeni bağ salınmışdı. 1997-ci ilin mayında Bakının 8-ci kilometr qəsəbəsində "Heydər Əliyev parkı" istifadəyə verildi. Nizami rayonunun Darvin küçəsində yeni park salındı. Respublikanın başqa yaşayış məntəqələrində də yeni bağ və parklar salınırdı.

2000-ci il noyabrın 25-də baş vermiş güclü zəlzələ Bakı və Sumqayıt şəhərlərində dağıntılar törətmişdi. Həyata keçirilən tədbirlər sayəsində qısa müddətdə bu təbii fəlakətin vurduğu ziyan aradan qaldırılmışdı.

Abşeron yarımadasının, xüsusən Bakı və Sumqayıtın su ilə təchizatını kəmiyyət və keyfiyyətcə yaxşılaşdırmaq üçün Dünya və Avropa banklarından 94 milyon dollar vəsait alınmış, İngiltərənin "Braun və Rut" şirkəti və başqa şirkətlərin iştirakı ilə əməli iş başlanmışdı.[238] Şəki şəhər əhalisini tələb olunan miqdarda, yüksək keyfiyyətli su ilə təmin etmək üçün Almaniya ilə saziş imzalandı, 4,5 milyon dollar kredit alındı və layihənin icrasına başlanıldı.[239] 1996-cı ildə dənizdəki quyulardan uzun müddət havaya sovrulan qazın tutulub sahilə ötürülməsi, qaz zavodunun yenidən qurulması əhalinin daxili imkanlar hesabına yanacaq qazı ilə təmin olunmasını yaxşılaşdırdı. 1998-1999-cu illərdə Qazıməmməd-Mingəçevir-Qazax, Quba-Qusar-Xaçmaz, Göyçay-Qəbələ, Xaldan-Şəki, Salyan-Astara istiqamətində 35 rayona kəmərlə qaz verilməsi bərpa olundu.[240]

Respublikada rabitə sisteminin inkişafı üçün uğurlu addımlar atıldı. ABŞ, Yaponiya, Böyük Britaniya, Türkiyə, Almaniya, İsrail, Cənubi Koreya, Çin və başqa ölkələrin qabaqcıl rabitə şirkətləri ilə əlaqələr yaradıldı. 1992 və 1995-ci illərdə Bakıda Beynəlxalq Telefon Stansiyaları quruldu və yerüstü stansiyalarla beynəlxalq əlaqə sisteminə qoşuldu. Respublika şəhərləri və rayonlarının əksəriyyətindən dünyanın bütün şəhərləri ilə avtomat telefon rabitəsi yaratmaq mümkün oldu. Köhnə telefon şəbəkəsi yenidən qurulmağa başlandı. 1996-cı ilin baharında Azərbaycan-Rusiya-İngiltərə "Azavrotel" birgə müəssisəsi Bakıda ən müasir elektron rəqəmli Avtomat Telefon Stansiyaları quraşdırdı. 1998-ci ildə 120 min abonentlik müasir elektron ATS-lər istifadəyə verildi. 2002-ci ildə Bakıda 30 min kanalı olan şəhərlərarası və beynəlxalq telefon stansiyası fəaliyyət göstərirdi.

Zaqatala, Balakən, Şəki, Bərdə və Qusar rayonlarında mərkəzi ATS-lər yenidən qurulub, müasir elektron cihazlarla təchiz olunmuşdu.[241]

Naxçıvan MR-də beynəlxalq telefon stansiyası işə düşdü, peyk rabitə sistemi yaradıldı. 100 km fiber-optik kabel xətti çəkildi. 1998-ci ildən muxtar respublikanın telefon şəbəkəsi Cənubi Koreyanın "DEU-Telekom" şirkətinin köməyi ilə tam yenidən qurulmağabaşlandı. 1999-cu ildə Naxçıvan tam elektron rabitə sisteminə keçdi. Rabitə blokadası aradan qaldırıldı. Gəncə, Sumqayıt və başqa şəhərlərdə müasir Avtomat Telefon Stansiyaları quraşdırıldı. Mingəçevir, Dəvəçi, Oğuz, Qax, Yevlax, Quba, Siyəzən və başqa rayonlar telefon rabitəsi ilə tam təmin olundular.[242]

Azərbaycan Respublikası Rabitə Nazirliyi İsrailin "STİV" Firması ilə "Baksell" adlı birgə müəssisə yaradıb mobil telefonlar şəbəkəsi qurdu. İnsanların məişətinə mobil telefonlar geniş daxil olmağa başladı. Ölkədə "Peycer" rabitə sistemi təşkil edildi.[243]

1996-cı ilin axırlarında Rabitə Nazirliyi və "Türk-Sell" firması "Azərsell" adlı birgə müəssisə yaradıb daha təkmil, beynəlxalq şəbəkəyə qoşula bilən sellülyar rabitə sistemi qurdu.[244] 2000-ci ildə "Azərsell"in respublikanın, demək olar ki, bütün ərazisini (93 faizini) əhatə edən 4 əsas və 250 yardımçı stansiyası vardı. Bu şəbəkə 740 min abonentə xidmət edirdi.[245]

XXI əsrin əvvəllərində respublikada hər yüz ailədən 46-da telefon vardı. Hər yüz min nəfərə 4625 mobil telefon, hər yüz nəfərə 9 şəbəkə telefonu düşürdü.[246]

2000-ci ildə 20 dövlətin ərazisindən keçərək Frankfurtdan Şanxaya uzanan 24 min km Trans Asiya-Avropa (TEA) fiber-optik kabel xəttinin Azərbaycandan keçən hissəsinin çəkilişi başa çatdı. TEA-nın tam istifadəyə verilməsi telefon rabitəsi keyfiyyətini yüksək səviyyəyə qaldırdı. Bu magistral üstündə yerləşən 24 şəhər, habelə "Azərsell-Telekom" Birgə Müəssisəsi vasitəsi ilə başqa 8 rayon mərkəzi bu xəttə qoşuldu.[247]

Nəqliyyat vasitələrinin işi də xeyli yaxşılaşmışdı. 1995-ci ildə Naxçıvan hava limanında ağıryüklü təyyarələrin enməsi üçün müasir uçuş-enmə zolağı istifadəyə verildi. 1996-cı ildə Gəncə hava limanı bərpa edildi, yenidən quruldu və beynəlxalq hava limanı statusu aldı.

Bakı Binə Beynəlxalq hava limanının tikintisi sürətləndirildi və istifadəyə verildi. Burada yeni, müasir uçuş-enmə zolağı salındı. 2002-ci ildə Naxçıvan hava limanı beynəlxalq stansiyalar səviyyəsində yenidən qurulmağa başlandı. Bakı, Naxçıvan və Gəncə şəhərlərindən dünyanın müxtəlif ölkələrinə hava yolları açıldı.[248]

Naxçıvanda (1992-ci il), Sabirabadda (1996-cı il), Şəkidə (1996-cı il), Göyçayda (2002-ci il) böyük körpülər tikilib istifadəyə verildi.[249]

1996-cı ilin axırlarında Bakı-Horadiz və Bakı-Ağstafa firma sürət qatarları işə düşdü. Bakı şəhərətrafı elektrik qatarlarının lokomotiv briqadasına icarəyə verilməsi xidmətin xeyli yaxşılaşmasına səbəb oldu.[250]

Respublikanın yaşayış məntəqələrində yeni "Mersedes", "Hunday", "Otoyol" və digər xarici markalı avtobuslar işləməyə başladı. Yollarda müxtəlif marşrutlar üzrə daha münasib müasir mikroavtobuslar işləyirdi. Sərnişindaşıma sahəsində xarici şirkətlərlə birgə müəssisələr yaradılması səmərəli idi. 2000-ci ildə sərnişin daşımalarının 83,5, yük daşımalarının isə 54,6 faizi özəl bölmənin nəqliyyat vasitələri ilə həyata keçirilirdi.[251] 1998-ci ildə Bakıda sutkada 22 min sərnişinə xidmət edə bilən yeni, müasir avtovağzalın birinci hissəsi istifadəyə verildi.[252] 2002-ci ilin dekabr ayında Bakı metrosunun "Həzi Aslanov" stansiyası işə düşdü.

Şəxsi nəqliyyat vasitələri də çoxalmışdı. "Mersedes", "Toyota" və başqa xarici markalı bahalı minik avtomobillərinin sayı getdikcə artırdı. Respublikada 2000-ci ildə 441 mindən çox, o cümlədən Bakıda 130 min minik və yük maşını vardı. Respublikada hər 100 ailəyə 21 minik maşını düşürdü.[253] Şəhərlərdə, şəhərlərarası magistralların kənarlarında yüzlərlə yaraşıqlı yanacaqdoldurma məntəqələri tikilmişdi.

1996-cı ildə respublikanın "İşğal olunmuş və Ziyan çəkmiş Ərazilərinin Bərpası və Yenidən qurulması üzrə Dövlət Komissiyası" yaradıldı. BMT-nin İnkişaf Proqramının təşəbbüsü ilə işğaldan azad olunmuş torpaqlarda bərpa işlərinə yardım göstərilməyə başlandı. Bu məqsədlə Beynəlxalq Şura, Bərpa Agentliyi təsis olundu.[254] Füzuli rayonunun Horadiz qəsəbəsi və işğaldan azad olunmuş 22 kəndin bərpasına başlandı. Horadizdə 150-dən çox ev bərpa edildi, 640 yerlik məktəb binası tikildi.[255] Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Federasiyası Füzuli rayonunda "Bərpa və Vətənə Qayıdış Proqramı" çərçivəsində 1999-2001-ci illərdə rayonun Şükürbəyli və Arxanlı kəndlərində dağılmış evləri bərpa etmiş və köçkün ailələrin geri qayıtması üçün şərait yaratmışdı.[256] Ağdamın 5 kənd xəstəxanasında əsaslı təmir və bərpa işləri aparılırdı, 11 kənddə 5 min yerlik məktəb binaları, 88 artezian quyusu bərpa olundu.[257]

Prezident Heydər Əliyevin 2001-ci il 22 avqust tarixli Fərmanında Ermənistan ərazisindəki tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli ilə bağlı konkret tədbirlər müəyyən olundu[258] və həyata keçirilməyə başlandı. 2001-ci il 7 sentyabr tarixli Fərmanında Prezident Ağdam və Füzuli rayonlarından olan məcburi köçkünlərin məskunlaşdırılması üçün Ağdam rayonu ərazisində 500, Füzuli rayonu ərazisində isə 800 ailəlik evlər tikilmiş qəsəbələr salınması haqqında göstərişlər verdi.[259] Dövlət Neft Fondu hesabına Goranboy, Abşeron, Şəmkir rayonlarında, Naxçıvanda qaçqınlar üçün

yeni qəsəbələr salındı. Goranboy rayonunun Aşağı Ağcakənd kəndi yanında qaçqınlar üçün salınan qəsəbə müasirliyi, səliqə-sahmanı ilə diqqəti cəlb edirdi.

Respublika Prezidentinin 2002-ci il 13 may tarixli Fərmanına əsasən Dövlət Neft Fondundan Biləsuvar rayonundakı beş çadır şəhərciyində yaşayan 3719 ailə üçün Füzuli və Biləsuvar rayonlarında 19 yeni qəsəbə salınmasına 192 milyard manat vəsait ayrıldı. Ağdamın Quzanlı kəndində 100 evlik qəsəbə istifadəyə verildi.[260]

Ağır iqtisadi şərait, məişət təminatsızlığı, pərakəndə ticarətin, sanitariya və kommunal xidmətlərin təşkilinə lazımi diqqət verilməməsi bir çox yaşayış məntəqələrində, qaçqın və köçkünlərin müvəqqəti məskunlaşdığı yerlərdə, xüsusən çadır şəhərciklərində, vağzalların, metro stansiyalarına girişlərin, bazarların ətrafında yaranmış qeyri-rəsmi alver yerlərində, yarmarkalarda, "tolkuçkalar"da, sallaqxanalarda antisanitar vəziyyət yaranmasına səbəb olur, yoluxucu xəstəliklərin kütləvi yayılma təhlükəsi meydana çıxırdı.[261]

Erməni işğalçıları ələ keçirdikləri ərazilərdə tibb müəssisələrini də dağıtmış, qarət etmişdilər.[262]

2000-ci ildə respublikada 735 xəstəxana, 1614 ambulatoriya, poliklinika, 913 qadın məsləhətxanası, uşaq ambulatoriya və poliklinikası vardı. Tibbi xidmət müəssisələrində 29 min həkim, 60 minə qədər orta tibb işçisi çalışırdı. Əhalinin hər on min nəfərinə 88 xəstəxana çarpayısı düşürdü.[263]

Səhiyyə müəssisələrinin, xüsusən xəstəxana və ambulatoriyaların təsərrüfat hesabına keçməsi, dərmanların baha olması orta təbəqəsi zəif olan cəmiyyətdə əhalinin böyük əksəriyyətini çətinliklər qarşısında qoymuşdu. Xəstəxanada müalicə olunanların sayı kəskin azalmışdı.[264] 1994-cü ildə difteriya, 1996-cı ildə cənub bölgələrində qotur və başqa xəstəliklər qorxulu şəkildə yayılırdı. "Ümumdünya Səhiyyə Təşkilatı", "Sərhədsiz Həkimlər Təşkilatı", "Rilif İnterneyşnl", "Ekvilbr" təşkilatları, YUNİSEF, Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası kimi beynəlxalq humanitar təşkilatların yaxından köməyi ilə 1995-1997-ci illərdə respublikada yoluxucu xəstəliklərə qarşı mübarizə kompaniyaları keçirildi, əhalinin, xüsusən uşaqların difteriyaya qarşı kütləvi peyvənd olunması təşkil edildi. 1996-cı ilin aprelində respublikada vərəm xəstəliyinə qarşı mübarizə aylığı keçirildi. 1994-1997-ci illərdə ABŞ-ın AMOKO şirkəti ilə "Amerikeəz" Xeyriyyə Cəmiyyəti Naxçıvan MR-də yoluxucu xəstəliklərə qarşı planlı "Soyuq zəncir" adlı immunlaşdırma proqramı həyata keçirdilər.[265] 1997-ci ildə Yaponiya hökuməti respublikaya vərəm və tənəffüs yolları xəstəliklərinə qarşı elmi-tədqiqat işləri üçün 1,5 milyon dollar qiyməti olan xüsusi avadanlıq bağışladı. Həmin il Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının yaxından köməyi ilə malyariyaya qarşı mübarizə kompaniyası keçirilmişdi. ABŞ Xəstəliklərə Nəzarət Mərkəzi, YUNİSEF və başqa beynəlxalq səhiyyə təşkilatları köçkünlərin

məskunlaşdığı çadır şəhərciklərində sanitariya vəziyyətinin yaxşılaşdırılmasında, xəstəliklərə qarşı mübarizənin təşkilində fəal iştirak etdilər. 1995-ci ildə Beynəlxalq Qızıl Xaç Cəmiyyətinin köməyi ilə Bakıda Ortopediya Mərkəzi və Ortopedik Emalatxana yaradıldı.[266] 1996-cı ildən ABŞ-ın özəl, könüllü AMKOP təşkilatı Abşeronda 8 tibb məntəqəsi açıb minlərlə qaçqın və köçkünə səhiyyə xidməti göstərirdi.[267]

1997-ci ilin sentyabrında ABŞ Dövlət Departamentinin təşəbbüsü ilə Azərbaycana 1,2 milyon dollar dəyərində dərman preparatları göndərildi.[268] Həmin il Böyük Britaniya "Uşaqlara birbaşa yardım" beynəlxalq humanitar təşkilatı məcburi köçkünlər üçün 7 tibb məntəqəsi təşkil etdi.[269] 1998-ci ilin yanvarında ABŞ dövləti "Ümid" proqramı çərçivəsində Azərbaycana 2 milyon dollar dəyərində humanitar yardım göndərdi.[270]

Azərbaycan Avropada "polimelit" uşaq xəstəliyinin ən çox yayıldığı ölkə idi. Bu ağır xəstəliyə qarşı mübarizəni səmərəli təşkil etmək üçün vəsait çatışmırdı. 1995-1996-cı illərdə Ümumdünya Səhiyyə Təşkilatı və YUNİSEF-in köməyi ilə respublikada polimelitə qarşı xüsusi əməliyyat keçirildi, uşaqların, demək olar ki, hamısı peyvənd olundu. Artıq 1997-ci ildə ölkədə difteriya dörd dəfə azalmış, polimelit isə tamamilə yox olmuşdu.[271] Dünya Səhiyyə Təşkilatı və Azərbaycan Səhiyyə Nazirliyi 2001-ci ilin oktyabr ayında respublikada ilk dəfə yeni doğulmuş uşaqlarda hepatit "V" virusuna qarşı peyvənd kompaniyası keçirdi.[272]

Dövlət respublikada səhiyyə işini yenidən qurmaq, əhalinin sağlamlığını qorumaq sahəsində mühüm addımlar atdı. 1996-cı ilin iyununda Prezident ölkədə sanitariya vəziyyətinin yaxşılaşdırılması haqqında təşkilatlara ciddi tapşırıqlar verdi. 1996-cı ilin sentyabrında "İnsanın immunçatışmazlıq virusunun törətdiyi xəstəliyin (AİDS) yayılması qarşısının alınması haqqında" Qanun qəbul olundu.[273] "Əhalinin sağlamlığının qorunması haqqında" Qanun hazırlandı və 1997-ci ilin martında qəbul edildi. "Səhiyyə təşkilatlarının özünümaliyyələşdirmə sisteminə keçməsi haqqında" xüsusi proqram hazırlandı və həyata keçirilməyə başlandı. Burada müasir avadanlıqla təchiz olunmuş dövlət tibb müəssisələrində pullu xidmətə keçmək, təsərrüfat hesabı ilə işləyən səhiyyə təşkilatlarının sayını artırmaq, xarici investisiya cəlb etməklə birgə tibb müəssisələri yaratmaq və tibb sığortasını geniş tətbiq etmək nəzərdə tutulurdu.[274] 2003-cü ilin əvvəllərində 414 tibb müəssisəsi əhaliyə pullu xidmət göstərirdi.[275] Respublika Diaqnostika Mərkəzi, Nüvə-Maqnit Rezonans Mərkəzi, Respublika təsərrüfathesablı Uroloji Xəstəxanası, Bakı Şəhər Diabetoloji Mərkəzi, 39 stomatoloji xidmət göstərən poliklinika bu sistemə keçmişdi. Bəzi tibb ocaqlarında - Bakı 1 saylı kliniki xəstəxanada, Şəmkir, Tovuz, Yevlax mərkəzi rayon xəstəxanalarında, Gəncə və Əli Bayramlı xəstəxanalarında təsərrüfathesablı şöbə və bölmələr yaradılmışdı. Bakıda və 14 rayonda sürücüləri tibbi müayinədən keçirən komissiyalar da bu

sistemə keçmişdi. Bir sıra tibb müəssisələri müasir standartlar əsasında təmir və təchiz edilmişdi.[276] Dünyada geniş yayılmış, sərfəli olan sığorta təbabəti sisteminin respublikada tətbiq olunması istiqamətində hazırlıq işlərinə başlanıldı. YUNİSEF-in hazırladığı "Səhiyyə islahatı layihəsi" üzrə və onun maliyyə yardımı ilə Quba və Masallı rayonlarında səhiyyə islahatı həyata keçirilirdi.[277] İlk özəl tibb müəssisələri, təcili tibbi yardım xidməti, poliklinikalar təşkil edilmişdi. "Özəl tibb fəaliyyəti haqqında" Qanun qəbul olunmuşdu. Stasionar tipli "Əfsanə" müalicə-diaqnostika mərkəzi, "Nord Star" doğum evi, "Ekzimer-Lazer Mərkəzi", "Medikalseptr" Türk-Amerika tibb müəssisəsi, "Medservis", "Mediklub" özəl tibb ocaqları əhaliyə müasir texnologiyalar üzrə keyfiyyətli tibbi xidmət göstərməyə başladılar.[278]

1999-cu ildə "Tibbi sığorta haqqında" Qanun qəbul edildi. Respublikada 10-dan çox könüllü tibbi sığorta kompaniyası fəaliyyət göstərirdi.[279]

Respublikanın idman həyatında da böyük canlanma vardı. 2001-ci ilin martında Azərbaycan Milli Olimpiya Komitəsi təşkil olundu. Bu komitə 1993-cü ilin sentyabrında Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanındı. 1997-ci il iyulun 31-də İlham Əliyev Milli Olimpiya Komitəsinə prezident seçildikdən sonra bu təşkilatın işi yenidən quruldu və daha da canlandı.[280]

Respublikada idmanla fəal məşğul olanların sayı 355 min nəfərdən çox idi. Burada 78 idman klubu və cəmiyyəti, 7908 idman qurğusu, 300-dən çox uşaq-gənclər idman, 36 şahmat məktəbi fəaliyyət göstərirdi.[281] Respublika stadionu təmir edilmiş, beynəlxalq yarışlar keçirilməsinə münasib imkanlar yaratmaq üçün yenidən qurulmağa başlanmışdı.[282] Suraxanıda "Neftçi" İdman-Sağlamlıq Mərkəzinin Olimpiya bazası açılmışdı. 2001-ci ilin oktyabr ayında Maştağada müasir yüksək standartlar əsasında inşa olunmuş "Olimpiya İdman Kompleksi" istifadəyə verilmişdi. 2002-ci ildə Naxçıvan, Gəncə, Şəki və Bərdə Olimpiya İdman Kompleksləri tikildi.

Hər il idmanın müxtəlif növləri üzrə respublika çempionatları keçirilirdi.

Azərbaycan idmançıları beynəlxalq idman yarışlarında uğurlar qazanırdılar. 1996-cı ildə Azərbaycan idmançıları XXVI Yay Olimpiya Oyunlarında ilk dəfə müstəqil respublikanı təmsil etdilər. Azərbaycan komandası olimpiya oyunlarında iştirak edən 197 komanda arasında 48-ci yerə çıxdı. Güləş ustası Natiq Abdullayev olimpiyanın gümüş medalını qazandı. Müxtəlif beynəlxalq yarışlarda N.Abdullayev (güləş), C.Məmmədov (sambo), Z.Hüseynova (sambo), M.Abdullayev (güləş), F.Musayev (karate-do), R.Tağıyev (kinq-boksinq), T.Zahidov (Yunan-Roma güləşi), İ.Qədimova (şahmat) və başqaları dəfələrlə dünya çempionu adına layiq görülmüşdülər.[283]

1998-ci ildə Teymur Rəcəbli yeniyetmə şahmatçıların dünya çempionatında birinci yeri tutmuşdu.[284] O, dünyanın ən gənc qrossmeysteri idi. 15 yaşlı bu

şahmatçı 2002-ci ilin sentyabrında Moskvada dünya yığma komandası ilə Rusiya yığma komandası arasında keçirilmiş "Əsrin görüşü"ndə dəfələrlə dünya çempionu olmuş Anatoli Karpova qalib gəlmişdi.[285]

Respublika idmançılarının XXVII Yay Olimpiya Oyunlarına ciddi hazırlığı başlanmışdı. Prezident Heydər Əliyev bu barədə xüsusi sərəncam vermişdi. Milli Olimpiya Komitəsi ən perspektivli 38 idmançı və onların məşqçiləri üçün xüsusi təqaüd təsis etmişdi.[286] İdmanın on növü üzrə gərgin yarışlarda ölkənin 31 idmançısı Olimpiya Oyunlarında iştirak etmək hüququ (lisenziya) qazandı. 2000-ci ilin sentyabr ayında Sidneydə keçirilən XXVII Yay Olimpiya Oyunlarında Zemfira Meftahətdinova (stend atıcılığı) və Natiq Abdullayev (güləş) qızıl, Vüqar Ələkbərov (boks) isə bürünc medal qazandılar. Respublikanın idman komandası 198 komanda arasında 34-cü yerə çıxdı.[287] Olimpiya çempionları üçün 2002-ci il oktyabrın 10-da Azərbaycan Prezidentinin xüsusi Olimpiya təqaüdü təsis edilmişdi.[288]

Azərbaycanda ilk dəfə iri beynəlxalq turnirlər, o cümlədən Avropa çempionatları keçirilməyə başlandı. 2001-ci ilin oktyabr ayında boks üzrə yeniyetmələr arasında ilk dünya çempionatı Bakıda keçirildi. Azərbaycan komandası 27 komanda arasında Rusiyadan sonra ikinci yeri tutdu. Azərbaycanlı boksçular 2 qızıl, 4 gümüş medal qazandılar.[289]

2002-ci ilin martında Azərbaycanın "Azərreyl" qadın voleybol klubu Avropa "Top-komanda" kuboku uğrunda yarışlarda parlaq qələbə qazandı. 2002-ci ilin dekabrında bu klub Avropanın ən güclü idman kollektivlərindən olan İtaliyanın "Volley" klubuna qalib gəldi.[290] 2002-ci il may ayının 2-4-də Bakıda sərbəst güləş üzrə 45-ci Avropa çempionatı keçirildi. Qitənin ən güclü pəhləvanları buraya gəldilər. Yarışlarda Azərbaycan pəhləvanları Nazim Əlicanov qızıl, Elman Əsgərov gümüş, Arif Abdullayev bürünc medal qazanaraq Avropa çempionu oldular.[291] Həmin il mayın 7-12-də Avropa Həndbol Federasiyasının "Çağırış kuboku" uğrunda Avropa turniri Bakıda təşkil olundu. Azərbaycan komandası ən yüksək göstəriciyə nail oldu.[292] İyul ayında Bakıda 20 yaşınadək şahmatçıların Avropa çempionatı keçirildi. Burada 16 ölkədən 64 şahmatçı iştirak edirdi. Azərbaycan idmançısı Zeynəb Məmmədyarova Avropa çempionu adını qazandı. Vüqar Həsənov gümüş, Şəhriyar Məmmədyarov bürünc medallara sahib oldular.[293] 2002-ci ilin sentyabrında cüdo üzro XXVI Beynəlxalq Bakı turniri keçirildi. Azərbaycan idmançıları Elçin Arzumanov, Şahin İsmayılov və Aynurə Əhmədova ən yüksək göstəricilər əldə etdilər.[294] Həmin ilin dekabr ayında ağırlıqqaldırma üzrə Varşavada keçirilən dünya çempionatında Nizami Paşayev qızıl medal qazandı.[295] Ümumiyyətlə, 1997-2002-ci illərdə Azərbaycan idmançıları müxtəlif yarışlardan Vətənə 800-dən çox, o cümlədən 300-dən çox qızıl medalla qayıtmışdılar. Uğurlar əsasən fərdi idman növlərində - Yunan-Roma güləşi, sərbəst

güləş, cüdo, boks, ağır atletika, qılıncoynatma və karatedə qazanılmışdı. İdmançılar voleybol, otüstü xokkey, həndbol və şahmat kimi komanda yarışlarında daha çox fərqlənirdilər.[296]

Respublikada turizmin inkişafına diqqət artırılmışdı. Azərbaycan 2001-ci ildə Ümumdünya Turist Təşkilatına üzv oldu. "2002-2005-ci illərdə Azərbaycanda turizmin inkişafı üzrə Dövlət Proqramı" qəbul edilmişdi. Buna müvafiq olaraq turizmə investisiya layihələri hazırlanmağa başlanmışdı. Azərbaycan Beynəlxalq və Avropa Turist Birliklərinə inteqrasiya edirdi. 2002-ci ilin noyabr ayında respublika ilk dəfə ənənəvi Ümumdünya Turizm Yarmarkasının (Londonda) iştirakçısı oldu və bu sahədəki geniş imkanlarını nümayiş etdirdi.

Keçid dövrünün çətinliklərinə, müharibədə itkilərə, qaçqınlıq və köçkünlük həyatının ağırlıqlarına baxmayaraq, respublikada əhalinin sayı getdikcə artırdı. 2001-ci ilin əvvəllərində Azərbaycanda əhalinin sayı 8 milyon 81 min nəfərə çatmışdı. Əhalinin 1999-cu ildə aparılmış siyahıya alınmasına əsasən burada 7,2 milyondan çox azərbaycanlı, 178 min ləzgi, 142 minə qədər rus, 120,7 minə qədər erməni, 76,8 min talış, 51 minə qədər avar, 30 min tatar, 29 min ukraynalı, 16 minə qədər saxur, 15 min gürcü, 13 min kürd, 10 min tat, 9 min yəhudi, 4 mindən çox udin və digər millətlərdən olan insan yaşayırdı.[297]

2002-ci ildə respublikada əhalinin sayı 8202,5 min nəfər təşkil etmişdir. Onun 49,1 faizini kişilər, 50,9 faizini qadınlar təşkil edirdi. Əhalinin 50,7 faizə qədəri şəhərlərdə yaşayırdı. İnsanların 59 faizi əmək qabiliyyətli yaşda idi. İqtisadi fəal əhalinin sayı 3,7 milyon nəfəri ötürdü.[298]

IV FƏSİL

# MƏDƏNİYYƏT

## §1. MAARİF

**Təhsil.** Azərbaycan məktəbi keçid dövrünü yaşayırdı. İqtisadi, siyasi və mənəvi həyatdakı ziddiyyətlər onu böyük çətinliklər qarşısında qoymuşdu. Maarifə kifayət qədər vəsait ayırmaq hələ mümkün deyildi. Məktəblərin maddi bazası zəifləyirdi. Yüzlərlə maarif müəssisəsi, o cümlədən 855 məktəbəqədər uşaq müəssisəsi, 693 ümumtəhsil məktəbi, 85 musiqi məktəbi, 4 texnikum və 1 ali məktəb binası düşmən əlinə keçmiş, qarət edilmiş, dağıdılmışdı.[1] 90-cı illərin əvvəllərində nəzarətsizlik üzündən bir çox məktəb binaları, sinif otaqları "zirək" işbazların əlinə keçmiş və başqa məqsədlər üçün istifadə olunurdu. Maddi vəziyyəti ağır olduğundan minlərlə müəllim maarif sistemini tərk etmişdi.[2]

Müstəqil Azərbaycan Respublikası öz maarif sistemini yaratmalı, məktəb hakim-amirlik ideologiyası təzyiqindən xilas olmalı idi. Milli təhsil konsepsiyası həyata keçirilməyə başlandı. 1998-ci il martın 30-da Prezident Heydər Əliyevin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu. Dünya Bankı, milli və xarici ekspertlərin köməyi ilə Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı və Prezident tərəfindən 1999-cu il iyunun 15-də təsdiq edildi.[3] Proqramda Azərbaycan milli təhsil sisteminin strategiyası və konsepsiyası müəyyənləşdirildi. Burada təhsilin idarə edilməsində yeni prinsiplərin bərqərar olunması, təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı şəkildə təkmilləşdirilməsi nəzərdə tutulurdu. Dünya Bankı bu proqramın həyata keçirilməsinə kömək üçün 35 ilə 5 milyon dollar həcmində kredit ayırdı. Uşaq və gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsinin vasitə və yollarını müəyyənləşdirən "2000-2005-ci illərdə Azərbaycan Respublikasının Təhsil Sistemində Tərbiyə Proqramı" hazırlandı və həyata keçirilməyə başlandı.[4]

Prezident Heydər Əliyev 2000-ci il iyunun 13-də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman verdi.[5] Təlim-tərbiyə proseslərinin keyfiyyətcə yeniləşdirilməsini gücləndirmək üçün mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq, bütün təhsil müəssisələrinə tədris-metodik rəhbərlik, ayrı-ayrı dövlət qurumlarına məxsus təhsil müəssisələrinin (Müdafiə və Milli Təhlükəsizlik nazirlikləri müəssisələrindən başqa) tabeçiliyi Təhsil Nazirliyinə verildi. Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu və onun regionlarda filialları yaradıldı. Təhsil

Problemləri üzrə Respublika Elmi-Metodik Mərkəzi ilə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji İnstitutu bazasında Təhsil Problemləri İnstitutu, təsərrüfathesablı Təhsil Texnologiyaları Mərkəzi təşkil olundu.[6]

2000-ci ildə respublikada 111 min uşağı əhatə edən 1790 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi.[7] 2000-ci ilin noyabr ayında Bakının Əhmədli qəsəbəsində Beynəlxalq "Sos Kinderdof İnternational" təşkilatı tərəfindən yaradılmış 12 evdən ibarət uşaq kəndi istifadəyə verildi. Bu, 1999-cu ildə təşkil olunmuş "Sos Uşaq Kəndləri Azərbaycan Assosiasiyası"nın (prezidenti Sevil Əliyeva) səmərəli fəaliyyətinin nəticəsi idi.[8] Respublikada 367 məktəbdənkənar müəssisə vardı. Onlarda 310 mindən çox şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdu.[9]

Məktəb sovet təhsil sisteminin müsbət ənənələrini qoruyub saxlamaqla bərabər, onu müasir Avropa texnologiyası ilə zənginləşdirməyə başladı. 40-dan çox xarici ölkənin, o cümlədən ABŞ, Böyük Britaniya, Almaniya, Yaponiya, Türkiyə və İsrailin təhsil sistemi, təlim texnologiyaları, idarəetmə modelləri öyrənildi və nəzərə alınmağa başlandı.[10] Bir çox xarici ölkələrlə birbaşa təhsil əlaqələri, şagird və tələbə mübadiləsi yaradıldı.[11]

Azərbaycan Respublikası ali təhsil sahəsində təhsil sənədlərinin və elmi dərəcələrin tanınması ilə bağlı YUNESKO-nun 1979-cu il Paris Konvensiyasına, 1983-cü il Banqkok Regional Konvensiyasına, habelə Avropa regionunda ali təhsil sahəsində ixtisasların tanınması haqqında 1997-ci il Lissabon Konvensiyasına qoşuldu. Azərbaycan təhsil sistemi YUNESKO, YUNİSEF, YNEVOK, İSESKO, Avropa Təhsil Fondu, Avropa Şurası, Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatların təhsil proqramları ilə məşğul olan qurumlarla Açıq Cəmiyyət İnstitutu (SOROS Fondu) və başqa qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edirdi. Hər il yüzə yaxın təhsil işçisi Soros Fondunun dəstəyi ilə müasir tədris texnologiyaları ilə tanış olmaq üçün xarici ölkələrə ezam olunurdu. 1998-ci ildən respublikada fondun "Addım-addım", "İngilis dili", "Debat", "Vətəndaş təhsili" (1999-cu ildən) proqramları fəaliyyət göstərirdi. Azərbaycanın ali məktəbləri Avropa İttifaqının maliyyələşdirdiyi TEMPUS/TASİS proqramına cəlb olunmuşdu. 2003-cü ilədək bu proqram çərçivəsində respublikanın ali məktəblərinə göstərilən maliyyə-texniki yardım 3370000 avro təşkil edirdi.[12]

Orta məktəblər üçün orijinal dərsliklər, yeni dərs vəsaitləri, fənn proqramları hazırlandı.[13] Alim və pedaqoqların səyi sayəsində qısa müddətdə ümumtəhsil məktəbləri üçün yeni "Azərbaycan tarixi", "Ədəbiyyat", "Azərbaycan dili", "Coğrafiya" və digər bir çox dərslik çap olundu. Ali məktəblər üçün ilk dəfə "Azərbaycan tarixi" dərslikləri hazırlandı. Təbiət elmləri üzrə bir sıra yeni dərsliklər nəşr edildi. Dərsliklərin və dərs vəsaitlərinin formaca müasir Avropa standartlarına uyğunlaşdırılmasına diqqət yetirildi.[14]

2000-2001-ci dərs ilində respublikada 4548 dövlət gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 1 milyon 654 min şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə 165 min müəllim məşğul olurdu.[15] Ümumtəhsil məktəbləri sistemində də dəyişikliklər baş vermişdi. Liseylər, gimnaziyalar yaradılmışdı. Xüsusi istedada malik uşaqlar üçün təmayülləşdirilmiş 225 məktəb (onlardan 7-si gimnaziya və 33-ü lisey) fəaliyyət göstərirdi. Bu məktəblərdə 84 min şagird təhsil alırdı.[16] Bakıda özəl Türkiyə liseyləri, o cümlədən "Atatürk" liseyi, "Bakı Türk liseyi", T.Ozal adına Bakı və Sumqayıt Türk liseyləri və bir neçə rayonda onların filialları təşkil olunmuşdu. 2001-ci ilin sentyabr ayında Azərbaycanda ilk Bakı özəl ümumtəhsil kompleksi fəaliyyətə başladı.[17]

Respublikada 18 minə qədər uşağın təhsil aldığı 38 ümumtipli internat fəaliyyət göstərirdi.[18] 1998-ci ildə C.Naxçıvanski adına Respublika Orta Hərbi İnternat Məktəbinin Naxçıvan filialı təsis edildi.

2002-ci il oktyabrın 4-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" Fərman verdi. 2003-2007-ci illərdə məktəb tikintisi, təmiri, məktəblərin müasir tədris avadanlığı ilə təchizi üçün konkret tədbirlər görülməyə başlandı.[20]

90-cı illərin birinci yarısında orta ixtisas məktəblərində tələbələrin sayı iki dəfə azalıb 30 min nəfərə, texniki peşə məktəblərində şagirdlərin sayı iki dəfə azalıb 43 min nəfərə enmişdi. 2000-2001-ci illərdə respublikanın 68 (4-ü özəl) orta ixtisas məktəbində 41,2 minə qədər tələbə təhsil alırdı. Onların təlim-tərbiyəsi ilə 8,3 min nəfərə qədər müəllim məşğul olurdu. 109 peşə təhsili müəssisəsində (47 peşə liseyi və 62 peşə məktəbi) 25 min şagird 115 növ peşəyə yiyələnirdi.[22]

Respublikanın texnikumlar şəbəkəsi yenidən qurulur, kolleclər yaradılırdı. 2002-ci ilin avqustunda Bakı Kommersiya, İnşaat, Əli Bayramlı Sənaye, Ağdam, Gəncə, Şamaxı, Lənkəran, Şuşa Kənd Təsərrüfatı texnikumları ləğv edildi. Bakı Dövlət İqtisadiyyat və Humanitar (Bakı Plan-Uçot Texnikumu bazasında), Bakı Dövlət Sosial-İqtisad (Bakı Plan-İqtisad Texnikumu bazasında), Bakı Dövlət Rabitə və Nəqliyyat (Bakı Rabitə Kolleci və Dəmir Yolu Nəqliyyatı texnikumları bazasında) kollecləri təşkil edildi. Yerlərdə ləğv edilmiş texnikumların bazasında Sumqayıt Dövlət Texniki, Sabirabad, Ağdam, Quba, Şamaxı, Tovuz və Qazax Dövlət Sosial-İqtisad, Lənkəran, Ağdaş Dövlət Humanitar, Göyçay, Bərdə və Zaqatala Dövlət İdarəetmə və Texnologiya, Naxçıvan və Şəki Dövlət Texniki kollecləri yaradıldı.[23]

Maarifin təşkilində mühüm yenilik 1992-ci ildən ali və orta ixtisas məktəblərinə qəbulun test üsulu ilə aparılmasının tətbiqi olmuşdu. Ən ümdə məqsəd qəbul zamanı qeyri-obyektivliyin, mənfi halların qarşısını almaq idi. Qəbul

sistemi getdikcə təkmilləşir, abituriyentlərin biliyini aşkara çıxarmağa imkan verən müasir vasitələr tətbiq olunurdu.[24]

1993-cü ildən respublikanın ali məktəblərində (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərdən başqa) çoxpilləli ali təhsil - dördillik bakalavr və ikiillik magistratura sistemi tətbiq olunmağa başlandı. 1997-ci ildə magistraturalara ilk qəbul keçirildi.[25]

Azərbaycan Xalq Təsərrüfatını İdarəetmə İnstitutu, Lənkəran Dövlət Universiteti fəaliyyətə başlamışdı. Azərbaycan Dövlət Neft-Kimya İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, Azərbaycan Dövlət Konservatoriyası təhsil akademiyalarına çevrilmişdi. 1996-cı ildə Bakı Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası yaradılmış, Polis Məktəbi Polis Akademiyası adlandırılmışdı. Bakıdakı Azərbaycan Dövlət Pedaqoji İnstitutu - Pedaqoji Universitet, Politexnik İnstitutu - Texniki Universitet, Tibb İnstitutu - Tibb Universiteti, Bakı Ali Partiya Məktəbi - Sosial İdarəetmə və Politologiya İnstitutu kimi yenidən quruldu. 1999-cu ildə Sosial İdarəetmə və Politologiya İnstitutu bazasında Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası təşkil olundu. 1998-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası təsis edildi.[26] Mülki Təyyarəçilik Akademiyası fəaliyyət göstərirdi. 2001-ci ildə Azərbaycan Milli Konservatoriyası fəaliyyətə başladı.

Respublika Prezidentinin 2000-ci il iyunun 13-də verdiyi Fərmana əsasən təhsil sistemində aparıcı mövqeyi və beynəlxalq aləmdə real nüfuzu olan Bakı Dövlət Universitetinə, Azərbaycan Dövlət Neft Akademiyasına və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına özünüidarəetmə və maliyyə müstəqilliyi statusu verildi.[27] 2002-ci ilin iyun ayında belə status Naxçıvan Dövlət Universitetinə də verildi. 2002-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutu, Bakı Əmtəəşünaslıq Kommersiya İnstitutu, Azərbaycan Kooperasiya İnstitutunun və Bakı Kooperativ Texnikumunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradıldı. Azərbaycan İnşaat Mühəndisləri Universiteti Azərbaycan Memarlıq və İnşaat Universiteti adlandırıldı. Azərbaycan Sənaye İnstitutu bazasında Sumqayıt Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunun profili genişləndirilərək Bakı Slavyan Universiteti, Gəncə Dövlət Pedaqoji Universitetinin profili genişləndirilərək Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Dillər İnstitutunun profili genişləndirilərək Azərbaycan Dövlət Dillər Universiteti, Azərbaycan Texnologiya İnstitutunun profili genişləndirilərək Azərbaycan Texnologiya Universiteti adlandırıldı. Azərbaycan Rəssamlıq Akademiyası və onun nəzdində İncəsənət Kolleci (Azərbaycan Dövlət Rəssamlıq Texnikumu bazasında), Azərbaycan Milli Konservatoriyası və onun nəzdində Musiqi Kolleci (Azərbaycan Dövlət Musiqi Texnikumu bazasında) təsis edildi.[28]

Ölkənin hərbi məktəblərində: Ali Hərbi Məktəb, Ali Hərbi Təyyarəçilik Məktəbi və Ali Hərbi Dənizçilik Məktəbində onlarca ixtisas üzrə hərbi mütəxəssislər hazırlanırdı.[29]

Prezident Heydər Əliyev 2001-ci ilin sentyabr ayında əlaçı ali məktəb tələbələrinə Prezident təqaüdü təsis etdi.[30]

Respublikada özəl ali məktəblərin geniş şəbəkəsi meydana gəlmişdi. "Qərb", "Biznes", "Asiya", "Xəzər", "Təfəkkür", "Azərbaycan", "Qafqaz", "Odlar Yurdu", "Beynəlxalq Münasibətlər", "Ali İctimai-Siyasi Kollec" və başqa özəl ali təhsil müəssisələri fəaliyyət göstərirdi. Ümumiyyətlə, respublikanın şəhərlərində, hətta qəsəbələrdə 121 özəl ali məktəb təşkil edilmişdi. Lakin bu ali məktəblərdən cəmi 18-i dövlət lisenziyası ala bilmişdi.[31] Onların da bir çoxu maddi bazasının zəif, təhsilin səviyyəsi aşağı olduğundan sonralar (2001-ci ildə 5-i, 2002-ci ildə 3-ü) lisenziyadan məhrum edilmişdi.[32]

1993-1994-cü dərs ilindən başlayaraq, respublikanın dövlət ali təhsil müəssisələrində bir neçə qrupda ödənişli təhsil forması tətbiq olundu.[33]

2000-2001-ci dərs ilində respublikada 43 ali məktəb fəaliyyət göstərir, onlarda 119,7 mindən çox tələbə təhsil alırdı. 25 dövlət ali təhsil müəssisəsində 91 mindən çox (38,1 mini öz hesabına ödənişli əsasda), 18 özəl ali təhsil müəssisəsində 28,7 mindən çox tələbə oxuyurdu. Dövlət ali məktəblərində 22 135 nəfər professor-müəllim heyəti çalışırdı. Özəl məktəblərdə 5 mindən çox müəllim, dosent və professor işləyirdi.[34]

2002-2003-cü dərs ilində 10-dan artıq xarici ölkənin ali məktəblərində 882 nəfərdən çox azərbaycanlı tələbə təhsil alırdı. Respublikanın ali məktəblərində 2100 xarici tələbə oxuyurdu.[35]

Respublikanın ali təhsil ocaqlarında dünyanın qabaqcıl ali məktəblərinin təcrübəsi diqqətlə öyrənilir və tətbiq olunurdu. Azərbaycan universitetləri Qara Dəniz Hövzəsi Ölkələri Universitetləri Şəbəkəsinə qoşulmuşdu. 2002-ci ilin sentyabr ayında bu təşkilatın II konqresi Bakıda keçirilmiş, 11 ölkənin 70 nümayəndəsinin təmsil olunduğu bu forumda universitet təhsilinin mühüm problemləri, təcrübəsi təhlil və müzakirə olunmuşdu.[36]

Təhsil müəssisələrində yeni təsərrüfat sistemi, bazar iqtisadiyyatı ilə bağlı tətbiqi elmlərin, xarici dillərin, informatikanın tədrisinə, kompüter savadının geniş yayılmasına diqqət artırılmış, beynəlxalq münasibətlər, beynəlxalq hüquq, politologiya, menecment, marketinq kimi ixtisaslar üzrə kadr hazırlığına başlanmışdı.[37]

Gənc nəslin ümumi mədəni, siyasi səviyyəsinin yüksəldilməsinə diqqət artırılmışdı. Bu məqsədlə 1997-ci ildən başlayaraq ali və orta ixtisas məktəblərində təşkil olunan "Heydər Əliyev məktəbləri" xüsusi əhəmiyyət kəsb edirdi. Bu məktəblərdə gənclərə ölkədə müstəqilliyin, dövlətçiliyin, tərəqqinin təmin

olunmasında Heydər Əliyev siyasət sənətinin incəlikləri, xarakterik cəhətləri öyrədilirdi.[38]

Respublikada qaçqın və məcburi köçkünlərin təhsil alması üçün münasib imkanlar yaradılmışdı. 2000-2001-ci dərs ilində onlar üçün müxtəlif regionlarda 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 12 texniki peşə məktəbi, 5 orta ixtisas məktəbi və 3 orta ixtisas məktəbinin filialı, 1 ali məktəb, 234 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərirdi.[39] BMT-nin Qaçqınlarla İş üzrə Ali Komissarlığı xətti ilə çadır şəhərciklərində yüzlərlə yığma sinif otağı quraşdırılmış, minlərlə məktəbli dərs ləvazimatı ilə təmin olunmuşdu. YUNİSEF-in köməyi ilə qaçqın və köçkün uşaqları üçün 14 rayonda 35 Uşaq İnkişaf Mərkəzi yaradılmışdı. ADNŞ və başqa müəssisələr qaçqın və köçkün məktəblərinin, onların şagirdlərinin təmin olunmasında fəal iştirak edirdi. Bu məktəblərdə 130 min şagird və tələbənin təlim-tərbiyəsi ilə 20 minə yaxın təhsil işçisi məşğul idi.[40]

Təhsil sahəsində əhəmiyyətli irəliləyişlə yanaşı, ciddi çatışmazlıq və nöqsanlar da mövcud idi. Məktəblərdə, xüsusən ali təhsil ocaqlarında qeyri-obyektivlik halları inkişaf edirdi. Özəl məktəblərdə dərslərin keyfiyyətinə layiqincə diqqət yetirilmirdi.[41]

2001-ci ildə Azərbaycan Respublikasında əhalinin 2 milyon 901 min nəfəri ümumi orta, 694 min nəfəri orta ixtisas, 612 min nəfəri tam ali təhsilli idi. Yaşı 15-dən yuxarı olan hər min nəfərə 908 təhsilli, o cümlədən 108 ali, 122 orta ixtisas, 511 ümumi orta və 158 natamam orta təhsilli şəxs düşürdü.[42]

**Mədəni-maarif.** 2000-ci ildə respublikanın şəhər, qəsəbə və kəndlərində 3354 klub müəssisəsi, fondlarında 39 milyon nüsxədən çox kitab və jurnal olan 4374 kütləvi kitabxana, 607-yə qədər kino qurğusu, 26 peşəkar kinoteatr, 155 muzey və 27 professional teatr vardı.

Torpaqların işğalı zamanı erməni vandalları 982 kitabxananı, 862 klubu, 1831 kino qurğusunu, 6 teatrı, 10 parkı, 100 mindən çox qiymətli nadir eksponatı olan 22 muzeyi və rəsm qalereyasını ələ keçirib qarət etmişdilər. Yüzlərlə tarixi abidə, o cümlədən 13 qala bürcü, 22 kurqan-təpə, 31 məscid, 44 məbəd, 2 mağara-ibadətgah təhqir edilmiş, dağıdılmışdı.[44] Füzulidə Məhəmməd Füzulinin tunc heykəli sökülüb aparılmışdı. Şuşada Natəvanın, Üzeyir Hacıbəyovun, Bülbülün heykəlləri güllələbaran edilmişdi.[45]

90-cı illərin əvvəllərində nəzarətsizlik üzündən respublikanın muzeylərindən çox qiymətli sənət əsərləri, əntiq əşyalar oğurlanıb xaricə aparılmışdı. R.Mustafayev adına Dövlət İncəsənət Muzeyindən 1993-cü ilin əvvəllərində dəyəri yüz milyon dollarlarla qiymətləndirilən 275 nadir rəsm əsəri oğurlanmışdı. Onlar arasında klassik Avropa rəssamlarının qiymətli sənət inciləri də vardı.[46]

Vəsait çatışmazlığı, nəzarətin olmaması, mövcud metodların köhnəlməsi, adamların müasir tələblər səviyyəsində yeni vasitələrlə mədəni həyata cəlb edilməsi üçün mədəni-maarif müəssisələrinin fəaliyyətini köklü surətdə dəyişmək tələb olunurdu. Kitabxana fondları, oxucuların sayı xeyli azalmışdı. Kinoteatrlar televiziya və video ilə rəqabətə dözə bilmir, demək olar ki, boş qalırdı. 90-cı illərin birinci yarısında kinoqurğuların sayı iki dəfədən çox azalmışdı.[47]

Prezident Heydər Əliyev yenidən rəhbərliyə gəldikdən sonra bu sahədə də mühüm tədbirlər həyata keçirilirdi. 1997-ci il noyabrın 18-də "Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanunu qəbul edildi.[48] Beynəlxalq Muzeylər Şurasının (İKOM), Beynəlxalq Kitabxanalar Şurasının (İFLA) Azərbaycan Milli komitələri yaradıldı. 2002-ci ilin yayında Azərbaycan muğamının YUNESKO tərəfindən tərtib olunmuş dünya sənəti inciləri sırasına daxil edilməsi üçün layihə hazırlandı və bu barədə təşkilatın qeyri-maddi mədəni irsin öyrənilməsi şöbəsi ilə razılıq əldə olundu.[49] Hökumət kitabxana fondlarının genişləndirilməsinə vəsaiti artırdı, "Azərbaycan Respublikasında kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul etdi.[50]

M.F.Axundov adına Respublika Kitabxanası (1998-ci ilin aprel ayından Milli Kitabxana statusu aldı) dünyanın 45 ölkəsindən 60-dan çox kitabxana ilə əlaqə saxlayır, kitab mübadiləsi aparırdı. Prezident Heydər Əliyev, respublikanın görkəmli ziyalıları bu kitabxanaya çoxlu kitab hədiyyə etmişdilər.[51]

1994-cü ildə Bakıda Cəlil Məmmədquluzadənin, Niyazinin ev-muzeyləri yaradıldı. N.Nərimanovun ev-muzeyi yenidən quruldu. 1996-cı ilin payızında Naxçıvanda H.Cavidin, C.Məmmədquluzadənin ev muzeyləri açıldı. 1998-ci ildə Ordubadda M.S.Ordubadinin ev-muzeyi bərpa edildi.[52] 2001-ci ildə Şəkidə Sabit Rəhmanın ev-muzeyi təşkil olundu. 2002-ci ilin iyun ayında Naxçıvanda görkəmli rəssam Bəhruz Kəngərlinin, oktyabr ayında Bakıda Hüseyn Cavidin ev-muzeyləri açıldı.[53] Həmin ilin avqustunda M.P.Vaqifin Qazaxdakı Xatirə Muzeyi "M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyi" kimi yenidən quruldu, Xalça Muzeyi yeni binaya (ləğv olunmuş Lenin Muzeyinin binası) köçürüldü. Azərbaycan Tarixi Muzeyində təmir və yenidənqurma işlərinə başlandı. İncəsənət Muzeyindən oğurlanmış qiymətli rəsm əsərlərindən 192-si ABŞ-da müvafiq qurumların köməyi ilə tapılıb, 2001-ci ilin iyul ayında geri qaytarıldı.[54]

**Kütləvi informasiya vasitələri.** Respublikada kütləvi informasiya vasitələri şəbəkəsi xeyli genişlənmişdi. 90-cı illərin ortalarında Mətbuat və İnformasiya Nazirliyində 600-ə qədər informasiya vasitəsi qeydə alınmışdı. 2001-ci ilin əvvəllərində respublikada 8 dildə 300-dən çox qəzet, 72 jurnal nəşr olunurdu. Nəşr olunan qəzetlərin cəmi 3-4-ü dövlətə, qalanları isə partiyalara, ictimai təşkilatlara, kollektivlərə, ayrı-ayrı şəxslərə məxsus idi.[55] Azərbaycan Respublikası Milli Məclisinin orqanı, rəsmi dövlət qəzeti "Azərbaycan", Prezidentin İşlər İdarəsinin

"Respublika" və "Xalq qəzeti", "Yeni Azərbaycan", "Səs", "Şərq qapısı", "Yeni Müsavat", "Millət", "Yurd", "Azadlıq", "Aydınlıq", "Zerkalo"-"Ayna", "Müxalifət", "Exo", "İki sahil", "Bizim əsr", "Şərq", "İslam", "İstiqlal", "Azərbaycan-nyus" və onlarla başqa qəzet, "Xəzər", "Trend", "Yurd", "Populyar", "Milli təfəkkür", "Azərbaycan fermeri", "Cahan" və s. jurnallar mövcud reallıqları ən müxtəlif mövqelərdən əks etdirirdilər.[56] Adamların hadisələri müstəqil qiymətləndirməsi üçün münasib şərait yaranmışdı.

Uşaqlar üçün "Tumurcuq", "Şəkər villası" qəzetləri, "Savalan", "Günəş" jurnalları çap olunurdu.[57]

Ölkədə 20 informasiya agentliyi fəaliyyət göstərirdi. Dünyanın informasiya agentlikləri ilə birbaşa əlaqə saxlamaq imkanları yaranmışdı. 90-cı illərin ortalarında YUNESKO-nun köməyi ilə "Azərinkom" adlı informasiya şəbəkəsi təşkil olunmuşdu.[58]

90-cı illərin ortalarından Azərbaycanda Beynəlxalq İNTERNET informasiya şəbəkəsindən istifadə olunmağa başlanmışdı. 1996-cı ilin sonlarında "Azinternet Servis" firması təşkil edildi. 2000-ci ildə bu sahə ilə 5 provaydr (Ötürücü xidmət) məşğul olurdu. 2001-ci il mayın 10-da "Bakinternet" Dövlət Şirkəti fəaliyyətə başladı. Paytaxtda, digər şəhər və qəsəbələrdə çoxlu "İnternet klub" təşkil edilmişdi. 2002-ci ildə bu sahə ilə 10 provaydr məşğul olurdu. İNTERNET-dən 120 min nəfər (90 faizi Bakıda) istifadə edirdi. Onların 80 faizi gənclərdən ibarət idi.[59]

Ölkədə hər il minlərlə kitab, kitabça, plakat, xəritə və s. nəşr olunurdu.[60]

Azərbaycan televiziyası, radiosu texniki və yaradıcılıq imkanı baxımından xeyli inkişaf etmişdi. Dövlət radiosunun verilişləri 13 dildə, o cümlədən 1992-ci ildən ingilis dilində dünyaya yayılırdı. 1992-ci ildə türkdilli ölkələrin əksəriyyətini əhatə edən Türkiyə "Avrasiya" telekanalı fəaliyyətə başladı.[61]

1996-cı ildə Bakıda əsası hələ 1982-ci ildə qoyulmuş, hündürlüyü 310 m olan yeni teleqüllə istifadəyə verildi. Türkiyənin "Türksat" peyki vasitəsilə yerüstü stansiyalar əlaqələndirildi. Naxçıvanda Azərbaycan Dövlət TV-nin qəbulu yaxşılaşdı.[62]

2002-ci ildə respublikada 30 radio və televiziya fəaliyyət göstərirdi.[63] Kabel TV kanalı ilə 40-dan çox ölkənin televiziya verilişlərinə baxmaq mümkün idi. Əhalinin böyük əksəriyyəti Azərbaycan TV-nin I və II Dövlət, habelə "ANS", "Speys", "Lider", "Azad Azərbaycan", Rusiyanın, Türkiyənin proqramlarına baxmaq imkanı əldə etmişdi.[64]

1993-cü ildən respublika televiziyası ingilis dilində "Həftənin səsi" proqramını yayırdı.[65]

1996-cı ilin noyabr ayından Respublika Televiziyasının "Azərbaycan bu gün" populyar proqramı bazar günləri TQRT kanalı ilə dünyanın üçdə bir hissəsinə, o cümlədən Avropa və Amerikaya yayımlanmağa başlamışdı.[66]

1999-cu ildə Azərbaycan Televiziyasında "Xalq yaradıcılığı" redaksiyası təşkil olunmuşdu.[67]

2001-ci il oktyabrın 1-dən Azərbaycan Televiziyasının birinci proqramı və dövlət radiosunun iki proqramı gündə 36 saat bütün dünyaya yayımlanmağa başladı. 12 ölkədə efirdə Azərbaycan dilində verilişlər səslənirdi.[68]

2002-ci il iyunun 25-də "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi.[69]

Azərbaycan jurnalistikası inkişaf edirdi. Jurnalistlərin yeni nəsli formalaşmaqda idi. Ölümlərindən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Çingiz Mustafayev, Alı Mustafayev Salatın Əsgərova kimi istedadlı və cəsarətli jurnalistlər baş verən hadisələr haqqında insanlara doğru məlumat çatdırmaq üçün böyük fədakarlıq göstərmişdilər.

1999-2000-ci illərdə ABŞ-ın İntermediya qrupunun apardığı sosioloji tədqiqatlar göstərirdi ki, Azərbaycanda sıravi vətəndaşların 76 faizi Azərbaycan telekanallarına, 7 faizi başqa xarici telekanallara, 59 faizi Rusiya telekanallarına baxır, 22 faizi Bakı radiosuna, 16 faizi xarici radiostansiyalara qulaq asır, 10 faizi qəzet oxuyur. Elitanın 72 faizi Azərbaycan televiziyasına, 82 faizi Rusiya televiziyasına, 11 faizi digər xarici kanallara baxır, 25 faizi Bakı radiosuna, 12 faizi xarici radiostansiyalara qulaq asır, 70 faizi qəzet oxuyur.[70]

Respublikanın kütləvi informasiya vasitələri Azərbaycanın dövlət müstəqilliyinin qorunması, dünyəvi, demokratik quruculuq, milli və bəşəri mənəvi dəyərləri, ölkədə siyasi sabitlik və vətəndaş həmrəyliyi yaranmasını, ölkə rəhbərliyinin uğurlu daxili və xarici siyasətini geniş təbliğ edirdi. Məsələn, 2003-cü ilin əvvəllərində ANS Şirkətlər Qrupu və Çingiz Mustafayev Fondu Azərbaycan Prezidenti Heydər Əliyevi BTC neft kəmərinin əsasının qoyulması, Qəbələ RLS-in taleyinin müəyyənləşdirilməsi, Xəzərin statusuna dair razılaşmalar əldə edilməsi, Azərbaycan-Türkiyə-Gürcüstan birgə təhlükəsizlik sistemi yaradılması, İranla dostluq və əməkdaşlıq sazişi imzalanmasında göstərdiyi fövqəladə xidmətlərinə görə "2002-ci ilin adamı" adına layiq görülmüşdü.[70a]

Mətbuatda mövcud qüsur və çatışmazlıqlar kəskin tənqid olunurdu. Lakin verilmiş söz azadlığından bəzi müxalif qüvvələr və media işbazları şəxsi, qrup mənafeləri və məqsədləri üçün sui-istifadə edir, məsuliyyətsiz, populist, böhtançı çıxışlara yol verir, "sarı mətbuat", "bulvar qəzetləri" xalqın mentalitetinə qarşı çevrilmiş mənəvi pozuculuq işləri ilə məşğul olurdular.[71]

Demokratiyanın inkişafında mətbuatın rolunu yüksək qiymətləndirən Azərbaycan Prezidenti jurnalistlərlə dəfələrlə görüşmüş, kütləvi informasiya

vasitələrinin problemləri ilə tanış olmuş və onların həllinə əməli köməklik göstərmişdir.[72] Azərbaycan Respublikası Prezidenti "Kütləvi İnformasiya Vasitələrinə dövlət qayğısının artırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzaladı. 2001-ci ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanuna edilən əlavələr və dəyişikliklər nəticəsində kütləvi informasiya vasitələrinin hüquqi bazası yeniləşdi, demokratik prinsiplərə tam cavab verən qanun yarandı.

Prezident Heydər Əliyevin təşəbbüsü ilə Kütləvi İnformasiya Vasitələrindən tutulan vergilərin 3 il müddətində dövlətin hesabına ödənilməsi haqqında qərar qəbul edildi.[73] Qəzet kağızına idxal gömrük rüsumları aradan qaldırıldı, kütləvi informasiya vasitələrinə uzunmüddətli və qısamüddətli kreditlər verilməsinə imkan yaradıldı. 2002-ci ilin sentyabrında Kütləvi İnformasiya Vasitələrinin inkişafı üzrə layihələrin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondundan 3 milyard manat vəsait ayırdı.[74] Dövlət qeydiyyatı, lisenziya və radiotezliklərin (özəl televiziya və radiolar üçün) verilməsi işinin təkmilləşdirilməsi, onların yayım dairəsinin genişləndirilməsi, yayım tariflərinin azaldılması, özəl mətbəələrin inkişafının stimullaşdırılması, layiqli jurnalistlərin, aparıcı qəzet redaksiyalarının mükafatlandırılması, istedadlı jurnalistlərə Prezident təqaüdləri verilməsi və başqa tədbirlər görülməsi qərara alındı. Qəzetlərin "Azərbaycan" nəşriyyatına 2001-ci il üçün mövcud borclarının ödənilməsi bir il, 2003-cü il 9 yanvar tarixli sərəncamla isə 2005-ci ilin sonunadək təxirə salındı.[75] 2002-ci il oktyabrın 5-də Azərbaycan Prezidentinin Fərmanı ilə "Milli Televiziya və Radio Şurası" yaradıldı.[76]

"Ruh" Jurnalistləri Müdafiə Komitəsinin keçirdiyi sorğuya görə Heydər Əliyev 2001-ci il üçün "Jurnalistlərin dostu" elan edildi.[77]

Əyani təbliğat işində də ciddi qüsurlar vardı. 2001-ciilədək şəhərlərin ən görkəmli yerində yüzlərlə iri, cəlbedici reklamlar cürbəcür xarici siqaretləri, spirtli içkiləri geniş təbliğ edirdi. Prezidentin göstərişi ilə ölkədə belə məhsulların reklam olunmasına son qoyuldu.[78]

## §2. ELM

Azərbaycan elmi keçid dövründə yeni ciddi çətinliklərlə üzləşdi. Vəsait çatışmazlığı, ənənəvi elmi əlaqələrin qırılması elmin inkişafını xeyli ləngitdi. "AXC-Müsavat iqtidarı" Azərbaycan Elmlər Akademiyasına qərəzli mövqedən yanaşır, onun səmərəsizliyi, hətta Akademiyanın ləğv olunması barədə mürtəce fikirlər yayırdılar. "Qorbaçov rejimi"nin törətdiyi haqsızlıqlar, ədalətsizliklər şəraitində Azərbaycanda 1988-1992-ci illərdə namuslu və elmli adamlara qarşı qisasçılıq, dağıdıcılıq halları intişar edirdi. Həmin dövrdə "Qorbaçov rejimi"nin yeni əlaltıları Heydər Əliyevə, onun ailəsinə, xüsusilə onun qardaşı, bütün şüurlu

həyatını Azərbaycan elminin tərəqqisinə həsr etmiş, Elmlər Akademiyasında laborantlıqdan akademikliyədək şərəfli bir yol keçmiş Cəlal Əliyevə qarşı yönəlmişdi. Onun rəhbərlik etdiyi laboratoriyalar bağlanmış, qiymətli avadanlıqlar məhv edilmiş, mətbuatda işdən çıxarılmış layiqli alimlərin şərəfini alçaldan iftiralar çap olunmuşdu. Onlar xalq arasında nüfuzdan salınır, hətta repressiyalara məruz qalırdılar.

Azərbaycan milli elminə daim hamilik etmiş Heydər Əliyev respublikaya rəhbərliyə qayıdandan sonra elm sahəsində mühüm dəyişikliklər baş verdi. Elmə dövlət qayğısı artdı. 1997-ci il yanvarın 31-də Prezident Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimlərin bir qrupu ilə görüşərək elm sahəsində mövcud problemləri müzakirə etdi.[79] "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı.[80] Alimlərin əmək haqqı artırıldı. 1997-ci ilin fevralında əmək haqqı Elmlər Akademiyasında 50 faiz, habelə Akademiyanın həqiqi və müxbir üzvlərinin elmi rütbə haqqı 10 dəfə yüksəldi. Sonrakı illərdə də elm sahəsi işçilərinin əmək haqqı artırıldı. 2002-ci ilin iyul ayından Akademiya əməkdaşlarının əmək haqqı orta hesabla iki dəfə, akademiklərin və müxbir üzvlərin rütbə maaşları 3 dəfədən çox artırıldı.[82]

Elmlər Akademiyasının Azərbaycan elm və mədəniyyətinin inkişafında rolu yüksəlməyə başladı. 90-cı illərin ortalarında təkcə Elmlər Akademiyası sistemində 35 elmi-tədqiqat institutu fəaliyyət göstərirdi. Yeni institutlar, o cümlədən Arxeologiya və Etnoqrafiya İnstitutu, Milli Münasibətlər İnstitutu, Əlyazmalar İnstitutu, İnsan Hüquqları İnstitutu təşkil olundu. Azərbaycan Elmlər Akademiyası MDB Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyası yaradılmasının təşəbbüsçüsü olmuş və bu təşkilata üzv qəbul edilmişdi.[83] Təşkilat postsovet respublikaları alimlərinin keçmiş əlaqələrinin bərpa olunmasına, yeni elmi əlaqələrin yaranmasına imkanlar açmışdı. Türkdilli dövlətlərin elmlər akademiyaları arasında əlaqələr yaranıb inkişaf etməyə başladı. Bu işdə Türkiyə Elmlər Akademiyasının təklifi və Avropa Birliyi nümayəndəsinin iştirakı ilə 2000-ci ildə Ankarada keçirilmiş Türkdilli dövlətlərin Elmlər Akademiyalarının ilk konfransı mühüm addım oldu. Konfransda Azərbaycan Elmlər Akademiyasını akademik C.Quliyev təmsil edirdi. O, Azərbaycan Elmlər Akademiyasının inkişaf yolları, perspektivləri və problemlərinə dair məruzələrlə çıxış etmişdi.[84]

2000-ci ilin sonlarında Azərbaycan Elmlər Akademiyasında 8226 işçi, o cümlədən 3446 elmi işçi çalışırdı. Akademiyanın 31 həqiqi və 48 müxbir üzvü vardı. Elmin müxtəlif sahələri üzrə 466 elmlər doktoru və 1965 elmlər namizədi elmi-tədqiqat işləri aparırdı. 323 nəfər aspiranturada təhsil alırdı. 116 problem üzrə 382 mövzu işlənirdi.[85]

1991-2001-ci illərdə Elmlər Akademiyası müəssisələrində 1644 mühüm nəticə alınmış, 504 iş istehsalata tətbiq olunmuş, 20 minə qədər məqalə çapdan çıxmış, 200-ə qədər doktorluq, 650-yə qədər namizədlik dissertasiyası müdafiə edilmişdi.[86]

Prezidentin 2001-ci il 15 may tarixli Fərmanına əsasən Azərbaycan Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verildi. Prezidentin sərəncamı ilə Akademiya üzvlərinin ümumi sayı 200 nəfər müəyyən edildi. AMEA-nın iyun ayının 30-da və noyabr ayının 5-də keçirilmiş ümumi yığıncağında AMEA-nın həqiqi və müxbir üzvlərinin seçkiləri keçirilmişdir. Seçkilər nəticəsində 40 ixtisas üzrə AMEA-nın üzvlüyünə 29 nəfər həqiqi üzv və 91 nəfər müxbir üzv seçilmişdir. **Fizika-riyaziyyat və texnika elmləri bölməsi** üzrə həqiqi üzvlər: Abbasov Ə.M., Allahverdiyev C.E., Qacar Ç.Ü., Əliyev T.A., Əliyev F.Ə., Kərimov M.K., Mehdiyev A.Ş., Hacıyev A.C., Həşimzadə F.M., Paşayev A.M.C., müxbir üzvlər: Quliyev Ə.S., Əsgərov B.M., Əkbərov S.C., İsgəndərov B.A., Kərimov S.Q., Mehdiyev M.F., Məlikov A.Z., Məmmədov İ.T., Məmmədov Y.Ə., Məmmədov F.İ., Ramazanov K.N., Tağıyev B.H., Tahirov V.İ., Hacıyev A.H., Hüseynov R.Ə., **kimya elmləri bölməsi** üzrə həqiqi üzvlər: Əliyev A.M., Məmmədyarov M.Ə., Nağıyev T.M., Rzayev R.H., Sadıxov K.İ., Seyidov N.M., müxbir üzvlər: Abbasov V.M., Qarayev S.F., Əzizov A.H., Əhmədov M.M., Kəlbəliyev Q.İ., Litfişkov Y.N., Məcidov Ə.Ə., Məhərrəmov A.M., Rüstəmov Y.İ., Salahov M.S., Səmədova F.İ., Əfəndiyev A.A., Fərzəliyev V.M.; **yer elmləri bölməsi** üzrə həqiqi üzvlər: Məmmədov Ə.V., müxbir üzvlər: Abbasov Z.Y., Bağırov B.Ə. Quliyev İ.S., Quliyev R.İ., Quliyev H.H., Əhmədbəyli F.S., İsmayılzadə A.C., Kərimov K.M., Məmmədov P.Z., Məmmədov R.M., Mustafayev H.V., Həsənov T.A., Həsənov İ.S., Həsənov A.H., Cavanşir R.C., Cəlalov Q.İ., Xeyirov M.B., Xəlilov Ş.B.; **biologiya elmləri bölməsi** üzrə həqiqi üzvlər: Əliyev C.Ə., Əmiraslanov Ə.T., İnsanov Ə.B., Məmmədova S.R., Cəfərov M.İ., Hacıyev Y.H., müxbir üzvlər: Ağayev T.M., Babayev M.P., Qarayeva N.İ., Qasımov X.M., Quliyev N.M., Qurbanov M.R., Əliyev N.N., Əliyev S.V., Əzizov İ.V., İmamverdiyev S.B., Yolçuyev Y.Y., Məmmədov Q.Ş., Musayev S.H., Sadıqov İ.Ə., Salmanov M.Ə., Feyzullayev N.A., Cəfərov F.İ., Şirinov N.M. və **humanitar və ictimai elmlər bölməsi** üzrə həqiqi üzvlər: Bünyadov T.Ə., Vahabzadə B.M., Qasımzadə F.F., Eldarov Ö.H., Əliyev İ.H., Əfəndiyev R.S., müxbir üzvlər: Abbasov A.A., Axundov A.A., Vəlixanova N.M., Qarayev Y.V., Qiyasi C.Ə., Əliyev A.Ə., Əfəndiyev O.Ə., Əhmədov Q.M., Kərimov İ.S., Məlikov A.C., Məmmədov A.İ., Məmmədov Z.C., Məmmədova F.C., Məmmədova R.A., Məmmədəliyeva S.Y., Məmmədəliyev V.M., Musayev A.F., Muradov Ş.M., Nemətova M.S., Nərimanov İ.H., Nəbiyev A.M., Nuriyev Ə.X., Rüstəmova A.C., Həbibbəyli İ.Ə., Hacıyev T.İ., Cəfərov N.Q. seçilmişlər.

Akademik Mahmud Kərimov Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti seçildi.[87]

2002-ci ilin əvvəllərində Azərbaycan MEA-da 60 akademik, 175 müxbir üzv, 3899 elmi işçi, 451 elmlər doktoru və 1924 elmlər namizədi çalışırdı. Elmi-tədqiqat müəssisələrinin strukturu təkmilləşdirildi. 2002-ci ilin ortalarında bir sıra elmi-tədqiqat institutları birləşdirildi. Naxçıvan Muxtar Respublikasında elmi-tədqiqat qurumlarının fəaliyyətini gücləndirmək, mövcud elmi potensialdan səmərəli istifadə etmək, Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası və təbii sərvətlərinin öyrənilməsi üçün daha əlverişli şərait yaratmaq məqsədilə Prezident Heydər Əliyevin "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin təsis edilməsi haqqında" 7 avqust 2002-ci il tarixli sərəncamına əsasən AMEA-nın Naxçıvan Bölməsi yaradıldı. Bölmədə Tarix, Etnoqrafiya və Arxeologiya, İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası fəaliyyət göstərirdi.[88] Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Elmlər Akademiyasının statusu haqqında" 2003-cü il 4 yanvar tarixli Fərmanı ilə təsbit edildi ki, "Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətlərini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatıdır".[89] Dövlət başçısının Fərmanı ilə AMEA-nın Nizamnaməsi təsdiq olundu.

Elmi və elmi pedaqoji kadrlar hazırlanması işini nizama salmaq üçün 1992-ci il aprelin 23-də Azərbaycan Ali Attestasiya Komissiyası (1994-cü ildən Azərbaycan Prezidenti yanında Azərbaycan Ali Attestasiya Komissiyası) təşkil edildi.[90] Bu komissiya Ali Attestasiyalar Komissiyaları Beynəlxalq Assosiasiyasına üzv qəbul edildi. Respublikanın elm və təhsil müəssisələrində 140-a yaxın ixtisas üzrə hər il 70-dək doktorluq və namizədlik dissertasiyasının müdafiəsi üçün İxtisaslaşdırılmış Şura fəaliyyət göstərirdi. Bakı ilə yanaşı Naxçıvan, Gəncə, Lənkəran kimi şəhərlərin ali təhsil müəssisələrində də belə şuralar yaradılırdı.[91]

2000-ci ildə respublikanın 137 elmi-tədqiqat müəssisəsində (95-i elmi-tədqiqat institutu idi) 26,4 minə qədər işçi (15,8 min elmi-texniki fəaliyyətlə məşğul olan işçi), o cümlədən 1512 elmlər doktoru və 8380 elmlər namizədi vardı. Bununla yanaşı, 10,6 minə qədər pedaqoji işçi, o cümlədən 834 elmlər doktoru və 5,4 min elmlər namizədi dərs deməklə bərabər elmi-texniki fəaliyyətlə məşğul olurdu.[92]

Azərbaycan elminin maddi bazasının keyfiyyətcə yaxşılaşması yolunda mühüm addımlar atılmağa başlanmışdı. Elmlər Akademiyasında "Bakı Qovşağı"

adlı Beynəlxalq Kompüter Mərkəzi təşkil olunmuşdu. Yeni elektron rabitə vasitələri azərbaycanlı alimlərə Transavropa tədqiqat və yaradıcılıq şəbəkəsi ilə əlaqə yaratmağa imkan verirdi.[93] Dünya azərbaycanlı alimlərin əsərləri, elmi xidmətləri ilə daha yaxından tanış olmağa başlamışdı. Azərbaycanlı alimlər dünyanın qabaqcıl elm mərkəzlərinin, elmlər akademiyalarının üzvü seçilmiş, elmi əlaqələr xeyli genişlənmişdi. Xarici elmi mərkəzlərlə ikitərəfli müqavilələr imzalanırdı. BMT İnkişaf Proqramı ilə əməkdaşlığa mühüm yer verilirdi. 1996-cı ildə Bakıda Amerika mesenatı Corc Sorosun yaratdığı "Soros" Fondunun İnformasiya Mərkəzi fəaliyyətə başladı. Bu fond Respublika Elmlər Akademiyasının İNTERNET ilə əlaqə yaratmasına kömək etdi, elmin inkişafı üçün 93 qrant ayırdı.[94]

Respublikada ictimai elmi birliklər, müxtəlif elmi fondlar, mərkəzlər, klublar təşkil olunmuşdu. Onlar müstəqil elmi-tədqiqat işləri aparır, elmi konfranslar keçirir, xarici ölkə alimləri ilə əlaqələr yaradır, elmin təbliğində fəal rol oynayırdılar.

Bu illərdə Azərbaycan elmi bir sıra mühüm uğurlar qazanmışdı. Riyaziyyat, fizika, neft kimyası, geologiya və biologiyanın müasir sahələri üzrə yaradılmış elmi məktəblər daha da inkişaf etdirilmişdi.[95] Müasir biologiyanın, xüsusilə cəmiyyətin qlobal inkişafının əsas problemləri - ərzaq təhlükəsizliyinin, iqtisadi artım və yoxsulluğun aradan qaldırılması, ətraf mühitin mühafizəsi akademik Cəlal Əliyevin geniş diapazonlu elmi yaradıcılığının müqəddəs amalı olmuşdur.

Azərbaycanda fiziki-kimyəvi biologiyanın tədqiqatlarını genişləndirməklə, Cəlal Əliyev molekulyar biologiyanın, molekulyar genetikanın, gen və hüceyrə biotexnologiyasının, riyazi biologiyanın və bioinformatikanın respublikada inkişafının əsasını qoymuşdur. Akademik Cəlal Əliyev Azərbaycanda, eyni zamanda, fiziki-kimyəvi biologiya, o cümlədən biokimya, biofizika, molekulyar biologiya və gen biologiyasının tərəqqisi üçün müasir tələblərə cavab verən maddi-texniki təməl yaratmışdır, onun təşəbbüsü və rəhbərliyi ilə yüksək səviyyəli kadrlar yetişmişdir.

Akademik Cəlal Əliyevin başçılığı ilə müxtəlif zonalara uyğun aparılan dərin kompleks elmi işlərin nəticəsində kənd təsərrüfatı bitkilərinin 70-dən artıq sortu yaradılmış və Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyasına təqdim edilmiş, onlardan 20-dən artıq buğda sortu rayonlaşdırılmışdır. C.Əliyevin yetişdirdiyi "Bərəkətli", "Əlincə", "Qiymətli", "Nurlu-99" və s. buğda sortları hektardan yüksək məhsul götürməyə imkan verir.

C.Əliyev bir çox xarici elmlər akademiyalarının, elmi cəmiyyətlərin üzvü seçilmişdir. "Soros" Fondunun ayırdığı qrantların səkkizi onun rəhbərlik etdiyi laboratoriyaya verilmişdir.[96]

Azərbaycan Milli Aerokosmik Agentliyi Xüsusi Kosmik Cihazqayırma Konstruktor Bürosunda Rusiya Kosmik Tədqiqatlar İnstitutunun sifarişi ilə yerin maqnit sahəsinə günəş küləkləri təsirini öyrənən nadir aerokosmik cihaz yaradılmışdı.[97]

Azərbaycanlı astronomların tədqiqatları dünyada yüksək qiymətləndirilirdi. Onlar mühüm əhəmiyyəti olan mindən çox kəşf etmişdilər. AZT-8 və Üfüqi Günəş teleskopları üçün yeni avtomatlaşdırılmış müşahidə sistemləri yaradılmışdı.[98] Beynəlxalq Astronomlar İttifaqının qərarı ilə astroidlərdən birinə "Hüseyn Cavid" adı verilmişdi.[99] AMEA-nın müxbir üzvü Əyyub Quliyev Günəş sistemində hələ kəşf edilməmiş azı üç planetin olduğunu bildirmişdi. Azərbaycanlı alimin proqnozu özünü doğrultmağa başlamışdı. Neptun-Pluton sistemində yeni səma cismi aşkar olunmuşdu.[100]

Azərbaycanın neft sənayesinə geniş xarici investisiyalar cəlb olunması neft, neft-kimya, neft-qaz quyuları qazılması və istismarı sahələrində elmi tədqiqatların inkişafına imkanlar açırdı. Neftçi alimlərin bu sahədəki tədqiqatları böyük elmi və əməli əhəmiyyətə malik idi. 1997-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasında "Qabaqcıl Neft və Qaz Hasilatı Texnologiyası Mərkəzi" təşkil olunmuşdu.[101] NATO-nun "Sülh naminə elm" Proqramı çərçivəsində Bakı-Supsa neft kəmərinin ekoloji inspeksiyalarında, beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən "Səhralaşmaya qarşı mübarizə", "Çirklənməyə nəzarət" layihələrinin icrasında azərbaycanlı coğrafiyaçı alimlər fəal iştirak etmişdilər.[102]

Azərbaycan geofizikləri Aşağı Kür çökəkliyində beş strukturdan ibarət tektonik zona kəşf etmiş və onu Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması şərəfinə "Qayıdış zolağı" adlandırmışdılar.[103] "Şahdəniz" yatağında böyük qaz ehtiyatları, yeni qızıl yataqları kəşf olundu. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyası Aşqarlar Kimyası İnstitutunun apardığı elmi işlər ABŞ-ın Biznesin İnisiativ İstiqamətləri Beynəlxalq Təşkilatının "Qızıl Kateqoriya" mükafatına layiq görülmüşdü.[104]

Azərbaycan alimləri informatika, riyaziyyat, fizika, geologiya kimya, coğrafiya, biologiya, genetika elmləri sahəsində mühüm nailiyyətlər əldə etmişdilər.

İctimai və humanitar elmlər "sovet dövrünün hakim" ideologiyası təzyiqindən xilas olaraq yeni, özü də çətin, ancaq çox mühüm azad yaradıcılıq dövrünə başladı.

Bazar iqtisadiyyatı problemləri və Azərbaycan reallıqları şəraitində onların təzahürü iqtisadçı alimlərin tədqiqat obyektinə çevrilmişdi. Bu sahədə iqtisadçı alimlərin yaradıcılığı mühüm elmi və əməli əhəmiyyət kəsb edirdi.

Azərbaycan tarixinin ən mürəkkəb və mübahisəli problemlərini şərh edən əsərlər yazılmışdı. Bu əsərlər tarix sahəsində elmi fikri daha da zənginləşdirmişdi.

Arxeoloqlar ilk dəfə "Azərbaycan arxeoloji abidələr Bankı"nı yaratmışdılar. Qobustan qayaüstü təsvirləri YUNESKO xətti ilə Ümumdünya Qayaüstü İncəsənət Arxivinə daxil edilmişdi. 1999-cu ildə Elmlər Akademiyası Rəyasət Heyəti nəzdində "Naxçıvan Ensiklopediyası" redaksiya heyəti təşkil olunmuşdu.[105] 2002-ci ildə "Naxçıvan Ensiklopediyası" çap edildi. Həmin ildə Tarix İnstitutunda "Azərbaycanın tarixi coğrafiyası", "Müstəqil Azərbaycan Respublikasının tarixi", "Dağlıq Qarabağın tarixi" və digər şöbələr təşkil olundu.

Prezident Heydər Əliyev tarixçi alimlər qarşısında fundamental "Azərbaycan tarixi"nin yaradılması kimi mühüm vəzifə qoymuşdu. Azərbaycanın siyasi, iqtisadi və mədəni tarixində çox mühüm dövr olan XIX və XX əsrlərin tarixinin əhatəli tədqiqi və nəşri üçün xüsusi qrant ayırmışdı. Respublikanın ən görkəmli tarixçi alimləri bu işə cəlb olunmuşdu. Şərqdə ilk demokratik respublika olmuş Azərbaycan Cümhuriyyətinin tarixi geniş şəkildə öyrənilməyə başlandı. Tarix İnstitutunda "Azərbaycan Xalq Cümhuriyyətinin tarixi" şöbəsi təşkil edildi. Azərbaycanın siyasət və dövlət xadimləri, generalları, siyasi partiyaları haqqında yeni əsərlər meydana gəldi. 1997-ci ildə Azərbaycan EA Rəyasət Heyəti nəzdində yaradılmış "Azərbaycan tarixi" Baş Redaksiya Şurasının rəhbərliyi altında 7 cildlik "Azərbaycan tarixi" hazırlanmış və nəşr olunmağa başlanmışdı. Tarix İnstitutunda "Azərbaycan XX əsrin əvvəllərində. Müstəqilliyə aparan yollar", "Azərbaycan Cümhuriyyəti, 1918-1920", "İkinci Azərbaycan Respublikasının təşkili tarixinə dair", "Azərbaycan tarixi. 1920-1991" və "Azərbaycan Respublikası: əsrə bərabər on il - 1991-2001", "XVIII yüzillikdə - XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri", Azərbaycan Tarixi Muzeyində "Azərbaycanda dövlətçilik və onun rəmzləri" kitab-albomu, Arxeologiya və Etnoqrafiya İnstitutunda "Azərbaycan epiqrafik abidələrinin korpusu" və digər əsərlər hazırlanıb çap olunmuşdu.

Ermənistan azərbaycanlılarının soyqırımı və etnik tarixi, ərazilərdən deportasiyası haqqında çoxsaylı tədqiqat işləri aparılmış, "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası", "Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı" (bir neçə dildə) (Cəlal Əliyev və Budaq Budaqov) kimi dəyərli kitablar çap etdirilmişdi. Prezident Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" adlı çoxcildlik monumental külliyyatı müasir tarixin öyrənilməsi üçün çox qiymətli mənbədir. Heydər Əliyev, Azərbaycan tarixçilərinin əməyini qiymətləndirərək, yazırdı: "Keçid dövrünün çətinliklərinə, ağır proseslərə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq".[106]

Tarixi mənbələrin toplanması və araşdırılması diqqət mərkəzində idi. Respublikada 7 respublika dövlət arxivi, onların 15 filialı, Naxçıvan MR və 56 rayon dövlət arxivi fəaliyyət göstərirdi. Bu arxivlərdə elmin, mədəniyyətin,

iqtisadiyyatın və ictimai həyatın ən müxtəlif sahələrini əks etdirən sənədlər mühafizə olunurdu. 1999-cu ilin iyun ayında "Milli arxiv fondu haqqında" Qanun qəbul edilmişdi. 2002-ci il dekabrın 2-də Prezident Heydər Əliyev "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Baş Arxiv İdarəsinin bazasında Azərbaycan Respublikası Milli Arxiv İdarəsi yaradıldı. Arxivlərin maddi-texniki bazası möhkəmləndirildi və arxiv işçilərinin sosial vəziyyəti yaxşılaşdırıldı.[107] "Yeni siyasi xətt", "Azərbaycan nefti dünya siyasətində", "Qaçqınlar" və digər əsərləri, "Qayıdış-1990-1993", "Qəsd", "Azərbaycan milli dövlət quruculuğu yollarında", "Azərbaycan-93" və s. qiymətli sənəd və material topluları hazırlanmış, nəşr olunmuşdu.

Şərqşünas tarixçi alimlər "Ümumi türk tarixinə giriş", "Cənubi Azərbaycan tarixinin qısa oçerkləri", "Güney Azərbaycan" kitablarını hazırlamış və çap etdirmişdilər. Azərbaycan tarixçiləri 1999-cu ildə Ankarada nəşr olunmuş 12 cildlik "Osmanlı", 2002-ci ildə nəşr olunmuş 21 cildlik "Türklər", 10 cildlik "Genel Türk tarihi" kimi fundamental əsərlərin hazırlanmasında iştirak etmişdilər.

"Üzeyir Hacıbəyov Ensiklopediyası", "Kitabi-Dədə Qorqud ensiklopediyası", M.Füzuli əsərlərinin 6 cildliyi, "Azərbaycan ədəbi dili tarixi" nəşr edilmişdi. "Füzuli ensiklopediyası" hazırlanmağa başlamışdı. "XIX əsr türk ədəbiyyatı oçerkləri" kitabı nəşr olunmuşdu. Dilçilik İnstitutunda "Azərbaycan dilinin orfoqrafik lüğəti" (80 min söz), "Azərbaycan dilinin izahlı lüğəti", "Azərbaycan dilinin işgüzar üslubu" kitabları hazırlanmışdı. Akademiyanın Dilçilik, Telekommunikasiya və İnformasiya institutları birlikdə "İngiliscə-azərbaycanca, azərbaycanca-ingiliscə maşın tərcüməsi sistemi" hazırlamağa başlamışdılar.[108]

Azərbaycan filosofları, hüquqşünasları Azərbaycan fəlsəfi fikrinin və hüquq elminin inkişafında mühüm rol oynamışdılar. "Azərbaycan fəlsəfə tarixi"nin birinci cildi çapdan çıxmışdır. "Azərbaycanın inkişaf dinamikası", "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" və s. əsərlərində müasir cəmiyyətdə baş verən mürəkkəb proseslər dərindən təhlil olunur, fəlsəfi baxımdan mənalandırılırdı.

Azərbaycan memarlıq və sənətşünaslıq elmlərinin inkişafında da böyük uğurları olmuşdur.

Elm sahəsində nailiyyətlər respublikada iqtisadiyyatın, mədəniyyətin inkişafını və mənəvi həyatın zənginləşməsini sürətləndirirdi.

## §3. ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT

Azərbaycan Respublikası müstəqilliyinin təşəkkülündə ədəbiyyat və incəsənət önəmli rol oynadı. Azərbaycan ədəbiyyatı xəzinəsi yeni əsərlərlə zənginləşdi. Müstəqillik uğrunda mübarizə və sonrakı illərdə ədəbiyyatda Bəxtiyar

Vahabzadə, Xəlil Rza (Ulutürk) və Məmməd Araz zirvələri daha aydın görünürdü. Xəlil Rzanın "Davam edir 37" şeirlər toplusu, Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması, "Göytürklər" pyesi böyük poetik və tərbiyəvi təsir gücünə malik idi.

Qabil, Nəbi Xəzri, Fikrət Qoca, İsa İsmayılzadə, Söhrab Tahir, Cabir Novruz, Nəriman Həsənzadə, Vaqif Səmədoğlu, Ramiz Rövşən, Fikrət Sadığın şeirləri dərin məzmunu və lirizmi ilə fərqlənirdi.

Gənc poeziya axtarış yollarında idi. Onun nümayəndələri "realist-publisistik", "mediativ", sufiliyə, dərvişliyə meyil edən "romantik", "urbanist", habelə "avanqardçı" poeziya nümunələri yaradırdılar.

Ədəbiyyata müharibə, yeni iqtisadi münasibətlərə keçid, 90-cı illərin birinci yarısındakı siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda mübarizə şəraitində cəmiyyətdə, insanların mənəviyyatında baş verən dəyişiklikləri əks etdirən yeni mövzularda kitablar çıxmışdı. İsmayıl Şıxlının "Ölən dünyam", "Sapı özümüzdəndir", Anarın "Otel otağı", İlyas Əfəndiyevin "Hökmdar və qızı", Bəxtiyar Vahabzadənin "Hara gedir bu dünya", Elçinin "Ah, Paris, Paris!", İsa Hüseynovun "Cəhənnəm", Sabir Rüstəmxanlının "Ömür kitabı", Nəriman Həsənzadənin "Pompeyin Qafqaza hücumu", Vidadi Babanlının "Ana intiqamı", Afaq Məsudun, Vaqif Nəsibin və başqalarının əsərləri bu dövrün ədəbi hadisələri idi.

Detektiv roman ustası Çingiz Abdullayevin əsərləri bütün dünyada böyük maraqla qarşılanmışdı.

Ənvər Məmmədxanlının, Əzizə Cəfərzadənin, Aqil Abbasın tarixi romanları xalqın qəhrəman, ibrətamiz keçmişini işıqlandırır, böyük tərbiyəvi əhəmiyyət kəsb edirdi. İsi Məlikzadənin "Qırmızı şeytan", Aqşin Babayevin "Dünyanın axırı", Arif Abdullazadənin "Qanlı yaddaş", Əli Əmirlinin "Meydan", Məmməd Orucun "Köçürmə" əsərləri xalqın yaxın tarixinin realist səhnələrini əks etdirirdi.

Ədəbiyyatın, filologiyanın inkişafına diqqəti artırmaq üçün Prezident Heydər Əliyev 1996-cı ildə Füzuli adına Beynəlxalq mükafat təsis etdi. 1997-ci ilin noyabr ayında "Azərbaycan yazıçılarına dövlət qayğısını artırmaq haqqında" Fərman verdi. "Azərbaycan", "Qobustan", "Ulduz", "Literaturnı Azerbaydjan" jurnallarının, "Ədəbiyyat" qəzetinin nəşri dövlət hesabına həyata keçirilməyə başlandı.

1997-ci ilin noyabr ayında Azərbaycan yazıçılarının X qurultayı keçirildi. Qurultay ərəfəsində Prezident Heydər Əliyev qocaman və gənc yazıçılarla görüşlər keçirdi. Bu görüşlərdə ədəbiyyat qarşısında duran vəzifələr ətraflı müzakirə edildi.[109]

1997-ci il noyabrın 10-da Prezident "Azərbaycan Respublikasında ədəbiyyat və incəsənət xadimlərinə dövlət qayğısının artırılması haqqında" Fərman

imzaladı. Qocaman ədəbiyyat və incəsənət xadimləri, gənc istedadlı yazıçı və şairlər üçün fərdi təqaüdlər təyin edildi. 1998-ci il mayın 22-də "Azərbaycan Respublikasında fəxri adlar haqqında",[110] 2002-ci il iyunun 11-də "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinin təsis edilməsi haqqında" fərmanlar verildi. 2002-ci ilin iyun ayında Prezident elm, mədəniyyət incəsənət, maarif və digər sahələrdə xidməti olmuş 150 nəfərə Prezident təqaüdü təyin etdi.[111]

Respublikada "Bakı Bələdiyyə Teatrı", "Tənqid-Təbliğ Teatrı", "Milli Dastan Teatrı", "Dövlət Gənclər Teatrı", "Yuğ" teatrı, "Bakı Kamera Teatrı", "Pantomim Teatrı" kimi yeni teatrlar təşkil olunmuşdu. 2000-ci ildə 26 dövlət teatrı fəaliyyət göstərirdi. Təmir edildikdən sonra, 1996-cı ildə Azərbaycan Milli Dram Teatrı qapılarını yenidən tamaşaçıların üzünə açmışdı.[112] 1995-2000-ci illərdə Azərbaycan Dövlət Filarmoniyasının binasında əsaslı təmir işləri aparıldı. 2002-ci il noyabrın 29-da Azərbaycan Prezidenti bu binanı müasir konsert müəssisəsi tələblərinə uyğunlaşdırmaq məqsədilə əlavə tikinti işləri aparılması və onun lazımi avadanlıqlarla təmin edilməsi üçün xüsusi sərəncam verdi.[113]

Fərahim Fərzəlibəyov, Azərpaşa Nemətov, Hüseynağa Atakişiyev kimi istedadlı rejissorlar Azərbaycan rejissorluq məktəbinin ən yaxşı ənənələrini davam və inkişaf etdirirdilər.

Azərbaycan teatrları xalqın qəhrəmanlıq tarixindən, müasir həyatından bəhs edən onlarla əsərə səhnə həyatı verdilər. Opera və Balet Teatrında 1997-ci ildə Üzeyir Hacıbəyovun "Koroğlu" operası, "Arşın mal alan" operettası, Milli Dram Teatrında Səməd Vurğunun "Fərhad və Şirin" pyesi, 1998-ci ildə Musiqili Komediya Teatrında Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" operettası, habelə onlarla başqa klassik əsər yenidən səhnə həyatı yaşamağa başladı. 2002-ci ildə Azərbaycan Milli Dram Teatrı V.Şekspirin "Hamlet" faciəsini yeni quruluşda tamaşaya qoydu.

Azərbaycanın "Bakılı oğlanlar" klubu 2000-ci ilin noyabr ayında Moskvada "Şən və Hazırcavablar" klublarının beynəlxalq yarışında XX əsrin ən yaxşı komandası adına və "XX əsr Çempionları Kuboku"na layiq görülmüşdü.[114]

Azərbaycanın musiqi sənəti yeni əsərlərlə zənginləşirdi. 1991-ci ildə görkəmli bəstəkar Fikrət Əmirovun "Nizami" baletinin tamaşaya qoyulması respublikanın mədəni həyatında əlamətdar hadisə idi. 1996-cı ildə Süleyman Ələsgərovun "Solğun çiçəklər" operası tamaşaya qoyuldu. Dünya şöhrətli bəstəkar Arif Məlikov VII simfoniyasını yazdı. Bu simfoniyanın səslənməsi üçün Türkiyədə İhsan Doğramacı tərəfindən xüsusi konsert salonu inşa olunmuşdu. Bəstəkar Cövdət Hacıyevin dövrün dramatizmini, xalqın ümid və inamını musiqi dili ilə əks etdirən "Onu zaman seçib" adlı VIII simfoniyası, bəstəkar Sərdar Cəfərovun "Böyük vətəndaş haqqında" odası xalqının səadəti, müstəqilliyin əbədi olması uğrunda mübarizədə yorulmaz və dönməz şəxsiyyətə - Prezident Heydər Əliyevə

həsr olunmuşdu. 1997-ci ildə bəstəkar Vasif Adıgözəlov "Qarabağ" oratoriyası əsərini yazmışdı. Onun "Çanaqqala" oratoriyası respublikanın musiqi həyatında əlamətdar hadisə idi.[115]

Azərbaycan musiqisində hərbi mövzu xeyli inkişaf etmişdi. Süleyman Ələsgərovun "Əsgər marşı", Ş.Musaoğlunun əsgər mahnıları xalqda qələbəyə inam hissi oyadırdı. Cavanşir Quliyevin "Əsgər marşı" dillər əzbəri olmuşdu.[116]

Azərbaycan musiqi ifaçılığı sənəti də inkişaf etməkdə və geniş təbliğ olunmaqda idi. Muğam, xalq mahnıları və təsnif ifaçılarının ənənəvi müsabiqələri keçirilirdi. 1997-ci ilin noyabr ayında Bakıda vokalçıların Bülbül adına Birinci Beynəlxalq Müsabiqəsi keçirildi. Münsiflər heyətinə dünyanın adlı-sanlı musiqi xadimləri daxil olan bu nüfuzlu müsabiqədə Azərbaycanın və xarici ölkələrin gənc ifaçıları iştirak edirdilər.[117]

İstedadlı gənc ifaçıların təqdim konsertləri təşkil olunurdu. 1992-ci ildə Azərbaycan Dövlət Uşaq Filarmoniyası yaradılmışdı.[118] Prezident Heydər Əliyev 1996-cı il iyunun 22-də "Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında", 1997-ci il sentyabrın 13-də "Gənc istedadlar üçün xüsusi təqaüdlər təsis edilməsi haqqında" fərmanlar verdi.[119]

Fidan və Xuraman Qasımova bacılarının bənzərsiz ifaçılıq sənəti yeni zirvələr fəth etmişdi.

Respublikanın musiqi kollektivləri, ayrı-ayrı ifaçılar tez-tez xarici ölkələrə qastrola dəvət olunur, Azərbaycan musiqisini dünyada təbliğ edirdilər. Müğənnilər Zeynəb Xanlarovanın, Alim Qasımovun, Səkinə İsmayılovanın, caz vokal ustası və pianoçu Əzizə Mustafazadənin və onlarla başqa sənətçinin ABŞ, Kanada, Fransa, İngiltərə, Almaniya, İsveç, İtaliya, Rusiya, Türkiyə, İraq, İsrail, Çin və başqa ölkələrdə çıxışları böyük maraqla qarşılanırdı. 2000-ci ildə Alim Qasımov Avropada diskləri ən çox satılan 5 ifaçıdan biri idi.[120] Lütfiyar İmanov, Xuraman Qasımova kimi görkəmli vokal ustaları, onlarla başqa musiqiçi Türkiyə musiqi təhsili müəssisələrində dərs deməyə dəvət olunurdular.

Dövlət, maddi imkanları hələ məhdud olsa da, teatr, musiqi kollektivlərinin yaşamasına, inkişaf etməsinə qayğı göstərirdi. Prezident Heydər Əliyev 1997-ci il dekabrın 2-də "Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında", 1999-cu il dekabrın 6-da "Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppası işçilərinin sosial təminatının yaxşılaşdırılması haqqında", 2000-ci il iyunun 2-də "Azərbaycan Dövlət Xor Kapellasının sosial təminatını yaxşılaşdırmaq haqqında", 2001-ci il oktyabrın 15-də "Azərbaycan Dövlət Rəqs Ansamblı işçilərinin sosial təminatını yaxşılaşdırmaq haqqında" fərmanlar verdi.[121]

2002-ci ilin yayında YUNESKO katibliyinin qeyri-maddi irsin öyrənilməsi şöbəsinin himayəsi ilə Alim Qasımov "Alim" Ümumdünya Muğam Mərkəzi yaratmağa başlamışdı.[122]

Azərbaycan kinosu, bütün maddi çətinliklərə baxmayaraq, inkişaf etməkdə idi. Müstəqil kinostudiyalar təşkil olunmuşdu. "Azərbaycanfilm" kinostudiyası 1994-cü ildən yenidən dövlət büdcəsindən maliyyələşdirilməyə başlanmış, Azərbaycanda istehsal olunmuş filmlərin toplanması, bərpası və səmərəli istifadə olunması üçün Dövlət Kino Fondu təşkil edilmişdi.[123]

Azərbaycan kinosunun görkəmli rejissorları sırasına Vaqif Mustafayev, Ayaz Salayev, Hüseyn Mehdiyev kimi istedadlı sənətkarlar daxil olmuşdu. Vaqif Mustafayev Avropa Televiziya və Kino Akademiyasının üzvü seçilmişdi.

Azərbaycan kinematoqrafçıları "Əhli-kef", "Fransız", "Hər şey yaxşı olacaq" (rejissor V.Mustafayev), "Yarasa" (rejissor Ayaz Salayev), "Həm ziyarət, həm ticarət", "Yerlə göy arasında" (rejissor Rasim Ocaqov), "Uçurulmuş körpü", "Özgə vaxtı" (rejissor Hüseyn Mehdiyev) kimi bir sıra yüksək bədii dəyərli filmlər yaratmışdılar. Müharibə, erməni quldurlarının vəhşiliyi, qaçqınlıq həyatının dəhşətləri Azərbaycan kinosuna yeni mövzular gətirmişdi. "Ağ atlı oğlan" (rejissor Ə.Əbluc), "Fəryad" (rejissor C.Mirzəyev) kimi təsirli, realist kinolentlər yaradılmışdı.

Azərbaycan sənədli kinosu da xeyli inkişaf etmişdi. Müstəqillik uğrunda mübarizə, Qarabağ müharibəsi, ölkədə siyasi sabitlik yaradılmasını, iqtisadi tərəqqini, demokratik prosesləri, dövlətin xarici aləmdə nüfuzunun yüksəlməsini əks etdirən yüzlərlə maraqlı, ibrətamiz kino-videolent çəkilmişdi. Müdafiə Nazirliyinin sənədli kinostudiyası da bu sahədə fəal iş görürdü.

Heydər Əliyevin fenomen şəxsiyyəti və ömür yolu haqqında rejissor Vaqif Mustafayevin yaratdığı "General", "Birinci", "Moskva-Kreml", "Lider", "Tale", "Əsil məhəbbət haqqında" və "Bir həsədin tarixi" sənədli filmləri Azərbaycan kino tarixində əlamətdar hadisəyə çevrildi.

Azərbaycan kinosu dünya ekranlarında geniş təmsil olunmağa başlamışdı. 1995-ci ilin noyabr ayında 10 Azərbaycan bədii filmi ilk dəfə Beynəlxalq Nant - "Üç qitə" kinofestivalında nümayiş etdirildi.[124] "Yarasa" bədii fılmi 1996-cı ildə Fransada keçirilən "Birinci plan" Beynəlxalq Kinofestivalında "Avropanın tammetrajlı ən yaxşı bədii filmi" adına, Misir Beynəlxalq Kinofestivalında ən yüksək mükafata layiq görüldü.[125] 1997-ci ildə Beynəlxalq Madrid Kinofestivalında "Özgə vaxt" filmi yüksək qiymətləndirildi, onun yaradıcıları H.Mehdiyev ən yaxşı rejissor, A.Mirqasımova isə ən yaxşı qadın rolu ifaçısı adına layiq gorüldülər.[126] Həmin il "Cavan qadın üçün kişi" filmi (rejissor Murad İbrahimbəyov) Kolumbiyanın paytaxtı Boqotada XIV Beynəlxalq Kinofestivalında Bürünc mükafat aldı.[127] 2001-ci ildə Moskvada Avrasiya teleforumunda "Əsil

məhəbbət haqqında" sənədli film (rejissor V.Mustafayev) üç mükafata, 2002-ci ildə "Bir həsədin tarixi" filmi (rejissor V.Mustafayev) "Qran-Pri" mükafatına layiq görüldü. İkinci film 2002-ci ildə Rusiyada keçirilmiş XIII sənədli kinofestivalının "Dünyanın qüdrətli şəxsiyyətlərinin inandırıcı və parlaq portretinə görə" xüsusi mükafatını almışdı.[128]

90-cı illərin əvvəllərində respublikanın şəhər və qəsəbələrində meydanlar, parklar "monumental kommunist təbliğatı"na xidmət edən heykəl və abidələrdən təmizlənirdi. Dağüstü parkda Şəhidlər Xiyabanı salındı. Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə burada şəhidlərə 21 metr hündürlüyü olan möhtəşəm bir abidə və əbədi məşəl (müəllifləri - Ö.Eldarov, E.Qasımzadə, A.Abdullayev və N.Vəliyev) qoyuldu. Paytaxtda Hüseyn Cavidin (1994-cü il, heykəltəraş Ö.Eldarov), Şah İsmayıl Xətainin (1993-cü il, heykəltəraşlar İ.Zeynalov və Z.Mehdiyev), akademik Yusif Məmmədəliyevin (1998-ci il, heykəltəraş A.Ələsgərov), Xızıda Cəfər Cabbarlının (1999-cu il, heykəltəraş C.Qaryağdı) yüksək bədii dəyərli heykəlləri ucaldıldı. 1996-cı ildə Naxçıvanda möhtəşəm Hüseyn Cavid məqbərəsi (müəlliflər - Ö.Eldarov və R.Əliyev) tikildi. 1997-ci ilin baharında görkəmli heykəltəraş Ömər Eldarov akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi məşhur "Elegiya" əsərini tamamladı.

Azərbaycanın fırça ustaları da gözəl sənət əsərləri yaradırdılar. Azərbaycan rəssamlarının əsərləri dünyanın sərgi salonlarında böyük uğurla nümayiş olunurdu. 1995-ci ildə ABŞ-da, 1996-cı ildə Almaniyada Səttar Bəhlulzadənin əsərləri sərgisi təşkil olunmuşdu.[129] 1996-cı ildə Parisdə dünya rəssamları sərgisində Toğrul Nərimanbəyovun, 1997-ci ildə Vaşinqton, Nyu-York və Çikaqoda Kamil Nəsibzadənin əsərləri nümayiş etdirilmişdi.[130]

Xalça rəssamları Kamil Əliyevin və Eldar Mikayılovun əsərləri yüksək bədii sənətkarlıq nümunələri idi. K.Əliyevin Atatürkün, Heydər Əliyevin portretləri toxunmuş xalçalarında Azərbaycan xalçaçılıq sənətinin ən yaxşı ənənələri yaradıcılıqla inkişaf etdirilmişdi. 1996-cı ildə Brüsseldə E.Mikayılovun bənzərsiz gözəlliyə malik xalçaları böyük müvəffəqiyyətlə nümayiş etdirilmişdi.[131] Xalça rəssamı Tahir Məcidovun Heydər Əliyevə həsr etdiyi "Qayıdış" xalçası yüksək sənətkarlığı ilə diqqəti cəlb edirdi.[132]

Respublikanın fırça və tişə ustaları bu illərdə müharibə, qəhrəmanlıq, vətənpərvərlik mövzularına tez-tez müraciət edirdilər, xalqı birliyə, düşmənə qarşı döyüşə, qələbəyə çağıran əsərlər yaranırdı. C.Qasımovun, F.Hüseynovun, K.Əlizadənin və başqalarının bu mövzularda plakatları xüsusən maraqlı və təsirli idi.

Müstəqillik illərində Azərbaycan incəsənətində formaca ənənəyə bağlılıq və müasirlik, məzmunca özəl milli və bəşəri dəyərlərin tərənnümü üstünlük təşkil edirdi.

Azərbaycan cəmiyyətinin mədəni, mənəvi həyatında mühüm dəyişikliklər baş verdi. Müharibəyə, erməni işğalçıları tərəfindən minlərlə sosial-mədəni obyektin məhv edilməsinə, postsovet respublikaları ilə mədəni əlaqələrin zəifləməsinə və bir çox sahələrdə tam qırılmasına, vəsait çatışmazlığına, təxribatçıların törətdiyi çətinliklərə baxmayaraq, bu dövrdə Azərbaycan mədəniyyəti mübarizliyi, mənəvi qüvvələrin öz kökünə və bəşəri dəyərlərə daha möhkəm bağlılığı ilə səciyyələnirdi.

## §4. MİLLİ İDEOLOGİYANIN FORMALAŞMASI

Respublikanın dövlət müstəqilliyinin bərqərarlaşması, ölkədə siyasi və iqtisadi sabitlik, beynəlxalq əlaqələrin genişlənməsi, iqtidar tərəfindən ardıcıl həyata keçirilən əməli tədbirlər azərbaycançılıq məfkurəsinin-milli və bəşəri dəyərlərə əsaslanan suveren, dünyəvi dövlətçilik, mədəni və iqtisadi yüksəliş ideologiyasının formalaşması, inkişaf etməsi üçün zəmin yaratmışdı.

Vətənpərvərlik, öz xalqı, dili, dini, zəngin mədəniyyəti, keçdiyi tarixi yol üçün milli qürur, humanizm kimi Azərbaycan xalqının ən səciyyəvi milli-mənəvi dəyərlərini inkişaf etdirmək, gənc nəsli bu dəyərlər ruhunda tərbiyə etmək ideoloji fəaliyyətin əsas meyarı idi. Prezident Heydər Əliyev qeyd edirdi: "Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir".[133]

Milli özünəməxsusluğun ən mühüm təzahürü olan Azərbaycan dilinin inkişafı, təmizliyinin qorunması, dövlət dili statusunun tətbiqi sahəsində mühüm addımlar atıldı. Prezident Heydər Əliyev 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqinin təkmilləşdirilməsi haqqında" Fərman verdi. Dövlət başçısı yanında "Dövlət Dil Komissiyası" yaradıldı.[134] 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun qəbul edildi. Bu Qanun Azərbaycan Prezidentinin 2003-cü il 2 yanvar tarixli Fərmanı ilə qüvvəyə mindi.[138a]

Xalqın ümumtürk mədəniyyətinə qovuşmasında önəmli əhəmiyyəti olduğunu nəzərə alaraq, hələ 1991-ci il dekabrın 24-də latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında Qanun qəbul edilmişdi. 1992-ci ilin sentyabr ayından orta məktəblərin birinci sinfində dərslər bu qrafika üzrə keçirilməyə başlanmışdı, lakin texniki çətinliklərə görə qəzet və jurnallar hələlik kiril qrafikası ilə çap olunur, kargüzarlıq işləri əsasən bu qrafika ilə aparılırdı. Prezident Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli Fərmanına əsasən həmin il avqust ayının 1-dən latın qrafikalı əlifba qəti tətbiq edildi. Bu gün "Azərbaycan əlifbası və Azərbaycan dili günü" elan olundu.[135]

Ölkədə aparılan demokratik islahatlar milli ideologiyanın humanist, demokratik xarakterini daha da dərinləşdirirdi.

Prezident Heydər Əliyev islam dininin insan mənəviyyatını saflaşdırıcı xüsusiyyətlərindən və mənəvi emosional təsir gücündən milli birlik və barışıq vasitəsi kimi səmərəli istifadə edilməsini Azərbaycançılıq məfkurəsinin fundamental prinsiplərindən biri kimi qiymətləndirdi.[136] İslam dini icmaları, müqəddəs ocaqlar bərpa olunur, yeniləri yaradılırdı. 1992-ci il iyulun 21-də "Dini etiqad azadlığı haqqında" Qanun qəbul edildi.[137] 1991-2001-ci illərdə respublikada məscidlərin sayı 19-dan 1236-ya çatmışdı. Şəhər və kəndlərdə 160-a qədər, o cümlədən Bakının Şəhidlər Xiyabanında, Yeni Yasamal, Qaraçuxur qəsəbələrində, Novxanı, Hökməli, Nardaran kəndlərində, "Mir Möhsün ağa", "Əliayağı" pirləri üzərində məscidlər tikilmişdi.[138] 1999-cu ilin noyabr ayında Naxçıvanda yeni tikilmiş "Həzrəti Zəhra (s.) məscidi" açılmışdı. "İmamzadə" məscidi və türbələr, "Əshabü-kəf" ziyarətgahı təmir edilib abadlaşdırılmışdı. Şərur rayonunun Aralıq, Babək rayonunun Çeşməbazar kəndlərində "Heydər məscidləri" tikilmişdi.[139]

Sovet hakimiyyəti illərində dağılmış müqəddəs ocaqlar, pirlər, məscidlər bərpa olunmağa başlanmışdı. Bayıl qəsəbəsində "Bibiheybət piri" bərpa edilmiş, İmam Rzanın bacısı Hökümə xanımın müqəddəs qəbri üzərindəki 1935-ci ildə yerlə - yeksan edilmiş "Bibiheybət məscidi" yerində ikiminarəli, irigünbəzli əzəmətli məscid binası tikilmişdi.

Hər il Həcc mərasimi günlərində yüzlərlə dindarın müqəddəs Kəbəni, habelə islamın başqa müqəddəs ocaqlarını ziyarət etməsi üçün lazımi tədbirlər görülürdü.

"Qurani-Kərim"in yeni tərcümə-təfsirləri hazırlanmış (biri Ziya Bünyadov və Vasim Məmmədəliyev, digəri isə N.Qasımoğlu tərəfindən) və çap olunmuşdu. "İslamın səsi", "İslam dünyası", "İslam" qəzetləri nəşr edilirdi.

1989-1990-cı illərdə fəaliyyət göstərmiş "Bakı Mədrəsəsi" 1991-ci ildə "Bakı İslam İnstitutu"na, 1994-cü ildə isə bu institut "Qafqaz İslam Universiteti"nə, 1997-ci ildə isə "Bakı İslam Universiteti"nə çevrilmişdi. Bir çox şəhərlərdə mədrəsələr fəaliyyət göstərirdi.[140]

İqtidar dindarlara, qanuni dini icmalara qayğı ilə yanaşır, islam dininin müstəqillik və dövlətçiliyin dayağı olan vətəndaş həmrəyliyi, xalq birliyi yaradılmasında böyük imkanlarını düzgün qiymətləndirirdi. Dövlət müstəqilliyi şəraitində xalqın ənənəvi mədəniyyətinə ehtiram və qayğı ilə yanaşılmağa başlanmışdı. Milli Məclisin 1992-ci il oktyabrın 27-də qəbul etdiyi "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən "Novruz", "Mövlud", "Qurban" və "Ramazan" (Orucluq) bayramları hər il rəsmi qeyd olunurdu.[141] Prezident Heydər Əliyev dinə və dindarlara ehtiramla yanaşırdı. O, islam dini mərkəzlərini, müqəddəs Kəbəni ziyarətə getmişdi. Tez-tez dindarlarla görüşürdü. 1997-ci ilin payızında Prezident Bibiheybət pirini ziyarət edərkən burada başlanmış məscid tikintisini öz himayəsinə götürmüş, bu məqsədlə 3 milyard

manat vəsait ayırmışdı.[142] Heydər Əliyev milli-əxlaqi mentalitetdə islam əxlaqı normalarının əhəmiyyətini yüksək qiymətləndirir, onların inkişaf etdirilməsinə, yayılmasına səsləyirdi. Eyni zamanda qeyd edirdi ki, fundamentalizmə və fanatizmə yol verilməməlidir.[143]

İslam dini Azərbaycan xalqını birləşdirici amil olduğundan əhalinin mənəvi birliyini parçalamağa çalışan qüvvələr sünni və şiələr arasında nifaq salmağa cəhd göstərirdilər. Xüsusi xidmət zabitləri Şərq və Qərb dini missionerləri libasında geniş pozucu təbliğat işləri aparır, informasiya mərkəzləri açır, pulsuz dini kitablar, qəzet və jurnallar yayırdılar.[144] Bu sahədə xüsusən İrandan gələn "missionerlər" daha fəal idilər. Lakin islam dini bayrağı altında məkrli siyasi məqsədlər, qara niyyətlər güdən qüvvələr layiqli cavablarını alırdılar.

Respublikada pravoslav, yəhudi dini konfessiyalarının azad inkişafı üçün şərait vardı. 1999-cu ilin əvvəllərində Rus kilsəsinin Bakı-Xəzəryanı Yeparxiyası təşkil olundu (bu yeparxiya əvvəllər -1934-cü ilədək də mövcud olmuşdu). Buraya Azərbaycan, Dağıstan və Çeçenistandakı pravoslav kilsələri daxil idi.[145]

2001-ci ilin mayında Bakıda olmuş Moskva və Bütün Rusiya Patriarxı II Aleksi Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Allahşükür Paşazadəyə məktubunda qeyd edirdi ki, Azərbaycanda qeyri millətlərə mənsub insanlar özlərini "ikinci növ adam" kimi hiss etmirlər, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Burada dinlərarası əlaqə səviyyəsi müsəlmanlarla xristianlar arasında qarşılıqlı əməkdaşlığın etalonu ola bilər.[146] 2001-ci il sentyabrın ortalarında Azərbaycanda olmuş Avropa Şurası Parlament Assambleyasının sədri Lord Rassel Conston bildirmişdi ki, burada "bütün dini konfessiyaların qarşılıqlı dözüm şəraitində fəaliyyət göstərməsi dünyada nadir hadisələrdəndir".[147] 2002-ci il may ayının 22-də Bakıya rəsmi səfərə gəlmiş Vatikan dövlətinin başçısı, dünya katoliklərinin dini rəhbəri olan Roma Papası II İohan Pavel Azərbaycanı "dini dözümlülüyü hər bir həqiqi sivilizasiyanın ilkin dəyəri kimi dərk və qəbul edən... ölkə" adlandırmışdı, O, dövlət başçısı, din, mədəniyyət, incəsənət və siyasət xadimləri ilə görüşündə qeyd etmişdi ki, "...ürək açıqlığına, qonaqpərvərliyə görə, digər dinlərə etiqad bəsləyənləri öz qardaşlarınız kimi qəbul etdiyinizə görə Azərbaycandakı islam övladlarına eşq olsun... Qoy üç böyük din (islam, xristian və yəhudi - *red)* tərəfindən izhar edilmiş bu məhəbbət şahidliyinə görə Allaha həmd olsun!"[148].

Prezident Heydər Əliyev dediyi kimi, çoxkonfessiyalı ölkə olan Azərbaycan dünyada dinlərarası, mədəniyyətlərarası əlaqələrin genişlənməsi və möhkəmlənməsi işinə öz layiqli töhfəsini verir. 1998-ci ildə Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" mövzusunda geniş tərkibli beynəlxalq simpozium, 2002-ci ilin oktyabrında "Demokratik cəmiyyətdə dinin və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda ATƏT-in Bakı konfransı bu baxımdan mühüm hadisələr idi.[149]

Vicdan azadlığı, başqa dinlərə hörmət hissləri hakim olduğu respublikada 37 xristian təşkilatı qeydə alınmışdı. Lakin çoxları da qeydiyyatsız, xeyriyyə cəmiyyətləri adı altında fəaliyyət göstərirdi. Xristian missionerlərinin "Bakı Bibliya İnstitutu", "Löninq sentə" və digər tədris müəssisələri, "Həyat sözü", "Həyatverici lütf", "Yeni Apostol", "Yevangelçi xristian baptistləri", "Yeddinci günün şahidləri" və başqa icmalar təşkil edilmişdi. Bakıda "Krişna şüuru"nu yayan icma fəaliyyət göstərirdi. Yüz minlərlə nüsxə, o cümlədən Azərbaycan dilində, pulsuz dini ədəbiyyat yayılırdı.[150]

Missionerlər çox vaxt Azərbaycan Konstitusiyasını pozur, zorakı tədbirlərə əl atır, fırıldaqçılıq edir, orduda, qaçqın və köçkünlərin məskunlaşdığı yerlərdə, xüsusən çadır şəhərciklərində, azsaylı xalqlar arasında təbliğat işi aparır, islam ənənələrini təhqir edir, fatalist fikirlər yayırdılar.[151]

Qeyri-islam dini icmaların zorakı, təhqiredici əməlləri islam təəssübkeşləri arasında əks reaksiya doğururdu. 1990-cı illərin ortalarında "Ceyşüllah" (Allah Ordusu təşkilatı) aşkar edilib zərərsizləşdirilmişdi.[152] Prezident Heydər Əliyevin 1997-ci il 8 yanvar tarixli xüsusi sərəncamı ilə Azərbaycanda xarici dini missionerlərin pozuculuq fəaliyyəti qadağan edildi.[153]

Humanist islam dəyərlərinə sadiq olan dini icmalar, Qafqaz Müsəlmanları Ruhani İdarəsi əhalinin mənəvi birliyi, müxtəlif dünyagörüşlərinə, dinlərə mənsub insanlar arasında qarşılıqlı tolerant yaranması işində, dindarlar tərəfindən dövlətçiliyin və müstəqilliyin müdafiə olunmasında fəal mövqe tuturdular. 1995-ci ildə "Avrasiya İslam Şurası" təşkil edilmişdi. 1997-ci ildə təbliğat vasitələri ilə islam dəyərlərini qoruyub saxlamaq, missionerlərin pozucu fəaliyyətinə qarşı mübarizə aparmaq məqsədilə Qafqaz Müsəlmanları Ruhani İdarəsində tanınmış din və elm xadimlərinin "Elmi-Dini Məsləhət Şurası" yaradılmışdı.[154] 2001-ci il iyunun 21-də "Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi" təsis edilmişdi.[155]

Azərbaycan açıq, dünyəvi cəmiyyət idi. Əhalinin həyat tərzinə bəşər mədəniyyətinin ən yüksək dəyərləri ilə yanaşı, xalqın mənəviyyatına, milli psixologiyasına, dininə yad olan cəhətlər də təsir göstərirdi. Çoxlu kazino, gecə barı, oyun totalizatoru peyda olmuşdu. Bəzi gecə klublarında səhərə qədər müxtəlif oyunlar, əyləncələr təşkil edilir, çox vaxt bu əyləncələr ifrat dərəcəyə çataraq, xalqın mənəviyyatına zidd forma alır, gənclərin əxlaqını pozurdu. "Sarı mətbuat", "bulvar ədəbiyyatı" insanlar arasında mənəvi pozuculuq işləri aparırdı.[156] Prezident Heydər Əliyev 1998-ci ilin yanvarında xalqın mentalitetinə zidd müəssisələrin ləğv edilməsi haqqında sərəncam verdi. Prezident 2001-ci il avqustun 13-də verdiyi bəyanatda "əxlaqsızlıq biznesi"nə, "harınlamış zənginlər"in alçaq hərəkətlərinə qarşı qanun çərçivəsində mübarizəni gücləndirmək üçün xalqın bütün sağlam mənəvi qüvvələrini səfərbər olmağa çağırdı.[157]

Xalqda öz tarixi və mədəniyyəti üçün qürur hissinin inkişaf etdirilməsi milli ideologiyanın mühüm qaynaqlarından idi. Prezident Heydər Əliyev qeyd edirdi ki, "Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir".[158] Bu sahədə respublikanın tarixçi alimləri, yazıçıları çox faydalı işlər görürdü. Xalqı özünə və başqalarına daha yaxşı tanıtmaq üçün görkəmli tarixi hadisələrin, siyasət, elm və mədəniyyət xadimlərinin yubileyləri geniş qeyd edilirdi.

1996-cı ilin payızında Füzulinin 500 illik yubileyi təntənə ilə qeyd olundu. Bakıya xarici ölkələrdən ədəbiyyatşünas, dilşünas alimlər, yazıçılar gəlmişdi. 1998-ci ildə Azərbaycan teatrının, 2000-ci ildə Azərbaycan mətbuatının 125 illiyi, 2001-ci ildə dünya şöhrətli alim və mütəfəkkir Nəsirəddin Tusinin yubileyi, 2002-ci ildə Bakı Bələdiyyə Teatrının 10 illiyi geniş qeyd olundu. Görkəmli dövlət xadimlərinin, alim və yazıçıların, musiqiçilərin və aktyorların yubileylərinin qeyd olunması ənənəyə çevrilmişdi. Şairlər Bəxtiyar Vahabzadənin, Xəlil Rza (Ulutürk), Məmməd Araz, Mirvarid Dilbazi yazıçı Əkrəm Əylisli, rəssam Mikayıl Abdullayev, heykəltəraş Ömər Eldarov, alim Azad Mirzəcanzadə, xalq artistləri Lütfiyar İmanov Əminə Dilbazi, bəstəkar Tofiq Quliyev ölkənin ən yüksək mükafatı -İstiqlal ordeni ilə təltif edildilər. Onlarla görkəmli alim, yazıçı, artist Şöhrət ordeni ilə təltif olundu.

ABŞ-da yaşayan dünya şöhrətli alim Lütfi Zadə, Rusiyada yaşayan, uzun illər SSRİ-də pilotlu kosmik uçuşlara rəhbərlik edən Dövlət Komissiyasının sədri olmuş general, AMEA-nın fəxri akademiki Kərim Kərimov kimi görkəmli azərbaycanlıların xalqa tanıdılması üçün təbliğat işləri aparılırdı. 2002-ci ilin oktyabrında İran rəssamı, azərbaycanlı Vədud Müəzzinin Bakıda düzənlənmiş fərdi sərgisi ictimaiyyətin böyük marağına səbəb olmuşdu.[159]

Azərbaycan xalqı dünya şöhrətli alim Landaunun, musiqiçi Rostropoviçin, təyyarəçi-kosmonavt Musa Manarovun bakılı olması ilə fəxr edirdilər.

Paytaxtda 600-dən çox küçəyə Azərbaycanın görkəmli şəxsiyyətlərinin - siyasi xadimlərin, milli qəhrəmanların, alim və yazıçıların, mədəniyyət xadimlərinin adı verilmişdi.[160]

1995-ci ilin mayında İkinci dünya müharibəsində faşizm üzərində Azərbaycanın, Bakının, xüsusən onun neftinin həlledici rol oynadığı qələbənin 50 illik yubileyi geniş qeyd edildi.[161]

1998-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi, 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi yüksək səviyyədə keçirildi.

Hər il 28 May - Respublika Günü (1992-ci ildən), 15 İyun -Qurtuluş Günü (1997-ci ildən), 26 İyun - Silahlı Qüvvələr Günü (1997-ci ildən), 18 Oktyabr - Dövlət Müstəqilliyi Günü (1992-ci ildən), 12 Noyabr - Konstitusiya Günü (1996-cı

ildən), 17 Noyabr-Milli Dirçəliş Günü (1992-ci ildən), 31 Dekabr-Dünya Azərbaycanlıları Günü (1990-cı ildən) bayram kimi qeyd olunurdu.[162] 20 Yanvar - Matəm Günü Bakıdakı və başqa şəhərlərdəki Şəhidlər xiyabanlarını yüz minlərlə insan ziyarət edirdi. 1997-ci ildən Xocalıda azərbaycanlıların soyqırımı qurbanları xatirəsinə ehtiram əlaməti olaraq fevralın 26-da saat 17-də Sükut dəqiqəsi elan olunmuşdu.[163]

Xalqın mənəvi gücünün artmasına erməni-azərbaycanlı münaqişəsi haqqında həqiqətlərin öyrənilməsi mühüm təsir göstərirdi. Ermənilərin Azərbaycan torpaqlarını ələ keçirmək üçün azərbaycanlılara qarşı apardıqları siyasətin mahiyyətinin açılmasına, tarixi yaddaşın möhkəmlənməsinə xüsusi diqqət yetirilirdi. Prezident Heydər Əliyev qeyd edirdi: "Xalqımız... daim bilməlidir ki, bizim tarixi torpaqlarımız hansılar olubdur. Hansılar, nə vaxt əlimizdən gedibdir, niyə görə əlimizdən gedibdir və şübhəsiz ki, bunlar qayıtmalıdır. Biz də qaytara bilməsək, gələcək nəsillər bunları qaytaracaqlar".[164] Onun "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən, tarixi etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 17 dekabr,[165] "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart[166] tarixli fərmanlarında son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı siyasəti ifşa olunmuşdu. Bu tarixi cinayətlərə ilk dəfə hüquqi-siyasi qiymət verilmişdi. Onların xalqa, beynəlxalq ictimaiyyətə çatdırılması üçün konkret tədbirlər görülməyə başlanmışdı.

Prezident Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi 1994-cü il martın 29-da 1990-cı il 20 Yanvar hadisəsinə obyektiv hüquqi-siyasi qiymət verdi, onun səbəbləri, mahiyyəti təhlil olundu və xalqa çatdırıldı.

Dövlətçilik rəmzlərinin, 1993-cü ildən sonra iqtidarın çoxcəhətli siyasəti sayəsində bütün sahələrdə əldə olunan uğurların geniş təbliğ edilməsi xalqda özünə inam, nikbinlik, qürur hissi doğururdu. Prezident 1998-ci il aprelin 13-də "Azərbaycan Respublikası dövlət atributlarının təbliği işini gücləndirmək haqqında" Fərman verdi.[167]

Milli ideologiyanın formalaşması dünyada yaşayan azərbaycanlıların mənəvi, mədəni birliyinin daha da inkişaf etməsinə imkanlar açırdı. Dünyada 50 milyona yaxın azərbaycanlı yaşayırdı. Onların 35 milyonu Azərbaycan Respublikasında və İranda, 3 milyonu Türkiyədə, 1 milyondan çoxu Rusiyada, 0,5 milyonu Almaniyada, 1,5 milyonu İraqda, 600 mini ABŞ-da, 32 mini Böyük Britaniyada, 200 mini Səudiyyə Ərəbistanında, 600 mini İndoneziyada, 700 mini Gürcüstanda, 400 mini Qazaxıstanda, 250 mini Özbəkistanda, 170 mini Fransada, 15 mini Yaponiyada məskunlaşmışdı.[168]

Dünya azərbaycanlılarının təşkilatlanma prosesi Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ildən başlanmışdı.[169] Onların 1990 və 1997-ci illərdə İstanbulda, 1997-

ci ildə Los-Ancelesdə və 1998-ci ildə Vaşinqtonda konqresləri keçirilmişdi.[170] Dünyanın 30-dan çox ölkəsində azərbaycanlıların birləşdiyi 100-dən çox ictimai, milli-mədəni cəmiyyət, təşkilat-mərkəz, dərnək, ocaq, əncüman vardı.[171] Azərbaycanlıların Rusiyada 40-dan çox, Avropa ölkələrində 50-yə yaxın təşkilatı mövcud idi.[172] Yer üzərində yaşayan azərbaycanlıların koordinasiya mərkəzi Azərbaycan Prezidenti İcra Aparatı İctimai-Siyasi Şöbəsinin "Xaricdə Yaşayan Azərbaycanlılarla İş" strukturu idi.[173] Azərbaycanlıların xaricdəki cəmiyyətləri Azərbaycandakı "Vətən" cəmiyyəti, "Azərbaycan Dünyası" Beynəlxalq Mərkəzi, "Soydaş Assosiasiyası", "Dünya Azərbaycanlılarının Mədəniyyəti Mərkəzi" və başqa ictimai-siyasi təşkilatlarla əlaqə saxlayırdılar.[174] Onlar Azərbaycan mədəniyyətinin xarici ölkələrdə tanınmasında mühüm rol oynayırdılar. Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkil etdikləri onlarla təşkilat, o cümlədən Madriddə "Azərbaycan Dostları", Londonda "Azərbaycan Dayaqçıları" cəmiyyətləri, Stokholmda "Azərbaycan Mədəniyyət Mərkəzi", Malmödə "Azərbaycan Mədəniyyət Əncümanı", Kölndə "Azərbaycan Mədəniyyət Mərkəzi", Torontoda "Azərbaycan Mərkəzi", habelə İngiltərədə "Aydınlıq", "Odlar ölkəsi", Belçikada "Azərbaycan", "Qürbət", İsveçdə "Azərbaycan", Almaniyada "Ana dili", "Savalan", "Qaynarca", Türkiyədə "Xəzər", "Azərbaycan türkləri", İspaniyada "Dədə Qorqud", İraqda "Yurd", ABŞ-da "Azərbaycan" qəzetləri, İsveçdə "Araz" jurnalı, "Azərbaycanın səsi" kimi müxtəlif teleradio proqramları bu sahədə xüsusən fərqlənirdilər.[175] Lakin xaricdə yaşayan azərbaycanlılar vətəndaşı olduqları ölkələrdə Azərbaycanın maraqlarını daha təsirli müdafiə etmək üçün birləşib diaspor, lobbi təşkil edə bilmirdilər.

Prezident Heydər Əliyevin 2001-ci il mayın 23-də Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında mühüm sərəncamının həyata keçirilməsi üzrə ciddi təşkilatçılıq işlərinə başlanıldı.

2001-ci il noyabr ayının 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda 37 ölkədən nümayəndələr iştirak edirdi. Xarici ölkələrdən 560-dan çox nümayəndə və qonaq gəlmişdi. Nümayəndələrin təşkil etdikləri "İnsan hüquqları və beynəlxalq əlaqələr", "Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılması", "Mədəniyyət", "Elm və təhsil", "Ana dili və Azərbaycanşünaslıq", "İqtisadi əlaqələr", "Gənclər və idman məsələləri", "Kütləvi informasiya vasitələri və informasiya mübadiləsi" komissiyaları tərəfindən hazırlanmış sənədlər əsasında qurultayda qətnamə, Bütün Dünya Azərbaycanlılarına Müraciət, Ermənistan və Azərbaycan Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə, Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevə, habelə 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş qanlı terror hadisəsi ilə bağlı Amerika xalqına müraciətlər qəbul edildi. Qurultayda "Dünya

Azərbaycanlılarının Əlaqələndirmə Şurası" və onun idarə heyəti (sədri AMEA-nın prezidenti, akademik Mahmud Kərimov) seçildi.[176] Dünya Azərbaycanlılarının I qurultayının böyük tarixi əhəmiyyəti oldu. O, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların Vətənin mənafeyi naminə qüvvələri səfərbər etmək vasitələrini müəyyənləşdirdi, əlaqələrin möhkəmlənməsi və səmərəli olması üçün imkanlar yaratdı.

Əlaqələndirmə Şurasının köməyi ilə 150 ölkədə nümayəndəlik yaradıldı.[177] 2002-ci ildə "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi" təşkil edildi.

Xalqa aşılanırdı ki, o, böyük türk mədəniyyətinin, Nizami, Xaqani, İbn Sina, Qurbani, Xətai, Yunis İmrə, Nəsimi, Füzuli, Nəvai, Tusi, Bəhmənyar, Vaqif, Sabir, Şəhriyar və başqalarının varisidir. Türk dövlət və toplumlarının dostluq və iş birliyinə, xüsusən mədəni əlaqələrin inkişafına həsr olunmuş toplantılar keçirilirdi.

Türkdilli xalqların mənəvi birliyini möhkəmləndirmək, mədəniyyətini qarşılıqlı şəkildə inkişaf etdirmək, zənginləşdirmək və təbliğ etmək məqsədilə 1992-ci ilin ortalarında "Türkdilli Ölkələrin Mədəniyyət Nazirləri Daimi Konseyni", 1993-cü ilin əvvəllərində isə onun icra qurumu olan TÜRKSOY (Türk Kültür və Sanatları Ortak Yönətimi) fəaliyyətə başladı.[178] 1996-cı ildə aralarında bağlanan müqaviləyə əsasən YUNESKO TÜRKSOY-u tanıdı və dəstəkləməyə başladı.[179]

1996-cı ilin oktyabrında "Türkiyə-Azərbaycan Dostluq Vəqfi" təsis edildi.[180] 2001-ci ilin mart ayında Prezident Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Atatürk Mərkəzi" yaradıldı.[181]

Türkiyə-Azərbaycan dostluğu, türk əsgərlərinin 1918-1919-cu illərdə Azərbaycan xalqına, onun silahlı qüvvələrinə yadelli işğalçılara qarşı mübarizədə misilsiz köməyi, siyasi, iqtisadi və mədəni əməkdaşlıq faktları geniş təbliğ olunurdu. Türk tarixi, mədəniyyəti ədəbiyyatı sahəsində birgə araşdırmalar aparılırdı.

Azərbaycan xalqı onun yolunda sinəsini sipər etmiş türk əsgərini böyük minnətdarlıq hissi ilə xatırlayırdı. Türk əsgərlərinin məzarları abadlaşdırılmış, ziyarətgaha çevrilmişdi. 2000-ci ilin aprel ayında Bakıda türk əsgəri şərəfinə ucaldılmış möhtəşəm abidə açılmışdı.[182]

2001-ci il avqustun 24-də bir milyona qədər insan Bakının Azadlıq meydanında Türkiyə Hərbi Hava Qüvvələrinin "Türk Ulduzları" eskadrilyasının (dünyada 10 belə eskadrilya vardır) yüksək pilotaj nümunələrini böyük sevinclə qarşıladı.[183]

90-cı illərin ortalarında Asiya Mədəniyyət və İnkişaf İnstitutunun Azərbaycan filialı təşkil olundu. Onun Altay xalqları ilə əlaqə mərkəzi təsis edildi.[184]

1996-cı ilin noyabr ayında Bakıda Türk dünyası yazıçılarının III qurultayı keçirildi.[185]

Türkdilli xalqlar birlikdə "Manas dastanı"nın min illiyini, böyük qazax şairi və filosofu Abayın 150 illiyini, Özbəkistanın böyük dövlət xadimi Əmir Teymurun 660 illiyini, Füzulinin 500 illiyini, Şeyx Şamilin 200 illiyini geniş qeyd etdilər. 1997-ci ilin aprel ayında Prezident Heydər Əliyev Azərbaycan xalqının milli tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin geniş qeyd edilməsi haqqında Fərman verdi.[186] Yubiley Türk dünyasında böyük təntənə ilə qeyd edildi.

Müstəqillik dövründə respublikada yaşayan azsaylı xalqların mədəni tərəqqisinə diqqət daha da artırıldı. 1992-ci il sentyabrın 16-da "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Fərman verildi. Milli Azlıqlarla İş üzrə Şura təşkil olundu. Azərbaycan Mədəniyyət Fondu yanında azsaylı xalqların mədəniyyətinin qorunması və inkişafı üzrə Elmi Şura yaradıldı. Ləzgi, talış, kürd, udin, saxur, slavyan, yəhudi və başqa xalqların mədəniyyət mərkəzləri, cəmiyyətləri fəaliyyətini xeyli genişləndirdi. Ümumtəhsil məktəblərində aşağı siniflərdə bu xalqların dili tədris olunmağa başladı. 1993-cü ildə Qusarda Dövlət Ləzgi Teatrı təşkil olundu. "Azərnəşr"də azsaylı xalqlar redaksiyası yaradıldı. "Udin dili", "Ləzgi dili" və başqa dərsliklər, əlifbalar çap olundu. "Talışı-sado" (Talışın səsi), "Samur", "Vestnik" və başqa qəzetlər çap olunmağa başlandı.[188]

Dünya mədəniyyətinin ən gözəl incilərini xalqa tanıtmaq sahəsində də səmərəli işlər görülmüşdü. Hələ 1989-cu ilin baharında Azərbaycan Yazıçılar Birliyi yanında təşkil edilmiş Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi dünya ədəbiyyatı xəzinəsindən ən gözəl nümunələrin Azərbaycan dilinə orijinaldan tərcümə edilməsində mühüm rol oynayırdı. O.Süleymenov, Ç.Aytmatov, M.Svetayeva, F.Kafka, R.Rilke, T.Vulf, V.Şukşin, K.Doyl, Q.Markes, U.Folkner, B.Yıldız və digər dünya şöhrətli ədiblərin əsərləri Azərbaycan dilində nəşr olunmuşdu. Bu sahədə "Xəzər" jurnalı və "Yol" qəzeti xüsusən mühüm rol oynamışdı. Azərbaycan ədəbiyyatından ingilis, alman, rus, fransız, ərəb, fars dillərinə çoxlu tərcümə edilmişdi. 1996-cı ildən "Dünya Ədəbiyyatı Korifeyləri" seriyası çap olunmağa başlanmışdı.[189]

"Azərbaycanda Dünya Kinosunun 100 illiyi Fondu" və Respublika Kinematoqrafçılar İttifaqı MDB və Baltikyanı ölkələrin kinematoqrafçıları konfederasiyalarının dəstəyi ilə ənənəvi Bakı "Şərq-Qərb" kinofestivalını təşkil edirdilər. 2002-ci ilin oktyabr ayında V "Şərq-Qərb" kinofestivalında Çin, Rusiya, Türkiyə, Belarus, Estoniya, Latviya, Almaniya, Çexiya, Moldova, Fransa,

Özbəkistan, Qırğızıstan, Azərbaycan və b. ölkələrdə istehsal edilmiş filmlər nümayiş etdirildi.[190]

1991-ci ilin oktyabr ayında Moskvada Nizami Gəncəvinin abidəsi açılmışdı. Moskva və Sankt-Peterburqda Nizaminin 850 illiyi təntənə ilə qeyd edilmişdi. 1994-cü ildə Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Füzulinin 500 illiyinə həsr olunmuş təntənəli gecə, Polad Bülbüloğlunun 50 illik yubileyi münasibətilə böyük konsert təşkil olunmuşdu.[191] 2002-ci ilin iyun ayında Sankt-Peterburqda Nizaminin heykəli qoyuldu.

1996, 1999-cu illərin aprel, 2000-ci ilin mart və 2001, 2002-ci illərin aprel aylarında Rusiya Federasiyasında Azərbaycan mədəniyyəti günləri keçirilirdi. 1999-cu ilin may ayında Moskvada Azərbaycan kinosu günləri təşkil olundu. 1997-ci ildə Moskvada Rəşid Behbudovun, Bülbülün, Müslüm Maqomayevin (nəvə), 1999-cu ildə Rüstəm İbrahimbəyovun və başqalarının yubiley gecələri keçirilirdi. 2002-ci il dekabrın 11-də Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda Azərbaycan və Rusiya incəsənət ustalarının iştirakı ilə Fikrət Əmirovun 80, Niyazinin 90 illiyinə həsr olunmuş böyük konsert oldu.[192]

Xalqın Rusiya mədəniyyəti ilə daha yaxından tanış olmasına şərait yaradılırdı. 1997-ci il martın 31-dən aprelin 7-dək Azərbaycanda Rusiya Federasiyası mədəniyyəti günləri keçirilirdi. Böyük Teatr, Vaxtanqov adına Teatr, Obraztsov adına Kukla Teatrı, "Vivaldi orkestr", Rusiyanın məşhur artistləri öz yaradıcılıq uğurlarını nümayiş etdirirdilər. Rusiya Dövlət Tretyakov Qalereyasından görkəmli rus rəssamları Repin, Surikov, Vereşşagin, Serov, Şişkin və başqalarının 35 məşhur rəngkarlıq əsəri ilk dəfə olaraq Azərbaycanda (İncəsənət Muzeyində) nümayiş etdirildi.[193] Həmin vaxt Bakıda Moskva günləri keçirildi. 2000-ci ilin iyun ayında Azərbaycanda Rusiya Federasiyası və Moskva şəhəri mədəniyyəti günləri, 2002-ci ilin aprel ayında Rusiya Federasiyası mədəniyyəti günləri təşkil olundu. 2002-ci ilin aprelində İncəsənət Muzeyində açılmış vernisajda "XVIII-XX əsr Rusiya incəsənəti" mövzusunda Rusiya muzey və qalereyalarının 3000-dək nadir eksponatı nümayiş etdirilmişdi.[194]

1997-ci ilin sentyabr ayında Bakıda Finlandiya mədəniyyəti günləri təşkil edildi. 1999-cu ilin mart ayında Bakıda Dağıstan mədəniyyəti günləri keçirildi.[195]

2001-ci ilin oktyabr ayında Bakının ən gözəl guşələrindən birində böyük rus şairi A.S.Puşkinin möhtəşəm abidəsi (heykəltəraş Yuri Orexov) açıldı.[196] Həmin il Bakı Slavyan Universitetində "Ukrayna Mədəniyyət Mərkəzi" təşkil edildi, "Rusiya Mədəniyyət Mərkəzi" yaradılmağa başlandı.[197] Kiyevdə Beynəlxalq Kadr Akademiyasının Regionlararası İşçi Heyətinin İdarəetmə Akademiyası çərçivəsində Heydər Əliyev adına "Ukrayna-Azərbaycan Beynəlxalq Münasibətlər və Sosial Elmlər İnstitutu" uğurla fəaliyyət göstərirdi.[198]

Azərbaycanın başqa ölkələrlə də mədəni əlaqələri inkişaf edirdi. 1992-ci ilin yayında "Azərbaycan-Almaniya Cəmiyyəti" təsis edilmiş, iki ölkə arasında mədəni əlaqələrin inkişafı üçün münasib imkanlar açılmışdı.[199] 1995-ci ilin baharında Almaniyada Azərbaycan, Azərbaycanda isə Almaniya fırça ustalarının əsərlərindən ibarət sərgilər təşkil olunmuşdu.[200] 1996-cı ilin sonlarında Azərbaycan-İran mədəni əməkdaşlığı haqqında müqavilə imzalandı.[201] Həmin il Azərbaycan-İsveç Dostluq Cəmiyyəti yaradıldı.[202]1998-ci ilin fevral ayında Azərbaycan-Dağıstan Dostluq Cəmiyyəti təsis edildi. 2001-ci ilin may ayında Belçika-Azərbaycan Dostluq Cəmiyyəti yaradıldı.[204] 2002-ci ilin aprel ayında Azərbaycan-Avstriya Mədəniyyət Mərkəzi tərəfindən Avstriyada təşkil edilmiş Azərbaycan mədəniyyəti günləri yüksək səviyyədə keçirilmişdi. Avstriya və Azərbaycan kitabxanaları arasında əməkdaşlıq haqqında müqavilə imzalanmışdı. 2002-ci ilin yayında Avstriya və Azərbaycanın mədəniyyət xadimləri birgə layihə əsasında ("Uşaq səsləri" Beynəlxalq festivalı çərçivəsində) Avstriya bəstəkarı Ulf-Diter Soykanın Azərbaycan nağılının motivləri əsasında yazdığı "Leylanın arzusu və ya narazı şahzadə xanım" uşaq operası Vyanada Azərbaycan və alman dillərində tamaşaya qoyuldu. 2002-ci ilin sentyabr ayında Bakıda Avstriya mədəniyyəti günləri keçirildi.[205] Həmin ilin noyabr ayında Tehranda İran və Azərbaycan Respublikası alimləri və bəstəkarlarının iştirakı ilə Birinci Beynəlxalq Azərbaycan Musiqisi seminarı keçirildi.[206]

2002-ci il oktyabrın 1-5-də Bakıda Azərbaycan, Skandinaviya və Cənubi Amerika ölkələri musiqiçilərinin iştirak etdiyi I Beynəlxalq Milli Musiqi Festivalı keçirildi.[207]

Azərbaycan xalqının qədim yazılı abidəsi - "Kitabi-Dədə Qorqud" rumın dilinə tərcümə edilib Buxarestdə çap olundu (professor Y.Nezvət tərcümə edib).[208]

2002-ci ilin aprelində "Azərbaycan-Yaponiya Cəmiyyəti"nin təşəbbüsü ilə "Azərbaycanda Yaponiya baharı" mövzusunda sərgi düzənlənmişdir.[209]

Bakı Təbriz və Paris şəhərləri ilə qardaşlaşmışdı. Sumqayıt şəhəri ilə Almaniyanın Lüdviqshafen şəhəri arasında hələ 70-ci illərin ortalarından başlanmış dostluq və əməkdaşlıq əlaqələri bərpa olunmuşdu.[210] 1997-ci ildə Lüdviqshafenin mərkəzi küçələrindən birinə "Sumqayıt" adı verilmişdi. Sumqayıtda qardaş şəhərin şərəfinə park açılmışdı.[211] 2002-ci ildə bu əlaqələrin yaranmasının 25 illiyi qeyd edilmişdi.[212]

ABŞ-Azərbaycan partnyorluq münasibətlərinin yaranması hələ 1972-ci ildə qardaşlaşmış Bakı və Hyuston şəhərləri arasında əlaqələrin genişlənməsinə səbəb olmuşdu.

Beləliklə, Azərbaycan dövlət müstəqilliyinin bərpa olunması və möhkəmləndirilməsi, milli ideologiyanın xalqın mədəni, mütərəqqi dini ənənələri və ümumbəşəri dəyərlər əsasında formalaşmasına qayğı göstərilməsi, bu ənənə və

dəyərlərə zidd hallara qarşı mübarizə aparılması insanların mənəvi aləmini zənginləşdirir, xalqın intellektual mədəni tərəqqisinə xidmət edirdi.

# NƏTİCƏ

"Azərbaycan tarixi" yeddinci cildinin əhatə etdiyi dövr bəşər tarixində İkinci dünya müharibəsi, iki ictimai sistem arasında "soyuq müharibə", nüvə müharibələri təhlükəsi, elmi-texniki inqilab və ictimai-iqtisadi həyatı keyfiyyətcə yeniləşdirən qabaqcıl texnologiyaların kəşfi, ekoloji problemlərin artması, mədəniyyətlərin toqquşması, sülh, yeni dünya müharibəsinə, dağıdıcı separatizmə, terrorizmə, ekstremizmə yol verməmək uğrunda mübarizə, dünya müstəmləkə sisteminin ləğvi və SSRİ-nin süqutu, yeni müstəqil dövlətlərin meydana gəlməsi, millətlərarası münaqişələrin gərginləşməsi, beynəlxalq münasibətlərin demokratiya, insan hüquqlarının müdafiəsi, bazar iqtisadiyyatı dəyərləri əsasında inkişafı kimi ciddi iqtisadi, siyasi, mənəvi, sosial və beynəlxalq proseslərlə zəngin olmuşdur. Bu proseslər Azərbaycan tarixində yerli, regional reallıqlarla, habelə xalqın mentaliteti ilə bağlı özünəməxsus şəkildə təzahür etmişdir və onların dərin elmi təhlili, obyektiv şərhi zəruridir.

Azərbaycan xalqı faşizmə qarşı mübarizədə dünyanın bütün mütərəqqi, demokratik qüvvələrinin tərəfində, Sovet İttifaqının Böyük Vətən müharibəsində həm ön, həm də arxa cəbhədə böyük fədakarlıq göstərmiş, bütün maddi və mənəvi sərvətlərini, xüsusilə qəhrəman oğul və qızlarını qələbə üçün səfərbər etmişdir. İkinci dünya müharibəsinin həlledici cəbhələrindən olan Şərq cəbhəsində faşizmin bel sütununu qıran sovet ordusu motorlarını hərəkətə gətirmiş Bakı nefti bu cahanşümul qələbənin həlledici amillərindən biri olmuşdur.

Müharibədən sonrakı illərdə Azərbaycan SSR-də sovet inzibati-amirlik sisteminin, kəskin təzyiqedici metodlarla olsa da, məqsədyönlü, səfərbəredici imkanlarından səmərəli istifadə edilməsi müharibənin vurduğu ziyanları tezliklə aradan qaldırmağa, Sovet respublikalarının qarşılıqlı əlaqəsinə, mərkəzdən və bir-birindən asılılığının artmasına xidmət edən SSRİ vahid təsərrüfat kompleksi qurulması tələbləri daxilində energetika, qara və əlvan metallurgiya, neft-kimya, neft maşınqayırma, cihazqayırma və başqa sənaye sahələrinin, yeni sənaye mərkəzlərinin, kənd təsərrüfatında pambıqçılıq, tərəvəzçilik, üzümçülüyün sürətlə inkişaf etməsinə səbəb olmuşdu. Sovet respublikalarının bir-birinə köməyi onların inkişafına mühüm təsir göstərmişdir. Azərbaycan SSR İttifaq büdcəsinə verdiyindən az götürür, xammalı, kadrları ilə başqa respublikaların xalq təsərrüfatının bərpası və inkişafına, xüsusən yeni neft rayonlarının kəşfi və işlənilməsinə yaxından kömək edirdi.

Elm, təhsil, ədəbiyyat, incəsənət, memarlıq və kütləvi informasiya vasitələri "kommunizm" ideologiyasının təzyiqi altında olsa da, xeyli inkişaf edə bilmiş,

sovet həyat tərzinin, Kommunist partiyasının və sovet sosialist sisteminin təbliğinə xidmət etsə də, mövcud rejimin xalqı monolit, idarəolunan kütləyə çevirmək cəhdləri tam baş tutmamışdı. Azərbaycanda "işıqlı gələcək naminə" fədakarlıqla çalışan sovet vətənpərvərləri ilə yanaşı, reallıqları düzgün qiymətləndirməyi bacaran insanlar da vardı. Mənəvi haçalanma, sözlə əməl arasında uyğunsuzluq yaranmışdı. "Milli bərabərlik", "beynəlmiləlçilik"dən danışan Mərkəzin şovinist rəhbərləri Azərbaycan xalqına qarşı diskriminasiya siyasəti həyata keçirir, azərbaycanlıların Ermənistan SSR ərazisindəki ata-baba torpaqlarından deportasiyasına, Azərbaycanda isə, əksinə, ermənilərin sayının artmasına və onların daha firavan yaşamasına şərait yaradırdılar.

50-ci illərin ortalarında köhnə iqtisadi idarəçilik metodlarını saxlamaqla siyasi sistemdə "mülayimləşmə", 80-ci illərin ortalarında isə, əksinə, köhnə siyasi rejimi saxlamaqla "əsaslı iqtisadi islahatlar" keçirmək - "yenidənqurma" cəhdləri ictimai-iqtisadi həyatda uzun illər yaranmış nizamı, sabitliyi pozmuş, xüsusən ictimai həyatda, sosial münasibətlərdə demokratik meyillərin meydana gəlməsinə və inkişafına səbəb olmuşdu. XX əsrin ortalarında keçirilən siyasi dəyişikliklər yeni tipli rəhbərlərin meydana gəlməsinə, milli oyanışa xidmət edən meyllərin artmasına imkanlar açmışdı. Bu imkanlardan Azərbaycanda xüsusən 70-ci illərdə geniş istifadə olunmuşdu. Bu dövrdə vətənpərvər, milli təəssübkeş, demokratik qüvvələr böyük vətəndaş, müdrik siyasətçi Heydər Əliyevin milli oyanış, iqtisadi və sosial tərəqqi siyasəti sayəsində xeyli inkişaf etdi. Respublikanın mənəvi və iqtisadi potensialı artdı. SSRİ-də baş verən proseslərin nə ilə nəticələnəcəyini uzaqgörənliklə qiymətləndirən Azerbaycan SSR-in rəhbəri gələcək müstəqil dövlətin iqtisadi, mənəvi bazasının, kadr potensialının yaradılmasına böyük qayğı göstərirdi. Böyük istedadı və uğurlu siyasəti sayəsində SSRİ hakimiyyətinin ən yüksək vəzifələrinədək ucalmış Heydər Əliyev bu imkanlardan xalqının iqtisadi və sosial tərəqqisi, milli oyanışı üçün məharətlə istifadə etmişdi.

İctimai-iqtisadi, xüsusən elmi-texniki tərəqqi baxımından dünyanın qabaqcıl dövlətlərinə nisbətən geri qalması, rəhbər siyasi təşkilatın daxildən çürüməsi və nüfuzdan düşməsi, habelə 80-ci illərin ortalarından başlayaraq həyata keçirilən islahatların kobud və səmərəsiz metodları, xüsusən milli siyasətdə yol verilən ciddi səhvlər, o cümlədən Azərbaycanın Dağlıq Qarabağ bölgəsində qəsbkar erməni separatizminin, milli münaqişə ocağının qızışdırılması, xalqların mərkəzdən narazılığının artması, demokratik hərəkatın inkişafı SSRİ-də dağılma proseslərini daha da sürətləndirdi. Sovet imperiyası süqut etdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi rəsmiləşdirildi. Azərbaycan tarixində yeni bir dövr başlandı, xalq müstəqil dövlət qurmaq üçün tarixi şans əldə etdi.

Lakin zəngin maddi və mənəvi sərvətləri, strateji geosiyasi mövqeyi olan Azərbaycanı öz nüfuz dairəsində saxlamaq və ondan bəhrələnmək istəyən imperiyapərəst qüvvələr respublikada müstəqilliyin ilk illərində siyasi təcrübəsi az olan insanların hakimiyyəti ələ keçirməsi nəticəsində yaranmış ümumi böhrandan istifadə edərək hər vasitəyə əl atmış, Dağlıq Qarabağda milli münaqişə iki xalq arasında qanlı müharibəyə çevrilmiş, tez-tez dövlət çevrilişlərinə cəhd baş vermiş və terror hadisələri törədilmişdir. Xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən respublikaya rəhbərliyə qayıdışı siyasi parçalanma və vətəndaş müharibəsi başlanmış ölkədə müstəqil dövlətçiliyin itirilməsi təhlükəsini aradan qaldırdı. Əldə olunan siyasi sabitlik, yaradılmış dövlət intizamı, dünyada baş verən qloballaşma proseslərinin düzgün qiymətləndirilməsi, düşünülmüş, tarazlı xarici siyasət, aparıcı dünya dövlətləri ilə əməkdaşlıq münasibətləri, müvəffəqiyyətli ordu quruculuğu, döyüş meydanlarında atəşkəs, davamlı sülh uğrunda mübarizə, Avropa sivilizasiyasının bazar iqtisadiyyatı, demokratiya və insan haqlarının müdafiəsi kimi mühüm şərtlərinin ardıcıl tətbiqi, cəsarətli siyasi və radikal iqtisadi islahatlar, xalqın mənəvi aləminin mütərəqqi milli və bəşəri dəyərlər əsasında zənginləşməsinə istiqamətləndirilmiş tədbirlər tarixin XX əsrin axırlarında Azərbaycana verdiyi şansdan daha səmərəli bəhrələnməyə şərait yaratdı. Azərbaycan Respublikası XXI əsrə dünya birliyinin bərabərhüquqlu və suveren üzvü kimi tutduğu müstəqillik və tərəqqi yolu ilə inamla addımlayan bir dövlət kimi qədəm qoydu.

## РЕЗЮМЕ

В седьмом томе "История Азербайджана" освещаются исторические события, охватывающие период с июня 1941 до начала 2003 гг. Том состоит из трех разделов. В первом разделе освещается роль Азербайджана в достижении победы Советской Армии над фашистской Германией в Великой Отечественной Войне 1941-1945 гг.

Азербайджанская ССР в составе Советского Союза принимала активное участие в Великой Отечественной войне против фашизма. В Азербайджанской ССР были созданы национальные воинские формирования, в ряды которых было мобилизовано около 70 тыс. граждан, более половины которых отдали жизнь за победу. Бакинские нефтяники полностью обеспечивали потребности Советской Армии в горючем и смазочных материалах. Баку стал подлинным арсеналом фронта. Здесь производилось более 130 наименований различного оружия и снаряжения. В республике была создана широкая сеть военных госпиталей, где самоотверженно боролись за жизнь воинов сотни высоко квалифицированных медицинских работников. Трудовой героизм проявляли труженики промышленности, транспорта, сельского хозяйства, ученые республики. Азербайджанцы являлись непосредственно активными участниками в важнейших битвах почти на всех фронтах Великой Отечественной войны, в партизанских отрядах, в антифашистском движении Европы, в движении Сопротивления, в освобождении территории СССР и стран Восточной Европы от фашистской армии, в войне против милитаристской Японии. За отвагу в боях против армии врага 121 сыновей Азербайджана, в том числе Ази Асланов, Исрафил Мамедов, Аслан Везиров, Владимир Абрамов, Адил Кулиев, Гафур Мамедов, Евгений Цыганов, Мехти Гусейнзаде, Зия Бунятов, Иван Ильясов, Халил Мамедов и др. получили высокое воинское звание "Герой Советского Союза", 30 воинов из Азербайджана были удостоены всеми тремя степенями ордена "Слава". Второй раздел тома охватывает историю Азербайджана 1946-1991 гг. Авторы показывают, что в послевоенные годы, в условиях усиления тоталитарного режима, приведших к серьезным социальным последствиям, в результате укрепления государственной дисциплины за короткий срок было восстановлено народное хозяйство. Дальнейшее развитие получили промышленность, сельское хозяйство, транспорт, строительство, связь. В республике выросли новые промышленные центры – Сумгаит, Мингечаур, Дашкесан, Али-Байрамлы. Однако создание новых промышленных центров, развитие новых отраслей промышленности в

республике планировались прежде всего с учетом требований единого народнохозяйственного комплекса всего Союза, что привело к одностороннему развитию, к углублению зависимости республики от диктата центра. В эти годы в республике получили бурное развитие энергетика, черная и цветная металлургия, нефтяное машиностроение, приборостроение, нефтехимическая и другие отрасли промышленности. Определенные успехи были достигнуты в области сельского хозяйства.

Удельный вес вклада Азербайджана в бюджет Союза значительно превышал получаемую им из бюджета долю. Азербайджан помогал другим республикам и регионам СССР сырьем, в деле открытия и разработки новых нефтяных месторождений, подготовкой квалифицированных кадров для нефтяных районов. Благодаря помощи нефтяников Азербайджана на карте СССР появились "Новые Баку".

Несмотря на идеологическое давление, в республике развивались наука (23 марта 1945 г. образовалась Академия Наук Азербайджана), образование, литература, искусство, средства массовой информации. Однако тоталитарный режим не смог превратить народ в монолитную, управляемую силу. Расхождение слова с делом, характерное для этого режима, способствовало духовному раздвоению общества. Возникло инакомыслие. Под влиянием культа личности пошла новая волна репрессий.

Руководство СССР, декларативно провозглашавшее интернационализм, на деле проводило политику дискриминации по отношению к ряду народов и наций, в том числе к азербайджанскому народу. Она сильно проявилась в организации несправедливой депортации азербайджанцев в 1948-1956 гг. с их исконных земель, на которых фактически в советское время под эгидой новой национальной политики "Дружбы народов" формировалась Армянская ССР. В Азербайджане же в эти годы происходил процесс возрастания удельного веса армян в общей численности населения. Для них под покровительством Москвы создавались благоприятные условия жизни.

Попытки проведения косметических реформ в политической системе страны в условиях сохранения старых методов управления экономикой в середине 50-х годов, а также экономические реформы при сохранении существовавшего политического режима в середине 80-х годов постепенно разрушали созданные за долгие годы тоталитарного режима порядок, стабильность и способствовали развитию демократических тенденций в общественной и социальной жизни. Политические реформы 50-х годов создали возможность выхода на политическую арену руководителей нового типа, роста идей национального возрождения. В Азербайджане эти

возможности широко использовались в 70-х - начале 80-х годов. Благодаря мудрой, дальновидной политике Гейдара Алиева, направленной на национальное возрождение, развитие экономики и социальной сферы, значительно возрос материальный, духовный и кадровый потенциал республики. Талант политика, трудолюбие вознесли Гейдара Алиева в руководство СССР - крупнейшим тогда государством мира. На постах первого заместителя председателя Совета Министров СССР и члена Политбюро ЦК КПСС он так же всесторонне заботился о развитии родной республики.

Однако, отставание СССР от передовых, развитых стран мира в общественно-экономической сфере, разложение общества внутри страны, потеря авторитета руководящей политической организации, которой являлась Коммунистическая партия, а также грубые и неэффективные методы реформ "горбачевской перестройки", начатые в середине 80-х годов, серьезные ошибки в национальной политике, в частности разжигание межнационального конфликта и армянского сепаратизма в Нагорно-Карабахской автономной области Азербайджанской ССР, рост недовольства народов республик, права которых нарушались, развитие демократического движения ускорили процесс распада СССР - "Советской империи". 18 октября 1991 года Азербайджанская Республика провозгласила свою подлинную государственную независимость.

Третий раздел тома посвящен становлению, развитию и укреплению признанного мировым сообществом суверенного национального государства - Азербайджанской Республики с октября 1991 - до начала января 2003 гг.

В первые годы независимости республика испытала большие трудности. Политическим кризисом, возникшим в результате деятельности неопытных в политике амбициозных сил, пришедших к власти, пытались воспользоваться заинтересованные в этом регионе государства, чтобы помешать укреплению Азербайджана как независимого государства. Конфликт между Арменией и Азербайджаном перерос в кровавую войну в Карабахе, привел к потере 20% территории Азербайджана, превращению более миллиона граждан в беженцев на своей Родине. В условиях политической нестабильности в Азербайджане совершались государственные перевороты, процветали насилие, террор.

Возвращение к руководству республики в июне 1993 года по настоятельному требованию народа Гейдара Алиева спасло Азербайджан от политического расчленения, от начавшейся уже гражданской войны, от потери независимости. Создание политической стабильности, укрепление государственной дисциплины, последовательное развитие демократии,

успешная внешняя политика, прекращение военных действий на фронте, борьба за справедливый и крепкий мир, установление отношений равноправного сотрудничества и партнерства с ведущими государствами мира, достойное представление Азербайджана в различных международных организациях, политика "открытых дверей", смелые и радикальные реформы, способствующие развитию рыночной экономики, создание условий для направления больших иностранных инвестиций в нефтяную промышленность и другие отрасли хозяйства, меры, направленные на укрепление духовного единства, развитие национальных ценностей открыли уникальные возможности для успешного продвижения народа Азербайджана по пути независимого демократического государства.

## XRONOLOJİ CƏDVƏL

**1941, 22 iyun** – Böyük Vətən Müharibəsinin başlanması

**1941, avqust** – 402-ci Azərbaycan milli diviziyasının yaradılması

**1941, oktyabr** – 223-cü Azərbaycan milli diviziyasının yaradılması

**1941, 11 dekabr** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə İsrafil Məmmədova Sovet İttifaqı Qəhrəmanı adının verilməsi

**1942, yanvar** – Azərbaycan KP MK və Azərbaycan SSR XKS-nin qərarı ilə yaralı əsgər və komandirlərə Azərbaycan Respublika Yardım Komitəsinin təşkil edilməsi

**1942, fevral-mart** – 416-cı Azərbaycan milli diviziyasının yaradılması

**1942, may** – 77-ci Azərbaycan milli diviziyasının yenidən komplektləşdirilməsi

**1942, 25 iyul; 1943, 9 oktyabr** – Qafqaz uğrunda döyüş

**1942, 23 avqust** – Zaqafqaziya xalqlarının Tbilisidə antifaşist mitinqinin keçirilməsi

**1942, avqust-sentyabr** – 271-ci Azərbaycan milli diviziyasının yaradılması

**1942, 9 sentyabr** – SSRİ Ali Soveti Rəyasət Heyətinin Zaqafqaziyada hərbi vəziyyət elan olunması haqqında fərmanı

**1942, 27 sentyabr** – Zaqafqaziya gəncləri nümayəndələrinin antifaşist mitinqi

**1942, 22 dekabr** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Həzi Aslanova birinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi

**1943, 21 aprel** – Azərbaycan xalqının azərbaycanlı döyüşçülərinə məktubu

**1943, 30 avqust** – 416-cı atıcı diviziyasına "Taqanroq" fəxri adının verilməsi

**1943, sentyabr** – 271-ci Azərbaycan milli diviziyasına "Donetsk" əməliyyatında rəşadətinə görə, fəxri "Qarlovka" adının verilməsi

**1943, 24 oktyabr** – Melitopol şəhərinin azad olunmasında alman faşistlərinə qarşı göstərdikləri qəhrəmanlığına görə 416-cı "Taqanroq" diviziyasının "Qırmızı Bayraq" ordeni ilə təltif olunması

**1943, 28 noyabr-1dekabr** – SSRİ, ABŞ və İngiltərə dövlət başçılarının Tehran konfransı

**1943, noyabr** – Azad olunmuş rayonlara kömək göstərmək üzrə Azərbaycan Respublika Komitəsinin yaradılması

**1944, 14 aprel** – SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsinin təşkil olunması

**1944, 24 aprel** – SSRİ Ali Soveti Rəyasət Heyətinin S.Orconikidze adına 77-ci atıcı diviziyasına "Simferopol" adının verilməsi və onun II dərəcəli Suvorov ordeni ilə təltif olunması haqqında fərmanı

**1944, 26 aprel** – Azərbaycan SSR-nin ictimai heyvandarlığın inkişafında əldə etdiyi nailiyyətlərə görə DMK-nın bayrağı ilə təltif edilməsi

**1944, 1 may** – "Qafqazın müdafiəsi uğrunda" medalının təsis edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı

**1945, 4-13 fevral** – SSRİ, ABŞ və İngiltərə dövlət başçılarının Yalta (Krım) konfransı

**1945, 27 fevral** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Ziya Bünyadova Sovet İttifaqı Qəhrəmanı adının verilməsi

**1945, 23 mart** – Azərbaycan EA-nın təsis edilməsi

**1945, aprel** – Nizami adına Ədəbiyyat Tarixi Muzeyinin açılması

**1945, 6 may** – Mingəçevir SES-in tikintisinin bərpa olunması haqqında SSRİ XKS-in qərarı

**1945, 9 may** – Qələbə günü

**1945, 28 may** – SSRİ Dövlət Müdafiə komitəsi tərəfindən "Bakıda neft hasilatını artırmaq tədbirləri haqqında" qərarın qəbul edilməsi

**1945, 17 iyul-2 avqust** – SSRİ, ABŞ, İngiltərə dövlət başçılarının Postdam konfransı

**1945, 20 avqust** – Mingəçevir su anbarının tikintisinə başlanması

**1945, 12 dekabr** – Cənubi Azərbaycanda xalq hakimiyyətinin qurulması

**1946, 5 yanvar** – SSRİ XKS-nin "Bakı şəhər təsərrüfatını yaxşılaşdırmaq tədbirləri haqqında" qərarının qəbul edilməsi

**1946, 16 mart** – Daşkəsən şəhərinin salınması

**1946, may** – "Pioner" jurnalının nəşrə başlaması

**1946** – Gəncədə Nizami Gəncəvinin məqbərəsinin açılması

**1946, 15 avqust** – Azərbaycan SSR Ali Sovetinin VIII sessiyasında 1946-1950-ci illərdə Azərbaycan SSR xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi ilə bağlı beşillik plan haqqında qanunun qəbul edilməsi

**1946, 20 dekabr** – Cənubi Azərbaycanda xalq hakimiyyətinin devrilməsi

**1947, mart** – Bakı Elektrik Maşınqayırma Zavodunun işə salınması

**1947, 23 dekabr** – SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərarın verilməsi

**1948, 10 mart** – SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 saylı qərarının qəbul edilməsi

**1948, iyun** – Xarici Dillər İnstitutunun yaradılması

**1948, 11 noyabr** – Mingəçevir şəhərinin salınması

**1949, 7 may** – SSRİ Nazirlər Soveti tərəfindən "Azərbaycan SSRİ-də dəniz neft yataqlarının kəşfi və işlənməsini üzən vasitələrlə təmin etmək haqqında" qərarın qəbul edilməsi

**1949, 31 oktyabr** – SSRİ Nazirlər Sovetinin "Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfi və istismara verilməsi işinin yaxşılaşdırılması tədbirləri haqqında" qərarının qəbul edilməsi

**1949, noyabr** – Neft daşları rayonunda ilk dəniz neft quyusunun qazılması

**1949, 21 noyabr** – Sumqayıt şəhərinin salınması

**1950, 7 iyun** – SSRİ Nazirlər Soveti "Xırda kolxozların iriləşdirilməsi haqqında" qərarın qəbul edilməsi

**1950, 1 noyabr** – Bakıda Azərbaycan Politexnik İnstitutunun açılması

**1950, 30 noyabr-9 dekabr** – Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti günlərinin keçirilməsi

**1951, 10 sentyabr, 1951, oktyabr** – Azərbaycan Respublikası Sülhü Müdafiə Komitəsinin yaradılması; Bakı mahud kombinatının işə düşməsi

**1951 -** Qaradağ sement zavodunun işə salınması

**1952, 19 dekabr** – M.F.Axundov adına Azərbaycan Dövlət Pedoqoji İnstitutunun təşkil edilməsi

**1952, 15 iyul** – "Kirpi" jurnalının nəşrə başlaması

**1952** – Helsinkidə keçirilən V Yay Olimpiya oyunlarında azərbaycanlı güləş ustası Rəşid Məmmədbəyovun Azərbaycan idman tarixində ilk olimpiya çempionu (gümüş medalçı) olması

**1952, 15 avqust** – Sumqayıt sintetik kauçuk zavodunun ilk növbəsinin işə salınması

**1952, 31 dekabr** – Sumqayıt boru-prokat zavodunda ilk məhsulun istehsalı

**1953, 1 aprel** – Yeni Bakı Neftayırma zavodunun istismara verilməsi

**1954, 10 yanvar** – Mingəçevir SES-in işə düşməsi

**1954, 16 yanvar** – İ.D.Mustafayevin Azərbaycan KP MK-nın Birinci katibi seçilməsi

**1954, 31 iyul** – SSRİ Nazirlər Soveti və Sov.İKP MK-nın "1955-1960-cı illlərdə Azərbaycan SSR-in kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" qərarının qəbul edilməsi

**1954** – Şüvəlanda "Şimal DRES"in istifadəyə verilməsi

**1954** – Horadiz qəsəbəsində pambıqtəmizləmə zavodunun tikilməsi

**1955, 8 mart** – Sumqayıt alüminium zavodunun istifadəyə verilməsi

**1956, 14 fevral** – Bakı telestudiyasının işə düşməsi

**1957, 27 mart** – Azərbaycan qadınlarının II qurultayının açılması

**1957, 11 aprel** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə partizan Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adının verilməsi

**1957, iyun** – Azərbaycan Xalq Təsərrüfatı Şurasının (AXTŞ) yaradılması

**1957, iyul** – SSRİ Nazirlər Soveti və Sov.İKP MK-nın "Azərbaycan SSR-in dağlıq, dağətəyi və sərhəd rayonları kolxozlarına kömək göstərmək haqqında" qərarının qəbul edilməsi

**1958, yanvar** – "Göyərçin" jurnalının nəşrinə başlaması

**1958, 31 mart** – SSRİ Ali Sovetinin "Kolxoz quruluşunu daha da inkişaf etdirmək və maşın-traktor stansiyalarını yenidən təşkil etmək haqqında" Qanunun qəbul edilməsi

**1959, iyul** – V.Y.Axundovun Azərbaycan KP MK-nın Birinci katibi seçilməsi

**1959** – Əli-Bayramlıda yeni istilik-elektrik stansiyasının tikintisinə başlanması

**1959, 5 noyabr** – Bakı şin zavodunun işə düşməsi

**1960** – Mingəçevir pambıq-parça fabrikinin istismara verilməsi

**1960** - Bakı-Tbilisi-Yerevan magistral qaz kəmərinin tikintisinin başa çatması

**1961, yanvar** – "Elm və həyat" jurnalının nəşrinin başlanması

**1962** – Bakı-Krosnovodsk gəmi-bərə yolunun açılması

**1962, may** – M.Ə.Sabir poeziyası günlərinin hər il keçirilməsi ənənəsinin qoyulması

**1964, 29 may** – SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Azərbaycan SSR-in Lenin ordeni ilə təltif edilməsi

**1964** – Bakıda "Qız qalası" muzeyinin açılması

**1965** – Bakı Dəniz Neft və Qaz Yataqları Kəşfiyyatı İdarəsinin yaradılması

**1965, sentyabr** – Azərbaycan Xalq Təsərrüfatı Şurasının (AXTŞ) ləğv edilməsi

**1967** – Yevlax-Bərdə-Ağdam dəmir yolu xəttinin istismara verilməsi

**1967, yanvar** – "Ulduz" jurnalının nəşrə başlaması

**1967, 30 noyabr** - Bakı metropoliteninin ilk 6 stansiyasını işə salınması

**1968, 1 sentyabr** – Əli Bayramlı DRES-in istifadəyə verilməsi

**1969, yanvar** – "Qobustan" jurnalının nəşrə başlaması

**1969, 14 iyul** – H.Ə.Əliyevin Azərbaycan KP MK-nın Birinci Katibi seçilməsi

**1970, yanvar** – Bakıda "Sovet türkologiyası" jurnalının nəşrə başlaması

